QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

V CİLD

BAKI–2012

Elm əvvəli görünən, sonu görünməyən bir aləmdir. Bu aləmdə hərə bir yolla gedir. Hərə bir nəticəyə gəlir. Yenilik görülmüş işlərin sayəsində yaranır.

QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

V CİLD

«TƏHSİL»
BAKI–2012

Redaktorlar: **Teymur Bünyadov,**
akademik
Asif Rüstəmli,
filologiya elmləri doktoru

Rəyçilər: **Ərşad Hürmüzlü,**
Sərvaz Hüseynoğlu

Qəzənfər Paşayev
P 26 Seçilmiş əsərləri. V cild. Bakı, «Təhsil», 2012, 624 səh.

Professor Qəzənfər Paşayevin «Seçilmiş əsərləri»nin V cildinə «Deyilən söz yadigardır» başlığı altında radio, televiziya və müxtəlif tədbirlərdə etdiyi çıxışları, «Tarixə çevrilən yaddaş» bölməsində məktubları, «Həqiqətin özü» başlığı altında müsahibələri, «Elmimizə təmənnasız xidmət» bölməsində isə doktorluq və namizədlik dissertasiyalarına opponent rəyləri, maraqlı məqalələri, eləcə də müəllifin həyat və yaradıcılığına işıq tutan yazı daxil edilmişdir.

P $\frac{4702060204}{053}$ 2012

© «Təhsil», 2012

DEYİLƏN SÖZ YADİGARDIR

DEYİLƏN SÖZ YADİGARDIR…*

Sevimli şairimiz Səməd Vurğunun bu müdrik kəlamı ətrafında düşünərkən qəribə bir mənzərə ilə üzləşdim. Yaradıcı adamların vaxtının böyük bir hissəsi görkəmli yazıçılar, şair və alimlərin yubileylərinə, doğum və anım gününə, eləcə də kitabların təqdimatına həsr olunan yığıncaqlarda keçir və iş təkcə iştirak edərək ehtiram göstərməklə bitmir. Orada maraqlı, düşündürücü və ibrətamiz çıxışlar da edirlər. Təəssüf ki, həmin çıxışlar çıxış olaraq qalır. Olsa-olsa mətbuatda tədbir haqqında məlumatda yazılır ki, filankəslər çıxış etdilər. Unudulmaz xatirəyə çevrilən ilk çıxışım barədə düşünürəm. Elmə, biliyə, ədəbiyyata böyük maraq göstərilən XX əsrin ikinci yarısının 60-cı ili idi. Dillər İnstitutunda 3-cü kursda oxuyurdum. Görkəmli ədibimiz Süleyman Rəhimovun 60 illik yubileyi münasibəti ilə institutumuzda keçirilən tədbirdə tələbələr adından çıxış etdiyim, «Saçlı» romanının ilk çap tarixi üstündə Nəbi Xəzri ilə mübahisəm, Süleyman müəllimin mənim tərəfimi, daha doğrusu, həqiqətin tərəfini saxlaması, Rəsul Rzanın «Bu oğlandan nəsə olacaq» deyərkən, zalda yüksələn, xeyriməmi, ziyanımamı olduğunu anlamadığım gülüş səsləri yaddaşımda (təəssüf ki, yalnız yaddaşımda) silinməz izlər buraxıb. Taleyə bax ki, Rəsul Rzanın, bəlkə də, şair fəhmi ilə dediyi bu sözlərdən cəmisi səkkiz il sonra – 1968-ci ildə həyatımda ən əlamətdar hadisə olan, Azərbaycanda və İraqda səs salan «Kərkük bayatıları» kitabını birgə çap etdirdik. O ki, qaldı mənə aylarla nəşə verən, tələbələrimizin yaxşı mənada həsədinə səbəb olan həmin çıxışıma, onun təfsilatını unutmuşam. Yadımda qalan odur ki, Süleyman müəllimin saçlarının ağlığını nəzərə alaraq onu zirvəsi qarla örtülü qocaman dağa bənzətdim. Ağ saçları öz

* Bax: «Ədəbiyyat qəzeti», 24.07.09.

zəhməti ilə qazandığına işarə ilə B.Vahabzadənin «Qara saçlar, ağ saçlar» şeirini əzbərdən dedim. Onda Süleyman müəllimin saçının dümağ olmasının və ya cəmi 50 il yaşamış Səməd Vurğunun 100 yaşlı əldən düşmüş qocaya bənzəməsinin səbəbini dərk etmirdim. Sistem bizi o qədər manqurtlaşdırmışdı ki, bunun fərqinə varmaq zor idi. Heyif, unudularaq yaddaşlardan silinən, mənim üçün çox əziz olan həmin çıxışıma. Vaxt gələcək indiki çıxışlarım da (başqalarının çıxışları da) unudulacaq.

Göz önünə lap son illərdə yazıçı, şair və ədəbiyyatşünas alimlərimizin yubileylərində, doğum və anım günlərində, kitabların təqdimatı mərasimlərində, radio və televiziya kanallarında çıxışlarım gəlir. Xalq qarşısında böyük və danılmaz xidmətləri olan şairlərimizdən Səməd Vurğun, Rəsul Rza, Nigar Rəfibəyli, Qasım Qasımzadə, Hüseyn Arif, Tofiq Bayram, Nəriman Həsənzadə, Fikrət Qoca, şair-tərcüməçi Vladimir Qafarov, yazıçılardan Mir Cəlal, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Əzizə Cəfərzadə, Manaf Süleymanov, Anar, Elçin, Fərman Kərimzadə, Əli İldırımoğlu, İsi Məlikzadə, Əlibala Hacızadə, Nahid Hacızadə, ədəbiyyatşünaslardan Abbas Zamanov, Yaşar Qarayev, Bəkir Nəbiyev, Gülrux Əlibəyli, Əjdər Xanbabayev, İmamverdi Əbilov, Ayaz Vəfalı, İlyas Tapdıq, Xeyrulla Məmmədov və bir çox başqa görkəmli şəxsiyyətlər barədə çıxışlarım (mən hələ akademiklərdən Budaq Budaqov, Ziyad Səmədzadə, Vasim Məmmədəliyev, Bəhram Əsgərov, Tofiq Hacıyev, professorlardan Müseyib Müseyibov, Camal Mustafayev, Qəzənfər Kazımov, Cəfər Quluzadə və s. kimi başqa elm sahəsinin adamlarını demirəm), nə gizlədim, mənə fərəh, sevinc və qürur hissi bağışlayıb. Eyni zamanda təmənnasız zəhmətimin izsiz qalması barədə düşünmüşəm. Ürək ağrısı ilə düşünmüşəm ki, rəsmi dövlət səviyyəsində keçirilən tədbirlərdəki çıxışlar xaric, yerdə qalanlar unudulmağa məhkum olurlar.

Baxmayaraq ki, onların bir çoxunda ədəbiyyatımız üçün gərəkli olan mətləblər qədərincədir. Məhz buna görə də düşünürəm ki, ədəbi məclislərdə, doğum və anım günlərində, yas mərasimlərində görkəmli şəxsiyyətlərimiz, qələm sahiblərimiz, alimlərimiz barədə səslənən fikirləri, çıxışları it-bat olmaqdan qoruyaraq gələcək nəsillərə yadigar qoymaq faydalı olardı. Texniki vasitələrin möcüzələr yaratdığı zəmanəmizdə bu işin öhdəsindən gəlmək o qədər də çətin olmazdı. Nə yaxşı ki, Sovet dönəmində çıxışlar radio və televiziyaya yazılı şəkildə təqdim olunurdu. Həmin çıxışların surəti məndə qaldığından köməyimə gəldi. Xatirələri təzələdi.

Deyilənləri nəzərə alaraq çıxışlarımdan bəzisini oxuculara təqdim edirəm.

KÖNÜLDƏN-KÖNÜLƏ YOLLAR GÖRÜNÜR

Televiziya ilə çıxışım
05.02.1967

Əgər deyiriksə:

«El bilir ki, sən mənimsən,
Yurdum-yuvam məskənimsən».

gözlərimiz qarşısında vətən torpağı, onun Mili, Muğanı, Astarası, Lənkəranı, gözəl Qarabağı, Şuşa qalası, Şah dağı, İsa bulağı, işıqlar şəhəri Bakısı və ən nəhayət, onun Vurğunu canlanır. Bəs:

Əslim Qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Kəsilib gəlib, gedən,
Demə yollar bağlıdır –

dedikdə nə düşünürük? Bayatı harada yaranmışdır? Vətəndən uzaq düşən kimdir? Kəsilən hansı yollardır?

Bu bizim:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Bağdad cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ –

bayatısından fərqlənirmi?

Bayatı Bağdad, Gəncə – yolu üzərində məskən salan, Gəncədən söhbət açan:

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən uzağam,
Məhəbbət ölüncədi.

– deyən, bizə çox yaxın və uzaq olan kiçik bir xalq tərəfindən yaradılmışdır. Bu xalq İraq respublikasının əsasən Şimalında yaşayır və özünü türkman adlandırır. İraq-azəri tarixçisi Şakir Sabir bu münasibətlə yazır: «Biz qeyri-türk xalqları əhatəsində olduğumuza görə başqa xalqların nümayəndələrinin sən kimsən sualına mən türk və ya «türkman» deyə cavab vermişik və sonra da adımız türkman deyə qalmışdır». Tarixin müəyyən tələtümlərinə – burulğanlarına düşərək gedib orada məskən salmış bu elat, azəri dilində danışır. Onlar əsrlərlə bizdən ayrı yaşasalar da danışıqlarında azəri dilindən fərqlənən əsaslı bir fərqə rast gəlinmir. İraq azəriləri arasında folklor aləmində ən görkəmli sima olan Əta Tərzibaşı yazır:

«Bizim ləhcə azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın və bağlı, ekiz qardaşlar olmaqla bərabər, bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə biri-birindən xəbərsiz olaraq gəlişdikləri halda aralarında gökəmli fərqlər bilinməmişdir». Türkiyə Yuqoslaviya iqtisadi əlaqələr cəmiyyətinin sədri Mir oğlu Cəmil yazır: «Möhtərəm molla Sabir bəy Əfəndinin şimdiyə qədər kitab halında nəşrə müvafiq olduğu kitablardan görülür ki, dil, Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmənhəmən fərqsizdir. Və bu etibarla Türkiyədə anlaşılması və zövqünə varılması güc deyildir».

Müəllim Vəhabi Aşqun isə 1954-cü il 5 martda İstanbulda çıxan «Dünya» qəzetində yazırdı:

«İlk kitabda olduğu kimi bu kitabdakılar da azəri ləhcəsindədir. Hələ şu deyişlər onun canlı bir bilgisidir.

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim bedasil yarım,
Bilməm harada qaldı.

Azərilər ölkənin Şimalında Kərkük vilayətində Ərbil, Altun Köprü, Qara təppə, Tiləfər, Tuz xurmatu, Daquq, Kifri, Məndəli, Xanaqin, və sairə kimi şəhər, qəsəbə və kəndlərdə yaşayırlar. Quberniyanın mərkəzi Kərkük şəhəridir. Burada 153 min adam yaşayır. Xasa çayı şəhəri iki yerə bölür.

Maraqlıdır ki, onlar da vətənin guşələrini bizim kimi Ağsu, Ağdaş, Qarabağ, Qaraqoyunlu və Bayat kəndləri adlandırmışlar. Burada Şirvanşah qalasına da rast gəlirik (xəritədə göstərməli).

Onların sayı haqqında dəqiq məlumat vemək çətindir. Ərəblər onların 140 min olduqlarını göstərirlər. Bizcə, bu həqiqətdən çox uzaqdır. Moskvada çap olunmuş «İraq keçmişdə və indi» kitabının müəllifi Dantsın yazır:

«Əhalinin ümumi hesaba alınması düzgün məlumat vermir. Bu onunla izah olunur ki, rəsmi statistika idarələri hakim millətin sayını artıq göstərməyə çalışırlar».

Bu həqiqəti xalq şairi Rəsul Rza da İraqda olarkən yaxşı hiss etmiş və 1961-ci il «Azərbaycan» jurnalının 9-cu nömrəsində bu məsələyə toxunmuşdur. Özlərinin qeyri-rəsmi hesablamalarına görə sayları yarım milyondan artıqdır.

Onlar qeyri-türk millətləri əhatəsində olsalar da, azlıq təşkil etsələr də, dövlət dili, ana dilləri olmasa da, öz dillərini saxlaya bilmişlər. Bu məsələyə münasibətlərini bayatıda görün nə gözəl ifadə etmişlər.

Dilə dəyər,
Yaban söz, dilə dəyər.
Laylanın şirin dadı,
Beş min yad dilə dəyər.

Səid İrmaq «Qardaşlıq» jurnalında böyük bir məqalə ilə çıxış edərək göstərir ki, vətən torpağı daralıb genişlənə bilər. Onun sərvəti əldən çıxa bilər, tarixi təhrif edilə bilər. Hətta

şan və şərəfi tapdalana bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir.

Doğrudan da, onların dialekti dəyişməmiş qalmışdır. Bu dialekt Azərbaycan dili tarixinin öyrənilməsi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Bu dialektdə hələ «Kitabi-Dədə Qorqud» zamanında dilimizdə işlənən, sonralar zaman keçdikcə dilimizdən çıxan bir çox maraqlı hadisələrə, sözlərə rast gəlirik. Məhz buna görədir ki, İraqda olduğum müddətdə professor Şirəliyevin rəhbərliyi ilə onların dialekti üzərində müşahidə aparmışam. Müşahidədən sonra belə bir qənaətə gəlməli oldum ki, nəinki dillərimiz, hətta adət-ənənələrimiz, oyunlarımız keçmişdən qalmış inanclarımız, tapmacalarımız, atalar sözlərimiz, bayatılarımız və ən nəhayət, musiqimiz arasında elə bir fərq yoxdur. İndi onların «Gözələ bax, gözələ» mahnısına qulaq asın.

Az-çox rast gəldiyimiz bir fərq milli geyimdə duyulur. Bəlkə, bu ayrı düşdüyümüz illərin, əsrlərin izidir?! Bu fərq kişi geyimində daha çox özünü göstərir. Bu gördüyünüz milli qadın geyimidir. Bu gördüyünüz isə kişi geyimidir. Bu gördüyünüz isə milli qız geyimidir.

Maraqlıdır ki, yaşadıqları yerdən asılı olaraq yerli geyimlər arasında da az-çox fərqə rast gəlirik. Bu Mosulda yaşayan azərilərin geyimidir. Bu isə Dialə vilayətində Qızlarabad kəndində yaşayan azərilərin şəkilidir.

Ölkədə dövlət dili ərəb dilidir. Bütün idarələrdə iş, məktəblərdə dərs ərəb dilində getdiyinə görə öz dillərində qəzet, jurnal və sairə çap etmək çətindir. Lakin onlar çətinliyə sinə gərir, öz irslərinin itib-batmaması üçün əllərindən gələni edirlər. Bu gördüyünüz kitabların hamısını onlar öz hesabına çap etdirmişlər. Bu işdə molla Sabirin, Ovqat Əta Tərzibaşının, Şakir Sabirin, Rza Dəmirçinin, Məhəmməd Xurşid, Məhəmməd Əzzət və başqalarının rolu böyükdür. Bunların arasında Ovqat Əta Tərzibaşı xüsusilə fərqlənir.

O, onlarca kitab müəllifidir. İndi onların yarı ərəb, yarı azəri dilində çıxan yeganə «İraq» qəzeti Şakir Sabirin rəhbərliyi ilə çap olunur. Xalqın həyatında böyük rol oynayan «Qardaşlıq» jurnalı da yarı ərəb, yarı türkcə çıxır. Bu jurnalın yalnız folklor hissəsi onların öz dialektlərində; yəni azəri dilində çıxır. Bu jurnal Bağdad «Qardaşlıq» nadisində (klub) çıxır. Bu nadi onların həyatında qabaqcıl rol oynayır. Belə ki, nadidə böyük kitabxana, oxu zalı, televiziya, radio otaqları, idman zalları, restoran vardır. Göründüyü kimi nadi bizim mədəniyyət evlərini andırır. Gənclər dərsə burada hazırlaşırlar. İldə bir dəfə nadidə Kərkükdən Bağdada təzə oxumağa gələn tələbələrlə tanışlıq gecəsi keçirilir. Gecədə böyük konsert verilr. Konsertdən yığılan pulu ehtiyacı olan tələbələrə paylayırlar. Nadinin əməkdaşları Bağdada oxumağa gələn tələbələr üçün xüsusi ev tutur, həmişə onlara göz-qulaq olurlar.

Bəs, onların bizə – Əta Tərzibaşı demişkən – «Əkiz qardaşlarına» münasibətləri necədir? Hər şeydən əvvəl, Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadənin Füzulinin 400 illiyi ilə əlaqədar olaraq, İraqa səfəri və Kərküklü qardaş Sinan Səidin Azərbaycan radiosuna işə gəlməsi aramızda yaxşı bir körpü yaratmışdır. İndi «Qardaşlıq» nadisində Vurğunun, seçilmiş əsərlərinə, Rəsul Rza, Nəbi Xəzri və Bəxtiyar Vahabzadənin ayrı-ayrı əsərlərinə, Həmid Araslının Füzuli haqqında olan kitablarına, ön fərəhlisi isə Sabirin «Hop-hopnamə»sinə rast gəlirik. Mən ikinci dəfə İraqa gedəndə isə bir çox yazıçı və şairlərimizin əsərlərini apardım. Lakin o kitabların çoxunu nadiyə bağışlamaq mənə müəssir olmadı. Çünki dostlarım kitabları əlimdən aldılar. Kitablar bizim əlifba ilə olduğuna görə onlardan az müddət ərzində Hüseyn Cüneyd, Əhməd Otraqçı oğlu, Mövlud Qayaçı, Barmaqsız Sübhi və başqaları bizim əlifbanı öyrəndilər. Xoşlarına gələnləri radioda verirdilər.

Hər gün Bağdadda üç saatlıq radio verilişləri təşkil edirlər. Hər həftənin dördüncü günü isə bir saatlıq «Dərədən-təpədən» adlı ədəbi veriliş təşkil edirlər. Keçən ilin əvvəllərində gözəl bir musiqili veriliş təşkil etmişdilər. Bu C.Məmmədquluzadənin «Poçt qutusu» idi.

Bizim ədəbiyyatla bərabər, musiqimizi də çox sevirlər. Həmişə Bakı radiosuna qulaq asırlar. Musiqimizi dinləməklə bərabər, müğənni Əbdül Vahid Kuzəçi oğlu Azərbaycan mahnılarını radioda oxuyur. Maraqlıdır ki, Əbdül Vahid, hətta S.Vurğunun «Azərbaycan» və «Gülə-gülə» şeirlərinə musiqi bəstələmişdir. İndi Əbdül Vahidin səsinə və ifasında «Gülə-gülə» mahnısına qulaq asın.

Mən böyük təəssüf hissi keçirirəm ki, mahnı musiqi ilə müşayiət olunmur. Mən bilmirdim ki, o, doğrudan da, belə bir iş görmüşdür. Mən Vətənə yola düşərkən məni yola salanlardan biri də Əbdül Vahid idi. Mən elə onda onun səsini lentə yazdım (Mahnı).

Ümumiyyətlə, S.Vurğunu onlar da çox sevirlər. Hətta ona şeirlər də qoşurlar. Səməd Vurğunun II cildliyini Əhməd Otraqçıya bağışlamışdım. O, S.Vurğunun şəklinə baxaraq bədahətən dedi:

Bu sular durğun-durğun,
Mən səni gördüm yorğun.
Kərkükdən salam olsun,
Tək şair Səməd Vurğun.

«Qardaşlıq» jurnalında bizim ədəbiyyata da yer verilir. Müəllim Məhəmməd Xurşid Sabirin həyat və ya yaradıcılığı haqqında böyük bir məqalə çap etdirmişdi. Bu jurnalın səhifələrində tez-tez bizim bayatılarımıza rast gəlirik. Maraqlıdır ki, bu jurnalda Aşıq Ələsgərin «Düşdü» qoşması və onun haqqında qısa bir yazı vemişdilər. Bu jurnalda Sabirin

«Əzrayılın istefası» şeiri çap olunmuşdu. Bu şeiri orada çoxları əzbər bilir (jurnalları göstərirəm). Şeiri oxuyuram.

Bu jurnal çox dolğun, hərtərəfli jurnaldır. Jurnalda xoşuma gələn cəhətlərdən birini qeyd etmək istərdim. Bizdə hələ də rast gəldiyimiz Qaraş, Yapon, Noxud, Donduş, Paket, Anket, Raykom, Sədr, Ququş, Quşdan və sairə kimi adlara onlarda rast gəlmirik. Ona görə ki, həmin jurnalın axırında əksər hallarda hamının xoşuna gələn adların siyahısını verirlər və valideynlər bu adlardan lazım olduqca istifadə edirlər.

İraq azəriləri arasında hələlik roman, povest, bir sözlə, böyük həcmli əsərlər yazanlar yoxdur. Lakin yaxşı şeirlər yazan Məhəmməd Əsəd, Seyid Qasim, Seyid Mahmud, Abdulla Safi, Hicri Dədə, Əbdülqadir Faiz, Əli Maruf, Mustafa Kök Qaya, Məhəmməd Əzzət, Məhəmməd Sadiq və sair şairlər yetişmişdir. Məhəmməd Sadiqin yaşı səksəni keçsə də yenə yazır. Onun «Düşüncələrim» və «Coşqun duyğular» adlı iki böyük həcmli şeirlər kitabı çap olunmuşdur. Onlar son vaxtlara qədər əruz və heca vəznlərində şeirlər yazırdılar. Lakin indi sərbəst vəzndə şeirlər yazanlara da rast gəlirik. «Qardaşlıq» jurnalında sərbəst vəzn haqqında məqalələr verilir. Şair Əli Maruf jurnalda çap olunan böyük həcmli məqaləsində belə qənaətə gəlir ki, sərbəst vəzində şeir yazmaq, mürəkkəbdən sadəliyə getmək deməkdir. Lakin sərbəst vəzndə şeir yazmağa heca vəzndə yaxşı yazmağı bacardıqdan sonra keçilməlidir – deyir.

Radionun işçisi Nihad Auçun məndən Mayakovsi və R.Rzanın həyat və yaradıcılığı haqqında bir məqalə istədi. Mən həmin yazını onun üçün hazırladım. O, məqaləni radioda oxudu.

Onlar əruz, heca vəzndə sərbəst şeirlər yazsalar da şifahi xalq ədəbiyyatı onların həyatında qırmızı bir xətt kimi keçir.

Bunların arasında bayatılar və atalar sözləri xüsusilə fərqlənirlər. Yəqin ki, sizin çoxunuz 1961-ci il «Azərbaycan» jurnalının doqquzuncu nömrəsində xalq şairi R.Rzanın onların bayatılarından verdiyi örnəkləri və çox dərin mənalı məqaləsini oxumusunuz. Xalqın istək, arzu, sevinc, kədər, kin və küdurətini ağır və əzablı günlərini, həqiqi dostluq, insanpərvərlik, sədaqət, hömət, ehtiram və başqa nəcib hissələri əks etdirən bu dörd misralı şeir parçaları – xoyratlar nə qədər dərin mənaya, hikmətə malikdir. Bu bayatılarda Vətən, dərdi, Vətənə məhəbbət hisləri çox qabarıq verilmişdir.

Yad əlində,
Qalmışıq yad əlində,
Bir ölkə viran olsun,
Qalmasın yad əlində.

Altundur daşın, Kərkük!
Qurut göz yaşın, Kərkük!
Birləş qardaşlarınla
Yüksələr başın, Kərkük!

Yandı Kərkük,
Atəşə yandı, Kərkük.
Onunçün mən ağlıram,
Dostlardan yandı Kərkük.

Onlarda bir çox qocaman bayatı deyən və onu avazla oxuyan xoyratçılar yetişmişdir. Muçala, Mal Alla, Rəşid Rza, Mustafa Qəlai və başqaları belə ustalardandır.

Bütün bayatılarda bir həsrət, bir intizar duyulmaqdadır.

Dağlar duman oldu, gəl
Halım yaman oldu, gəl.
Aylara vədə verdin
İllər tamam oldu, gəl.

Divara daş qoymuşam,
Uğrunda baş qoymuşam.
Gözlərimdən qan gəlir,
Adını yaş qoymuşam.

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

İndi İraq azəriləri arasında yazıb yaratmağı bacaran hər kəs bayatı yazır. Onların arasında 19 yaşlı (şəklini göstərməli) Fərrux Hisamətdin özünəməxsus xüsusi bir yer tutur. Fərrux hiss etdiyini, duyduğunu yazır. Hələ körpəlikdən yetim qalan Fərrux deyir:

Necə dağlar,
Qarşıda necə dağlar.
Yetim yanağı bilir
Göz yaşı necə dağlar.

Qara gün,
Ərir vursa qara gün.
Dağlar yanar gül olar,
Bir gün görsə qara gün.

Dağ bəzəyir,
Qar yağır dağ bəzəyir
Mən bəzəyi neylirəm
Sinəmi dağ bəzəyir.

Bayatılar qəlblərə elə yol tapmış, orada özünə elə məskən salmışdır ki, hətta mahnıları belə bayatılarla – muğamla başlayırlar. İndi Bəşiri xoyrat üsulu ilə başlayan mahnıya qulaq asın (mahnı).

Atalar sözləri də İraq azəriləri arasında geniş yayılmışdır. Bu xalq hikməti dərin mənaya malik olmaqla bərabər, həm də şeir kimi axıcıdır.

Yoldaş tanı, yola var, yolda yüz min bəla var.
Əski pambıq bez olmaz, əski düşmən düz olmaz.
Görməmiş gördü gümüş, oldu qudurmuş.
Çox danışan, çox çaşar.
Xarab qardaş, qara daş.
Kor gözündən yaş, molla evindən aş çıxmaz.
Qarpız yeyən qurtuldu, qabıq yeyən tutuldu.
Analı qız bəlli qız, anasız qız dəlli qız.
Ağız yeyər, üz utanar.

Tərəzin əyiləndə, hər gələn bir daş atar.
Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən.
Qonşu aşı könül xoşu, olmasa daha yaxşı.
Qonşunun dili şişib, qavyası bizə düşüb.
Qalıbdı öz başına, örtübdü bez başına.

Bu bizim ədəbi irsimizdir. İrsimizi xalqa çatdırmaq üçün «Azərnəşr» nəcib bir iş görmüşdür. Bu yaxınlarda xalq şairi R.Rza ilə topladığımız «Kərkük bayatıları» kitabı çapdan çıxacaqdır. Bu kitabda 4 mindən çox bayatıdan seçilib minə qədər ən yaxşı nümunələr verilmişdir. Gələn il isə «Azərnəşr» onların atalar sözlərini kitab halında buraxmaq niyyətindədir. Bizə elə gəlir ki, oxucular bu nəcib iş üçün «Azərnəşr»in işçilərinə, birinci növbədə isə Qılman Musayev və Hüseyn Şərifova minnətdar olacaqlar.

Hörmətli tamaşaçılar, İraqda yaşayan qardaş-bacılarımız haqqında çox danışmaq olardı. (Bu barədə geniş məlumat almaq üçün «Elm və həyat» jurnalının 4-cü nömrəsində – aprel ayında çıxacaq məqaləyə də baxa bilərsiniz.) İraq azəriləri mənim yadımdan heç vaxt çıxmayacaqdır. Məni Vətənə yola salarkən, Barmaqsız Sübhinin dediyi sözləri isə əbədi zehnimdə həkk olunub. Mən təyyarəyə minərkən onlarla salamatlaşdım. Onlara məni unutmayın, məktub yazın dedim. Barmaqsız Sübhi cavabında səni yox, sizi unutmayacağıq:

Gözümüz gözünüzdən uzaq olsa da,
Könüldən – könülə yollar görünür – dedi.

Qəzənfər PAŞAYEV,
M.F.Axundov adına APİ-nin
Tərcümə kafedrasının müəllimi

AZƏRBAYCAN RADİOSUNUN «QİTƏDƏN-QİTƏYƏ» ADLI VERİLİŞİNDƏ ÇIXIŞIM

11.06.1968

Hörmətli dinləyicilər, bu verilişimizdə İraq azərilərinin musiqi və ədəbiyyatından, şair və müğənnilərindən danışacağıq. Azərilər ölkənin şimalında yaşayır, əsasən əkinçilik və maldarlıqla məşğul olurlar. Suvarma şəbəkəsindən istifadə edirlər. Azərilər İraqda böyük bir quberniyanı əhatə edirlər. Quberniyanın mərkəzi Kərkük şəhəridir. 1965-ci ilin oktyabrında İraqda keçirilən əhalinin ümumi hesablanmasına görə təkcə Kərkükdə 153 min adam yaşayır. Onların 75–80 faizi azərilərdir. İraq azərilərinin isə ümumi sayı 750 minə qədərdir. İraq azərilərinin nə dili, nə də adət-ənənələri bizimkindən fərqlənmir. Bizim musiqi və ədəbiyyatımızı çox sevirlər. Bakı radio verilişlərini, xüsusən ədəbi verilişləri maraqla dinləyirlər. İndi Molla Hafiz Nurəddin oğlunun lentə yazılmış səsinə və bir-iki bayatısına qulaq asın.

Molla Hafiz musiqini və ədəbiyyatı çox sevir. O, özü də yeri gələndə mərsiyələr və bayatılar yazır. Molla Hafiz hələ iki yaşında olarkən gözləri tutulmuş, dünyanın ən şirin nemətindən – işıqdan məhrum olmuşdur. Öz dərdinin ağırlığına baxmayaraq, Molla Hafizi vətən dərdi, vətəninin müqəddəratı da düşündürür.

Yad əlində;
Qalmışıq yad əlində.
Bir ölkə viran olsun,
Qalmasın yad əlində.

Qara gün;
Ərir vursa qara gün.
Dağlar yanar kül olar,
Bir dəm çəksə qara gün.

Dilim-dilim;
Kəs qovun dilim-dilim.
Mən dilimdən vaz keçməm,
Olursam dilim-dilim.

Dilə dəyər;
Yaban söz dilə dəyər.
Laylanın şirin səsi,
Yüz min yad dilə dəyər.

Molla Hafizin dediyi və oxunan bayatılardan göründüyü kimi dillərimiz arasında müəyyən şivə xüsusiyyətlərini nəzərə almasaq, heç bir fərq yoxdur. Türkiyə Əskişəhər institutunun müəllimi Vahabi azəri dilində İraqda kitab çap etdirmə işinin təşəbbüsçüsü Molla Sabirin «Kərkük müntəxab xoyratları» adlı kitabına yazdığı müqəddimədə qeyd edir: «İlk kitabında olduğu kimi bu kitabdakılar da azəri ləhcəsindədir».

Kiçik bir xalq olan İraq azəriləri onlarca gözəl şairlər, tədqiqatçılar, tarixçilər, ədəbiyyatçılar, dilçilər, müğənnilər və sair yetişdirmişdir.

Hicri Dədə, Molla Sabir, Ovqat Əta Tərzibaşı, Rza Dəmirçi, Molla Məhəmməd Sadıq, Şakir Sabir Zabit, Məhəmməd Xurşid, Məhəmməd Əzzət Xəttat, Mustafa Göy Qaya, İbrahim Daquqlu, Əbdülvahid Kuzəçi oğlu, Kərkük qızı, Nəsrin Ərbil, Əhməd Otrakçı oğlu, Mövlud Taha Qayaçı və sairə nəinki azərilər arasında, hətta ərəblər arasında belə şöhrət tapmışlar. Nəsrin Ərbil İraq azərilərinin yeganə qadın şairələridir. Böyük istedada malik olan gənc şairə türk, ingilis, ərəb, alman və kürd dillərini gözəl bilir və bu dillərdə şeirlər yazır.

Ovqat Əta Tərzibaşı, Şakir Sabir Zabit və Əbdülvahid Kuzəçi oğlunu dünyanın bir sıra ölkələrində tanıyırlar. Ovqat Əta Tərzibaşının, Şakir Sabir Zabitin kitablarını nəinki İraqda, hətta İraqdan uzaqlarda belə maraqla oxuyurlar. Məlahətli səsə malik olan Əbdülvahid Kuzəçi oğlu da İraq azərilərinin tanınmasında az əmək sərf etməmişdir. Əbdülvahid 1925-ci ildə Kərkükün Musallah məhəlləsində anadan olmuşdur. Müğənni neft şirkətində mühəndis işləyir. İndi müğənninin ifasında «O yana döndər məni» mahnısına qulaq asın.

İraq azəriləri də bizim kimi çox vaxt mahnını muğamatla başlayırlar. Bir fərq var ki, biz muğamatı qəzəllərlə oxu-

duğumuz halda, onlar muğamatı bayatılarla, daha doğrusu onların dediyi kimi xoyrat üsulları ilə oxuyurlar. Əsas xoyrat üsulları bunlardır: Kəsik, Dəlli Həsən, Kürdü, Bəşiri, Mal Alla, Yetimi, Nobatçı, Mazan, Yolçu və sairə. İndi də Əbdülvahidin ifasında Bəşiri xoyrat üsulunda «Qalanın dibində yıxıldım yatdım» mahnısını dinləyin.

Xalq ədəbiyyatının ən incə növlərindən biri olan bayatılar İraq azəriləri arasında çox yayılmışdır. Bayatılarda onlar öz arzu, istək, qəm, qüssə, kədər, hörmət, şikayət, etiraz, kin və nifrət kimi hislərini, eləcə də vətənə, xalqa məhəbbət İraq azərilərinin bayatılarında çox qabarıq bir şəkildə verilmişdir:

Oyan, yeri,
Qalx, silkin, oyan, yeri.
Yüz il sel gəlsə dolmaz,
Bir gün qəm oyan yeri.

Dağlı Kərkük,
Təpəli, dağlı Kərkük.
Namardların dağıydan
Cigəri dağlı Kərkük.

* * *

Bulut göyə şan verdi,
Yaram coşdu, qan verdi.
Dost məni müflis gördü,
Üz çevirdi, yan verdi.

Necə dağlar,
Qarşıda necə dağlar.
Yetim yana bilir,
Göz yaşı necə dağlar.

* * *

Bala dərdi,
Bal dərdi, bala dərdi.
Cəmi dərdlər sağalı
Sağalmaz bala dərdi.

Oxu tər
Kamanı tər, oxu tər.
Atma könlüm evinə
Qəm tünlükdü ox itər.

Əbdülvahid Kuzəçi oğlu öz mahnılarını oxumaqla bərabər, hər vaxt Azərbaycan mahnılarını da Bağdad Radio evində oxuyur, bizim şairlərin və bəstəkarların İraq azəriləri arasında tanınmasında böyük iş görür.

Əbdülvahid, hətta Səməd Vurğunun «Azərbaycan» və «Gülə-gülə» şeirlərinə musiqi yazmışdır. İndi Əbdülvahidin çıxışına və ifasında şairimizin «Gülə-gülə»sinə qulaq asın.

İraq azəriləri arasında Əbdülvahid Kuzəçi oğlu ilə yanaşı, Kərkük qızı, Əbdülrəhman Qızılay, Ərbilli Faiq Bəzir-gan, Kərkük oğlu, Təhsin Məhəmməd Comərd, Əli Bahəddin, İbrahim Bayraqdar, Məhəmməd Əzəddin Nemət, Hüseyn Tuzlu, Məhəmməd Əzət Ərbilli, Kərküklizadə və sairə müğənnilər də vardır ki, onlar da xalq tərəfindən sevilirlər.

İndi də Əbdülvahid Kuzəçi oğlu ilə Əbdülrəhman Qızılayın birlikdə ifa etdikləri «Doktur cuvanım» mahnısına qulaq asın.

İraq azərilərinin gözəl bir xüsusiyyəti vardır. Axşamlar bir yerə toplaşıb şeirdən, sənətdən söhbət açar, yarışlar keçirərlər. Əsasən belə şeir gecələrində bayatı ilə qarşılaşarlar. Kim çox bayatı bildi, o qalib gəlir. Bu yarışlarda ikinci bir şərt də vardır. Gərək bayatını əvvəlcə deyəsən, sonra isə avazla oxuyasan. Bu, dinləyicilərin daha çox xoşuna gəlir. Bayatı bilməyən tapılmaz. Cinaslı bayatılar xalq arasında daha çox yayılmışdır:

O yar gözün;
Kim görüb o yar gözün.
Aslan gücündən düşsə,
Qarınca oyar gözün.

Bağdadın;
Gözəli çox Bağdadın.
Bülbüldən aşiq bilir,
Gül qiymətin, bağ dadın.

İraq azəriləri bəzi mahnıları muğamatla deyil, muğamatsız da oxuyurlar. İndi Əbdülvahidin ifasında «Gözələ bax, gözələ» mahnısını dinləyin.

Bayatılarla bərabər, laylalar da İraq azəriləri arasında geniş yayılmışdır.

Layla edim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül payın olsun,
Kölgəsində yatasan.

Layla edim yatınca,
Qönçə gülə batınca.
Gözümə şiş batırram,
Sən hasilə çatınca.

İndi də Əbdülvahidin ifasında «Sələvün Səyid qızına» mahnısına qulaq asın.

Azərilər qəlbə yatan lirik şeirləri də çox sevir və yeri gələndə lirik şeirlər yazırlar.

Bağçalarda saz olur,
Gül açılır, yaz olur.
Mən yarıma gül deməm,
Gülün ömrü az olur.

Bağçada baram sənə,
Heyvayam, naram sənə.
Qəm yemə dəli könül,
Ölüncə yaram sənə.

Şair Əsəd Naib Qumru quşuna gözəl bir şeir qoşmuşdur.

Sən dərd arayırsan bildim onunçün
Hər sabah bağçama gəlirsən qumru.
Boşluğu dolduran yanıq səsinlə
Sən məni yuxudan edirsən qumru.

Hörmətli dinləyicilər, bu verilişimizi Əbdülvahid Kuzəçi oğlunun ifasında «Ninnə balam, ninnə» mahnısı ilə bitiririk.

Diqqətinizə görə minnətdarıq.

P.S. *11 iyun 1968-ci il «Qitədən-qitəyə» verilişində çıxışım. Hər bazar günü saat 12^{00}-13^{00} arası bu verilişdə çıxış edirdim. Həmin verilişləri çox çətinliklə olsa da, təşkil edən Hacı Hacıyevin ruhu qarşısında baş əyirəm.*

20 MART 1983-cü İLDƏ TELEVİZİYA İLƏ «OZAN» VERİLİŞİNDƏKİ ÇIXIŞIMIN MƏTNİ

Hələ uşaqlıqdan məndə sirli-soraqlı İraqa, Bağdad şəhərinə böyük bir maraq vardı. Bəlkə də, bu «Min bir gecə nağılları», Xaqaninin «Töhfətül İraqeyin»i, «Füzuli həsrəti» və ya Koroğlunun «Bağdad səfəri», Vaqifin «Durnalar»ı ilə bağlı hislər idi. Sonralar bu maraq İraqda olduğum uzun müddətli məzuniyyətlər zamanı əsl məhəbbətə çevrildi.

Kərbəlada əbədi yuxuya gedən dahi Füzulinin məzarını tez-tez ziyarət etdim. Bilirsiniz ki, Füzuli doğma Azərbaycan dili ilə bərabər, ərəb və fars dillərini də mükəmməl bilmişdir.

Şair özünün Farsca Divanına yazdığı müqəddimədə göstərir:

«Mən doğma dilimi ona görə mükəmməl öyrənmişəm ki, o, mənim ana dilimdir. Mən fars dilini ona görə mükəmməl öyrənmişəm ki, o mənim ədəbiyyat dilimdir. Mən ərəb dilini ona görə mükəmməl öyrənmişəm ki, o mənim elm dilimdir».

Bir halda ki, şair ərəb dilini mükəmməl bilirdi, ərəb dilində sanballı əsərlər yazırdı, İraqda dünyaya gələn, orada yazıb-yaradan şairi azərbaycanca təkrarolunmaz şeir nümunələri yaratmağa, ölməz «Leyli-Məcnun»u azərbaycanca yazmağa sövq edən, yaradıcılığına qol-qanad verən kimlər idi? sualı ortaya çıxır. Bu suala cavabı mən İraqda tapdım.

Xoşbəxtlikdən indi ən mötəbər mənbələr belə bunu təsdiq edir. 1980-ci ildə Moskvada çap olunan böyük həcmli «Sovet Ensiklopedya lüğəti»ndə oxuyuruq:

«SSRİ xaricində azərbaycanlılar İranda və İraqda yaşayırlar».

İslam Ensiklopediyasında gedən yazı da maraq doğurur: «İraq türkmanları; yəni oğuzcanın azəri ləhcəsini qonuşan türklər arasında «Arazbarı» adlı bəstə vardır.

Kərküklü tədqiqatçı Əta Tərzibaşı da təbii olaraq bu məsələyə öz münasibətini bildirmişdir: «Bizim türkman ləhcəsi

azərbaycan dilinə türk dilindən daha yaxın və bəlkə, əkiz qardaşlar olmaqla, aralarında görkəmli fərqlər bilinmir».

İfadəyə fikir verin: Əkiz qardaşlar! Bir ananın övladları olan kərküklülərin folkloru, dilləri üzərində apardığım araşdırmalar da Əta Tərzibaşının dediyi sözləri təsdiqlədi.

Mərhum xalq şairimiz Rəsul Rza ilə çap etdirdiyimiz «Kərkük bayatıları»ndan başlamış, «Arzu-Qəmbər» dastanı», «Kərkük mahnıları», «İraq-Kərkük atalar sözləri» kitablarımızla tanış olan oxucular da görürlər ki, nə dilimiz, nə düşüncə tərzimiz, nə adət-ənənələrimiz və s. arasında bir fərq yoxdur.

Belə olmasa idi kərküklü müğənni Əbdülvahid Kuzəçi oğlu S.Vurğunun «Gülə-gülə» şeirinə musiqi bəstələyib, onu Kuzəçi oğlunun «Xoyrat və bəstələri» (Kərkük, 1966, s.52) kitabına daxil edərdimi?

Necə olardı ki, «Arazbarı» həm Kərkükdə, həm də bizdə olsun. Necə olardı ki, Kərkükdə «Qarabağlı» məhəlləsi olsun. Bizim məşhur «Qarabağ şikəstəmiz» orada da məşhur olsun. Onun Qarabağdan aparıldığını Əta Tərzibaşı əsərlərində göstərsin. Necə ola bilərdi ki, Ə.Bədəlbəyli «Musiqi lüğəti» kitabında Rast muğamının tərkibinə daxil olan şöbələrdən birinin Qarabağda «Kərküki» adlandırıldığını təsdiq etsin. Necə ola bilərdi ki, onlarda «Şirvanşah» qalası olsun. Qalanın yanındakı kənd Şirvanə adlandırılsın. Belə olmasa idi onların məskən saldığı əlliyə qədər kənd adına bizdə də rast gəlinərdimi? – Ağsu, Ağdaş, Boyat, Qarabulaq, Qaradağ, Qarabağlı, Əmirli, Mandılı, Mərdinli, Üçtəpə, Xasa, Xəsədərli, Çardaxlı, Yəyci, Billava, Cəfərli və s. belələrindəndir. Necə ola bilərdi ki, dastanlarımız onların dilinin əzbəri olsun:

Mən dayanım;
Aç hüsnün, mən dayanım.
Kərəm eşqinnən yandı,
Qorxuram mən də yanım.

Necə ola bilərdi ki, onlarda qadın toylarının bəzəyi olan «Arzu-Qəmbər» dastanının izinə «Əsli və Kərəm» dastanında düşəydik:

Xurşid öz Mahının dizinə yatdı,
Qənbər Arzusunun tozuna batdı.
Dünyada Şahsənəm murada çatdı,
Aşıq Qərib kimi gülən olmadı.

Bayatılara diqqət yetirin:

Əzizinəm Qarabağ;
Şəki, Şirvan, Qarabağ.
Bağdad cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ.

– bizdə çox yayılmış bu bayatı kimlərdən söhbət açır.

Kərkükdə məşhur olan:
Əslim Qarabağlıdı;
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən,
Yoxsa yollar bağlıdı.

– bayatısına fikir verin!

Gənc Əlidi
Bir qolu qönçəlidi
Harda bir qərib görsən
Elə bil gəncəlidi.

– bayatısını bizdə işlənən:

Hər aylar;
Keçər günlər, hər aylar
Qul qardaşım Bağdaddan
Gəncə deyib haraylar.

– aydınlaşdırmırmı?

Kərkük xoyratlarının böyük bir qismi cinaslıdır. Bu bayatılarda birinci sətir üç, ya dörd hecalıdır, kəm sətirlidir. Bəzi tədqiqatçılar bu xüsusiyyətə görə onların bizim bayatılarımızdan fərqləndiyini göstərirlər. Son tədqiqatlar göstərir ki, bizim rayonlarımızda istənilən qədər kəm sətirli bayatılar vardır.

Naxçıvandan qoca bir çobanın ağzından eşidərək dostum Həmid Arzulu bu qəbildən olan bir xeyli bayatı göndərib bizə:

Kölgəsinə; *Mərdə tası;*
Gün düşər kölgəsinə. *Doldur ver, mərdə tası.*
Namərdi ilan vursun *Oğul naxələf olar*
Özü nə, kölgəsi nə. *Olmasa mərd atası.*

Kərkük bayatıları arasında 2,6,8,10 misralıları da vardır:

Ağlaram ağlar kimin
Dərdim var dağlar kimin.
Yüz yerdən yaralıyam
Gəzərəm sağlar kimin.
İstərəm bir də gülüm,
Əvvəlki çağlar kimin.

Maraqlıdır ki, xüsusi tədqiq olunmasa da bu cür bayatılar da folklorşünaslarımız Təhmasib Fərzəliyev və İsrafil Abbasovun tərtib etdikləri «Azərbaycan klassik ədəbiyyatı kitabxanası» kitabından göründüyü kimi xalq arasında vardır.

Şübhə yoxdur ki, bu mənaya gözəllik vermək, onu gücləndirmək baxımından edilir. Bu Kərkük atalar sözlərində də özünü göstərir:

Yoldaş tanı yola var, yolda yüz min bəla var.

Və ya

Bu günün işini yarına qoyma, bəlkə, yarın sənə yar olmadı.

Doğrusu, Kərkük folkloru o qədər qüvvətlidir ki, Kərkük anıldığı zaman xatirimə ilk olaraq şifahi xalq ədəbiyyatı gəlir. Şifahi xalq ədəbiyyatı deyildiyi zaman xəyalımda Kərkük eli canlanır.

Hörmətli tamaşaçılar, «Yazıçı» nəşriyyatı bu günlərdə «İraq-Kərkük bayatıları» kitabımızı çapdan buraxır. Kitabın girişində Kərküklə əlaqədar bir çox məsələlərə cavab tapa biləcəksiniz.

Qəzənfər PAŞAYEV,
filologiya elmləri namizədi
20.03.1983

TELEVİZİYA İLƏ 1983-cü İL SENTYABRIN 24-də OLAN ÇIXIŞIM

Aparıcı: – *Əziz tamaşaçılar, hazırda xarici ölkələrlə də Azərbaycan dilinin tədqiqinə, öyrənilməsinə böyük maraq göstərilir, bu dil haqqında, onun tarixi, qrammatik quruluşu, üslubiyyatı, terminologiyası haqqında məqalələr, kitablar, dissertasiyalar yazılır.*

Mirzə Fətəli Axundov adına Rus Dili və Ədəbiyyatı Pedaqoji İnstitutunun xarici dillər kafedrasının müdiri, dosent Qəzənfər Paşayev bu yaxınlarda Amerika Birləşmiş Ştatlarında elmi səfərdə olarkən orada Azərbaycan dili haqqında son illərdə yazılmış bir sıra əsərlərlə tanış olmuşdur.

Qəzənfər Paşayev verilişimizin qonağıdır. O, Amerika Birləşmiş Ştatlarında müxtəlif elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin əməkdaşları tərəfindən Azərbaycan dili haqqında yazılan əsərlərdən bəziləri haqqında sizə məlumat verəcək. Buyurun, Qəzənfər müəllim.

– Mən Amerikaya səfərim zamanı orada Azərbaycan dilinə həsr edilmiş bir sıra məqalələri, qrammatika kitablarını, dərslikləri, dərs vəsaitlərini, Arizona Universitetinin kitabxanasından dissertasiyaları əldə etdim və nəzərdən keçirdim.

Azərbaycan dilinin tədqiqi baxımından xüsusi maraq doğuran məqalələrdən Fred Haysholderin «Azərbaycan danışıq dili», Qerd Frankelin «Türk və Azərbaycan dillərində oxşar və fərqli cəhətlər» məqalələrini göstərə bilərəm.

Dərsliklərə və dərs vəsaitlərinə gəldikdə isə İndiana Universitetinin 1965-ci ildə nəşr etdirdiyi 275 səhifədən ibarət «Azərbaycan dilinin əsaslı kursu» kitabı üzərində xüsusi olaraq dayanmaq istəyirəm.

Girişdən məlum olur ki, dərs vəsaitinin ilk variantı 1952–1954-cü illərdə yazılmışdır və Azərbaycan danışıq dilinə həsr edilmişdir. Kitabın bu variantına daxil olan mətnlər, əsasən,

Azərbaycanda çıxan qəzet və jurnallardan, nəşr edilən kitablardan götürülmüşdür. Müəlliflərin qeyd etdiklərinə görə kitabın əsasını Təbriz və Bakı dialektlərinə aid materiallar təşkil edir.

Kitabdakı 25 dərsdə Sovet Azərbaycanında qəbul olunmuş yazı qaydalarından, ədəbi tələffüz normalarından, felin forma və zamanlarından bəhs olunur. Kitabın axırında isə hərflər üzrə sözlük verilmişdir.

Həmin kitabda maraq doğuran cəhətlər çoxdur. Müəlliflər haqlı olaraq göstərirlər ki, Sovet Azərbaycanında əlifbanın hesabına yazı qaydaları həm asan, həm də sabitdir.

«Azərbaycan dilinin əsaslı kursu» kitabında Azərbaycan SSR Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun fəaliyyətindən də bəhs olunur. Göstərilir ki, institut bir sıra qiymətli əsərlər, lüğətlər hazırlamışdır, Azərbaycan dilinin saflığı, təmizliyi uğrunda mübarizə aparır (səh.225).

– Qəzənfər müəllim, bəs dissertasiyalar necə? Orada Azərbaycan dili ilə bağlı məsələlər necə həll olunmuşdur?

– Məmməd müəllim (söhbət prof. Məmməd Qasımovdan gedir – Q.P.), bilirsiniz ki, dissertasiyada, adətən, sırf elmi məsələ qoyulur və onun həllinə səy göstərilir. Mən Azərbaycan dilinə həsr olunmuş üç dissertasiyanı nəzərdən keçirdim. Birinci dissertasiya «Azərbaycan dilinin səs sistemi» mövzusuna həsr olunmuşdu. Dissertasiya 1958-ci ildə Corctaun Universitetində müdafiə edilib. Burada Azərbaycan dilinin sait və samit səsləri təhlil olunur. Müəllif səslər üzərində təhlil apararkən, əsasən, düzgün nəticəyə gəlmişdir.

İkinci dissertasiya 1963-cü ildə İndiana Universitetində müdafiə olunmuş dissertasiyadır ki, belə adlanır: «Azərbaycan qrammatikasının əsasları». Təxminən 600 səhifədən ibarət dissertasiya işində Azərbaycan dilinin qrammatikasının nəzəri əsasları, Azərbaycan dilinin bəzi qrammatik xüsusiyyətləri şərh edilmişdir. Dissertasiya girişdən, yeddi bölmə və

nəticədən ibarətdir. Əlbəttə, bu bölmələrin hər biri haqqında ayrılıqda məlumat verməyə burada imkan yoxdur. Yalnız onu deyə bilərəm ki, həmin dissertasiyada da müəllif müəyyən müsbət nəticələr əldə edə bilmişdir. Dissertasiyanın kitabiyyatı çox zəngindir. Burada Azərbaycanda çap olunan kitablar da az deyildir.

– Qəzənfər müəllim, bəs üçüncü dissertasiya hansıdır? Axı siz dediniz ki, üç dissertasiyaya rast gəlmisiniz.

– Açığını deyim ki, üçüncü dissertasiya bizə 1975-ci ildən məlum idi. O vaxt Amerikanın Florida Universitetindən sizin institutun, yəni Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Şirəliyevin adına «Azərbaycan filologiyasının əsasları» əsəri göndərilmişdi və xahiş edilirdi ki, həmin əsərə institut rəy versin. Mütəxəssislərin təklifinə əsasən rəyi mən yazdım. Əgər yadınızdadırsa müəllifə institutun adından qeyd və təklifləri, həmçinin bir neçə dilçilik əsərini göndərdik. Bizim üçün çox maraqlı idi ki, əsərin müəllifi qeydlərimizi necə nəzərə alacaq.

Amerikaya səfərim zamanı həmin əsərlə yenidən tanış oldum. Gördüm ki, müəllif Azərbaycandan göndərilən tənqidi qeydləri, arzu və təklifləri hərtərəfli nəzərə almışdır.

Əsər beş hissədən ibarətdir. Burada Azərbaycan dilinin türk dilləri sistemindəki mövqeyi aydınlaşdırılır. Azərbaycan dilinin filologiyasına həsr olunmuş başqa əsərlər təhlil edilir. Azərbaycan dilinin fonoloji qayda-qanunları və s. haqqında məlumat verilir.

Azərbaycan alimlərindən Şirəliyevin, Dəmirçizadənin Ağamusa Axundovun əsərlərinə tez-tez müraciət edilir və yüksək qiymətləndirilir.

– Qəzənfər müəllim, maraqlı məlumat üçün çox sağ olun. Güman edirik ki, həmin əsərlər barədə mətbuatda daha geniş məlumat verəcəksiniz. Bu, dilçi mütəxəssislər üçün zəruridir. ABŞ-da Azərbaycanla bağlı daha nələr vardır?

– Bu suala görə sizə minnətdaram. Yoxsa tamaşaçılarda belə bir təəssürat yaranardı ki, orada yalnız Azərbaycan dili ilə maraqlanırlar. Arizona Universitetinin kitabxanasında Azərbaycana həsr olunmuş guşə vardır. Burada 2 cildlik Azərbaycan xalçalarına həsr olunmuş kitab gördüm. Aleksandr Dümanın Qafqazdan bəhs edən «Qafqaz səfəri» də burada diqqətimi çəkdi. Əsəri 1962-ci ildə fransız dilindən ingilis dilinə tərcümə ediblər. Çox maraqlı kitabdır. Burada Amerika alimi, prof. Sula Benetin uzunömürlülərdən bəhs edən «Necə yaşayasan yüzü haqlayasan» kitabı vardır. Prof. Sula Benet 1970–1976-cı illər arası Qafqazda olmuş və çox gərəkli bir kitab yazılmışdır. Azərbaycanı da qarış-qarış gəzən müəllif Azərbaycandan da çox yazıb. Hər iki kitabı Azərbaycan dilinə tərcümə edəcəyəm. Yeri gəlmişkən, sentyabrın 8-də «Ədəbiyyat və incəsənət» qəzetində «Azərbaycan xalçaları Amerikada» adlı məqaləm çıxıb. Bu kitabxanada Əsəd bəyin Azərbaycanla bağlı bir neçə kitabı da var. Pulum olmadığına görə onların üzünü çıxartdırıb gətirə bilmədim. Bir sözlə ABŞ-da Azərbaycanla bağlı çox şey var. Şübhəm yoxdur ki, onlar tədqiqatçılarının yolunu gözləyirlər.

– *Verilişimiz sona yetir. Sağ olun, məktublarınızı gözləyirik.*

EL SƏNƏTKARI – MİKAYIL AZAFLI HAQQINDA ÇIXIŞIM

AzTV, 20.10.1983

Ekranda Tovuzun mənzərələri göstərilir. Saz çalınır. Bu vaxt ekranda titr göstərilir. «El sənətkarı – Mikayil Azaflı. Sonra yenə Tovuzun mənzərələri və aşığın Tovuzda lentə alınmış (aparıcı ilə bir yerdə özü göstərilir, sazda bir hava çalınır və aktyor Azaflının «Ey vətən» qoşmasını səhnə arxasından oxuyur):

Aparıcı: – Ən böyük milli sərvətimiz şifahi xalq ədəbiyyatı dedikdə, ilk olaraq gözlərimiz önünə onun ən qüdrətli və zəngin qolu – aşıq yaradıcılığı gəlir. Təsadüfi deyildir ki, xalqımızın böyük oğlu Üzeyir Hacıbəyov bu sənət aləminə böyük qiymət vermişdir:

«Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər götürə biləcəyi pay vardır».

Xalq yaradıcılığını gözəl bilən Bülbülün sözləri də hədəfə sərrast dəymişdir:

«Aşıq musiqisi bəstəkarlarımız üçün tükənməz ilham mənbəyidir».

Bu sənət heç vaxt solmayan, təravətini itirməyən bir aləmdir. Elə bir aləm ki, onu yaşadanların ürəyi eşq ilə yanır, məhəbbətlə döyünür.

Belə sənətkarlardan biri də böyük coşqunluqla yazıb-yaradan, çalıb-çağıran, yaradıb-yaşadan, müasir həyatımızı, qələbə və uğurlarımızı telli sazın dili ilə tərənnüm edən qocaman el aşığı Azaflı Mikayıldır. Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Alı, Ələsgər, Molla Cümə, Hüseyn Bozalqanlı kimi nəhənglərin yaradıcılığından bəhrələnərək pərvəriş tapan Azaflı ustad aşıq kimi püxtələşmişdi. Azaflı

Mikayıl Tovuz rayonunda dünyaya gəlib. Saz-söz xiridarları yaxşı bilirlər ki, bu torpaq Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Xəyyat Mirzə, Aşıq Mirzə, Aşıq Nəcəf Əlimərdanlı, Aşıq Yusif, Aşıq Qədir, Aşıq Nağı, Aşıq Əkbər, Aşıq İmran, Aşıq Mahmud kimi gözəl sənətkarlar yetişdirib.

İndi ömrünün müdrik çağlarını yaşayan Azaflı Mikayıl dava qurtaran ili 1945-ci ildə aşıqlığa başlayıb, Aşıq Əsəd və Aşıq Yusifdən dərs alıb. Özü də 20-yə yaxın şəyird yetişdirib. Aşıq Muxtar, Şəmiddin İncəli, Aşıq Hacı, Xanlar, Əli, Yolçu, İkram, İdris Alakollu, Məhərrəm, Əbülfət, Murad, Nizami və başqaları. Elə aşığın öz qızı Gülarə də Azaflı bulağından su içib (musiqi). Gəncəli «Çeşmə» (titrlə təqdim edilsin) ansamblının üzvü Gülarə Azaflının ifasında «Mənim dünyam» mahnısı səslənir.

Aparıcı: – Azaflının öz sənət aləmi, öz dünyası vardır. Bu dünya ulu qaynaqlardan su içib müdrikləşmişdir. İnsana məhəbbət, insan gözəlliyi, insanın amalı və mənəvi qüdrəti Azaflının ilham mənbəyi olmuş, onu riqqətə gətirmişdir. Bu poetik aləm, el duyğuları, xalq ruhu ilə qaynayıb qarışır, insanlarda nəciblik, müdriklik, sədaqətlilik, əyilməzlik kimi hislər aşılayır. Azaflı yaradıcılığında təbiətin, gözəlliyin, insan varlığının, eşqin, məhəbbətin tərənnümü daha qabarıqdır. «Məhəbbət» adlı qoşmada olduğu kimi. (Aşıq Aydın və Zülfiyyə bu qoşmanı «Aran gözəlləməsi» üstündə oxuyurlar.)

MƏHƏBBƏT

Qüdrətindən həyat, aləm yaranıb
Bahar qızlı təbiətdi məhəbbət.
Cazibəsi yeri göyə bağlayıb
Möcüzəli ziyarətdi məhəbbət.

İlahidi, zirvəsini qar almaz
Ətir saçar, gül-çiçəyi saralmaz.
O dünyada cavan qalar qocalmaz
Bir əbədi ülviyyətdi məhəbbət.

Hər duyğunun odur ali həzrəti
Mərhəməti, sədaqəti xilqəti.
Versən almaz min bir cahan sərvəti
Kəm almasa müsibətdi məhəbbət.

Ay Azaflı, o yaradır insanı
Məhəbbətdi yerin-göyün sultanı.
Ürəklərdi, könüllərdi məskəni,
Düz sevgidi, sədaqətdi məhəbbət.

Aparıcı: – Bəzən aşıqlara toyda-mağarda çalıb-oxuyub bizə zövq verən, bizi əyləndirən bir sənətkar kimi baxırıq. Dərindən düşündükdə bu belə deyildir. Alman alimi Leybnisin məşhur kəlamını yada salmaq yerinə düşərdi:

«Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim».

Göründüyü kimi, aşıqların mədəniyyətimizin yayılmasında, sevilməsində, dilimizin saf, təmiz, duzlu, şirin olmasında xidmətləri əvəzsizdir. Mən «Yazıçı» nəşriyyatının bu yaxınlarda çapdan buraxdığı Azaflının «Qoca qartal» kitabını vərəqlədikcə qəlbimdən keçən ilk hiss bu oldu. Oxucular tərəfindən maraqla qarşılanan bu kitaba ön sözü şair Məmməd İsmayıl yazmışdır. Məmməd İsmayıl xalq yaradıcılığını gözəl bilən və el yaradıcılığından ilham alaraq əla qoşmalar yazmışdır.

Yar ol dərdbilənə, yar olanda da,
Yoluna göz diksin yorulanda da.
Eləsinə vurul, vurulanda da,
Desinlər, ay Məmməd, əla gözəldi.

El sənətkarı barədə bu sənəti dərindən duyan, gündəlik yaşayıb-yaşadan şair sözü eşitmək həm maraqlı, həm də qiymətlidir.

(Məmməd İsmayılın söhbəti)

Aparıcı: – Şair Hüseyn Arif Aşıq Şəmşir şeirlərindən danışarkən qocaman aşığın yaradıcılığının klassik aşıq poeziyası ilə müasir aşıq poeziyası arasında qüvvətli bir keçid, körpü olduğunu göstərir. Bu sözləri Azaflı yaradıcılığına da aid etmək olar. Yəqin Azaflını Vətənimizin hüdudlarından uzaqlarda – İran, İraq, Türkiyə kimi ölkələrdə yaxşı tanımalarının bir sirri də bundadır. Orada Azaflının mahnılarını həm radiodan səsləndirir, həm də aşıqlar oxuyurlar. Şeirlərini əzbəyirlər. Türkiyəli aşıq Səbri Şimşəyoğlu Azaflının mahnılarını təkrarolunmaz bir məharətlə oxuyur. İndi onun ifasında «Azaflı gözəlləməsi»nə diqqət yetirin. Lent yazısını Türkiyədən şair Məmməd Aslan gətirmişdir.

(Maqnitofon işə salınır. Səbri Şimşəyoğlu «Gözlərim» şeirinin 1-ci bəndini oxuyur.)

Səbrim tükənibdir səbir eyləməkdən
Yorulub baxmaqdan yola gözlərim.
Bir səni axtarır, bir də gəncliyi,
Boylandıqca sağa-sola gözlərim.

Aparıcı: – Azaflı Mikayıl bir neçə havanın yaradıcısıdır. «Azaflı Dübeyti», «Azaflı gözəlləməsi», «Azaflı divanisi», «Azaflı dünyası» və s. Bu havaların hər birinin öz ritmi, öz gözəlliyi, qəlbəyatımlığı vardır. Konservatoriyamızın «Tar sinfi» üzrə müəllimi İlqar İmamverdiyev həm də gözəl saz çalır. O, Azaflı havalarından bir buket düzəltdirmişdir. Onu sizə təqdim edirik.

(İlqar çalır.)

Aparıcı: – Aşıq poeziyasının zirvəsi təcnis hesab olunur. Təcnis sənətkarlardan fitri şairlik istedadı, zəngin söz ehtiyatı, dilin bütün incəliklərini bilmək tələb edir. Təcnis yaratmaq üçün dilin dərin qatlarına baş vurmaq gərəkdir. Buna görədir ki, hər sənətkar təcnis meydanında «Hünər» göstərə bilməmişdir.

Xəstə Qasım, sözün yetir tamama
Gün doğan, gün batan gəlsin salama.
Hə alim işidi, nə də üləma
Təcnis meydanının öz hünəri var.

Demək lazımdır ki, müasir aşıqlarımız təcnisə az müraciət edirlər.

Bununla belə, prof. Vaqif Vəliyev «Qaynar söz çeşməsi» kitabında təcnisin 29 növünün olduğunu və onun bütün nümunələrinə Azaflı yaradıcılığında təsadüf edildiyini qeyd edir.

Biz isə onu deyə bilərik ki, Azaflının təcnislərində bəzi aşıqların təcnislərindən fərqli olaraq məzmun formanın qurbanı olmur, zəifləmir. «Dodaqdəyməz cığalı təcnis»də olduğu kimi:

Aylar, illər dəqiqələr içində
Yazı çiçək, qışı qar alar keçər.
Aşıq, qaralar keçər,
Ağlar, qaralar keçər,
Yer titrədən, dağ atan,
Əcəl qaralar keçər.

Aşıq sənəti ağır zəhmət tələb edən bir aləmdir. Saz elə belə çalğı aləti deyil. Təsadüfi deyildir ki, saz havalarını nota köçürmək çətin olduğundan Aşıq havalarımız başqa xalqlar arasında çox yayıla bilməmişdir. Saz böyük bir orkestri

andırır. Aşıqlara qulaq asanda ingilis alimi Raskın böyük dəqiqliklə dediyi sözlər qəlbimə hakim kəsilir. Əsl incəsənət nümunəsi onda yaranır ki, insanın beyni də, əli də, qəlbi də eyni vaxtda vurur.

İndi «Baş divani» üstündə Azaflının şəyirdi Nizami Bağırovun ifasında sənətkarın «Gözlə, gözlə sən» mahnısını dinləyin. Yəqin ki, Raskın sözlərinə siz də haqq qazandıracaqsınız. Onu da demək yerinə düşərdi ki, böyük ustad Hüseyn Saraclı bu mahnını vala yazdırmışdır.

Aşıq:

GÖZLƏ, GÖZLƏ SƏN

Bağban olsan bir bağçaya, barı gözlə, gözlə sən
Yaxşı dostun ilqarını, arı gözlə, gözlə sən.
Alçalanda, ucalanda, bax özünə sərbəsər,
Yandırarsan cəsədini, qarı gözlə, gözlə sən.
Zülm eyləmə füqarəyə bir gün bəxti oyanı,
Eylədiyin bəd əməllər qabağında dayanı.
Kamil ovçu, yaxşı gözlə, qazanc basar mayanı,
Uyma qəflət yuxusuna, sarı gözlə, gözlə sən.
Quyu qazan özü düşər, nə qədər qaza pünhan,
Nanəcibdə səxa olmaz, hey olsan da canhacan.
Sən ki, Azaflı Mikayıl, çox eylədin imtahan
Gen günündə hamı dostdu, darı gözlə, gözlə sən.

Aparıcı: – Azaflı barədə danışarkən prof. Camal Mustafayevin dediyi: «Azaflı yaradıcılığının ana xəttini fəlsəfi fikirlər təşkil edir» sözləri ilə razılaşmamaq olmur. Onun iki qafiyəli «Sicilləmə divanisi»ndə də, hər şeydən əvvəl, diqqəti cəlb edən bu cəhətdir.

Adam var ki, el anası, o şən dövran istəyir,
Adam var ki, qəlb aynası, məslək, vicdan istəyir.
Adam var ki, iltiması duyan, qanan istəyir,
Adam var ki, təmənnası – dərdə dərman istəyir.
Adam var ki, iddiası qala, zindan istəyir,
Adam var ki, can şəfası, şən gülüstan istəyir.
Adam var ki, insan xası, cənnətməkan istəyir,
Adam var ki, su sonası, yar mehriban istəyir.
Adam var ki, məhəbbəti, eşqi yanar dünyada,
Adam var ki, sədaqəti, dostu qanar dünyada.
Adam var ki, səxavəti hər vaxt anar dünyada,
Adam var ki, ədaləti, haqqı danar dünyada.
Adam var ki, təbiəti xaliq sanar dünyada,
Adam var ki, taxtı rəvan, hökmü cahan istəyir.
Adam var ki, hər büsata çatar, gedər, Azaflı,
Adam var ki, xarabata batar gedər, Azaflı,
Adam var ki, yata-yata, yatar gedər Azaflı,
Adam var ki, min-min xata tutar gedər Azaflı,
Adam var ki, minər ata, atar gedər, Azaflı,
Adam var ki, yüz həyatı qaytar gedər, Azaflı,
Adam var ki, gəzər can sağ, haqqı-divan istəyir.

Aparıcı: – Aşıq sənəti ümumxalq yaradıcılığıdır. Aşığın sazının, sözünün vurğunu olan, lakin ömürlərini başqa sənətə bağlayan adamlar aşıq sənətinə də xidmət edirlər. Bələləri çoxdur. Adil Həsənov da onlardan biridir. İndi o, Azaflının «Sən demə» qoşmasını «İncə gülü» havası üstündə oxuyacaqdır.

SƏN DEMƏ

Məni bəlalara qərq edən, bilsən
Sən demə, öz dostum, qardaşımıymış
Gözlərimi tutan, başımı kəsən
Sən demə, eloğlum, sirdaşımıymış.

Bir afət düz yoldan qaytarır məni
Elə bil dünyamdan qoparır məni
Gördüm bir daşqın sel aparır məni
Sən demə, özümün göz yaşımıymış.

Azaflı, şah gördüm, zülmə nur deyir
Dəryalar üzündə «saray qur» – deyir
Bir özgə səs mənə «durma, vur» – deyir
Sən demə, döydüyüm öz başımıymış.

Aparıcı: – Azaflının şeir bağçasında hərə öz zövqünə uyğun misralar, şeirlər tapa bilər. Çünki bu poeziya xalqın özündən gələn təbii bir poeziyadır.

Canının qədrini bilməyən insan
Həkimdən, cərrahdan, dərmandan küsər.

Və ya:

Olmasın dünyada bağbansız bağça
Dərərlər, tökərlər kal vədəsində.

Eləcə də:

Hərə bir sevdanın sorağındadı
Kimi pula, dövlət-vara aşiqdi
Kimi qəmdən, kimi dəmdən dəm vurur,
Kimi də namusa, ara aşiqdi.

Azaflı poeziyasında başqa ustadlarda nadir rast gəlinən nümunələr də çoxdur. Sənətkarın «Gözəlim» adlı üçqafiyəli qoşması buna parlaq misaldır:

Sənsən maral, gəl canım al, ay maral,
Bir yada sal, yanımda qal, olum lal!
Ağ üzdə xal, dodaqda bal, gülcamal
Eyləmə naz, gedər qalmaz gözəlim.

Bir məsələni də qeyd etmək yerində olardı. Sənətkarın yadda qalan yığcam, sözlük baxımından zəngin şeir parçaları çoxdur.

Olsun şair, aşıq, misgər,
Həkim, dərzi, bənna, dülgər
Ya mühəndis, ya çilingər
Hamı onu ustad bilə.

Azaflıdan gətirdiyimiz bu parça aşağı sinif dərslikləri üçün hər baxımdan maraqlı və lazımlı olardı.

El-obada olduğu kimi respublikamızın paytaxtında hələ uşaqlıqdan bu sənətə bağlananlar vardır. Çinar Bakıda 3-cü sinifdə oxuyur. Həm saz çalır oxuyur, həm də saz havalarını pianinoda xüsusi məharətlə ifa edir.

(Çinar Azaflının «Telli sazım» qoşmasını Dübeyti üstündə oxuyur, sonra isə pianinoda «Ruhani» saz havasını çalır).

Aparıcı: – Xalqın arzu-istəyinin tərənnümçüsü olan əsl aşıqlar xalq üçün doğulan, ömrünü xalq işinə həsr edən qeyri-adi zəhmətkeş adamlardır. Azaflı Mikayıl da belə sənətkarlardandır.

Güzgüdə özümə baxıram, aşığın acılı-şirinli sətirləri göz önünə gəlir:

Elə bildim dağ başını qar alıb,
Ayaz vurub çiçəkləri saralıb.
Görən deyir aşıq daha qocalıb,
Ağarmayın, ay saçlarım, amandı.

Olmazmı ki, qəm çəkincə güləsən,
Nədən oldu yanıb döndün külə sən.
Qırx yaşına çatmamısan hələ sən,
Ağarmayın, ay saçlarım, amandı.

Məncə, xalqın istək və arzuları ilə yaşaya-yaşaya saçlarını ağardanlar xoşbəxtdirlər.

Arzu edərdim ki, təbiət imkan versin, bütün gözəl sənətkarlarımızın qəlbindən Azaflının duyub-yaşadığı hislər keçsin.

Dünya işığını gözümə qaytar,
İtən gəncliyimi özümə qaytar.
Azaflını dərdə dözümə qaytar,
Ay keçən günlərim, keçən günlərim.

Keçən günlər havayı keçməyib. Azaflı bizim folklor üzrə dərslik və monoqrafiyalara düşüb. Necə ki, folklorumuz və saz sənətimiz var, demək o da yaşayacaq. Əsrlər keçəcək, o mənən cavan qalacaq.

Hörmətli tamaşaçılar, Azaflı Mikayıl studiyamızdadır. Xalq arasında deyərlər, elə ki, aşıq məclisə gəldi, uzun-uzadı söz-söhbətə yol vermək günahdır. Sözü aşığa verərlər.

– Mikayıl Qağa, istərdim ki, bir şeirinizi deyəsiniz, sonra isə mahnı oxuyasınız. Hansı şeiri demək istəyirdiniz?

– «Əbədiyyət dünyasında».

ƏBƏDİYYƏT DÜNYASINDA

Qoy ədalət zəfər çalsın bəşəriyyət dünyasında,
Zaman-zaman haqq ucalsın, əbədiyyət dünyasında.
Ara vuran, fitnə quran, əyri, yalan, şər olmasın,
Bu zərurət, bu həqiqət, qalibiyyət dünyasında.

Qoy ədalət zəfər çalsın, qoy qazansın haqq qələbə,
Qoy rədd olsun müharibə, cavab versin vaxt tələbə.
Bir arzuya, bir diləyə, bir murada, bir mətləbə,
Bu mətanət, bu dəyanət, mənəviyyat dünyasında.

Qoy ədalət zəfər çalsın, vicdan ilə, hünər ilə,
Aləm çatsın muradına, hər gün bir xoş xəbər ilə.
Qoy dünyanın üzü gülsün, bir işıqlı səhər ilə,
Bu təbiət, bu cəmiyyət, hakimiyyət dünyasında.

Qoy ədalət zəfər çalsın, məğlub olmaz sərvər kimi,
Qoy analar oğul doğsun, Cavid, Vurğun, Cəfər kimi.
Şah Xətai, Babək, Mehdi, Koroğlu pirhünər kimi,
Bu şərafət, bu cəsarət, davamiyyət dünyasında.

Qoy ədalət zəfər çalsın, şən yaşasın insanları,
Daha nurlu yollar getsin qocaları, cavanları.
Azaflı, el, vətən sevər, el unutmaz qananları,
Bu məhəbbət, bu sədaqət, səmimiyyət dünyasında.

Aparıcı: – Bu şeiri siz sazla öz havanızla da oxuyursunuz. Özü də deyəsən «Azaflı himni» və ya «Azaflı dünyası» adlandırırsınız.

– Bəli.

– Xahiş edirəm, bir mahnınızı da oxuyasınız.

QADASIN ALIM

Elinin, yurdunun dərdi-qəminə,
Ürəkdən yananın qadasın alım.
Cəfası, vəfası, vüsal dəmində,
Can verən cananın qadasın alım.

Ata nəsihəti, ana zəhməti,
Qardaş etibarı, bacı isməti,
Elə sədaqəti, dosta hörməti,
Gözləyən insanın qadasın alım.

Azaflı, həmişə üzdün dərdində,
Dünya əzabı var, dünya zərində.
Yaxşısı yerində, pisi yerində,
Həqiqət qananın qadasın alım.

Aparıcı: – Hörmətli tamaşaçılar, el sənətkarı Mikayıl Azaflıya həsr etdiyimiz veriliş başa çatır. Sizlərlə sağollaşmazdan əvvəl bir arzudan da söz açmaq, sizinlə məsləhətləşmək istərdik. Yer kürəsi bitkilərinə, faunasına və s. görə 11 iqlim zonasına bölünür. Onun doqquzu Azərbaycanın payına düşür. Buna görədir ki, rəngarəng adət-ənənələrimiz vardır. Bu doqquz iqlim zonasının özünəməxsus, hətta onun hüdudlarından kənarda da çoxlu sənətkarlarımız vardır. Elimizin bir çox istedadları kifayət qədər aranıb-axtarılmayıb. Onların ləyaqətliləri qədirbilən xalqımıza çatdırılmayıb. Mavi ekranda hansı el sənətkarları ilə görüşmək istərdiniz? Bu barədə yazın!

Hələlik bu qədər.

OKSFORD, 16 İYUL 1988-ci İL SAAT 15^{00}

Sovet müəllimləri nümayəndələrinin rəhbəri Qəzənfər Paşayevin Oksford şəhərinin lord-meri Xanım Kvin Çelsinin qəbulunda ingiliscə nitqi[*]

Hörmətli lord-mer!

Sovet müəllimlərinin Oksfordda ixtisasartırma kurslarında iştirak edən nümayəndə heyəti adından səmimi qəbula görə sizə ürəkdən minnətdarlığımı bildirirəm. Biz Sovet İttifaqının müxtəlif guşələrində universitetlərə daxil olub ingilis dilini öyrənməyə başlayandan hamımızın bir arzusu olub. İngiltərəni görmək arzusu. İndi bizim arzumuz yerinə yetdi. Biz İngiltərəyə ziyarətimizi heç vaxt unutmayacağıq. İngiltərə həmişə dünyanın çox mühüm ölkələrindən biri olmuş və yüksək inkişaf etmiş ölkələrdən biri kimi bu mövqeyini saxlayır. Bu ölkə dünyaya o qədər yazıçı, şair, arxitektor, alim və s. bəxş edib ki, təkcə onların adını saymaq xeyli vaxt aparardı. Bütün zamanların arxitektoru Kristofor Ren, Şekspir, Nyuton və bir çox başqaları təkcə İngiltərəyə deyil, bütün dünya xalqlarına məxsusdur. Sonralar bütün dünyada məşhur olan bir çox şəxsiyyətlər ilk addımlarını sizin doğma Oksfordda başlayıblar. İndi Oksford deyəndə gözlərimiz önündə qədim təhsil mərkəzi, təhsil deyəndə Oksford canlanır. Biz xoşbəxtdik ki, Oksforddayıq. Biz xoşbəxtdik ki, ingilis dili və ədəbiyyatı üzrə ixtisasımızı qədim Oksford Universitetində artırırıq, o universitetdə ki, lüğətləri bütün dünyada məşhurdur.

[*] Bax: Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. Qəzənfər Paşayevin arxivi. Qovluq №8, inv. 2913–2924.

Bu qədim şəhərin gözəlliyini təsvir etmək üçün söz seçməkdə çətinlik çəkirəm. Oksford gözəl şəhərdir desək, deməli, heç nə deməmişik. Bu şəhər Alisanın ecazkar ölkəsinin heyranedici, füsunkar şəhəridir.

Burada bizim təəssüratımız o qədər böyükdür ki, bəzən elə gəlir ki, özümüz Alisanın füsunkar ölkəsindəyik. Bununla belə, həqiqət, gerçəklik başqadır. Əminəm ki, bizim sizin ölkəyə gəlişimiz ölkələrimiz arasında həmrəyliyə kömək edəcəkdir.

Xatirə olaraq istərdik ki, sizə Ukraynanın mənzərələrindən bəhs edən kitabı təqdim edək. Eləcə də qəbul üçün bizim dərin minnətdarlığımızı qəbul edin.

Diqqətinizə görə təşəkkür edirəm.

Səfirlik üçün ingilis dilindən rus dilinə tərcümə etdi:

Milyutina V.D.
Moris Torez adına Moskva
Dövlət Xarici Dillər İnstitutunun
qrammatika kafedrasının dosenti
16.07.88

XOŞ MƏRAMLA, SAF NİYYƏTLƏ*

Möhtərəm Prezident!

Hörmətli mərasim iştirakçıları! Saf niyyətlə, xeyriyyə məqsədi ilə inşa olunmuş bu bina millət vəkili İlham Əliyev cənablarının təşəbbüsü və rəhbərliyi ilə, onun təsis etdiyi «Qaradağın inkişaf fondu» və «Baku İnterneşnel LTD» şirkəti tərəfindən tikilmişdir. Tikinti ərəfəsində və inşa vaxtı iki-üç dəfə İlham müəllimlə təmasda oldum. Nə gizlədim, onun sadəliyi, təvazökarlığı, humanistliyi, xeyirxahlığı, dərin mədəniyyəti, ağlı-zəkası məni heyran etdi. İstər-istəməz ürəyimdən keçdi: «Prezidentimiz ailə məsələlərində də, övladlarının tərbiyəsində də hamımıza nümunə olacaq qeyriadi bir insan imiş».

Hörmətli prezident, xoş məramla inşa olunan bu binanın tikintisi zamanı həmişə ikili hislər keçirmişəm. Sizin möhkəm hafizəniz vardır. Şübhəsiz, Hüseyn Cavidin «Şeyx Sənan» əsərində Məmmədəli Əliyevin oxuduğu «Korun mahnısı» yadınızdadır. Orada belə sətirlər vardır:

«Nə eşq olaydı, nə aşiq, nə dərd olaydı, nə dərman».

Keçirdiyim hislər bununla bağlıdı. Deyirəm: Nə hərb olaydı, nə itki, nə şəhid olaydı, nə gözüyaşlı analar, nə yetim körpələr. İkinci tərəfdən də fikirləşirəm: «Şəhidsiz, qurbansız azadlıq əldə etmək olarmı? Dünya təcrübəsi göstərir ki, azadlıq qurbanlar, şəhidlər hesabına qazanılır. Elə adama təsəlli olan da bu və hərənin imkanı daxilində şəhid ailələri və əlillərə göstərdiyi köməkdir. Müharibə və daxili çəkişmələr elə bir bəladır ki, ondan yan keçmək müşküldür. Elə bizim nəslimizdə dayım nəvəsi Azər Xasıyev Qarabağda şəhid oldu. Mart hadisələri zamanı başqa bir dayım nəvəsi 22 yaşlı

* Bax: «Qaradağ» qəzeti, 8.07.1999, s.6. (Lökbatan qəsəbəsində Qarabağ şəhid ailələri və əlilləri üçün tikilmiş beşmərtəbəli, beşbloklu binanın açılışında çıxışım. O vaxt «Baku İnterneşnel» şirkətinin icraçı direktoru işləyirdim.)

leytenant Xasıyev Samir Zirəddin oğlu həlak oldu. Ölümündən sonra ona Milli qəhrəman adı verildi.

Cənab prezident, mən filologiya elmləri doktoru, professoram. Uzun müddət xarici ölkələrdə olmuşam. Təkcə İraqda altı ildən çox çalışmışam. Xaricdə olarkən dövlət başçılarının yüksək səviyyəli görüşlərini dövlətlərin bayraqlarının qoşa dalğalandığını gördükcə, himnlərini dinlədikcə ürəyimdən keçən yeganə arzu bu idi ki, gün gələydi doğma Azərbaycanı azad görəydim. Dövlət başçımız yüksək səviyyəli görüşlər keçirəydi, himnimiz çalınaydı, bayrağımız xarici ölkələrin səmasında dalğalanaydı. Şükürlər olsun ki, bütün bunları gördük.

Cənab Prezident, bu bina haqda fikir söyləməkdən vaz keçərək bircə onu deyim ki, İlham müəllimin gündəlik köməyi, qayğısı və nəzarəti altında tikilən bu bina hasilə gəlib çıxınca bir şeyin şahidi olduq ki, cəmiyyətimizdə vicdanlı adamlar çoxdur. Beləliklə yaxşı əməlləri ilə ictimai şüurumuzun yüksəlməsinə köməklik edirlər. Mən tam əminliklə deyə bilərəm ki, tikinti aparan idarənin rəisi Gəray Abbasov belələrindəndir.

Cənab Prezident, Qarabağ əlilləri və şəhid ailələri üçün tikilmiş bu binanın açılışına gəlməyiniz böyük mətləblərdən söz açır. Sizin bu gəlişiniz yalnız Qarabağ əlilləri və şəhid ailələrinə olan ehtiram deyil, bu bütün Azərbaycan xalqına olan məhəbbətdir. Azərbaycan xalqının dostu, müdrik Baybakovun dediyi: «Mən Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci bir adam tanımıram» – kəlamı sərrastlığı ilə adamı heyrətə gətirir. Bu, doğrudan da, belədir. Başqa bir tərəfdən də böyük siyasətçi A.Qromıkonun sizinlə bağlı fikrini yada salmaq mənim üçün xoşdur. O, etiraf etmişdir ki, SSRİ məkanında Heydər Əliyev səviyyədə olan ikinci bir dövlət xadimimiz yoxdur. Allaha şükür ki, deyilənlər yalnız sözdə yox, əməli işdə də öz yerini aldı. İndi

dünya problemlərinin həllində Dövlət başçıları sizinlə məsləhətləşirlər.

Böyük dövlət mükafatlarına layiq görülürsünüz. Beynəlxalq Atatürk Sülh mükafatına layiq görülməyinizə sevinir və Sizi ürəkdən təbrik edirik. Siz Azərbaycanı dünyaya layiqincə tanıdır və ləyaqətlə təmsil edirsiniz.

Sizinlə bağlı bir arzumuz da var.

Arzu edirik ki, bir gün Sizin Nobel mükafatına layiq görülməyinizi təbrik edək. Yaradandan təmənnamız bu və Qarabağı azad, Azərbaycan xalqını əmin-amanlıqda, itkisiz, şəhidsiz, firavan yaşamaqda görməkdir.

MANAF SÜLEYMANOV – 90

Nizami adına Ədəbiyyat
Muzeyində çıxışım. 6.03.2002

Manaf Süleymanovu tələbəlik illərindən tanıyırdım. Keçən əsrin 60-cı illərində Qərb ədəbiyyatını orijinaldan tərcümə çox dəbdə idi. Dövlət və Yazıçılar İttifaqı bu məsələyə xüsusi diqqət yetirirdi. Bununla belə, orijinaldan tərcümə edənləri barmaqla saymaq olardı. Onlardan biri Manaf Süleymanov idi. Mən onun ingilis dilindən tərcümə etdiyi «Həyat eşqi», «Son yarpaq» və «Amerika yazıçılarının povest və hekayələri» kimi əsərləri böyük məhəbbətlə oxumuşdum.

Yazıçının «Yerin sirri» romanı ona şöhrət gətirən əsərdir. Bununla belə, Manaf Sü leymanovun yüz min tirajla çap olunan «Eşitdiklərim, oxuduqlarım, gördüklərim» əsəri ona qeyri-adi şöhrət gətirdi. Həmin əsəri «Bakınamə» adlandırmaq həqiqətdən kənar olmazdı. İnanmıram ki, bu əsəri başqa bir yazıçı yaza biləydi. Bakıda boya-başa çatan, onu dərin məhəbbətlə sevən, Bakının tarixini, ictimai həyatını, məişətini, adət-ənənəsini, keşməkeşlərini yaxşı bilən Manaf müəllim bu kitabı yazmaqla milyonların hörmətini, ehtiramını, məhəbbətini qazandı. Əsər yazıçının ömür kitabına, şah əsərinə çevrildi. Analitik qələm sahibi Nizami Cəfərovun «Dolan kəfkirim, dolan» adlı kitabını da oxuyaraq qəti qənaətə gəlmişəm ki, Manaf Süleymanov Azərbaycan ədəbiyyatının solmayan bir səhifəsidir.

Manaf müəllim gözəl insan və gözəl müəllim idi. Tərcümə məsələləri ilə bağlı gənclikdə ona müraciətlərimdən sonra aramızda səmimi münasibət yaranmışdı. Dəfələrlə onu müxtəlif nəşriyyatlardan və Yazıçılar İttifaqından dosent işlədiyi

Neft-Kimya Akademiyasına və ya evinə aparmışam. Çox vaxt maşını asta-asta sürürdüm ki, şirin söhbətlərinə daha çox qulaq asa bilim. Onun söhbətlərindən doymaq olmurdu. Sanki ingilis dilindən tərcümə etdiyi «Həyat eşqi» hekayəsi onun canına, qanına hopmuşdu. Manaf müəllimdə həyat eşqi çox güclü idi. Əslində, o, biz, nisbətən gənc qələm sahibləri üçün bir nümunə məktəbi idi.

PROKUROR ARİF BABAYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ VERİLİŞDƏ ÇIXIŞIM

AzTV, 27.03.2002

İki əsrin qovşağını yaşamaq, hələ mən iki minilliyin qovşağını demirəm, bir yandan böyük xoşbəxtlik, nemətdir, digər tərəfdən insanı, cəmiyyəti təlatümə gətirən əksliklər zamanıdır. Təkcə XX əsrin əvvəlini yada salmaq kifayətdir. Rus-burjua inqilabı, Rus-yapon müharibəsi, I Dünya müharibəsi, dünyanı lərzəyə salan Böyük Oktyabr Sosialist İnqilabı və s. XX əsrin sonu, XXI əsrin əvvəlində bəşəriyyət, ayrı-ayrı xalqlar, hətta ayrı-ayrı nəsillər üçün də qanlı-qadalı faciəli olmuşdur. Bu, Babayevlər nəslindən də yan keçmədi. Yeni il axşamı Arif Babayev qəzaya uğrayaraq faciəli şəkildə dünyasını dəyişdi.

Mən bu nümunəvi ailəni 1962-ci ildən tanıyıram. İnstitutu bitirdikdən sonra məni Əli Bayramlıya müəllim göndərmişdilər. Arifin böyük qardaşı Vəlixanla tanış oldum. Tanış oldum deyəndə ki, məktəbliləri onun sürücü işlədiyi maşınla pambıq yığmağa aparırdıq. Onun səliqə-sahmanı, ağlı, özünü aparmağı məni valeh etmişdi. O, ailənin böyük oğlu idi. Atası altı il öncə dünyasını dəyişmişdi. Odur ki, orta məktəbi yarımçıq qoymuşdu. Ailənin çörək qazananı o idi. Qalan üç qardaş kiçik idilər. Ən kiçik qardaş Arif idi. Onda Arifin cəmi yeddi yaşı vardı. Mən Vəlixanı məcburən axşam məktəbinə qoydum. Cəmisi iki ay yarımdan sonra İraqa tərcüməçi işləməyə göndərilsəm də, İraqdan qayıdan kimi Dillər İnstitutunda işə başlasam da, bu iki ay yarımlıq tanışlıq əbədi dostluğa, hətta qohumluğa çevrildi.

1966-cı ildə İraqdan qayıdanda Vəlixanın institutda qiyabi oxuduğunu görüb sevindim. Onun zəhmətkeşliyi, xeyirxahlığı, mehribanlığı, namusu, qeyrəti, saf niyyəti qardaşlarına

da sirayət etmişdi. O, gələcəkdə icra başçısı olacaq Firudini də, Əli Bayramlı və Ağdaş kimi rayonlarında prokuror işləyəcək Arifi də oxutdu. Arif Bakı Dövlət Universitetinin hüquq fakültəsinə girəndə və evlənəndə Vəlixan, Alxan və Firudinin sevincinin həddi-hüdudu yox idi. Arif evlənəndə anasının arzusu ilə gəlini – Məhbubə xanımı mənim maşınımda gətirdik. Müqəddəs yerlərdə olduğuma görə inam və iman sahibi Sabirə ana belə məsləhət görmüşdü. Onlarda ananın sözü qanun kimi yerinə yetirilirdi. Bununla qardaşlar fəxr edirdilər. Toy gündüz saat 12-də başladı və səhərə yaxın bitdi. Yaxşı yadımdadır, toyun tamadası üç il Xarici Dillər İnstitutunda dərs dediyim, sonralar İncəsənət İnstitutunu da bitirən və söz ustadı kimi yetişən Şamaxılı Mürsəl Ağamirzəyev idi. Gecədən xeyli keçmişdi. Mürsəl mənə dedi ki, sizin sözünüzü yerə salmazlar, Vəlixan və Firudinə deyin ki, müğənnilər və sazəndələr əldən düşüblər, məclisi bitirmək lazımdır. Təbii ki, mən Mürsəlin arzusunu onlara çatdırdım, lakin onlar məni də oyun meydanına çəkdilər ki, beş-on dəqiqə oynayaq. Lakin çox oynadıq. Mürsəl mənə yaxınlaşaraq qaş-qabaqla, incik səslə dedi: «Qəzənfər müəllim, məni bağışlayın, oynaya da bilmirsiniz. Ancaq ortadan çıxmırsınız».

Mən onu öpərək sakitləşdirdim. Arifin üç övladı oldu. Böyük oğlu Əli Arifin atasının adını daşıdı. Gəncikən ağsaqqal olan Arifin qısa ömür yolu barədə danışmaq çox ağırdır. Arif ağıllı, mədəni, mehriban, mülayim və sadə idi. Lakin bütün bunların fövqündə onun savadı, müdrikliyi dururdu.

Yuxarıda göstərdiyim kimi Arif Bakı Dövlət Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirmişdi. Respublikamızda o yaşda az-az adam prokuror vəzifəsinə yüksəlib. O, gözəl hüquqşünas olmaqla, gözəl də şair idi. Onun möhkəm yaddaşı vardı. Demək olar ki, bu təbli şairin yaddaşına bütün şairlərimizin yaradıcılığı hopmuşdu. Əgər desəm ki,

poeziyamızın, ümumiyyətlə, ədəbiyyatımızın təbliğində onun xidmətləri vardı, həqiqətdən uzaq olmaz.

Təbiətin keşməkeşlərindən baş çıxarmaq olmur. Tale, alın yazısı öz işini görür. Arifin atası Əli kişi də, böyük qardaşı Vəlixan da, Arif özü də 45 yaşında olanda dünyaların dəyişiblər. Ariflə bağlı bir məsələni də qeyd etmək istərdim. Bir çoxları kimi, Qarabağ dərdinə, zamanın insafsızlığına, gərdişin gedişinə tab gətirməyən Arif Ağdaşda prokuror işləyərkən Ağdaş – Bakı yolunda infarkt keçirmişdi. Amma Göyçayda həkimlər onu xilas edə bilmişdilər. Lakin elə həmin yolda avtomobil qəzasına düşəndə onu xilas etmək mümkün olmadı.

Deyirlər: «İnsanın adını valideynləri, yaşını və qismətini yaradan, qiymətini isə xalq verir». Arif Babayev qısa ömründə həm həmkarları, həm dost-tanışları, həm də xalq arasında böyük hörmət qazanmışdı. Harda sözü düşsə haqqında ürəkdolusu danışırlar. Bizə təsəlli olan da elə bu və adını yaşadan balaları, yadigarları: Əli, Mətin və Xəyalənin olmasıdır.

ƏLİ İLDIRIMOĞLU

Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində «Mənim rəncbər atam» kitabının təqdimat mərasimində çıxışım (28.02.2003)

Etiraf edirəm ki, əsərə yazılmış «Ön söz»ü, xüsusən də müəllifin bircə səhifəlik «Sətirlər karvanından qırılıb qalan bir neçə kəlmə»sini oxuyaraq o qədər zövq aldım ki, kitabı oxumağa ehtiyat etdim. Düzü təəssüratımı itirməkdən çəkindim. Bununla belə, 40 ildən artıq zaman kəsiyində publisistik yazıları, duzlu-məzəli felyetonları ilə yol yoldaşı olduğum Əli müəllim göz önünə gəldi, daxili narahatlıq keçirdim və çox təbii dildə yazılmış kitabı oxudum. Əsər mənə dərin təsir bağışladı. Ola bilsin ki, şəhərdə böyümüş bir adam üçün bu maraqlı kitabda təsvir olunan hadisələr qeyri-adilikdən daha çox adi görünsün. Lakin mənim kimi kənddə böyümüş, əsərdə təsvir olunanlara bənzər hadisələri öz gözləri ilə görmüş, yaşamış, yaddaşına həkk olunmuş bir adam üçün bu acılı-şirinli xatirələrdən daha doğma, daha əziz nə ola bilərdi?

«Mənim rəncbər atam» kitabı mənim diqqətimi bir neçə cəhətdən çəkdi. Hər şeydən əvvəl, əsərin dilinin sadəliyi, saf, təmiz, duzlu, şirin, axıcı olması məni heyran etdi.

Alman alimi Leybnisin məşhur kəlamı vardır: «Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim».

Göründüyü kimi, Əli müəllim atası ilə bağlı qələmə aldığı «Mənim rəncbər atam» kitabında böyük amala – dilimizin təmizliyinə, adət-ənənələrimizin qan yaddaşına yazılmasına, mədəniyyətimizin mükəmməlliyinə xidmət etmişdir.

Ata-ana borcunu qaytarmaq, onların qulluğunda durmaq, dünyalarını dəyişdikdən sonra xatirələrini əbədi yaşatmaq hər adama qismət olmur. Nə gizlədim, Anarın «Sizsiz» kimi, Əli müəllimin «Mənim rəncbər atam» əsərini də həyəcansız oxuya bilmədim. Qəlbimdən qəribə hislər keçdi. Qərblilər yaradandan verilmiş ömür payını özləri üçün yaşayırlar. Biz şərqlilər isə həyatımızı övladlarımıza həsr edirik. Bu hələ az imiş kimi, çox vaxt onların yolunda özümüzü qurban veririk. Həyatın mənasını onda görürük. Övladlarımız da belədi. Bəlkə də, bu yazılmamış qanuna görədir ki, bizim üçün valideyn xatirəsinə ehtiramdan əziz, ülvi heç nə yoxdur.

Təqdimatına yığışdığımız «Mənim rəncbər atam» kitabını vərəqlədikcə fikirlərimin təsdiqini tapdım. Və bir də qəlbimdən keçən bu oldu ki belə əsərlər təkcə valideyn xatirəsini əbədiləşdirmək məqsədimi daşıyır? Birmənalı şəkildə «yox» deyə bilərik.

Belə əsərlər çox böyük tərbiyəvi əhəmiyyəti, başqalarına görk olmaq, nümunə olmaq baxımından dəyərləndirilir. Onlar bir ailə, bir nəsil çərçivəsindən çıxaraq ümumxalq və hətta mən deyərdim, bəşəri xarakter daşıyır. Onların əsl qiyməti də elə bundadır.

Əsərdə etnoqrafiyamıza, adət-ənənələrimizə, ümumiyyətlə, həmişə cavan milli sərvətimiz olan folklorumuza geniş yer verilib. Yeri gəldikcə klassiklərimizə müraciət edilib. Əli bəy Hüseynzadədən verilən nümunə keşməkeşli zəmanəmizdə də öz aktuallığını itirməyib. Müəllif həmin sətirlərə elə bu məqsədlə müraciət edib:

Bilirmisiz cahillər nə yapdılar Vətənə?
Nə qoydular uyuya, nə qoydular oyana.

Onu da deyim ki, Əli müəllimin yaradıcılığında neçə-neçə dissertasiya mövzusu vardır. «Əli İldırımoğlunun publisisti-

kası», «Əli İldırımoğlu yaradıcılığında folklorumuzun inikası» və s. Şübhə yoxdur ki, alimlərimiz gənc tədqiqatçıları onun yaradıcılığına istiqamətləndirəcəklər və sanballı elmi əsərlər işıq üzü görəcəkdir. Sözümə son verərkən xüsusi qeyd etmək istəyirəm ki, el ağsaqqalı Əli İldırımoğlu ömrünün bu çağında da bir çoxları kimi mənə də nümunə olaraq qalır.

Əli müəllim, Sizi bu qeyri-adi kitabınız münasibəti ilə təbrik edir, Sizə Ulu Tanrıdan bundan sonra da gümrah və mənalı ömür təmənna edirəm.

«ANS» TELEKANALINDA ÇIXIŞIM

9.03.2003

Hər şeydən əvvəl, onu deyim ki, Azərbaycanın tarixən heç bir ərəb ölkəsi ilə İraq qədər yaxşı münasibətləri olmayıb. Şübhəsiz, mən 1985-ci ildə Bakıda və 1996-cı ildə Bağdadda ərəbcə çap olunan «Altı il Dəclə-Fərat sahillərində» adlı kitabımda bir fəsli «İraq bizə iraq deyil» qoymaqda buna arxalanmışam.

Koroğlunun «Bağdad səfəri», Vaqif və Vidadinin «Durnalar»ı, Nəsirəddin Tusinin, Füzulinin İraqda uyuması, Dağüstü parkda – Fəxri xiyabanda 11 nəfər şəhidin xatirə lövhələri, Füzulinin 500 illik yubileyinə 128 nəfərdən ibarət nümayəndə heyətinin İraqa getməsi (1994) bir çox mətləblərdən söz açır.

Onların sayı – 1963-cü ilin rəsmi məlumatında təkcə Kərkük vilayətində 430 min türkman yaşayırdı – indi 2 milyon yarımdır. Cəlal Ərtuq «Türkiyədə və dünyada İhsan Doğramacı Fenomeni» adlı kitabında yazır ki, indi Kərkük və Ərbil vilayətlərində iki milyon yarım türkman-azəri yaşayır (Ankara, 1996, s.8).

Soy-kök birliyi haradandır? Qədim dövr ərəb tarixçiləri Təbəri və İbn əl-Əsiri türklərin İraqa Təbrizi-Sultaniyyədən ilk gəlişini hicri 32 və 54-cü illərə aid edirlər.

Görkəmli İraqlı tədqiqatçı Mustafa Cavad «İraqda türklərin tarixi» adlı sanballı kitabında bu axınları 7 dövrə bölür:

1-ci dövrdə Təbəri və İbn əl-Əsirin dediklərini təkrar etməklə kifayətlənir.

2-ci Əməvilər dövrü (661–750);

3-cü Abbasilər dövrü (750–1258);

4-cü Səlcuqlar dövrü (1038–1157).

Bu vaxt İraqda türkman xanlıqları yaranmışdı. Mosul – Atabəyləri, Ərbildə – Zeynalabdinlilər, Kərkükdə Qıpçaqlar.

Tədqiqatçının rəyinə görə Bayat qəbiləsi, Bayat Əşirəti burada bu dövrdə məskunlaşmışdır. İndi türkmanlar yaşa-

yan ərazidə Bayat köyü deyilən 64 kənd vardır. Füzulinin də Bayatlardan olduğunu deyirlər.

5-ci Cəlairilər (1341–1431) və Teymurilər (1370–1507) dövrüdür.

6-cı Qaraqoyunlular (1410–1468) və Ağqoyunlular (1468–1501);

7-ci Səfəvilər (1501–1736) dövrü idi.

Tatar-monqolların Bağdadı tutması (1258) və Xəlifəni öldürərək Abbasilər Xilafətinə son qoyması da tarixdən məlumdur.

Dil yoxdursa, vəziyyət ağır olur.

Kürdlərə də böyük mədəni haqlar verildi. Mosul və Süleymaniyyədə Universitetlər yaradıldı, hətta Kürd Akademiyası yaradıldı.

Kərkükün yeraltı sərvəti neftdir. Neftçizadələr nəslinə mənsub olub, sonra ingilislərə satıblar. İraqda neft milliləşdirildikdən sonra (1973) ölkənin büdcəsi ildə 7 milyard ABŞ dollarını keçdi. Ölkədə hərbiləşmə meyili gücləndi. İraqın ordusu Sovet İttifaqı və Çindən sonra sayına görə dünyada 3-cü yeri tutdu. Sovet İttifaqı və Fransanın köməyi ilə ölkədə Atom reaktoru tikildi. Bundan sonrasını tamaşaçılar yaxşı bilirlər. İsrail atom reaktorunu bombaladılar 10 ilə qədər davam edən İraq-İran müharibəsi başladı.

Doğru deyirlər, böyük adamların səhvləri böyük olur. İraq rəhbərliyi Küveytə hücum etməklə çox böyük səhvə yol verdi. Körfəz müharibəsi və İraqın 10 ildən çox davam edən ağır günləri, mən deyərdim faciəli günləri başladı.

Burada bir məsələni xüsusi qeyd etmək istərdim. Dünyada ədalətli və ədalətsiz olmaqla iki müharibə məlumdur. Əgər 1991-ci ildə ABŞ və müttəfiqləri İraqı tutsaydılar, hamı onlara haqq qazandırardı. İndi vəziyyət dəyişib. Bu müharibəyə nə ad verməkdə çətinlik çəkirəm. Müharibə olsa türkmanların vəziyyəti ağır olacaq.

1970-ci ildə İraq türkmanlarına mədəni haqlar (hüquqlar) verildi. Ölkənin İnqilabı Rəhbərlik Şurası 7 bənddən ibarət qərar qəbul etdi:

1. Türkmanların yaşadığı ərazidə ibtidai siniflərdə təhsil ana dilində aparılsın.
2. Maarif Nazirliyi nəzdində bu işə rəhbərlik üçün komitə yaradılsın.
3. Türkman ədiblərinə öz ittifaqını yaratmaq imkanı verilsin. Onlara əsərlərini çap etdirməyə köməklik göstərilsin. İttifaq İraq Yazıçılar Birliyi ilə əlaqələndirilsin.
4. Mədəniyyət Nazirliyi nəzdində Türkman mədəniyyəti Komitəsi yaradılsın.
5. Türkman dilində həftənin qəzet və aylıq jurnalın nəşrinə başlansın.
6. Kərkükdə televiziyada türkmanca verilişlərin sayı artırılsın və s.

Bütün bunlar yerinə yetirilməyə başladı.

1970-ci ilin 17 iyununda Bağdadda türkmanca «Yurd» qəzeti çıxmağa başladı. Aylıq yarı ərəbcə, yarı türkmanca «Birlik səsi» jurnalı çıxdı və s.

Bəndəroğlu Türkman Mədəniyyət Departamentinin müdiri kimi 500-dən artıq kitab buraxdı.

İbtidai siniflər üçün Məhəmməd Xurşid və Həsən İzzət kitab çap etdilər. Bu işdə prof. Abbas Zamanov, şair Qasım Qasımzadə və bu sətirlərin müəllifinin göndərdiyi dərslik və dərs vəsaitləri köməklərinə gəldi. Lakin kiçik xalqın faciəsi böyük olur. Ölkədə dövlət dili ərəb dili olduğundan, ərəb dilini bilmədən ali məktəbə və işə girmək problemə çevrildi. Məhz buna görə də ərəb dilli məktəblərə üz tutmalı oldular. Soy-kök birliyimizi danan yoxdur. Məhəmməd Fuad Köprülü türk Ensiklopediyasında yazıb: «İraq türkləri, yəni oğuzcanın azəri ləhcəsində qonuşan türklər».

Bütün İraq-türkman, türk və dünya alimləri də bu fikirdədilər.

Tarixin yaddaşı qısa olsa da, dil və folklor faktoru vardır.

İraq türkmanlarının mənsubiyyətini göstərən dil və folklor faktoru bir soy-kökdən olduğumuzu göstərən danılmaz sübutdur.

SARABSKİ ADINA MƏDƏNİYYƏT SARAYINDA «VƏTƏN HƏSRƏTİ» KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞIM

07.11.03.

«Vətən həsrəti» kitabını və Rəşid Faxralının çox yığcam, çox da sanballı giriş məqaləsini birnəfəsə oxudum. Fəxr etdim. Belə qələm sahiblərinə eşq olsun!

Həmin yazının təsirindən çıxmaq, Səadət Buta haqqında söz demək xeyli çətindir. Çətindir ona görə ki, Rəşid qardaşım söz deməyə bir şey qoymayıb.

Səadət Butanın Yazılı ədəbiyyatımızla şifahi xalq ədəbiyyatının qüdrətli qolu aşıq yaradıcılığı arasında körpü olması, «Aşıq Pəri qızlar məclisi»nin daimi üzvü, sütunlardan biri olması, dilimizin saflaşması, yad təsirlərdən qorunması, cilalanması, məişətimizdə işlənmiş sözlərin vətəndaşlıq hüququnun saxlanılması yolunda xidmətləri böyükdür. Bu isə çox ciddi məsələdir. Alman alimi Leypsiqin məşhur kəlamı var: «Mənə saf dil verin, sizə saf mədəniyyət verim».

Dünya haqqında nə gözəl deyib:

Bacarmazsan, bağban olma bağına,
Gəl söykənmə əsasına dünyanın.

Yeni deyilişdir. Ümumiyyətlə, Səadət Buta öz yeri, öz səsi, öz ab-havası olan şairəmizdir. Onu fərqləndirən bir cəhət də var. Davranışı, oturuşu-duruşu ilə sözü düz gəlməyəndə deyilən sözlərin qiyməti olmur. Xalq onu qəbul etmir. Səadət Butanın dedikləri isə xalqa çatır, xalq onun səmimiyyətinə inanır. Bax buna görə də onun ustadnamələr yazmağa mənəvi haqqı var.

Gənclərə öyüd-nəsihət verməyə, doğru yola səsləməyə mənəvi haqqı var. «Əyriləri, doğruları ələyində ələyən dünyanın yazılmamış qanunları, imtahana çəkməyi, mizan-tərəzi qurmağı var. Səadət Buta bunu dərk eyləyir. Bu da təbiidir.

Yaradanın yer üzündə nümayəndələri Peyğəmbərlər, Peyğəmbərlərin isə nümayəndələri şairlərdir. Mən İlahi vergisi olan şairlərdən danışıram. Onlar bizim adi adamların dərk etmədiyi bir çox mətləbləri duyur, yaşayır və bizə töv-siyə edir, o hisləri poetik nümunələri ilə qəlbimizə salırlar. Yəqin buna görədir ki, əsl şairlər xalqın görən gözünə, vuran nəbzinə, döyünən ürəyinə çevrilirlər.

Bir məsələni də qeyd edib sözümə yekun vurmaq istərdim. Səadət Butanın yaradıcılığında hiss ediləcək bir məqam da vardır. Taledən, qiymətdən giley-güzar. Əvvəlcə onu deyim ki, yaradan hərəyə bir pay verir. Səadət Butaya böyük pay verilib. Şairlik istedadı. Məsələyə lap sadə yön-dən yanaşanda, belə demək mümkünsə, səadət, xoşbəxtlik nisbidir, mütləq xoşbəxtlik yoxdur. Mən deyərdim, xoşbəxt o adamdır ki, «Vətən həsrəti» kimi əl-əl gəzəcək, gələcəkdə gözəl tədqiqat mənbəyinə çevriləcək kitabı var, övladı var. Sizi ürəkdən təbrik edirəm.

MUĞAM TEATRINDA XEYRƏDDİN QOCANIN YUBİLEYİNDƏ ÇIXIŞIM

29.01.05.

İki əsrin və iki minilliyin qovuşmasında yaşamaq xoşbəxtliyi bizə nəsib oldu.

Lakin tale bizə qanlı-qadalı II Dünya müharibəsi və keçid dövrünü də qismət etdi.

Çin xalqında bəddua-qarğış var: «Görüm səni keçid dövründə yaşayasan».

Bunun nə demək olduğunu biz hamımız – keçid dövrünü yaşayanlar yaxşı bilirik. Bilirik ki, bu vaxt bütün mənəvi dəyərlər tapdanır, şəxsiyyət alçaldılır, mənəviyyat və mədəniyyət sarsıntılara məruz qalır. Böyük və kiçiyin yeri dəyişik düşür, nə varsa dəymişi kalına qarışır.

Şair demiş:

Dözməz bu ağrıya-acıya daş da,
Qurunun oduna yanarmış yaş da.
Qananın ayaqda, qanmazın başda
Ağlayan lazımdı halına millət,
Dəymişin qarışıb kalına millət.

Nə yaxşı ki, belə bir dövrdə Heydər Əliyev hakimiyyətə gəldi, xalqı bəlalardan, faciələrdən xilas etdi. Nə yaxşı ki, Muğam Teatrı kimi milli dəyərlərimizi qoruyan mənəviyyat ocaqları vicdanla xalqa xidmət etdi.

Nə yaxşa ki, Xeyrəddin Qoca kimi yazarlarımız mübarizədən çəkinmədi. Xalqa deyilməli sözü dedi.

Molla Nəsrəddin başqalarının nöqsanını və həqiqəti onun üzünə deyən adamdır. Lakin fərq ondadır ki, Xeyrəddin Qoca həqiqəti bir nəfərə yox, bütün xalqa dedi. Bu isə çox

ağır yükün altına girmək deməkdir. Belə olmasa idi, o Molla Nəsrəddinin davamçısı hesab edilməzdi. Belə olmasa idi, onun «Marallarım» və başqa kitabları əl-əl gəzməzdi. «Hərənin öz payı» əsəri belə uğur qazanmazdı. Xeyrəddin Qocanı bir yazıçı kimi fərqləndirən cəhətlər çoxdur: Ən başlıcası az sözlə çox mətləbləri bəyan etməkdir. Onun çox kiçik həcmli, çox da sanballı, yadda qalan, insanı düşündürən (bu isə çox vacibdir) hekayələrini oxuduqca göz önünə Sabir, Mirzə Cəlil, Mir Cəlal, Əziz Nesin gəlir. Onların yaradıcılığı kimi, Xeyrəddin Qoca yaradıcılığı da həmişəyaşardır.

Nədədir onun gücü? Həyatdan gəlməyində, insanları, onsuz da parçalanmış xalqımızı birliyə səsləməkdə?

Maraqlı odur ki, yazıçı qələminin gücü ilə nöqsanlarımızı, məişətimizdəki eybəcərlikləri, bizi güldürə-güldürə elə həzm etdiririk ki, ruhumuz da incimir. Bu anda Xeyrəddin Qoca Nəsrəddin Xoca məqamına yüksəlir, Azərbaycanın Əziz Nesini olur.

Yaşadığımız zaman kəsiyində gündəlik qayğılar başımızı o qədər qatıb ki, ətrafda baş verənlərin o qədər də fərqinə varmırıq. Keçid dövrünün bəhrəsi olan ağlasığmaz hadisələrə dərindən qiymət verə bilmirik. Özümüzü kənardan müşahidə edə bilmirik. Bu tarixi işdə Xeyrəddin Qocanın əsərləri köməyə gəlir. Tam əminliklə deyə bilərik ki, gələcək nəsillər keçid dövrü tariximizi, həyat tərzimizi, düşüncə tərzimizi tələm-tələsik yazılmış, üzəvari, basmaqəlib kitablardan deyil, Xeyrəddin Qocanın vaxtaşırı «Ədəbiyyat» qəzetində çap etdirdiyi hekayələrindən, kitablarından və pyeslərindən öyrənəcəklər.

Təxəyyül məhsulu olan əsərlərin bəzi janrları zaman-zaman aradan çıxır, lakin Xeyrəddin Qocanın əsərləri xalqla üzvi surətdə bağlı olduğuna görə əbədi yaşayacaqdır.

Sadə, gözəl, təvazökar, xeyirxah insan, bütöv şəxsiyyət olan qələm dostum Xeyrəddin Qocaya yeni uğurlar diləyirəm. Yaradandan təmənna edirəm ki, qardaşımın qələmi heç vaxt korşalmasın, ürəyi yazıb-yaratmaqdan soyumasın!

PEDAQOJİ UNİVERSİTETDƏ PROF. XEYRULLA MƏMMƏDOVUN «XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI» MONOQRAFİYASININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞIM

15.11.06.

Bizi prof. Abbas Zamanov tanış və yaxın etmişdi. Abbas müəllim bir alim və insan kimi Xeyrulla Məmmədovun xatirini çox istəyirdi. Sonralar Nizami adına Ədəbiyyat İnstitutunda Müdafiə şurasında bir yerdə işləyəndə onun, həqiqətən də, ədəbiyyatşünaslıq sahəsində nüfuz sahibi olduğunun şahidi oldum. O, opponent kimi çıxış edəndə sevinərdik. Nə qədər məlumatlı, məntiqi cəhətdən hazırlıqlı idi. Fitri istedad sahibi idi. «Arxiv adamı» kimi tanıdığımız prof. Xeyrulla Məmmədov faktlarla danışardı. Tez-tez «Ədəbiyyat qəzeti»ndə sanballı məqalələrlə çıxış edərdi. Səmimiyyətlə deyirəm, onun qəzetdə çıxan məqalələrini həmişə diqqət və ehtiramla oxuyardım. Şübhəsiz, az bildiyim sahə olduğuna görə.

Bu gün Xeyrulla müəllimin ölümündən sonra işıq üzü görən «XIX əsr Azərbaycan ədəbiyyatı» adlı çox dəyərli kitabının təqdimat mərasiminə toplaşmışıq. Bu, təkcə alim dostumuzun gərəkli işini təqdir etmək, qiymətləndirmək deyil, eyni zamanda gənc alimlərə nümunə olmaq baxımından böyük dəyər kəsb edir.

Kitabın tərtibçisi və çapa hazırlayanı filologiya elmləri doktoru, prof. Elman Quliyevin yığcam, lakin az sözlə çox mətləblərdən xəbər verən, insanı haldan-hala salan, giriş məqaləsinə görə ona təşəkkür etmək azdır. Ona və kitabın rəyçisi prof. Himalay Qasımova minnətdarıq. Elman müəllimin yazısını oxuduqca kərküklü yazıçı və folklorşünas, Azər-

baycan Yazıçılar Birliyinin fəxri üzvü Mövlud Taha Qayaçının mənə yazdığı məktubu göz önünə gəlir. Məndən xahiş etmişdi ki, Azərbaycan-İraq Kərkük ədəbi əlaqələrinə dair ona material göndərim.

Elə həmin vaxt bu mövzuda «Azərbaycan» jurnalında mənim yazım çıxmışdı. Həmin məqaləni və başqa materialları Mövluda göndərdim. Xeyli keçəndən sonra ondan məktub aldım. «Qardaşım, çox sağ ol, materiallara görə. Mən bu işdən vaz keçdim. «Məqaləni diqqətlə oxudum. Deməyə bir şey qoymayıbsan» – yazmışdı.

Elman müəllim də giriş məqaləsində hər şeyi deyib. Bizə bir şey qoymayıb deməyə. Bircə onu deyə bilərəm ki, professor Xeyrulla Məmmədovun bu qiymətli əsəri həm filologiya fakültələrinin tələbələri, magistrləri, həm də müəllimlər üçün dəyərli mənbədir.

YAZIÇILAR BİRLİYİNDƏ RAMİZ ƏSGƏRİN TƏRCÜMƏSİNDƏ MAHMUD KAŞQARLININ «DİVANÜ-LÜĞƏT-İT-TÜRK» ƏSƏRİNİN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞIM

25.12.06.

Dövlətlərin atributları olduğu kimi, xalqların da atributları vardır. Şübhə yoxdur ki, xalqın ən ümdə atributları onun dili və dilin güzgüsü olan lüğətlərdir. Bu baxımdan Mahmud Kaşğari lüğəti daha böyük əhəmiyyət kəsb edir. Bu lüğət təkcə bir xalqın deyil, böyük bir dil ailəsinin lüğətidir. Lüğət yazmaq iynə ilə gor qazmaq kimi bir şeydir. Ramiz Əsgər yazanda ki, lüğətin Azərbaycan dilinə tərcüməsinə 1987-ci ildən başlayıb, onun səmimiyyətinə inanırsan. Yeri gəlmişkən, lüğətin çıxması münasibəti ilə Anar müəllimin təbrik məktubunu və Ramiz Əsgərin lüğət ilə ilgili əhatəli məqaləsini «Ədəbiyyat qəzeti»ndə oxuyanda bir yandan ürəyim dağa döndü, başqa bir tərəfdən də iztirab keçirdim. Gecə yata bilmədim. «Divanü-Lüğət-it Türk» müxtəlif dillərdə: Türk, özbək, uyğur, qazax, alman, çin, ingilis dillərinə çevrilərək çoxdan çap olunsa da, bizdə indi işıq üzü görür.

Təsəlli olan odur ki, heçdən gec yaxşıdır. Ramiz Əsgər fundamental iş görüb. Lüğətin belə səliqə-sahmanla çıxmasına maddi dəstək verən «Ataholdinq» hər cür təşəkkürə layiqdir.

Ramiz Əsgər lüğət üzərində işləyərkən bir müdriklik məktəbi keçmiş, özü də müdrikləşmişdir. Lüğətin elmi redaktoru, Milli Elmlər Akademiyamızın müxbir üzvü, prof. Tofiq Hacıyev haqqında yazdıqları Ramiz Əsgərin böyük ürəyindən xəbər verir: «Əziz müəllimim Tofiq Hacıyevə sonsuz minnətdarlığımı və şükran duyğularımı izhar etməyi özümə

borc bilirəm. Tərcümənin bütün qüsurları mənə, uğurları isə ona aiddir».

Ramiz Əsgər giriş məqaləsində bir aqildən misal gətirib: «İnsan həyatında tək bircə dəfə lüğətə baxsa, həmin lüğət ona verilən pulu çıxarmış hesab olunur». Bu, həqiqətən də, belədir. Nə gizlədim, mən nağıllarımızda rast gəlinən Maçin ölkəsini, «Qurani-Kərim»də yer alan yəcuc-məcuc xalqlarının harada yaşadıqlarını elə bu möhtəşəm əsərdən öyrəndim. Elə Ramiz Əsgərin də Amasiya rayonundan olduğunu bu lüğətdə gedən məlumatlardan öyrəndim.

Ramiz Əsgərin Yusif Balasağunlunun «Qutadqu bilik – Xoşbəxtliyə aparan elm», Faruq Sümərin «Oğuzlar», Bahəddin Ögəlin «Türk mifologiyası» və s. kimi xalqımıza gərəkli olan kitabları tərcümə etdiyini bilirəm. Bu lüğətdən onu da öyrəndim ki, Bakı Dövlət Universitetində «Türk mədəniyyəti tarixi», «Türk yazılı abidələri», «Kitabi-Dədə Qorqud», «Divanü-Lüğat-it-Türk» üzrə dərs deyir.

Ramiz müəllim, sizin simanızda özüm üçün bir daha kəşf etdim ki, yerüstü xoşbəxtliyə can atanlara tale əbədiyyət bəxş etmir.

Siz isə bu möhtəşəm əsərlə, 20 illik zəhmətimizlə əbədilik əldə etdiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

«SPACE»in 10 İLLİYİ MÜNASİBƏTİLƏ ÇIXIŞIM

05.10.07.

Keçən 10 il ərzində «Space» pilə-pillə yüksəlib, heç vaxt nüfuzunu itirməyib. Həmişə tamaşaçılara ehtiramla yanaşıb, ədəb-ərkan gözləyib. Mən bütün verilişlərini mədəniyyətə həsr edən Rusiyanın «Kultura» və Avropanın «Hallmark» televiziya kanallarına baxanda göz önünə «Space» gəlir. Həqiqətən də, «Space» mədəniyyətimizin təbliği yolunda əvəzsiz işlər görür. Yeniliklərdən qorxmur. Muğamat üzrə gənc istedadların üzə çıxarılması məqsədilə keçirilən müsabiqə aylarla xalqımızı həyəcanda saxladı, sevindirdi.

Eləcə də «Space»in «Muğam teatrı»ndan görkəmli ziyalılarımıza, mədəniyyət xadimlərinə həsr edilən tədbirləri yayınlaması, xalq qarşısında xidmətləri olan mədəniyyət işçilərinin ad gününü yüksək səviyyədə keçirməsi tapıntıdır. Bu kanalın xalqın zövqünün formalaşmasında gördüyü müsbət işləri saymaqla qurtaran deyil. Mən «Space»in yaranmasının 10 illiyi münasibətilə onun yaradıcı kollektivini və rəhbərliyini ürəkdən təbrik edir, onun nüfuzunu indiki kimi saxlamağı arzulayıram.

Qəzənfər Paşayev

AKADEMİK BƏKİR NƏBİYEVİN DÖVLƏT TELEVİZİYASINDA «SƏHƏR»DƏ ÇIXIŞI ZAMANI TELEFON ZƏNGİM

25.08.07.

Hər şeydən əvvəl, «Səhər»i yaradanlara minnətdarlığımı bildirmək istəyirəm ki, qloballaşmanın aləmə meydan oxuduğu zəmanəmizdə milli-mənəvi dəyərlərimizin ən ümdə daşıyıcıları elm və mədəniyyət xadimlərimizi xalqla görüşdürür. Onlardan biri də akademik Bəkir Nəbiyevdir. Bəkir müəllim ədəbiyyatşünaslıq elmimizin patriarxıdır və bu şərəfli missiyanı ləyaqətlə yerinə yetirir. Ədəbiyyatşünaslıq elmimizin problemləri barədə son səlahiyyətli sözü, böyük nüfuz sahibi Bəkir müəllim deyir.

Neçə illərdir filologiya elmimiz sahəsində rəhbər mövqe tutur. Əvvəlcə Milli Elmlər Akademiyamızda Ədəbiyyat, Dil bölməsinin rəhbəri kimi, sonra isə Nizami adına Ədəbiyyat İnstitutunun direktoru kimi.

Akademik Bəkir Nəbiyev ən məhsuldar ədəbiyyatşünas alimlərimizdən biri, bəlkə də, birincisidir. O, yaşamağı yaratmaq üçün qənimət sayır. Bəkir müəllimin elmi nailiyyətləri barədə dostum Şirindil o qədər məzmunlu, mənalı danışdı ki, mən Bəkir müəllimin hamı üçün vacib olan bəzi başqa məziyyətlərindən danışmaq istərdim.

Bəkir müəllim inam və iman sahibidir. Həccə gedən, müqəddəs yerləri sidq-qəlblə ziyarət edən, İslam qanunlarına riayət edən alimlərimizdəndir. Əməlisaleh adamdır. 1994-cü ildə İraqda və Türkiyədə Füzulinin 500 illik yubiley şənliklərinə birgə gedib gəlmişik. Sonra İrana və İraqa səfərlər etmişik. Onunla yol yoldaşı olmaq özü böyük xoşbəxtlikdir. Səfər zamanı onun axşam yatanda da, səhər qalxanda da yaradana dua etdiyinin şahidi olmuşam.

Bəkir müəllim həsəd aparılacaq qədər dəqiq adamdır. Saatınızı onun işə gəlib-getməsi ilə düzəldə bilərsiniz səhər 9^{00} axşamüstü 6^{00}.

Bəkir müəllim həddən artıq xeyirxah adamdır. Xalq arasında belə adamlara «Onun xəmiri xeyirxahlıqla yoğrulub» deyirlər.

Mən uzun müddət Ədəbiyyat İnstitutunda Bəkir müəllimin rəhbərlik etdiyi Müdafiə Şurasının üzvü və onun müavini olmuşam. Bəkir müəllimdən xeyirxahlıq, təmkin əxz etmişəm. İki kitabımın elmi redaktorudur.

Yarandığı 1997-ci ildən Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın işində birgə fəaliyyət göstəririk. Bəkir müəllimin islami dəyərlər haqqında fikirləri bəzən yüksək savadlı din xadimlərini belə heyran edir.

Sizə zəng etməkdə bir məramım da var. Akademiyanın müxbir üzvü, rəhmətlik Abbas Zamanovdan sonra özümə ağsaqqal kimi qəbul etdiyim Bəkir müəllimə 70 illik yubileyim münasibətilə dünən «Ədəbiyyat qəzeti»ndə haqqımda geniş ürəklə yazdığı «Alim haqqında dost sözü» məqaləsinə görə ailəm və öz adımdan minnətdarlığımı bildirməkdir.

Bəkir müəllim sizə möhkəm cansağlığı, qələminizə həmişəki kimi kəsər arzulayıram. Yaradandan təmənna edirəm ki, nəvəniz Bəkirin toyunda birgə oynayaq.

«LİDER» TV-də GƏNC AŞIQLARIN İLK MÜSABİQƏSİNDƏ ÇIXIŞIM

25.10.2007.

Hörmətli saz-söz pərəstişkarları! Lider Televiziya kanalı bu müsabiqəni keçirməklə müqəddəs bir missiyanı yerinə yetirir. Müqəddəs Dədə-Qorqud yadigarı, ulu aşıq sənətini yaşatmaq, təbliğ etmək müqəddəs işdir.

Dahi Üzeyir bəy aşıq sənətindən bəhs edərkən deyirdi: «Aşıq sənəti elə bir aləmdir ki, bu aləmdən bəstəkar da, müğənni də, şair və yazıçı da, hətta rəqqas da istədiyi qədər pay götürə bilər».

Müsabiqənin bir gününü xalq mahnıları və bəstəkar mahnılarına həsr etməyiniz Üzeyir bəyin sözlərinə dayaq olur.

Müsabiqədə iştirak edən gənc istedadlar barədə nə deyim, kimi seçim, bu iki-üç dəqiqəlik çıxışa sığmaz. Səs fitri istedaddır. Bu istedadlı gənclərə təkcə onu demək istəyirəm ki, Aşıq sənəti elə bir abidədir ki, onun daha möhkəm, daha davamlı, daha möhtəşəm olmasında bir kərpic qoyanın da, min kərpic qoyanın da zəhməti təqdirlə yad edilməlidir.

Müsabiqə demək olar ki, bütün aşıq mühitlərini Göyçə, Borçalı, Şirvan, Gəncəbasar, Tovuz-Qazax, Gədəbəy və s. əhatə edir. Təəssüf ki, Naxçıvan bölgəsindən iştirakçı yoxdur. «Aşıq Pəri məclisi»ndə Naxçıvandan yaxşı çalıb-oxuyan qızlarımız vardı.

Təsəvvür edirsinizmi ki, bu müsabiqə nə qədər tamaşaçını bu sənətə bağladı. Elə aparıcıların özləri də pilə-pillə yüksəldi. Artıq sazın-sözün biliciləri kimi çıxış edirlər. Hər halda bu sənətə məhəbbətləri açıqca sezilir.

Müsabiqə bundan sonra daha ciddi bir mərhələyə qədəm qoyur və bu mənim yadıma «Space»də gənc muğam oxuyanların ilk müsabiqəsini salır. O vaxt indi Sizin müsabiqədə

olduğu kimi, yerlər xalqın səsverməsi ilə məlum olurdu. Böyük münsiflər heyətində olan muğam sənətçilərimiz bəzən çox narahatçılıq keçirirdilər. İndi təbii olaraq siz keçirdiyiniz kimi. İnanın ki, biz tamaşaçılar da bu hissi keçiririk. Məsələn, mən Göyçədən olan qızlarımız qorxulu zonaya düşəndə narahat oluram. Axı, onlar təsadüfi adamlar deyil. Çalıb-oxumaqlarından görünür ki, onlar bu sənətin yolçularıdır. Eləcə də ən gənc iştirakçı Əsmər. O qız aşıqlar nəslindəndir. …Qayda-qanunla çalıb-oxuyur.

Fikir versəniz, muğamatçılar arasında da hər dəfə çox az yaşlı bir müğənni olur. Bunun başqa mənası var.

Bunları deməkdə məqsədim nədir?

Tamaşaçılar bəzən bilməyərəkdən, bəzən də tərəfkeşlikdən, həqiqətdən kənarlaşırlar. Mənə belə gəlir ki, Muğam müsabiqəsində olduğu kimi, hər ifadan sonra onların ifasını münsiflər heyətində ayrı-ayrılıqda açıq səsvermə ilə qiymətləndirsələr tamaşaçıları istiqamətləndirmiş olardılar.

Münsiflər heyəti barədə nə demək olar? Mən onların təmənnasız, vicdanlı işini xalqa xidmətin bariz nümunəsi hesab edirəm.

Aşıq Ədalət, aşıq Ulduz, prof. Həsən Mirzəyev, doktorluq dissertasiyasını aşıq mühitlərinə həsr edən prof. Məhərrəm Qasımlı ilə 30–40 ildir dostluq münasibətindəyəm. Onların hər birinin böyük xidmətləri var, bu sənəti inkişaf etdirməkdə. Eləcə də konservatoriyanın müəllimi Mübariz qardaşım və Şirvanlı Yanvar aşıq.

Onlara münasibətimi Şeksprin bir soneti ilə bildirmək istəyirəm:

Eşqimi tərifləyib kimsəni aldatmıram,
Çünki məhəbbətimi kimsəyə mən satmaram.

Və nəhayət, tam səmimiyyətlə demək istəyirəm ki, başqa sahələr bir yana, bu sahədə «Lider» kanalı tarixə düşdü.

Gələcəkdə aşıq yaradıcılığından yazanlar, onun keçdiyi yolu izləyənlər bu müsabiqədən yan keçmək səlahiyyətində olmayacaqlar.

Bu münasibətlə «Lider» kanalını təbrik edir, onun rəhbərliyinə və yaradıcı heyətinə saz-söz xiridarları adından minnətdarlığımı bildirirəm.

AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ SƏUDİYYƏ ƏRƏBİSTANINDA, KRAL FEYSƏL ADINA XEYRİYYƏ FONDUNDA YAZIÇI VƏ ŞAİRLƏRİN, İCTİMAİ XADİMLƏRİN QARŞISINDA ÇIXIŞIM

11.11.2007.

Hörmətli səudiyyəli qardaşlar!
Müqəddəs torpağın sakinləri!

Siz xoşbəxt və bəxtəvərsiniz. Dünyanın bir çox ölkəsi yaxşı mənada Sizə həsəd aparır. Buna əsas var. Böyük Yaradan bu torpağa, bu xalqa Peyğəmbər göndərmişdir. Qurani-Kərim bu torpaqda nazil olmuşdur. Qurani-Kərimin ərəb dilinin bir vahid kimi qalmasında rolu böyükdür.

Səudiyyə Ərəbistanı kimi məşhur olan 2-ci bir ölkə təsəvvür etmək çətindir. Müsəlman aləminin ən müqəddəs yerləri buradadır. Məkkə və Mədinə dünya müsəlmanlarının səcdəgahıdır. Hər il Səudiyyə Ərəbistanına Ümra və Həcc ziyarətinə 50 milyona qədər müsəlman gəlir. Gündə 4-5 dəfə hər bir müsəlman Qibləyə üz çevirərək dualar oxuyur. Təəssüf ki, bir əsrə qədər Sovet İttifaqında yaşayan müsəlmanlar, o cümlədən də Azərbaycanlı müsəlmanlar müqəddəs yerləri ziyarət etmək imkanından məhrum olmuşdular.

Allaha şükür ki, Allahın iradəsi ilə Sovet rejimi, Sovet İmperiyası dağıldı və biz arzumuza çatdıq. İndi hər il Azərbaycandan Ümra və Həcc ziyarətinə minlərlə müsəlman ziyarətə gəlir. Bütün Qafqaz müsəlmanlarının Şeyxi Allahşükür Paşazadə Azərbaycanlı müsəlmandır. Təsəvvür edin indi Qafqaz Müsəlmanları İdarəsində Elmi-Dini Şura fəaliyyət göstərir. Orada görkəmli din xadimləri və elm adamları cəmləşmişlər. Mənim də üzvü olduğum bu şuranın rəyi olmadan dini kitablar çap oluna bilməz. Bu o demək deyildir ki, bu

şura kimlərəsə mane olur. Əsla yox. Bu şura dini kitabların sanballı çıxmasını təmin edir.

Deyilənlər Səudiyyə Ərəbistanı ilə əlaqələrimizin sayəsində mümkün olmuşdur. Müstəqillik qazandığımız ilk günlərdən Səudiyyə Ərəbistanı köməyimizə gəlib. Azərbaycanda təmənnasız olaraq məscidlərin tikilməsi, pulsuz Quran-Kərimin çap olunaraq paylanması, məktəblərin tikilməsinə yardım və s. Səudiyyə Ərəbistanın gördüyü işlərdəndir. İndi Səudiyyə Ərəbistanı ilə diplomatik, siyasi, iqtisadi, texniki, mədəni əlaqələrimiz yüksək səviyyədədir. Elə Səudiyyədə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi çox mətləblərdən xəbər verir.

Biz hər zaman bütün dünyada xüsusi yeri olan Səudiyyə krallığının köməyini hiss etmişik. Azərbaycanı ilk tanıyan ölkələrdən biri kimi, Azərbaycanda Səudiyyənin səfirliyinin açılması da çox vacib addım oldu bizim üçün. Başqa ərəb ölkələri də tezliklə Bakıda səfirliklərini açdılar. Biz də səfirliyimizi Ər-Riyadda açdıq və oraya ərəb ölkələrində uzun illər işləmiş Dr. Elman Araslını göndərdik. Çox işlər görüldü. Görkəmli ailədən olan indiki səfirimiz Tofiq Abdullayev də səmərəli işlər görür.

Səudiyyə Ərəbistanının səfiri Əli Həsən Cəfər də Azərbaycanda ehtiramla qarşılanan səfirlərdəndir. Bu yaxınlarda Orucluq bayramı münasibəti ilə Prezidentimizin Müsəlman ölkələrinin səfirləri ilə keçirdiyi yığıncaqda səfirləri Sizin səfiriniz Əli Həsən Cəfər təqdim etdi və təkcə o çıxış etdi.

İndi eşitdiyimə görə Səudiyyə Ərəbistanında 300-dən çox Azərbaycanlı mütəxəssis çalışır. Xeyli sayda gənclərimiz burada ali təhsil alır. Biz buna görə sizə təşəkkür edirik. Əminliklə deyə bilərəm ki, bunlar elmi və ədəbi əlaqələrimizə kömək edəcək. Mən yuxarıda diplomatik, siyasi, iqtisadi mədəni əlaqələrimizdən söz açdım.

Lakin elmi və ədəbi əlaqələrimizə toxunmadım. Çünki bu əlaqələr hələlik o qədər də ürəkaçan deyil. İndi bizdə elmi əlaqələr üçün hər cür şərait vardır. Universitetlərimizdə, Neft və Qaz Akademiyamızda hər dildə dissertasiyalar yazmaq olar. Aspirantlara Bakıda oxumaq olar. Bizdə dil problemi yoxdur. İngiliscə, lap ərəbcə dissertasiya yazmaq olar.

Bizim universitetlərə tələbələr göndərmək olar ki, sonralar onlar Səudiyyə tarixi, mədəniyyəti və ədəbiyyatına dair əsərlər seçib Azərbaycan dilinə tərcümə etməkdə yardımçı olsunlar. Azərbaycanda ədəbi və elmi əlaqələrə dair işə, demək olar ki, başlanıb (əsərləri göstərirəm. Cəmi 7 əsər).

Sizdə novella janrı çox güclüdür. Arzu edərdim ki, romanlarınızı, dram əsərlərinizi, poeziya nümunələrimizi yaxın zamanlarda Azərbaycan dilində görək, xəbərdar olaq və sevinək. Diqqətinizə görə təşəkkür edirəm. Suallarınız olsa məmnuniyyətlə cavab verməyə çalışaram!

«AZTV»də ÇIXIŞIM GÖRÜCÜLÜK VƏ GÖRÜCÜLƏR BARƏDƏ

19.11.07.

Lap qədim zamanlardan nücum elmi intişar tapmış – 4 min il öncə Şumerlər dövründən məlumdur. Mesopotamiyadan baş alaraq Yunanıstan, İtaliya, Misir və başqa ölkələrə yayılmışdır. Azərbaycanda son vaxtlara qədər fələki elmi adlandırılmışdır.

Qədimdən alimlər qəti qənaətə gəlmişlər ki, yerlə-göy sıx əlaqədardır. Bu elmlə məşğul olanlara münəccim deyərdilər. Rəmmallar da bu elmlə bağlı olublar.

Görücülər isə tam başqadır. Onlar ilahi vergi ilə baş verənləri və gələcəkdə baş verəcəkləri bəyan edirlər. Görücülər də qədim zamanlardan məlumdur. Məsələn, görücü İpusinna Roma İmperatoru Yuli Sezarı xəbərdar edir ki, mart bayramı zamanı (e.ə. 15 mart 44-cü il) həyatı təhlükədə olacaq.

Sezar onu ələ salır. Lakin həmin gün Sezarı öldürürlər.

Onu da deyim ki, görücülər arasında Nostradamus fərqlənir. O, sözün həqiqi mənasında, astroloq idi. Hər şeyi planetlərin hərəkəti ilə təyin edirdi. Yerdə qalan görücülərdə isə tamamilə başqa cürdür. Biz qədim dövrlərə nəzər salmadan, yeni eranın X əsrindən mövcud olmuş bəzi görkəmli görücülərin adlarını sayaraq Vanqadan söhbət açacağıq. Biz o görücüləri deyirik ki, onlar tarixdə qalmışlar.

İrlandiyalı Müqəddəs Malaxiya, fransalı Ramo Nero, isveçrəli Filipp Parasels, serbiyalı Matar Tarabiç, ABŞ-dan olan Morqan Robertson, Edqar Keys, Cin Dikson və başqaları. Onların hər birində görücülük bir cür özünü göstərmişdir.

Nostradamusu çıxmaq şərti ilə Vanqa Qusterova ən görkəmli görücü olmuşdur. Bolqar bilicisi Vanqa qəribə taleli

görücü olub. Hər şeydən əvvəl, onu deyək ki, Vanqa – Vanqeliya yunan sözü olub «xoş xəbərlər carçısı» mənasını verir. Vanqa 31 yanvar 1911-ci ildə anadan olub, 1996-cı ildə 85 yaşında dünyasını dəyişib. Vanqanın 3 yaşı olanda doğuş vaxtı anası ölmüşdü. I Dünya müharibəsi başlayanda atasını əsgərliyə aparmışdılar.

Çox mehriban və xeyirxah qonşu – türk qadın Asanisa Vanqanı evinə gətirərək öz övladı kimi ona baxmışdı. Vanqanın 7 yaşı olanda atası müharibədən sağ-salamat dönmüşdü. 12 yaşı olanda bibisi qızları ilə kədin kənarındakı Xan bulağından su gətirməyə gedir. Gözlənilmədən tufan qopur. Ağacları kökündən qoparır. Dəhşətli burulğan Vanqanı götürüb xeyli uzağa atır. Onu budaqların, ot-ələfin, toz-torpağın içindən zorla çıxarırlar. Vanqa gözlərini açа bilmir. Həkimlər çarə tapa bilmirlər. Cərrahiyyə əməliyyatı da kömək etmir. O vaxtdan Vanqa kor olur. 1925-ci ildə onu korlar evinə qəbul edirlər. Lakin 1929-cu ildə atası öləndən sonra kiçik bacı-qardaşlarına həyan olmaq üçün evə dönür.

1940-cı ildə yuxusunda görür ki, gözəl bir gənc ağ atın üstündə onlara gəlir. Evin astanasından girər-girməz gəlib deyir: «Yaxınlarda bütün dünya tələtümə gələcək. Saysız-hesabsız insanlar qırılacaq. Sən insanların taleyini və ölümünü biləcəksən. Qorxma hər vaxt sənin yanında olacam. Sən insanlara mənim sözlərimi çatdıracaqsan. Tezliklə Vanqa məşhur bilici kimi tanındı. Dedikləri həqiqətə çevrildi. 1941–1996-cı illər arası yarım milyondan artıq adam Vanqaya müraciət edib. Vanqa onların dərdinin əlacını göstərib, itən şeylərinin tapılmasına yardım edib. İnsanların taleyini deməkdən çəkinməyib. Dünya miqyaslı problemlərdən danışıb.

O vaxta qədər məlum olmayan, o cümlədən də Spid xəstəliyindən danışıb.

Ondan soruşanda ki, bunları necə görür, cavab verir ki, görmürəm, eşidirəm. Elə bil uzaq qərib səs bunları telefonla deyir.

Vanqa Spid barədə maraqlı fikir söyləyir: «Vaxt gələcək, Spid xəstəliyi dəmir zəncirlərlə buxovlanacaq. Dərman icad olunacaq. At, it və tısbağanın hormonlarından».

Bəs niyə bu canlıların hormonlarından?

– At güclüdür, it dözümlüdür, tısbağa uzunömürlüdür.

AKADEMİK BUDAQ BUDAQOV «ŞƏNBƏ QONAĞI» OLARKƏN

Telefon bağlantısında dediklərim
(AzTV, 10.02.08)

Budaq müəllimin yaxınlarda «Ovqat» verilişində (İTV), indi isə sizdə – Azərbaycan Televiziyasında, «Səhər görüşləri»ndə çıxışı bir daha göstərir ki, qloballaşmanın qlobal fəsadları ilə həyatımıza daxil olduğu zəmanəmizdə ağsaqqal sözünə, ağsaqqal nəsihətinə böyük ehtiyac var. Həqiqətən də, Budaq müəllim el və elm ağsaqqalıdır. Akademik Budaq Budaqov qırx ildən artıqdır ki, mənə qardaş münasibəti bəsləyir. Bunu sonralar dərk etdim ki, bu münasibətin kökündə mənim tədqiqat obyektim olan, İraqda yaşayan soydaşlarımıza – İraq türkmanlarına, onların folkloruna, ləhcəsinə məhəbbəti dururmuş. Budaq müəllimin illərdən bəri patriarxı səlahiyyəti qazandığı coğrafiyaşünaslıq elmindən kənar olsam da, səmimiyyətlə «Əziz Qəzənfərə Budaqdan» avtoqrafı ilə hədiyyə etdiyi Şəhriyar, Nəbi Xəzri və Məmməd Araz poeziyasına həsr etdiyi kitabları, «Həcc ziyarəti», «Akademik Həsən Əliyev», «Elin oğlu», «Təbiəti qoruyaq» və fundamental «Türk uluslarının yer yaddaşı», eləcə də «Ermənistanda Azərbaycanmənşəli toponimlərin izahlı lüğəti» kitablarını oxuyaraq haqqında iki məqalə yazmışam: «Elm fədaisi» və «Elmimizin yanar şamlarından biri».

Budaq müəllim zəngin adamdır və bu təkcə onun elmi ilə ölçülmür. O mənəviyyatca zəngin adamdır. Böyük ziyalıdır.

Bağdadda Kazımiyyə məscidində Museyi Kazımla yanaşı uyuyan, hər gün minlərlə adamın ziyarət etdiyi dahi Azərbaycan alimi Nəsirəddin Tusinin, sanki Budaq müəlli-

min boyuna biçilən maraqlı fikri vardır: «Elm sahiblərini biliklərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçirmək lazımdır.

Bu baxımdan, vicdanı olan hər bir kəs təsdiq edər ki, akademik Budaq Budaqov zamanın sınağından uzaqlığı ilə çıxan bütöv şəxsiyyətdir. Budaq müəllimin ləngəri, oturuşuduruşu, ağayanalığı, sözünün və işinin ağası olması hamının həsədlə söz açdığı, ad-san qoyub getmiş köhnə kişiləri xatırladır.

Budaq müəllim, Bakı kəndlərində el-oba üçün yanan, xalq üçün çalışanlara «qənimət adam» – deyirlər. Siz qənimət adamsınız. Allah sizi bizə çox görməsin!

AZ.TV-də «ŞƏNBƏ QONAĞI» OLDUĞUM VAXT ÇIXIŞIM

01.03.08.

Aparıcı: – *Qəzənfər müəllim, xoş gəlibsiniz verilişimizə.*

– Sabahınız xeyir, Dilarə xanım. Xoş gördük. Dəvətə görə təşəkkür edirəm.

– *Qəzənfər müəllim siz ictimaiyyət arasında ədəbiyyatşünas, folklorçu, tərcüməçi, publisist, dilçi kimi tanınırsınız. Sizdə ədəbiyyata həvəs hardandır?*

– Orta məktəbdə mütaliəni çox sevirdim. İnanın ki, M.S.Ordubadinin bütün əsərlərini oxuyub sonda obrazlar barədə düşünür, yazılı şəkildə mülahizələrimi qeyd edirdim. Mən məktəbimizin kitabxanasında olan kitabları siyahı ilə oxuyurdum. Bunu qoyub, başqa bir mətləbə keçim. 4-cü sinifdə oxuyanda sərbəst mövzudan rayon üzrə müsabiqədə yer tutmuşdum. Şevçenkonun «Taras Bulba» əsərini bir gecəyə oxumuşdum. Oradan dərk etmişəm ki, vətənə xəyanət edən bağışlanmaz.

Ən çox sevdiyim Mehdi Hüseynin «Abşeron» romanı olub. Məndə əsl məhəbbət qığılcımları bu əsərlə başladı.

Bakıya gələndə ilk oxuduğum əsər «Şəfəq» romanı və ya povesti olub. Kənd həyatından bəhs edən əsərdə kəndin izi-tozu da yox idi. Bax buna görə müəllifin adını çəkmirəm. 12 vərəq dəftərdə tənqidi qeydlərimi yazıb «Azərbaycan gəncləri» qəzetinə apardım. Gəlməyimin məqsədini bilib bir nəfər gülərüz adamın yanına apardılar. Məsələdən hali olanda təbəssümlə dedi: «Get, bir az da tərifləməyi öyrən, sonra gələrsən».

Mənim tənqidçiliyim bununla bitdi. Bir neçə gün sonra yaxın qohumum Sabir Xasıyevgildə idim. Birdən televizorda həmin adamı göstərdilər. Sabir mayor idi. Dedi ki, bu Bəkir Nəbiyevdir, mənim əsgərim olub. Söhbət indi dostluq etdiyim akademik Bəkir Nəbiyevdən gedirdi.

Folklora maraq, Dilarə xanım, məndə kənddən yaranıb. Mən bu sualı Azərbaycan televiziyasında «Ozan» və «Durna teli» kimi çox sevilən verilişlərin müəllifi, dostum Əmirhüseyn Məcidova verərdim. O, Xızı rayonunda anadan olsa da, Bakıda böyümüşdü. Mən isə kənddə böyümüşəm. O vaxtlar nə işıq, nə radio, nə televiziya vardı. Mən laylalarla, oxşamalarla, bayatılarla, nağıllarla, dastanlarla böyümüşəm. Bax, Azərbaycan folkloruna məhəbbət məndə buradan yaranıb. Əgər deməydiniz Kərkük folkloruna məndə maraq, məhəbbət haradan başladı, bu başqa.

Dilarə xanım, icazə verin, Naxçıvandan zəng edib, ünvanıma qiymətli sözlər söyləyən akademik İsa Həbibbəyliyə təşəkkürümü bildirim. Sonra astrologiya elmindən danışaq. Astrologiya astronomiya elminə yaxındır. O, da səma ilə, planetlərin düzülüşü ilə bağlıdır.

Tale, qismət, qəzavü-qədər, alın yazısı, yazıya pozu yoxdur kimi bəşəriyyəti dünya bina olandan bəri düşündürən, əzəli və əbədi problemlər bir insan kimi, həyatım boyu məni düşündürüb. Cavabını tapmağa aciz olmuşam. Bu işdə XVI əsrdə yaşamış bənzərsiz görücü Nostradamusun katrenləri köməyimə gəldi. Onun əsrlərlə öncə yazdıqlarının sonralar və indi möcüzəli şəkildə yerinə yetməsi, özündən əsrlərlə sonra dünyaya gələn onlarla tarixi şəxsiyyətlərin nəinki adlarını, talelərini, hətta hakimiyyət müddətlərini dəqiq göstərməsi çox mətləblərdən söz açır.

Deməli, insanın həyatı proqramlaşdırılır. Mənə belə gəlir ki, bütün kainat sistemli şəkildə proqramlaşdırılıb, müasir terminologiya ilə desək kompyuterləşdirilib, hətta kodlaşdırılıb.

Tərcümə ilə bağlı onu deyə bilərəm ki, tərcümə, özü də orijinaldan tərcümə yaradıcılığımda əsas yer tutur. İngilis-Azərbaycan dilləri fakültəsini bitirmişəm. Tələbəlik dövründə hər il tərcümə üzrə müsabiqə keçirirdik. Üçüncü kursda

Abdulla Şaiqin «Məktub yetişmədi» hekayəsinin, IV kursda Cəfər Cabbarlının «Füruzə» hekayəsinin tərcüməsinə görə 1-ci yerə layiq görüldüm.

Tərcüməyə çox həvəsim vardı. Xeyli müddət institutda tərcümə kafedrasında çalışdım. Sevinirəm ki, üç il tərcümədən dərs dediyim, indi həmkarım, professor Zeydulla Ağayev kimi tanınmış tərcüməçinin yetişməyində xidmətim olub.

Tərcümə etdiyim kitablardan aşağıdakıları göstərə bilərəm:

Aleksandr Düma. Qafqaz səfəri (Yazıçı, 1985); Sula Benet. «Necə yaşayasan, yüzü haqlayasan» (Yazıçı, 1989); Aqata Kristi. «Mavi qatarın sirri» (Elm, 1995).

Vaxt barədə: Mənə görə ən böyük cinayət insan üçün vaxtı boş keçirməkdir. Sanki insan özü-özünə qəsd edir.

Pyer Ronsar, XVI əsr fransız şairi:

«Əfsus! Gedən vaxt deyil, bizik» – deyir.

Görkəmli ədəbiyyatşünas alimimiz Yaşar Qarayevin stolunun üstündəki lövhədə yazılmışdı: «Vaxt qızıldır!»

Ayaz Vəfalının iş masasının üstündə yazılıb: «İtən qızılı tapmaq olar, itən vaxtı yox!»

Vaxtı itirdiyimə görə heyifsilənirəm.

M.F.Axundov adına Pedaqoji İnstitutda kafedra müdiri işləyirdim. Eyni zamanda Fakültə Partiya təşkilatının katibi seçilmişdim. Üç il sonra isə iki müddət 6 il İnstitut Partiya təşkilatı katibinin 1-ci müavini işləyəndə vaxt itirmişəm. Ona görə demirəm ki, Kommunist Partiyasına xidmət edirdim. Belə desəm riyakarlıq etmiş ollam. Sadəcə olaraq 9 il gəncliyimi, enerjimi itirdiyimə heyifsilənirəm.

Poeziya haqqında. Bir-birini tamamlayan poeziya və musiqi hamı kimi mənim üçün də mənəvi qidadır.

Anadan olandan qəbrə qədər poeziya insanla yoldaşlıq edir. İxtisasından asılı olmayaraq hamı poeziyanı sevir. Poeziyanı insan hər dövrdə bir cür başa düşür və dəyərləndirir.

Onun həmişəyaşar olmasının başlıca səbəbi budur. O bəşəridir. Nizamini, Xaqanini, Nəsimini, Vaqifi zamanında olduğu kimi sevir, əzbərləyirik.

Poeziya heç nədən, heç kimdən asılı olmayan bir aləmdir. O, hərə ilə bir cür danışır. Bu aləmin daxilinə vardıqca insan riqqətə gəlir. Budu poeziyanın sehri və gücü.

Kim desə ki, gənclikdə səhv etməmişəm, inanmayın. Biriki dəfə atamın sözünü eşitməzliyə vurmuşam. Böyük qardaşımın xatirinə dəymişəm. İnstitutu bitirən vaxt, dövlət imtahanında haqsızlığına görə müəllimi təhqir etmişəm. Buna haqqım yox idi.

Ümumiyyətlə, yalnız müdrik adam səhv etməz. Müdriklik isə yaşla gəlir başa. Başında ağlı olan adam səhvindən nəticə çıxarar.

Bir sözlə, böyüyün sözünü eşitmək və yerinə yetirmək gərəkdir. Əks təqdirdə bizim dialektimizdə işlənən atalar sözü yerini alar: «Böyüyün sözünə baxmayan böyürə-böyürə gedər». Bu ifadəyə görə üzr istəyirəm, tamaşaçılardan. Lakin bizdə çox işlənir.

Yaradıcılığımla bağlı onu deyə bilərəm ki, 2007-ci il mənim üçün uğurlu olub. Akademik Bəkir Nəbiyevin «Heydər Əliyev haqqında etüdlər» kitabına həsr etdiyim «Tarix qurub-yaradanları yaşadır» məqaləm «Azərbaycan» qəzetində çıxıb, «Nostradamusun möcüzəli aləmi» kitabım işıq üzü görüb. On ilə yaxın üzərində işlədiyim kitab 760 səhifədən ibarətdir. Kərkükdə giriş məqaləsi ilə (Bəndəroğlu ilə birgə) Rəsul Rzanın «Ağlayan çox, gülən hanı?» kitabını (Kərkük, 2007) və Elçinin «Mahmud və Məryəm» (Kərkük, 2007) əsərini «Elçinin sənət dünyası» giriş məqaləmlə buraxmışıq.

Yaşar Qarayevə həsr etdiyim «Ədəbiyyatşünaslıq elmimizin iftixarı», yazıçı Nahid Hacılıya həsr etdiyim «Əbədiyyətə aparan yollar və illər», «Nəsiminin həyat və yaradıcılığına yeni baxış», «Kərkük folklorşünasları», Tovuzlu Aşıq

Ələsgərə həsr olumuş: «Tarixə çevrilən iki görüş» məqalələrim çıxıb.

Neçə-neçə namizədlik və doktorluq dissertasiyaları üzrə opponent olmuşam. Elm elə bir ümmandır ki, baş vurdun, qəvvasa dönürsən, başqa bir aləmə düşürsən.

Qədim Çin mütəfəkkiri Konfusi bu barədə gözəl deyib. «Elm, bilik elə bir həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir».

Mənə belə gəlir ki, elmin qiymətini Peyğəmbərimiz dəqiq verib: «Altmış il ibadətlə məşğul olmaqdan, bir gün elmlə məşğul olmaq daha savabdır».

MİLLİ ELMLƏR AKADEMİYASINDA YAŞAR QARAYEV HAQQINDA ÇIXIŞIM

2 mart 2008-ci il

Böyük alim, kamil şəxsiyyət Yaşar Qarayev yaradıcılığının çiçəkləndiyi bir dövrdə – 2002-ci ilin avqust ayının 25-də 68 yaşında dünyasını dəyişdi və layiq olduğu Fəxri xiyabanda dəfn edildi. O, əsl ziyalı nümunəsi idi. Onunla dostluq edəndə dərindən dərk etdim ki, ziyalı təkcə savadlı olmaq deyildir. Sözsüz ki, ziyalı yüksək intellekt sahibi olmalıdır. Eyni zamanda yüksək mənəviyyatlı, eqoizmdən kənar, təvazökar, ədalətli, millətin ağrıları ilə yaşayan, mənsəbpərəstlikdən uzaq, bir sözlə, qüsursuz adamı ziyalı adlandırmaq olar. Ziyalı ictimaiyyət tərəfindən etiraf olunar. Yaşar müəllim əsl ziyalı, əsl alim olduğundan ehtiram abidəsinə çevrilmişdi.

Təkrarsız ədəbiyyatşünas alim Yaşar Qarayevlə uzun illər dostluq münasibətində olmuşam. Bizim dostluğumuz mənəvi ehtiyacdan doğurdu. Görüşəndə söhbətimiz çox vaxt İraqda yaşayan azərbaycanlıların – Füzulinin nəvə-nəticələrinin üstünə gəlirdi.

Alimin mənim 60 illik yubileyim münasibəti ilə yazdığı «Bayatıdan, xoyratdan başlayan yollar və illər» məqaləsi də əsasən İraq türkmanlarına dair tədqiqatlarımla bağlı idi. Əməyimə yüksək qiymət verilən məqalə belə başlayır: «Bizim üçün İraq Füzulidən, Füzuli Kərbəladan başladığı kimi, Kərkük də Qəzənfər Paşayevdən başlayır». Doğrudur, alimin ölümündən sonra «Ədəbiyyatşünaslıq elmimizin iftixarı» adlı məqalə yazaraq Nizami adına Ədəbiyyat İnstitutunda müzakirə etdirdim və «Ədəbiyyat» qəzetində çapına nail oldum.

Yaşar müəllimin sağlığında isə f.e.d. Tehran Əlişanoğlunun ona həsr etdiyi kitabın elmi redaktoru və sponsoru olmuşdum.

Yaşar müəllim təkidlə Dr.Ə.Bəndəroğlu ilə İraq–türkman folkloru antologiyasını hazırlamağımı istəyirdi. Nəhayət ki, onun arzusunu yerinə yetirdik. Kitaba özü ad qoydu: «Azərbaycan folkloru antologiyası» II cild, «İraq-türkman folkloru» (Bakı, «Ağrıdağ», 1999, təkrar nəşr, «Nurlan», 2009).

Kitabın redaktorluğunu Yaşar müəllim öz üzərinə götürdü. Dr. Bəndəroğlu ilə kitaba yazdığımız 42 səhifəlik giriş məqaləsini də Yaşar Qarayev əməlli-başlı redaktə etdi.

Aradan on il keçsə də, bu gün də təəssüflənirəm ki, Yaşar müəllimi giriş məqaləsinin müəlliflərindən biri kimi göstərmədim. Milli Elmlər Akademiyamızın müxbir üzvü, professor Yaşar Qarayev görkəmli ədəbiyyatşünas, tənqidçi, teatrşünas və folklorçu idi.

İraqda yaşayan qardaş-bacılarımızı çox sevir, onların ədəbiyyatına, folkloruna dərin maraq göstərirdi. İstanbulda prof. Sübhi Saatçı ilə birgə «Türkiyə dışındakı ədəbiyyatlar. İrak–türkman cildi» kitabını buraxmışdı. Şəki və Göyçə folkloru kitablarına ön söz yazmışdı. Həmin kitablara və Cavad Heyətin «Azərbaycan şifahi xalq ədəbiyyatı» kitabına ön söz yazmış, redaktə etmişdi.

Ədəbiyyat İnstitutunda görkəmli İraq-türkman alimləri, professorlar Sübhi Saatçı, Mahir Naqib və türkiyəli alimlərin də fəal iştirak etdiyi İraq-türkman folkloruna dair elmi konfrans keçirdi.

«İraq-türkman folkloru» kitabım İstanbulda Kərkük vəqfi tərəfindən buraxılaraq (1998) təqdimatı keçiriləndə akademik Bəkir Nəbiyev və Ayaz Vəfalı ilə bərabər, Yaşar Qarayev də İstanbula getdi və tədbirdə sürəkli alqışlarla qarşılanan çıxış etdi.

Dr. Əbdüllətif Bəndəroğlu ilə də dostluq edirdi. Yaşar müəllimin 60 illik yubileyinə Bəndəroğlu teleqram göndərmişdi. Yaşar müəllimin ən çox xoşuna gələn Bəndəroğlunun yazdığı bayatı idi.

Yaşar könlüm;
Çırpınar, yaşar könlüm.
Bağdadda bir ah çəkər,
Bakıda yaşar könlüm.

Kaş o günlər olaydı. Onda dostlarımın hər ikisi sağ idi.

Yaşar müəllim sağalmaz xəstəliyə tutulmuşdu. Lakin heç vaxt bədbinliyə qapılmazdı. Son günlərini yaşayırdı. Bir gün Bəndəroğlunun göndərdiyi bayatını xatırladı. Ümid diləyən gözlərlə mənə baxdı və məndən eşitdiyi bayatını əzbərdən söylədi:

Keçdi ömrüm;
Gör necə keçdi ömrüm.
Harayladım dönmədi,
Elə bil heçdi ömrüm.

«Bu bayatını sanki mənə həsr ediblər» – dedi və nəmli gözlərini məndən gizlətməyə çalışdı.

AZ.TV-də «ŞƏNBƏ QONAĞI» OLAN NƏRİMAN HƏSƏNZADƏ BARƏDƏ TELEFON BAĞLANTISINDA DEDİKLƏRİM:

03.05.08.

Nəriman müəllim, Dilarə xanım, bütün sabahlarınız xeyrə açılsın! Nəriman müəllimin yaradıcılığını izləyəndə qədim romalıların həqiqətdən uzaq olmayan bir kəlamı yada düşür: «Natiqlər yetişir, şairlər doğulur». Bu, Nəriman müəllim kimi əsl şairlər haqqındadır. Nəriman müəllim anadangəlmə şairdir. Lirik şair deyəndə mənim gözlərim önündə nədənsə Nəriman Həsənzadə canlanır. Nəriman Həsənzadə həm yaradıcılığı, həm rəftarı, həm ziyalılığı ilə müəllimdir və burada bir məsələyə aydınlıq gətirmək istəyirdim. Mənim qənaətimə görə əsl müəllim o deyil ki, öyrədir. Əsl müəllim o şəxsdir ki, ondan öyrənirsən.

Nəriman müəllimi yaxından tanıyanlar mənimlə razılaşar ki, o, cavanlığından ağsaqqal olub. Bu onun saçının ağlığında, yaşanan illərin sayında deyil, ona hörmət, ehtiram, böyüklük qazandıran əməllərindədir.

Nəriman müəllim, yaxşı bilirsiniz ki, heç bir vəzifə, rütbə, eləcə də var-dövlət insana həqiqi ehtiram qazandıra bilməz. Yüksək insani ləyaqət yaradıcı idrakla əldə edilir. Siz ziyalılığınızla, yüksək əxlaqi keyfiyyətlərinizlə, xeyirxahlığınızla, bənzərsiz əsərlərinizlə, xalq arasında da, yaradıcı adamlar arasında da ən çox sevilən şairlərdənsiniz. Əsərləriniz təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudları xaricində də, xüsusən İraqda yaşayan soydaşlarımız arasında çox sevilir. Mən bu barədə hələ 1985-ci ildə çıxan «Altı il Dəclə-Fərat sahillərində» kitabımda yazmışam.

Bu bəndi də vermişəm kitabımda:

Məhəbbət nə deyim, o ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir.

1979-cu ildə «Sən bağışladın» kitabınız çıxanda, artıq o vaxta qədər sevimli müğənnimiz Zeynəb Xanlarova eyni adlı şeirinizə yazılmış məşhur «Sən bağışladın» mahnısını oxuyurdu. Həmin kitabınıza ilk rəy yazan mən oldum. Elə o vaxtdan ən sevimli şair kimi qəlbimə hakim kəsildiniz. Sözümü Şeksprin bir soneti ilə bitirmək istəyirəm:

Eşqimi tərifləyib heç kəsi aldatmıram,
Çünki məhəbbətimi kimsəyə mən satmıram.

ATATÜRK MƏRKƏZİ. PROF. ELMAN QULİYEVİN «TÜRK XALQLARI ƏDƏBİYYATI» KİTABININ TƏQDİMATINDA ÇIXIŞIM

22.05.08.

Elman müəllim, artıq Pedaqoji Universitetin divarları arasına sığmayan alimdir. Kitabın üz qabığındakı tarix qədər qocaman, kökləri yerin tərkinə – dərinliklərinə qədər işləyən, budaqları göyün ənginliklərinə qədər yüksələn, türklər kimi yaşı bəlli olmayan, palıd ağacından başlamış bu kitabda hər şey gəl-gəl deyir.

«Türk xalqları ədəbiyyatı» adlanan bu kitab bir yandan türk xalqları arasında ədəbi əlaqələrin genişlənməsinə xidmət edir, başqa bir tərəfdən də özünəqayıdışa xidmət edir. Gənclərimizə türk xalqlarının ədəbiyyatı, görkəmli ədibləri, adət-ənənəsi barədə ən gözəl məlumat verir.

Professor Elman Quliyev mənim üzvü olduğum Nizami adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasında cəmisi 4 il bundan əvvəl «M.Şəhriyar yaradıcılığının təkamülü» mövzusunda doktorluq dissertasiyası müdafiə etsə də, keçən ildən həmin şuranın üzvüdür. Təkcə bu fakt alimin səviyyəsindən, ədəbiyyatçılar arasında mövqeyindən, nüfuzundan xəbər verir. Qısa zaman kəsiyində onun elmin daşlı-kəsəkli yollarında büdrəmədən irəliləməsi, mənə belə gəlir ki, onun ədəbiyyata dərin məhəbbətindən, vurğunluğundan irəli gəlir.

Onun Pedaqoji Universitetdə fəaliyyətə başladığı 1991-ci ildən bu günə kimi yazdığı sanballı əsərlər göstərir ki, ömrünün müdrik çağlarını, qələminin daha məhsuldar dövrünü yaşamağa başlayan Elman Quliyev – hələ çox işlər görəcək,

bir-birindən maraqlı məqalələr, dərslik və monoqrafiyalar yazacaq. Yeri gəlmişkən, bu günlərdə Elman müəllimin akademik İsa Həbibbəylinin 690 səhifəlik «Ədəbi-tarixi yaddaş və müasirlik» kitabına həsr etdiyi, «Ədəbiyyat» qəzetində çap olunan məqaləsi əməlli-başlı əks-səda doğurdu.

«Türk xalqları ədəbiyyatı» kitabını oxuyub qurtarmağıma az qalmışdı. Futbol başladı. Əliağa Kürçaylının «Futbol Şekspiri üstələyibdir» şeiri yadıma düşdü. Kitabı oxuyub qurtarmamış futbola baxmadım.

Kitabı həvəslə oxudum. Özüm üçün çox şey əxz elədim. Bəyəndim. Kitab, həqiqətən də, təkcə tələbələr, aspirantlar, magistraturada oxuyanlar üçün deyil, indi onlara dərs deyən, gənc müəllimlər üçün də nəzərdə tutulub və çox faydalı vəsaitdir.

Arzu edirəm ki, yaxın illərdə müəllifin daha ölçülüb-biçilmiş, daha əhatəli dərsliyini görək.

«İTV»nin RADİOSUNDA ÇIXIŞIM

18.06.08.

Taleyini «Bilmirəm haralıyam, torpağım, daşım qərib» deyən İraq türkmanlarının taleyi ilə bağladığım 1963-cü ildən bu günə kimi Kərkük folkloru məni məftun etmiş, sözün həqiqi mənasında, sehrləmişdir. O vaxtdan bu qeyri-adi xalq müdrikliyinin əfsunu əsl məhəbbətə çevrilmişdir. Burada xalqın əsrlərlə yaratdığı, göz bəbəyi kimi qoruyub yaşatdığı saysız-hesabsız incilər vardır. Müəyyən ictimai-siyasi səbəblər üzündən Azərbaycan ədəbi dili dairəsindən kənarda qalan soydaşlarımızın ləhcəsində və folklorunda əxz ediləsi çox şey vardır. Bu nağıllarla, «Kitabi-Dədə Qorqud»la, «Koroğlu» və başqa məhəbbət, qəhrəmanlıq, ailə, məişət və s. dastanlarımızla başlayır, heyrətamiz gücə malik, ölməz sənət əsərləri səviyyəsinə yüksələn xoyrat və manilərdə də müşahidə edilir.

Prof. M.Həkimov Qazax rayonunun Kəmərli kəndində 110 yaşlı Bəhmən Mustafa oğlundan toplayaraq 1982-ci ildə çap etdirdiyi bayatılar kitabında oxuyuruq.

Azərb.	Kərkük variantı:
Əzizim Məndəlidən;	*Məndəlidən;*
Mən Məcnun məndəlidən.	*Gül gələr Məndəlidən.*
Ay ellər, Leylimə bax,	*Bu vəfasız yara bax,*
Küsübdü mən dəlidən.	*Küsübdü mən dəlidən.*

Xoyrat, mani və bayatılarımız, demək olar ki, eynidir:

Azərb.	Kərkük
Əziziyəm, yarı tər;	*Yarı tər;*
Yarı qönçə, yarı tər.	*Yarı qönçə, yarı tər.*
Kirpik çalma gözlərim,	*Kirpik çalma gözlərim,*
Kölgə salsan yar itər.	*Göz önündən yar itər.*

Və ya:

Eləmi, dərdə kərəm,
Bağlanıb dərdə kərəm.
Qoşmuşam qəm cütünü
Sürdükcə dərd əkərəm.

Dərdə kərəm,
Dərdim çox, dərdə kərəm.
Qoşmuşam qəm cütünü,
Sürdüxcəm dərd əkərəm.

Bir çox xoyrat və manilər xoyrat və mani çağıranların «qarşılaşması», deyişməsi zamanı yaranır. Burada məna bir yana, cinaslar da bir-birinə yaxın olmalıdır. Bu baxımdan xoyrat və manilərlə Bakı kəndlərindəki meyxanalar arasında bir yaxınlıq hiss olunur.

Manilərdə:

Köylüyəm xəxmanım yox,
Dərdliyəm dərmanım yox.
Gedirəm yar yanına,
Əlimdə fərmanım yox.

Cavab:

Köylü xərmanı neylir,
Dərdli dərmanı neylir.
İki könül bir olsa,
Əldə fərmanı neylir.

Xoyratlarda:

Günahımı;
Bağışla günahımı,
Deyillər gün tutulub,
Eşidib gün ahımı.

Günahımnan;
Xudam, keç günahımnan,
Cigərdən bir ah çəksəm,
Tutulur gün ahımnan.

Mənaya gözəllik vermək, onu daha da gücləndirmək, əvvəlki misralarda verilmiş fikri rövnəqləndirmək amacı ilə xoyrat və manilər arasında 6; 8; 10 misradan ibarət olanlara da təsadüf edilir:

Ağlaram ağlar kimin,
Dərdim var dağlar kimin,
Yüz yerdən yaralıyam,

Gəzərəm sağlar kimin,
İstərəm bir də gülüm,
Əvvəlki çağlar kimin.

Kərkük dolaylarında bu gün də 6 misralı xoyratlar yazırlar.

Musa Bəkdaşi:
Gülünü,
Yalan sözə gülünü.
Əsli bağban olmayan,
Yada verər gülünü.
Bülbül fəğan eyləyir,
Qoparıblar gülünü.

Əbdüllətif Bəndəroğlu:
Yaş qurudu;
Gün doğar, yaş qurudu.
Bu sinəm köz-köz oldu,
İçində yaş qurudu.
Gerçəyi inkar edən,
Ha deyər yaş qurudu.

Azərbaycanda da istər müəllifi məlum, istərsə də anonim olsun, 6 misralıq bayatılar qədərincədir.

Əmanidən bircə misalla kifayətlənəcəyəm:

Bağça barım arzular,
Aşiq yarın arzular.
Hər nə kim dünyada var,
Öz miqdarın arzular,
Məhəbbət meydanında,
Mənsur darın arzular.

Təəssüf ki, folklorşünaslar son dövrə qədər bu məlum həqiqətin üstündən sükutla keçirdilər. Eləcə də 1-ci sətrində hecalar kəm olan bayatıları tədqiqat süzgəcindən keçirmir, onların əvvəlinə «eləmi», «mən aşiq», «əziziyəm» kimi sözlər artırırdılar. Şükürlər olsun ki, İraq türkman xoyratları ilə tanışlıqdan sonra bayatılar barədə fikir dəyişdi. İraq türkmanlarında 1-ci sətri 3, 4, 5 hecadan ibarət olan, cinas bayatılara

xoyrat, bayatılara isə mani deyirlər. Maraqlıdır ki, XX əsrin əvvəllərində bayatılara bizdə də mani deyiblər.

Dinləyicilərə dörd xoyrat, iki mani təqdim edirəm:

Xoyratlar:

Bülbül kişidi gəldi,
Dərdə tuşidi gəldi.
Bülbül gül havasına,
Hələ qış idi gəldi.

Durdu qəm;
Açdı yaram, durdu qəm.
Mən miskin olduğumçün,
Üstümə qudurdu qəm.

Ağız dadı;
Pozulub ağız dadı.
Zamanın pozğunluğu,
Hər yerdə ağızdadı.

Bir daş atar,
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə,
Hər gələn bir daş atar.

Manilər:

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram,
Yaman çağımdı mənim.

Divara daş qoymuşam,
Uğrunda baş qoymuşam.
Gözlərimdən qan gəlir,
Adını yaş qoymuşam.

Hörmətli dinləyicilər, diqqətinizə görə təşəkkür edirəm. «İTV» şirkətinin rəhbərliyinə isə Kərkük xoyratlarından söz açmağa imkan yaratdığına görə minnətdarlığımı bildirirəm.

YAZIÇILAR BİRLİYİNDƏ M.SEYİDZADƏNİN «BULUD AĞLAMAZ» KİTABININ TƏQDİMATINDA ÇIXIŞIM

15.12.08.

Mirəziz Seyidzadəni 1977-ci ildən tanıyıram. Tərcümələri «Kommunist» və «Ədəbiyyat və İncəsənət» qəzetlərində çıxırdı. Tanışlığımız Goradil kəndində hüzür yerində oldu. Füzulişünas Mayıl Əliyev və akad. Vasim Məmmədəliyevlə gəlmişdi. İlk tanışlığımız mənə qəribə təsir bağışladı. Hər üçü mənalı lətifələr danışırdı. Həyatımda gördüyüm 1-ci molla idi ki, xurafatdan, mövhumatdan, cəhalətdən kənar idi. Xalq qarşısında xidmətləri olan adamdır. Onun «İslami söhbətlər» və «Allahımı necə tanıdım» əsərlərini həyəcansız oxumaq olmur. Onun neçə illərdən bəri buraxdığı «Kəlam» jurnalı istər poliqrafik cəhətdən, istərsə də məna, məzmun cəhətdən çox dəyərlidir.

Hər ikimiz Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın (fikir verin: Dini-Elmi deyil, məhz Elmi-Dini Şura) üzvüyük. İrfam məclislərində onun gözəl qəzəllərinə yüksək qiymət verildiyinin dəfələrlə şahidi olmuşam. Əvvəllər adını gizli saxlayaraq «Pünhan» təxəllüsü ilə yazan, sonralar əsl alim kimliyini aşkar edən Əziz Pünhan «Bulud ağlamasa» adlı böyük həcmli kitabı ilə görüşümüzə gəlmişdir.

Kitabda qəzəllər, qəsidələr, təxmislər, rübailər, ithaflar, satirik və s. şeirlər, eləcə də Esselər adı altında, mənə belə gəlir ki, mənsur şeirlər toplanıb. Burada «Biri var idi, biri yox idi», «Qönçəm», «Çiçəklə suyun hekayəti» kimi biribirindən maraqlı, təsirli, insan qəlbinə sirayət edən mənsur şeirlər və hətta şairin öz təxəyyülünün məhsulu bayatılar vardır:

Güldan gözəl,
Gül gözəl, güldan gözəl.
Gül gəlib gül almağa,
Gül alan güldən gözəl.

Əziz Pünhan Masallı rayonunun Türkoba kəndindəndir. Bu bölgədə və Bakı kəndlərində körpələrin ana südündən sonra mənəvi qidası əruz vəznində yazılmış şeirlərdir. Təsadüfi deyil ki, onun qəzəli çoxdur.

Əziz Pünhanın qədərincə gözəl qoşmaları da vardır. Vaqif Yusifli maraqlı ön sözdə bu barədə danışıb.

Hacı, arzu edirəm kitabının qədəmi uğurlu olsun! Yeni-yeni kitablarınla bizi sevindirəsən!

AŞIQ HÜSEYN BOZALQANLININ KİTABININ TƏQDİMATINDA APARICI KİMİ SAZLI-SÖZLÜ GECƏDƏ ÇIXIŞIM. MUSİQİLİ KOMEDİYA TEATRI

24.01.09.

Hörmətli saz-söz xiridarları, cəmisi 20 gün ərzində Azərbaycan aşıq sənətinin inkişafında müstəsna xidmətləri olan Mikayıl Azaflının, bu axşam isə Hüseyn Bozalqanlının sənət dünyasına həsr olunan sazlı-sözlü gecənin keçirilməsi əlamətdar hadisə olub, möhtərəm Prezidentimiz və millət vəkili Mehriban xanım Əliyevanın musiqi mədəniyyətimizə qayğısının nəticəsidir.

Aşıq Hüseyn Bozalqanlı aşıq sənətinin memarlarından biridir. Doğrudur, aşıq sənətinin inkişafında payı olan Hüseyn Şəmkirli, Hüseyn Cavan və Hüseyn Saraclı kimi ustadlarımız da olubdur. Lakin Hüseyn Bozalqanlının yaradıcılıq diapozonu çox geniş olub və onda Aşıq Ələsgər kimi bədahətən şeir demək qabiliyyəti, istedadı parlaq olub.

Aşıq Hüseyn Bozalqanlı kimi ustadların gördüyü işlər izsiz qalmır. O, məktəb yaradan aşıqlardandır. Aşığın təsiri o qədər güclü olmuşdur ki, doğma Bozalqanlı kəndində hamı sənətkar olmağa meyil göstərmişdir:

Deyirlər, kolxoz qurulanda Bozalqanlıda hansı qapıya gediblər, cavab bir olub. Mən sənətkaram. (Sənətkarları qərara görə kolxoza yazmırlarmış.) Axırda deyirlər, odur bax, o evdə Fedya adlı rus yaşayır, gedin onu yazın. Kolxozu ruslar yaradıblar, canları çıxsın, qoy özləri işləsinlər kolxozda. Fedya deyir: «Mən sənətkaram». Ay arvad, o sazı bura gətir. Sazı sinəsinə basır, çalır və oxuyur:

Vurulmuşam telli saza,
Öz adımdı Fedya mənim.
Ustadımdı Aşıq Mirzə,
Şəyirdimdi Nadya mənim.

Deməli, arvadı da sənətkar oldu.

Burada həqiqətə söykənən, ümumi mənzərədən söhbət açan bir mətləb də vardır.

Başqa bir misal:

Azaflı Mikayılın «Qoca Azaflıyam» kitabının «Qıfılbənd deyişmələri» bölməsində söz açmışıq ki, Səlyan aşıqları Mikayıl Azaflıya açması müşkül olan qıfılbənd göndərdilər. Azaflı qıfılbəndi açа bilmir. Gecə gedir Aşıq Hüseyn Bozalqanlının qəbrinin üstündə yatır. Gecə yuxusuna girir ki, ustadı Aşıq Mirzə Hüseyn Bozalqanlıya deyir: «Ay Hüseyn qağa, yazıqdı bu uşağa kömək et». Aşıq Hüseyn deyir: «Ay Mirzə, mən ona nə kömək edim, o, həftənin günlərini, ayların sayını bilmir». Qıfılbəndin açarı bu imiş. Azaflı Mikayıl qıfılbəndi açır.

Sual olunur. Mikayıl Azaflı niyə başqa aşıqların deyil, Aşıq Hüseyn Bozalqanlının qəbri üstündə yatır. Səbəb aydındır. Hüseyn Bozalqanlı qüdrətli sənətkar və şair idi. Aşıq Hüseyn Bozalqanlı o qədər qüvvətli sənətkar olub ki, onun məclisinə gəlməyə hər aşıq cürət etməzmiş. Aşıq sənətinin zirvələrindən olan Aşıq Ələsgərlə döşləşməsi, onunla dəfələrlə deyişməsi çox mətləblərdən söz açır. Təəssüf ki, əlimizdə olan bu kitab aşığın poeziyasının az bir hissəsini təşkil edir. Mən Əli Quliyevin 3–4 il bundan əvvəl çap etdirdiyi kitabı da, aşığın qohumları Fəxrəddin Quliyev və Ələddin Quliyevin tərtib etdikləri bu kitabı da yüksək qiymətləndirirəm. Hüseyn Bozalqanlı elə bir abidədir ki, onun daha möhkəm, daha davamlı olmasında bir kərpic qoyanın da, yüz kərpic qoyanın da xidməti təqdirlə yad edilməlidir.

Ancaq deməliyəm ki, Fəxrəddin Quliyev və Ələddin Quliyevin tərtib etdikləri kitabda gələcək nəsillərə faydalı olacaq tədqiqat işi, kitabın redaktorlarından biri kimi məni qane etdi.

Mən təəssüflə deyəndə ki, bu kitabda aşığın şeirlərinin bir qismi yer alıb, rəhmətlik Şəmşad Rza, məclisimizdə əyləşən Əli Quliyev, Qənirə xanım Paşayeva, Fəxrəddin və başqalarının sözünə əsaslanıram. Onların dediyinə görə repressiyanın şiddətləndiyi 1937-ci ildə qoca aşığı və oğlunu ENKEVEDİ-yə çağıranda aşığın gəlini qorxusundan aşığın bütün əlyazmalarını yandırdığından, əlimizdə olan əsər aşığın özünün və başqa aşıqların yaddaşında qalanlardır.

«LİDER» TV «İNCİLƏR» VERİLİŞİ, TELEFON BAĞLANTISI

Müəllif: Zamiq Əliyev. 25.01.09.

Hörmətli Zamiq müəllim! Çoxdandır görüşməmişik. Heç olmazsa telefon vasitəsilə sizi salamlamaq özü də bir təsəllidir. Sizin həm yaxşı bir tarzən, həm də nümunəvi ziyalı kimi xatirinizi çox istəyirəm. İmkan olanda verilişlərinizə baxır, ruhən rahatlanıram.

Verilişə, verilişinizə münasib layiqli adamları dəvət edirsiniz. Hay-küydən, mənəm-mənəmlikdən kənar. Elə bugünkü qonaqlarınız kimi.

İstedad milli-mənəvi dəyərlərə söykənməsə onun sahibi ürəklərə yol tapa bilməz.

Mətləbə keçərək demək istəyirəm ki, Flora xanım da, Yaqut xanım da talecə yaxın adamlardır. Vətənində doğma yurda həsrət qalmaq əlacsız dərdə çevrilir. Odur ki, Yaqut xanımın səsində, avazında, bir həsrət yanğısı, Flora xanımın qələmində bir həsrət nəğməsi aydınca görünür. Mən orta məktəbdə Məmməd Səid Ordubadinin bütün əsərlərini, 1-ci kursda oxuyanda Əyyub Abbasovun «Zəngəzur» romanını oxumuşdum. İnanın, əsəri göz yaşları ilə oxuyurdum. Deyirdim o uzaq gənclik illərində yaşanan hisləri bir daha yaşamaram. Lakin Flora Xəlilzadənin «Yolum düşə Zəngəzura» əsəri mənə eyni hisləri yaşatdı. «Ağlayanın göz yaşının nə demək olduğunu əvvəl ağlamış adam bilər» – deyirlər. Elə Əyyub Abbasov da lap uşaqlıqdan anadan, az sonra doğma yurd-yuvadan yetim qalmışdı. Bu ayrılıq, yanğı «Zəngəzur» romanında qəlbləri tələtümə gətirən nəğməyə çevrilmişdi. Görün Flora xanım nə yazır:

Quş da məndən vəfalı,
Daş da məndən vəfalı,
İldə bir yol vətəndə
Qış da məndən vəfalı.

Zamiq müəllim 12 kitab müəllifi dediniz. Mən, demək olar ki, onların hamısını oxumuşam. Flora xanım gözəl şairdir. Mən indi o barədə deyil, onun publisistikası barədə danışmaq istəyirəm.

Ümumiyyətlə, son vaxtlar daha çox bu tip ədəbiyyatı oxuyuram. Flora xanımın publisistikası çox güclüdür. Onun Flora Kərimovaya həsr etdiyi «Bənövşə ətirli səs» (1993) əsərindən başlamış, «Dağları tərpədən fəryad»a qədər bütün əsərləri maraqla oxunur. İnsanı düşündürür, demək yaşadır. Buna görə Flora xanıma təşəkkür etmək azdır. Ona və Yaqut xanıma yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

YAZIÇILAR BİRLİYİNDƏ NAHİD HACIZADƏNİN «YADA DÜŞDÜ» ƏSƏRİNİN TƏQDİMAT MƏRASİMİNDƏ TƏDBİRİN APARICISI KİMİ ÇIXIŞIM

28.01.09.

Bir şəxsiyyət və qələm sahibi kimi Nahid Hacızadə haqqında düşünəndə qədim yunan filosofu Sokratın bir kəlamı yada düşür. Tələbələri bir gün Sokratdan soruşurlar:

– Sizcə, ən böyük adam kimdir?

– Özü haqda kiçik fikirdə olan adam.

– Bəs ən kiçik adam kimdir?

– Özü haqda böyük fikirdə olan adam.

Nahid müəllim həddən artıq mülayim, təvazökar və sadə insandır. O, nümunə olacaq şəxsiyyətdir. Elə onun «Yada düşdü» əsərini və İradə Tuncayın əsər və müəllimi haqqında «Ədalət» qəzetində çıxan yazısı çox mətləblərdən xəbər verir.

Nahid müəllim söz adamıdır, düşüncə, fikir, təfəkkür sahibidir. «Yada düşdü» kitabını həyəcansız oxumaq olmur. Əsəri oxuyanda istər-istəməz yazıçı təfəkkürünə, yazıçı ürəyinə, insanlara münasibətinə heyran qalırsan.

Əsər çox xoşuma gəldi – demək azdır. Gənclərə arzu edirəm iki dəfə bizdən çox yaşasınlar. Özləri görsünlər ki, yaşlı adamlar xatirələrlə yaşayır, ən çox memuar – xatirə kitabları oxuyurlar.

Xatirə-memuarı bədii əsərlərdən fərqləndirən başlıca cəhət odur ki, burada həyat həqiqətləri hökm sürür. Bədii ədəbiyyatdakı xülyanın məhsulu deyil. Məhz buna görə də yaşlı adamlar xatirə-memuarlara üstünlük verir, belə kitabları oxuyanda öz xatirələri, ömrünün acılı-şirinli anları göz önünə gəlir.

Xatirə-memuarı hər adam yaza bilər, lakin o, yazıçı qələmindən çıxanda, xatirələr bədiiliklə çulğaşanda oxuduqca doymadığım «Yada düşdü» kimi əsərlər meydana gəlir. Bu əsər Nahid müəllimin yaradıcılığında ən uğurlu addımlardan biridir – desəm, səhv etmərəm. Kitabda təqdim olunan ədəbi incilərin düzülüşü də adama ləzzət verir. «Xatirələr, məqalələr, istəklər» başlığı altında toplanan bu yazılar 70 illik qaynar bir ömrün anlarını gözəl əks etdirir. İstəklər bölməsi 70 illik bu yola işıq saçır. Nahid Hacızadəni bir yazıçı kimi, bir ictimai xadim kimi, şəxsiyyət kimi, xeyirxah insan kimi hərtərəfli səciyyələndirir.

Kimlər haqda yazmayıb: Nazim Hikmət, Rəsul Rza, Ənvər Məmmədxanlı, Bülbül, Mir Cəlal, Əli Vəliyev, Mirzə İbrahimov, Nəsir İmanquliyev, İlyas Əfəndiyev, Teymur Elçin, Firidun Köçərli, Qoşqar Əhmədli, Əjdər Xanbabayev, Əliağa Kürçaylı, Lütvi Məmmədbəyov, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Vilayət Rüstəmzadə və başqaları.

Adı tarixə keçən görkəmli şəxsiyyətlərlə görüşmək, təmasda olmaq qürur gətirdiyi kimi, onlar haqqında yazmaq qürur və sevinc mənbəyinə çevrilir.

Hörmətli qələm sahibləri, məclisin aparıcısı səlahiyyətindən bəhrələnərək bir az çox danışdım. Bir məsələdən də bir-iki kəlimə danışıb meydanı sizə verəcəm. Bu müqəddəs məkanda Yazıçılar Birliyinin Natəvan adına zalda tez-tez tədbirlərdə iştirak edirik. Bəzən zalda çox az adam olur. Bu gün isə zalda bir boş yer yoxdur. Qapının ağzında ayaq üstə duran adamlara fikir verin. Nahid Hacızadə vəzifə sahibi olsaydı, buna başqa rəng verərdik. Yazıçı təqaüddə olan adamdır. Deməli, Nahid müəllimin qələm sahibləri arasında hörməti və nüfuzu vardır. Təmənnasız, iddiasız qardaşıma yeni-yeni uğurlar, möhkəm cansağlığı diləyərək meydanı sizə verirəm.

PROF. CAMAL MUSTAFAYEVİN HAQQINDA MUSİQİLİ KOMEDİYA TEATRINDA KEÇİRİLƏN GECƏDƏ «DƏDƏ CAMAL» KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞIM

28.01.09.

Hörmətli tədbir iştirakçıları, Camal müəllim kimi adamlar milli sərvətimizdir. Vətənin, torpağın qədrini bildiyimiz kimi, belə adamların da qədrini bilməliyik. Belə adamlar xalqa ucalıq, ehtiram gətirir. Bax elə buna görə «Xəzər» Universitetinin rəhbərliyinə ziyalı minnətdarlığımı bildirirəm ki, onun qədrini bildi, onu qorudu. Mən uzun müddət Camal müəllimlə bir institutda işləmişəm. İnanın ki, hamıya nümunə idi. Rəhbərlik etdiyi «Fəlsəfə» kafedrasında dinbərəkət, böyük-kiçik vardı, elmi mühit vardı. Onların hamısı Camal müəllimlə getdi. Camal müəllim institutumuzda sanki əxlaq, xeyirxahlıq, sadəlik, təvazökarlıq məktəbi yaratmışdı.

İşgüzarlıq atmosferi yaratmışdı. 20 ildən çoxdur başqa-başqa yerlərdə işləyirik, əlaqəni kəsməmişik. İki ağsaqqala istədiyim vaxt zəng edə bilərəm. Camal müəllim və akad. Bəkir Nəbiyev. Onların yüksək mədəniyyəti, ziyalılığı mənə bu ərkə imkan verir. Deməyə sözüm olur. Mən Tofiq Bayram, Mikayıl Azaflı, Hüseyn Arif, Hamlet İsaxanlı və başqaları barədə ən yaxşı yazıları Camal müəlliminki hesab edirəm. Onlar təkrarsızdır, bənzərsiz yazılardır. Haradasa oxumuşdum. Bir gün Sokratdan soruşurlar:

– Ən böyük adam kimdir?

Cavab verir:

– Özü haqda kiçik fikirdə olan adam.

– Bəs ən kiçik adam kimdir?

– Özü haqqında böyük fikirdə olan adam.

Burada böyük bir həqiqət, məntiq vardır. Biz kainatın zərrəcikləri olduğumuzdan bildiyimiz də zərrə qədər olar, artıq olmaz ki?

İnsan oğlu müəyyən həddə qədər öyrənə bilər. Böyük Füzulinin məşhur misraları var:

Əndişeyi zat qılmaq olmaz
Bilmək, bu yetər ki, bilmək olmaz.

Bu o deməkdir ki, heç nəyin kökünə insan oğlu, insan idrakı gedib çıxa bilməz. Bu, Yaradanla bağlı məsələdir.

Çox oxuyub çox bilənlər dərk eləyirlər ki, hər şeyi bilmək olmaz. Beləliklə əsasən Camal müəllim kimi filosoflar olurlar. Ədasız, tamahsız, saf, təmiz adla yaşayırlar. Vaxtında nəfislərinin ağzına qıfıl vurub açarını səmtinə baxmadan atanlar, beyinlərində nəfis kletkası hərəkətsizlikdən dərin yuxuya gedənlər xoşbəxtdirlər. Belə xoşbəxtlərin ön sıralarında Camal müəllim durur.

Camal müəllim həyatı boyu şərəf gətirən zəhmətlə çalışan adamdır. Vaxtı boş keçirənlərdən deyil.

İki-üç il öncə professor Hamlet İsaxanlı televizorda bir verilişdə, deyəsən, «Zamanla üz-üzə» verilişində çıxış edirdi. Mən belə verilişləri izləyirəm. Nəsə yeni bir şey öyrənirəm, belə verilişlərdən. Hamlet müəllim maraqlı bir mühakimə yürütdü: «Yaradıcı adam üçün ən böyük cinayət vaxtı boş keçirmək, vaxtını öldürməkdir». Camal müəllim boş vaxtını Axundov adına kitabxanada keçirərdi.

Onu da deyim ki, gənclikdə bir şakərim vardi. Fuad İbrahimbəyov, Camal Mustafayev və s. kimi adamların söhbətini dinləmək.

Kitabxanaya ayaq açmağım, bəlkə də, Camal müəllim və Asif Əfəndiyevin sayəsində olub.

Bir neçə il öncə Səadət Butanın yubileyi keçirilirdi. «Dədə Camal» poemasını qələmə almışdı. Bir parça oxudu. Mən çıxışımda dedim ki, seçdiyin obyekt elədir ki, poema sənə şöhrət gətirəcək, yaz. Nə yazsan, haqqında nə desən, çəkinmə, ürəkdən de, ziyalılar, söz qədri bilənlər əsərini qiymətləndirəcəklər. Çünki Camal müəllim özü qiymətli adamdır. Seçilən, sevilən adamdır.

Folklorumuz, aşıq poeziyası, müasir poeziyamız barədə ilhamla, vicdanla yazılmış məqalələri insanı düşündürür. İnsan isə düşünürsə demək yaşayır.

«SPACE»də «MƏDƏNİYYƏT SAATI» PROQRAMININ 100-cü VERİLİŞİ İLƏ ƏLAQƏDAR ÇIXIŞIM

07.02.09.

«Mədəniyyət saatı» verilişi haqqında nə deyim ki, bütün dünyada etiraf edilən bir həqiqətdən üstün olsun. Kimə məlum deyil ki, xalq mədəniyyəti ilə tanınır. Sizin «Mədəniyyət saatı» verilişi də, adından da göründüyü kimi, mədəniyyətimizin təbliğinə həsr olunur. Baxımlı verilişdir. İndi adamın hər tədbirə getmək imkanı olmur. Lakin sizin bu verilişə baxanda sanki həmin tədbirdə iştirak edibsən – təsiri bağışlayır. Süjetlər insanı keçmiş xatirələrlə görüşdürür, yeni məlumat əldə edirsən. Düşünürsən. Bu verilişdə insana mənasız görünən, itirdiyin vaxta, gözünün nuruna heyifsiləndiyin anlar, süjetlər olmur.

Mən neçə illərdir müxtəlif kanallarda, sahəmə uyğun verilişlərdə çıxış edirəm, «Mədəniyyət saatı» proqramında da dəfələrlə çıxış etmişəm. Yəqin elə buna görə də məni bu yubileyə dəvət edibsiniz. Bu ehtirama görə minnətdarlığımı qəbul edin. Bu proqram ən çox baxılan və ciddiyyətlə qəbul edilən proqramlardan biridir – desəm, səhv etmərəm. Bunu nədən bilirəm? Mən hər dəfə bu və ya başqa televiziya kanallarında çıxış eləyəndə dostlar, tanışlar zəng edir. Veriliş və mənim çıxışım barədə ürək sözlərini deyirlər. Səmimiyyətimə inanın, «Mədəniyyət saatı» verilişindən sonra gələn zənglərin sayı daha çox olur.

Deməli, sizin verilişinizin tamaşaçıları qədərincədir. Bu veriliş birbaşa Mədəniyyət və Turizm Nazirliyi ilə birgə layihə əsasında təşkil olunduğundan və «Space» kanalının rəhbəri Vaqif Mustafayev uzun müddət Mədəniyyət və

Turizm Nazirliyində müavin vəzifəsində çalışdığından bu sahəni yaxşı bilir. Bu isə «Mədəniyyət saatı» proqramının maraqlı olmasına dəlalət edir. Verilişinizin iki il sərasər davam etməsi çox mətləblərdən söz açır. Mən sizə bu gərəkli işinizdə uğurlar diləyir, verilişinizə dəvət etdiyinizə görə bir daha minnətdarlığımı bildirirəm.

«İTV»nin RADİOSUNDA ULU ÖNDƏRİMİZƏ HƏSR OLUNAN BİR SAATLIQ VERİLİŞDƏ SÖYLƏDİKLƏRİM

May, 2009

Öndərimiz Azərbaycan tarixində şərəfli yer tutan dahi şəxsiyyətdir. O, XX əsrin iki böyük türk oğlundan biridir. XX əsrin əvvəlində Atatürk Türkiyəni, XX əsrin sonunda Heydər Əliyev Azərbaycanı xilas etdi. Elə təkcə buna görə xalqın xatirəsində əbədi yaşamaq hüququ qazandı. Atatürk deyəndə gözlərim önünə Heydər Əliyev, Heydər Əliyev deyəndə Atatürk gəlir. Onların üzlərində də, gözlərində də, xalq üçün gördükləri böyük işlərin miqyasında da bir bənzəyiş vardır. Atatürk Türkiyənin, Heydər Əliyev müasir Azərbaycanın qurucusudur. Türkiyədə Atatürkün qurub-yaratdıqlarına müxalif çıxanlar cəzalandırılırdılar. Hətta hakimiyyətdə olan güclü partiya olsa belə, bu Azərbaycanda da belə olmalıdır. Öndərimizin qoyduğu yola alternativ yoxdur.

Heydər Əliyevin xalq qarşısındakı xidmətlərini saymaqla qurtaran deyil. İngilis arxitektoru olub Kristofer Ren. Londonda müqəddəs Pavel Başkilsəsini yaradıb. Dünyasını dəyişəndə bir çox krallar və görkəmli şəxsiyyətlərlə bərabər, onu da Müqəddəs Pavel kilsəsində dəfn edirlər. Lakin vəsiyyət edir ki, qəbrin yeri bilinməsin. Kilsənin girişində yazılsın: Ey insan, mənim qəbrimi axtarma. Öz əllərimlə yaratdığım məbədin harasına baxsan, mən oradayam».

Mənə görə Heydər Əliyev isə ürəklərdədir. Azərbaycan xalqının ürəyində. Azərbaycanın hansı guşəsinə getsən Heydər Əliyevdən xəbər verən xatirələr, izlər var. O, ölkəni kəndkənd gəzib. Əmək adamlarının adına qədər əzbər bilirdi. Yazıçı və şairləri özü ilə götürərdi. Öndərimiz Azərbaycan tarixində bir epoxa idi. Ədəbiyyatımıza, incəsənətimizə, mədəniyyətimizə böyük qayğı göstərirdi.

Dahi şəxsiyyətlər dünyalarını dəyişsələr də, onların yaratdıqları qalır. Fransa bu gün də Napoleonun yaratdığı və qoyub getdiyi qanunlarla işləyir. Azərbaycan da Heydər Əliyevin yaratdığı qanunlar əsasında işləyir və işləyəcək. Öndərimiz yeni Azərbaycan dövlətinin yaradıcısıdır. Heydər Əliyev Azərbaycan üçün nə etdi? Daha doğrusu nələr etmədi? Konstitusiya yaratdı, dövlət yaratdı, ordu yaratdı, ölkədə xaosu aradan götürdü, əmin-amanlıq yaratdı. Latın qrafikasına keçidi yoluna qoydu. Əsrin müqaviləsini həyata keçirdi. Az sonra Qazaxıstan və Türkmənistan nefti və qazı Azərbaycanın boru kəməri ilə Avropaya nəql olunacaq. Buradan gələn böyük gəlir xalqın əmin-amanlığına, həyat tərzinin yaxşılaşmasına, ordu quruculuğuna, onun güclənməsinə xərclənəcək.

Heydər Əliyev dahi şəxsiyyət idi. Dövlət başçılarının, dövlət xadimlərinin öndərimiz haqqında fikirləri çox mətləblərdən söz açır. N.Baybakov deyirdi ki, Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci bir adam tanımıram.

Şübhəsiz, öndərimizin xalqa olan bu intəhasız məhəbbəti onun xariqələr yaratmasına təkan vermişdi. Uzun müddət SSRİ Xarici İşlər naziri işləmiş A.Qromıkonun fikri isə öndərimizin fitri istedadından, təşkilatçı kimi yüksək keyfiyyətlərindən, dövlətin işlərində ən yüksək vəzifəyə layiq olduğundan xəbər verir. A.Qromıko etiraf edirdi ki, L.Brejnev öləndən sonra Baş katib vəzifəsinə ən layiqli namizəd H.Əliyev idi. Lakin milli mənsubiyyətinə görə onu seçmədik. Qromıkonun bu sözləri sonralar Brejnevə həsr olunmuş filmdə də öz təsdiqini tapdı.

Görkəmli şəxsiyyətlərin özləri kimi, kəlamları da tarixdə qalır. Bu baxımdan öndərimiz istisna təşkil etmir. Onun bir çox fikirləri, atalar sözləri, zərb-məsəllər kimi tarixə keçib.

«Bir millət iki dövlət», eləcə də «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır» və s. bu qəbildəndir.

Əlli ilə yaxındır ki, mən İraqda yaşayan, dili-dilimizdən, adət-ənənəsi, folkloru bir olan İraq türkmanları ilə bağlı tədqiqatlar aparıram. Lakin öndərimizin irəli sürdüyü, bircə cümlədə ifadə etdiyi fikrin sanbalına, dərinliyinə bənzər fikir irəli sürə bilməmişəm. Heydər Əliyev iki dəfə bizim kəndimizdə – Tovuz rayonunun Düzqırıxlı kəndində respublika üzümçülərinin zona müşavirəsini keçirib. Kəndimizdə öndərimizə böyük ehtiram və məhəbbət vardı. Bizim nəslimizdə isə qəlblərimizdə Heydər Əliyevin xüsusi yeri vardı. Bunu hamı bilirdi. Vəzirov hakimiyyətə gələndə məni M.F.Axundov adına Pedaqoji İnstitutunda Xarici dillər kafedrasının müdiri vəzifəsindən, az sonra isə Xalq Cəbhəsi hakimiyyətə gələndə kəndimizdə məktəb direktoru işləyən qardaşım Ələsgər müəllimi vəzifədən çıxartdılar. Ələsgər müəllimin işdən çıxarılmasının başlıca səbəbi Heydər Əliyevin portretlərini evində cəm etməsi olmuşdu.

Xalq arasında misal var: «Həqiqət nazilər, üzülməz». Haqq işi, əksər hallarda öz yerini tutur. İndi Ələsgər müəllimin qızı Qənirə Paşayeva millət vəkili kimi öndərimizin ölkəmizlə bağlı arzularının yerinə yetməsi yolunda var gücü ilə çalışır.

Heydər Əliyevin kəlamı vardır: «Tarix və bəşəriyyət həmişə quranları, yaradanları qiymətləndirir».

Həqiqətən də, belədi. Gəncədə «Şah Abbas məscidi» Bakıda «Bağırov körpüsü» tarixə onların adları ilə keçib. Görün öndərimiz nələr yaradıb, nələr qoyub gedib xalqımıza.

Deyirlər, insanın adını valideynləri, yaşını və qismətini yaradan, qiymətini xalq verir.

Ulu öndərimiz həyata keçirdiyi titanik işləri, misli görünməmiş əməlləri ilə Azərbaycan xalqı yaşadıqca onun qəlbində əbədi yaşayacaqdır.

NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA MEHDİ HÜSEYNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ YIĞINCAQDA ÇIXIŞIM

13.05.09.

Qol-qanad açdığım ağır illərdə anam dünyasını dəyişdi, beş uşaq ögey ana yanında böyüdük. Həyat da, yaşayış da ürəkaçan deyildi. Gəncədə təhsil almağım məsləhət görülürdü. Lakin ürəyimdə çoxdan Bakını seçmişdim. Bu Mehdi Hüseynin «Abşeron» romanı ilə bağlı olmuşdu. Bakı dəmiryol vağzalının pilləkənləri ilə enib-çıxmaq, Tahirə oxşamaq, onun kimi örnək olmaq ən böyük arzum idi. «Abşeron» mənə elə dərin təsir bağışlamışdı.

Tələbə olarkən oxuduğum «Ayrılan yollar» (İsmayıl Şıxlı) və Salam Qədirzadənin «Qış gecəsi» romanları da eləcə.

Bunun qabağında bəzi ağzıgöyçəklər bədii ədəbiyyatın təsir gücünə ağız büzürlər.

Mehdi Hüseyn böyük yazıçı, böyük publisist, ədəbiyyatşünas, böyük tənqidçi, böyük ictimai xadim, böyük şəxsiyyət idi. Bunların hər birinin arxasında böyük mətləblər durur. Həqiqət carçısı idi. Obyektiv və xeyirxah insan idi. Onun dostluq etdiyi insanları göz önünə gətirsək, kimlərlə oturub-durduğunu düşünsək görərik ki, o, istedadlı, sağlam məfkurəli, həqiqətin tərəfdarı olan adamlarla oturub-durub. Tanınmış tənqidçi Vaqif Yusifli buradadır. Mehdi Hüseyn haqqında «Ədəbiyyat qəzeti»nin keçən sayında sanballı məqalə də yazıb. Mən təkcə onu demək istəyirəm ki, indi 60-cılar nəsli kimi tanıdığımız qələm sahiblərinin ədəbiyyatımıza yeni ab-hava gətirdiyini, bu dövrün Azərb. Ədəbiyyatında yeni mərhələ olduğunu ilk qələmə alan Mehdi Hüseyn olub. Mehdi Hüseyn folklorumuzu dərindən bilib. Mənə belə gəlir ki, M.H.Təhmasibin 1943-cü ildə çap etdirdiyi bayatılar kitabına Mehdi Hüseynin

yazdığı «Giriş məqaləsi» hadisə idi. Çox-çox sonralar Bəhlul Abdullanın tərtib etdiyi Cənubi Azərbaycan bayatılarına Elçinin həsr etdiyi «Arazam Kürə bəndəm» məqaləsi və Ayaz Vəfalının «Həsrət nəğməsi» məqaləsi o səviyyədə idi.

Mehdi Hüseynin «Dədə Qorqud» dastanına həsr etdiyi «Mübarizə və qalibiyyət mahnıları» əsərini (kitab 10 min tirajla 1942-ci ildə «Uşaqgəncnəşr» tərəfindən buraxılıb) çap etdirdi. Bu o vaxt olub ki, Həmid Araslını «Kitabi-Dədə Qorqud»a görə çək-çevirə salırdılar.

Mehdi Hüseyn qorxmaz və cəsarətli qələm sahibi idi. 1940–1941-ci illərdə «Şamil» dramını yazmışdı.

Mən burada görkəmli yazıçının povestləri, romanları barədə danışmaqdan uzağam. Zalda əyləşənlər nəinki yazıçının əsərlərini dönə-dönə oxuyub, hətta tədqiqat da aparıblar.

Mən yazıçının elmin yaradıcılığından, ədəbi-tənqidi görüşlərindən də danışmaq fikrində deyiləm. Yazdığı elmi əsərlərin adlarını çəkməklə kifayətlənəcəyəm: «Vaqif. Həyat və yaradıcılığı», «Ədəbi döyüşlər», «Dədə Qorqud» haqqında yuxarıda danışdım; «Ölməz sənətkar» C.Cabbarlı haqqında, «Ədəbi qeydlər», «Ədəbiyyat və sənət məsələləri», «Ədəbiyyat və həyat» və s.

Bunlar yazıçının ədəbi tənqidi görüşləri barədə təsəvvür yaradan, aktuallığını bu gün də itirməyən dəyərli əsərlərdir, töhfələrdir. «Ədəbiyyat» qəzeti yazıçının 100 illiyini gözəl və əhatəli işıqlandırdı. Onlara da minnətdarıq.

Azərbaycan elminin karifeylərindən biri Nəsirəddin Tusi elm adamlarından danışarkən xüsusi vurğulayırdı ki, elm sahiblərini biliklərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçirmək lazımdır. Mənə qalırsa bunu Mehdi Hüseyn kimi qələm sahiblərinə də aid etsək səhv etmərik. Bütün parametrləri ilə bu sınaqdan Mehdi Hüseyn ləyaqətlə çıxdı və həyat göstərdi ki, Mehdi Hüseyn həm əməlləri, həm qələmi, həm təfəkkürü ilə xalqımıza üzağlığı gətirən şəxsiyyət idi.

«İTV»də CANLI YAYINDA – «AVAZ»da ÇIXIŞIM

14.05.09.

Hər şeydən əvvəl, türk qardaş və bacılarımı salamlayır, onların bütün sabahlarının xeyirə açılmasını böyük yaradandan təmənna edirəm.

Bir məsələni xüsusi vurğulamaq istəyirəm. Osmanlı və azəri türklərindən başqa, bütün türksoylu xalqlarda deyirlər: özbək dili, türkmən dili, qırğız, qazax, yakut, başqırd və s. dilləri. Bizlər isə deyirik. Osmanlı ləhcəsi, azəri ləhcəsi. Bununla da öndərimiz Heydər Əliyevin «Bir millət iki dövlət» kəlamı bir daha öz mənasını təsdiqləyir. Deməli, gözəlim Türkiyə bizə ən çox yaxın olan doğma bir dövlətdir. Burada indi nə qədər alimlərimiz, musiqiçilərimiz, müəllimlərimiz çalışır.

Maraqlıdır ki, ərəb aləmində isə bizə çox yaxın olan İraqdır. İraq bizə təkcə ona görə əziz deyil ki, burada müqəddəs yerlər var, dahi Füzuli burada uyuyur. İraq bizə bir də ona görə əzizdir ki, prof. Cəlal Əltuqun «Türkiyədə və dünyada İhsan Doğramacı Fenomeni» kitabında göstərdiyi kimi, orada 3 milyona yaxın dili dilimizdən olan bir soyköklü qardaş-bacılarımız yaşayır. Hər vaxt Türkiyənin və Azərbaycanın həsrətini çəkir.

Cəmisi 30 il əvvəl bizlərdə Türkiyənin adını çəkmək yasaq idi. Kim Türkiyədən söz açsa pantürkist damğası vurub çox vaxt zindana atırdılar.

İndi bizə bağımsızlıq – müstəqillik xoşbəxtliyi üz verib. Onu bizə çox görənlər Türkiyə ilə münasibətlərimizi pozmaq istəyirlər.

Sizin verilişlər ümummilli liderimiz Heydər Əliyevin «Bir millət, iki dövlət» kəlamının bariz nümunəsidir. Bu veriliş-

lərdə – proqramlarda Siz bu bir millətin, iki dövlətin həyatının elə bir sahəsi yoxdur ki, toxunmayasız. Bilim, kültür, musiqi, folklor, ədəbiyyat, poeziya və s. Bir sözlə, türk dünyasına dair hər şey.

Mən «Günaydın» proqramı aparıcısından çox məmnun oluram. Bəzən işim olanda da evdə qalıb onun davranışını, özünü aparmağını, təvazökarlığını müşahidə aparır, həzz alıram. Azərbaycanda hamı onu sevir, xəyalən ehtiram göstərir. Güman edirəm ki, Türkiyədə də bizim aparıcımız Salehi də yüksək qiymətləndirirlər.

Bu verilişin əhəmiyyəti ölçüyəgəlməzdir. Misilsiz xidmələrinizə görə sizlərə təşəkkür etmək azdır. Türkiyədə çoxlu dostlarım vardır. Buradan dostlarımı:

Kayseri Universitetində prof. Dr. Mustafa Arqunşah, prof. Dr. Mahir Nakip, Mimar Sinan Universitetində prof. Dr. Süphi Saatçı;

Ankarada – prof. Dr. Eflatun Nemanzadə, prof. Dr. Fikret Türkmen, prof. Dr. İsa Özqan, Ərşad Hürmüzlü və başqalarını salamlayıram.

Çox böyük savab iş görürsünüz. Dostları görüşdürürsünüz. Sizin verilişdə Mahir Naqip, Fikret Türkmen, Eflatun Nemanzadeni gördüm, sevindim. Həmin arkadaşlarıma salamlar göndərirəm. Allah bu birliyi biz qardaşlara çox görməsin.

ÜZEYİR HACIBƏYLİNİN EV-MUZEYİNDƏ

Mustafa Çəmənlinin «Leyli və Məcnun» 100 il səhnədə» kitabının təqdimat mərasimində çıxışım. 27.05.2009

Üzeyir Hacıbəyli Azərbaycan musiqişünaslığı tarixində ölkənin hüdudlarını yarıb beynəlxalq arenaya çıxan, nəzəri musiqişünaslığın zəngin üfüqlərində bərqərar olan ilk Azərbaycan bəstəkarıdır.

Üzeyir bəy o nadir istedad sahiblərindəndir ki, məşğul olduğu hansı sahəni götürsək, görərik ki, həmin sahədə 1-ci yerdədir. Dahi bəstəkar ilk operalarımızın, ilk operettalarımızın, himnimizin müəllifidir. Təsadüfi deyildir ki, mədəniyyət xadimlərimizdən ilk ev-muzeyi ona məxsudur. Bu gün həmin müqəddəs evdə, müqəddəs bir missiyanı yerinə yetirmyə – bəstəkarın «Leyli və Məcnun» əsərinin 100 illiyinə həsr olunmuş maraqlı bir kitabın təqdimat mərasiminə toplaşmışıq. Kitabı tanınmış qələm sahibi Mustafa Çəmənli yazmışdır. Üzeyir bəyin 22 yaşında olarkən yazdığı «Leyli və Məcnun» operası 100 ildir səhnədən düşmür. Bu, Üzeyir bəyin misilsiz fitri istedada malik olmasından söz açır. Üzeyir bəy kimi bir dahiyə, musiqi sənətimizin korifeyinə əsər həsr etmək nə qədər şərəfli olsa da, o qədər də məsuliyyətli bir işdir. Mən dahi və korifey sözlərini təsadüfi işlətmədim. Bu məqamda Saleh bəy Qarabağlının «Korifey» (Bakı, «Elm», 2006) əsərinə istinadən «dahi» və «korifey» sözlərinin məna tutumunu aşkarlamaq və Üzeyir bəyin bu titullara layiq olub-olmadığını diqqətə çatdırmaqdır.

Dahi o yaradıcı simadır ki, onun gördüyü işi ondan əvvəl heç kim görmüş olmasın və bu dünya səviyyəli nailiyyət olsun, nəhayət, dünyada qəbul edilsin.

Korifey isə o dahiyə deyirlər ki, o azı bir elm, sənət, texnika sahəsində yeni inkişaf istiqaməti açsın, bu istiqamətdə gələcək üçün fundamental əsas yaratsın, davamçılarının ilk nəslini hazırlasın.

Yalnız korifeylərin ilk əsəri klassikaya çevrilir. Üzeyir bəyin «Leyli və Məcnun» operası kimi.

Deyirlər, dahilərin bir şah əsəri olur. Mən bunu nisbi sayıram. Məsələn, Üzeyir bəyin «Koroğlu» operasını bəstəkarın şah əsəri hesab edirlər. Mənə görə onun hər bir əsəri şah əsərdir. Düz yüz il xalqımıza mənəvi qida verən, onun musiqi zövqünü formalaşdıran, səhnədən düşməyən «Leyli və Məcnun» şedevr deyilmi?

Qüdrətli bəstəkarın bütün dünyaya sevinc bəxş edən, başqa dillərə tərcümə edilərək səhnələşdirilən, uğurlu ekran təcəssümü tapan «Arşın mal alan» operettası şah əsər deyilmi?

Bəyəm bəstəkarın «Əsli və Kərəm» operası və ya «O olmasın, bu olsun» operettası şah əsər məqamında deyil? Məhz buna görə də qüdrətli fitri istedad sahiblərinin, dahilərin, o cümlədən də Üzeyir Hacıbəylinin hər bir əsərini şedevr – şah əsər hesab etmək olar.

Yaxşı yadımdadır, 1994-cü il noyabr ayının 2-də dahi Füzulinin 500 illk yubileyinə Prezidentimiz Heydər Əliyevin təyyarəsində Ankaraya getmişdik. Ümummilli liderimiz «Leyli və Məcnun» operasının göstərilməsini məsləhət görmüşdü. Xalq artistləri Alim Qasımov, Səkinə İsmayılova və başqa müğənnilər əcnəbi qonaqları heyrətə gətirmişdilər. Möhtəşəm musiqi və ovsunlayıcı sözlər xalq şairi Qabili məhvərindən çıxarmışdı. Şair, hətta Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəlin zalda olduğunu belə unudaraq «Anan ölsün» – deyərək sinəsinə döyürdü. Bir

çoxları saxlaya bilmədikləri göz yaşlarını xəlvəti silirdilər. İki dahinin – Füzuli və Üzeyir bəyin yaratdığı bu ölməz əsər buna görədir ki, 100 ildən artıqdır ki, səhnədən düşmür.

Tanınmış yazıçı, neçə-neçə roman, povest və hekayələr, esselər, oçerklər müəllifi Mustafa Çəmənlinin bu əsəri «Leyli və Məcnun» haqqında salnamədir. Bu əsər gərgin əməyin, məhəbbətin bəhrəsidir. Belə bir əsəri elə Mustafa Çəmənli yarada bilərdi. Bu işin öhdəsindən Xan Şuşinskiyə, Şövkət Ələkbərovaya, Əbülfət Əliyevə, Xanlar Haqverdiyevə, Səxavət Məmmədova «Muğam dünyasının Xanı», «Oxu, Şövkət», «Nəğməli xatirələr», «Sənətkar ömrünün izləri», «Səsin ruhu» kimi maraqla oxunan, sanballı əsərlər yazan qələm sahibi gələ bilərdi.

Ağlayanın göz yaşının nə olduğunu əvvəl ağlamış adam bilər. Adicə bir kitabı tərtib edib hasilə gətirmək aylarla vaxt aparır. Görün Mustafa Çəmənli nə böyük işlər görüb. Onun çox qiymətli və nadir faktları arxivlərdən, mədəni irsimizə qayğı göstərən insanlardan əldə edərək «Leyli və Məcnun» 100 il səhnədə» əsərində çap etdirməsi, oxucu və mütəxəssislərə təqdim etməsi, Üzeyir bəyə layiq belə bir əsər yazması təqdirəlayiqdir demək azdır. Bu, misilsiz bir iş, təkrarsız bir əsərdir.

Yorulmaq bilməyən, gecəni gündüzə qataraq işləyən, yeganə dayağı, ümid yeri qələmi olan, sadəliyi, təvazökarlığı ilə seçilən, xalq üçün gərəkli işlər görən Mustafa Çəmənli hazırda müğənni Mənsum İbrahimovun səhnə fəaliyyətindən bəhs edən «Məcnunun Məcnunu» əsəri üzərində işləyir. Gənclik illərindən yaxşı tanıdığım, şəxsiyyətinə və qələminə ehtiram göstərdiyim yazıçı qardaşıma yeni-yeni uğurlar diləyirəm.

İLYAS TAPDIQ – 75
«SPACE»də ÇIXIŞIM

01.08.09.

İcazə verin, hər şeydən əvvəl, belə verilişləri təşkil etdiyinə görə «Space»in rəhbərliyinə minnətdarlığımı bildirim. Yaradıcı adamı xalqa daha yaxından tanıtmaq, təbliğ etmək yolunda bundan yaxşı vasitə ola bilməz.

Yaradıcı adam belədir, ona yemək-içmək vermə, xidmətləri barədə xoş söz de. İnanıram ki, şair İlyas Tapdığa həsr olunan bu veriliş onun ömrünü xeyli uzadacaq.

Ömrü mənalı yaşamaq hər adama qismət olmur. İlyas Tapdığa qismət oldu. İlyas müəllim çox diqqətli adamdır. Bir də görürsən telefon açdı. Filan yerdə məqaləni oxudum. Sağ ol, yaxşı yazıbsan. O, nümunə məktəbidir.

İlyas Tapdıq yaradıcılığa çox erkən başlamışdır. Hələ II kurs tələbəsi olanda «Azərbaycan» jurnalında «Bakının gecəsi» adlı şeiri çıxmış, son kursda oxuyanda isə 30.000 tirajla ilk kitabı çıxıb. Sonra dalbadal şeir kitabları (1958, 1959, 1960, 1962 və s.) mötəbər nəşriyyatlarda çıxıb. 1958-ci ildən Yazıçılar İttifaqının üzvü olub. Məhsuldar şairdir. Özünün 20-dən artıq kitabı, 9 tərcümə kitabları çıxıb.

Çoxu İlyas Tapdığı «Uşaq şairi» kimi tanıyır. Buna haqları da var. Şairin uşaqlara həsr olunmuş 10-dan artıq kitabı var. Uşaq şairi olmaq çox çətindir. Mən həmişə ibtidai sinif müəllimlərinə və uşaq şairlərinə pərəstiş etmişəm. Uşaqların düşündüyünü, hissini, həyəcanını duymaq qabiliyyət tələb edir. Odur ki, hər müəllim sinif müəllimi, hər şair uşaq şairi ola bilmir. İlyas Tapdıq görkəmli uşaq şairi və eləcə də böyüklər üçün neçə-neçə şeirlər kitabının müəllifidir. Yadımdadır 1959-cu ildə «Gözlər» adlı şeirlər kitabı çıxmışdı. Kitabda tələbələr arasında bomba kimi partlayan «Gözlər

şeiri», Əli Kərimin «Qaytar ana borcunu» kimi məşhur idi. Onda mən III kursda oxuyurdum. Elə bu vaxt eloğlum, şair Rasim Kərimli məni onunla tanış etdi. Nə gizlədim, fikirləşirdim ki, belə bir kitabın müəllifi forsundan yerə-göyə sığmaz. Lakin o, sadə, təvazökar bir insan idi. Elə bil onu tanıdığım yarıməsrdir, onu həmişə belə görmüşəm.

Ziyalılar və oxucular poeziyasına və bu fərdi xüsusiyyətlərinə görə onu çox istəyir, ehtiram göstərirlər. Çünki o, yaşına və insanlara ehtiram göstərən xeyirxah insandır. Yaradıcı adamlara xidmət, özü də təmənnasız xidmət böyük savab işdir. İlyas müəllim ömrünün 50 ildən çoxunu redaktor işləyib. Bu çox ağır bir işdir. Bircə misalla kifayətlənəcəyəm.

Dünən Respublika sarayında «Kino günü»nə həsr olunmuş möhtərəm yığıncaq keçirilirdi. Yayın bu istisində düşünmək olardı ki, az adam gələcək, o yığıncağa. Lakin necə deyərlər iynə atsan yerə düşməzdi. Sonda təzəcə çəkilib qurtarmış «Cavad xan» filmi göstərildi. Filmin ssenari müəllifi xalq şairi Sabir Rüstəmxanlı film haqqında, bu işdə xidməti olanlardan danışarkən İlyas Tapdığa da öz təşəkkürünü bildirdi. Dedi ki, bəlkə də, vaxtilə kitabının redaktoru İlyas Tapdıq Cavad xanla bağlı şeirimi böyük risk edərək buraxmasaydı, mən bu mövzuya belə məhəbbətlə girişə bilməzdim.

Misalların sayını artırmaq da olardı. Güman edirəm ki, elə bu fakt İlyas Tapdığı səciyyələndirir. İlyas Tapdığın yaradıcılığında xalq sevgisi, Vətən sevgisi qırmızı xətt kimi keçir.

TOVUZ RAYONUNDA, HEYDƏR ƏLİYEV MUZEYİNDƏ POLKOVNİK ELDAR QASIMOVUN ANADAN OLMASININ 70 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN YIĞINCAQDA ÇIXIŞIM

Dekabr, 2009

Eldən-obadan çıxan, xalq qarşısında xidmətləri olan adamlarla görüş, onların kitablarının təqdimatı mənalıdır, örnəkdir. Lakin dünyasını dəyişmiş belə şəxsiyyətlərin haqqında kitab yazmaq və təqdimatını keçirmək, həm də savabdır. Eldar Qasımova həsr edilmiş «Peşəkar zabit, alicənab insan» kitabı və onun təqdimat mərasiminin keçirilməsinə mən bu baxımdan qiymət verirəm. Eldar müəllimlə mən çox sonralar yaxın oldum. Universitetdə işləyərkən Ədibə xanımın mənə yaxşı münasibətini də elə həmin vaxtlar hiss etdim. Bağlarımız Bilgədə idi. Tez-tez dəniz kənarında, ən çox da «Anburan» istirahət zonasında görüşərdik.

Elə hey deyirdi: «İndiyə kimi biz niyə yaxın olmamışıq?» Gülə-gülə deyərdim ki, Siz nisbətən yaşlı nəsillə oturubdurursunuz. Məsələn: Sayad Qılıcovla, Müseyib Müseyibovla, mənim qayınatam Mikayıl Əliyevlə.

Ona görə də biz kənarda qalmışdıq. Zarafatı başa düşən adam idi. Lakin şit zarafatdan xoşu gəlməzdi. Bu məsələdə fikirlərimiz üst-üstə düşürdü.

Bir dəfə «Anburan»da kölgədə oturub ərəb ölkələrindən söhbət edirdik. Gözlənilmədən dedi: «Sən ərəb ölkələrində çox işləmisən, orada din çox güclüdür. Yəqin yerli adamlarla söhbətlər edibsən. Sənin fikrincə Allah var, yoxsa yox?»

Qəfil və gözlənilməz sualdan özümü itirən kimi oldum.

Dedim ki, ən kiçik daşına, uzaq ulduzuna qədər dinlə bağlı olan ərəb ölkələrində Allahı inkar edəni inanmıram

sağ buraxalar. Səudiyyə Ərəbistanı və Misirdə azan vaxtı küçədə gedən ərəbi dini polislər tutub şallaqlayırlar ki, niyə namaza qatılmırsan. Misirin Aleksandriya şəhərində 100-dən çox adamın küçədə eyni vaxtda namaz qıldığını görmüşdüm. Lakin bir azərbaycanlı kimi, ali təhsilli bir adam kimi onu deyə bilərəm ki, gözə görünməyən, dərk edilməyən bir varlığın olub-olmadığını sübut etmək qeyri-mümkündür. Lakin bir şey var ki, bir halda ki, Allahın varlığına inananda qəlbinə bir rahatlıq gəlir, adam pis əməllərdən çəkinir, xeyirxah olmağa çalışır, ona niyə inanmayaq.

Gülümsündü və razılığını bildirdi. Mən onda bilmirdim ki, Eldar müəllim ağır seyidin nəvəsidir, Allaha inanan adamdır. Bundan sonra mən təəssüfləndim ki, niyə onunla əvvəllər yaxın olmamışam. O, əməlli-başlı filosof idi. Təəssüf ki, gələn çimərlik mövsümündə bir daha görüşmədik (2008). Bu vaxt o, artıq xəstəxana həyatı keçirirdi. İyun ayında haqq dünyasına üz tutdu.

«Peşəkar zabit, alicənab insan» kitabını oxuyandan sonra təəssüfüm daha da artdı, heyrətə döndü. Onun böyüklüyünü, gördüyü işlərin miqyasını bu kitabdan əxz etdim. Rasim Qasımovun – oğlunun yazısı isə məni məhvərimdən çıxardı. Oğul məhəbbəti məni həyəcana gətirdi!

Mən özümdəki yaxşı cəhətlərə görə valideynlərimdən sonra bəşəriyyətin ən böyük kəşfi olan kitablara və müəllimlərimə borcluyam. Belə kitablardan biri də bu gün təqdimatına toplaşdığımız və Tovuzun fəxr etdiyi, Tovuza başucalığı, üzağlığı gətirən Eldar Qasımova həsr olunmuş «Peşəkar zabit, alicənab insan» kitabıdır.

Kitabda akademik Arif Paşayevin (Eldar Qasımovun qaynı), general Maqsud Məmmədovun, akademik Vasim Məmmədəliyevin, baş ədliyyə müşaviri Nazim Əliyevin, prof. Müseyib Müseyibovun yazıları insanı düşünməyə vadar edir. Bu və başqa yazılar Eldar Qasımovun şəxsiyyətini

açıb göstərməklə bərabər, həyat, insan barədə fəlsəfi fikirlər toplusudur.

Bu yazılarda müdrikliyin sahilsiz ümmana bənzəyişini dərk etdim. Bu ümmanda peşəmlə əlaqədar o qədər də dərindən tanımadığım, həmişə sədası yaxşı gələn eloğlumu, onu itirəndən sonra tanıdım.

Allah Eldar müəllimə rəhmət eləsin!

CƏFƏR CABBARLININ EV MUZEYİNDƏ ASİF RÜSTƏMLİNİN «CƏFƏR CABBARLI: HƏYATI VƏ MÜHİTİ» KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞIM

(Yığıncağı mən aparırdım)

17.12.09.

Bu müqəddəs ocağa yığışan hörmətli qonaqlar!

Dramaturgiyamızdan söz düşəndə Azərbaycan ədəbiyyatı tarixində misilsiz xidmətlər göstərən iki yazıçımız göz önünə gəlir: M.F.Axundov və Cəfər Cabbarlı. M.F.Axundov təkcə Azərbaycanda deyil, yaxın Şərqdə dramaturgiyanın banisi kimi, Cəfər Cabbarlı isə ona yaradan tərəfindən verilən qısa ömür payında vüsətli işlər görmüş, Azərbaycan ədəbiyyatına yeni ab-hava gətirmiş, ölməz əsərlər qoyub getmişdir. O, nadir istedad idi. İnanmaq çətindir ki, teatr sahəsində təhsil görməmiş bir adam 20 yaşında «Aydın», 22 yaşında «Oqtay Eloğlu» kimi əsərlər yaza bilərmiş. Dramaturqun «Od gəlini», «Almaz», «Yaşar» və s. kimi əsərləri də indi gənc şair, gənc yazıçı kimi tanıdığımız qələm sahiblərinin yaşı dövründə yazılıb.

C.Cabbarlı xalqımıza böyük və tükənməz irs qoyub getmişdir. Odur ki, Məmməd Arif, Mehdi Hüseyn, Mehdi Məmmədov, İsmayıl Dağıstanlı, Paşa Əfəndiyev, F.Vəzirova və bir çox başqalarının Cəfər Cabbarlı yaradıcılığına müraciət etməsi, ona fundamental əsərlər həsr etməsi təsadüfi deyildir. Yazıçının təzə-tər yaradıcılığı həmişə tədqiqatçıların diqqətini cəlb edir, yeni-yeni tədqiqatlar onun yaradıcılığının yeni-yeni keyfiyyətlərini üzə çıxarır. Dr. Asif Rüstəmlinin yeni əsəri – «Cəfər Cabbarlı: Həyatı və mühiti» əsəri bu qəbildəndir. Bu fundamental əsər 8 fəsildən ibarətdir:

Cəfər Cabbarlı yaradıcılığının sübh çağı;
Cəfər Cabbarlı Cümhuriyyət dönəmində;
Cəfər Cabbarlı və gizli istiqlalçılar;
Cəfər Cabbarlının təhsil illəri;
Bədii həqiqətlər axtarışında;
C.Cabbarlı və gizli imza problemi;
Mütərcim Cəfər Cabbarlı;
Həyat və yaradıcılığının son dövrü.

Onu da deyək ki, C.Cabbarlı yeni adlar qalereyası yaratmışdı. Bu əsərdə sözügedən bir çox mətləblər bizim üçün yenidir. Ayrı cür də ola bilməzdi. Asif Rüstəmli necə illərdən bəri ədəbi aləmdə ciddi tədqiqatçı kimi tanınır. Mən onu bu möhtşəm əsəri münasibəti ilə ürəkdən təbrik edirəm!

RƏŞİD BEHBUDOV ADINA MAHNI TEATRINDA SƏMƏNDƏR RZAYEVİN 65 İLLİK YUBİLEYİNDƏ ÇIXIŞIM

06.04.10.

Hörmətli Səməndər sevərlər!

Kənddə böyümüş, radio, televiziya görməmiş bir adam üçün teatrın nə demək olduğunu sözlə demək çətindir.

Biz elə bir zamanda böyümüş, teatra əbədi vurulmuş adamlarıq ki, bu hissi əbədi yaşadırıq.

Mən Bakıya gələndə teatrın gəlhagəl vaxtları idi. Teatra bilet tapmaq müşkül məsələ idi. O vaxtlar hələ məşhur şairimiz Əliağa Kürçaylının ürəkağrısı ilə bəyan etdiyi:

«Futbol Şekspiri üstələyibdir» – şeiri yazılmamışdı.

İnsanlar teatra gələndə sanki yeniləşdirdilər. Mühit çox görkəmli aktyorları yetişdirmişdi. Saymağa ehtiyac duymadığım aktyorlardan sonra səhnəyə gəlmək, seçilmək, sevilmək, xalqın dərin məhəbbətini qazanmaq az-az aktyora nəsib oldu. Onlardan biri də Səməndər Rzayev idi. O, ulduz kimi parladı, istisi yandırdı-yaxdı, yoxluğu da yandırıb-yaxır. Vallah gözə gəldi, ürəklərə dağ çəkdi.

Səməndər Rzayev Allah vergisi idi. Böyüklüyündən – kiçikliyindən asılı olmayaraq, onun yaratdığı obrazlar yadda qalırdı, indi də yaddaşımızdadır.

Onun cazibəli, ecazkar səsini həyəcansız dinləmək olmurdu. Onun səsinə saxta pafos yad idi.

«Bulaq» verilişi, «Kolxoz sədri» rolu «Bəyin oğurlanması»nda, Xudayar bəy rolu gözünü-qaşını tərpədəndə sanki üç-dörd sm yerindən aralanırdı.

O boyda bədəni necə ram edirdi, bir Allah bilir. Səhnədə quş kimi hərəkət edirdi.

Şakir Şəkəroviç – nərd oynadığı yerdə necə dəyişdi. Necə gözündən yaş gəldi. Qırmızı rəngli telefon da sanki onun sözlərinin təsiri ilə canlı obraza çevrildi. Sənətdə yaşa dolan, ömrü yarımçıq qalan sənətkarın ruhu şad olsun!

Hörmətli Səməndər sevərlər, bəlkə də, mənim sizlərin qarşısında çıxış etməyə mənəvi haqqım yox idi. Lakin Səməndər Rzayev sənətinə olan dərin məhəbbətim məni məcbur etdi. Lap qədimdən indiyə qədər, Nəsrəddin Tusi daxil, ruhun yaşadığını təsdiq ediblər. Səməndərin ruhu bu gün başımızın üstündə pərvaz edir. Qoy şad olsun!

AŞIQ NƏCƏF ƏLİMƏRDANLININ 110 İLLİK YUBİLEYİNDƏ ÇIXIŞIM GƏNC TAMAŞAÇILAR TEATRI

(Yığıncağı mən aparırdım)

20.04.10.

Hörmətli saz-söz sərrafları, Tovuz aşıq və el şairlərinin yaradıcılığı və nəşr olunmuş kitablarının tədqimatına həsr olunmuş ənənəvi verilişlərimizə başlayırıq... Bu gün Əlimərdanlı Aşıq Nəcəfin 110 illik yubileyinə və şeirlərini içinə alan «Düşdüm eşqin sevdasına» kitabına həsr olunmuş sazlı-sözlü məclisə toplaşmışıq. Kitaba millət vəkili Qənirə Paşayeva maraqlı ön söz yazmışdır. Tərtibçi-şair Bağman Baba, redaktorları Əməkdar elm xadimi, professor Bəhlul Abdulla və şair Əkbər Qoşalıdır.

Mən keçən verilişlərimizin birində dediyim kimi Xalq şairi Zəlimxan Yaqubun Aşıqlar Birliyinə sədr seçilməsindən sonra mədəniyyətimizin bu sahəsində böyük canlanma vardır. Bütün televiziya kanallarımızda və radioda aşıq musiqisinə, Aşıq yaradıcılığına böyük yer verilir. Azərbaycan Dövlət Televiziyasında həftəlik «musiqi xəzinəsi» Aşıq havaları verilişinin təşkili də Aşıqlar Birliyi ilə sıx bağlıdır. Verilişi təşkil edən və aparıcısı professor Məhərrəm Qasımlıdır. Təbrik edirəm. Bir məsələdən də söz açmaq yerinə düşərdi. Dörd gün öncə 16.04.2010-da respublika rayonlarında Xalq şairi Zəlimxan Yaqubun 60 illik yubileyini keçirdik.

Aşıq Nəcəf 1900-cü ildə anadan olub, 1946-cı ildə dünyasını dəyişib. İki dünya müharibəsini, onlardan da betər 1937-ci il repressiyasını gözləri ilə görən, II Dünya müharibəsinin iştirakçısı aşıq-şair vaxtından əvvəl qocalmışdı:

Ey dost, soruşursan ağarıb başım,
Deyim səbəbini, yaz, qocalmışam.

Dağlar əriyərdi mən çəkən dərdə,
Hələ mən dözmüşəm, az qocalmışam.

Aşıq-şair qısa ömründə qananlar, qiymətləndirənlər üçün böyük bir xəzinə qoyub getmişdir. Aşıq Nəcəfin ustadnamələri, gəraylıları, gözəlləmələri, qoşmaları, təcnisləri, divaniləri, müxəmməsləri, müharibə həyatı şeirləri, deyişmələri aşıqların dillər əzbəridir. Mən hələ ona həsr olunmuş şeirləri demirəm. Zəlimxan Yaqub yazır:

Aşıqları oxuyanda Nəcəfdən,
Seçilməyir sözü dürdən, sədəfdən.
Bir kəlməsi yayınmayır hədəfdən
Hər sözünün yeddi qatı varıymış.

Bu bənd böyük mətləblərdən, Aşıq Nəcəfin səviyyəsindən xəbər verir.

Mən inanmıram ki, saza-sözə rəğbət bəsləyən Allah bəndəsi aşığın:

Əsən yellər, bir Allahın eşqinə
Mənim bu naməmi vətənə yetir.

– misraları ilə başlayan şeirini əzbər bilməsin. Beləliklə, verilişi davam etdiririk.

«MUSİQİ SƏRVƏTİMİZ» VERİLİŞİNDƏ ÇIXIŞIM

AzTV, 29.04.2010.

Aşıq sənəti həmişə ustad aşıqların yaradıcılığı ilə birgə təhlil edilir. Qəribə bir hal baş verir. Bəziləri aşıq yaradıcılığını folklor hesab edir, bəzi tədqiqatçılar isə onu yazılı ədəbiyyat hesab edir.

Xalq yazıçısı Mirzə İbrahimov bu mübahisəyə son qoymaq üçün doğru qənaətə gəlmişdir: Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında möhkəm bir körpüdür. O bir tərəfdən folklor ilə bağlıdır, o biri tərəfdən yazılı ədəbiyyatla (həm bununla, həm də onunla qarşılıqlı əlaqə və təsirdə inkişaf etmişdir). Onun kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır.

Həqiqətən də, aşıq yaradıcılığının yazılı ədəbiyyata təsiri danılmazdır. Qoşmalar, təsniflər və s. yazılı ədəbiyyata aşıq yaradıcılığından gəlmədir. Aşıq yaradıcılığı M.P.Vaqif, Qasımbəy Zakir, S.Vurğun, O.Sarıvəlli, H.Arif, Z.Yaqub yaradıcılığına dərin təsir göstərmişdir. Dahi Ü.Hacıbəyli təsadüfi demirdi: «Aşıq sənəti elə bir sənət aləmidir ki, orada bəstəkarın da, şairin də, müğənninin də, hətta rəqqasın da istənilən qədər payı vardır».

Fikir verin, Üzeyir bəy «Koroğlu operasını tam aşıq havaları üstündə yaradıb. Qara Qarayevin 3-cü simfoniyasının 2-ci hissəsi təcnis üzərində yaranıb. Hələ biz yaradıcılığının xeyli hissəsi aşıq havaları ilə bağlı olan görkəmli bəstəkar Fikrət Əmirov və başqalarını demirik. Bir sözlə, bəstəkarlarımız aşıq poeziyasından, aşıq yaradıcılığından bol-bol bəhrələnmişlər. Burada görkəmli aşıqlarımızın poeziyasından

musiqi bəstələnmiş bəzi nümunələri göstərməklə kifayətlənəcəyik.

Qurbani:

Başına döndüyüm ay qəşəng pəri,
Adətdir dərərlər yaz bənövşəni.
Ayrılıqmı çəkib boynu əyridir,
Heç yerdə görmədim düz bənövşəni.

Abbas Tufarqanlı:

Budur gəldi bahar fəsli,
Dağların lala vaxtıdı.
Açılıbdı qızıl güllər,
Bülbülün bala vaxtıdı.

Aşıq Valeh:

Ay ana, bu bir cüt sonanın,
Hansına qurban mən olum.

Aşıq Alı:

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşgəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə.
Keçən sözü çəkmə üzə
Keçən keçdi, olan oldu.

Molla Cümə:

İsmi pünhan, niyə məndən küsübsən,
Dost-mehriban ya bir olar, ya iki.
Bir gün ölsəm hamı deyər heyfdir,
Canı yanan ya bir olar, ya iki.

Hörmətli tamaşaçılar, vaxt məhdudiyyətindən aşıq sənətinin iftixarı Ələsgər, Hüseyn Bozalqanlı, eləcə də Aşıq Şəmşir, Mikayıl Azaflı və başqa aşıqlarımızdan nümunələr verə bilməsək də, şübhəm yoxdur ki, sizin çoxunuz onların qoşma və gəraylılarına bəstələnmiş mahnıları əzbər bilirsiniz.

«Musiqi sərvətimiz» verilişi maraqlı verilişdir. Onun aparıcısı, professor Məhərrəm Qasımlı aşıq sənətini, aşıq yaradıcılığını dərindən bildiyinə görə veriliş daha canlı, daha maraqlı alınır. Verilişin əsas qayəsi aşıq sənətini, aşıqlarımızı təbliğ etməkdir. Bu yolda verilişin yaradıcı kollektivinə, xüsusən həm muğamlarımızı, həm də aşıq musiqisini yaxşı bilən Nadir Axundova və prof. Məhərrəm Qasımlıya uğurlar diləyirəm.

«OVQAT» VERİLİŞİNDƏ ÇIXIŞIM

AzTV, 19.09.2010.

Aparıcı: – *Qəzənfər müəllim verilişimizdə xoş gördük sizi. Necəsiniz? Xoşbəxtsinizmi? Ümumiyyətlə, sizcə xoşbəxtlik nədir?*

– Xoşbəxtəm. Ailəm, uşaqlarım, qohumlarım, məni qane edən, rahatlığımı təmin edən yaradıcılığım!

Ümumiyyətlə, xoşbəxtlik nisbidir. Dünyanın ən xoşbəxti bir anda dünyanın ən bədbəxtinə çevrilə bilər. Mən televiziyada zəlzələ nəticəsində övladlarını, ailəsini, evini bir anda itirən kişilərin zarı-zarı ağladığını görmüşəm, beş dəqiqə əvvəl xoşbəxt idi. Mən şahidəm ki, toyların yaraşığı olan, rəqs etməkdən doymayan gözəl bir qadın qəza nəticəsində oğlunu itirəndən sonra qara geyindi, toylara getmir, xeyir işlərə getmir.

Deyəsən, qan qaraldan söhbət etdim. Nə edəsən ki, reallıq budur. Xoşbəxtlik barədə akademik Ziyad Səmədzadənin «Çin qlobal dünya iqtisadiyyatında» kitabından oxuduğum müdrik kəlama üstünlük verirəm:

«Xoşbəxt o adamlardır ki, övladlarından yarısın və sağlam olsun!»

Çox istəyərdim o kitabı hamı oxusun. Həm azərbaycanlı alimin nəhəngliyini, həm də Çinin möhtəşəmliyini görsün.

«Çin qlobal dünya iqtisadiyyatında» kitabında diqqətimi hər şeydən çox çəkən müdrik kəlamlar, mədəniyyət, adət-ənənələr, iqtisadiyyat bölmələri olub.

Mən bu kitabdan öyrəndim ki, Belarusun prezidenti Lukaşenko dünyanın böyük iqtisadçılarından biri imiş. Kitabdan bir-iki hikmətli kəlam deyim sizə:

«İnsan müdriklik zirvəsinə çatandan sonra başa düşür ki, hələ çox şey öyrənməlidir.

Kişilər xoşbəxt, qadınlar bədbəxt günlərində dost-tanış axtarırlar.

Qanun olmayan yerdə zor hakimlik edər.

Elm ağıllı adama xoşbəxtlik gətirər, ağılsıza isə bədbəxtlik.

Üzümün yaxşısı münbit torpaqdan, qızın yaxşısı nəcib ailədən seçilməlidir».

– Kitablardan danışırıq. Son vaxtlar kitab oxumaq dəbdən düşüb. Bu bütün dünyadamı belədir?

– Sualınızın sonundan başlayaq. Xeyr. Bir çox ölkələrdə kitab mağazaları adama gəl-gəl deyir. Mağazanın içində kafesi, oxu yerləri belə var. Yaxşı kitablar heç vaxt dəbdən düşmür. Dünyanın ən böyük kəşfidir – kitablar. Bütün biliklər kitablarda cəm olur. Ona görə də elmlə, təhsillə məşğul olan adamlar kitabdan ayrılmırlar. Mən hərdən M.F.Axundov adına Milli kitabxanamıza gedirəm. İnanın ki, oxu zallarında, xüsusilə də tələbə və gənclərin məşğul olduğu böyük zalda boş yer görməyəndə ürəyim dağa dönür. Lakin hamı oxumur, səbəb çoxdur. Sandıq ədəbiyyatı da öz işini görür. Elə kitablar olur ki, bədii tərtibatı adamı cəlb edir. Açıb baxanda onu vərəqlədiyin vaxt itirilən anlara heyifin gəlir.

– Çoxmu kitab oxuyubsunuz? İnsan ömrü boyu nə qədər kitab oxuya bilər?

– Gənclikdə çox kitab oxuyur və konspektini tuturdum. M.S.Ordubadinin bütün əsərlərini oxumuşdum. Məni Bakıya gətirən də bədii ədəbiyyat – Mehdi Hüseynin «Abşeron» romanı oldu. Yoxsa elə Gəncədə – Zərdabi adına Pedaqoji İnstituta gedəcəkdim. Kasıb idik.

Maraqlı sual verdiniz.

Həftədə 2 kitab oxumaqla, ayda 8 kitab, ildə 96 kitab, 50 ildə 4.800 kitab oxumaq olar. «Komsomolskaya pravda» qəzetində – 1972-ci ildə çıxan məqaləni oxumuşdum. Məlum oldu ki, Lenin adına kitabxanada olan, kitabların 70%-nin ağzı bir dəfə də açılmamışdır. Dövriyyədə cəmisi 30% kitablar olub. İnanmıram ki, indi vəziyyət dəyişmiş ola.

Bir məsələdən də danışım. Bədii əsərləri insan hər yaş dövründə bir cür başa düşür. Bədii əsərlərin həmişəyaşar olması da bununla bağlıdır.

Səməd Vurğunu, Rəsul Rzanı, Bəxtiyar Vahabzadəni hər dəfə yenidən oxuyanda qəlbimdə və gözümdə yenidən böyüyür. Onları daha dərindən anlayıram.

– Bir halda ki, poeziyadan söz saldınız, poeziyamızın vəziyyəti barədə fikrinizi bilmək oxucular üçün də maraqlı olardı.

– Bir şey müşahidə etmişəm. Bizdə məhəbbət qəlbini təlatümə gətirən kimi gənclər şeir, əsasən də qoşma yazır, Kərkükdə sevgi-məhəbbət bayatıları. Çoxları sonralar istedadı olmasa da, yazmaqda davam edir. Belələrini mən talesiz yazar adlandırardım. Yaradıcılıq, ümumiyyətlə, möhtəşəm aldanışdır. Elələri var ki, ömrünü hədər yerə bada verib.

Yaxşı şairlərimiz çoxdur. Bakıda yazıb-yaradanları, demək olar ki, hər gün görürük, kitabları çıxır, təqdimatları olur. Mən bölgələrdəki şairlərdən söz açmaq istəyirəm. Onlarda təbiilik, xalqa daha yaxın olmaq, təbiəti, həyatı duymaq daha üstündür. Ramiz Qusarçaylı, Xızıda Ağasəfa, Gəncədə Məmməd Alim, Qazaxda Barat Vüsal, Şəkidə Vaqif Aslan, Tovuzda İsa Cavadoğlu. Mən hələ İsmayıllıda Musa Yaqubu demirəm.

Yeri gəlmişkən, Ramiz Qusarçaylı, Vaqif Aslan, İsa Cavadoğlunun yaradıcılığı ilə «Ovqat»da, onların verilişindən sonra daha yaxından tanış olmuşam.

– Kərkükü yada saldınız. Əlaqələr davam edirmi?

– Bəli, lap bu yaxınlarda heç nədən çəkinmədən Kərkükə getdim. Əta Tərzibaşı və başqaları ilə görüşdüm.

– Keçən verilişimizdən sonra yaradıcılığınızda hansı yeniliklər baş verib?

– Təkcə bu il üç kitabım işıq üzü görüb. «Nəsimi haqqında araşdırmalar», «Borcumuzdur bu ehtiram» və «Ədəbiyyatşünaslıq elmimizin Patriarxı». «Azərbaycan folkloru antologiyası» İraq-türkman cildi təkrar nəşr olundu. Əvvəllər «Qoca

Azaflıyam» – 760 s., «Nostradamusun möcüzəli aləmi» – 760 s. kitablarım çıxıb.

Məqalələrim çoxdur. Bir aspirantım, bir dissertantım fəlsəfə doktoru elmi ad almaq üçün dissertasiyalarını təqdim ediblər. «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» və «Ə.Bəndəroğlunun ədəbi bədii-elmi fəaliyyəti» dissertasiyaları orijinallığı ilə seçilir.

– «Nostradamusun möcüzəli aləmi» – deyəsən tale, qismət, alın yazısından bəhs edir. Siz alın yazısına inanırsınızmı?

– Mümkünsə öz həyatımla bağlı bir-iki epizod danışım. Sonra sualınıza anlaşıqlı cavab verim. Mən 4-cü sinifdə oxuyurdum. Çox dəcəl idim. Qonşular və hətta bağda quşlar əlimdən zara gəlmişdilər. Yazın oğlan çağı idi. Sığırçın Qara dayımın təzə tikdirdiyi evin balkonunun qabaq hissəsində yuva tikib balalamışdı. Tut yenicə dəymişdi. Dimdiyində balalarına tut gətirmişdi. Qovdum. Yenicə çiçəklənmiş iydə ağacının başına qondu. Quşatanla vudum. Niyə vurduğumu anlamırdım. Balaları bir-bir yuvadan düşüb öldülər.

Möhkəm xəstələndim. Kəndimizdə xəstəxana olmadığından məni Qovlar qəsəbəsinə xəstəxanaya apardılar. Bir gecə yuxuda gördüm nurani bir qoca əlində qılınc qapıdan girdi və dedi ki, bu balamı öldürməyə gəlmişəm. İnanın ki, qorxmurdum, nəsə sevinirdim. Elə bu vaxt sinif müəllimim Əsgər Məmmədov qapıdan içəri girdi və dedi: «A babası, bu oğlan çox yaxşı oxuyur. Sərbəst mövzuda inşa yazıb, rayonda 1-ci yeri tutub».

Elə isə qoy oxusun, deməyilə divarın divində olan bir çuval duza yaxınlaşdı və qılıncını cidanın küpünə qədər duzun içinə soxdu və yoxa çıxdı. Aradan illər keçəndən sonra başa düşdüm ki, nurani qoca mənim ruzimi verib. Mənim ruzim sanki səmadan gəlir. Buna inanmaq çətin olsa da, inanın ki, bu belədir.

O hadisədən sonra nəinki mən, üç qardaşımdan heç biri bir toyuq başı da kəsmədik. İkinci hadisə birbaşa sizin sualınızla bağlıdır. Bu hadisəni «Nostradamusun möcüzəli aləmi» (Bakı,

«Təhsil», 2007, təkrar nəşr, 2010) kitabının girişində vermişəm. Burada olduğu kimi verirəm: «Adlı-sanlı kimyaçı dostum, professor Dəmir Qənbərovun 60 illik yubileyi idi. Ziyafətə mən də dəvət olunmuşdum. Lakin bir gün əvvəl anadan olduğum «Qız bürcü» ilə bağlı oxumuşdum: «Hətta kollektiv dəvətlərdən də imtina etməlisiniz. Nəticəsini özünüz görəcəksiniz», («Yeni Müsavat», 25.XI.1999, №270, s.16).

Necə oldusu ziyafətə gedə bilmədim. Bəlkə, bu da tale ilə bağlı idi, bilmirəm. Bir onu bilirəm ki, xəbər yayıldı ki, «Ceyrançöl» restoranında həmin ziyafətin iştirakçıları arasında balıqdan zəhərlənərək ölən və ağır vəziyyətdə xəstəxanaya düşənlər var».

Bundan sonra özünüz deyin tale, qismət, alın yazısına necə inanmayım?

Bu inam hər şəraitdə adamı stressdən xilas edir. Bir hadisə baş verəndə onu sakitliklə qarşılayıram. Mənim lap gənclikdən maşınım olub (1964). Xaricdən gətirmişdim. Bəzən təcrübəsizlikdən, bəzən də məndən asılı olmayaraq yolda çox hadisələrlə qarşılaşmışam. Hətta gecə vaxtı maşın qırılıb bizi yolda qoyanda Allaha şükür etmişəm ki, bəlkə, bizi qabaqda daha pis hadisə, faciə gözləyirdi, Allah bizi xilas etdi.

Həyatımda səhv etmişəmmi? Günah işlətmişəmmi? – yaxşı sualdır.

Səyyarə xanım, səhvsiz insan olmaz. Deyirlər, ağıllı o adamdır ki, etdiyi səhvlərdən nəticə çıxarır, gələcəkdə səhv etməməyə çalışır. Günah da insana xas olan xüsusiyyətdir. Adəm-Həvvadan bu yana insanlar bəzən bilmədən, bəzən də fərqinə varmadan günah işlədirlər. İnsan kamilləşdikcə səhvlərə və günaha yol vermir. Bu isə uzun bir prosesdir. Şübhəsiz, buna görədir ki, əksər qocalara «müdrik adamdır», «ağıllı adamdır» deyirlər. Lakin çox yaşayan hər qoca son həddə çatmır. Kamillik məqamına çatınca şəriət, təriqət, mərifət, həqiqət məqamlarını fəth eləmək lazım gəlir. Bunlar kamil insanı şərtləndirən hədlərdir. Son həddə çox az adama, seçilmişlərə, mütəfəkkirlərə qismət olur.

Diqqətinizə görə təşəkkür edirəm.

«AZTV»də PROFESSOR ABBAS ZAMANOVA HƏSR OLUNMUŞ VERİLİŞDƏ ÇIXIŞIM

Aprel, 2011

Yaşca aramızda böyük fərq olmasına baxmayaraq, uzun illər boyu dostluq etdiyim və şəxsiyyətinə pərəstiş etdiyim, böyük insan və böyük alim, Elmlər Akademiyamızın müxbir üzvü, professor Abbas Zamanov haqqında iki məqalə yazmışam. Akademik İsa Həbibbəyliyə minnətdaram ki, 2003-cü ildə çıxan «Müasirləri Abbas Zamanov haqqında» kitabına mənim məqalələrimi də daxil edib. Abbas müəllimin böyük nüfuz sahibi olduğunu elə bu kitabdan da görmək olur. Abbas müəllimlə tanışlığım belə olub. Dörd il İraqda tərcüməçi işləyib 1966-cı ilin aprelində vətənə dönmüşdüm. «Ədəbiyyat və incəsənət» və «Azərbaycan gəncləri» qəzetlərində yazılarım çıxmışdı. Bir gün «Ədəbiyyat və incəsənət» qəzetinin şöbə müdiri Ayaz Vəfalı dedi ki, Abbas Zamanov «əlində çıraq» səni axtarır. Şəxsən Abbas müəllimi tanımırdım. 4-cü kursda oxuyanda tələbələr arasında ildırım sürəti ilə xəbər yayıldı ki, Abbas Zamanovu Elmlər Akademiyasında Səməd Vurğuna həsr olunmuş xatirə gecəsində Naxçıvanın Ermənistana ilhaq edilməsi ilə bağlı Moskva və Yerevanda planlar hazırlanması barədə cürətli çıxışından sonra partiyadan və işdən çıxarıblar. Abbas müəllim biz tələbələrin gözündə milli qəhrəmana çevrilmişdi. Odur ki, bu qorxmaz adamı şəxsən görəcəyimə sevinirdim. Görüşdük. Aramızda ata-oğul münasibəti yaşandı və bu münasibət Abbas müəllimin dünyasını dəyişdiyi 1993-cü il aprelin 1-ə qədər davam etdi.

Abbas müəllimin əsas tədqiqat obyekti Azərbaycanın qorxmaz və cəsur şəxsiyyətləri M.Ə.Sabir, Cəlil Məmmədquluzadə və Nəriman Nərimanov idi. Abbas müəllim elə

özünə də özü kimi cəsur, qorxmaz, prinsipial, obyektiv adamları seçmişdi. Onlardan Rəsul Rza, Cəfər Cəfərov, Əlyar Qarabağlı, Tofiq Bağırov və Pənah Xəlilovu göstərmək olar.

Dostluqda möhkəm və dəyanətli idi. Yaxşı yadımdadır, Cəfər Cəfərovun nəvəsi Bakı Dövlət Universitetində qəbul imtahanı verirdi. Böyük müsabiqə vardı. Rektorun yanına gedib xahiş etdi. Qız qəbul olunandan sonra aşkar sevinirdi. Qoy Cəfərin ruhu şad olsun deyirdi.

Abbas müəllim məni Rəsul Rza, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Bəkir Nəbiyev, Anar, Elçin, Pənah Xəlilov, Əjdər Xanbabayev, Yaşar Qarayev, Araz Dadaşzadə, Əlövsət Abdullayev, Yavuz Axundov, İsa Həbibbəyli kimi xalq qarşısında xidmətləri olan şəxsiyyətlərlə tanış və yaxın etmişdi. Elə bu kifayətdir ki, ömrüm boyu ona minnətdarlıq hissi ilə yaşayım.

Abbas müəllim ədəbiyyatımızda da, həyatımızda da, məişətimizdə də bir nümunə məktəbi idi. Təmiz, pak, qeyriadi insan idi. Evində haram tikənin nə olduğunu bilməzdilər. Tanrı onu nəfsi tox yaratmışdı.

Kefini soruşanda «Şikayət etməyə əsas yoxdur» deyən Abbas müəllimin çəkilməz dərdi vardı. Uşaq evində böyüməsi, atasına görə həyat yoldaşını sürgün etmələri, kiçik oğlu Firuzun əsgərlik çəkərkən ruhi xəstəliyə tutulması və s. Bununla belə, həmişə özünü şən göstərərdi. Yalnız hər bazar günü Məştağada Firuza baş çəkib geri dönəndə halı pozulardı. Dərindən ah çəkib: «Ey fələk, çərxin dönsün, mənə çox zülmlər etdin» – deyərdi.

Xeyirxah adam idi. Özünün qayğıya ehtiyacı olduğu halda, çalışıb hamıya kömək əli uzadardı.

Axşamlar gəzməyə çıxardı. Həmsöhbəti Əlövsət Abdullayev, Bəkir Nəbiyev, bir də mən olardıq.

Buna adi gəzinti demək olmazdı. Bu gəzintilər açılmamış kitablar idi. Ədəbi əlaqələr yolunda xidmətləri əvəzsizdir.

Hər dəfə maaş alanda yarısına kitablar alır, Türkiyə, İraq və İrana göndərirdi. Bu gün belə Atatürk adına Ərzurum Universitetində «Abbas Zamanov bağış kitablığı» – kitabxanası fəaliyyət göstərir. Bunun qabağında Bakıda kiməsə kitab verməkdə xəsislik edərdi. Adəti üzrə Asya xanım dediyi halda, hərdən axtardığı kitabı tapmayanda qışqırardı: «Asya filan kitabı kim apardı?» – deyərdi. Asya xanım asta-asta gəlib kitabların arasından həmin kitabı tapıb:

«Bunumu deyirsən, Abbas» – deyə kitabı ona uzadar və yavaş-yavaş mətbəxə tərəf gedərdi. Araya ani, lakin üzücü sükut çökərdi. Asya xanım hələ mətbəxə çatmamış Abbas müəllim ucadan: «Asya xanım, bu kitab məsləsi nə böyük problem oldu ki, bizə çay vermirsən? Bəyəm səni məhkəməyə, prokuraturaya verdik» – deyərdi. Asya xanım məzəmmətedici təbəssümlə çay gətirər, beləcə gərginlik aradan götürülərdi.

Abbas müəllimin bir xüsusiyyətini də qeyd etmək istərdim. Dünyasını dəyişmiş bəzi dəyərli insanları son mənzilə yola salanda deyərdi: «Sağ ol, a filankəs» Mənasını soruşanda deyərdi ki, o, ölməyib, o, bizimlədir. Yaxşı adamlar ölmürlər. Neçə ki, biz varıq, onlar bizim qəlbimizdə yaşayırlar.

Abbas müəllimi son mənzilə yola salanda onun həmin müdrik kəlamı qeyri-ixtiyari yadıma düşdü və dedim: «Sağ ol, Abbas müəllim, həyatda bizə doğru yol göstərdiyinə görə, biz sənə borcluyuq».

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ

Azərbaycan Dövlət
Televiziyasında çıxışım.
(AzTV) 16.03.2011

Ən qədim bayramlardan olan Novruz Azərbaycan, Orta Asiya, Əfqanıstan, Pakistan, İran, Türkiyə və başqa ölkələrdə qeyd edilir. Bu bayram xalqın mifoloji təsəvvürləri, inam və etiqadları ilə bağlı olduğundan sanki sirli-soraqlıdır. Novruz Şərq xalqlarının İslamdan çox-çox əvvəl yaranmış bayramıdır. Bizdə tarixən Boz ay adı alan zaman kəsiyi bütöv bir ayı əhatə edir. Prof. Azad Nəbiyevin 1989-cu ildə çıxan «Novruz» adlı kitabında Böyük çərşənbədən, axır çərşənbədən, xəbərçi çərşənbə, cıdırçı (kiçik) çərşənbədən söz açılır. Bu çox sanballı əsərdir. Doğrudur, buna qədər və sonra da Novruzla bağlı kitablar, hətta «Novruz bayramı ensiklopediyası» çıxıb (Bakı – 2008). Tərtibçilər, Bəhlul Abdulla, Tofiq Babayev, redaktoru Məhərrəm Qasımlı. Novruz öz əhatə dairəsinə, rəngarəngliyinə və əhatə etdiyi zaman kəsiyinə görə bayramlar bayramı şərəfli adına layiq görülüb. Hələ bayram ərəfəsindən başlamış xalq bir ay müddətində bayram əhvalruhiyyəsi ilə yaşayır və bir çox bölgələrdə, elə paytaxtımızın özündə də bayramla bağlı böyük hazırlıq işləri görülür.

Folklorumuzda və bədii ədəbiyyatda geniş yer alan Novruz, sözün həqiqi mənasında, Milli bayramdır. Uşaqdan böyüyə hamının bayramıdır. Burada hamının payı var. Bir ay müddətinə oğlan da, qız da, qadın da, kişi də, qoca da, cavan da əylənir, həzz alır, adət-ənənəyə uyğun mərasimləri həyata keçirirlər.

Hamının böyük intizarla gözlədiyi çərşənbə axşamlarında tonqal qalanır. Bayram süfrəsi açılır. Bayram süfrəsində milli

yeməklər aş, şirniyyat, fəsəli, qatlama, qoz, fındıq, meyvələr qoyulardı. Doğrudur, keçmişdə təzə meyvəni (yaş meyvəni) Novruza qədər saxlamaq asan olmurdu. Onu meyvə qurusu əvəz edirdi. Axır çərşənbədən əvvəl yorğan-döşəyi, xalça-palazı bayıra çıxarıb çırpardılar. Evlər ağardılar, peç evdən çıxarılardı. Bütün bayram günlərində gənclər yumurta döyüşər, çərşənbə axşamları onlar dəstə-dəstə evlərə gedər, «Kosa-Kosa» və ya bizlərdə deyilən «Keçəpapaq» oynayar, evdəkiləri şənləndirər, yumurta, şirniyyat, bəzən pul alardılar.

Ona görə Keçəpapaq deyirdik ki, kosanın papağı keçədən düzəldilərdi. Kəndlərə kəndirbazlar, ayı oynadanlar, pəhləvanlar gələrdi. Yaxşı yadımdadır, kəndirbaz kəndirin üstündə atlanıb düşər, köməkçisi yerdə insanları əyləndirən sözlər deyər, onları güldürərdi. Birdən ağlamağa başlardı: Kəndirbazın tələş içində «sənə nə oldu?» sualına cavab verərdi: «Sən ordan yıxılsan, yerə yıxılacaqsan, bəs mən yerdə hara yıxılacam» – kənd camaatına belə şeylər ləzzət verərdi.

Novruz günlərində küsülülər barışar, bayram axşamı bacalardan torbalar sallanar, qapılara papaq atılar, xoş xəbər eşitmək üçün qapılar pusulardı. Evlərdə yalnız yaxşı şeylərdən danışılardı. Qiybət qırılmazdı. Nişanlı qızlara Novruz xonçası göndərilərdi. Qızlar su falına baxardılar.

Novruzun rəmzi **səmənidir**. Səməni yazın gəlişinə işarədir. Akademik Teymur Bünyadov «Novruz bayramının tarixi kökləri» adlı çox maraqlı məqaləsində səməni ilə bağlı diqqətçəkən fikirlər söyləmişdir.

Eramızın I–II əsrlərində yaşayan yunan alimi Plutarx midiyalıların ilin başlanğıcında buğdadan «Omani» adlı yemək hazırladıqlarını qeyd edir. Alim onu da qeyd edir ki, Şimali Hindistanda yaşayan, sankrit dilində danışan əhalinin dilində sumani – buğda mənasında işlənir. Deməli, sumani-buğda ilə səməni doğmalığı ortaya çıxır. Səməni göyərdilmiş buğdadan düzələn ləziz bayram yeməyidir.

Novruz bayramını dahi Nizami təsvir edib.
Onun «İsgəndərnamə» poemasında oxuyuruq:

Novruz ilə səddə bayramlarında
Ayinlər yenidən olurdu bərpa.
Ər üzü görməmiş növrəstə qızlar,
Evindən sevinclə dışarı çıxar.
Əllər al xınalı, üzlər bəzəkli,
Hər yandan gəlirdi coşğun ürəkli.

Novruz bayramının ən əsas atributlarından biri tonqal qalamaq, lopa düzəldib göyə atmaqdır. Hamının böyük intizarla gözlədiyi bu ayin çərşənbə axşamlarında həyata keçirilirdi. Lopa düzəldib göyə atmaq şər qüvvələri qovmaq inamı ilə bağlı idi. Tonqal qalayıb üstündən hoppanaraq «azarım-bezarım, qadam-bəlam oda qarışsın, alovla getsin» – deyərdik.

Bu adət, oda-ocağa inam ta qədimdən insanlarla bağlıdır. Güney Azərbaycanın tanınmış şairi Səhənd təsadüfi yazmayıb:

Hələ də, hələ də bizim yerlərdə,
Sadə insanların andı çıraqdır.
Xalqın arasında, kənddə, şəhərdə,
Müqəddəs yerlərin adı ocaqdır.

YAZIÇILAR BİRLİYİNDƏ MUSA URUDUN KİTABLARININ TƏQDİMATINDA ÇIXIŞIM

20.04.11.

Mənim aləmimdə müqəddəs yerlər olduğu kimi, müqəddəs kitablar da olur. «Qurani-Kərim» öz yerində. Mən müqəddəs kitablar deyəndə o kitabları nəzərdə tuturam ki, onlar milli şüurun oyanışına xidmət etsin. Mən Musa Urudun həcmcə çox da böyük olmayan «Uruda iki səfər» kitabına bu müstəvidən baxır və qiymətləndirirəm. Bu kitabın kəsb etdiyi qiymət bir də onunla ölçülür ki, əsər ingilis və fransız dillərinə tərcümə edilib.

Kitabı əcnəbi dillərə filologiya elmləri doktoru Cavanşir Yusifli və Allahyar Əyyubov çeviriblər (Allahyar qardaşımın titulunu bilmədiyimə görə məni bağışlasın).

İngilis dilini az-çox bilən adam kimi deyə bilərəm ki, tərcümə uğurludur.

Əcnəbilər bu kitabı oxuyaraq Zəngəzur hadisələrindən tutmuş günümüzə qədər ruslar və ermənilərin törətdikləri qeyri-insani vəhşiliklərin şahidi olacaqlar.

Musa Urud əsərə yazdığı giriş məqaləsini babasının kəlamı ilə başlayır: «Vətən ayrı şeydir».

Kitabı oxuyanda bir daha özüm üçün «kəşf» etdim ki, ağlayanın göz yaşının nə olduğunu əvvəllər ağlamış adam bilər. Musa Urud el-oba həsrətini yaşamış, torpaq sevgisini, ağrılı-acılı köçkünlük, qaçqınlıq həyatını «Uruda iki səfər» kitabında ortaya qoymuşdur. Kitabı həyəcansız oxumaq olmur. Şair kimi tanıdığım Musa Urudu indi publisist kimi tanıdım.

Şairin «Hər nə varsa» şeirlər toplusu, onun geniş dünyagörüşünə malik olmağından, istedadından və ilhamından xəbər verir.

Elindən, evindən didərgin düşmək çəkilməz dərddir. Eloba həsrəti yaşayan adam yaza bilər bu misranı: «Bəxtəvər ipək qurdları, ölür evinin içində» (Əbülfəz Mədətoğlu).

Musa Urudda da belə misralar çoxdur. Nə gizlədim, indi poeziyamız o qədər də yaxşı durumda deyil. Bir çox şairlər tapmacavari şeirlər yazır, dilimizi korlayır və bunu yenilik kimi qələmə verməyə çalışırlar.

Mənim Qulu Ağsəsin 2004–2010-cu illər arası poeziyamız barədə məruzəsindən sonra bu qənaətim daha da möhkəmləndi. Bu gün «Ədalət» qəzetində Flora Xəlilzadənin «şair Həzi Həsənlinin şeir dünyası» məqaləsini oxudum. Məlum olur ki, Məmməd Araz bir neçə il bundan əvvəl poeziyamız barədə təbil siqnalı çalıb:

«İndi şeir yazmaq, siqaret çəkməkdən asan olub».

Gəlin poeziyamızı, ədəbiyyatımızı qoruyaq. Yaxşını yaxşı, pisi pis görək.

AZTV-də «İNTELLEKT» VERİLİŞİNDƏ ÇIXIŞIM

13.10.11.

Hörmətli tamaşaçılar, intellektin azərbaycanca mənası ağıl, zəka, idrak deməkdir. Bir veriliş ki, ağlın, zəkanın inkişafına kömək edir, belə verilişləri alqışlamaq, uzun ömr arzulamaq gərəkdir. Mən xalq arasında olan adamam. Bu veriliş sevilən verilişlərdəndir. Çoxları bu verilişə baxırlar.

İnsan bir yandan biliyini yoxlayır, digər tərəfdən savadını artırır. Eləcə də dərk eləyir ki, bilik qazanmağın yaş həddi yoxdur. Mən sizi üç sualla imtahana çəkəcəyəm:

1. Sevimli şairimiz Səməd Vurğunun bir-birindən maraqlı, insanı valeh edən poemaları vardır. Şairin poemalarını fərqləndirən cəhətlərdən biri də buradakı şeir parçalarına musiqi bəstələnməsi, nəğmə kimi oxunmasıdır. Məsələn, «Muğan» poemasında «Nə gözəl yaraşır Muğana Ceyran», «Komsomol» poemasında «Dünya» və s. Onlardan biri də vaxtilə Şövkət Ələkbərova və Gülağa Məmmədovun xüsusi məlahətlə oxuduğu:

Oxu gözəl, oxu gözəl, qoy səsin,
Ürəyimdə kaman kimi titrəsin.

– mahnısıdır. Mahnının sözləri S.Vurğunun hansı poemasından götürülmüşdür?

2. Əsl adı və soyadı Semuel Klemens olan, «Şahzadə və dilənçi», «Tom Soyerin macəraları» və s. əsərləri ilə dünyada məşhur olan, görkəmli Amerika yazıçısı niyə Mark Tven təxəllüsünü götürmüşdür?

3. Dünya şöhrətli fransız yazıçısı, elmi-fantastik roman janrının yaradıcılarından olan Jül Vernin əsərlərində təsvir etdiyi fikirlərin bir çoxu sonralar gerçəkləşərək həyatda öz yerini almışdır. Məsələn, yazıçı 1865-ci ildə əsər yazaraq «Kolumbiad» adlı hava gəmisində 3 nəfərin Aya uçmasını və uçuşun 97 saat 20 dəqiqə davam etdiyini, «Kolimbiad»ın Amerikada hazırlandığını, oradan uçduğunu və qayıdıb sağ-salamat Sakit okeana endiyini göstərmişdir. Fikir verin: 1969-cu ildə ABŞ-ın «Kolumbiya» silindrik kosmik gəmisi 97 saat 39 dəqiqə 17 saniyəyə Aya uçmuş, sağ-salamat qayıdıb Sakit okeana enmişdi. Jül Vern cəmisi 20 dəqiqə yanılmışdı. Həmin əsərə görə Ayın arxa hissəsindəki kraterlərdən birinə Jül Vernin adı verilmişdir. O hansı əsərdir?

«MUSİQİ İRSİMİZ» VERİLİŞİNİN ÜZEYİR HACIBƏYLİYƏ HƏSR OLUNMUŞ XÜSUSİ BURAXILIŞINDA ÇIXIŞIM*

«Mədəniyyət» kanalı
16.09.11.

İki gün sonra dahi bəstəkarın anadan olan günüdür. Bu günü əbədiləşdirmək, ümumxalq bayramına çevirmək üçün öndərimiz Heydər Əliyev hələ 1995-ci ildə Üzeyir bəyin anadan olmasının 110 illiyi ərəfəsində fərman imzalamış və o vaxtdan hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi günü kimi qeyd olunur. Bu, təsadüfi deyildir. Üzeyir bəy Azərbaycan musiqişünaslığı tarixində ölkənin hüdudlarını yararaq beynəlxalq arenaya çıxan, nəzəri musiqişünaslığın zəngin üfüqlərində bərqərar olan ilk Azərbaycan bəstəkarıdır. Fəxrlə qeyd etməliyəm ki, onun yaratdığı əsərlər dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Üzeyir bəy Yaxın Şərqdə ilk opera və operettaların müəllifidir. O, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin əsasını qoymuşdur. Üzeyir bəy dahi idi, korifey idi. Yalnız korifeylərin ilk əsəri klassikaya çevrilə bilir. Üzeyir bəyin 22 yaşda olanda yazdığı, yüz ildən artıq zaman kəsiyində səhnədən düşməyən «Leyli və Məcnun» operası kimi.

Bir neçə kəlmə də Üzeyir bəy və aşıq sənəti barədə.

Üzeyir bəy aşıq sənətinə, aşıq yaradıcılığına da xüsusi diqqət və qayğı göstərirdi. Aşıq sənətini, aşıq musiqisinin həmişəyaşar olmasını bir çox məqamlarla əlaqələndirirdi. Bu münasibətlə yazırdı: «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanən-

* Bax: «Ədəbiyyat qəzeti», 07.10.2011.

dənin də, rəqqasın da istədiyi qədər götürəcəyi pay vardır». Beləliklə, o, aşıq sənətinin sinkretikliyini ortaya qoyurdu. Buraya aşığın aktyor olmağını da əlavə etmək olar.

Dahi bəstəkarın Azərbaycan aşıqlarının 1938-ci ildə keçirilən II qurultayında «Azərbaycan aşıq sənəti» adlı çıxışı (mən çəkinmədən onu çıxış yox, məruzə adlandırardım) bir çox mətləblərdən söz açır. Aşıqların təşkilatının yaranma məsələsini, musiqi məktəblərində aşıq sənətinin tədrisi, yerlərdə aşıqlar xorunun yaradılması, aşıq havalarının nota köçürülməsi. Bütün bunların hamısı Üzeyir bəyin ölümündən çox-çox sonralar həyata keçdi.

Aşıqlar Birliyi yaranıb. Müvafiq məktəblərdə və universitetlərdə aşıq sənəti tədris edilir. Sənətşünaslıq doktoru prof. İlqar İmamverdiyev saz havalarının hamısını nota köçürüb.

Üzeyir bəyin əsərləri gənclərdə məhəbbət, vəfa, sədaqət, qəhrəmanlıq, vətənpərvərlik hislərinin aşılanmasında müstəsna rol oynayır. Yaxşı yadımdadır, keçən əsrin 90-cı illərində Qarabağ məsələsi ortaya çıxanda toylar «Koroğlu» operasının uvertürası ilə başlayırdı. Hamı ayağa qalxıb ələlə verir, yumruq kimi birləşirdi. Üzeyir bəyə rəhmət oxuyurdu.

Bütün bu deyilənlər qəti qənaətə gəlməyə imkan verir deyim ki, hər bir müsəlman üçün hər şeyə Allahın adı ilə başlamaq zəruri olduğu kimi, milli musiqimizlə bağlı hər işi də Üzeyir bəyin adı ilə başlamalıyıq.

«OZAN» VERİLİŞİNİN ZƏLİMXAN YAQUBA HƏSR OLUNMUŞ SAYINDA ÇIXIŞIM*

İctimai televiziya
24.09.11.

Xalq şairi Zəlimxan Yaqubun poeziyasını izlədikcə qədim romalıların «Şairlər doğulur, natiqlər yetişir» kəlamı qəlbimə hakim kəsilir. Poeziyamıza «Fələk qapımızı döyübdü» deyərək ilhamsız Mirzə Səfərlər çox gəlmiş, səssiz səmirsiz getmişlər, çünki şair üçün əsas olan ilhamdan kasad idilər. Mikayil Müşfiq təsadüfi demirdi:

Anasız uşağa dayə gərəkdir,
Şairə ilhamdan mayə gərəkdir.

Zəlimxan Yaqub poeziyamıza şimşək kimi çaxaraq, dağ çayı kimi kükrəyərək, kürə kimi püskürərək, bulaq kimi qaynayaraq gələn şairidir.

O, xalq ruhu ilə qaynayıb-qarışan, xalqın içində olan, xalq tərəfindən sevilən, poeziyası ilə xalqın qəlbini dilləndirən şairdir.Qırx ildən çox şair ömrü yaşayıb, yaza-yaza dünyanı, ən çox da türk dünyasını, eli-obanı gəzib, gəzə-gəzə yazıb-yaradıb.

Zəlimxan təkcə Azərbaycanın deyil, Türk dünyasının şairidir. Zəlimxanın yaradıcılığını Türkiyədə və İranda təsəvvür edilməyəcək dərəcədə çox sevirlər.

Zəlimxan Yaqub ömrünü bəşəriyyətin ən böyük kəşfi olan kitablara həsr edib. Bu fikri həm həqiqi, həm də məcazi mənada anlamaq olar. O, Bakı Dövlət Universitetinin kitab-

* Bax: «Ədəbiyyat qəzeti», 30.09.2011.

xanaçılıq fakültəsini bitirdikdən sonra kitab mağazalarında, kitabxanalarda işləyib. Sonralar isə bir şair və publisist kimi cild-cild kitablar yazıb.Qırxdan artıq kitabı çıxıb.Türkiyədə, İranda, Rusiyada, Gürcüstanda kitabları böyük tirajla çap olunub. Çox böyük həcmli 388 səhifəlik «Biblioqrafiya»sı işıq üzü görüb. XIII cildlik «Seçilmiş əsərləri» nəşr edilir. Bu isə o deməkdir ki,gecə-gündüz yazıb, yaradıb, şam kimi əriyib. Əsl şair ömrü yaşayıb.

Səməd Vurğun başda olmaqla, (o, anadilli poeziyamızda poemaları ilə heç kəsin fəth edə bilmədiyi zirvəyə yüksəlmişdir) Zəlimxan Yaqub poemaları ilə seçilən, poeziyamıza töhfələr verən azsaylı şairlərimizdəndir. Şairin keçmişimizdən və bu günümüzdən bəhs edən poemaları, insanları düşünüb- daşınmağa sövq edən, gələcəyə səsləyən, keçmişimizə, mənəvi dəyərlərimizə qiymət verməyə çağıran,ali hisslər aşılayan poetik incilərdir. Onun qələminin məhsulu olan 20-dən artıq poemasından bir neçəsinin adını çəkmək istəyərdim: «Saz», «Göyçə dərdi», «Sizi qınamıram», «Yunus İmrə» dastanı, «Peyğəmbər», «Sürgün», Ulu Öndərimiz Heydər Əliyevə ithaf olunmuş «Böyük ömrün dastanı» və s.

Bu əsərləri, xüsusən də ümümmilli liderimiz Heydər Əliyevə həsr olunmuş poemanı həyəcansız oxumaq olmur. Çağdaş poeziyamızda xalq yaradıcılılığını və aşıq yaradıcılığını ruhən damarında-qanında yaşadan, ondan qədərincə bəhrələnən ikinci bir şair təsəvvür etmək çətindir. Bu baxımdan o, Molla Vəli Vidadi, Molla Pənah Vaqif,Qasımbəy Zakir, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif kimi seçilən və sevilən şairlərimizin davamçısı kimi ictimaiyyət tərəfindən qəbul edilən xoşbəxt şairdir.

Zəlimxanın mayası saz və sözdən yoğrulmuş, folklor üstündə köklənmişdir. Az-az aşıq tapılar ki, Zəlimxan onun haqqında yazmasın. Nəticədə Aşıq Ələsgərə, Hüseyn Bozalqanlıya, Hüseyn Saraclıya həsr etdiyi poemaları meydana gəlmişdir.

Aşıqlar Birliyinə sədr seçiləndən sonra kimsəsiz qalmış aşıqların pənah aparacağı ocaq yarandı. O, bu ocağı sanki öz doğma ocağı hesab edir və onunla nəfəs alır. Aşıqlar Birliyi bərpa olunandan sonra aşıq sənətinə dövlətin qayğısı daha da artdı. Novruz bayramında Qoşa qala qapısında Ümummilli liderin vaxtında olduğu kimi, aşıqlar prezidentimiz və dövlət rəhbərlərinin qarşısında çıxış etməyə başladılar. Azərbaycan televiziyasında «Musiqi irsimizdən», İctimai televizyada «Ozan» adlı saat yarımlıq möhtəşəm verilişlər xalqın zövqünün formalaşmasına, vətənpərvərlik hissinin artmasına xidmət etdi.

Təbiət Allahın şah əsəridir – deyən Zəlimxan özü təbiət şairinə çevirilib. Bu isə yurd sevgisindən, torpağa və sazasözə bağlılıqdan irəli gəlir.

Zəlimxan Yaqub, haqqında ən çox yazılan, ədəbi tənqid və ictimaiyyətin diqqət mərkəzində olan xoşbəxt taleli, özünə əbədiyyət qazanan şairlərdəndir. Onun haqqında «Zəlimxan Yaqubdan yazılanlar» («Vətən» 2005, 403 səh) və ikicildlik «Zəlimxan Yaqub ədəbi düşüncələrdə» (Vətən, 2009) adlı sanballı əsərlər çıxmışdır. Burada görkəmli qələm sahiblərinin əsərləri yer alır. Onların adlarını saymaqla qurtaran deyil. Bir neçəsinin adını çəkməklə kifayətlənirəm: Osman Sarıvəlli, Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, İsa Hüseynov, Xəlil Rza, Xudu Məmmədov, Qulu Xəlilov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Yaşar Qarayev, İsa Həbibbəyli, Nizami Cəfərov, Budaq Budaqov, İmamverdi Əbilov, Tofiq Hacıyev, Elçin, Səlahəddin Xəlilov, Nizaməddin Şəmsizadə, Qəzənfər Kazımov, Yavuz Axundlu, Cəlal Abdullayev və bir çox başqaları.

Zəlimxan Yaqubun yaradıcılığına yuxarıda söz açdığımız kitablardan əlavə daha bir neçə kitab və namizədlik dissertasiyası həsr olunub:

F.Xubanlı. Zəlimxan Yaqub yaradıcılığı tərbiyə anlamında (Bakı–1998) Ə.Xəlilov. Olimpə gedən yolda (Bakı–2005)

H.Həsənov. Sözün Zəlimxan zirvəsi (Bakı –2010)

R.Kamal Zəlimxan Yaqub – inanc işığı (Bakı–2010)

Ə.Hüseynova «Zəlimxan Yaqubun yaradıcılığı» monoqrafiya (Bakı–2006) və s.

Bütün bu əsərlərdən hasil olan qənaət budur ki, müasir ədəbi prosesdə Zəlimxan Yaqub müstəsna rol oynayan şairdir.

Zəlimxan Yaqubun səhhətində olan problemlər saz-söz və poeziya pərəstişkarlarını narahat edir. Tezliklə şəfa tapmasını yaradandan təmənna edirik.

BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ AMEA-nın MÜXBİR ÜZVÜ, PROFESSOR ABBAS ZAMANOVUN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ YIĞINCAQDA ÇIXIŞIM

14.11.11.

Abbas Zamanov Azərbaycanda yeganə ədəbiyyatşünas alimdir ki, namizədlik dissertasiyası yüksək elmi səviyyədə yazıldığına və ədəbiyyatşünaslıq elmimizə yeniliklər gətirdiyinə görə doktorluq dissertasiyası kimi qiymətləndirilib və Müdafiə Şurasının yekdil qərarına əsasən o, birbaşa filologiya elmləri doktoru elmi adına layiq görülüb. Abbas müəllim həm yaxşı alim, həm də yaxşı insan idi, ünsiyyət etalonu idi. Abbas müəllimlə şəxsi tanışlığım 4 il İraqda tərcüməçi işləyib 1966-cı ildə vətənə qayıdandan sonra oldu və gələcəkdə həqiqi dostluğa çevrildi. Dostluğumuz Abbas müəllimin dünyasını dəyişdiyi 1993-cü il aprelin 1-ə kimi davam etdi. Bu dostluq əqidə və əməl dostluğu idi. Abbas müəllimin elmi fəaliyyətinə toxunmadan onun bir şəxsiyyət kimi, vətənpərvər kimi, qeyrətli, cəsur, qorxmaz insan kimi bəzi cəhətlərini göstərmək istərdim. Abbas müəllim həddən artıq sadə adam idi. Sadə həyat tərzi keçirirdi. Evinə gələnlər sevinə-sevinə gələr, könülsüz gedərdilər.

Abbas müəllim, təmiz, pak adam idi. Onun evində haram tikə nə olduğunu bilməzdilər. Abbas müəllimlə aramızda ata-oğul münasibəti yaranmışdı. Demək olar ki, hər gün görüşürdük. Hər axşam Abbas müəllim və prof. Əlövsət Abdullayevlə birgə bulvara gəzməyə gedərdik. Bəzən deyərdi: «Gəlin bu axşam Mirzə Bəkirin (akademik Bəkir Nəbiyevə belə müraciət edirdi) evinin yanına – Ordu stadionuna gedək. Mirzə Bəkir də gələcək».

Bu gəzintilər mənim üçün oxunmamış kitablar idi. Abbas müəllimlə qonaqlığa getmək isə başqa aləm idi. Qonaqlıqlarda

əsl qidadan – ləziz təamlardan daha çox mənəvi qida alardıq. Yaxşı yadımdadır, bir dəfə Qarabağ restoranında Türkiyədən gəlmiş qonaqlarla ziyafətdə idik. Bu, sovet sisteminin dayaqlarının laxladığı bir vaxta düşmüşdü. Mən orada ilk dəfə olaraq ixtisasca riyaziyyatçı olan akademik Fərəməz Maqsudovun poeziyamızı əzbər bildiyinin, poeziyamızı necə gözəl təbliğ etdiyinin şahidi oldum. Sabir Rüstəmxanlının Türkiyəni, türkləri necə candan sevdiyini dərindən dərk etdim. Fərman Kərimzadənin necə gözəl şeirlər yazdığını ilk dəfə gördüm.

Abbas müəllimin Türkiyəyə münasibətini əksər ziyalılarımız yaxşı bilir. Lakin az adam bilir ki, sovetin qılıncının dalı da, qabağı da kəsdiyi bir vaxtda, Türkiyənin adının mətbuatda yasaq edildiyi bir zamanda Abbas müəllim Atatürkün şəklini çoxaltdırıb inandığı adamlara paylayırdı. Ədəbi əlaqələr sahəsində də Abbas müəllim böyük işlər görürdü. Bir çoxları kimi ədəbi əlaqələrlə vaxtaşırı deyil, ardıcıl olaraq, sistemli şəkildə məşğul olurdu. Türkiyəyə, İrana, İraqa öz hesabına kitablar alıb göndərirdi. Atatürk adına Ərzurum Universitetində indinin özündə belə «Abbas Zamanovun bağış kitablığı» fəaliyyət göstərir. Doktor Həbib İdrisi «Abbas Zamanovun bağış kitablığının kataloqu» adlı əsər çap etdirmişdir. O, 221 səhifədən ibarət kitaba geniş giriş məqaləsi yazmış və Abbas müəllimin xidmətlərini yüksək qiymətləndirmişdir.

Abbas müəllimin hər kəlamı bir məktəb idi. Xalq qarşısında xidməti olan kimisə son mənzilə yola salanda deyərdi: «Sağ ol, a filankəs!». Mənasını soruşanda deyərdi: «O, yaxşı adam idi. O ölməyib, bizim qəlbimizdədir».

Nə edəsən ki, təbiətin və yaradanın öz qanunları var. Verdiyini alır. Abbas müəllim cismani cəhətdən indi aramızda yoxdur. Lakin o bizə görə ölməyib. Çünki o yaxşı adam idi. Mən bu kiçik çıxışımı Abbas müəllimin öz kəlamı ilə bitirirəm: «Sağ ol, Abbas müəllim, nə yaxşı ki, sən var idin. Yoxsa görkəmli bir alim və şəxsiyyətin yeri boş görünərdi».

MƏKTUBLAR

TARİXƏ ÇEVRİLƏN YADDAŞ

DÜMANIN BAKIDAN MƏKTUBU*

Hörmətli redaksiya!

Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da anadan olmasının 200 illik yubileyi qeyd edilən böyük fransız yazıçısı Aleksandr Dümanın (Ata) Azərbaycanda çap olunmamış, 1858-ci ildə Bakıdan Parisə göndərdiyi məktubu dilimizə çevirib cüzi ixtisarla sizə təqdim edirəm.

Hər şeydən öncə, onu qeyd etmək istərdim ki, heç bir əcnəbi səyyah, alim və ya yazıçı A.Dümanın Azərbaycana göstərdiyi xidməti göstərməmişdir. Təkcə onu demək kifayətdir ki, məşhur yazıçı «Şahdağın qarları» əsərini, Avar xanın qızı Səltənət və azərbaycanlı Şamxal bəyin eşq macərasından bəhs edən «Sultanetta» («Sultan qızı») romanını yazıb Parisdə çap etdirmiş, böyük həcmli «Qafqaz səfəri» əsərinin yarısını Azərbaycana həsr etmişdir. Kitabda yazıçı xalqımız, tariximiz, tarixi abidələrimiz, mənəviyyatımız, mənəvi dəyərlərimiz, adət-ənənələrimiz və s. barədə böyük hörmət, ehtiram və məhəbbətlə söz açır. Məlumdur ki, hər bir xalq digərləri arasında mənəvi dəyərləri ilə seçilir. Yazıçının mənəvi dəyərlərimizi başqa xalqlara tanıtmaq baxımından gördüyü işlər ölçüyəgəlməzdir. Düma Azərbaycan xalqını qonşu xalqlarla müqayisə edərək onların təbiətlərində tarixən özünü göstərən bəzi eybəcərliklərdən söz açır. Azərbaycanlılar haqqında: «Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı» – deyə aləmə bəyan edir. Qeyd edir ki, Fransada bu qonaqpərvər, zəhmətkeş, cəsur xalq haqqında təsəvvür yanlışdır. Dərbənd və Qızlardan başlamış, Quba, Sumqayıt, Bakı, Şamaxı, Nuxa və s. başdan-başa gəzən yazıçı gördüyü insanlar barədə ürəkdolusu danışır. «Atəşgah»ı ziyarətə gedərkən

* Bax: Ədəbiyyat qəzeti, 29.11.2001. s.1.

azərbaycanlı ailəsində qonaq olmağından, Bakıda Natəvan, uşaqları, anası və əri Xasay xan Usmiyevlə görüşlərindən, Şamaxıda Mahmud ağanın evində rəqslərə, xanəndə və musiqiçilərə heyranlığından, musiqi alətlərimizdən, şəhərlərin ürəyi adlandırdığı Dərbənd, Bakı və Nuxa bazarlarından, xəzər dənizinə məftunluğundan və s. söz açır. Onu da bilmək maraqlıdır ki, Düma Sankt-Peterburqdan çıxanda Yelizavetpoldan (Gəncə) keçib getməyi nəzərdə tutmuşdu. Gəncə qapıları barədə orada məlumat toplamaq istəyirdi. Çünki Kutaisinin on bir kilometrliyində olan Gelati monastrına gedib Gəncə qapılarını görmək istəyirdi. Onun yazdığına görə, Gəncə qapılarının bir tayı orada saxlanılır. İndiyə qədər də oradadır. Dümanın təsvirinə görə, o qapı tayının hündürlüyü beş-altı metr, eni isə iki metr yarıma yaxındır.

Amma nədənsə Düma fikrini dəyişib Gəncədən deyil, Nuxadan keçib getdi. Bütün bunlar barədə Həmid Abbasovla şərikli tərcümə edib oxuculara çatdırdığımız «Qafqaz səfəri» kitabında ətraflı məlumat vermişik. Böyük yazıçının «Qafqaz səfəri» barədə gürcü dostlarımızla birgə bədii-sənədli film çəkmək planlaşdırılıb. Filmin Azərbaycana aid hissəsinin ssenarisini yazmışam*.

İndilikdə isə məramım Dümanın Bakıdan Parisə göndərdiyi məktubu oxuculara təqdim etməkdir. Güman edirəm ki, məktub dümasevərlərin marağına səbəb olacaqdır. Onu da deyim ki, Düma məkıtubu Suraxanıda «Atəşgah»ı ziyarət etdikdən sonra, onun təsiri altında yazıb. Məktubu oxuyarkən bunu nəzərə almaq lazımdır.

Qəzənfər PAŞAYEV

Əziz Meri, bir rus qəzetində oxudum ki, Parisdə və hətta bütün Fransada mənim ölümüm barədə şayiələr yayılıbdır. Bu xəbər mənim çoxsaylı dostlarımı məyus edib. Qəzet əlavə

* Bax: Literaturnıy Azerbaydjan, №3, 2004, s.8–23.

etməyi unudub ki, bu xəbər eləcə də mənim çoxsaylı düşmənlərimi sevindirib. Şübhəsiz, bu onsuz da aydındır.

Siz artıq bir dəfə öz adınızdan mənim ölümüm barədə yayılmış şayiələri təkzib edibsiniz. Bu dəfə mənim adımdan yazın ki, mən o qədər də axmaq deyiləm ki, belə tezliklə həyatla vidalaşım. Dostum, mənim üçün çox ağır olardı ki, belə qeyri-adi səyahətimi yarımçıq qoyam, Fransaya döndüyüm bir vaxtda öləm. Hətta ölsəm belə, müqəddəsliyinə görə məndən üstün olan Bonaventur kimi gecə gələr və yarımçıq qalmış xatirələrimi tamamlayaram.

Sizə İrandan, Rusiyadan, bilmirəm hardan yazıram. Qoy lap olsun Hindistandan. Hazırda mənim peyğəmbərim Zərdüşt, səcdəgahım isə məni əhatə eləyən alovdur. Ayağım altında torpaq, su, ətrafımda hava yanır. Söz gəzdirən ağzıgöyçəklər bəyan edə bilərlər ki, mən buraya günahlarımı yumaq üçün gəlmişəm. Mən isə əslində, buraya öz kefimlə ləzzət almağa gəlmişəm.

Hər şeydən xəbərdar olan bir adam kimi, əziz Meri, sizə o da məlumdur ki, Bakı neft quyularına görə müqəddəs yer hesab olunur. Bu quyuların sayəsində Bakı qonşu Şamaxını viranə qoyan zəlzələyə məhəl qoymur. Çünki quyular qoruyucu qapaq rolunu oynayırlar. Mən indi onların arasındayam. Onlardan 60-ı yanır və vulkana oxşayır. Hər halda mənim dünən ziyarət etdiyim, od içində olan ibadətxanaya (Atəşgah – Q.P.) bənzər bir şey görməmişəm. Eləcə də bu gün dənizdə baş verən od-alov. (Düma dənizlə Bibiheybət məscidinə gedərkən Bayıl yaxınlığında baş verib – Q.P.) Əvvəllər burada su qaynayar, insanlar təəccüblənərdilər. Bunun nə olduğunu bilməzdilər. Lakin neftin iyisini hiss edərdilər. Amma günlərin birində bir kapitan burada suyun dərinliyini ölçərkən siqaret yandırdığı kağızı suya atmış və od-alov ətrafı burumuşdu. Xoşbəxtlikdən qərbdən əsən küləyin sayəsində gəmi sağ-salamat od-alovun içindən çıxa bilmişdi. Bu gün axşam biz həmin təcrübəni

təkrar etdik. Dəniz bizi lütfkarlıqla qəbul etdi və pulsuz tamaşanın şahidi olduq. Bu qeyri-adi bir mənzərə idi. Mən tez qeydlər etdim. Moyne (rəssam – Q.P.) isə bir neçə şəklin konturlarını cızdı. Lakin Brahamın bu cənnətinə düşməkdən ötrü (Atəşgah nəzərdə tutulur – Q.P.) Məhəmməd peyğəmbərin dini üçün körpü olan Qafqazı başdan-başa keçməli olduq. Biz bura Şamilin ərazisindən keçib gəldik. Və iki dəfə müridlərin başçısının adamları ilə atışmalı olduq. Bizim tərəfimizdən üç azərbaycanlı və bir qazaq, onun tərəfindən 15 çərkəs öldürüldü.

Düzü, mən burada bəy kimi səyahət edirəm. Bu yerlərdə qonaqpərvərlik Uralın qızıl mədənləri kimi tükənməzdir. Mənim mühafizə dəstəm üç azərbaycanlı bəyin başçılıq etdiyi 500 nəfərə yaxın döyüşçüdən ibarət idi.

İnsan beyni qəribə mexanizmdir! Bilirsən, bütün bu müddət ərzində nələr düşünmüşəm?!.

Əzizim Meri, gələn il birlikdə səyahətə çıxaq. Sizin üçün əsl vətən Şərqdir! Sizin ən yaxşı romanınız Hindistan bəhrəsidir. Ən gözəl şeirlərinizin yaranmasında Misirdən ilham alıbsınız. Başınızda – daha doğrusu, ürəyinizdə tüğyan edən 5–6 roman, 8–10 minə qədər şeir parçası azadlığa çıxmaq üçün can atır. Qəfəsi açın, onları azadlığa buraxın. Mən də həmən qışqırım: «Uçun, uçun, xoşbəxt olun!» Hələlik, əziz dostum, sizi həmişə yad edəni unutmayın.

25 noyabr 1858-ci il,
Bakı, Keçmiş İran, indi isə
Rusiyanın Asiya şəhəri

«ƏDƏBİYYAT QƏZETİ» REDAKSİYASINA MƏKTUB

Hörmətli redaksiya, bildiyiniz kimi, bu günlərdə İraq türkman şairəsi Nəsrin Ərbil mənim dəvətimlə Bakıya gəlmişdi. Əziz qonaq hər yanda mehribanlıqla, məhəbbətlə qarşılandı. Azərbaycan Yazıçılar Birliyində, MEA-nın Nizami Adına Ədəbiyyat İnstitutunda, Ədəbiyyat muzeyində Azərbaycan Ensiklopediyasında, sizin redaksiyada, «Elm nəşriyyatında oldu. Dövlət Milli Akademik Dram Teatrında Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» əsərinə baxdı. Əsər və aktyorların oyunu ona böyük təsir bağışladı. Təbii ki, İraqla, İraq türkmanları, onların ədəbiyyatı ilə bağlı adamlarla maraqlandı.

Milli Elmlər Akademiyamızın müxbir üzvü, ədəbi əlaqələr yolunda yorulmadan çalışan ən görkəmli simalarımızdan biri Abbas Zamanovdan söz açdı. Hələ 1959-cu ilin əvvəlində anasını itirdiyi vaxt Abbas müəllimin ərəb qrafikası ilə ona yazdığı, ağır günlərin yadigarı olan məktubunun surətini mənə verdi. Belə düşünürəm ki, bu kiçik məktub Abbas müəllimin şəxsiyyətinin böyüklüyünü göstərməklə bərabər, gənclərimizə örnək ola biləcək bir məsələdən söhbət açır. Odur ki, həmin məktubu çap etməyinizi xahiş edirəm.

Hörmətlə **Qəzənfər PAŞAYEV**

«Çox hörmətli Nəsrin xanım!

Bu sətirləri sizə yazan, əsərlərinizi sevə-sevə oxuyan, istedadınıza pərəstiş edən azəri oxucularından biridir.

Möhtərəm bacım! «Qardaşlıq» məcmuəsində oxudum ki, əziz ananız rəhmətə gedib. Bir oxucunuz kimi bu münasibətlə

mən sizə və bütün əqrabalarınıza dərin hüznlə başsağlığı verirəm. Mən sizi başa düşürəm. Dünyada insana ən doğma, ən yaxın adam olan anamı itirməkdən böyük dərd yoxdur. Lakin böyük dərdə dözmək özü də böyüklükdür. Mən inanıram ki, siz incə şair qəlbinizdə kifayət qədər cəsarət tapıb bu müsibətə mərdliklə dözəcəksiniz.

Azərilərdə bir məsəl var: «Hər şeyi torpaq çürüdür, dərdqəmi çalışmaq».

Atalarımızın bu müdrik fəlsəfəsinə əməl edib qələmə sarılın, yazın, yaradın. Bununla həm özünüz, həm də mərhum anamızın ruhunu şad edərsiniz.

Əgər vaxtınız və həvəsiniz olsa, şeirlərinizdən bir məcmuə düzəldib, şəkliniz və tərcümeyi-halınız ilə birlikdə mənə göndərin. Mən Bakıda kitabınızı nəşr etdirməyə çalışar və güman edirəm ki, müvəffəq olaram. Nizami adına Ədəbiyyat muzeyindən sizə iki kitab göndərilmişdir. Yaxın günlərdə alarsınız».

Səmimi hörmət və salamlarla **Abbas ZAMANOV**

Bakı, 1.03.1969

ƏZİZİM SƏDNİK MÜƏLLİM!*

Fikrimi bilmək üçün göndərdiyiniz hər iki əsəri oxudum. Özü də diqqətlə oxudum.

Qardaşım, Sizin cəfakeşliyiniz, həvəs və folklora olan məhəbbətiniz məni illərdir ki, heyran edir, sevindirir. Hər iki əsəriniz mənim qəti fikrimcə, orijinaldır. «Unnu Ağcanın lətifələri»ndən başlayacağam. Bilirsiniz ki, mən uzun illər Kərkük lətifələri üzərində işləmiş, həm elmi söz deməkdən çəkinməmişəm, həm də İraqda yaşayan azərbaycanlıların lətifələrini «Molla Nəsrəddindən töhfələr» və «Mollanın nəvə-nəticələrindən töhfələr» başlıqları altında çap etməkdən çəkinməmişəm. Orda da Unnu Ağcalar çoxdur. Xalqımızın yayıldığı bütün ərazilərdə müdrikliyi, ağlı-zəkası, duzlu-məzəli söhbətləri ilə seçilən Ağcalar çoxdur. Qoy onların sayı daha da çox olsun!

«Unnu Ağcanın lətifələri» mənə zövq verdi. Gənclik illərində xalq arasında gördüyüm xalq müdrikləri gözümün qabağına gəldi. Təkcə buna görə sizə minnətdaram.

Başqa bir tərəfdən də mən də Unnu Ağcanı yetirən torpaqdanam. Fəxr edirəm ki, torpağımız tarixdə qalmağa layiq şəxsiyyətlər yetirir. Bəlkə də, nəsillər dəyişdikcə Unnu Ağca yaddaşlardan silinəcək, onun bəzi kəlamları başqalarının adına çıxılacaqdır. Sizin ən böyük xidmətiniz onu tarixdə yaşatmaq oldu. Axı bəşəriyyətin ən böyük kəşfi nəsillərin nailiyyətlərini yaşadan kitablardır. Məhz bunu nəzərə alaraq «Unnu Ağcanın lətifələri» kitabının sponsorluğunu öz üzərimə götürürəm.

Hörmətlə **Qəzənfər PAŞAYEV**

Bakı, 4.12.1999

* Bax: «Unnu Ağcanın lətifələri». Toplayan və tərtib edən: Prof.S.Paşayevdir. «Ekologiya» nəşriyyatı, 1999. s. 48.

21 Kersli küçəsi,
London SW 11
Cənab Ceyms Oldricə

Möhtərəm Ceyms Oldric!

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində anadan olmağınızın 85-ci ildönümü münasibəti ilə 2003-cü ilin oktyabr ayının 31-də elmi sessiya keçirildi.

Elmi sessiyada Sizin yaradıcılığınızla bağlı dörd görkəmli alim məruzə etdi. Sonra isə Azərbaycan ictimaiyyətinin nümayəndələri və xarici qonaqlar çıxışlar edərək çoxşaxəli yaradıcılığınızdan söz açdılar. Sizin Azərbaycan xalqının milli azadlıq hərəkatından bəhs edən və dünyanın 30-dan artıq dilinə, o cümlədən də 1981-ci ildə azəri türkcəsinə tərcümə olunaraq oxuculara təqdim olunan məşhur «Diplomat» romanınız hər bir azərbaycanlı üçün əzizdir. Azərbaycan həqiqətləri barədə bu kitab əcnəbi yazıçı tərəfindən qələmə alınmış ən qiymətli əsərdir. Buna görə xalqımız Sizə minnətdardır. Başqa əsərlərinizdə də Azərbaycan mövzusuna toxunmuş, «Diplomat»ın məntiqi davamı sayılan «Gün keçdi» romanında isə özünüz etiraf etdiyiniz kimi Azərbaycanı mübarizə meydanında tək qoymayıbsınız.

Azərbaycana göndərdiyiniz məktublardan məlum olur ki, Azərbaycan tarixinə, mədəniyyətinə, xüsusən də ədəbiyyatına dərindən bələdsiniz.

Qürur hissi ilə nəzərinizə çatdırırıq ki, Azərbaycanda da ingilis ədəbiyyatına böyük maraq vardır. Bütün görkəmli ingilis yazıçı və şairlərinin əsərləri Azərbaycan türkcəsinə tərcümə olunub. Şekspirin, demək olar ki, bütün əsərləri Milli Dram Teatrımızda səhnəyə qoyulub.

Hörmətli cənab Oldric, Sizi dünya şöhrətli yazıçını bir daha anadan olmağınızın 85 illiyi münasibəti ilə ürəkdən

təbrik edir, Sizə həyatda ən böyük nemət olan cansağlığı və yaradıcılığınızda yeni-yeni uğurlar diləyirik.

Yubiley mərasimi iştirakçıları adından
dərin hörmət və ehtiramla: prof. Rafael Hüseynov,
prof. Nizami Cəfərov,
prof. Qəzənfər Paşayev,
şair və alim Ayaz Vəfalı,
prof. Qulamrza
Səbri Təbrizi
Ramiz Abutalıbov,
Xarici İşlər
Nazirliyinin məsul işçisi
prof. Gülrüx Əlibəyli,
prof. Tofiq Hüseynov,
prof. Zeydulla Ağayev,
prof. Şahin Xəlilli,
dosent Namiq Həsənov,
dosent Məsiağa
Məhəmmədi
prof. Aleksandr Maqil

Bakı – 31.10.2003

P.S. *Tədbiri prof. Q.Paşayevin rəhbərlik etdiyi «Beynəlxalq əlaqələr» şöbəsi hazırlamışdı.*

AZERBAYCAN'DAN GELEN DOST SESİ*

Irak Türkmenlerinin can dostu ve aziz yoldaşı Prof. Dr. Gazanfer Paşayev'den Kardaşlık'a çok sıcak bir mektup geldi. Irak'taki Türkmenlerin ve hatta Kerkük'ün Bakü'deki temsilcisi ve hatta büyükelçisi, benim kanaatime Paşayev'tir.

Paşayev'in Vakıf Başkanı İzzettin Kerkük'e gönderdiği bu mektuptaki sıcak duyguları, siz değerli okuyucularımızla da paylaşmak istedim. Onun için bu mektubu aynen yayımlayarak, değerli dostumuz ve aziz kardaşımız Muhterem Paşayev'e, buradan binlerce sevgi ve şükran yüklü selamlar yolluyor, bütün can Azerbaycan'a Telafer'den Mendeli'ye kadar kucak dolusu sevgiler sunuyoruz.

Prof.Dr.Suphi Saatçi

«Sayın İzzettin Kerkük'e

Hörmetli İzzettin Bey,

Her defa «Kardaşlık» dergisinin yeni nömresini (sayısını) alanda, ilk olarak Size Yaradan'dan can sağlığı arzulayıram. Sonra ise bütün işlerimi bir yana koyarak bir nefese dergiyi sona kimi oxuyuram. Bazen acılı-şirinli göz yaşları tökürem. Derginin son Nisan-Haziran 2003 sayı da istisna olmadı. Xüsusen Erşat Hürmüzlü, Professorlar Suphi Saatçi ve Mahir Nakip Kerkük'e seferleri barede yazıları meni haldan hala saldı. Sanki men de onlarla birlikde Kerkük'ü ziyaret etdim.

İzzettin Bey, semimiyyetle deyirem, Sizin dergi bir elm merkezinin göre bileceyi kadar büyük işler görür. Derginin her sayında sanballı elmi makaleler, tedqiqat işleri çap olunur. Derginiz büyük bir nümune mektebine çevrilib. Men

* Bax: «Qardaşlıq» dergisi, İstanbul, Yıl 5, Sayı 19, 2003.

professor Dr. Suphi Saatçi'ye *«Terzibaşı'nın Ölümsüz Külliyatı»* makalesine göre derinden teşekkür ederim. Ata Terzibaşı çox büyük alimdir. Suphi Saatçi onun yaradıcılığına layiqince kıymet vermişdir. Cengiz Bayraktar'ın *«Nesrin Erbil»* makalesi de çox metleblerden söz açır. Professor Dr. Kamil Nerimanoğlu ile gönderdiyiniz kitabları aldım. Çok çok teşekkür ederim.

Irak Türkmanlarının lehcesine hesr olunmuş luğet ve Suphi Saatçi'nin *«Irak Türkmanları»* kitabları çok gerekli oldu. Menim 212 sayfadan ibaret *«Kerkük dialektinin fonetikası»* kitabım çap olundu. Eylülün evvelinde 316 sayfanı içine alan *«Kerkük Folklorunun Janrları»* kitabım ışık yüzü görecek. Kitabın redaktorları akademik Bekir Nebiyev ve professor Mahir Nakipdir. Milli Bilimler Akademimizde ise büyük hecmde *«Kerkük dialekti»* kitabımız neşr olunur. Kitablar inşallah eylül ayında elinize çatacak.

İzzettin Bey, *«Altunköprü»* derginiz de her vaxt elime çatır. Son sayda Suphi Saatçi qardaşımın *«Münakaşa etmek»* makalesi gençlere yol göstermek, Osman Oğuz'un Azerbaycanla bağlı *«Fevzi Ekrem Terzioğlu»* makalesi gençlere örnek olmak bakımından seçilir.

Xalqımız namine gördüyünüz büyük işler yolunda Size yeni uğurlar ve can sağlığı dileyirem.

Professor Dr. Gazanfer Paşayev
16.08.2003-cü il. Bakı»

HÖRMƏTLİ ELÇİN MÜƏLLİM!

Sizinlə son görüşüm mənə dərin təsir etdi. Söhbətimizi olduğu kimi «Həyat haqqında düşüncələr» adı altında çap etmək olardı. Səmimi və açıq söhbətiniz məni valeh etdi. Şəxsiyyətinizin aliliyi, ürəyinizin və qələminizin xoş niyyətə xidmət etməsi sizi hamının sevimlisinə çevirib.

Uzun illərdir ki, mən Nizami adına Ədəbiyyat İnstitutunda Müdafiə Şurasının üzvüyəm. On ilə qədər həmin şuranın həmsədri olmuşam. Sizin yaradıcılığınıza həsr olunmuş doktorluq (Nərgiz Paşayeva) və namizədlik dissertasiyalarının müdafiəsində sədrlik edərkən qürur hissi keçirmişəm. Alimlərimizin Sizə və yaradıcılığınıza isti münasibətini görərək sevinmişəm. Onu da hiss etmişəm ki, ziyalılarımız Sizə güvənc yeri kimi baxırlar. Ziyalılara rəhbərlik etmək çətindir. Bunu siz bacarırsınız. Siz xalqımızı hər səviyyədə təmsil edə bilən ziyalılarımızdansınız.

Əziz Elçin müəllim, məramım görkəmli yazıçı, tənqidçi, dövlət xadimi kimi Sizi səciyyələndirən məziyyətlərdən söz açmaq deyil, sadəcə olaraq Sizə olan hörmət və ehtiramımı izhar etmək, Sizin də sevincinizə səbəb ola biləcək şad xəbəri diqqətinizə çatdırmaqdır. Hamının çox sevdiyi «Mahmud və Məryəm» romanınız sentyabr ayında Kərkükdə çapdan çıxacaqdır. Kitabı çapa Azərbaycan Ədəbiyyatının dostu, İraq–Azərbaycan ədəbi əlaqələri yolunda misilsiz xidmətlər göstərən Dr. Əbdüllətif Bəndəroğlu ilə birgə hazırlamışıq. Kitabda mənim «Elçinin sənət dünyası» adlı əhatəli giriş məqaləm də yer alacaq.

Elçin müəllim, filologiya elmləri namizədi Gülzar İbrahim qızı ilə birgə hazırladığım və öz hesabıma çap etdirdiyim «İsi Məlikzadə – 70» (2004), «Hüseyn Arif–80» (2004), «Tofiq Bayram – 70» (2005), «Əlibala Hacızadə – 70» (2005),

«Fikrət Qoca – 70» (2005), «Akad. Bəkir Nəbiyev – 75» (2005) portret kitabları arzunuzla sizə göndərirəm.

Hörmət və ehtiramla **Qəzənfər PAŞAYEV**
30.06.07

P.S. *Yazıçının «Mahmud və Məryəm» romanı, həqiqətən də, 2007-ci ilin payızında Kərkükdə mənim giriş məqaləmlə çap edildi –* ***Q.P.***

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ CƏNAB Ə.QARAYEVƏ

Hörmətli Əbülfəs müəllim!

«Aleksandr Düma Qafqazda» Mədəni Turizm Marşurutu layihəsinin həyata keçirilməsi ilə bağlı Turizm şöbəsinin əməkdaşları ilə keçirdiyimiz görüşdən sonra arzu və təkliflərimi diqqətinizə çatdırmaq qərarına gəldim:

1. Ölkəmizdə Dümanın olduğu yerlərdə üç dildə: Azərbaycan, fransız və ingilis dillərində xatirə lövhələri qoyulsun.

2. Xatirə lövhələrini Bakıda: Qoşa qala qapısında, Qız qalası və Şirvanşahlar sarayının önündə, Atəşgah məbədində, Quba, Şamaxı, Ağsu rayonlarında, Sumqayıt, Şəki şəhərlərində Xan sarayının önündə qoymaq məqsədəuyğundur.

3. Düma Atəşgahı ziyarət edərkən köhnə Suraxanıda qonaq olduğu və Şəkidə qaldığı evlərin önündə xatirə lövhələri vurulsun və turist marşurutlarına daxil edilsin.

4. Bakıda – münasib yerdə Dümanın büstü qoyulsun. Bu, mədəni və ədəbi əlaqələrimiz yolunda atılmış diqqətəlayiq addım olardı.

5. 1985-ci ildə tərəfimizdən «Yazıçı» nəşriyyatında çap olunan «Qafqaz səfəri» əsəri sonralar topladığımız əyani materiallar və nadir şəkillər daxil edilməklə latın əlifbası ilə çap edilsə ədəbi hadisəyə çevrilər. Kitabın həcmi 200 səhifədən artıq olmayacaq.

6. «Dümanın izi ilə», «Düma keçib bu yerlərdən» və ya «Düma Azərbaycanda» adı ilə Dərbənddən başlamış telefilm çəkmək olar. Telefilmin ssenarisi tərəfimizdən yazılmışdır. Məsələ burasındadır ki, 2003-cü ildə Qızlar şəhərindən başlamış Dümanın Qafqazda keçdiyi bütün yerlərdə

oldum və «Literaturnı Azerbaycan» jurnalında (№3, 2004, s.8–23) «Düma Qafqazda» telefilmin ssenarisini çap etdirdim (ssenari əlavə olunur).

7. Gələcəkdə «Düma Qafqazda» turizm marşurutuna Dərbənd şəhərini daxil etmək olar. Ona görə ki, Düma Dərbənddən yalnız qədim Azərbaycan şəhəri kimi söz açır.

8. Düma Şəki bazarında olarkən milli yeməyimiz kabab yemiş, kitabında bu yeməyə yüksək qiymət vermiş və əcnəbilərə öz tövsiyəsini də vermişdir.

– Ey Nuxadan keçən səyyahlar, açıq havada dayanıb mütləq kabab yeyin. Bunu nəzərə alaraq Şəki bazarında Düma adına cızbızxana açaraq Şəkiyə gələn turistləri ora aparıb kababa qonaq etmək olar.

9. Yerinə görə xatirə lövhələrində Dümanın sözlərindən istifadə etmək olar.

- Gördüyüm çoxsaylı bazarlar içində ən çox xoşuma Dərbənd, Bakı və Nuxa bazarları gəlib.
- Bazarda can dərmanı desən onu da satırlar. Bazar şəhərlərin ürəyidir. Hərəkət də, həyat da oradadır.
- Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etmək lazım deyil. Söz verdi, qurtardı.
- Kabab mənim səyahət boyu rast gəldiyim ən dadlı, ən ləzzətli yeməkdir.
- Mahmud bəyin evi Bakıdan Tiflisə qədər gördüyüm evlərin ən gözəli idi.
- Bazar və şəhəri xeyli gəzdik. Elə bil ürəyimizə dammışdı ki, daha Nuxadan gözəl yer görə bilməyəcəyik.

Nə olaydı mənə bir də bu yerlərə gəlmək qismət olaydı.

10. Hər il noyabr ayının 2-ci yarısında (Düma Azərbaycanda 1858-ci il noyabr ayının 2-ci yarısında olub) Bakı, Şamaxı, Şəki və Qubada Dümaya həsr olunmuş tədbirlər

keçirilsin. Buraya yazıçının maraqla tamaşa etdiyi, kitabında təsvir etdiyi rəqqasələr, musiqiçi və müğənnilər, kəndirbazlar (akrobatlar), pəhləvanlar və s. cəlb olunsun.

Dümanın kitabında təsvir etdiyi gəlinin bəy evinə aparılması səhnəsi göstərilsin və s.

Tədbirlərə diplomatik korpusun nümayəndələri və xarici qonaqlar dəvət olunsun.

Bütün bunlar Fransız–Azərbaycan mədəni-ədəbi əlaqələrinə təkan verən amillər olmağı baxımından diqqəti çəkir.

Dərin hörmət
və ehtiramla *Professor* **Qəzənfər PAŞAYEV**

USTADA MƏKTUB*

Hörmətli oxucular, məlum olduğu kimi, xalq şairi Rəsul Rza keçən əsrin 50-80-ci illərində Azərbaycan–İraq, o cümlədən də İraq–türkman ədəbi əlaqələrinin yaranmasında və inkişafında danılmaz xidmətlər göstərib. Bu, onun B.Vahabzadə və Q.Qasımzadə ilə birgə dahi Füzulinin qəbrini ziyarət edəndən sonra (1959) Kərkükə getməsi ilə başlayıb. Kərkük xoyratlarına İraqda və Azərbaycanda təkrar-təkrar çap olunan «Uzaq ellərin yaxın töhfələri» adlı heyrətamiz əsər həsr edib. Birgə «Kərkük bayatıları» kitabını çap etdirmişik (1968). Tərtib etdiyim «Kərkük mahnıları kitabının redaktoru olub (1973). Ölümünə bir il qalmış – 1980-ci ildə «Yaralı Kərkükün bugünlü xoyrat və maniləri» silsilə şeirlər toplusunu buraxmışdı. Həmin xoyrat və maniləri oxuduqca insan heyrətlənir. Sanki şair İraqın və başıbəlalar çəkmiş Kərkükün bu gününü təsvir edir.

Bağdaddan karvan gəlir,
Dərdli, pərişanə gəlir.
Kimlər qurban kəsilib,
Sularım al-qan gəlir.

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana yanında
Tökür qan-yaş balası.

Atlarım;
İlxı-ilxı atlarım.
Bir çətin günə düşdüm,
Ağladı xoyratlarım.

Bu xoyratlar da daxil olmaqla Rəsul Rzanın «Ağlayan çox, gülən hanı?» adlı kitabını ədəbiyyatımızın dostu Ə.Bəndəroğlu ilə çapa hazırlayanda (Kərkük, 2007, 182 s.) şairin

* Bax:«Ədəbiyyat qəzeti», 4.04.2008, s.2.

oğlu Anar müəllimə müraciət edərək İraqla bağlı şairin arxivi ilə tanış olmağa icazə aldım.

Məni ən çox maraqlandıran məktublar idi. Yaxşı bilirəm ki, şair sağlığında İraqda məskunlaşan soydaşlarımızla məktublaşırdı. Zənnim məni aldatmamışdı. Ərəb əlifbası ilə yazılmış məktublarla tanışlıq şairin əlaqələrinin bir çox ölkələri əhatə etdiyini göstərdi. Bu məktubların hər birinin arxasında müəyyən zaman kəsiyi, insanlar, hadisələr durur.

Aprel ayının 1-i şairin anım günüdür. Odur ki, şairə ünvanlanan və heç yerdə çap olunmayan üç ölkədən üç məktubu oxuculara təqdim edirik. Onlardan biri İraqdan – kərküklü yazar Mövlud Taha Qayaçıdandır, Mövlud Taha son bir ilə qədər İraq-türkman Yazarlar Birliyinin katibi işləyirdi. Vaxtilə «Ədəbiyyat və incəsənt qəzetində çox maraqlı «Dayı Mehdi» hekayəsi çap olunub. Mütəmadi olaraq İraq mətbuatında Azərbaycanla bağlı yazılar dərc edir. Dəvətimizlə ölkəmizi ziyarət edib. Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür.

İkinci məktub görkəmli İran ədəbiyyatşünası Pərviz Xanlaridəndir (burada fars və ərəb dilində yazılmış məktubların tərcüməsində yardımçı olan alim dostum İmamverdi Həmidova təşəkkür etməyi borc bilirəm – Q.P.).

Üçüncü məktub klassik ədəbiyyatımızın məhsuldar tədqiqatçısı Əliəjdər Səidzadədəndir. Görəcəyiniz kimi, məktublar Rəsul Rzanın nüfuzu və gördüyü işlərin miqyası barədə təsəvvür yaradır.*

Qəzənfər PAŞAYEV

Çox dəyərli ustad Rəsul ağa bəyim, sayğı və sevgilərimlə sizə sağlıq və mutluluq dilərək, hörmətlə əlinizi öpürəm. Sizin yazılarınızı hər zaman izlər, sizinlə tanışlığı çox arzularam.

* Bax: «Ədəbiyyat qəzeti», 14.04.2008.

Siz Kərkükə təşrif buyurduqda sizinlə görüşmədiyim üçün həyatda az ələ keçən fürsətlərdən birini itirmiş sayıram kəndimi. «Uzaq ellərin yaxın töhfələri» başlıqlı yazınızı oxurkən az qalsın yazılanlara baxmadan əzbər söyləyəcəkdim yazını. Bu sırada «Bir dərdlinin dərmanın o dərdə düşəndən sor» xoyratını xatırladım. Biz soydaşlarınıza qarşı göstərdiyiniz iyi duyğularınız üçün sizə bilməm minnətdarlığımı nasıl bildirim. Yeri gəlmişkən, rus hərfləri ilə türkcə oxumağı bu dəyərli yazınız sayəsində öğrəndiyimi bildirməliyəm.

Dəyərli ağa bəyim, qardaşımız Qəzənfər bəy mənə yazdığı məktubunda sizə məktub yazmam istəyinizi bildirdi. Bu lütfünüzə, təvazölərinizə qarşı nə qədər məmnun qaldığımı anlatmağa kəndimi aciz buluram – desəm, nəzakət icabı söz olaraq qəbul etməniz bu minnətdarlığım könlümün ta dərinlərindəndir.

Ağa bəyim, mənə ərmağan göndərdiyiniz «Vaxt var ikən» şeir kitabınıza görə sizə ayrıca təşəkkür edirəm.

Əlimdə bir sözlük bulunmadığından, üstəlik canlı və interesan başlıqlar daşıyan «Üçüncü göz» və «Şeir dili» parçalar kitabın altımışıncı ilə yüzüncüyə qədər səhifələri əskik olması üzündən ancaq bir kaç şeiriniz üzərində dura bildim. Düşüncə və görüşlərimi lütfünüzə dayanaraq bəlirtmək istərəm.

«İnsan» başlıqlı şeirinizi oxurkən ölən kişinin mən olduğumu sandım. Çox dərin duyğunuz insanın içinə işləyir. Türkcə, ərəbcə və bu dillərə tərcümə edilən şeirlərdən olduqca okumuşam. Amma insanların tasasını bu qədər canlı bir şəkildə təsvir edənlə pək az rastlaşmışam.

«Dəlidən doğru xəbər» çox canlıdır. Nə yaparsan; bu gördüyün qədər çarpaşıq həyatda tək çıxar yol dəli olmaqdır.

«Gələcəyə səyahət» şeirinizi daha öncə «Səslər» dərgisində oxumuşdum, ep iyi duyğulandırmışdı məni. Kitabdakı mətn dərgidəkindən fərqlidir. Bən daha hüdudlu bir çərçivədə seyr etmişəm, tozan, akan və damarları atan tablonuzdu.

Ustad ağa bəyim, şeirlərinizin Azərbaycan dışında bulunan türklər tərəfindən okunmaması, məncə, çox üzücüdür. Könül dilər ki, daha böyük fayda vermək üçün onları yeni türk hərfləri ilə basdırasınız.

Əfəndim, yuxarıdakı sözlərimi qiymət biçmək yolunu almayınız, çünki bən sizin uca əsərləriniz haqqında söz söyləyəcək iqtidarında deyiləm.

İlk məktubumda bu qədər uzun qonuşduğum üçün üzrlər dilərəm.

Son acizkaranə hörmətlərimi sunar, sizi gözəl Allaha ismarlaram, əfəndim.

Kərküklü qardaşınız
Mövlud Taha Qayaçı,
Kərkük, televiziyon dairəsi,
3 mart 1971

«KREDO» QƏZETİNİN BAŞ REDAKTORU ƏLİ RZA XƏLƏFLİYƏ*

Hörmətli Əli Rza müəllim!

Türkiyədə Türk Dil Qurumu və Erciyəs Universitetinin Fənn Ədəbiyyat fakültəsinin birgə keçirdiyi «Uluslararası çağdaş İraq-türkman dili və ədəbiyyatı» adlı elmi konfransda iştirak etdiyimə görə həmişə maraqla izlədiyim və təqdir etdiyim qəzetimizin son iki sayını oxuya bilməmişdim. Qəzetin təkcə 19 aprel tarixli sayında (№13, 488) nə qədər zəngin, nə qədər maraqlı ensiklopedik məlumat vardır. İstər-istəməz qardaş ölkədə nəzərdən keçirdiyim zövqlə, rəngli şəkillərlə bəzədilmiş qəzetlər göz önünə gəldi. On beş-iyirmi səhifəlik qəzetlərdə gedən materialları bir yerə toplasan, 3-4 səhifə çıxa-çıxmaya. Bizdə də belə qəzet və dərgilər az deyildir. Mən hələ ziyalılarımızı gözdən salmaq məqsədilə bəzi qəzetlərdə baş alıb gedən yalan və iftiralarla dolu, heç bir məna kəsb eləməyən yazıları demirəm. Mənim bu məktubu yazmağımın bir səbəbi də, əslində, elə bununla bağlıdır. Səmimiyyətlə deyirəm, qəzetinizin bu sayında diqqəti çəkməyən, maraqla oxunmayan bir yazıya belə təsadüf edilmir. Akademik Bəkir Nəbiyevin T.Salamoğlunun «Əhməd Cavad yaradıcılığı Azərbaycan və türk alimlərinin araşdırmalarında» əsərinə həsr etdiyi «Təfəkkürün dərinliyi, tədqiqatın təzəliyi» silsilə yazısının davamı, fil. e.n. Gülxani Pənahın Dədə Qorqudla bağlı «Anar və folklor» monoqrafiyasından parçalar (burada əsərin ana axarını «O torpağı ki, qoruya bilmədin, onu əkib-becərməyə dəyməz. O torpağı ki, əkib-becərmədin, onu qorumağa dəyməz» fəlsəfi fikri təşkil edir), Dəmir Gədəbəylinin görkəmli alim və pedaqoq Mir Cəlal Paşayevə həsr etdiyi poeması, tənqidçi Vaqif Yusiflinin «Şeirimizin bu günü,

* Bax: «Kredo» qəzeti, 10.05.2008.

bu günümüzün şeiri» məqaləsi, fil.e.d. İsmayıl Kazımovun prof. Məhəmməd İracoğlunun monoqrafiyasına həsr olunmuş «Azərbaycan şeirinin tarixi və yeni nəzəriyyəsi» məqaləsi (burada rus tədqiqatçısı İ.V.Steblevanın VI–VIII əsrlərin türk poeziyasından apardığı tədqiqatlar ön plana çəkilir. İstər-istəməz düşünürsən. Bir çox ədəbiyyatçılarımız Azərbaycan poeziyasının XIII–XIV əsrlərdə intişar tapdığından söz açırlar. Belə çıxır ki, biz türkdilli xalq deyilik. Belə çıxır ki, «Kitabi-Dədə Qorqud»un bizə dəxli yoxdur. Bəzi dilçilərimiz laqeydlik göstərir. AMEA-nın müxbir üzvü, prof. Tofiq Hacıyev, prof. Qəzənfər Kazımov kimi dilçilərin harayına səs verənlər isə təəssüf ki, azdır), dünya şöhrətli bəstəkarımız Qara qarayevin 90 illik yubileyi münasibətilə tələbələrin çox maraqlı yazıları, Məhəmməd Əmin Rəsulzadənin «Leyli və Məcnun» əsasında «Nizami və Füzuli arasında bir qarşılaşdırma» əsərindən silsilə yazısının davamı, dosent Gülşən Əliyevanın «Füzuli poetikasının bədii sistem kimi tədqiqi», xalq yazıçısı, şair Söhrab Tahirin «Naməlum qadının gündəliyi» povestindən parçalar, yazıçı Tahir Kazımovun «Həsrətlənmiş sevgi» adlı publisistik yazısı, məşhur xanəndə Keçəçi oğlu Məhəmmədə həsr olunmuş məqalə, İsmayıl Bəy Qutqaşınlının yenicə üzə çıxarılmış «İki quşun söhbəti» şeiri haqqında yazı və şeirin özü, saz-söz sənətinin bilicisi, bir çox saz havalarını nota köçürən dosent İlqar İmamverdiyev haqqında yazı, güney Azərbaycandan olan Tağı Piləçaylının xeyli sayda şeiri və bayatıları, çağdaş folklorşünaslıq elmimizin patriarxı, folklordan ilk dərs vəsaiti yazan (İ.Babayevlə birgə) Əməkdar elm xadimi, prof. Paşa Əfəndiyev haqqında dosent Mahmud Allahmanlının məhəbbətlə yazılmış sanballı məqaləsi (burada da ibrət götürüləcək məqamlar çoxdur: Paşa müəllimdən mən elmi, həyatı və insanlığı öyrənmişəm. O, mənim nəzərimdə pirdi, məbəddi, ocaqdı), şair-dilçi alim Kamal Bayramın yaxın-

larda işıq üzü görmüş böyük həcmli «İki dünya arasında» kitabına rəy, sizin «Gündəliyin izi ilə» silsilə yazınızın sonu və Şadimanın yaradıcılığına həsr etdiyiniz «Adı Şadiman olanın…» silsilə yazınızın davamı, Sona Xəyalın «Fikrət Qoca» kitabı haqqında Nijad Mikailzadənin düşüncələri, Folklor İnstitutunda Aşıq Ələsgərə həsr olunmuş poeziya günləri barədə yazı, Xəzail Ərdağın «Axmaq ayı» adlı epiklirik janrda yazılmış bir səhifəlik təmsili, Əliağa Kürçaylının 80 illiyi ilə ilgili yazı, Qəzənfər Sazbəndin şeirləri, yeni çəkilmiş kliplər və s. haqqında yazılar yer alır. Bu yazılarda, hər şeydən əvvəl, məzmun, məna, elmilik, məntiq, dilin rəvanlığı və səlisliyi müşahidə olunur. Sevindirici haldır ki, qəzetinizdə elmi mübahisələrə meydan verilir, ancaq qərəzli yazılara yer verilmir.

Əli Rza müəllim, qəzetin elə təkcə bu sayının ərsəyə gəlməsində çəkdiyiniz titanik zəhməti bir yaradıcı adam kimi dərindən dərk etdiyimdəndir ki, ürəyimin səsinə hay verərək bu məktubu yazdım.

Qloballaşmanın qlobal təzadlarla aləmə meydan oxuduğu, milli dəyərlərimizin aşınmalarla üzləşdiyi, prof. Nəsir İmanquliyevə həsr olunmuş «Mətbuatımızın klassiki» məqalələr toplusu kitabında xalq şairi Sabir Rüstəmxanlının doğru olaraq qeyd etdiyi kimi, mətbuatda qeyri-peşəkarlığın tüğyan etdiyi, sözün ucuzlaşdığı, özünü və sözünü bilməyən adamların jurnalistlik iddiası ilə ortaya atıldığı bir zamanda nə yaxşı ki, xalqa vicdanla xidmət edən ziyalılarımız, «Kredo» kimi məna dolu bəzi qəzetlərimiz vardır.

Qardaşım, ədəbiyyatımıza, elmimizə, mədəniyyətimizə xoş niyyətlə, vicdanla, təmənnasız xidmətlərinə görə sənə minnətdarlığımı bildirirəm.

03.05.08.

MÜŞFİQ, SALAM!

Gözəl əsərə görə səni təbrik edirəm. Təbii ki, ilk oxunuşda heç bir əsərin qüsur və nöqsanlardan xali olmadığı kimi, sizin əsərdə də düzəldilməsi asan olan müəyyən çatışmazlıqlar vardır. Əsəri diqqətlə oxuyub düzəlişlər etmişəm. Onlara baxın, düzəlişləri etdikdən sonra bu nüsxə ilə bərabər mənə qaytararsınız ki, əsərin müzakirə və müdafiəyə buraxılması üçün rəy verim. Əsər boyu səhifə kənarında göstərdiyim bəzi iradlarla bərabər, aşağıdakılara da fikir verin:

1. Girişdə mütləq Amerika–Azərbaycan ədəbi əlaqələrinə nəzər salın. Heç olmazsa prof. Zeydulla Ağayev, başqaları və mənim Amerika ilə bağlı fəaliyyətimizə yer verin. Belə olan halda kitabiyyat Azərbaycan ədəbiyyatı ilə zənginləşəcəkdir. Prof. İsmayıl Vəliyevin insan, zaman, mühit və şəxsiyyət (bədii əsərdə) probleminə dair dissertasiya və monoqrafiyalarından istifadə edin.

2. I fəsildə çox vaxt sovet dövrü ədəbiyyatşünaslıqda yer alan fikirlər sizi çaşbaş salır (məs.: s. 60)

3. Səh. 37 yoxdur, s. 58 isə təkrar olunub

4. Con Steynbekin təhlil etdiyiniz bütün əsərlərindən gətirdiyiniz misallar orijinaldan verilməlidir və s.

Hörmətlə elmi rəhbərin *Prof.* **Qəzənfər PAŞAYEV**
24.10.08

P.S. *Müşfiq Babayev görkəmli ABŞ yazıçısı, Nobel mükafatı laureatı Con Steynbekin yaradıcılığını Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə tədqiq edərək 2012-ci il yanvarın 31-də uğurla namizədlik dissertasiyası müdafiə etdi – red.*

HÖRMƏTLİ SƏKİNƏ XANIM!

Əbdüllətif Bəndəroğlu haqqında gözəl dissertasiya yazdığını nəzərə alaraq bəhrələnmək üçün aşağıdakı kitabları qaytarmaq şərti ilə sənə göndərirəm:

1. «Kitabi-Dədə Qorqud» (ərəbcə), Bağdad, 2007
2. «Altı il Dəclə-Fərat sahillərində» (ərəbcə), Bağdad, 1996
3. Elçin. «Mahmud və Məryəm». Kərkük, 2007
4. Rəsul Rza. «Ağlayan çox, gülən hanı?» Kərkük, 2007
5. Füzuli haqda məqaləm və toplu (ərəbcə), Bağdad, 1994
6. Q.Paşayev. İraq türkman folkloru. Bağdad, 1995
7. «Yurd dərgisi» bütün sayları. Bəndəroğlunun ölümündən sonra kürəkəni Cəlal Poladın buraxdığı saylar daxil olmaqla (№16, 17, 18)

Hörmətlə elmi rəhbərin *professor* **Qəzənfər PAŞAYEV**
Bakı – 09.07.10

P.S. *Səkinə Qaybalıyeva 18 yanvar 2012-ci il tarixdə «Əbdüllətif Bəndəroğlunun ədəbi-elmi fəaliyyəti» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi – red.*

* «Ədəbiyyat qəzeti», 09.01.2009.

GECİKMİŞ MƏKTUB*

Əziz İmamverdi müəllim, maraqlı fikir və mühakimələrlə adamı məftun edən, muncuq kimi gözəl xətlə yazılmış hər iki məktubunuz mənə vaxtında çatmadığına görə sizə vaxtsız cavab verməkdən çəkindim.

Təsəllini onda tapıram ki, Neftçalada yüksək səviyyədə keçirilən yubileylərinizdə iştirak etmək və haqqınızda ürək sözlərimi demək mənə də qismət olub. Yaxşı yadımdadır, yubileylərinizə dostumuz, xalq şairi Qabil və Ayaz Vəfalı ilə gələrdim. 70 illik yubileyinizdə Qabilin əzbərdən dediyi:

Bu ev bülbül yuvasıdı, dəyməyin,
Bəd niyyətlə qapısını döyməyin.
İmamverdi bir təvazö heykəli,
Qarşısında özünüzü öyməyin.

– kimi həqiqətdən xəbər verən sətirlər yaddaşımdan silinməyib.

İnsan yolda tanınar – deyirlər. Biz sizinlə yol yoldaşı olmuşuq. Avtobusla İraqa – dahi Füzulinin yubileyinə birgə gedib-gəlmişik. Xalq yazıçıları Elçin və Anar başda olmaqla hamının sizə ehtiram və qayğı göstərdiyinin şahidi olmuşam. Səfər vaxtı mən sizi daha yaxından tanıdım. Gizlətmirəm, qürur hissi duyuram ki, sizin kimi imanlı bir şəxsiyyətin, vicdanlı alimin, nümunəvi el ağsaqqalının müasiriyəm.

Sizinlə təmasda olmağı özümə şərəf sayıram. Siz xalqımızın iftixarı olan yazıçı və şairlərimizin dostu, yadigarısınız, çox zəngin kitabxananız, qiymətli əsərləriniz var.

İmamverdi müəllim, bu gecikmiş məktubu «Azərbaycan» jurnalında (№11, 2008) görkəmli alim Məsud Əlioğlunun xatirəsinə həsr etdiyiniz «Söndükdə zəka əhli-Vətən ağlayacaqdır» adlı məqalənizin təsiri altında yazıram. Etiraf

edirəm, mən Məsud Əlioğlunun portretini və şəxsiyyətini tam parlaqlığı ilə əks etdirən 2-ci bir yazıya rast gəlməmişəm. Evinizdə qonaq olarkən Bəxtiyar Vahabzadə, Xudu Məmmədov və Məsud Əlioğlunun xatirə dəftərinizə hərənin bir cümlə yazdığını xüsusi vurğulayırsınız.

Mən hikmət sahibləri Bəxtiyar Vahabzadə və Xudu Məmmədovun yazdıqlarına toxunmadan (onlar haqqında siz müfəssəl danışıbsız) Məsud Əlioğlunun yazdığını yada salıram. Tək bircə cümlədən onun necə təfəkkür sahibi olduğu özünü göstərir: «Ürək yandığı, beyin qandığı, insan inandığı, eşq alovlandığı anda gözəldir».

Zamanın yaddaşsızlığı üzündən az qala unudulmağa üz tutan, az yaşayıb, çox iş görən, ədəbiyyatşünaslıq elmimizin tarixində halalca yeri olan məhsuldar alim haqqında az sözlə bitkin əsər yaratdığınıza görə sizə minnətdaram – demək azdır. Hər sadə cümlədəki hikmət məni haldan-hala saldı. Bir daha dünyanın faniliyini göz önünə gətirdim. Odur ki, bu qısa məktubu yazmağa tələsdim.

Sizə ən azı memuarlarınızı, xatirələrinizi yazıb bitirmək naminə Yaradandan cansağlığı, uzun ömür təmənna edən

Qəzənfər PAŞAYEV,
filologiya elmləri doktoru, professor

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏYƏ

Hörmətli Şeyx Həzrətləri!

Sizi – dünyanın ən nüfuzlu din xadimlərindən birini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz taleyi doğuluşundan müəyyənləşdirilən, Müqəddəs kitabımızdan irəli gələn elmi və əxlaqi dəyərlərə arxalanan, mütərəqqi ideyalarla yaşayan, aydın düşüncə və etiraf edilməyə layiq təfəkkür sahibi olan din xadimlərindənsiniz. Bütün dünyada Azərbaycan xalqına başucalığı gətirən böyük şəxsiyyətsiniz. İbrətamiz və mənalı həyat yolu keçmisiniz. Siz yüksək intellektə, mənəviyyata malik, millətin ağrıları ilə yaşayan, vətənin taleyüklü problemlərinin ağırlığını ürəyində daşıyan, onların həllinə çalışan, xalq tərəfindən etiraf edilən bir ziyalı, xoşbəxt taleli insansınız. Allahın verdiyi ömür payını sağlam və gümrah yaşamağınızı arzu edirəm.

Allah Sizi qorusun!

Dərin hörmət və ehtiramla *Prof.* **Qəzənfər PAŞAYEV,**
Qafqaz Müsəlmanları idarəsi
nəzdində Elmi-Dini Şuranın üzvü
06.11.09

«AZƏRBAYCAN» JURNALININ BAŞ REDAKTORU İNTİQAM QASIMZADƏYƏ

Hörmətli İntiqam müəllim!

Azərbaycan Dillər Universitetinin aspirantı Müşfiq Babayev mənim rəhbərliyimlə görkəmli ABŞ yazıçısı, Nobel mükafatı laureatı Con Steynbek və Azərbaycan ədəbiyyatından bəhs edən çox maraqlı «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» mövzusunda namizədlik dissertasiyasını bitirmək üzrədir. Tədqiqatçının ABŞ-da və Azərbaycanda, o cümlədən sizin Baş redaktoru olduğunuz «Azərbaycan» dərgisində (№1, 2004) maraqlı məqalələri çap olunub. Bildiyiniz kimi prezidentimiz İlham Əliyevin sərəncamı ilə Nobel mükafatı laureatlarının kitabları Azərbaycan dilinə tərcümə edilərək çap edilir. Müşfiq Babayev yazıçının «Həyəcanlarımızın qışı» romanını tərcümə edir, «Qəzəb salxımı» romanının isə redaktoru təyin edilib.

Müşfiq bu günlərdə ABŞ-dan qayıdıb. Tədqiqatçının «Con Steynbek yaradıcılığında sufilik və transsendentalizm» adlı məqaləsi çap üçün qəbul edilib. Ədəbiyyatşünaslıq elmimiz üçün yenilik olan həmin yazını jurnalınıza təqdim edir, heç yerdə çap olunmayan bu orijinal tədqiqatın çapını tövsiyə edirəm.

Hörmətlə **Qəzənfər PAŞAYEV,**
filologiya elmləri doktoru, professor
21.01.2009.

P.S. *Tədqiqatçının məqaləsi may ayında Con Steynbek Tədqiqatlar Mərkəzində (ingiliscə) və «Azərbaycan» jurnalında (№5, 2009) çap olundu.*

Qəzənfər PAŞAYEV

«ƏDƏBİYYAT QƏZETİNƏ»*

Hörmətli redaksiya!

Azərbaycan Dillər Universitetinin aspirantı Müşfiq Babayev mənim rəhbərliyimlə görkəmli ABŞ yazıçı, Nobel mükafatı laureatı Con Steynbek və Azərbaycan ədəbiyyatından bəhs edən maraqlı «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» mövzusunda namizədlik dissertasiyasını tamamlamaq üzrədir.

Tədqiqatçının ABŞ-da və Azərbaycanda məqalələri çap olunmuşdur.

Müşfiqin «Azərbaycan» jurnalı (№ 5, 2009) və Con Steynbek Tədqiqatlar Mərkəzində (ABŞ, may, 2009) çap olunan «Con Steynbek yaradıcılığında sufilik və transsendentalizm» məqaləsi ədəbi ictimaiyyətin marağına səbəb olmuşdur.

Bildiyimiz kimi, möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə Nobel mükafatına layiq görülmüş dünya ədiblərinin əsərləri Azərbaycan dilinə çevrilərək çap edilir. Müşfiq Babayev Con Steynbekin «Həyəcanlarımızın qışı» romanını ingilis dilindən Azərbaycan dilinə tərcümə etmiş, yazıçının Azərbaycan dilində çıxacaq «Qəzəb salxımı» romanının redaktorluğu da ona həvalə olunmuşdur. O, eyni zamanda «Con Steynbek və Elçin yaradıcılığı müqayisəli kontekstdə» adlı məqalə yazmışdır. Oxucuların marağına səbəb ola biləcək həmin məqaləni qəzetinizdə çap etməyi tövsiyə edirəm.

Hörmətlə **Qəzənfər PAŞAYEV,**
6.08.2009

---

* Bax: «Ədəbiyyat qəzeti», 14.08.09. s.5.

Muşfiq Babayevin adı keçən məqaləsini qəzetin 14.08.09 tarixli sayında çap edən qəzetin baş redaktoru Ayaz Vəfalıya təşəkkür edirəm.

YAZIÇI SALATIN ƏHMƏDLİYƏ

Hörmətli Salatın xanım!

Bu mənim sizə ünvanladığım ikinci məktubdur. Birinci məktubum «525-ci qəzet»də çap olundu (24.01.09). «Ürəkdən gələni deməsən olmur» adlı həmin yazıda yaradıcılığınıza layiq olduğu qiyməti vermişəm. Sonralar «Ədəbiyyat qəzeti»ndə real həyatı əks etdirən kiçik həcmli hekayələrinizi oxudum. Yığcamlığı, səmimiliyi və bədiiliyi ilə seçilən hekayələriniz məni qane etdi. Bir ana kimi duyğularınızı, həyat yaşantılarını gözəl və inandırıcı təsvir edibsiniz. Mənə belə gəlir ki, qələminizi bu sahədə sınasanız şəksiz uğurlar qazanacaqsınız.

Bir məsləhətim də var. Bədii ədəbiyyatı çox oxuyun, yazıb-yaratmağa vaxt qalmadığından çəkinməyin. Yaradıcılığın dəyəri çap olunan əsərlərin həcmi və sayı ilə ölçülmür. Adamlar tanıyıram 10–15 kitabı çıxıb. Lakin ədəbiyyata dəxli olmayan adamlardır. Bələləri yaradıcılığın əzəmətli aldanışına uyan talesiz insanlardır. «Həcc ziyarəti» kitabınızın əlyazmasının cəmi 15 səhifəsini oxuya bildim. Məlumunuz olsun ki, bir gözüm nurunu itirib. Bircə göz umuduna qalmışam. Həkimlər gözümə diqqətli olmağı tələb edirlər.

Salatın xanım, «Həcc ziyarəti» əsəriniz bir ədəbiyyat adamı kimi, dünyanın bir çox ölkələrində səfərdə olmuş təcrübəli adam kimi Sizi fərqləndirməlidir. Kitabı yazmamışdan əvvəl dünya dinləri, xüsusən də İslam dini ilə bağlı kitablar oxusanız, Şərqlə bağlı oxuduğunuz kitabları göz önünə gətirsəydiniz əsər daha maraqla oxunardı. Bir vaxt Nəbi Xəzri «Peyğəmbər» adlı poema yazdı, uğursuz alındı. Zəlimxan Yaqubun «Peyğəmbər» poemasını yazması elə bununla bağlıdır. Fikir versəniz, görərsiniz ki, Zəlimxan Yaqub külli miqdarda elmi və dini kitablar oxuyub və yerli-yerində onlardan istifadə edib.

Salatın xanım, «Həcc ziyarəti» kitabınız adi kitablardan deyil. Bu kitabın oxucularının və dəyərləndirənlərin sayını təsəvvürümə gətirməkdə çətinlik çəkirəm. Mənə inanın, «Həcc ziyarəti» sizin tale əsəriniz olacaq.

Sizə yaradıcılığınızda yeni-yeni uğurlar diləyən:

Qəzənfər PAŞAYEV,
Bakı, 25.02.09.

P.S. *«Ədəbiyyat qəzeti»ndə 12.06.09 tarixdə çap etdirdiyiniz «Bizdən küsən illərimiz» və «Sevgidən doğan nifrət» hekayələriniz bir daha göstərdi ki, ailə-məişət, real həyat motivlərini inandırıcı təsvir edir və oxucu rəğbətini qazanırsınız.*

Hörmətlə **Qəzənfər PAŞAYEV**

AKADEMİK İSA HƏBİBBƏYLİYƏ*

Hörmətli İsa müəllim!

Hər dəfə səmimi avtoqraflarla göndərdiyiniz kitabları alanda sevinirəm. Ona görə sevinirəm ki, yüksək vəzifə və rütbələr, həyatın şirnikləndirici keşməkeşləri sizi həyat kredonuzdan – ədəbiyyatımıza fədakarcasına sədaqətlə xidmətdən yayındıra bilməmişdir.

Keçən il göndərdiyiniz çox böyük həcmli, çox da sanballı «Ədəbi tarixi yaddaş və müasirlik» kitabınızı diqqətlə oxudum. Ağlın gözü ilə baxsaq orada başqa bir mənzərənin şahidi olarıq. Folklorşünaslıqdan başlamış «Klassik ədəbiyyat», «Çağdaş ədəbiyyat», «Tənqid və ədəbiyyatşünaslıq», «Ədəbiyyat nəzəriyyəsi məsələləri», «Elmi-ədəbi əlaqələr» və s. kimi fəsillərin hər biri ayrıca monoqrafiya təsiri bağışlayır. Bu kitabda nəinki ədəbiyyatsevərlər, hətta ədəbiyyatşünaslar üçün yeni olan məsələlər çoxdur. Tanınmış ədəbiyyatşünas alimlərimiz «Ədəbiyyat qəzeti» və başqa mətbu orqanlarda bu dərin məzmunlu kitabın məziyyətləri haqqında ətraflı söz açıb, onu yüksək qiymətləndiriblər. Qənaətimə görə 60 illik yubileyinizə bundan mənalı töhfə ola bilməzdi.

Qardaşım, fevralın 21-də göndərdiyiniz «Cəlil Məmmədquluzadə» («Əcəmi» nəşr., 2009), «Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri» (Naxçıvan – 2009) və sizə həsr olunmuş «Ömrün illəri və izləri» («Elm və Təhsil» – 2009) adlı möhtəşəm kitabları minnətdarlıqla aldım. İlk iki kitabla bağlı onu deyə bilərəm ki, siz nəinki doğma respublikamızda, eləcə də İranda, Türkiyədə və İraqda da Cəlil Məmmədquluzadənin ən müqtədir tədqiqatçısı kimi tanınırsınız. Bu bir həqiqətdir ki, indi Cəlil Məmmədquluzadədən söz düşəndə göz önünə ilk gələn siz olursunuz. Mənə qalırsa, alim üçün bundan böyük xoşbəxtlik düşünmək çətindir.

* Bax: «Ədəbiyyat qəzeti», 05.03.2010.

O ki qaldı sizin 60 illik ömür yolunuzdan, yaradıcılığınızdan bəhs edən 656 səhifəlik «Ömrün illəri və izləri» kitabına, bu kitabdan hasil olan qənaətim budur ki, illəri illərə calayıb həyatın mənasını anlamadan uzun ömür sürmək hünər deyil. Hünər həyatı dərk edərək mənalı yaşamaq, özündən sonra iz qoyub getməkdir. Siz bu mənada itən qızılı tapmaq olar, itən vaxtı yox» – deyərək gecəni-gündüzə qatan, usanmadan çalışan, hamı tərəfindən etiraf edilən, barmaqla sayılacaq alimlərimizdənsiniz.

İsa müəllim, «Ömrün illəri və izləri» adlı kitabda görkəmli alimlərimizin məqalələri gördüyünüz miqyaslı işlərdən söz açır, kompas kimi həqiqəti göstərir, ömür yolumuza və yaradıcılığımıza işıq tutur. Sizi bir alim, etibarlı dost, nüfuzlu şəxsiyyət kimi daha yaxından tanımağa yardımçı olur. Kitabda yaradıcılığınıza həsr etdiyim «Əbədiliyə aparan yolun yorulmaz yolçusu» (bax: «Ədəbiyyat qəzeti», 6.06.2008) adlı məqaləmə də yer ayırdığınıza görə sizə və kitabın tərtibçisi Aypara Behbudovaya təşəkkür edirəm. Haqqınızda ürək sözlərimi həmin məqalədə aşkarladığımdan bu məktubda sonralar qəlbimə hakim kəsilən duyğularımı, qənaətlərimi bölüşdürməklə kifayətləndim.

Hörmətli İsa müəllim, istər rəhbərlik etdiyiniz Naxçıvan Dövlət Universitetində, istər mənim çalışdığım Ədəbiyyat İnstitutunda, istərsə də Folklor İnstitutunda Müdafiə şuralarının yığıncaqlarında tez-tez görüşürük. Bəzən eyni dissertasiya işi üzrə opponent olur, təmasda olmaq fürsətindən faydalanırıq. Etiraf edim ki, sizin Müdafiə şurasının sədri və ya opponent kimi çıxışlarınız, məntiqi ümumiləşdirmələriniz, ədəbiyyatşünaslıq elminin dərin qatlarına nüfuz etməyiniz məni həmişə həm heyran edib, həm də yaxşı mənada düşündürüb. Cavabını tapanda qürur hissi keçirmişəm. Məlum olub ki, siz, eləcə də indi tanınmış alimlərimiz Teymur Kərimli, Nizaməddin Şəmsizadə, Vilayət Quliyev,

Məhərrəm Qasımlı, Bəhlul Abdulla, Kamran Əliyev, Alxan Bayramoğlu, Zaman Əsgərli, Muxtar İmanov və başqaları elm məbədi, Nizami adına Ədəbiyyat İnstitutunda aspirant olmuş, Məmməd Arif, Həmid Araslı, Məmmədcəfər Cəfərov, Mirzə İbrahimov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Şıxəli Qurbanov, Mirzağa Quluzadə, Yaşar Qarayev, Məmmədhüseyn Təhmasib, Azadə Rüstəmova, Qasım Qasımzadə, Kamran Məmmədov və onların yadigarı Bəkir Nəbiyev kimi korifey alimlərimizdən, elm fədailərindən dərs almış, mükəmməl məktəb keçmiş, onlara layiq alim kimi yetişmişsiniz. Məni sevindirən odur ki, siz müəllimlərinizin xalq üçün gərəkli işlərini üzağlığı ilə davam etdirərək özünüz də elm fədaisinə çevrilmişsiniz. Qoy ədəbiyyatşünaslıq elmimiz naminə qələminiz və zehniniz bundan sonra da kəsərli olsun! Heç vaxt həvəsdən düşməyəsiniz. Sizə möhkəm cansağlığı, könülxoşluğu diləyən

Qəzənfər PAŞAYEV,
05.03.2010

[*] Bax: İnqilab Nadirli. Muğamlı dünyam, Bakı, 2010, 152 səh.

«MUĞAMLI DÜNYAM»IN MÜƏLLİFİ İNQİLAB NADİRLİYƏ MƏKTUB*

Hörmətli İnqilab müəllim!

Yazıçı Rasim Gənzəlinin «Divani hikmət»də tanınmış müğənni Nuriyə Hüseynovaya həsr etdiyi «Qəlbi asiman kimi» kitabının təqdimat mərasimində mənə ərməğan etdiyiniz «Muğamlı dünyam» (Bakı, 2010) kitabınızı əvvəlcə oxumaqdan çəkindim. Nə gizlədim, qorxdum ki, sevimli şairimiz Bəxtiyar Vahabzadənin «Muğam» poemasından aldığım ləzzəti itirəm. Bu etirafıma görə məni bağışlayın. Etiraf ədalətin bərqərar olmasında insana rahatlıq gətirir. Nə isə…

Kitabınızı, xüsusən də kitabda yer alan «Doğma muğamatım» poemanızı maraqla oxudum. İlk təəssüratım və qənaətim bu oldu ki, muğamlarımızla bağlı əsərlər, sizdə olduğu kimi, əruz vəznində yazılanda daha uğurlu olur. İkinci təəssüratım o oldu ki, poemanızı oxuyanlar muğamlarımız, onların şöbə və guşələri haqqında tam bilik əldə edəcək, çox şey qazanacaqlar. Ən başlıcası isə odur ki, kitabınız dərs vəsaiti kimi istifadə edilə bilər.

İnqilab müəllim, kitabın redaktoru, əməkdar artist, tarzən Valeh Rəhimovun doğru olaraq qeyd etdiyi kimi, poemada müəyyən məqamlarda möhtəşəm muğam ümmanına baş vuraraq, onun mahir dalğıcına çevrilir, muğam dünyasının əlçatmaz dərin qatlarına enir, «Hər qətrəsi bir sənət incisi, hər damlası atəş olub ürəkləri yandıran» (Bəxtiyar Vahabzadə) ecazkar aləmdən xəbər verirsiniz.

Möhtərəm Prezidentimiz İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın davamlı qayğısı sayəsində muğamatımızın inkişaf etdiyi zəmanəmizdə hərə bu sahəyə bacarığı müqabilində yardımçı olsa, muğamlarımızın dünya şöhrəti daha da artar, get-gedə çiçəklənər.

Mən sizin «Muğamlı dünyam» əsərinizi, hər şeydən əvvəl, bu baxımdan qiymətləndirir, təqdir edirəm. Muğamlarımızın gözəl bilicisi, xalq artisti Əlibala Məmmədovun əsərinizə yüksək qiymət verməsi sevindiricidir: «Hələ indiyə qədər heç kəs muğamlara və muğamata bu cür obyektiv, hərtərəfli, tam və yüksək qiymət verməyib».

Kitabınızı oxuyanlar görəcəklər ki, ustad sənətkarın sözlərində böyük həqiqət vardır.

İnqilab müəllim, poemada yeddi əsas muğamdan: «Rast», «Şur», «Zabul-Segah», «Bayatı-Şiraz», «Çahargah», «Hümayun», «Şüştər», eləcə də altı digər muğamdan: «Mahur-Hindi», «Bayatı Qacar», «Şahnaz», «Orta Mahur», «Rəhab», «Nəva» (Bayatı-Kürd, Dəşti) və Zərbi muğamlardan söhbət açırsınız. Hər bir muğamı, onun şöbə və guşəsini ürəyəyatan poetik dillə ayrı-ayrılıqda tərənnüm edirsiniz. Müqayisə üçün deyək ki, Bəxtiyar müəllim yanğı və ilhamla yazılmış «Muğam» poemasında yalnız 7 əsas muğamı tərənnüm etmiş, onların şöbə və guşələrindən, eləcə də digər altı muğamdan və zərbi muğamlardan söz açmamışdır.

Maraqlıdır ki, dahi Üzeyir Hacıbəyov 1938-ci ildə aşıqların II qurultayında çıxışında göstərirdi ki, bütün aşıq havaları «Şur» üzərində qurulub. Bu, bir daha muğamların sahilsiz ümmana bənzəməyindən xəbər verir.

Poemanızda mənə tapıntı təsiri bağışlayan maraqlı bir cəhəti də qeyd etmək istərdim. Hər bir muğamı, onun şöbə və guşəsini tərənnümə başlamazdan əvvəl, həmin muğamla bağlı «Oxu bülbül» başlığı ilə iki misra verməklə oxucunun diqqətini həmin muğama yönəldirsiniz:

Oxu bülbül, «Segah» üstə, çiçək açsın yenə güllər,
Ovsunlasın ürəkləri nəğmə deyən şirin dillər.

* * *

Oxu bülbül, «Şüştər» üstə, qoy kamanım gəlsin dilə,
Nalə etsin, saf eşqimi bəyan etsin doğma elə və s.

Bundan sonra isə muğamın tərənnümünə keçirsiniz:

«Rast»ın şahlıq dünyasında sehrli bir aləm varmış,
Müdriklərin müdrikiymiş, kama çatmış ixtiyarmış.

Sonrakı misralarda «Rast»ın bütün şöbə və guşələrini poeziyanın şirin dili ilə tərənnüm edirsiniz. «Vilayəti», «Dilkəş», «Kürdü», «Hüseyni», «Üşşaq», «Raki-Hindi», «Əraq», «Novruz-Xara», «Xocəstə», «Rak Xorasan», «Qərayi», «Deyri» və s. Hətta qəzəlin son misrasında «Rast»ın qədim adı «Yegah»ı yada salırsınız.

Kitabda bütün muğamları, onların şöbə və guşələrini tərənnüm etməklə oxucuları muğam aləmi ilə əməlli-başlı tanış edirsiniz.

İnqilab müəllim, poemanızın başlıca məziyyətlərindən biri də artıq dediyim kimi, odur ki, muğamatdan dərs deyən sənətkarlarımız gənclərlə iş zamanı kitabınızdan dərs vəsaiti kimi istifadə edə bilərlər. Bu, böyük uğurdur.

Sizə yaradıcılığınızda yeni-yeni nailiyyətlər, cansağlığı diləyən

Qəzənfər PAŞAYEV

PROFESSOR AĞAVERDİ PAŞAYEVƏ MƏKTUB

Əzizim Ağaverdi müəllim!

Tanış olduğumuz gündən, qohum olmasaq da, bir-birimizə «Əmioğlu» deyə müraciət edirik. Telefon zəngimə cavab verəndə də, mənə telefon açanda da elə tərzdə əmioğlu deyirsiniz ki, hiss edirəm siz də mənim kimi tanışlığımızdan, az qala dostluq həddinə çatan isti münasibətimizdən məmnunsunuz. Mən münasibətlərimizdən qürur duyuram. Ona görə ki, Azərbaycanın ən gözəl ziyalılarından birinin «əmioğlusuyam».

Əmioğlu, Siz xoşbəxt insansınız. Təkcə ona görə yox ki, professorsunuz, yüksək fəxri adınız var. İllərdən bəridir ki, xalqımızın mədəni həyatında hissediləcək rol oynayan, mənəvi dəyərlərimizin qorunması və təbliğində xüsusi xidmətləri olan böyük bir kollektivə qüsursuz rəhbərlik edirsiniz. Siz bir də ona görə xoşbəxtsiniz ki, Sahib kimi oğlunuz – davamçınız vardır. Doğrudur, xoşbəxtlik nisbi və ötəri olur. Lakin çinlilərin müdrik kəlamında deyildiyi kimi, əbədi xoşbəxtlik də var. Bu, hər adama nəsib olmayan o xoşbəxtlikdir ki, insan övladlarından yarısın, canı sağ olsun.

Əmioğlu, mən də hamı kimi gənc muğamatçıların İkinci Muğam müsabiqəsini böyük sevinclə izləyirdim. (Müsabiqədə Güney Azərbaycandan olan gənc xanəndənin iştirak etməsi məni xüsusilə sevindirdi. Bu, birliyimizin ən bariz nümunəsi idi.)

Çox məsul, bütün dünyanın izlədiyi müsabiqənin tarzəni oğlunuz Sahib idi. Səmimiyyətlə deyirəm, müsabiqədən sonra Sahib otaylı-butaylı bütöv Azərbaycanın oğlu oldu. Mənə görə müsabiqədə ən böyük imtahanı Sahib verdi və muğamat biliciləri – yüksək ixtisaslı mütəxəssislərin yanında üzünüzü ağ elədi. Sahib coşaraq virtiozcasına çalanda, sürəkli alqışlar möhtəşəm salonun divarlarını silkələyəndə, operatorlar hərdən sizi göstərirdilər. Həmin anda sizin sifətinizi

bürüyən məmnunluğu, xoşbəxtliyi zaman keçdiyindən indi sözlə ifadə etmək iqtidarında deyiləm.

Əmioğlu, burada sizə də yaxşı məlum olan bir məsələdən də söz açmaq yerinə düşərdi. Bildiyiniz kimi, Sovet rejimi xalqın milli olan nəyi varsa unutdurmağa çalışırdı. «Oxuma tar, oxuma tar, səni sevməz proletar» elə belə yaranmamışdı?! Həftədə bir dəfə bazar günləri saat 14–15 arası bir saatlıq muğamat konserti olardı. Əlbəttə, o mühitdə tarzənlərin yetişməsi də müşkül məsələ idi. Yaxşı tarzənləri barmaqla saymaq olardı. İndi zəmanə dəyişib.

Ölkə rəhbərliyinin ardıcıl qayğısı sayəsində Muğam sənəti və muğamat çiçəklənmə dövrünü yaşayır. Gənc tarzənlər günü-gündən çoxalırlar. Belə bir mühitdə parlamaq, başqalarından fərqlənmək, xalq tərəfindən etiraf edilmək istedadların payına düşür. Sahib istedad sahibidir. Təkcə muğamatsevərlərin deyil, ümumiyyətlə, musiqisevərlərin sevimlisi olan Sahib fəxr edilməyə layiq övlad və tarzəndir.

Əmioğlu, mən Sahib haqqında bir qədər çox danışdım. Səbəbsiz deyil. Məncə valideyn üçün övladının uğurları barədə eşitməkdən böyük həzz mənbəyi ola bilməz.

Sizin haqqınızda onu deyim ki, mən sizin ziyalılar və ictimaiyyət arasında etiraf edilən ziyalı, öz sahəsinin gözəl bilicisi olduğunuzu bilirdim. Lakin Sahibin toyunda gördüm ki, ictimaiyyət arasında böyük nüfuza malik dəyərli şəxsiyyətsiniz. Sevindim və fəxr etdim. Sahibin toyu mənim və həyat yoldaşım Arəstə xanım üçün bir də ona görə əlamətdar oldu ki, bizim toyumuz da 8 noyabrda (1969) olmuşdu. Beş övladımız vardır. Hamısının evi-eşiyi, uşaqları vardır.

Yaradandan arzu edirəm ki, Sahib də ailəsi ilə xoşbəxt olsun. Nəvə-nəticə sahibi olasınız. Həyatınız xoşbəxtliklərlə dolu, ruziniz bol, ömrünüz uzun olsun.

Hörmət, ehtiram və məhəbbətlə *Əmioğlun*

Prof. **Qəzənfər PAŞAYEV**

14 yanvar 2011-ci il

HÖRMƏTLİ BƏKİR MÜƏLLİM!

Sağlığında klassikləşən, Azərbaycan xalqının iftixarı, dahi şəxsiyyət «Üzeyir bəyin izahlı ömürnaməsi» kitabınızın əlyazmasını oxuyub qurtardım. Üç il üzərində sərasər işlədiyiniz bu möhtəşəm kitabın korrekturasını 10 günə zorla tamamladım. Kitabı oxuyub qurtaranda incəsənət sahəsində çox az biliyə malik olduğumu dərk etdim. Sovet sisteminin dəhşətlərini bir daha anladım. Allah sizə cansağlığı versin. Qalan ömrünüzün də gümrah keçməsini yaradandan təmənna edirəm.

Nə yaxşı ki, kitabın əlyazmasını mənə etibar etdiniz. Çox şey öyrəndim. Bir məsələ mənə qaranlıq qaldı. Deyilənlərə görə Firidun bəy Gəncədə öldürüləndə, Nərimanov Üzeyir bəyi öz evinə gətirir ki, ona toxunmasınlar. Təəssüf ki, Üzeyir bəylə Nərimanovun münasibətləri barədə kitabınızda elə bir məlumata rast gəlmədim. Çox istərdim Azərbaycanın ağır vaxtlarında hər ikisi Bakıda fəaliyyət göstərən bu iki tarixi şəxsiyyətin münasibətlərinə dair kitabınızda nəsə olaydı. Mən bu barədə professor Paşa Əfəndiyevin «Azərbaycan şifahi xalq ədəbiyyatı» («Maarif» nəşriyyatı, 1992, səh. 380) kitabında belə bir maraqlı məlumatı oxumuşam. «1913-cü ildə Ü.Hacıbəyov «Əsli və Kərəm» operasını yazmışdır. Opera tez bir zamanda tamaşaçıların rəğbətini qazandı... N.Nərimanov operaya resenziya yazdı. Ü.Hacıbəyovun istedadını yüksək qiymətləndirdi, xüsusilə xalq yaradıcılığına həssas və dahiyanə münasibət N.Nərimanovu heyran qoydu. N.Nərimanov operanın əsasına qoyulan dastandan söhbət açdı, xalq ideallarının üzvlüyünü heyrətliklə şərh etdi».

Dərin hörmət və ehtiramla **Qəzənfər PAŞAYEV,**
Bakı – 14.02.11

ƏZİZ QARDAŞIM SÜBHİ!

«Qardaşlıq» dərgisinin 50-ci sayı əlimə çatdı. Sizə çox-çox minnətdaram.

Qardaşım, adətim üzrə dərgini alanda ilk öncə onu vərəqlədim. Ünsiyyətdə olduğum və ya tanıdığım nə qədər dəyərli insanlar əbədiyyətə qovuşublar. Deməli, mənim nəslimin də yarpaqtökən çağı başlayıb. İstər-istəməz qəlbimdən keçdi. Ömrün yarpaqtökən çağı o qədər də ürəkaçan bir şey deyilmiş. İllərlə qəlbən bir olduğun dostlarının, qohum-əqrəbanın itkisi, nisgili, qocalığın təəssüfü insana rahatlıq vermir. Dərgidə ürəkağrısı ilə haqqında söhbət açılan Dr. Mərdan Əlini də, Əbdürrəhman Qızılayı da yaxşı tanıyırdım. Mövlud Taha Qayaçı isə gənclik dostum idi. Dr. Mərdan Əli ilə tanışlığımın tarixçəsi maraqlıdır. Mən bu barədə «Altı il Dəclə-Fərat sahillərində» (Bakı – 1985, Bağdad – 1996, ərəbcə) kitabımda yazmışam. 1973-cü ilin əvvəllərində Dr. Rza Dəmirçi mənə dedi ki, «Qardaşlıq» dərgisində məclis olacaq. Səni də dəvət edirik. Azərbaycan şairlərinin şeirlərindən oxuyarsan. Görüşə xüsusi hazırlaşdım. Məclis fevral (Şubat) ayının 2-də baş tutdu. Bir çox şeirlər oxudum. M.Ə.Sabirin «Əzrailin istefası» şeirini oxuyanda hamı əlini əlinə vurub güldü. Xahiş etdilər ki, şeiri bir də oxuyum. Məlumdur ki, M.Ə.Sabir bu şeirində bəzi naşı təbibləri tənqid atəşinə tutur… Əzrail istefaya çıxmağı barədə ərizə verir. Ərizədə göstərir ki, o bir nəfər ölməlinin canını alınca, həkimlər neçə-neçə ölməməli adamın axırına çıxırlar. Günahı da qoyurlar onun boynuna… Şeiri oxuyub qurtaranda yenidən gülməyə başladılar. Hətta gözlərindən yaş gələnlər də oldu. Sən demə Bağdadın ən böyük «Mədinət tubb» xəstəxanasının – «Tibb şəhərciyi»nin baş həkimi də əyləşənlər arasında imiş.

Bu, Dr. Mərdan Əli idi. Bu arada onun sağlığına badə qaldıran və zarafatla naşı təbiblər barədə tədbir görməyi tövsiyə edənlər də oldu. İndi «Qardaşlıq» dərgisindən məlum olur ki, 1973-cü il fevral ayının 2-də Dr. Mərdan Əlinin 50 yaşı tamam olurmuş. Məclis də bu münasibətlə qurulubmuş. Allah ona rəhmət eləsin!

Əbdürrəhman Qızılayla da «Qardaşlıq» nadisində tanış olmuşduq. O vaxtlar Universitetlərə təzə qəbul olunmuş tələbələrlə eylül ayında «Qardaşlıq»da görüş keçirilərdi. Əbdürrəhman görüşlərdə mahnılar oxuyardı. Hiss edirdim ki, xalq gənc müğənnini çox sevir. Onunla sonralar 1994-cü ildə Füzulinin 500 ilik yubileyində Bilkənd Universitetində, İstanbulda İraq-türkman Mətbuat konfransında görüşdük. Yaxşı yadımdadır Mehmet Özbəklə gözəl mahnılar oxudular. 2008-ci ildə hər ikisini Bakıya «Kərkük gecəsi»nə dəvət etdik. Möhtəşəm konsert verdilər. «İctimai TV»də çıxış etdilər. Tamaşaçılar bir daha şahid oldular ki, Azərbaycan musiqisi ilə İraq-türkman musiqisi arasında elə bir fərq yoxdur. Əbdürrəhmanın qəbri nurla dolsun. 50 il sənət yolunda can qoyan Mehmet Özbək isə 100 yaşasın! Azərbaycan musiqisevərləri onu yaxşı tanıyır və sənətini yüksək qiymətləndirirlər.

O ki, qaldı Mövlud Taha Qayaçıya, onunla dostluğumuz 1965-ci ildən davam edib. Bakıda əsərlərini çap etdirmişəm.

Xüsusən «Dayı Mehdi» hekayəsi oxucuların çox xoşuna gəlib. İki dəfə Bakıya dəvət etmişdim. Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdi. Ölümü barədə oğlu telefon açaraq məlumat verdi. Bizlərdə də, sizlərdə olduğu kimi dünyasını dəyişən dəyərli insanlara ehtiram borc sayılır. Mənim «Borcumuzdur bu ehtiram» kitabım bütövlükdə ehtirama layiq insanların əziz xatirəsinə həsr olunub. Onların arasında Türk Dünyasının böyük oğlu İhsan Doğramacı, Sinan Səid, Əbdülvahid Kuzəçi oğlu, Əbdüllətif Bəndəroğlu vardır.

(Kitabı sizə göndərmişəm.) Mövludun ölüm xəbərini eşidən kimi «Ədəbiyyat qəzeti»ndə «O da Bakı həsrəti ilə yaşayırdı» (6.05.2011) adlı məqalə və 1982-ci ildə həmin qəzetdə çap etdirdiyim «Dayı Mehdi» hekayəsini yenidən dərc etdirdim. Bu əsər adət-ənənənin, məişətin, etnoqrafiyanın ən bariz nümunəsi olmaq baxımından qiymətlidir.

Qəzetdən bir nüsxə sizə göndərirəm, münasib bilsəniz «Qardaşlıq»da çap edin.

Qardaşım, sizə telefonda anlatdığım kimi, hər biri 500 səhifəni içinə alan 7 cildlik «Seçilmiş əsərlər»imi çapa hazırlamışam. Gələn il 75 yaşım tamam olacaq. Bilirsən ki, getgedə ömrə ümidi azalan yaradıcı adamlar təsəllini qoyub gedəcəyi əsərlərdə tapırlar. 7 cildliyin 3 cildi İraq-türkman folkloruna, ədəbiyyatına, folklorşünaslara, İraq-türkman ləhcəsinə və s. həsr olunub. Artıq sizinlə, Erciyes Universitetinin professoru Mustafa Arqunşah və professor Mahir Naqiblə danışaraq qərara gəldiyimiz kimi, üç cildin hər birinin redaktoru biriniz olacaqsınız. Onu da deyim ki, 7 clddən əlavə bir cild də olacaq. Həmin cild mənim yaradıcılığıma həsr olunmuş məqalələri əhatə edəcək. Orada sizin də, professorlar Mahir Naqib, Mustafa Arqunşah, İsa Özqan və başqalarının da məqalələri yer alacaq.

Qardaşım, Məhəmməd Bayat Bakıya gəlib. Bağdadda çıxan «Qardaşlıq» və «Türkman eli» dərgisini də gətirib. «Qardaşlıq»da Əta Tərzibaşı və Sizin Mövlud haqqında yazınızı oxudum. Sağ olun! «Türkman eli» dərgisində (№32, 2010) prof. Dr. Mahir Naqibin ərəbcə mənim haqqımda «Kərkük sevdalı azərbaycanlı elm adamı» adlı böyük bir məqaləsi çıxıb. Telefon açaraq minnətdarlığımı bildirdim.

Qardaşım, kiçik xalqın faciəsi böyük olur. Nə yaxşı ki, kiçik xalqın ümid və güvənc yeri olan Sizlər kimi ziyalıları vardır. Allah sizi qorusun!

Qardaşım Sübhi, Sizlərə olan məhəbbətim o qədər böyükdür ki, məktubuma son qoya bilmirəm. İnanın ki, bu sonsuz məhəbbətim sahilsiz ümmana bənzəyir. Bir sözlə, bu sevda ölüncədi.

Hörmət və ehtiramla **Qəzənfər PAŞAYEV**

27.06.2011

ƏZİZİM SABİR MÜƏLLİM!

Sizin məsləhətləriniz həmişə mənim üçün gərəkli olub. Hələ mən onu demirəm ki, Sizin məsləhətinizlə yazılan və yaxından köməyinizlə çox böyük tirajla çap olunan «Altı il Dəclə-Fərat sahillərində» kitabı mənim taleyimdə böyük rol oynayıb.

Qardaşım, bildiyin kimi 2012-ci ilin avqust ayında mənim 75 yaşım tamam olacaq. Allahın köməyi ilə yeddi cildlik əsərlərimi çap etdirəcəm. Bütün cildlər çapa hazırdır. Gələn ilin Novruz bayramına qədər işıq üzü görəcəklər.

Sabir müəllim, bilirsiniz ki, mənim yaradıcılığımla bağlı Azərbaycanda, İraqda, Türkiyədə və İranda xeyli sayda məqalələr yazılıb. Onları həyat yoldaşım toplayıb və (adətən, qadınlar ömür-gün yoldaşlarının fəaliyyəti ilə bağlı məsələlərə ərlərini itirdikdən sonra, özü də yana-yana girişirlər. Arəstə xanım bu mənada tez ayılıb) tərtib etmişdir. Gələn il onları da ayrıca kitab kimi buraxmaq fikrindəyəm. Kitabda mətbuatda çıxmayan bir ədəd də yazı yoxdur. Bu yazılar arasında Sizin kimi qələm sahibinin yazısının olmaması, həqiqətən də, məni kədərləndirir. Yəqin eyni hissi siz də mənimlə bağlı keçirirsiniz. Siz hələ xeyli cavansınız. Səhvimizi düzəltməyə imkanımız olacaq.

Qardaşım, şair, yazıçı, dövlət xadimi, fəal ictimaiyyətçi kimi işinizin çox olduğunu bilsəm də, «Ömrün əbədiləşən illəri» adlandırmaq istədiyim bu kitaba «ÖN SÖZ» yazmağı və redaktorluğunu boynunuza götürməyi arzu edirəm. Sizin sözünüzün və qələminizin dəyərini bildiyimdən bu təmənnadayam.

Hörmətlə **Qəzənfər PAŞAYEV**

Bakı – 30.06.2011

P.S. *Sabir müəllim kitabın redaktorluğunu boynuna götürdü və ona «Milli qeyrət» adlı sanballı ön söz yazdı.*

PROFESSOR VİLAYƏT QULİYEVƏ AÇIQ MƏKTUB*

Hörmətli Vilayət müəllim!

Yenicə çapdan çıxmış «Polşada Azərbaycan siyasi mühacirət irsindən» adlı kitabınızı maraqla oxudum. Bəri başdan deyim ki, mən belə kitabları tərtib hesab etmirəm. Nə qədər arxiv materialından istifadə edibsiniz. Mən Polşa–Azərbaycan ədəbi əlaqələrinə dair bir çox mənbələri, eyni zamanda professor Murtuz Sadıqovun, filologiya elmləri doktoru Gülər Abdullabəyovanın və sizin əsərlərinizi oxumuşdum. Lakin iki ölkə arasındakı ədəbi-siyasi əlaqələrin belə dərin olduğunu təsəvvürümə gətirə bilməzdim. Tarixi faktlarla zəngin olan belə bir kitabı oxucu və tədqiqatçılara ərməğan etdiyinizə görə sizə «minnətdarıq» demək azdır. Azərbaycanın dövlət müstəqilliyinin bərpası yolunda mühacir fəaliyyəti dövründə Məhəmməd Əmin Rəsulzadənin, eyni zamanda onun silahdaşları, məslək dostları Mirzəbala Məmmədzadə, Nağı Bayramlı və başqalarının Polşada apardıqları mücadilə haqqında araşdırmalarınızı, bu görkəmli insanların həmin illərdə Polşada yazıb çap etdirdikləri məqalələri maraqla oxudum. Həm də mühacir soydaşlarımızdan polkovnik İsrafil bəy İsrafilbəyovun Azərbaycan Cümhuriyyəti ordusu barədə, polkovnik Cahangir bəy Kazımbəyovun Gəncə üsyanı haqqında yazmış olduqları məqalələri... Deməyi özümə borc bilirəm ki, təqdim etdiyiniz məqalələr o dövrün siyasi mühacirləri, Azərbaycan istiqlalı düşüncəsini sönməyə, öləziməyə qoymayan və bu yolda həyatlarını fəda etmiş insanlarımız barədə obyektiv, son dərəcə ibrətamiz bilgi verir. Necə ki, vaxtilə azərbaycançılıq düşüncəsinin dönməz ideoloqlarından olan Əhməd bəy

* Bax: «Ədəbiyyat qəzeti», 15.07.2011.

Ağaoğlu, Həsən bəy Zərdabi haqqında yazdığınız kitablarda həmin tendensiyaları daha qabarıq şəkildə önə çıxarmısınız… Vilayət müəllim, siz o azsaylı ədəbiyyatşünaslardansınız ki, xarici işlər naziri işləyəndə də, səfir işlədiyiniz zaman kəsiyində də ədəbiyyat aləmindən heç vaxt ayrılmamısınız, ədəbiyyatla yaşamısınız. Bunun məntiqi nəticəsi olaraq elm aləmində boya-başa çatdığınız Ədəbiyyat İnstitutunun alimləri ilə birgə yazdığınız «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» adlı əsərə görə keçən il Dövlət mükafatına layiq görülübsünüz. Uğurunuza sevinirik. Qardaşım, mən sizin ədəbi əlaqələrə bağlılığınızı və bilik səviyyənizi 28 il öncə Rauf İsmayılovun «Fransız–Azərbaycan ədəbi əlaqələri» mövzusunda doktorluq dissertasiyasının müzakirəsində görmüşdüm. Gənc olmağınıza baxmayaraq, yekun sözü demək sizə həvalə olunmuşdu. Biz sizin yaradıcılığınızı həmişə maraqla izləyirik. «Azərbaycan» jurnalı, «Ədəbiyyat qəzeti», «525-ci qəzet» və başqa mətbu orqanlarda çıxan yazılarınızı oxuyur və bəhrələnirik. Polşaya dair silsilə yazınızı xüsusi vurğulamaqla, həm səmərəli diplomatik fəaliyyətinizə, həm də xalqlar arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edən dəyərli əsərlərinizi uzun illər xaricdə işləmiş bir adam kimi yüksək qiymətləndirirəm. Azərbaycan–Polşa mədəni-ədəbi, siyasi-ictimai əlaqələrinin inkişafındakı xidmətlərinizə görə Polşanın ən yüksək «Komandor» ordeni ilə təltif olunmağınız zəhmətinizin haqlı bəhrəsidir.

«Ədəbiyyatda Nobel mükafatları laureatları», «Səməd Ağaoğlu. Hekayələr, memuarlar», «Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri», «Behbudxan Cavanşirin məhkəmə prosesi», «Azərbaycan Paris sülh konfransında», «Son illərin yazıları» kimi tərtib etdiyiniz və ya qələminizin məhsulu olan bir-birindən maraqlı kitablarınızı Filologiya üzrə fəlsəfə doktoru Asif Rüstəmli sizin adınızdan mənə hədiyyə

edib. Hər ikinizə təşəkkür edirəm. Vilayət müəllim, Azərbaycanı təmsil etdiyiniz Macarıstanla bağlı bir nisgilimiz var. Bu nisgilimiz qeyrətli soydaşımız Ramil Səfərovla bağlıdır. Ümid edirik ki, dəyərli bir azərbaycanlı kimi onun hüquqlarının bərpa olunmasında əlinizdən gələni əsirgəməyəcəksiniz. Sizə diplomatik fəaliyyətinizdə və yaradıcılığınızda yeni-yeni uğurlar diləyirəm. Allah sizi qorusun!

Hörmətlə **Qəzənfər PAŞAYEV**
10.07.2011

HÖRMƏTLİ MİRİŞ MÜƏLLİM!*

Məktubunuzu aldım. Hər şeydən əvvəl, diqqətimi çəkən sizin savadınız oldu. İstər-istəməz ürəyimdən keçdi: Kaş müəllimlərimizin heç olmasa 50 faizi sizin kimi savadlı olaydı! Onda bu xalqın övladlarının gələcəyi barədə narahat olmazdım.

Miriş müəllim, ağrılı-acılı məktubunuzu ürək ağrısı ilə oxudum. Deyirlər: «Göz yaşının nə olduğunu əvvəllər ağlamış adam bilər». Kərküklülərdəki bayatıda olduğu kimi:

Necə dağlar;
Qarşıda necə dağlar.
Yetim yanağı bilir,
Göz yaşı necə dağlar.

Mən yetimliklə böyümüşəm. On ildən çoxdur ki, qan sızması nəticəsində sol gözümün nurunu, demək olar ki, itirmişəm. Mənim də sizin kimi çox kitablarım çıxıb. İraqda yaşayan azərbaycanlıların folkloru və ləhcəsi barədə nəzəri kitablar mənə məxsusdur. Əslində 33 kitabım, saysız-hesabsız məqalələrim çıxıb. Xaricdə: İraq, Türkiyə, İranda da kitablarım çap olunub. Lakin bugünə kimi dövlətimiz mənə bir medal da qıymayıb. 72 yaşındayam. Bununla belə, taleyimdən narazı deyiləm. Böyük Yaradana şükürlər oxuyuram. Mətləbiniz mənə aydındır. And olsun Allaha, söhbət açdığınız, həqiqətən də, tərifəlayiq, dünyada üzümüzü ağ eləyən o insanlarla nə qohumluq, nə də başqa əlaqələrim yoxdur (Söhbət Mir Cəlal Paşayevin nəslindən gedir – red.). Özüm haqqında təfsilatı ilə ona görə yazdım ki, məsələni başa düşəsiniz. Hazırda Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışıram.

Hörmət və ehtiramla **Qəzənfər PAŞAYEV**

18.12.2008

*Bax: Hacı Seyid Miriş Bərgüşadlı. Yaxşıları yaxşılara tanıdaq. Bakı, 2011, s.122–123.

HƏQİQƏTİN ÖZÜ

(MÜSAHİBƏLƏR)

AZƏRBAYCANDAKI KƏRKÜK*

Mahir Naqib 1952-ci ildə İraqın Kərkük şəhərində anadan olub. İlk və orta təhsilini Kərkükdə tamamlayıb. 1966–69-cu illər arasında Bağdadda çıxan «Qardaşlıq» dərgisində çalışıb.

1971-ci ildə təhsil üçün Türkiyəyə gedib. 1975-ci ildə Ankara İqtisadi və Ticarət Elmlər Akademiyasını bitirib. Həmin Akademiyada statistika üzrə ixtisasa yiyələnib. 1985-ci ildə də Qazi Universitetində bazarlama (bazar iqtisadiyyatı) sahəsində doktorluq elmi dərəcəsi qazanıb.

1986–87-ci illərdə Amerikada İxtisasartırma kursunda olub. 1987–90-cı illər arasında Liviyadakı Ömər Muxtar Universitetində müəllimlik edib, hazırda Türkiyənin Qayseri şəhərindəki Erciyes Universitetində dərs deyir.

– Mahir bəy, indi sizin Respublikamıza elmi ezamiyyət vaxtınız qurtarır və inşallah, evinizə qayıdacaqsınız. Təəssüratınızı bilmək istərdik.

– Yenicə yola saldığımız il mənim üçün çox əlamətdar oldu. 12–26 mart, 1992-ci ildə Türk Dünyası Araşdırmaları Vəqfi Başkanı prof. doktor Turan Yazqanın təqdirəşayan qeyrətləriylə Bakıda qurulan Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun dəvətlisi olaraq Azərbaycana gəldim.

Hər şüurlu türk üçün 70 il əsarət zənciri ilə boğuşan və türklüyünü qorumaq üçün bütün hiss və düşüncə şirəsini milli sənətinə sərf edən Azərbaycanı görməyin doğurduğu dərin həyəcan təbiidir. Ancaq bir Kərkük türkü üçün Azərbaycanı gəzmək həyəcanlı olduğu qədər də önəmlidir. Çünki arada 100 ilə yaxın əlaqəsizlik, minlərcə kilometr məsafə və sərhədlər olmasına rəğmən eyni ləhcənin hər iki yerdə də qonuşulması gerçəkdən anlamlı və önəmlidir.

* Bax: «Ədəbiyyat qəzeti», 08.01.1993.

Günümüzə qədər Azərbaycanı ziyarət edən kərküklülərin sayı barmaqla sayılır. Məndən öncəkilər də hər halda şübhə yox ki, mənim qədər həyəcanlanmışdır. Küçədə oynayan azəri balalar hər hallarıyla Kərkük cocuqlarını xatırladır… Başı zərif örpəkli və saçı hörülü yaşlı nənələr bir çox həyat məşəqqəti çəkmiş kərküklü analardan fərqsizdir. Duyduğum fövqəladə həyəcanı günlərcə yönəmədim. Kommunist hərbçilərin tankları altında 1990-da parçalanan azəri şəhidlərinin məzarını ziyarət etdiyim zaman yenə kommunistlər tərəfindən 1959-da şəhid edilən kərküklü türklərin məzarlarını ziyarət edirdim sanki. Bu durumda göz yaşlarımı tutmaq mümkünmü?

Bakıda Kərkükü aşağı-yuxarı hər kəs tanıyır və onu bir azəri şəhəri olaraq görürlər.

Azərbaycan televiziyasında düzənlənən söhbətdə də söylədiyim kimi: «Allaha min şükürlər olsun ki, yetmişillik bir çətinlikdən sonra türk Azərbaycan bağımsızlığına qovuşdu və Türkiyədən sonra İraq türklərinə ikinci bir ana vətən oldu».

Kərkükdə doğulub və İraq torpaqlarında ölən uca Füzuli Azərbaycanda bütün əzəmətiylə yaşamaqdadır.

70 il ərzində Azərbaycan-türk ləhcəsinə girən rusca kəlmələri və Kərkük türk ləhcəsinə girən ərəbcə kəlmələri istisna edərsək, iki ləhcənin böyük bir nisbətdə eyni olduğunu görərik. Hər iki ləhcənin Anadolu və türk bölgələriylə olan bənzərliyi, şübhəsiz ki, çoxdur. Amma təsbit etdiyimiz bəzi kəlmələr bu iki türk ləhcəsində eyni şəkildə və eyni yerdə işlədilib, digər türk bölgələrinin bəzilərində mövcud deyildir və ya fərqli anlamlarda işlənməkdədir. Təsbit edə bildiyimiz bəzi kəlmələr bunlardır: «Asqırmaq (hapşırmaq), axtarmaq (aramaq), ala (al, tut), arxayın (emin), bala (yavru), cücə (civ-civ), çiyin (omuz), dava etmək (qovğa etmək), gileyli (şikayətçi), gorbagor (sevilməyən bir ölünün arxasınca söylə-

nilir), güzgü (ayna), güllə (qurşun), iti (sivri, kəskin), kimin (gibi), qurtum (udum), mərc etmək (iddiaya girmək), sən allah (birisini yəminə vermək, öyləmi və ya lütfən anlamında), sümük (kəmik), tapmaq (bulmaq), tay (tərəf, yaxa), udmaq (bir oyunu qazanmaq), uduzmaq (bir oyunu qeyb etmək), yığılmaq (toplanmaq), yığışdırmaq (toplamaq), yüngül (xəfif).

– *Sizin doğma yurdunuz Kərküklə bağlı Azərbaycanda aparılan tədqiqat işlərindən, bü mövzuda çap olunan əsərlərdən xəbər tuta bilirsinizmi?*

– Bəli, onu deyə bilərəm ki, İraq türkləri bu mövzunun ilk və ardıcıl yorulmaz tədqiqatçısı Qəzənfər Paşayevi 1960-cı illərdən bəri tanıyır. Onun ilk yazılarını Bağdadda yayınlanan «Qardaşlıq» dərgisində böyük bir zövq və milli həyəcanla oxumuşlardır. Q.Paşayev İraqda bulunduğu illərdə İraqın həmən-həmən hər yerini gəzmiş və bilxassə, türk bölgələrini addım-addım daramış, gördüyü hər şeyi qeyd etmişdir.

Mənim üçün çox xoşdur ki, Bakıda olduğum günlər Qəzənfər müəllim İraq türklərinin folkloru ilə əlaqədar başa çatdırdığı doktorluq dissertasiyasının avtoreferatını mənə verdi: oxuyub xeyli məmnun oldum və rəyimi də yazdım.

Q.Paşayevin Kərkük haqqındakı ilk kitabı «Kərkük bayatıları» (1968) olub, mərhum Rəsul Rza ilə birlikdə Bakıda yayınlanmışdır. Azərbaycan türk xalqı üçün cığır açan bu kitab sayəsində Kərkükdəki soydaşlarını və folklorunu tanıya bilmişdi. Bunu «Arzu-Qəmbər» dastanı (1971), «Kərkük mahnıları» (1973), «İraq – Kərkük atalar sözü» (1978), «Altı il Dəclə-Fərat sahillərində» (1985), «İraq-türkman folkloru» (1992) əsərləri təqib etmişdir Eyni qonuda Q.Paşayevin yayınladığı çeşidli məqalə və incələmələri də buraya əlavə etsək, qarşınızda uzun illər zəhmətinin layiqli bəhrəsini boyaboy görmüş olarıq.

Qəzənfər Paşayev Kərkükdə münəvvərlər tərəfindən tanındığı qədər Türkiyədə də tanınmaqdadır. Türk millətinin

keçirdiyi ən zor və çətin illərində belə Türkiyədə şüurlu bir kütlə Türkiyə dışındakı türklərin kültürü ilə yaxından əlaqədar olmuşdur. Necə ki, bəzi ədəbi dairələrdə bir azəri tədqiqatçısı olan Q.Paşayevin Kərkük folklorunu tükənməz bir şövqlə incələməsi türk dünyasının bütünlüyü və bərabərliyi qonusunda bir örnək təşkil etmişdir.

İsa Özqan Türk Kültürünü Araşdırma İnstitutu tərəfindən ardıcıl yayınlanan «Türk kültürü» adlı məşhur və mümtaz dərgisində Q.Paşayevin «Kərkük folkloru antologiyası əsərini belə tamamlamışdır: «Q.Paşayev Kərkük türklərinin folkloru, ədəbiyyatları, tarixi, qısaca onlar haqqında müxtəlif yerlərdə çıxmış kitab və məqalələri təqib edərək bu qiymətli əsəri ortaya qoymuşdur».

Şəxsən Qəzənfər müəllimlə keçən ilin mart tarixində Bakıya ziyarətim sırasında tanış oldum. Ankaraya dönər-dönməz İraq Türkləri Kültür və Yardımlaşma Dərnəyinin yayınladığı «Kərkük» dərgisinə verdiyim «Azərbaycandakı Kərkük» adlı məqaləmdə Q.Paşayevdən belə söz açdım: «Ziyarət etdiyim bir çox azərinin evində Paşayevin Kərkük folkloru ilə ilgili bir kitabına rastladım… Paşayev Kərkük türk xalq gələnəginin sadəcə özü deyil, ailəsi ilə də yaşamaqdadır. Yeddi yaşındakı sevimli oğlu Muradın Kərkük bulmacalarını (tapmacalarını) əzbər bildiyini görüncə sevincdən göz yaşlarımı tutamadım. Həsrətlə özümdən soruşdum: «Əcəba, bu gün Kərkükdə neçə cocuq bu bulmacaları Murad kimi bilməkdədir?»

İkinci ana vətənim olan Azərbaycana bu ziyarətimdə isə, qeyd etdiyim kimi, Q.Paşayevin doktorluq avtoreferatını gördüm və incələdim. Əsərin bu sahədə yayınlanan bəzi çalışmalardan dörd fərqli xüsusiyyəti vardır. Hər şeydən əvvəl, müəllifin bu günə qədər yazmış olduğu öncəki əsərlərinin nəticəsini burada görmək mümkündür. İkincisi, özündən əvvəl heç kimsə bu geniş mövzunu elmi bir şəkildə tək əsərdə

bir araya gətirməmiş və belə tutarlı bir biçimdə təsnif etməmişdir. Daha sonra, bu günə qədər İraq türklərinin folklor qaynaqlarını qələmə alanların çoxu həmin əsərləri toplamaq və qeydə almaqla kifayətlənmişlər. Halbuki, Q.Paşayev bu əsərində toplamaq, təsnif və qeydə almaqla yanaşı, daha iki önəmli əlavə etmişdir: folklor təcrübəsindən istifadə edərək təsbit etdiyi hər folklor vaqiəsini təhlil və özünəxas elmi-ədəbi bir üslubda təfsir vermişdir; Kərkük türk folkloru ilə müqayisə etmiş və bu müqayisədən çox önəmli və nəzərə çarpacaq nəticələr çıxarmışdır. Nəhayət, əsərinin qaynaqlar qismində yer alan qaynaqlara nəzər saldıqda mövzu ilə bağlı İraqda, Türkiyədə və Azərbaycanda yayınlanan bütün kitab və məqalələri görmək mümkündür. Yəni tədqiqat eyni zamanda bir qaynaqlar məcmusudur və artıq bu mövzuda araşdırma aparmaq istəyənlər bütün qaynaqları həmin əsərdə tapa biləcəklər.

– Mahir bəy, söhbət zamanı bir münasibətlə dediyiniz kimi, Azərbaycanda siz ikinci bir Kərkük – yəni doğma yurd görürsünüz. Beləcə də deyirsiniz: Azərbaycandakı Kərkük…

– Təbii ki, elədir. Artıq Azərbaycan hər bir kərküklü üçün gerçəkdən ikinci bir ana vətəndir. Allaha minlərlə şükürlər olsun ki, 70 illik əsarətdən sonra bağımsız Azərbaycan dövləti yaranmışdır. Onun iqtisadi, ədəbi-mədəni inkişafı üçün biz doğmaları da əlimizdən gəldiyi qədər çalışmağa hazırıq.

ÜRƏYİNİN QANI İLƏ…*

Ceyhun Musaoğlunun təqdimatında

Paşayev Qəzənfər Məhəmməd oğlu 27 avqust 1937-ci ildə Tovuz rayonunun Düzqıraqlı kəndində anadan olub. Azərbaycan ədəbiyyatşünası, folklorşünas, publisist, dilçi, yazıçı və tərcüməçidir. Professor tituluna qədər yüksələn Qəzənfər müəllim Pedaqoji Dillər İnstitutunun ingilis–Azərbaycan dilləri fakültəsini bitirib. İraqda tərcüməçi işləyib. Burada yaşayan və sayı təqribən 2,5 mln-a çatan azərbaycanlıların (İraq türkmanları) dialekt və folklorunun toplanması və araşdırılması ilə məşğul olub. «Azərbaycan dilinin Kərkük dialekti» mövzusunda namizədlik, «İraq-türkman folkloru» mövzusunnda doktorluq dissertasiyaları müdafiə edib. 1964–1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda fəaliyyət göstərib, institutun ingilis dili fakültəsində dosent, dekan müavini işləyib. M.F.Axundov adına APİ-də xarici dillər kafedrasının müdiri olub (1972–1989). ABŞ-da və İngiltərədə ixtisasartırma kurslarını bitirib. 1989–1999-cu illərdə BDU-nun Qərbi Avropa dilləri kafedrasında çalışıb.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində şöbə müdiri, eyni zamanda 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçidir.

Bu təqdimatla Qəzənfər Paşayev şəxsiyyəti barəsində çox məhdud şəkildə bilgi verdik. Müsahibədən də Qəzənfər müəllimin necə insan olduğunu görəcəksiz. Amma yenə də azdı. Qəzənfər Paşayev oxunmamış sirli kitabdı.

– Bu günə qədər 40-a yaxın kitabın müəllifi olmusuz. Əsərləriniz maraqla qarşılanıb. Amma «Borcumuzdur bu ehtiram» kitabının deyəsən təqdimat mərasimini də keçirmədiz. Hansısa xüsusi səbəb var?

* Bax: «Ədalət» qəzeti, 12 iyun 2010-cu il.

– Kitabda barəsində yazdığım insanların əksəriyyəti ilə yaxın münasibətdə olmuşam. Çoxu haqqımda yazıb, çoxu haqqında vaxtilə yazmışam. Minnətdaram, ki, siz də «Borcumuzdur bu ehtiram» kitabını orijinal üslubla dəyərləndirmisiniz.

– *Bizim də ehtiram etmək borcumuzdur.*

– Bəli, hər kəs belə bir borcu olduğunu dərk etsə, dünyada pisliklərin sayı azalar. Cəmi 300 nüsxə ilə nəşr olunan kitabı yazmaqda ali məqsədim ehtiram borcunu qaytarmağın nə qədər vacib olmasına diqqət çəkməkdir. Kitabın hamısını dosta-tanışa bağışladım. Ona görə növbəti dəfə təkmilləşdirilmiş formada çap etməli olduq. Bu dəfə Səməd Vurğun, Rəsul Rza və İhsan Doğramacı barəsində yazdıqlarımı da əlavə etdim.

– *Kitab ümummilli lider Heydər Əliyev barəsindəki yazı ilə açılır. Maraqlıdır, ədəbiyyat adamlarına həsr olunan kitabda, siyasətçiyə yer ayırmağınız hansı anlama gəlir?*

– Ədəbiyyatımızı sevən, təbliğ edən adamları çox tanıyıram. Amma ədəbiyyatımızı Heydər Əliyev qədər sevən və təbliğ edən ikinci şair, yazıçı, oxucu tanımıram. Ədəbiyyatın hansı sahəsi olur-olsun Heydər Əliyevin verdiyi qiymətdən daha dəqiqini tapmaq mümkün deyil.

Heydər Əliyev dünyasını dəyişəndə «Xilaskar» adlı məqalə yazdım. Bir ildən sonra film çəkildi adı «Xilaskar» idi. Həqiqətən də, Heydər Əliyev Azərbaycanı xilas etdi. 20-ci əsrin əvvəlində Türkiyəni Atatürk, 20-ci əsrin sonunda Azərbaycanı Heydər Əliyev xilas etdi. Mən Qafqaz Müsəlmanları İdarəsində Elmi-Dini Şuranın üzvüyəm. Ömrümün altı ilini müqəddəs yerlərdə keçirmişəm. Demək istəyirəm məndə inam var. Bu inama əsasən deyə bilərəm ki, bir xalqa faciə üz verəndə böyük Yaradan onun xilaskarını göndərir. Allah Türkiyəyə Atatürkü, Azərbaycana Heydər Əliyevi göndərdi. Hər iki şəxsiyyət arasında oxşarlıq var. Onların

üzündə, gözündə, gördükləri işlərin miqyasında bənzərliyi gördüm. Heydər Əliyevi dərk etmək adi adamların işi deyil. Mənim «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı» kitabıma görə Dövlət Mükafatına layiq görülənlər var. O kitab barəsində «Ədəbiyyatşünaslıq elmimizin təntənəsi» adlı məqalə yazmışam. Məqalədə göstərmişəm ki, böyük adamlar haqqında, onun varlığına nüfuz edən adamlar yazanda daha möhtəşəm olur. Ədəbiyyatımız, dilimiz barəsində Heydər Əliyevin dəyərli fikirləri var. Deyir: «Yazıçılar, şairlər dilin qanunvericiləridir». Heydər Əliyev ədəbiyyat adamlarının yubileylərinin tez-tez keçirilməsinin tərəfdarı idi. Ona görə ki, həm həmin adamları tanıyaq, sevək, həm də ədəbiyyatımızın zənginliyini başqa xalqlar görsün. Belə düşünmək yalnız dahilərə məxsusdur. Səməd Vurğundan başqa müasir ədəbiyyat adamlarımızın heykəlləri, ev muzeyləri Heydər Əliyevin vaxtında yaradılıb. Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və saymaqla bitməyən yaradıcı adamlarımızın xatirəsini əbədiləşdirən həmin dahi insan olub. Həmin dövrdə Şuşada Vaqifin, Naxçıvanda Cavidin məqbərələri tikildi. Gəncədə Nizaminin məqbərəsi yenidən bərpa edildi. Heydər Əliyev Azərbaycan tarixi səlnaməsinə qızıl hərflərlə yazılan şəxsiyyət idi. Heydər Əliyev deyirdi: «Bəzən anlamadan başqalarının dəyirmanına su tökənlər sovet dövründə yazıb-yaratmış görkəmli insanları – Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rzanın yaradıcılığında müəyyən uyğun olmayan nüansları tapıb iradlar səsləndirirlər. Bu, nəinki məsuliyyətsizlikdi, bu, mənəviyyatsızlıqdır. Belə düşünən şəxsiyyət hakimiyyətdə olduğu illərdə saysız-hesabsız yazıçılara, şairlərə adlar verdi. Məqsəd xalqı ucaltmaq idi. Azərbaycançılıq məfkurəsini ortaya qoyan Heydər Əliyev oldu. Bu dahi şəxsiyyət 1981-ci il, Azərbaycan yazıçılarının 6-cı qurultayında ilk dəfə olaraq Güney Azərbaycanda gedən ədəbi proses barədə məruzə saldırdı. O, icazə verməsəydi,

kim bu addımı ata bilərdi. Bundan sonra Yazıçılar Birliyində Güney Azərbaycanla bağlı Balaş Azəroğlunun rəhbərliyi altında katiblik yaradıldı. Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan, Nizami şöbələri yaradıldı. Birinciyə Mirzə İbrahimov, ikinciyə böyük şərqşünasımız Rüstəm Əliyev rəhbərlik edirdi. Sovetin qılıncının dalı-qabağı kəsdiyi bir dövrdə bu işləri görmək qəhrəmanlıqdı.

– «Borcumuzdur bu ehtiram» kitabında fəxrlərimiz barəsində yazmısız. Amma kitaba düşməyən fəxrlərimizin də sayı çoxdur. Belə getsə «Borcumuzdur bu ehtiram»ı üçüncü dəfə nəşr etdirməli olacaqsız…

– Adam kitabı yazanda bilmir onun taleyi necə olacaq. Mən «Altı il Dəclə-Fərat sahillərində» kitabını yazanda hardan bilərdim ki, «Yazıçı» nəşriyyatının direktoru Əjdər Xanbabayev onu ikinci dəfə 120 min tirajla nəşr edəcək. «Borcumuzdur bu ehtiram» kitabını ürəyimin qanı ilə yazmışam. Xatirəyə bax: Təşkilatçılığımla Əzizə xanım Cəfərzadənin ədəbiyyat muzeyində 80 illik yubileyini keçirdik. Orda çəkdirdiyi şəklə baxıb dedi ki, ömründə belə gözəl şəkli çıxmayıb. Daha bir də şəkil çəkdirməyəcəyəm. Çəkdirmədi də. Əzizə Cəfərzadə az müddət sonra dünyasını dəyişdi. «Son şəkil» adlı məqaləmlə «Ədəbiyyat qəzeti»ndə vida sözünü mən yazdım.

Əlfi Qasımov barəsindəki yazımın adı «Son görüş»dü. Niyə son görüş? Əlfi Qasımov xəstələnmişdi. 5 saylı xəstəxanada yatırdı. Hidayət Orucov, «Kitablar aləmində» jurnalının redaktoru Sabir Tanrıverdiyev və mən getdik Əlfi müəllimin yanına. Həkimlərdən məzəli tərzdə gileyləndi ki, bəs onu içməyə, çox danışmağa qoymurlar. Dedi ki, bunlara dözmək olar, gülməyə və sevinməyə qoyulan qadağanı isə qəbul edə bilmərəm. Bax elə belə də dedi: «Dostlarım gəlib necə sevinməyim, necə fərəhlənməyim?». Sonra xəstəxanadan çıxacağını söylədi və bizi qonaq çağırdı. Onda Əlfi

Qasımovun «Toy gecəsi» romanı yenicə çapdan çıxmışdı. Səhərisi gün xəbər yayıldı ki, Əlfi Qasımov keçinib.

– Dahi şəxsiyyətləri unutmaq, gələcəyə gedən yolu itirməkdir.

– Yaxşı fikirdi. Dahi şəxsiyyətin fikirləri bütün zamanlarda aktualdır. Dahilər qabağı fəhmlərinin gücü ilə görürlər. İllərlə dostluq etdiyim adamlar olub. Onların yoxluğuna necə sakit yanaşa bilərəm.

– Belə düşünürəm ki, yaşamaq asandır. Hər kəs azadlığın formulasını həyatına tətbiq etsə, həyatdan zövq almaqdan yorulmaz. Siz necə düşünürsünüz, yaşamaq asandı, çətin?

– Yaşamağın düsturu yoxdu. Mənsə düşünürəm ki, həyat çox mürəkkəbdir. Dünyanı Allah belə yaradıb ki, insanlar baş açmasınlar, yoxsa hər yeri alt-üst edərlər.

– Məgər alt-üst etmədikləri yer qalıb ki?..

– Dağıdıcılıq insanın xislətində var. Mən adamlar tanıyıram, pislik eləməsə yaşaya, sevinə bilmir. Əqrəb zəhərini tökməyə yumşaq nəsə tapmayanda balasını sancır. Əqrəb insanlar var. Onlar bədbəxtdilər, daim sıxıntı içərisində olurlar. Kiminsə haqqında xoş söz deyə bilmirlər. Bir də xeyirxah insanlar var. «Ədəbiyyat» qəzetində «Xeyir və Şər haqqında düşüncələr» adlı yazım çıxmışdı. Orda hər şeyə toxunmuşdum. Bir hadisə danışım: Yaşar Qarayev xəstə idi. Onu öz xərcimlə aparıb Bilgədə (ürək xəstəlikləri) sanatoriyasına qoymuşdum. Qardaşım Ələsgər müəllimlə getdik onun yanına. «Xeyir və Şər haqqında düşüncələr» adlı hələ çap olunmamış məqaləni də aparmışam ki, oxuyum, fikrini desin. Yoldaşı, Cahangir Gözəlovun qızı Esmira xanım narahat oldu ki, yazı Yaşara pis təsir edər. Yaşar Qarayevsə məqaləni oxumağımı istədi. Mən oxudum, dəhşətə gəldik, sanki Yaşar Qarayev tamam sağaldı. Simasına nur çiləndi, ruha gəldi, elə bil heç vaxt xəstə olmayıb. Qəlbi xeyirxahlıqla dolu olan Yaşar müəllim yazımdakı Xeyirxah obrazında özünü görmüşdü.

– Və özündən razı qalmışdı ki, nə yaxşı belə yaşamışam.

– Bəli, düz tutmusuz. Mən həmin yazını onun yanına elə-belə aparmamışdım ki. İstəyirdim bilsin ki, yaxşı adamdı, təvazökardı, ədəbiyyat elmimizin iftixarıdı. Elə məqaləmin adı da belədir. Cabir Novruzun şeirindəndir: «Sağlığında qiymət verin insanlara». Mən dünyasını dəyişənlərə yazı həsr etməklə onlara sağlığında da qiymət verdiyimə diqqət çəkmək istəyirəm. Bir kitaba sığmayan yazılarım yenə var. Qasım Qasımzadə haqqında yazım var. Soruşa bilərsiz: «Niyə yazmısız?» Qasım Qasımzadə xəstə idi. Yevlaxın kəndində anasıgildə idi. Nə görmüşəm, onu yazmışam. Hazırda ailəsi ilə dostluğumuz davam edir. İnsanların görünməyən tərəfləri var. Həmişə istəmişəm o tərəfləri başqalarına da göstərim ki, gümanlarında yanılmasınlar.

– Hər kəs «mənim də həqiqətim var» arqumentinə söykənib. Bülbül səsindən həzz alanlarla yanaşı, bayquş səsinə feyzyab olanlar da var. Ortaq həqiqət axtarmamaq nə qədər düzgün yanaşmadır?

– Mənim sürücüm tərbiyəli oğlandır. Onun benzin iyisindən xoşu gəlir, mənimsə o qoxu burnuma dəyəndə başım ağrıyır. Bəxtiyar Vahabzadə şeiri ilə bu suala cavab verib.

Bir qəlbi öpsəydi bütün ürəklər,
Dünyaya bir ürək bəs olmazdımı?
Bir rəngə çalsaydı bütün çiçəklər
Dünyaya bir çiçək bəs olmazdımı?

Rəngarənglik Yaradanın seçimidir. Belədə insanlar yaxşını pisdən seçə bilir. Biz yazı yazanda elə cümlələr olur ki, onları qırmızı, eləsi olur yaşılla yazırıq, yaxud altından xətt çəkirik. Belədə cümlələr bir-birindən asanlıqla fərqlənir. İnsanlar da müxtəlif düşüncəli olmalıdır ki, onları ayırmaq olsun. Ortaq həqiqət məsələsinə gəldikdə isə belə yaxınlaşma

ümummilli məsələlərdə vacibdir. Fərdlər arasında müxtəlif düşüncəlilərin olmasında pis heç nə görmürəm.

– *Amma dünyada pisin sayı çoxdu axı…*

– Pislik axırda həmişə faciə, yaxşılıq sevinc gətirir. Eşitməmisizmi deyirlər, filankəs gora sağ baş aparmayacaq?! Onun hərəkətlərində anormallıq olduğundan artıq yəqinləşdiriblər ki, son yaxşı olmayacaq. Nostradamus həmişə saraydan uzaq olduğunu və buna görə də öz əcəli ilə öləcəyini yazırdı. Bədxahlar yaradıcı adamlara həmişə mane olmaq istəyir. Ağıllı o adamdır ki, öz yolu ilə gedərək mənzil başına çatır. 4-cü sinifdə oxuyanda başıma qəribə hadisə gəldi, o həyatımı, demək olar, tamamilə dəyişdi. O vaxtdan qarışqaya da toxunmamışam. Ancaq milçək öldürə bilirəm. Uşaq idim. Evimizin eyvanında sığırçın yuva qurmuşdu. O yuvada beş bala bəsləyirdi. Çox nadinc idim. Quşatanla ana sığırçını vurdum, düşdü yerə. Ardınca bütün balaları düşüb çapalaya-çapalaya öldü. Bu hadisədən sonra elə xəstələndim ki, rayonda həkimlər məni güclə həyata qaytarıblar. Bir neçə gündən sonra yuxu gördüm. Gördüm ki, ağsaqqallı, nurani bir nəfər başımın üstünü kəsib ki, səni öldürməyə gəlmişəm. Bugünkü kimi yadımdadır. Sevinirdim ki, məni öldürəcəklər. Birdən sinif müəllimim Əsgər müəllim otağa girdi. Ona dedi ki, bəs Qəzənfər yaxşı oğlandır, yaxşı oxuyur. O vaxt bir inşa yazmışdım, Bakıya qədər gedib çıxmışdı. Qoca dedi ki, öldürmürəm onu və əlindəki qılıncı duzla dolu çuvala sancıb çıxdı. Çuvaldan hər yana nur səpələndi. Səhər məəttəl qalmışdılar, tamam sağalmışdım. Həmin vaxtdan ruzum sanki tavandan tökülür. İnstitutu qurtaran kimi xaricə getdim, ev, maşın aldım, müdafiə etdim. Professor idim, sovet dağıldı. Azərbaycanda keçid dövrü başlanmışdı. Keçid dövründə mənəviyyat yoxa çıxır, bazarda yağla, şorun qiyməti eyni olur. Elə bu vaxt İraqdan dostumun oğlu gəldi, kömək etdim iş quruldu, yüksək maaş aldım. Tamam fərqli yüksəliş oldu. Həmin vaxtdan bir canlını da incitməmişəm.

Qardaşlarım da mənim kimi oldu. Və mən dərk etdim ki, uşaqlıqda nadinc olanlar, böyüyəndə daha həlim olurlar. Uşaqlıqda həlim olanlar isə əksinə.

– Aqil Abbasın «Dolu» romanında bir yer var. Yazır ki, uşaqlıqda böyüklərin mədəniyyətsiz, küçə uşaqları adlandırdığı oğlanlar Qarabağda qəhrəmancasına vuruşub, şəhid oldular, qayıdanları isə cəmiyyətin seçilmişlərinə çevrildilər. Bu onu göstərir ki, böyüklər enerji dolu uşaqları düzgün istiqamətləndirmədikləri üçün həmin enerji mənfi fəsadlar yaradır.

– Sizinlə razıyam. O vaxt kəndlərdə enerjini xərcləmək üçün heç nə yox idi. İndi texnologiya əsridir. Uşaqlar enerjilərini kompyuterə sərf edirlər. Top yox idi futbol oynamağa. Enerjinin paylanma qanunu təbii qanundur. Dünya müəmmalarla doludur. Hansını dərk etmiriksə, inkarçı mövqe tuturuq. Bu düz deyil. Zaman çatanda hər şey dərk olunacaq.

– Dərk etmədiklərimizin zamanısa keçib artıq.

– Dünya bir pəncərədir, hər gələn baxıb gedər. Pəncərədən baxanda yalnız görə bildiyin qədər görürsən. Arxa pəncərədən isə başqa mənzərə canlanır.

Ailə tərbiyəsi də önəmlidir. Həyatı dərk edən valideynlərin övladları pis ola bilməz. Varsa da onların sayı çox azdır.

– Dünyagörmüş adamsız, bilməmiş olmassız. Həyatı necə dərk edək?

Bütün zamanlarda insanın içində həyatla mübarizə olub. İndikilər deyir ki, keçmişdə yaxşı idi, indi pisdi. Padşahların dövrünə nəzər salanda görürsən elə deyil. Bütün zamanlarda haqsızlıqlar olub və olacaq. Problem ondadı ki, bəzi insanlar bilə-bilə ağa qara deyir. Bələləri yerini tapa bilməyənlər, özünü təsdiq etməyi bacarmayanlardı. Adamlardan soruşurlar ki, hansı qatıq yaxşıdı? Biri deyir, inək, biri deyir, qoyun, bir şəkili də qayıdır deyir ki, keçi. Üstünə düşürlər ki, keçi qatığının nəyi yaxşıdı? O da cavab verir ki, mən də nəsə deməliydim də.

Bəziləri öndə olan yazıçıları pisləyir. Amma özlərinin ortada bir əsərləri yoxdu. Səməd Vurğun şeir deyib, Mikayıl Rəfili onu tənqid edib. Mikayıl Rəfili yaxşı ədəbiyyatşünas, tənqidçi idi. Arada şeir də yazırdı. Vurğunun şeirinin ardından səhnəyə çıxıb, onu tənqid edir və öz şeirini oxuyur. Hamı gülür. Səməd Vurğun deyir ki, Allah atana rəhmət eləsin, yaxşı bu şeiri oxudun. Yoxsa fikirlərinlə, məntiqinlə məni məhv etmişdin. Bəxtiyar Vahabzadə doktorluq müdafiə edəndə, şeirlərində fasilə yaranmışdı. Qəzetlərdə yazmışdılar ki, qatlayıb dizinin altına qoyar, alim Bəxtiyar şair Bəxtiyarı.

– *Məntiq şairliyi sındırır. İti məntiqi olan şəxs yaxşı şair ola bilməz.*

– Əlbəttə, şairlik ilahi vergidir. Səməd Vurğunun «Partiyamızdır» şeiri belə möhtəşəm səslənir.

– *Azərbaycanda kimi bütün zamanların şairi hesab etmək olar?*

– Bütün zamanların ən böyük şairinin kim olduğunu soruşmaq yanlışdır. Sən jurnalistsən belə suallarla məni konfliktə çəkmək istəyirsən. Mənsə belə cavab verirəm: Bütün şairlərin öz yeri var. Bütün şairlər zamanında cəmiyyətin mənəviyyatına töhfələr veriblər. Səməd Vurğun «Azərbaycan» şeirini ağır zamanlarda yazdı. Nə yaxşı ona bir şey etmədilər, ardınca «Vaqif»i yazdı, çox böyük işlər gördü. Abbas Səhhətin «Vətənimdir», Səməd Vurğunun «Azərbaycan» şeiri, Şəhriyarın «Heydər babaya salam» poeması azərbaycanşünaslığın təməl daşıdır. Hər ikisi ayrı-ayrı dövrlərdə yazıblar. Əbədiyaşar şairlərin şeirləri bütün zamanlar üçündü. Vaqif Azərbaycan dilini cilaladı. Füzulidə ərəb-fars tərkibləri çoxdur. Nəsiminin Füzulidən qabaq yaşamasına baxmayaraq, dili onun dilindən asandır. Xalq qarşısında xidməti olan şairlərə qiyməti zaman verir. Rəsul Rza 1981-ci ildə dünyasını dəyişib. 1980-ci ildə «Yaralı Kərkükün xoyrat və mahnıları» adlı silsilə bayatılar yazıb. O bayatılardan ikisini deyim, sanki 3 gün öncə yazılıb. İndi İraqda qan su yerinə axır.

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana, yanında
Tökür qan-yaş balası.

Bağdaddan karvan gəlir,
Qəmli, pərişan gəlir.
Kimlər qurban kəsilib,
Sularım al-qan gəlib.

Onda Bağdadda qan tökülmürdü. Amma yaxınlaşırdı faciəli illər. Rəsul Rza şair fəhmi ilə duydu və yazdı. Şairlərin xidməti böyükdür. Xalq şeir oxuyaraq dilini saflaşdırır, xalq ruhuna yaxın şeirlər daha çox yadda qalır. Osman Sarıvəlli, Hüseyn Arif, Zəlimxan Yaqub və onlarla belələrinin adını çəkə bilərəm. Şairə mühitin də təsiri var. Tofiq Bayram Bakılıdı. Amma uşaqlığı Qazaxda keçib. Ona görə də Tofiq Bayramın bir qəzəli yoxdu. Bakılı olasan, qəzəl yazmayasan. İnsan mühitin balasıdı. Tofiq Bayramın «Dağlar» adlı qoşması var, heç bir şair dağlara belə möhtəşəm şeir həsr etməyib.

– *Gənc yazarlardan oxuduğunuz var?*

– «Ədəbiyyat» qəzeti və «Azərbaycan» jurnalının daimi abunəçisiyəm. Ədəbi prosesi izləmək üçün bu nəşrləri həmişə oxuyuram.

– *Ədəbi proses təkcə adını çəkdiyiniz orqanlarda cərəyan eləmir…*

– Nəzərə alıram ki, hər iki nəşr dövlətin mətbu orqanlarıdır və burda səviyyəli yazılar getməlidir, gedir də. Təbiət etibarı ilə konservator adamam. Bunun bir səbəbi də ordan gəlir ki, mən ingiliscə təhsil almışam. İngilislər mühafizəkardı. O mühitdə böyümüşəm ki, orda Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim,

Bəxtiyar Vahabzadə, Hüseyn Arif olub. Gənclərin bir çoxunun yaradıcılığı mənə xoş gəlmir. Onların şeirlərini əllamə-çilik hesab edirəm. Təbii qəbul edirəm, onlar yol axtarırlar. Sadəcə unudurlar ki, hər yol adamı böyük yola aparıb çıxarmır. Yolda azanlar, cəngəlliklərdə ilişənlər də olur. İnamım var ki, gənclərin içərisindən sabahın işıqlı adamları çıxacaq.

– İndi niyə 60–70-ci illərin dahiləri yetişmir?

– Onların yetişdiyini görə bilməzsən. Bu zamanla bağlı-dır. Qasım Qasımzadənin nəvəsi, Nəriman Qasımoğlunun övladı Türkər bəstəkardır. Xəyyam Mirzəzadənin tələbəsi olub. İki ildir Amerikadadı. O, böyük bəstəkar olacaq. İnanıram ki, əsərlərində Şərqlə Qərbi birləşdirəcək.

– Əvvəlki nəslin dahiləri Azərbaycandan çıxmadan istedadları ilə şöhrət qazanırdılar. İndi isə təhsilə xaricdə yiyələnmək lazımdır ki, bəlkə, nəsə edəsən. Niyə?

– Elə demək olmaz. Üzeyir Hacıbəyov Sankt-Peterburqda təhsil alıb. Qara Qarayev Moskvada oxudu.

– Yaradıcılığa isə Vətəndən başladılar.

– Məsələləri qarışdırmayaq. Sovet dövründə böyük Vətən vardı. Oxumağa gedəndə düşünmürdük ki, xaricə gedirik. Harda təhsil almalarına baxmayaraq, istedadlı insanlar Azərbaycan təfəkkürü ilə yazıb yaratdılar. Qara Qarayevin əsərləri barəsində birmənalı fikir yoxdu. Amma onun 3-cü sinfoniyasının ikinci hissəsi bütövlükdə təcnis üstədi. Üzeyir Hacıbəyovun «Koroğlu»su aşıq yaradıcılığına söykənir. Ona görə dahi bəstəkar deyirdi, aşıq sənəti elə bir aləmdir ki, burda bəstəkarın, şairin, xanəndənin, hətta rəqqasın da istənilən qədər payı var.

– Sizdə keçmişə meyil güclüdü. Sovetin olmadığına heyifsilənirsizmi?

– Sualınıza məişət səviyyəsindən boylanaraq cavab vermək olmaz. Elm, təhsil sahələrində sovet sisteminin yaxşı

mənada analoqu yox idi. İki ay Amerika, bir ay İngiltərə universitetlərində işləyən adam kimi məsuliyyətlə sovet təhsil sisteminin yaxşı olduğunu deyə bilərəm. Lenin deyirdi ki, dağıtdığınız binanın sağlam kərpiclərini saxlayın. Yaxşısını götürək, pisi ataq.

– *Ölkəmizdə nədən razı, nədən narazısız?*

– Rayonlarda tikinti-abadlıq işləri gedir. Bu, çox yaxşıdı. Gənclərin bədən tərbiyyəsinə cəlb edilməsinə böyük qayğı göstərilir. Sağlam bədəndə sağlam ruh olar.

Razı olmadığım məqamlar televiziyalarla bağlıdır. AzTV və İTV ürəyimizdən xəbər verən işlər görür. Digər kanallar isə bəzən xalqı mənəviyyatsızlığa sürükləyir. İnanıram ki, düzələcək. Hər şey Azərbaycanımızın, xalqımızın xeyrinə nəticələnəcək.

AZADLIĞIMIZIN TƏMƏLİ QOYULAN GÜN

Görkəmli folklorçu alim, pedaqoq, tərcüməçi, publisist, professor Qəzənfər Paşayevlə Azərbaycan dövlət müsəqilliyinin bərpasının 10-cu ildönümü ərəfəsində görüşüb onun tariximizin bu dövrü ilə bağlı mülahizələrini dinlədik. Qəzənfər müəllim qeyd etdi ki, ömrümüzün arxada qalan, salnaməyə çevrilən ötən on ili milli dövlətçiliyimizdə taleyüklü bir məsələdir. Bu qısa zaman kəsiyində, həqiqətən, çox böyük, mürəkkəb, eyni zamanda şərəfli, fərəhli bir yol keçmişik. On illik bir dövrü əhatə edən bu yolda sınaqlarla üzləşmişik, dövlətçiliyimiz üçün son dərəcə təhlükəli hadisələrlə qarşılaşmışıq. Eyni zamanda uğurlarımız da az olmayıb. Dövlətimizi sarsıtmağa cəhd göstərən daxili və xarici qüvvələr dəf edilib, müstəqilliyimiz möhkəmləndirilib.*

– *Müstəqilliyimizin 10 ili ərzində nələr qazanmışıq?*

– Bu suala belə cavab verərdim: Azərbaycan ötən 10 ildə siyasi cəhətdən müstəqilləşib, elmi baxımdan, mədəniyyət baxımından müstəqilləşib, dünyagörüşü sarıdan müstəqilləşib. Azərbaycanın mentaliteti m7üstəqilləşib. Burada mənə irad tutub deyə bilərlər ki, məgər bizim adət-ənənələrimiz, mentalitetimiz olmayıb? Olub, amma ona müəyyən vaxtlarda yad, yabançı meyillər də mənfi təsir göstərib. Ancaq müstəqilliyimizin qazanılması ilə adət-ənənələrimizin, mentalitetimizin qorunması vəziyyəti də yaxşılaşıb, qaydaya düşüb.

Müstəqilliyimiz necə deyərlər, elə-belə qazanılmayıb. Bu mübarizə yolunda qan töküldü, şəhidlər verildi, analar gözü yaşlı, körpələr yetim qaldı. Bir sözlə, itkilərimiz çox oldu. Ancaq bir millət kimi dirçəldik, dünyada səsimiz eşidildi.

Mən tez-tez keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində səfərlərdə oluram. İnanın, səmimiyyətlə deyirəm, Azərbaycanda

* Bax: «Xalq» qəzeti, 14.10.2001, s.5.

bu 10 ildə gedən quruculuq-abadlıq işləri miqyas etibarı ilə heç harda aparılmayıb. Hətta elə respublikalar var ki, onlarda bir kərpic belə kərpic üstə qoyulmayıb. Sizə misal deyim. Mənim bir qohumum Rusiyanın kurort şəhərlərinin birindən yenicə müalicədən qayıdıb. Danışır ki, orada olduğum müddətdə vaxt tapıb şəhəri də gəzdim. SSRİ vaxtında necə vardısa, eləcə də qalıb. Heç bir tikinti-abadlaşdırma işi aparılmayıb. Bakıda isə nəinki aydan-aya, hətta gündən-günə inkişafın, tərəqqinin şahidi olmaq mümkündür. Mən sizə bir həqiqəti də demək istəyirəm. Dünyanı az-çox gəzmişəm. Bir çox ölkələrdə olmuşam. Mübaliğəsiz bildirirəm, Azərbaycanın xarici siyasətdə son on ildə qazandığını heç bir dövlət əldə edə bilməyib. Azərbaycan çox kiçik bir dövlətdir. Dünyada elə şəhərlər var ki, əhalisi bizim ölkənin əhalisinin yarısına bərabərdir. Buna baxmayaraq – əhalisinin az, ərazisinin kiçik olmasını nəzərə almayaraq deyə bilərəm ki, Azərbaycan dünyada böyük nüfuza malik bir dövlətə çevrilib. Bu, möhtərəm Prezident Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasətinin, gecəli-gündüzlü yorulmaz fəaliyyətinin, gərgin işinin bəhrəsidir.

Mən sizə bir məlum həqiqəti deməyi vacib sayıram. Dövlətin inkişafı, tərəqqisi, nüfuz qazanması əsasən onun başçısından asılıdır. Şükürlər olun ki, xalqımızın çətin, ağır sınaqlar qarşısında qaldığı bir vaxtda, ölkəmizin quberniyalara parçalanması təhlükəsi ilə üzləşdiyi bir zamanda dahi şəxsiyyət Heydər Əliyev hakimiyyət başına gəldi. Bəli, bax bugünkü sürətli sosial-iqtisadi, mədəni tərəqqi yoluna qədəm qoyulması, möhtərəm Heydər Əliyevin adı, şəxsiyyəti ilə sıx bağlıdır. Milli dirçəlişimizin möhkəm təməli məhz hörmətli Prezidentimizin hakimiyyətə gəldiyi günlərdə qoyulub.

…Ölkəmizin 1988–1993-cü illərinin o ağır, çətin günlərində də gələcəyə ümidlə baxmışam. Sövq-təbii inanmışam ki, gələcəyimiz işıqlı, nurlu olacaq. Xalqımızı düşdüyü bəlalardan,

üzüntülərdən, ağrı-acılardan möhtərəm Heydər Əliyev xilas edəcək… Bu o vaxt idi ki, mən Bakı Dövlət Universitetinin tarix fakültəsində müəllim işləyirdim. Bir gün dərs zamanı tələbələrdən biri belə sual verdi ki, Qəzənfər müəllim, bu hadisələrin sonu necə qurtaracaq, bizi nə gözləyir?

Cavabımda bildirdim ki, darıxmayın, Heydər Əliyev yenidən siyasət aləminə qayıdacaq, hakimiyyətə gələcək. Özü də o, xalqımızın tələbi, təkidi ilə dövlətimizin başçısı olacaq. Bu sözləri o vaxt deyirdim ki, cənab Heydər Əliyev Moskvada izolə edilmiş şəraitdə, daim təhlükə altında yaşayırdı. Rusiya və Azərbaycan mətbuatı bu dahi şəxsiyyət barədə iftira, yalan dolu materiallar verirdi. Tələbələrdən mənimlə razılaşmayanlar, narazı qalanlar da oldu. Amma zaman dediklərimin həqiqət olduğunu sübut etdi.

Bəli, möhtərəm Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən dövlətçilik təcrübəsindən məharətlə, müdrikliklə istifadə edərək respublikamızı xanlıqlara parçalanmaqdan, vətəndaş müharibəsi təhlükəsindən qorudu, iqtisadiyyatımızın, mədəniyyətimizin inkişaf yollarını çox dəqiqliklə müəyyənləşdirdi…

… Bu gün torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyondan çox qaçqınımız var. Bu dəhşətli faktın meydana çıxma səbəblərini, ilk növbədə 1988–1993-cü illərdə axtarmaq lazımdır. O dövrdə Azərbaycanda hakimiyyətsizlik, vəzifə kürsüsü uğrunda mübarizələr, idarəetmənin iflic vəziyyətə düşməsi, ölkəmizin daxilində vətəndaş müharibəsi təhlükəsi yaranması erməni işğalçılarının torpaqlarımızı zəbt etməsi ilə nəticələndi. Əgər hadisələrin başlanğıcında möhtərəm Heydər Əliyev respublikaya qayıtsaydı, dövlətə rəhbərlik etsəydi, nə torpaqlarımız düşmən tapdağı altında qalardı, nə də bu qədər şəhidlərimiz, dağıntılarımız olardı…

Yeri gəlmişkən, bir məqama da toxunmaq istəyirəm. Ölkənin yaşaması, tərəqqisi, inkişafı əsasən dövlət başçısından

asılıdır. Əgər dövlət başçısı daxildə, sözün əsl mənasında, vətəndaşların qarantı olursa, ictimai-siyasi sabitliyi qoruyursa, iqtisadi-sosial inkişafa zəmin yaradırsa, demokratik prinsipləri tənzimləyirsə, düzgün, uzaqgörən xarici siyasət yeridirsə, onda o ölkənin gələcəyi barədə nikbinliklə danışmağa dəyər. Bəli, bu gün Azərbaycanda Prezident Heydər Əliyev məhz belə bir dəst-xətt əsasında fəaliyyət göstərir. Təəssüf ki, 1988–1993-cü illərdə hakimiyyətdə olan şəxslərdə idarəetmə təcrübəsi, düzgün daxili və xarici siyasət kursu yox idi… Meydanlardan, mitinqlərdən çıxıb birbaşa mühüm vəzifə kürsüsündə əyləşən təsadüfi adamların ölkəni idarəetməyinin son nəticəsi torpaqlarımızın işğalına, qaçqınlar ordusunun yaranmasına gətirib çıxardı… Bəli, bu, həqiqətdir və xalqımız bunu heç vaxt unutmayacaqdır.

Respublikamızda mədəniyyətin, ədəbiyyatın inkişafından söz açan professor Qəzənfər Paşayev qeyd etdi ki, Prezident Heydər Əliyevin diqqət və qayğısının sayəsində müstəqillik illərində dünya ölkələri ilə mədəni əlaqələrimiz möhkəmlənib. Türk xalqlarının birliyi yolunda misilsiz işlər görülüb, Atatürk Mərkəzi yaradılıb. Həmçinin «Dədə Qorqud»un, dahi şair Füzulinin, müasirlərimiz olan bir çox sənət adamlarının yubiley tədbirləri keçirilib, ədəbiyyat, incəsənət xadimlərinin fəaliyyətləri yüksək qiymətləndirilib, onlara təqaüdlər təyin olunub. Hörmətli Prezidentimiz dil haqqında, latın qrafikasına keçmək barədə fərmanlar imzalayıb… Əlbəttə, bu sahədə görülən işləri, tədbirləri sadalasam uzun bir siyahı alınar. Konkret olaraq isə onu deyə bilərəm ki, heç bir dövlət başçısının möhtərəm Heydər Əliyev kimi öz ölkəsinin ədəbiyyatının, mədəniyyətinin qayğısına bu qədər həssaslıqla yanaşmasını təsəvvür etmirəm.

DİLİ BÜTÜN XALQ QORUMALIDIR*

Professor Qəzənfər Paşayev EA Nizami adına Ədəbiyyat İnstitutunun İçərişəhərdəki Folklor Elm Mərkəzində öz vəsaiti hesabına «İraq–türkman ocağı» muzeyi yaradıb. Ədəbi sərvətimizin Füzuli və Kərkük incilərini bu müqəddəs ocaqdan mənəvi mühitə yaymaq üçün İraqla, İraqda yaşayan azərbaycanlıların mədəniyyət və elmi ilə bağlı olan son otuz ildə topladığı şəxsi əşyalarını, çəkdirdiyi incəsənət əsərlərini, əlyazmalarını, elmi mənbələrin hamısını burada cəm edib. Qəzənfər müəllim ədəbiyyatımızın təəssübkeşi olduğu kimi, dilimizin də qorunub saxlanılmasına böyük diqqət yetirir. Gəzib dolaşdığı ölkələrdə azərbaycanlı ailələrin yaşayışı ilə tanış olur, unudulmuş adət-ənənələrimizi yada salır, təbliğ edir.

Nizami adına Ədəbiyyat Muzeyində ədəbi əlaqələr şöbəsinin müdiri işləyən Qəzənfər Paşayevlə həmsöhbətik.

– Qəzənfər müəllim, möhtərəm Prezidentimiz Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» verdiyi fərmandan bir il ötür.

– Mən dünyada iki müqəddəs varlıq tanıyıram. Bunun biri anadır, biri də ana dilimiz. Ana dilinə xor baxmaq, onu bir çox gündəlik məsələlərlə qarışdırmaq olmaz. Yəni insan hansı xalqın övladıdırsa, o xalqın dilini göz bəbəyi kimi qorumalıdır. İraqda azərbaycanlılar yaşayır. Onlar yad xalqlar əhatəsindədir. Ancaq dillərini bu günə kimi çox möhkəm saxlayıblar. Kərküklü bir alim var, Səid İrmaq. O deyir ki, vətən torpağı kiçilib genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tapdana bilər, dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir, bu Ana dilidir. Ana dilindən müqəddəs dünyada heç nə yoxdur. Əgər hər hansı bir şəxs bir xalqa mənsubdursa, dilini də qorumalıdır. Mən istəyirəm, hər bir

* Bax: «İki sahil» qəzeti, 21.06.2002, s.7.

şəxs milli olsun. Milliliyinin birinci xüsusiyyəti onun dilidir, mədəniyyətidir. Ancaq millilik millətçilik deyil, mən onun tərəfdarı deyiləm. İnsan daha çox dil bildikcə, öz dilinə daha möhkəm bağlanır, onun şirinliyini daha dərindən duyur.

– *İraqda azərbaycanlı çoxdurmu?*

– Rəsmi statistika məlumatına görə, təkcə Kərkük vilayətində 430 min azəri türkü yaşayır. Ümumiyyətlə, isə İraqda 2 milyon nəfər azərbaycanlı yaşayır.

– *Siz dediniz ki, 6 il İraqda yaşamısınız. Orada yaşayan azərbaycanlılar bizim hansı adət-ənənələrimizi yaşadırlar?*

– Deyin ki, hansını yaşatmırlar? Elə bir adət-ənənəmiz yoxdur ki, onlar yaşatmasın. Mənim Bəndəroğlu ilə 1999-cu ildə «Azərbaycan folklor antologiyası» (İraq–türkman cildi) kitabım çıxıb. Orada biz bütün adət-ənənələri açıq-aşkar göstərmişik. Bizim kök birliyimiz var, folklorumuz, şifahi yaradıcılığımız, xalq musiqimiz, bir sözlə, hamısı eynidir…

– *Məsələn, Novruz bayramını onlar necə keçirirlər?*

– Onlar ərəb mühitində olduğuna görə bir az başqa cürdür. Əslində, orada ona «Yaşıllıq bayramı» deyirlər.

– *Qız toyları necədir?*

– Bu adətlər də bizdəkinin tamamilə eynidir.

– *Onlar ailələrində hansı dildə danışırlar?*

– Necə ki bizdə hamı rus dilini bilir, onlarda da hamı ərəb dilini bilir. Ancaq ana dilini göz bəbəyi kimi qoruyurlar. Evdə öz dillərində danışırlar. Ana dilinə olan dərin məhəbbət bayatılarında da özünü göstərir:

Dilim-dilim,
Kəs qovun dilim-dilim,
Mən dilimdən vaz keçməm
Olursam dilim-dilim.

Bu onların ana dilinə nə qədər bağlı olduqlarını bir daha göstərir.

– Azərbaycanda baş verən yeniliklərdən xəbər tuturlarmı?

– Əlbəttə, mətbuat orqanlarını izləyirlər. Azərbaycanla çox sıx əlaqələri var. Elə bir ailə yoxdur ki, Molla Nəsrəddini bilməsin. Orada «Yurd» qəzeti çap olunur. Qarabağda gedən müharibədən ətraflı yazılar verirlər. Bəndəroğlunun köməkliyi ilə Azərbaycanın görkəmli şair və yazıçılarının kitablarını nəşr edirlər. Qarabağla bağlı bayatıları var:

Əslim Qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Kəsilib gəlib, gedən,
Demə yollar bağlıdır…

– Siz uzaq İraqda yaşayan azərbaycanlıların evlərində danışdıqları azəri dilindən danışdınız. Ancaq Bakıda elə ailələr var ki, azərbaycanca danışa bilmirlər. Bunu rus dilində təhsil almaları ilə əlaqələndirirlər.

– Bu düzgün deyil. Hər dildə təhsil almaq olar. Ancaq ana dili unudulmamalıdır. Böyük bəstəkarımız Fikrət Əmirov dünyasını dəyişəndən sonra onun bir məqaləsini çap etmişdilər. Gərək ki, «Kommunist» qəzeti idi. Çox maraqlı yazı idi. Fikrət Əmirov tamamilə internat məktəblərinin əleyhinə idi. Deyirdi ki, uşaq ana laylasıyla, milli musiqiylə böyümürsə, onun qəlbində məhəbbət, mərhəmət, xeyirxahlıq az olar. Onun qəlbində şər qüvvələr daha çox yer tutar. Bəlkə də, həmin ailələr özlərini ruslara yaxşı göstərmək xatirinə belə edirlər, nə bilim. Ancaq mən istəyirəm ki, hər kəs hansı dili öyrənməkdən asılı olmayaraq, öz ana dilində danışsın. Çox dil bilmək yaxşıdır. Adam çox dil bildikcə, çox mədəniyyətdən xəbəri olur, müqayisə etdikcə öz mədəniyyətindən möhkəm yapışır. Prezidentimizin ardıcıl olaraq dilimiz haqqında verdiyi fərmanlar, sərəncamlar öz işini görür. Siz üç-dörd ildən sonra görəcəksiniz ki, hər şey necə

dəyişəcək. Mən İraqa birinci dəfə 1962-ci ildə getmişəm. Hamı ingiliscə danışırdı. İngilisdilli ölkələrin İraqla münasibətləri pozuldu. 1972-ci ildə İraqa gedəndə gördüm ki, ingiliscə çox az adam danışır…

İndi bizim müstəqilliyimizdən 11 il keçib. 10 ildən sonra baxarsınız, Azərbaycanda nə böyük dəyişiklik olacaq. Bu dəyişiklik təkcə məişətdə yox, insanların şüurunda da olacaq. Dili müəyyən ailələr saxlamır, dili bütün xalq saxlayır, yaşadır. Bizim xalqımızın dili çox zəngindir, təmizdir, safdır. Bunu xalq saf saxlayıb. Beləcə də qalacaq.

– *Maraqlı söhbət üçün sağ olun.*

– Siz də sağ olun.

Şəmsiyyə Musaqızı

«MƏNİM İKİ VƏTƏNİM YOX, İKİNCİ VƏTƏNİM VAR»

İngiltərədə, Amerikada yaşayan İraq türkmanları – kərküklülərlə yazışmalarımız davam etdikcə bizdən bir nəfəri soruşdular. Həm də sözünü eşitmək istədilər. O, ömrünü bu əlaqələrin yüksək səviyyədə qurulmasına həsr etmiş, əslində, ədəbiyyatımızın bir parçasının bütün yükünü öz çiyinlərində hələ gənclik illərindən götürmüş yazıçı-tərcüməçi, professor Qəzənfər Paşayevdir. Qəzənfər müəllim indi bizim, qəzet işıq üzü görəndən sonra isə Amerikada İraq türkmanlarının saytında bütün İraq türkmanlarının qonağı olacaq…*

– Qəzənfər müəllim, «Altı il Dəclə-Fərat sahillərində» təsadüfün, yoxsa bu bir istəyin, ideyanın bəhrəsidir?

– Mən Xarici Dillər İnstitutunun dördüncü kursunda oxuyanda sovet dövləti Şərq ölkələrinə texniki yardım göstərdiyindən tərcüməçiyə də böyük ehtiyac vardı. Şərq ölkələrinə Azərbaycan, Qırğızıstan, Özbəkistan və başqa şərqi sovet ölkələrindən tərcüməçi göndərməyi üstün tuturdular. O zaman ingilis–Azərbaycan dili fakültəsinin dördüncü kursunda oxuyanda əlaçı tələbələrə xaricə işləməyə getmək təklif olundu. Təklif olunan dövlətlər arasında İraqı seçdim, çünki ora «Koroğlunun Bağdad səfəri»ndən, «Min bir gecə» nağıllarından, Vaqifin, Vidadinin «Durnalar»ından aşinası olduğum el-oba idi. İkincisi də o vaxt Rəsul Rza, Qasım Qasımzadə, Bəxtiyar Vahabzadə Füzulinin yubileyindən geri qayıtmışdılar. Rəsul Rzanın «Azərbaycan» jurnalında «Uzaq ellərin yaxın töhfələri» adlı böyük məqaləsi çıxmışdı. Onu oxuyandan sonra fikirləşdim ki, bizim böyük Füzulimiz orada, xoyratları yaradan bacı-qardaşlarımız orada, bəs niyə Hindistanı, İndoneziyanı seçməliyəm? Mənlə oxuyan iki nəfər – Zöhrab Əliyev və Qəzənfər Məmmədov getdilər romantik görünən

* Bax: «Azərbaycan XXI əsr» qəzeti, 26.06.2002, səh.7.

İndoneziyaya, mən isə İraqa. Təbii ki, məndə İraq türkmanları haqda məlumat var idi. Çünki institutu qurtaranda Elmlər Akademiyasının Dilçilik İnstitutuna göndərilmişdim. Akademik Məmmədağa Şirəliyev mənə demişdi ki, ay oğul, orada azərbaycanlılar yaşayır, onların dilini, dialektini öyrən. Mən İraqda yaşadığım müddətdə belə də elədim. 1969-cu ildə müdafiə etdiyim namizədlik dissertasiyası üzərində işləyəndə dilçiliyə aid elmi işim həmin folklor materialları əsasında tədqiq olunmuşdu. Sonra da topladığım zəngin folklor materialları əsasında doktorluq dissertasiyasını müdafiə etdim.

– Azərbaycanlılarla İraq türkmanları dialektində dil fərqləri nə dərəcədə hiss edilir?

– İraqda yaşadığım müddətdə öyrəndim ki, dilimizin arasında, həqiqətən, elə böyük fərq yoxdur. Tədqiqatları davam etdirdikcə gördüm ki, nə bir türk, nə bir ərəb, nə bir əcnəbi tədqiqatçı demir ki, bunlar ayrı dildə danışır. Hamı hesab edir ki, İraq türkmanları da Azərbaycan dilində danışırlar. Çünki tarixən Azərbaycandan İraqa yeddi axın olub. O zaman biz bir bayraq altında birləşmişdik. Elə vaxt olub ki, ölkənin paytaxtı yayda Təbrizə, qışda Bağdada köçüb. Sonuncu köç Səfəvilər dövründə olub. Alman alimi Karl Menqels bütün dünya dillərinə tərcümə olunmuş «Türk dilləri və türk xalqları» adlı kitabında göstərir ki, hələ əsrin əvvəllərində İraqda 1 milyondan artıq azərbaycanlı yaşayıb, onlara türkman deyiblər. Bilirsiniz, vaxtilə biz də türkman adlanmışıq. Bu çox nisbi bir məsələdir. Şah İsmayıl Xətai:

«Getdikcə tükənir ərəbin kuhi məskəni,
Bağdad içrə hər necə kim, türkman qonar» – deyirdi.

Mən izlədikcə, dərinlərə getdikcə gördüm ki, bunların hamısı doğru deyilib.

– Sonralar bunlar həm də rəsmi olaraq təsdiq olundu.

– 2000-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev İraq türkmanlarından olan dostumuz İhsan Doğramacının 85 illik yubileyi keçiriləndə «Qardaşlıq» (№4, s.8) jurnalına verdiyi müsahibəsində demişdi ki, «tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır». Adi adamlar hissə qapılıb nəsə deyə bilərlər, bilmədən də deyərlər. Amma prezident heç vaxt dəqiq olmayan bir məsələni bəyan eləməz. «İslam ensiklopediyası»nın VI cildində Fuad Köprülü yazır ki, «İraq türkləri Oğuzcanın azəri ləhcəsində konuşan türklərdir». Türkiyəli Sadəttin Buluç çox məşhur dilçi alimdir. 1966-cı ildə çap etdirdiyi böyük bir məqaləsində göstərirdi ki, onlar azərbaycanca danışırlar. Kərküklü Molla Sabir 3 qisim kitabda Kərkük xoyratlarını 1951, 1953, 1954-cü illərdə nəşr etdirmişdi. Elə birinci hissənin nəşrindən sonra Türkiyənin müxtəlif tanınmış alimlərindən ona məktublar gəlmişdi. Yazırdılar ki, bu materiallar onların da başa düşdükləri azəricədir. İraq türkmanlarının ən böyük folklorşünas alimi Əta Tərzibaşı «Kərkük xoyrat və mahnıları» adlı 600 səhifəlik əsərində göstərir ki, İraq türkmanları azəri-türkman ləhcəsində danışırlar. Yəni elə bir alim yoxdur ki, bunu göstərməsin, deməsin.

Dil faktları var. Akademik Məmməd Cəfər bayatıların da bir-birinin eyni olduğunu göstərirdi. Böyük alimimiz Əkrəm Cəfər yazırdı ki, azərbaycanlılar və kərküklülərdən başqa türk dillərinin heç birində «xoruz banladı» demirlər. XIII–XIV əsrlərdə yazılmış ibn Mühənna lüğətinin də Azərbaycanda, ya da İraqda yazıldığı deyilir. Eyni fikirlər «Kitabi-Dədə Qorqud»un Drezden nüsxəsi haqda da deyilir. Çünki dil eynidir, yəni Oğuzcanın Azərbaycan ləhcəsindədir. XIX əsrin ortalarına qədər İranda çıxan bütün kitabların üzərində Nizaminin adı İraq şairi kimi yazılırdı. Nəsimi və Füzulini haqlı olaraq İraq türkmanları da, biz də öz şairimiz hesab edirik. Ancaq heç birimiz birbirimizə etiraz etmirik, çünki eyni dildə danışan bir xalqıq. Bunlar təsdiq olunmuş məsələlərdir. Mən tarixə kiçik bir nəzər

salıram. «Yurd» qəzetinin əsasını qoymuş baş redaktor Əbdüllətif Bəndəroğlu türkman ləhcəsi ilə azəri ləhcəsi arasında heç bir fərq olmadığını deyir. Onun fikrincə, Bağdad və Bəsrə arasında ərəb dilində nə fərq ola bilərsə, bizim dilimizdə də o qədər fərq var. Bakıda İhsan Doğramacının yubileyi keçirilərkən o, Elmlər Akademiyasının fəaliyyəti haqqında Türkiyədən gəlmiş qardaşlarımızın ləhcəsində danışdım ki, onlar da anlasınlar. Ərbil, Kərkük, Azərbaycan hər üçü eyni ləhcədir. Ona bir sual verdilər ki, 85 illik yubileyinizin ikinci Vətəninizdə keçirilməsindən məmnunluq duydunuzmu? O müxbirə cavab verdi: – «Azərbaycan mənim ikinci vətənim deyil, iki Vətənimdən biridir».

– Və bütün deyilənləri təsdiq edən faktları ortalığa çıxaranlar hər iki tərəfdəndir…

– Doğrudur. Mən bunları deyirəm. Bütün deyilənlər şifahi xalq ədəbiyyatına, dil faktlarına söykənməsə, havadan asılı qalardı. Dil faktları, ədəbiyyat faktları, bizim çap etdirdiyimiz bütün kitablar, hətta Əbdüllətif Bəndəroğlu ilə birlikdə 1999-cu ildə Bakıda akademiyanın xətti ilə Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsində «Azərbaycan ədəbiyyatı» və «Azərbaycan folklor antologiyası»nın İraq–türkman cildini nəşr etdirdik. İstanbulda da nəşr olunmuş «Türkiye Dışındakı Türk Edebiyyatları Atolojisi» və «Azərbaycan – İrak (Kərkük) Türk Edebiyyatı xalq ədəbiyyatı»nda mənim topladığım materiallardan istifadə olunub. Girişində yazılıb ki, «doğrudan da, onlar Azərbaycan dilində danışırlar».

– Bəs dil fərqləri türk dil ailəsində necə hiss edilir?

– Bildiyiniz kimi, Türk dil ailəsi 3 qola ayrılır: oğuz, qıpçaq, qarluq. Azərbaycanlılar, osmanlılar, qaqauzlar və Orta Asiya türkmənləri oğuz qrupundandır. Mən dilləri bir-birinə qarşı qoymaq fikrindən uzağam. İraq–türkman ləhcəsini orta əsr türkmən ləhcəsindən fərqləndirən səciyyəvi və fundamental xüsusiyyətlər var. Ərəb və ingilis dillərindəki diş arası «s», «z» səsləri Orta Asiya türkmənlərində də var, ancaq maraq-

lıdır ki, ərəb əhatəsində olmasına baxmayaraq, İraq türkmanlarında bu səslər yoxdur. Azərbaycanlılarda da həmçinin. Orta Asiya türkmənlərində də səsin uzanması ilə ingilis dilində olduğu kimi sözün mənası dəyişir. Bir çox başqa türk dillərində, o cümlədən başqırdlarda və Orta Asiya türkmənlərində sait səsin uzanması ilə sözün mənası dəyişir. Məsələn, «baş» başdı, «baaş» yaradı, «gör» gördü, «göör» gordu. Sağır «n» səsi Orta Asiya türkmənlərində var, azəbaycanlılarda və İraq türkmanlarında isə yoxdur. «V» səsi Orta Asiya türkmənlərində yoxdur, felin «alqan» «gəlqən» formaları işlədilir. Bizim və kərküklülərin səs sistemində bu da yoxdur.

– Bünövrəsini qoyduğunuz İraq–türkman dili və ədəbiyyatına dair tədqiqatlarınız bir məktəb kimi davam etdirilirmi?

– Doğrudan da, bu, bir məktəbə çevrildi. İki nəfər aspirantımız var. Hazırda akademiyada Səkinə xanım «Əbdüllətif Bəndəroğlunun həyat və yaradıcılığı» mövzusunda namizədlik işi yazır. Gənc şair Rəşad Bəydəmirovun da elmi işi İraq türkmanları ilə bağlıdır. Ümumiyyətlə, son illərdə nədənsə istər folklor tədqiqatçıları, istərsə də namizədlik, doktorluq müdafiə edənlər elmi işlərində İraq türkmanlarına tədqiqatlarında yer vermirlər. Əvvəllər biz bu nisgillərdən danışardıq:

Aramızda axıb gedir,
Araz bulana-bulana.
Seyr edirəm görkəmini,
Yaram sulana-sulana.

İndi isə: sərhədlər açıldı, bu nisgil də unuduldu.

– İraqdan kənarda yaranan müasir İraq-türkman ədəbiyyatı haqda nə deyərdiniz?

– Təbii ki, İraqdan kənarda iraqlı ziyalılar yaşayır. Bu, vəziyyətlə bağlıdır. Embarqo qoyulduqdan sonra İraqda vəziyyət, həqiqətən, ağırlaşdı. Bunu səfir də, buraya gələn nazirlər də etiraf edirlər. Azərbaycanda da belə problemlər var, azərbay-

canlılar da başqa ölkələrə köçürlər. İstanbulda nəşr edilən «Qardaşlıq», «Kərkük» jurnalları ilə daimi əlaqələrim var. İraqdan kənarda onların ədəbiyyatları bir çox ölkələrdə, ən əsası isə Türkiyədə yaranır.

– Siz öz vəsaitinizlə böyük bir muzey yaratmısınız. Bu ideya əvvəlcədən vardımı?

– Hər şey məhəbbətdən irəli gəlir. Tədricən topladığım materiallar çoxaldı və öz yerini tutdu. Onu da deyim ki, bunlar hamısı tale ilə bağlıdır. Mən könlümdəki İraq sevdasını tale və qismətlə bağlayıram.

– İraqa və kərküklülərə sizdən yaxşı bələd olan yoxdur. İraqdan kənarda təzyiqlərdən narazı İraq türkmanları yaşayır…

– Qəzetlərdə ərəblərin kərküklüləri sıxışdırması məsələsinə də rast gəlirəm. Mən buna belə baxıram. Ərəblər onlara 70-ci illərdə öz dillərində oxumağa icazə verdilər. İndinin özündə də onların İraqda çox sayda qəzet və jurnalları var. Təhsilə gəldikdə, oxudular, birdən baxıb gördülər ki, təhsili davam etdirməklə bağlı problemlər yaranıb. Milli azlıqlar Azərbacyanda da var. Tədris sistemi, əlbəttə ki, bir dildə – dövlət dilində olsa, yaxşıdır. İraq dövləti Füzulinin yubileyini yüksək səviyyədə keçirdi və ora Azərbaycandan çox adam – 128 nəfər getmişdik. Bizim oradakı tariximizə, mədəniyyətimizə münasibətə görə, demək olmaz ki, bu təzyiqlər yüksək həddədir. Nazirlərin arasında beş nəfəri məhz İraq türkmanlarındandır. Hər halda, milli azlıqlar da dövlətin qanunlarına tabe olmalı, dövlət də, öz növbəsində onu öz rəngarəngliyi, dəyəri kimi qəbul etməlidir. İndiyəcən bircə cümləsi redaktə olunmadan kitablarım ərəbcəyə tərcümə olunub, bir maneə görməmişəm. Buna görə də gələcəyə nikbin baxır, qan qardaşlarımızın problemlərinin İraqın siyasi ab-havasından irəli gəldiyini düşünürəm. İhsan Doğramacıdan fərqli olaraq, mənim iki Vətənim yox, ikinci Vətənim var. O, İraqdır.

Sevda Mehrəli

MƏNƏ ÇOX YÜKSƏK VƏZİFƏLƏR TƏKLİF OLUNUB

Onlarca tədqiqat əsəri, maraqlı kitab və tərcümələr müəllifi olan Qəzənfər Paşayevi nəinki Azərbaycanda, Türkiyə, İraq və digər xarici ölkələrdə də yaxşı tanıyırlar. Görkəmli alim, pedaqoq, istedadlı yazıçı olan Qəzənfər müəllim eyni zamanda yüksək insani keyfiyyətlərə malik şəxsiyyətdir. Kitablarını təkrar-təkrar oxumaqdan yorulmadığımız tanınmış ziyalımızın sadəliyi və səmimiliyi onun həsəd aparılası xüsusiyyətlərinin, bəlkə də, birincisidir. Olduqca diqqətli olması, hətta epizodik hadisələrə belə həssaslıqla yanaşması Qəzənfər Paşayevi çoxlarından fərqləndirir. İngilis, rus, ərəb, türk dillərində sərbəst danışan Qəzənfər müəllim onu tanıyanlar üçün həm də əvəzsiz bir ictimai xadim, xanımı və övladları üçün isə gözəl ailə başçısı, sevimli atadır. Yorulmazlığı və zəhmətsevərliyi, eyni zamanda fitri istedadı ilə ədəbiyyatımıza, folklorumuza, tariximizə qiymətli incilər bəxş edən professoru «Ötən günə gün çatmaz, calasan günügünə» rubrikasında görmək və bir sıra suallarımıza cavab tapmaq üçün bu dəfə onun N.Gəncəvi adına Ədəbiyyat Muzeyindəki otağının qapısını döydük. Öyrəndik ki, zəhmətsevərliyə uşaqlıqdan alışan Qəzənfər müəllim kitab oxumaq üçün səhərə qədər neft lampasının yanmasının müqabilində böyük ailənin bir günlük bütün işlərini öz körpə çiyinlərinə götürməkdən də çəkinməyib. Onun həyat yolu belə başlayıb…*

– Gözümün qabağına «dünya bir pəncərədir, hər gələn baxar keçər» sözləri gəlir. İnsan həyatı yaşayıb yaşa dolur, ömrü azalır. Dünya haqqında fikrim müxtəlifdir. Yaşa dolduqca dünya haqda qəribə fikirlər ağlıma gəlir. İnsan dünyada

* Bax:«Etimad» qəzeti, 30.10.2001, s. 8–9.

ən ali məxluqdur. Ancaq biz dünyanın gedişatını olduğu kimi dərk eləmirik. Elə bil yuxuda dünyaya gəlirik və bir gün də dünyamızı dəyişirik. Təsəlli olan odur ki, geri baxanda, yaratdıqlarına diqqət edəndə bir qədər rahatlanırsan. Səməd Vurğunun dünya haqqında gözəl fikirləri var. 50 yaşında dünyasını dəyişən dahi şairimiz fani dünyanı gözəl dərk edib: «Biz gəldi-gedərik, sən yaşa, dünya». Dünya sehrli bir aləmdir. Bu aləmin hamıya qismət olan acısı da, şirini də var. Çalışırsan-vuruşursan, bir də görürsən, bayatıda deyildiyi kimi ömür keçdi:

Keçdi ömrüm,
Gör necə keçdi ömrüm.
Harayladım dönmədi,
Elə bil heçdi ömrüm.

Deyəsən söhbətimizə bədbin notlarla başladım. Günah məndə deyil, bu, yaş dövrünün xüsusiyyətidir.

Universitetə şərti qəbul olundum

– Qəzənfər müəllim, uşaq ikən gələcəkdə gözəl kitablar müəllifi olacağınızı düşünürdünüzmü?

– Biz II Dünya müharibəsi dövrünün uşaqlarıyıq. O vaxt bizi ən çox düşündürən qışdan bir təhər yaza sağ-salamat çıxmaq idi. Yemək yox, paltar yox. Tərs kimi, o vaxtlar çox qar yağar, şaxta olardı. Çaylarda su donardı. Buzu əridib sudan istifadə edərdik. Bununla belə, müəllim olmaq arzum böyük idi. Şübhəsiz ki, bu müəllimlərimin xidməti idi. Bugünkü kimi yadımdadır, 4-cü sinifdə oxuyanda «Mənim arzum» adlı sərbəst mövzuda yazı yazmışdım. Yazım məktəbdə və rayonda necə qarşılanmışdısa onu Bakıya göndərmişdilər. Bir şey də vardı. Nə oyunu oynasaq, uşaqlar həmişə məni kapitan seçərdi. Mübahisəli anlarda mənim sözüm hər iki

komanda üçün həlledici olardı. Uşaqlıqdan yalanı xoşlamamışam. 8-ci sinifdən tarix, coğrafiya, ədəbiyyat fənlərindən oxuyub-öyrəndiklərimi konspektləşdirərdim. M.S.Ordubadinin elə bir əsəri yox idi ki, onu oxuyub konspektləşdirməyim. «Taras Bulba»nı bir gecədə oxumuşam. O vaxtlar kənddə nə işıq, nə radio, nə də televizor vardı. Uzun qış gecələrini nağıl və dastanları dinləməklə, bir də kitab oxumaqla keçirərdik. Ata-anam yox idi. Bizə böyük bacım baxırdı. Təsəvvür edin, 17–18 yaşlı qız uşağı üç kiçik qardaşa, bir bacıya baxır, evin bütün qayğılarını çəkirdi.

– *Valideynlərinizi tez itirmisiniz?*

– 1941-ci ildə atam müharibəyə gedib. Anam bizə həm atalıq, həm də analıq edib. Doğrudur, dayılarım da bizə həyan olublar. 1946-cı ildə atam müharibədən qayıtdı. Lakin Stalinin qərarı ilə Türkmənistanda salınan neft şəhəri Nebitdağa işə göndərildi. Anam buna dözməyib dünyasını dəyişdi. Atam Türkmənistandan 1953-cü ildə qayıtdı. Böyük çətinliklərə baxmayaraq, orta məktəbi əla qiymətlərlə bitirdim. 1956-cı ildə sənədlərimi Bakı Dövlət Universitetinin tarix fakültəsinə verdim və şərti qəbul olundum. Həmin il universitetin tarix fakültəsində 378 nəfər qəbula gəlmişdi, ondan 26 nəfər qəbul olundu. Bir qız mənimlə bərabər bal yığmışdı. Türkmənistandan gəldiyinə görə, ona üstünlük verdilər. Şərti qəbul o demək idi ki, yanvara qədər mənə nə təqaüd, nə də yataqxanada yer veriləcəkdi. İmkanım olmadığından kəndə qayıtdım.

Hekayəm oğurlandı

– *Ali məktəbə qəbul üçün yenidən Bakıya gəldiniz. Tələbəlik illəri yadınızda necə qalıb?*

– Bu da Allahın işi idi ki, növbəti il mən Universitetə yox, məhz Xarici Dillər İnstitutuna üz tutdum və ingilis dili

fakültəsinə qəbul olundum. İlin ən gözəl çağı bahar olduğu kimi, insanın da ömrünün ən gözəl vaxtı tələbəlik illəridir. İnstitutda da əla qiymətlərlə oxuyurdum. Amma dövlət imtahanında «Pedaqogika və metodika» fənnindən dörd aldım. Beş il əlaçı olsam da, bu məni sarsıtmadı. Bədxahlarımın arzusuna xilaf çıxaraq daha əzmlə işlədim. Tələbə vaxtı ədəbi-bədii tədbirlərdə yaxından iştirak edirdim. Əgər belə demək mümkünsə, bədii yaradıcılıqla da məşğul olurdum. Lenin və Sabir adına kitabxanalarda təşkil olunmuş dərnəklərin üzvü idim. «Ürəkdə məşəl» adlı hekayəm dərnəkdə ilk oxunuşda bəyənildi. Dərnəkdə Əlibala Hacızadə də iştirak edirdi. Hekayəni o da tərifl ədi. «Bakı» qəzetində ilin ən yaxşı hekayəsi, şeiri, oçerki adı altında müsabiqə elan olunmuşdu. Hekayəmi dünyasını dəyişdiyindən adını çəkmək istəmədiyim bir nəfər öz adından müsabiqəyə göndərmiş və birinci yeri tutmuşdu. Şikayət etdim. O vaxt qəzetin «Nəsr və poeziya» şöbəsinə rəhbərlik edən Cabir Novruz və Qeybulla Qeybullayev məni qəzetin baş redaktorunun yanına apardılar. Baş redaktorun universitetdə dərs dediyi gənci çox danladılar. Xüsusilə Cabir Novruz dişinin dibindən çıxanı ona dedi. Oğlan əl-ayağıma düşdü. Onu bağışladım. Lakin o hadisədən sonra bir də hekayə yazmadım. Cavanlığın xüsusiyyətidir, adam dəliqanlı olur. Tərcümə ilə məşğul olmağa başladım. Bizi tərcüməyə alışdırmaq üçün institutda dərnək təşkil olunmuşdu. Müsabiqələr keçirilirdi. Bu işlərə sevimli müəllimimiz İsmixan Rəhimov başçılıq edirdi. Tələbə ikən Cəfər Cabbarlının «Füruzə» və Abdulla Şaiqin «Məktub yetişmədi» hekayələrini tərcümə etmişdim. Müsabiqənin qalibi olmuşdum. Lakin ingilis dilindən etdiyim tərcümələr daha uğurlu olurdu.

Pisi görürsən, yaxşını da görməyi öyrən.

– Bu tərcümələrdən qazancınız olubmu?

– O vaxtlar orijinaldan tərcüməyə ögey münasibət bəslənirdi. Rus dili vasitəsi ilə olan tərcümələrə daha çox üstünlük verilirdi. Məlumat xarakterli yazılarımı çap edirdilər. Əgər bir manat qonarar alsaydım böyük iş idi. Rəylər də yazırdım, amma qəbul olunmurdu. Yaxşı yadımdadır, Yusif Şirvanın «Şəfəq» romanına 12 vərəqli şagird dəftərində tənqidi rəy yazaraq göstərmişdim ki, yazıçı kənd həyatını yaxşı bilmir, kənd həyatı düzgün təsvir olunmayıb. Heç bilmirdim yazıçı şəhərlidir və ya kənddə böyüyüb. Dedilər, get bir az öyrən sonra gələrsən. (Ürəkdən gülür).

– Nəyi öyrənməli idiniz? Nə üçün qaytardılar?

– Dedilər pisi görürsən, yaxşını da görməyi öyrən. Tərifləməyi bacar, sonra pisləyərsən.

– Deməli, tələbəlik illərini əziyyətlə yola vermisiniz.

– Şübhəsiz. Lakin əziyyətlə əldə olunan hər şey şirin olur. Maddi cəhətdən sıxıntılarım daha çox olurdu. Atam böyük qardaşımla danışmışdı ki, kəndimizdə xeyiri-şəri özü yola versin. Mənim oxumağıma isə qardaşım kömək etsin. Sonralar başa düşdüm ki, atam biz qardaşlar arasında münasibətin təməlini qoyubmuş. Bütün qardaşlar bu gün də birbirimizə kömək edirik. Tələbə olanda çalışırdım vaxtım boş keçməsin. Günümü Axundov, Sabir, Lenin, Əzizbəyov və Krupskaya adına kitabxanalarda keçirərdim. Nə gizlədim, həmin kitabxanalara tanınmış bir yazıçı və ya alim gələndə yaxşı mənada həsəd aparardım. Bax, elə həmin vaxtdan arzularım məcrasına sığmamağa başladı. İnstitutu bitirəndə rus və ingilis dilləri üzrə tərcüməçi işləmək üçün İraq Respublikasına göndərdilər. Elmlər Akademiyasının Dilçilik İnstitutunun direktoru, gələcək elmi rəhbərim akademik M.Şirəliyev İraqa gedəcəyimdən xəbər tutub məni yanına çağırdı

və dedi ki, İraqda kərküklülər, azərbaycan dilində danışan elat yaşayır. Onların dialektini topla və qayıdandan sonra Kərkük dialektindən müdafiə et. Odur ki, İraqda olanda çoxlu dialekt və folklor materialı topladım.

– Qəzənfər müəllim, qərib ölkədə insanlara necə uyğunlaşdınız?

– İraqda heç bir çətinliklə qarşılaşmadım. Orada qürbət mənə yad oldu. Çünki İraq bizə iraq deyil. «Altı il Dəclə-Fərat sahillərində» kitabımda bir fəsli belə adlandırmağım təsadüfi deyil. Heç bir ərəb ölkəsi bizə İraq qədər yaxın və əziz deyil. Əsrlər boyu bir bayraq altında yaşamışıq. Dünya şöhrətli alimimiz Nəsrədin Tusi Bağdadda Kazımiyyə məscidində, dahi şairimiz Füzuli Kərbəlada İmam Hüseyn məscidində uyuyur. Koroğlunun Bağdad səfəri İraqdan bəhs edir. İraqda qəriblik nə olduğunu bilməmişəm. Ona görə ki, orada sayı iki milyonu keçən və azərbaycanca danışan bacı-qardaşlarımın arasında idim.

Nankor adamlar sonadək çörək tapmır

– Ümumiyyətlə, xarici ölkələrdə haralarda olmusunuz?

– İşlə bağlı yeddi ilə qədər İraqda, iki ay ABŞ-da (1983), bir ay yarım İngiltərədə (1988) ixtisasartırma kurslarında olmuşam. Turist kimi Misirdə, Suriyada, Çexoslovakiyada, İranda, İordaniyada, Yunanıstanda və Türkiyədə olmuşam. Təbii ki, indi əcnəbi ölkələr sırasında olan bütün keçmiş Sovet Respublikalarında. Bu başqa bir söhbətin mövzusudur. Burada təkcə onu deyə bilərəm ki, elmə və insana münasibəti yalnız ABŞ və İngiltərədə olandan sonra anladım. O ölkələrdə hər şey insan üçün, onun rifahı, səhhəti üçündür.

– Qəzənfər müəllim, işləyib əliniz çörəyə çatandan sonra doğmalarınızın borcundan çıxa bildinizmi?

– Ağır sualdır. Müqəddəs kitablarda yazılıb ki, sağ əlin verdiyini sol əl bilməməlidir. Lakin tərbiyəvi xarakter daşıya

biləcəyini nəzərə alaraq cavabdan yayınmayacağam. 1964-cü ildə xaricdən vətənə dönəndə atama televizor və sərinkeş gətirdim. 1974-cü ildə dünyasını dəyişənə qədər hər ay kömək etdim. «Moskviç» markalı maşın gətirtdim və məni oxudan qardaşıma bağışladım. Bizə baxan bacımın uşaqlarını oxutdum və 1966-cı ildə xaricdən gətirdiyim «Moskviç»i uşağının sayının çox olduğunu nəzərə alaraq ona bağışladım. Yaxşılığı unudan nankor olar. Nankor adamlar da axıra kimi çörək tapa bilməz. Bacım ailə qurandan sonra bizə Safa bibim baxdı. Bibimin övladlarına və nəvələrinə də bu günə kimi əlimdən gələn köməyi edirəm. Kəndimizdə hüzr düşəndə həmişə böyük qardaşım mənim yerimə də siyahıya düşür. Mən kəndə gedəndə hüzr sahibinə başsağlığı verməklə kifayətlənirəm. Dediklərimdən elə çıxmasın ki, yalnız mənə yaxşılıq edənlərə yaxşılıq edirəm. Məni tanıyanlar bilir ki, mənə pislik edənlərə də yaxşılıq edib onları sındırmışam.

Alın yazısına inanıram

– Səhv etmirəmsə, Xarici Dillər İnstitutunda dərs dediyiniz tələbənizlə ailə qurmusunuz.

– Həyat yoldaşım 4–5-ci kurslarda oxuyanda mən ingiliscə «Ölkəşünaslıq» fənnindən mühazirələr oxuyarkən tələbəm olub. Yerlimizdir. Bir mahnıda deyilir: «Taledir, alın yazısıdır, ömür-gün yoldaşı, həyat yoldaşı». Həqiqətən, bu belədir. Taleyimdən razıyam.

– Taledən danışdınız. Yəqin təsadüfi deyil ki, hazırda Nostradamusun həyat və fəaliyyəti barədə kitab üzərində işləyirsiniz. Deyəsən, bu kitabı həyat yoldaşınıza həsr eləmisiniz.

– Həyat yoldaşımın boynumda haqqı böyükdür. Nə yazsam ilk oxucum həyat yoldaşım olur. Hələlik Nostradamusla bağlı işimi dayandırmışam. Gürcülərlə birgə Aleksandr Dümanın «Qafqaz səfəri» adlı əsəri əsasında sənədli bədii film

çəkiləcək. «Space»in rəhbəri Etibar Babayevlə onun ssenarisini yazıb qurtarmışam. Ağır iş imiş. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Ağamusa Axundovun təşəbbüsü ilə «Azərbaycan dilinin İraq–türkman ləhcəsi» adlı kitab üzərində institutun dialektelogiya şöbəsinin əməkdaşları ilə birgə iş başa çatıb. 450 səhifəlik bu kitabı Ağamusa müəllimlə indi redaktə edirik. Bu günlərdə Nizami adına Ədəbiyyat Muzeyində yaradılmış «İraq–türkman ədəbiyyatı və mədəniyyəti» daimi ekspozisiyasına dair «İraq bizə iraq deyil» adlı maraqlı kitab işıq üzü görüb. Elə mənim İraqa getməyim də tale ilə bağlıdır. Sənədlərim hazırlananda tələbə yoldaşlarımla birgə İndoneziyaya getmək istəyirdim. Lakin sonra fikrimdən döndüm. Bunlar elə belə deyilmiş, orada bürclərlə maraqlandım və sonra məşğul oldum. O vaxtdan məndə taleyə, qismətə, alın yazısına böyük inam var. 1999-cu il noyabr ayının 26-dan isə bu bəşəri problem üzərində işləyirəm.

Restoranda balıqdan zəhərlənmişdilər

– Bu necə oldu?

– Adlı-sanlı alim, BDU-nun kafedra müdiri, professor Dəmir Qənbərovun 60 illik yubileyi idi. Ziyafətə mən də dəvət olunmuşdum. Lakin bir gün əvvəl 25 noyabrda «Yeni Müsavat» qəzetində anadan olduğum «Qız bürcü» ilə bağlı oxumuşdum: «Hətta kollektiv dəvətlərdən də imtina etməlisiniz. Nəticəsini özünüz görəcəksiniz». Fikir verin, tövsiyə deyil, əmr edilir. Necə oldusa ziyafətə gedə bilmədim. Bəlkə, bu da Allahın iradəsi ilə oldu. Bir onu bilirəm ki, səhərisi gün axşam xəbər yayıldı ki, «Ceyrançöl» restoranında balıqdan zəhərlənərək ölən və ağır vəziyyətdə xəstəxanaya düşənlər var. Öz-özümə dedim ki, burada dərk edə bilmədiyim bir möcüzə var. Yuxarıda dediyim kimi, bu tilsimli aləmə

bənzəyən problemlə əlaqədar material toplamağa başladım və Allahın iradəsi ilə Nostradamus yaradıcılığının izinə düşdüm. Onun möcüzəyə bənzər həqiqətlərdən, labüd olaraq baş verəcək hadisələrdən bəhs edən katrenlərini (dördlük) tədqiqat süzgəcindən keçirdikcə, şüurlu həyatım boyu cavabını tapmağa aciz olduğum, ürəyimdə tərəddüdlə götürqoy etdiyim «alın yazısı», «tale», «qismət», «qəzavü-qədər», «yazıya pozu yoxdur» kimi bəşəri problemlərə bu ahıl çağımda cavab tapdım. Nostradamus bir dəryadır, ümmandır – desəm yanılmaram. Deyəcəksiniz ki, bu qədər vaxtda nə hasil etmisiniz? Niyə bir kitab çap etdirməmisiniz?

İnanın ki, istəsəm indiyə qədər Nostradamusla bağlı iki-üç kitab çap etdirərdim. Rusiyada və İngiltərədə kommersiya maraqlarına görə belə edirlər. Mən elə etmək istəyirəm ki, azərbaycanlı oxucunun kitabı oxuyandan sonra bu möcüzə ilə bağlı heç bir sualı qalmasın. Kitabda hər şey əhatə olunsun və bu mövzuya dair kim nə axtarırsa bu kitabda tapsın. Kitabın 500 səhifəsi hazırdır.

Allahın iradəsi ilə Nostradamus 1550-ci ildən başlamış 2242-ci ilə qədər baş verəcək mühüm dünya hadisələrini içinə alan mindən artıq katren qoyub getmişdir. Onların bəzilərində dəqiq tarixləri, adları, məsələn, Paster, Franko, Hitler, De Qol və başqaları göstərilmişdir. Lakin Nostradamusun zamanında Fransanın kralı olan II Henriyə yazdığı kimi, əksər hadisələri üstüörtülü təsvir edib ki, gələcək nəsillər başlarına gələcək hadisələrin vaxtını dəqiq bilməsinlər. Bax, buna görə də Nostradamusu şərh etmək üçün bir çox elmləri və dilləri bilmək gərəkdir. Hazırda əlimdə müxtəlif ölkələrdən gətirdiyim və gətizdirdiyim 100-dən artıq kitab var. İngilis, fransız, türk, rus, ərəb, fars dillərində olan bu kitabların çoxu 500–700 səhifəlikdir. Tədqiqat zamanı bu kitablara çox güvənirəm. Bu günlərdə İngiltərədən gəlmişəm. Nostradamusla bağlı 20-dən artıq kitab gətirmişəm. Ən çox

sevincimə səbəb Amerika alimi, professor Edqar Leoninin 1961-ci ildə buraxdığı «Nostradamus və onun görücülüyü», ömrünün 25 ildən çoxunu Nostradamusun görücülüyünə həsr edən Con Houqun «Nostradamus», David Evasonun «Nostradamusun kodu» və s. kitablar oldu. Demək olar ki, Nostradamusun görücülüyü ilə bağlı qəti söz demək üçün bütün mənbələrlə tanışam.

– Bu kitabda Qəzənfər Paşayevin proqnozlarını oxumaq mümkün olacaqmı?

– Əlbəttə, fikirlərimi deyirəm. Elə bir səhifə yoxdur ki, orda sözümü deməyim. Amma çox proqnoz vermirəm. Bir çox tədqiqatçılar kimi, özümü gülməli vəziyyətdə qoymaq istəməzdim. Onu da deyim ki, İraqda işlədiyim 1962–1966-cı illər ərzində mənim özümün də hadisələri öncə görməyim vardı. O vaxt spirtli içki içməzdim. Dilimə içki dəyəndən sonra bu hissim zəifləməyə başladı. Qəribədir ki, qarşımda oturan adamın fikrini oxuyurdum. Bəlkə də, Nostradamusa gəlib çıxmağım da elə bununla bağlıdır.

Dövlətin mənafeyini düşünmüşəm

– Bayaq söhbət zamanı dediniz ki, hər şeylə maraqlanan olmusunuz. Yaradıcılıqdan uzaqlaşıb, biznes fəaliyyəti göstərməyiniz bununla bağlı idi?

– Yaradıcılıqdan heç vaxt uzaqlaşmamışam. Şirkətdə işlədiyim vaxtda yaradıcılıqla məşğul olmuşam. Kitab və məqalələrim çıxıb. Yaradıcılıqla müntəzəm məşğul olan adamı balığa bənzətmək olar. Onu yaradıcılıqdan aralasan nə rahatlıq tapar, nə də yaşaya bilər. O ki qaldı biznes fəaliyyəti ilə məşğul olmağıma, burada mən qeyri-adi bir şey görmürəm. İraqda işləyəndə görmüşdüm ki, dövlət işində çalışan elm adamlarının, mühəndislərin, bir sözlə, bir çox ziyalıların mağazası, emalatxanası və s. var. 1983-cü ildə ABŞ-da Arizonada ikiaylıq ixtisasartırma kurslarında olanda

Robinson adlı professorla dostluq edirdim. Bir axşam şəhərdə gəzərkən kitab mağazasına girdim. Gördüm professor alıcılarla qızğın söhbət edə-edə kitab satır. Halbuki alim kimi, bizim təsəvvürümüzə gəlməyəcək dərəcədə yüksək maaş alırdı. Məlum oldu ki, öz mağazasıdır. Həm qazanır, həm də bir ədəbiyyatçı kimi tədqiqat aparır. O vaxtdan məndə belə fikir formalaşmışdı ki, işdən sonra gedib başqa bir yerdə işləmək qəbahət deyil. Sovet sistemi dəyişəndə vaxtilə İraqda dost olduğum adamların övladları ilə İraq səfirliyində görüşdüm. Dedilər filan işə görə gəlmişik, atamız dedi bizə kömək edəsiniz. Onda universitetdə işləyirdim, onlara kömək etməyə başladım. Sonra həmin şirkətin rəhbəri Bakıya gəldi və gördü ki, bu işi bacarıram. Təklif etdi ki, şirkətdə icraçı direktor işləyim. Universitetdə işimi davam etdirmək çətin oldu. Əvvəlcə yarım ştata keçdim. Sonra isə işi çatdıra bilmədiyimə görə oranı tərk etdim. Universitetin rektoru, professor Abel Məhərrəmov çox təkid etdi ki, getmə, heç olmazsa dörddə bir ştatda qal. İmkan olmadı. Bakıda «Evropean Tobako» tütün fabriki işə düşəndən sonra bizim şirkət fəaliyyətini dayandırmalı oldu. Bunu bir çoxları başa düşmür ki, ölkə daxilində bu və ya başqa məhsulun istehsalına başlayanda həmin məhsulların idxalı dayandırılır. Dövlətlər bilərəkdən həmin malların idxalına mane olmaq üçün yüksək gömrük rüsumu təyin edir. Eləcə də Azərbaycan. Gün kimi aydın həqiqətdir ki, «Evropean Tobako» tütün fabriki başqa istehsal sahələri kimi dövlətimizə böyük xeyir verir. Həm işə yerli adamlar götürülür, həm istehsal gedir, həm də dövlət büdcəsinə yüksək məbləğdə vergi verilir. Mən həmişə dövlətin mənafeyini düşünmüşəm. Yəqin buna görədir ki, bəzi qəzetlər haqqımda əsası olmayan böhtanlar yazırdılar.

– *Yəqin, bunu sizi istəməyənlər edirdilər…*

– Mənə belə gəlir ki, sualınızın cavabını qismən özünüz verdiniz. Deyə bilmərəm ki, mənə həsəd aparırdılar. Lakin

bir şey var ki, irəli gedənin həmişə istəməyəni çox olur. Ona həsəd aparanların, paxıllıq edənlərin sayı artır. Rəhmətlik şair Rasim Kərimlinin «Millət» adlı şeirində belə sətirlər vardır:

Ucalıq görəndə qəlbin darılar,
Çəkibsən önünə sədlər-barılar.

Mən belə ittihamdan uzağam. Lakin onu deyə bilərəm ki, çoxları elə başa düşürdü ki, mən biznesdə nəsə inqilab edirəm. Burda ciddi bir məsələ vardı ki, bu şirkət birgə müəssisə idi. Guya, bunun müəyyən faizi mənim idi. Və şirkətin bütün telefonları da mənim adıma idi. Sonradan başa düşürəm ki, ayda 6–8 milyon manat telefon pulu verirdik, yəqin düşünüblər gör nə qədər qazanır ki, telefona bu qədər pul verir. Halbuki bunların pulunu şirkət ödəyirdi. Bir də xahişə yanıma gələn çox idi. İşə düzəlməyə, övladını xaricdə oxutduran və s. Şirkətdə tutaq ki, 10 nəfər işləməliydi, işləyirdi. İndi mən onu işdən necə çıxarıb, başqasını götürəydim? Yanımdan narazı qayıtdıqda deyirdilər bizi saymır və sair. Yaxud biri gəlib deyirdi, oğlumu Amerikada oxutmaq istəyirəm, 5 min dollar ver. Hardan alıb bu qədər pulu verim? Deyirdim 5 min dolların yoxdur niyə oğlunu oxumağa Amerikaya göndərirsən, qoy burada oxusun. Belə-belə istəməyənlərim əmələ gəlirdi. O qədər qəzetdə işləyən adam, yaxud siyasətçi gəlib ki, qəzetimə kömək elə. Kömək etmədiyimdən, haqqımda həmin qəzetlərdə böhtan yazılırdı. Onu da deyim ki, ölkəmiz müstəqillik qazanandan sonra əldə etdiyimiz nailiyyətlərdən biri də mətbuat azadlığıdır. Bunun sayəsində çoxsaylı qəzet və jurnallar çıxır. Onlarda işləyənlər gənclərdir və əksəriyyəti yaxşı qələm sahibidir. Amma bəzən mətbuat azadlığı adı altında başqalarına qara yaxmaqla, hətta tanınmış ziyalılarımıza böhtan atmaqla məşğul olanlar var. Bizi bir xalq kimi tarixdə yaşadan şəxsləri dan-

mağa çalışırlar. Hətta Koroğlunu qeyri-türk xalqlara aid etmək istəyənlər var. Onlar kimə xidmət edirlər, başa düşmürəm. Amma görürəm ki, burda başqasının dəyirmanına su tökənlər peyda olub. Onlara məsləhətim budur ki, məlumatları olan mövzudan yazsınlar. Onda vicdanlı və yaxşı yazı yazacaqlar.

– Qəzənfər müəllim, ola bilərmi yenidən biznes fəaliyyətinə qayıdasınız?

– Mən taleyə inanıram. Amma biznesə qayıtmağıma inanmıram. Çünki biznes çox tələtümlüdür. Qabarma və çəkilmələrə bənzəyir. Yaşlı adamın bu işlə məşğul olması çətindir, buna ürək dözməz, enerji çatmaz. Bu mənada çəkinirəm. Hətta professor Abel Məhərrəmovun dəfələrlə universitetə işə qayıtmağım barədə arzusunu yerinə yetirməkdən çəkinmişəm. Mənə çox yerdə yüksək vəzifələr də təklif ediblər. Lakin mən Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində «Ədəbi əlaqələr şöbəsi»nin müdiri olmağı üstün tutmuşam. Mən özümü kitab yazanda, elmlə məşğul olanda daha rahat hiss edirəm. Ailəmin bir qismət ruzisi var, bəsdir. Bəzən çox var-dövlət, pul adamı çaşdırır. Çoxlarını görmüşəm, dünyasını dəyişəndən sonra övladları arasında var-dövlət üstündə dava düşüb. Gərək hər şeydə bir ölçü olsun. Mənim həyatdan narazılığım yoxdur, hər şeydən razıyam. Böyük arzum kitablarımı yazıb başa çatdırmaq, Yaradandan verilən ömür payımı vicdanla yaşamaqdır.

M.Şahtaxtinskaya

BU SEVDA BİTƏN DEYİL

İraqın bütün dünyanın gözündən iraq düşdüyü bir vaxtda «İraq bizə iraq deyil» deyən Qəzənfər Paşayevlə görüşmək qərarına gəldik. Onunla söhbətə «Türkman ədəbiyyatı ekspozisiyası»nda başladıq. Qəzənfər müəllim ekspozisiya və türkmanlar haqqında danışdıqca mənə elə gəlirdi ki, o, doğma balası haqqında danışır. Söhbətimiz uzandıqca uzanırdı və sonra anladım ki, doğrudan da, Qəzənfər müəllimin türkman sevdası bitən deyil.*

– *Qəzənfər müəllim, İraqda yaşayan türkmanların problemləri, onların gələcək talelərinin necə olacağı istər Azərbaycan, istərsə də Türkiyə mətbuatında ən çox hallandırılan mövzulardandır. Təbii ki, sadə oxucu üçün İraqda yaşayan türkmanların kimliyi və onların azərbaycanlılarla hansı yaxınlığı olması daha çox maraq doğurur. İraq türkmanları kimdirlər və nə üçün onların problemləri beynəlxalq aləmin diqqət mərkəzindən kənarda qalıb?*

– Öncə onu deyim ki, azərbaycanlılarla eyni dildə danışan, eyni adət-ənənələrə malik olan və müəyyən səbəblər üzündən İraq türkmanları adlandırılan bu türksoylu xalq İraqın Kərkük şəhərində, Tuz Xurmatu qəzasında, Altun Körpü nahiyəsində, Təzə Xurmatuda, Badava, Bəşir, Böyük Basar, Ərbil, Mosulda və ölkənin digər şəhər, qəsəbə və kəndlərində yaşayır. 1963-cü ildə İraqda aparılan siyahıyaalmaya görə, təkcə Kərkük vilayətində türkmanların sayı 430 min nəfərdən artıq olub. Amma təbii ki, statistik rəqəmlər həmişə hakim millətin xeyrinə göstərilir. Türkiyəli tədqiqatçı-professor Cəlal Ərtuq isə «Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni» adlı kitabında İraqda yaşayan türkmanların sayının 2,6 milyon nəfər olduğunu göstərib.

* Bax: «Zaman» qəzeti, 15–17 mart, 2003, s.6.

Qeyd edim ki, İraqda yaşayan türkmanlar özlərini də, bizləri də türkman adlandırırlar. Türkman adı Dədə Qorqudda da çəkilib. Qaraqoyunlular, Ağqoyunlular da türkmanlardır. Tədqiqatçılar qədimdə türkman sözünün ulu türk, xalis türk mənasında işləndiyi qənaətindədirlər. Türklərin İraqa ilk gəlişi ərəb tarixçisi Təbəriyə görə, Hicri tarixinin 5-cü ilinə təsadüf edib. 745-ci ildə artıq Bağdadda böyük bir türk məhəlləsi var idi. Əməvilər, səlcuqlar dövründə türklər İraqın bütün ərazilərinə yayılmışdılar. Türklərin İraqa köçü XVIII əsrin sonu XIX əsrin əvvəllərinə kimi davam edib. Və İraqdakı türkmanların, demək olar ki, hamısı Azərbaycandan köç edənlərdir. Təsadüfi deyil ki, türkmanlarda Azərbaycan həsrəti indi də yaşamaqdadır.

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib gedən,
Demə yollar bağlıdı.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Bu sevda ölüncədi.

Azərbaycan tarixinin ən görkəmli simaları – Nəsirəddin Tusinin, Füzulinin qəbirləri İraqdadır… İraqda türkmanlara aid onlarla qədim mədəniyyət abidəsi var. İraq türkmanlarının beynəlxalq aləmin diqqət mərkəzindən kənarda qalması isə müəyyən səbəblərlə əlaqədardır və mən siyasətçi olmadığım üçün bu barədə danışmaq istəməzdim.

– Siz Azərbaycanda İraq türkmanlarına aid çoxlu sayda kitabların, tədqiqat əsərlərinin müəllifisiniz. Nizami adına Ədəbiyyat Muzeyində «Azərbaycan–İraq (türkman) ədəbiyyatı və mədəniyyəti ekspozisiyası»nı təşkil etmisiniz.

– Mən bu daimi ekspozisiyanı öz təşəbbüsümlə, vətən, millət qarşısında olan mənəvi borcumu vermək üçün düzəltmişəm. Ekspozisiyada türkmanlar, onların milli adət-ənənələri, geyimləri, musiqisi, ədəbiyyatı, mədəniyyəti barədə geniş məlumatlar var. Eksponatlar içərisində Harun ər-Rəşidin sevimli zövcəsi, azərbaycanlı Zibeydə xatunun məqbərəsi, Kərkük və Ərbil qalalarının yağlı boya ilə çəkilmiş rəsmləri, nadir fotoşəkillər, Əta Tərzibaşının, Sabir Zabit Şakirin, Sinan Səidin, Nəsrin Əta Ərbilin portretləri var. Ekspozisiyada çağdaş İraq–türkman ədəbiyyatına, folkloruna və əl işlərinə aid kitablar nümayiş etdirilir. Bu ekspozisiya mənim elmi fəaliyyətimin, ürəyimin danışan səsidir.

– Biz öyrəndik ki, fonda İraqdan gətirdiyiniz minlərlə eksponat bağışlamısınız. Belə çıxır ki, İraqdan dönərkən sizin yükünüz elə eksponatlar olub. Buna görə sizi evdə heç qınamayıblarmı?

– 1961-ci ildə Rəsul Rzanın «Uzaq ellərin yaxın töhfələri» məqaləsini oxuyandan sonra məndə türkmanların folklorunu öyrənmək həvəsi yarandı. Sonralar bu həvəs məhəbbətə çevrildi. Böyük məhəbbət isə xəstəlik kimi bir şeydir. Mənim bu «xəstəliyim» ailəmə də yoluxub. İndi onların «xəstəliyi» mənimkindən də ağırdır.

– Səddamdan əvvəl və Səddam dövründə İraq türkmanlarının yaşayışında hər hansı dəyişiklik olubmu?

– İraq türkmanları ana dillərində 4 illik təhsil almaq imkanına malikdirlər, türkman dilində radio-kanal fəaliyyət göstərir. İraq televiziyasında türkman dilində verilişlər var. Ana dillərində qəzetləri çıxır. Amma azsaylı xalqların faciəsi böyük olur. İbtidai məktəbi ana dilində oxuyanlar təhsillərini öz dillərində davam etdirə bilmirlər. Bunun üçün kadrlara ehtiyac olur. Amma azsaylı xalqların kadrları da az olduğundan bu problemi həll etmək mümkün olmur. Ona görə də İraq türkmanları 1973-cü ildə aldıqları mədəni mux-

tariyyətin üstünlüklərindən lazımınca istifadə edə bilmirlər. Bütün bunlara baxmayaraq, türkmanlar içərisindən onlarla tanınmış ədib, yazıçı, siyasətçi, hərbçi çıxıb. Misal üçün, deyim ki, İraqın Neft naziri türkmandır. Məşhur türkman yazarı, Azərbaycanda hamının tanıdığı, sevdiyi Əbdüllətif Bəndəroğlu yüksək vəzifələrdən birini tutur.

– İraq ətrafında baş verən hadisələrin arxasında nə dayanır?

– Mən siyasətdən uzaq adamam. Amma heç siyasətçi olmayan adama da aydındır ki, baş verən hadisələrin mərkəzində neft dayanır. İraq zəngin neft ehtiyatlarına malikdir. Nə qədər qəribə də olsa, İraqın ən zəngin neft yataqları məhz türkmanlar yaşayan ərazilərdədir. Bu da türkmanlar yaşayan ərazilərin iri dövlətlərin çəkişmə meydanına çevrilməsinə səbəb olub. Bundan da ən çox zərər görən yenə də türkmanlar olublar. 1972-ci ildə İraq neft sənayesini milliləşdirdi və xarici şirkətlər İraqdan çıxarıldı. Neftin milliləşdirilməsi nəticəsində İraqın gəlirləri kosmik sürətlə artmağa başladı. Üç il ərzində İraqın dövlət büdcəsi 2 milyard dollardan 20–22 milyard dollara çatdı. İraq güclü şəkildə inkişaf etməyə başladı. Təbii ki, gələn gəlirlərin müəyyən hissəsi orduya sərf edilməyə başladı. Qısa müddət ərzində İraq öz ordusunun sayına görə dünyanın qabaqcıl ölkələri arasında yer aldı. Təbii ki, bu da sonralar İranla müharibəyə gətirib çıxardı. İran qoşunları 1987-ci ildə Bəsrəyə qədər gəlmişdilər. Lakin ABŞ İraqın köməyinə gəldi və ona hərbi-texniki yardım göstərdi. 8 il davam edən qanlı müharibə əvvəlki sərhədlər daxilində də başa çatdı. Amma bu müharibə hər iki dövlətin zəifləməsinin əsasını qoydu. Küveyt məsələsində atılan səhv addım İraq üçün faciələrin başlanğıcı oldu.

– Siz siyasətçi olmadığınızı deyirsiniz. Ancaq Azərbaycanda İraqı sizin qədər yaxşı tanıyan ikinci bir adam tapmaq çətindir. Ona görə də İraqı yaxından tanıyan bir mütəxəssis kimi ABŞ-ın Körfəz savaşında müharibəni axıradək – Səddamı

devirənədək davam etdirməsinin səbəbi barədə fikrinizi bilmək istərdik.

– Siz məni yenə də siyasətə çəkirsiniz. Mən bu məsələyə politoloq kimi deyil, sizin ifadənizlə desək, İraqı yaxşı tanıyan mütəxəssis kimi fikrimi deyirəm. ABŞ-ın Körfəz müharibəsində İraqla sona kimi haqq-hesab çəkməsinə səbəb yenə də neft oldu. Əgər o vaxt 33 dövlətin qoşunları Bağdada girsəydi, onda gərək ABŞ nefti həmin dövlətlərlə böləydi. Amma ABŞ bunu istəmirdi. Bu gün isə Səddamı təkbaşına devirən ABŞ İraq neftinə təkbaşına sahib olacaq. Mən bir faktı deyim ki, İraqın bu gün başına gələn bəlalara səbəb, əslində, 1972-ci ildə xarici şirkətlərə məxsus olan neft sahəsinin milliləşdirilməsi oldu. Əgər o vaxt Səddam neft şirkətləri sahiblərini razı salsaydı, bəlkə də, bugünkü hadisələr baş verməzdi.

– İraqda gözlənilən müharibə orada yaşayan türkmanlar üçün hansı nəticələrə gətirib çıxara bilər.

– Bilirsiniz, müharibə həmişə dağıntılara səbəb olub. İran-İraq müharibəsi və Körfəz savaşında da ən çox zərər görən türkmanlar oldular. Bu gün də türkmanları eyni təhlükə gözləyir. Türkmanlar yaşayan ərazilər bir zolaq kimi şimaldan cənuba doğru uzanıb. Və türkmanlar həm İraqın şimalından, həm də cənubundan gələn müharibənin mərkəzində qalacaqlar. Qeyd etdiyim kimi, türkmanlar yaşayan ərazilər strateji yöndən xüsusi əhəmiyyətə malikdir. Ancaq bu müharibədən sonra onların taleyinin necə olacağını və problemlərin hansı vasitələrlə aradan qaldırılacağını söyləmək çətindir.

Əziz Mustafa

İRAQDAKI 2,5 MİLYON AZƏRİ TÜRKÜ

Amerika bombaları onlardan da yan ötüşməyəcək.

Və Amerikanın İraqı bombalamaq planı reallaşmaq üzrəykən, bu diyarda qədim zamanlardan məskunlaşan kökü bir, dili bir soydaşlarımızın da taleyi təhlükə altına alınır.*

Bəzilərinin İraq–türkman, bəzilərininsə sadəcə türkman adlandırdıqları bu xalqla bizi hansı tarixi tellər bağlayır? Bu və digər sualları daha dürüst və ətraflı işıqlandırmaq üçün yaradıcılıq ömrünün 35 ildən çoxunu İraq–türkman mədəniyyəti, ədəbiyyatı və folklorunun tədqiqinə həsr edən filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevə müraciət etdik!

– Hazırda İraqda nə qədər türkman yaşayır?

– İraq türkmanları əsasən Kərkük vilayətində, Ərbil və Mosul şəhərlərində, Mosul vilayətinin Tiəfər qəzasında, eləcə də Bağdadda yaşayırlar. Rəsmi statistik məlumatlarda təkcə Kərkük vilayətində 430 mindən çox türkmanın yaşadığı bildirilirdi. Məşhur tədqiqatçı alim Ziyad Körpülünün verdiyi məlumata əsasən, XX əsrin sonlarına doğru İraq türkmanlarının sayı 2 milyona yaxın idi. Professor Cəlal Ərtuq göstərir ki, hazırda İraqda 2,6 milyon türkman-azəri yaşayır.

– İraq–türkman–Azərbaycan xalq musiqisi. Bunlar birbirindən nə ilə fərqlənir?

– İraq–türkman xalq musiqisi ilə Azərbaycan xalq musiqisi arasında sıx yaxınlıq, kök bərabərliyi mövcuddur. Hər iki xalqın folklorunda doğmalıq, əkizlik var. Ortada artıq neçə yüzillik ayrılığın olmasına baxmayaraq, sevindirici haldır ki, xalq şüurda, düşüncədə, mənəviyyatda parçalanmayıb.

Hər iki xalqın doğmalığı toponimlərdə də özünü büruzə verir. Azərbaycan ərazisində Ağdaş, Ağdam, Ağsu, Qarabulaq, Qarabağ, Əmirli və s. yer adlarına Kərkük ellərində də

* Bax: «Həftə içi» qəzeti, 19.03.2003, s.7.

rast gəlinir. Kərküklülərin xoyrat (bayatı) və dastanlarında tez-tez Qarabağ, Gəncə, Şirvan və s. toponimlərinin adı çəkilir. İraqlı alimlərin qənaətinə görə, türkmanların məşhur Qarabağlı havası məhz Azərbaycanın Qarabağ elindən gətirilib.

– Müasir dövrdə qanı bir, canı bir soydaşlarımıza İraqda necə münasibət bəsləyirlər?

– İraq dövlətinin türkmanlara olan münasibətini normal hesab etmək olar. Türkmanlar muxtariyyət hüququna yiyələndikdən sonra onlar öz ana dilində təhsil almaq hüququna da malik oldular. Lakin tezliklə bu istiqamətdəki işlər iflasa uğradı, iraqda ərəb dili dövlət dili olduğuna görə, təbii ki, bütün iş yerləri də yalnız bu dili mükəmməl bilənlərin üzünə açıqdır. Məhz bu səbəbə görə də türkman dilində təhsil məsələsi baş tutmadı.

– İraq səmasının müharibə alovları təhlükəsi ilə üzləşdiyi bir zamanda münaqişəyə münasibət bildirməyinizi istərdik.

– Əslində, İraq münaqişəsinin əsası neft zəminində köklənən amansız bir mübarizədir. Kərkükdə çox böyük neft yataqları mövcuddur. Əvvəllər bu neft ehtiyatları Neftçizadələr nəslinin mülkiyyətində idi. Sonralar isə İngiltərənin Britiş Petrolium Şirkəti həmin əraziləri satın aldı. 1973-cü ildə neft milliləşdiriləndə isə təbii ki, bütün İraq neftini hasil edən Britiş Petrolium Şirkəti də iflasa uğrayaraq ölkəni tərk etdi. Mən hələ o vaxt hiss etdim ki, tezliklə İraqın başının üstünü qara buludlar alacaq. Nəticəsi isə indi göz qabağındadır. Amma hazırki müharibə təhlükəsini 1991-ci il Körfəz müharibəsi ilə eyniləşdirmək heç də düzgün deyil. Çünki Körfəz münaqişəsi zamanı İraq özünü təcavüzkar dövlət kimi göstərərək, Küveytin ərazi bütövlüyünü pozaraq onu işğal etmişdi. O zaman ABŞ və onun müttəfiqlərinin təcavüzkarı yerində oturtmaq tədbirlərinə haqq qazandırmaq olardı. Lakin üstündən 12 il sonra ağır güzəran və mühasirə şəraitində yaşayan bir ölkəni bombalamaq ədalətsizlikdir.

Dünya sivilizasiyasının yarandığı iki ölkədən biri olan (digəri Misir) İraq qədim tarixi abidələrlə zəngin ölkədir. Bəşəriyyət üçün əvəzsiz incilər sayılan bu abidələri məhv etmək isə bəşəriyyətin qədim mədəniyyətini yox etmək deməkdir. Bəs hərbçilərlə heç bir əlaqəsi olmayan dinc əhalinin taleyi necə olacaq?!

Bunlar adi məsələ deyil. Deyirlər göz yaşının nə olduğunu əvvəllər ağlamış adam bilər. Biz minlərlə fəlakəti gözlərimizlə görmüş, Xocalı, Qarabağ faciələrini yaşamışıq. Bütün bunlara görə də mən qəti surətdə müharibənin əleyhinəyəm. İraqda közərən bu münaqişə alovu sülh yolu ilə həll olunsa, ölkə başçılarının müdrikliyinə əhsən deyərəm.

Sadıq Zamanoğlu

BİR BÜTÖVÜN PARÇALARI

Bu gün ABŞ və İraq arasında gedən müharibə daha kəskin mərhələyə daxil olub. Müharibə görmüş, torpaqları parçalanmış xalqımız üçün müharibənin acı nəticələri aydındır. İraqdakı müharibə bizim üçün həm də ona görə taleyüklü görünür ki, burada 2,5 milyon civarında soydaşımız – türkmanlar yaşayır. Müharibə onlara necə təsir edəcək? Söhbətimizi İraqdakı azəri ədəbiyyatı və mədəniyyətinin araşdırıcısı, professor Qəzənfər Paşayevlə aparırıq.*

İraqdakı türkmanlar bizim söy-kökümüzdəndir

Nəcəf, Kərbəla, Samara, Bağdad, Kərkük, Ərbil, Mosul, Sülemaniyyə dolaylarına səpələnmiş azərbaycanlılar öz dindaşları olan ərəblərlə qaynayıb-qarışsalar da, qədim mədəni irsi, o cümlədən dillərini, adət-ənənələrini qoruyur, doğma yurd yerləri ilə əlaqələrini kəsmirdilər. O zaman Azərbaycanla Bağdad arasında mövcud olan qədim İpək yolu bu əlaqənin davamlılığına rəvac verirdi. Professor Cəlal Əltuğun verdiyi məlumata görə, İraqda bu gün iki milyon yarım türkman-azəri yaşamaqdadır. Azərbaycan ərazisində Ağdaş, Ağdam, Bilava, Boyat, Qarabulaq, Qaraqoyunlu, Qarabağlı, Əmirli, Yayçı, Yengicə, Mərdinli, Üçtəpə, Xasa, Çardaxlı və s. rayon, şəhər, kənd adlarına eynilə Kərkük dolaylarında da təsadüf edilir. Kərküklülərin folklorunda tez-tez Qarabağ, Gəncə, Şirvan kimi yer adlarından söhbət gedir.

İraqda yaşayan soydaşlarımız özlərini də, bizi də «türkman» adlandırırlar. Onların müəyyən mənada buna haqqı da var. Soykökümüzü «Kitabi-Dədə Qorqud»dan götürürüksə, dastanda türkman sözündən bəhs olunur. Bizim tanınmış türkoloqlarımızdan olan professor Fərhad Zeynalov

* Bax: «Paritet» qəzeti, 25-26 mart, 2003, s.7.

və professor Samət Əlizadə göstərirlər ki, Dədə Qorqudda türkman sözü açıq-aşkar əlifnən yazılır. Nəsimi deyir: «Ərəbin nitqi bağlandı dilindən, səni kimdir deyən ki, türkmansan». Şah İsmayıl Xətai isə deyir: «Tükənir ərəbin kühi-məskəni, onda ki Bağdad içrə türkman qonar». 11 əsrdən bu yana türkman sözü işlənir. Bu söz Səlcuq imperiyasının türk əhalisinə verilən addır. Bu sözün «oğuz» etnonimin sinonimi olması da ehtimal edilir.

Mədəni hüquqlar

1970-ci ildə türkmanlara mədəni haqlar verildi. Verilən haqlar 7 bənddən ibarət idi. Bu bəndləri aşağıdakı kimi qruplaşdıra bilərik. İbtidai sinifdə öz dillərində oxumaq, kitablar və dərs vəsaitləri çap etdirmək (dövlət hesabına), Mədəniyyət Nazirliyi nəzdində İraq-türkman mədəniyyəti departamenti (o departamentə Bəndəroğlu rəhbərlik edir) və Türkman Yazıçılar Birliyi yaratmağa icazə verildi. Nizami Muzeyində İraq-türkman ekspozisiyası yaratmışıq və həmin fondda İraqda çap edilən kitablar var. İlk gündən İraq türkmanlarının 1951-ci ildən ilk kitabından, axırıncı kitabına qədər bizim ekspozisiyada var (500-ə qədər kitab çap edilib). Onlara verilən haqlardan istifadə nəticəsində 1970-ci ilin 16 iyunundan həftəlik «Yurd» qəzeti çıxır və bu günə qədər ardıcıl olaraq işıq üzü görür. Bu qəzetin də redaktoru Bəndəroğludur. Qəzet Azərbaycan-İraq mədəni əlaqələri yönündə misilsiz xidmət göstərir. Aylıq jurnalları da çıxmağa başlayırdı.

Kiçik xalqın faciəsi böyükdür. Onlar 4 il ibtidai məktəbdə oxuyandan sonra ayıldılar ki, bəs, sonra hara gedəcəklər? Hansı universitetdə, hansı dildə oxuyacaqlar. Dövlət dili ərəb dilidir. Bax bu çətinliyə görə onlar bu işdən imtina etdilər. Ölkədə indi çətinlikdir, ərəblərə də, türkmanlara da.

Çünki onlar 12 ildir ki, blokada şəraitində yaşayırlar. Buna görə çətindir, ölkədən qaçanlar, çıxanlar çoxdur.

İraqda nə qədər soydaşımız var?

1963-cü il rəsmi hesablamalarına görə, təkcə Kərkük vilayətində 430 min 666 nəfər türkman yaşayırmış. Lakin təbii ki, say artımı sürətləndi. 1996-cı ildə türkiyəli professor Cəlal Ərtuqun «Türkiyədə və dünyada İhsan Doğramacı fenomeni» adlı kitabı çıxıb. O kitabın 8-ci səhifəsində yazılır: «İndi Ərbil və Kərkük vilayətlərində 2 milyon yarım azəri-türkman yaşayır».

Azərilərin–İraqa axınının tarixi

XIV və XV əsrə qədər, yəni dövlət sərhədləri yaranana qədər qəbilələr istədikləri vaxt malları və dövlətləri ilə yığışıb gedirdilər başqa ölkələrə. Azərilərin İraqa axınını tarixçilər yeddi mərhələyə bölürlər. XII əsrdə yaşamış İbn əl-Əsir göstərir ki, türklərin ilk axını Təbriz yaxınlığındakı Sultaniyyədən olub və bunlar Bağdad çevrəsində yerləşiblər. Bu, hicri 32–38 və 54-cü illərdə olub. İraqlı tarixçi Şakir Sabir «İraqda türkmanların tarixi» əsərində göstərir ki, hicri 54-cü ildə artıq Bağdadda və çevrəsində türkman məhəlləri yaranmışdı. Digər ərəb tədqiqatçısı Mustafa Cavad isə İraqa Azərbaycanın müxtəlif bölgələrindən axınını yeddi mərhələyə bölür. Birinci axını o da başqa tarixçilərin göstərdikləri kimi göstərir. İkinci axını Əməvilərin dövrünə aid edir. Əməvilər dövrü 661-ci ildən 750-ci illərə qədər olub. 750-ci ildən sonra isə artıq Abbasilər dövrüdür. (750–1258-ci ilə qədər). Ancaq bu arada Abbasilər dövründə İraqa axınlar davam edib. Bunlardan biri də Qıpçaqlar dövrüdür. Mustafa Cavad deyir ki, Bayatlar İraqda Qıpçaqlar dövründə yerləşiblər. İndi Kərkük vilayətində Bayat əşirəti adlanan

64 kənd var. Füzulinin də burada anadan olmağını heç kim inkar etmir. O kəndlərin biri də Nəsim kəndidir. H.Araslı və başqa alimlərimiz göstərirlər ki, Nəsimi ya o Nəsim kəndində, ya Bakıda, ya Təbrizdə, ya Şamaxıda anadan olub. Eldənizlər dövründə artıq burada xanlıqlar yaranmışdı. Mosulda Atabəylər, Kərkükdə Qıpçaqlar, Ərbildə Zeynalabdinlər xanlığı, Suriyada Qara Türkman xanlığı. Qara Türkman xanlığı Şam şəhəri ilə Hələb şəhərləri arasında yerləşirdi.

Nəsimi irsinin tədqiqi

Nəsimiyə Hələb şəhərində məqbərə qoyulub. Adına küçə var. Nəsiminin nəticəsi Bakıda AZİ-də təhsil aldı. Babasının yubileyində öz keçmişləri və Azərbaycanla əlaqələri barədə geniş söhbət açdı. Ona göstərilən qayğıya görə öz minnətdarlığını bildirirdi.

Şimalda kürdlər silahlanıb. Demək olar ki, onlar bu saat ayrıca dövlət kimidir. Mosuldan yuxarı ərəb yoxdur. O ərazidə indi müharibə gedir. Mən bilmirəm, İraqda yaşayan azərbaycanlıların taleyi necə olacaq? Türkləri bu saat narahat edən problem budur.

İraqda Azərbaycan tarixi abidələri

Harada türk varsa orada qala var. Bu əsasa dayanaraq İraqa vətən deyən türkmanlar (azərbaycanlılar) hər şəhər, hər qəsəbədə bir qala inşa etmişlər.

Kifri yaxınlığında Şirvan qalası var. «Şirvan» qalası azərbaycanlıların tarixi abidəsi kimi 1961-ci ildə Bağdadda çap olunan İraq Respublikasının xəritəsində öz əksini tapıb. Məhəmməd Füzulinin məqbərəsi XX əsrin 80-ci illərində Kərbəlanın abadlaşması ilə əlaqədar sökülmüş, Kərbəla şəhər bələdiyyə idarəsinin qərarı ilə onun nəşi İmam Hüseyn məscidinə köçürülmüşdür. Xəlifə Harun ər-Rəşidin zövcəsi

azərbaycanlı Zibeydə Xatunun məqbərəsi və İmam Musa Kazımın məscidində (Bağdad) dahi alimimiz Nəsirəddin Tusi uyuyur. Sonra Ərbil qalası, qədim Kərkük qalası, Füzulinin qədim məqbərəsi və s. göstərmək olar.

İraqda yaşayan görkəmli şəxsiyyətlər

Türkman elatının görkəmli elm və sənət adamlarından Əta Tərzibaşını, Şakir Sabir Zabiti, Əbdülvahid Küzəçioğlunu, Əbdüllətif Bəndəroğlunu, Sinan Səidi, professor Sübhi Saatçını, prof. Mahir Naqibi, prof. Xıdır Lütfini, prof. Fazil Bayatlını, Nəsrin Əta Ərbili və s. göstərmək olar.

Əta Tərzibaşı – ədəbiyyatşünas, folklorçu, tənqidçi, publisist, Türk Dil Qurumunun fəxri üzvü, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Şakir Sabir Zabit türkmanca çıxan həftəlik «İraq» qəzetinin yaradıcılarından biri və ilk redaktoru olmuşdur. Bir neçə kitabın, araşdırmaların müəllifi olmuşdur. Əbdülvahid Küzəçioğlu tanınmış müğənni, türkman mahallarını aləmə tanıdan bir sənət elçisi adına layiq görülmüşdür.

Əbdüllətif Bəndəroğlu şair, tərcüməçi, ədəbiyyatşünas, folklorçu, Azərbaycan Yazıçılar Birliyinin üzvü, BDU-nun fəxri doktoru.

Sinan Səid alim-pedaqoq jurnalist, publisist, 1960-cı illərdə Bakı Radio və Televiziya Komitəsinin ərəbcə verilişləri şöbəsində çalışmışdır. ABU-nun jurnalistika fakültəsini bitirmişdir.

Nəsrin Əta Ərbil Azərbaycan Yazıçılar Birliyinin üzvü, türkman ədəbiyyatında yeni bir dönəmin müjdəçisidir.

Adı çəkilən elm adamları İraq türkmanlarına əvəzsiz xidmət göstərirlər.

Onların Türkman cəbhəsi var, xaricdə yerləşir. Ankarada, İngiltərədə, Danimarkada və s. ölkələrdə fəaliyyət göstərir.

Cəbhədə ərəblərə qarşı vuruşub, azad bir dövlət yaratmaq məsələsi mümkün deyil. Burada haqlarını tələb edə

bilərlər və yaxud muxtariyyət istəyə bilərlər. Bu gün onlar öz haqlarını tələb edib, özlərini idarə etmək hüququnu qazana bilərlər. Onlara təzyiqlər olmasın. Ölkədə assimilyasiya aparmaq meyilləri var. Kəndlərdə evlər daşdan, betondan tikilmir. Əsasən palçıqdan və yaxud da torpağa saman qatılaraq kərpicdən tikilir. Ekoloji cəhətdən sağlamdır. Qışda ev isti olur, yayda sərin. Ancaq müharibə gedən ölkədə onu dağıtmaq asan olur. Yəni həmin kəndin heç xarabalığı da qalmaz. Mən 1962, 1966, 1970 və 1975-ci illərdə İraqda işləyəndə türkman kəndləri var idi. Mən o kəndlərə gedib dialekt materialları toplayırdım. İndi o kəndlər yoxdur.

Azərbaycan–İraq Dostluq Cəmiyyətinin fəaliyyəti

Mən Azərbaycan-İraq Dostluq Cəmiyyətinin sədr müaviniyəm. Sədr professor Vasim Məmmədəliyevdir. Füzulinin 500 illik yubileyini dövlət səviyyəsində İraqda qeyd etdik. İraqa Azərbaycandan 128 nəfərdən ibarət nümayəndə heyəti getmişdi. Sonra kitablar çap olunur. Azərbaycanın neçə-neçə kitablarını Bəndəroğlu İraqda çap edir. «Azərbaycan şeiri», Elçinin hekayələri, Kamil Nərimanoğlunun «Elin yaddaşı, dilin yaddaşı», B.Vahabzadənin, N.Xəzrinin, sonra mənim monoqrafiyamı və «Altı il Dəclə-Fərat sahillərində» kitabım ərəbcə soydaşlarımıza çatdırılıb. O vaxt mənim kitabıma böyük məbləğdə mükafat olaraq pul verdilər. Mən isə ora getmədim. Onu türkmanlara bəxşiş etdim. Biz Nəsirəddin Tusinin qəbrini orada üzə çıxardıq. Kazımiyyə məscidi var, orada basdırılıb. Niyə indiyə qədər onu pisləyirdilər ərəblər? 1258-ci ildə Hülaki xan Bağdadı tutanda Nəsirəddin Tusi onun vəziri olub. Hülaki xan Bağdadi tutanda xəlifəni öldürdü və bununla da Abbasilər xilafətinə və ümumiyyətlə, xilafətə son qoyuldu. Bu, ərəblərə çox ağır gəlir. Bundan sonra imkan vermirdilər ki, Nəsirəddin Tusinin qəbri tapılsın.

İraqda azəri dili

Bəndəroğlu Bakıya gələndə yığıncaqlarda, ziyafətlərdə hamı rusca danışardı. Həmin ziyafətin birində möhtərəm Prezidentimiz Heydər Əliyev ona yaxınlaşıb, dedi ki, sağ ol, Bəndəroğlu sən öz dilimizdə, Nəsiminin dilində danışdın. Bəndəroğlunun qanadları çatmırdı uça. Ona görə ki, onun kimliyinə, dilinə ilk dəfə qiymət verilirdi. Ondan sonra bizim əlaqələrimiz möhkəmləndi. O vaxt mənə dedi ki, Qəzənfər, əgər mənim oğlum olsa, adını Heydər qoyacağam. Mən onda İraqda idim. Doğrudan da, 1982-ci ildə oğlu oldu, adını Heydər qoydu. Həmin oğlan orta məktəbi qurtardı. O, bir arzusunu da bildirdi ki, mən istəyirəm ki, o məndən sonra bu əlaqəni möhkəmlətsin və o Bakıda oxusun. Dövlətimiz ona BDU-nun filologiya fakültəsinə dövlət hesabına oxumaq imkanı yaratdı. Hətta ona təqaüd də ayırdılar. Bax, bu Bəndəroğlunun xidmətinə, xalqımızın birliyinə verilən böyük qiymətdir. 2000-ci ildə İhsan Doğramacı gələndə Prezidentimiz «Qardaşlıq» jurnalına müsahibə vermişdi. O müsahibəsində Prezident tarixi bir söz dedi: «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır».

FÜZULİNİN QƏBRİ KÖÇÜRÜLMƏYƏCƏK*

«Ə.Bəndəroğlu azərbaycanca məruzə edən yeganə adam oldu».

Q.Paşayev

Son zamanlar Respublika mətbuatında şayiə xarakterli yazılar geniş yer almağa başlayıb. Və təəssüf ki, əsası olmayan bu informasiyalar cəmiyyətimizdə daha geniş əks-sədaya səbəb olur. Ucuz sensasiya dalınca qaçan bəzi kütləvi informasiya vasitələri isə bu yolla özlərinə şöhrət qazanmaq niyyətindədirlər.

Yaxın günlərdə belə əsassız şayiələrdən biri də dahi şairimiz M.Füzulinin qəbrinin, guya, Türkmənistana köçürülməsi və erməni, kürd təşkilatlarının təhriki ilə məşhur İraq-türkman ziyalısı Ə.Bəndəroğlunun adının ABŞ tərəfindən qara siyahıya salınaraq həbs edilmə xəbərləri oldu.

Məsələyə aydınlıq gətirmək üçün İraq–türkman mədəniyyəti ilə son dərəcə bağlı olan görkəmli alimimiz, professor Qəzənfər Paşayevlə görüşdük. Professor Ə.Bəndəroğlu ilə bağlı qəzet səhifələrində yer alan səhv informasiyalardan narahat olduğunu bildirdi: «Düzü, bu yazıları oxuyanda adam lap çaş-baş qalır. Görəsən, qəzet işçilərinin bu cür əsası olmayan yazılar dərc etdirməyinə səbəb nədir? Şəxsən mən Ə.Bəndəroğlu ilə, demək olar ki, hər gün telefon əlaqəsi saxlayıram. Və məndə olan məlumata görə, o, hər gün səhər saat 9-da iş yerinə – Türkiyə-Anadolu Agentliyinə gedir və axşam 5 radələrində evinə qayıdır. Əvvəllər sözügedən agentlik İraqın İnformasiya Nazirliyinin binasında yerləşirdi. Müharibə zamanı nazirliyin binası dağıldıqdan sonra, digər agentliklər

* Bax: «Həftə içi» qəzeti, 6.05.2003, s.1və 7.

kimi, Türkiyə–Anadolu Agentliyi də «Fələstin» mehmanxanasına köçürüldü. Və bayaq qeyd etdiyim kimi, hazırda Ə.Bəndəroğlu hər gün «Fələstin» mehmanxanasındakı iş yerinə gedir. Elə sizin gəlişiniz ərəfəsində mənə zəng edən onun oğlu Heydər idi. O, mənə İraqa getmək istədiyini bildirdi. Mənsə atasının təqribən bir ay sonra İraqa dönməyi tapşırdığını dedim. O vaxta qədər İraqdakı vəziyyət də normallaşar».

Sonra Q.Paşayev 70-ci illərdə Ə.Bəndəroğlu ilə Heydər Əliyevin görüşünü xatırlatdı: «Həmin dövrdə konfrans keçirilirdi. Və bu tədbirə dəvət alan Ə.Bəndəroğlu Azərbaycan dilində məruzə edən yeganə adam oldu. Tədbirlərdən sonra Heydər Əliyev Ə.Bəndəroğlu ilə görüşəndə onun bu hərəkətini xüsusi qeyd etdi. Bu hadisə Ə.Bəndəroğlunun həyatında dönüş yaratdı. Və o bildirdi ki, bundan sonrakı həyatını bütünlüklə Azərbaycana sərf edəcək. Sonra elə belə də dedi: «Mənim oğlum olsa, adını Heydər qoyacağam». 1982-ci ildə onun oğlu oldu. Və bayaq mənə zəng eləyən də həmin oğlan idi. Qeyd edim ki, o, Bakıya təhsil almaq üçün təşrif buyurub. Təqribən bir aydan sonra İraqa yola salacağam».

Professor son günlər İraqda gedən proseslərə münasibət bildirərək qeyd etdi ki, hazırda bu ölkədəki soydaşlarımız – türkmanların vəziyyəti, dolanışığı normallaşıb. Və kürdlər onlara qarşı heç bir zorakılıq tədbirləri həyata keçirmir. ABŞ isə yaxınlarda kürdlərin Kərkükdə törətdikləri özbaşınalığa görə Türkiyədən üzr istəyib.

Müsahibimiz Kərbəlada uyuyan dahi Füzulinin qəbrinin köçürülməsi məsələsinə aydınlıq gətirərkən bunları dedi:

«Füzuli hələ sağlığında Kərbəladakı məşhur İmam Hüseyn məscidinin baş çıraqyandıranı idi. Və şair bu müqəddəs yerdə belə bir şərəfli vəzifə tutduğuna görə ömrü boyu fəxr edib. Şair özü haqqında yazdığı məlumatda yazır ki, o, İraqda doğulub, boya-başa çatıb və ömrü boyu İraqdan başqa bir yerə getməyib. Füzuli həyatını dəyişəndə də öz

arzusuna uyğun olaraq onu bu müqəddəs yerdə torpağa tapşırıblar. Onun məqbərəsi İmam Hüseyn məscidinin qiblə qapısının 20 metrliyində idi. Sovet dövründə ilk dəfə, 1959-cu ildə R.Rza, B.Vahabzadə və Q.Qasımzadə bu məqbərəni ziyarət etmişdilər».

Q.Paşayev 70-ci illərin sonlarında Füzulinin qəbrinin yerinin dəyişdirilməsi ilə də bağlı məlumat verdi: «S.Hüseynin hakimiyyəti dövründə – yəni 70-ci illərin sonu 80-ci illərin əvvəllərində İmam Hüseyn məscidinin yenidən bərpası ilə əlaqədar olaraq Kərbəlada geniş həcmli işlər görülməyə başlandı. O vaxtlar İmam Hüseyn məscidinin ətrafı çox basırıq idi. Və həmin bərpa prosesində də Füzulinin qəbri məscidin içinə köçürüldü. İndi dahi şairimizin qəbri İmam Hüseyn məscidinin qiblə qapısından içəri girəndə sağ tərəfdədir. Qəbirdən sonra isə qədim əlyazma və kitablardan ibarət kitabxana başlayır».

Qəzənfər müəllim Füzulinin qəbrinin müqəddəs bir yerdə olmasını xalqımız üçün fəxr hesab olunduğunu bildirdi:

«Bir zamanlar insanlar arzu edərdilər ki, müqəddəs ziyarətgahlarımıza gedib, orda da həyatdan köçüb torpağa tapşırılsınlar. İndi biz fəxr etməliyik ki, Füzuli belə bir müqəddəs yerdə əbədi yatır və onu hər gün saysız-hesabsız insan ziyarət edir. Hər bir müsəlman üçün bundan da böyük fəxr olmaz. Bir vaxtlar onun qəbri köçürüləndə Türkiyə qəzetləri «Füzulinin qəbri yol oldu» başlığı altında yazılarla aləmə car çəkdi. Elə o zaman mən Qasım Qasımzadə ilə «İncəsənət» qəzetində «Füzulinin qəbri barəsində həqiqətlər və şayiələr» adlı yazı dərc etdirərək məsələyə aydınlıq gətirdik. Qaldı ki, Füzulinin qəbrinin Türkmənistana köçürülmə məsələsi, bütün bunlar tamamilə boş və əsası olmayan şayiədir. Və əgər, həqiqətən də, Türkmənistan hökumətinin belə bir istəyi olubsa, qətiyyətlə bildirirəm ki, bu heç vaxt reallaşa bilməyəcək bir təşəbbüs olardı.

Qeyd edək ki, Q.Paşayev böyük Azərbaycan alimi N.Tusinin Bağdadda qəbrini tapan ilk alimlərimizdəndir: «Ensiklopediyamızda belə bir məlumat var ki, N.Tusi Bağdadda vəfat edib və Cəlil məscidində dəfn olunub. Lakin mən 6 il orada çalışdığım dövrdə, ümumiyyətlə, İraqda belə bir məscidin olmadığının şahidi oldum. 2001-ci ildə isə Bağdadda olarkən İsgəndər Etibar mənə zəng edib qəbrin ehtimal olunan yeri haqqında məlumat verdi. Və tezliklə mən, B.Nəbiyev və Ağalar Mirzə İmam-Kazimiyyə məscidinə yollandıq. Düzü, əvvəlcə bizi qəbri ziyarət etməyə qoymadılar. Sonradan çox böyük miqdarda pul verib arzumuzu reallaşdırdıq. Və mən, B.Nəbiyev İraqın böyük şeyxi ilə bərabər qəbrin üstündə xatirə şəkli çəkdirdik».

Sadıq Zamanoğlu

«TÜRKMƏNBAŞI FÜZULİNİN NƏŞİNİ KİMDƏN İSTƏYƏCƏK?»*

Professor Qəzənfər Paşayevin sözlərinə görə, İraqda mədəni tarixi abidələrin dağıdılması xəbəri əsassızdır.

Ədəbi mühit narahat günlərini yaşayır. Füzulinin qəbri, Əbdüllətif Bəndəroğlunun taleyi və ən nəhayət, İraq türkmanlarına məxsus mədəni-tarixi abidələrin dağıntıya məruz qalması barədə gəzən söz-söhbətlərin ardı-arası kəsilmir. Bu xəbərlərə aydınlıq gətirmək üçün İraq türkmanları barədə ictimaiyyətə ilk dəfə ətraflı məlumat verən filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevə üz tutduq. Müsahibimlə söhbətə İraq türkmanlarının kimliyindən və ədəbi-mədəni irsinə dair bilgilərdən başladıq.

– İraq türkmanlarının mədəniyyəti, məişəti, adət-ənənəsi, dünyagörüşü bizdən qətiyyən fərqlənmir. Ümumiyyətlə, türkdilli xalqların mədəniyyətində, məişətində ortaq cəhətlər çoxdur. Ancaq iraq türkmanları ilə bizi ortaqlıqdan daha çox, eyniyyət bağlayır.

– Qəzənfər müəllim, İraq dövlətində toplum halında yaşayan, bəzən İraq azərbaycanlıları, bəzənsə İraq türkmanları adı ilə tanıdıqlarımız kimlərdir? Onların tarixi barədə nə demək olar?

– Bu suala cavab verməzdən əvvəl kərküklü Səid İrmaqın bir sözünü yada salmaq istəyirəm. Səid İrmaq 1962-ci ildə Bağdadda işıq üzü görən «Qardaşlıq» dərgisindəki məqaləsində yazır ki, «Vətən torpağı kiçilib, genişlənə bilər. Sərhədləri tükənə bilər. Şan və şərəfi tapdana bilər. Dini dəyişdirilə bilər. Qalan tək bir varlıq var. O, ana dilidir». Həqiqətən də, tarixin keşməkeşlərindən keçən xalq qoruduğu tək bir varlı-

* Bax: «Bizim əsr» qəzeti, 8.05.2003, s. 6.

ğının – ana dilinin sayəsində folkloruna, adət-ənənəsinə, məişətinə sadiq qalır. İraq türkmanları belə bir sınaqdan keçiblər.

Tarixə nəzər salanda görürük ki, uzun əsrlər boyu bir olmuşuq. Öncə mübahisəli məqamları olmayan yaxın tarixə baxaq. Bildiyimiz kimi, 1868-ci ilə qədər İraq dövləti mövcud olmayıb. Bu ərazi əsrlər boyu Bağdad vilayəti statusunu daşıyıb. Məsələn, 1514-cü ildə Şah İsmayıl Xətai Çaldıran düzündə məğlubiyyətə uğradıqdan sonra Osmanlı türkləri ilə saziş bağlayır. Bu sazişə əsasən, Bağdad vilayəti Osmanlı imperiyasının tərkibinə keçir. Nadir şahın vaxtında Bağdad vilayəti yenidən geri alınıb. Sonralar isə Osmanlı imperiyasının ərazisində yaradılan bir sıra ərəb dövlətləri kimi, İraq meydana gəlib. Ümumiyyətlə, azərbaycanlıların bu vilayətə köçmələri barədə məlumata qədim tarixi mənbələrdə də rast gəlinir. Bir-bir tarixçilərin adını çəkmək istəmirəm. Nəzərinizə çatdırım ki, tarixçilər bu axını 7 mərhələyə bölüblər. Hesab edirlər ki, türkmanlar ilk dəfə bu ellərə hicrinin 54-cü ilində gəliblər. Böyük ərəb tarixçisi Təbəri öz əsərində bu faktı dönə-dönə qeyd edir.

– *Türkmanların sayı nə qədərdir?*

– 2 milyona yaxındır. Yeri gəlmişkən, onu da deyim ki, bəzilərini türkman sözü çaşdırır. Halbuki biz tarixən türkman adlandırılmışıq. Türkman güclü, möhtəşəm, böyük, qüdrətli deməkdir. Qocaman, azman, şişman kimi sözlərimiz də bu qəbildəndir. Heç uzağa getməyək, klassik ədəbiyyata nəzər salaq. Şah İsmayıl Xətai yazır: «Onda ki, Bağdad içrə türkman qonar». Və yaxud Nəsimi deyir: «Sənə kimdir deyən türkmansan?»

– *Əsrlər boyu ayrı mühitdə yaşamaq İraq türkmanlarının ədəbi-mədəni irsinə təsirini göstərib?*

– İlk baxışda fərqli heç nə görmürəm. Sadəcə, onlar uzun illər yad xalqların əhatəsində yaşayıb. Bu, bir tərəfdən yaxşı

deyil, tərəqqini ləngidir. Digər tərəfdənsə, xoşbəxtlikdir. Çünki dil, folklor daha mühafizəkarcasına qorunur. Təsəvvür edin ki, «Kitabi-Dədə Qorqud»da işlənən sözlərin əksəriyyətinə İraq türkmanlarının dilində rast gəlinir. Cəfər Cabbarlının «Ana ürəyi», Seyid Əzim Şirvaninin «Köpəyə ehsan» əsərlərinin motivi də onlardan götürülüb. Mən yenə deyirəm, biz ayrı xalqlar deyilik. Sadəcə, tarixi yaddaşın unutqanlığı və ayrı-ayrı sərhədlərdə qalmağımız ucbatından yadlaşmışıq. Bu bilirsiniz nəyə bənzəyir? «Altı il Dəclə-Fərat sahillərində» adlı kitabımda bu haqda yazmışam. Vaxt gələcək uşaqlarımız «necə olub ki, İranda yaşayan Şəhriyar «Heydər babaya salam»ını Azərbaycan dilində yazıb» deyə soruşacaqlar. Bilirsiniz, tarixi unatqanlıq var. İndi Dərbənddən yad bir el kimi danışılır. Ancaq heç kim fərqinə varmır ki, Azərbaycanın ən qüdrətli xanlıqlarından biri sayılan Dərbənd xanlığı olub.

Necə ki, Mosulda, Kərkükdə Atabəy xanlıqları olub. Və yaxud Nəsimi harda yaşayıb? Hələblə Şamın arasında Qara türkman xanlığında. İndi dilimizdə işlətdiyimiz Qaradüz, Qarayazı sözlərinin kökü ora gedib çıxır. Eləcə də Füzuli. Bayat elində doğulub və bütün ömrü boyu oradan kənara çıxmayıb.

– Yeri gəlmişkən, uzun illər apardığınız tədqiqatlar zamanı adını çəkdiyiniz görkəmli şairlərin həyat və yaradıcılığına dair hansı yeni faktlarla qarşılaşmısınız?

– Əvvəla, onu deyim ki, uzun illər bizdə «Nəsimi Allaha qarşı çıxdığına görə edam olunub» fikri formalaşdırılıb. Ancaq bu, belə deyil. Sadəcə, sovet ideologiyasının təsiri ilə Nəsiminin edamı bu cür qələmə verilib. Gəlin Nəsiminin yaradıcılığına baxaq. O heç vədə Allaha, yaradana qarşı çıxmayıb. Hətta Nəsiminin ölümünə fitva veriləndə qazilər yığışırlar. Və istər-istəməz sual ortalığa çıxır ki, Nəsimi nəyə görə edam olunur? Qazilərdən biri şər ataraq deyir ki, o Al-

laha qarşı çıxdı, mən eşitdim. Nəsimi kəlmeyi-şəhadətini deyərək, cavab verir ki, yalandır, iftiradır. Sadəcə, Nəsimi Qaraqoyunlu dövlətinin tərəfdarlarından idi. Xalq arasında böyük nüfuzu olan Nəsiminin bu mövqeyi qarşı tərəfi aqressivləşdirirdi. Bu səbəbdən də Misir sultanı Məhyəddin Nəsiminin ölümünə fitva verib. Həqiqət budur. Təsadüfi deyil ki, Nəsimi edam olunduqdan sonra bir əli və bir qolu Qaraqoyunlu dövlətinə, o biri əli və qolu isə Diyarbəkirə göndərilir. Heç uzağa getməyək, Nəsimi dinə qarşı çıxdığına görə edam olunmuşdusa, nəyə görə Hələbdə Nəsiminin böyük bir mavzoleyi ucaldılıb? Hələbdə Nəsimiyə adına küçə var. Yaradıcılığına gəlincə, bir neçə il bundan əvvəl Bəndəroğlu ilə birgə Nəsiminin yeni əlyazmasını tapdıq. Həmin əlyazma kitab şəklində işıq üzü gördü. Onu da deyim ki, 1987-ci ildə «İraq divanı» adı ilə çap olunan bu kitabdan Nəsiminin 30-a yaxın dinlə bağlı şeiri çıxarıldı. 1980-ci ildə isə Füzulinin Mosulda yeni əlyazmalarını aşkarlandı. Və Həmid Araslının elmi rəhbərliyi altında Sinan Səidin həyat yoldaşı Raidə xanım bu əlyazmalarla bağlı dissertasiya müdafiə elədi.

– İraq türkmanları mədəniyyətləri, tarixləri ilə bağlı daha nələri mühafizə edə biliblər?

– Məncə, ən böyük yaddaş xalqın folklorudur. Folklor elə bir ümmandır ki, o heç vaxt bitib-tükənmir. O, həmişə saflığını qoruyan incilər məbədidir. İraq türkmanlarına bu məbədi qoruyub saxlamaq müyəssər olub. Kərkükdə Qarabağlı məhəlləsi, Kifri yaxınlığında Şirvan qalası var. Onu da deyim ki, Kərkükdə «Qarabağ şikəstəsi»ni də oxuyurlar. Və bütün xalq mahnılarımız eynidir. Mən deyərdim İraq, bəlkə də, yeganə ərəb dövlətidir ki, biz onunla qırılmaz tellərlə bağlıyıq. Bu tellərlə bağlı klassik ədəbiyyatımızda yetərincə faktlar var. M.P.Vaqif də, M.V.Vidadi də «Durnalar» şeirində «Bağdad» deyə İraq türkmanlarına üz tutublar.

– İraq türkmanlarının mədəni hüquqları barədə məlumat verə bilərsinizmi? Ana dilində təhsil almaq imkanları necədir? Bu dildə qəzet, jurnal nəşr olunurmu, radio, televiziya verilişlərini dinləmək imkanları varmı?

– Vaxtilə bunların hamısı olub. Hətta Mədəniyyət və Təhsil nazirlikləri nəzdində departamentləri də var idi. Ancaq nahaqdan demirlər ki, kiçik xalqın faciəsi böyük olur. İraq türkmanları ana dilində necə təhsil alsınlar? Dövlət dili ərəb dilidir. Bütün ali təhsil müəssisələrində, ictimai yerlərdə bu dil hakimdir. Ona görə də İraq türkmanları ərəb dilində təhsil almağa məcburdurlar. Vaxtilə Seyid Əzim Şirvani deyirdi ki, «rus dilinə ehtiyacımız çoxdur, bilməsək də əlacımız yoxdur». İraq türkmanlarının da ərəb dilinə ehtiyacları var. Təəssüf ki, 80-ci illərdən etibarən yuxarıda söylədiklərimin çoxu aradan götürülüb. İranla müharibə, daha sonra beynəlxalq aləmlə münasibətlərin kəskinləşməsi ölkəni ağır duruma saldı. Elm adamları, o cümlədən, ziyalılar ölkəni tərk etdi. Son hadisələr isə göz qabağındadır.

– Fürsət düşmüşkən, son hadisələrə toxunaq. Deyilənə görə, kürdlər Kərkük və Mosulda mədəni-tarixi abidələri dağıdıblar.

– Bildiyiniz kimi, son İraq hadisələri vaxtı kürdlər Mosula və Kərkükə girsələr də, qısa vaxt ərzində bu ərazidən çıxarıldılar. Həmin ərazidə olan mədəni-tarixi abidələrin dağıdılmasına gəlincə, narahat olmağa əsas yoxdur. Çünki orada olan əsas abidələr dinlə bağlıdır. Dinlə bağlı abidələrə isə heç kim toxunmur. Əvvəla, Allahdan qorxurlar, sonra da bəndədən. Ümumiyyətlə, son İraq hadisələrində heç bir müqəddəs yerə toxunulmayıb. Yeganə tarix muzeyi dağıdılıb. O da xalq üçün nə qədər önəmli və müqəddəs olsa da, dini nöqteyi-nəzərdən heç bir önəm kəsb eləmir.

– Yeri gəlmişkən, Füzulinin qəbri ilə bağlı müxtəlif versiyalar var. Bəziləri deyir ki, Füzulinin qəbri 20 il əvvəl yoxa

çıxıb. Bəziləri Səddam Hüseynin göstərişi ilə bu ərazinin asfaltlandığını iddia edir. Ən son versiyaya görə isə Türkmənbaşı Füzulinin nəşini almaq niyyətindədir.

– Bu versiyaların hamısı yalandır. 1980-ci ilin əvvəllərində Kərbəlada İmam Hüseyn və Həzrət Abbas məscidinin ətrafını təmizləmək qərarı verildi. Çünki burada evlər bir-birinə həddən ziyadə yaxın idi: məscidləri ziyarət eləmək mümkün olmurdu. Ona görə də İmam Hüseyn və Həzrət Abbasın məscidinin ətrafını təmizlədilər. Bu zaman qiblə qapısının 20 metrliyində olan Füzulinin qəbrini də köçürdülər: onun böyük mavzoleyini dağıtdılar, nəşini isə gətirib İmam Hüseyn məscidində, qədim əlyazmaların qorunduğu zalın girişində dəfn etdilər. 1994-cü ildə Füzulinin 500 illik yubileyi ilə bağlı nümayəndə heyəti İraqa gedəndə Kərbəlada Füzulinin qəbrini ziyarət elədik. Bu barədə deyilənlərin və yazılanların hamısı yalan və şayiədir. Ötən əsrin 90-cı illərində, Füzulinin yubileyi ərəfəsində də belə bir şayiə yayılmışdı. Onda da biz bu yersiz söz-söhbətlərə son qoyduq. Türkmənbaşının Füzulinin nəşini alması xəbəri isə tamam məntiqsizdir. Araya nifaq salmaq üçün bu xəbəri yayırlar. Bir də axı Türkmənbaşı Füzulinin nəşini kimdən istəyəcək? Amerika generalından?

Bir faktı da deyim, hazırda Füzulinin İmam Hüseyn məqbərəsində olan qəbrinin başdaşına belə yazılıb: «İraq şairi Füzuli». Başdaşının aşağı hissəsində isə «Füzuli türk dillərinin azəri ləhcəsində və ərəb, fars dillərində yazıb» sözləri var.

– Türkman və Azərbaycan ədəbi-mədəni əlaqələrini yaradanlardan biri olan Əbdüllətif Bəndəroğlunun taleyi barədə nə deyə bilərsiniz?

– Yeri gəlmişkən, elə mən də bu məsələyə münasibətimi bildirmək istəyirdim. O gün Rövşən Novruzoğlu – gərək ki, özünü politoloq adlandırırdı – Bəndəroğlu ilə bağlı əsassız bir açıqlama verdi. Nəzərinizə çatdırım ki, Bəndəroğlu neçə

illərdir Anadolu Agentliyinin İraqda təmsilçisidir. Və İraqda İnformasiya Nazirliyi dağıdılarkən, bütün agentliklər mehmanxanada məskunlaşdı. O cümlədən, Bəndəroğlu. Mən hər gün onunla əlaqə saxlayıram, sağ-salamatdır.

Hərçənd Rövşən Novruzoğlunun bu açıqlamasından sonra qələm yoldaşlarımız da ciddi narahat olmuşdular.

– İraq türkmanları ilə Azərbaycan müasir ədəbi-mədəni əlaqələri hansı səviyyədədir?

– İraqda Əbdüllətif Bəndəroğlunun əməyi sayəsində «Azərbaycan hekayələri», «Azəbaycan şairləri», «Azərbaycan şeirindən seçmələr» adlı kitablar, həmçinin Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Elçinin əsərləri işıq üzü görüb. Kamil Vəli Nərimanoğlunun «Elin yadaşı, dilin yaddaşı» və mənim iki kitabım Bağdadda nəşr olunub. Bağdadda çıxan «Yurd» və «Birlik səsi» jurnalında Azərbaycanla bağlı həmişə silsilə yazılar gedir. Hazırda Kərkük dialektinin fonetikasını çapa hazırlayıram. Elmlər Akademiyasının xətti ilə Kərkük dialekti barədə ətraflı kitab nəşr olunacaq. Bir sözlə, əlaqələrimiz indi də sıxdır.

– Əlaqələrin sıx olmasına baxmayaraq, bildiyimizə görə, hazırda bu sahə ilə məşğul olan tədqiqatçılarımız, demək olar ki, yox səviyyəsindədir.

– Elədir. Ən müxtəlif illərdə ayrı-ayrı alimlərimiz bu sahəyə maraq göstərsələr də, mütəmadi, demək olar ki, heç kim məşğul olmayıb.

– Necə oldu ki, Siz bu sahəyə maraq göstərdiniz?

– Bunun qəribə tarixçəsi var. Mən Xarici Dillər İnstitutunu bitirmişəm. İşimlə əlaqədar İraqa göndərildim. O vaxt belə səfərlərə bir il öncədən hazırlıq görülürdü. Üzə çıxmasam da yazı-pozu ilə məşğul olduğumdan Yazıçılar İttifaqı və Elmlər Akademiyası ilə əlaqələrim var idi. İraqa getdiyimi eşidən yoldaşlar mənə məsləhət gördülər ki, Rəsul Rzanın «Azərbaycan» jurnalında dərc edilən «Uzaq ellərin

yaxın töhfələri» adlı məqaləsini oxuyum. İraqda yaşayan azərbaycanlılardan bəhs edən məqalə ilə tanış olduqdan sonra mövzu ilə maraqlanmağa başladım. Daha sonra akad. Məmmədağa Şirəliyev mənə məsləhət gördü ki, səfər müddətində İraqda yaşayan azərbaycanlıların dialektini öyrənim. Mən də öyrəndim. 1969-cu ildə «Kərkük dialektinin fonetikası» mövzusunda namizədlik dissertasiyasını müdafiə etdim. Dialekt isə elə sahədir ki, onu öyrəndikcə istər-istəməz folklor materiallarını da yığırsan. Beləliklə, bütün ömrümü bu sahəyə bağladım. 1968-ci ildə Rəsul Rza ilə birgə ərsəyə gətirdiyimiz «Kərkük bayatıları» kitabı çıxdı. Bu kitab mənim üçün çox əzizdir. Çünki Rəsul Rza adımın onun adı ilə yanaşı getməsini rəva bilib. Onda mən cavan idim. Hazırda İraq türkmanları ilə bağlı 20-dən artıq kitabın müəllifiyəm.

2000-ci ildə möhtərəm prezidentimiz Heydər Əliyev «Qardaşlıq» dərgisinə müsahibə verərkən, belə bir ifadə işlətdi: «Tarixi araşdıranda gördüm ki, Quzey Azərbaycan, Güney Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır». Mən bir bütövün parçasını öyrəndiyimə və bu parçalar arasında əlaqə yaratdığıma görə fəxr edirəm…

Sevinc Rəhimova

NƏSİMİ KAFİR DEYİLDİ*

«Nəsimi dini deyil, siyasi baxışlarına görə edam olunub».

Qəzənfər Paşayev

Azərbaycan klassik şeirinin əvəzedilməz nümayəndəsi, dahi söz sərrafı İmadəddin Nəsimi irsinin öyrənilməsi şairin həyatı kimi keşməkeşli olub. O, sovet ideologiyasının təbliğ etdiyi kimi kafir, dinsiz deyil, qəlbində Allah məhəbbəti olan bir şair idi. Onun həyatının edamla sonuclanması isə dini zəmindən deyil, şairin siyasi baxışlarından qaynaqlanan bir faciə idi. Bu fikirlərin doğruluğu filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Nəsimi irsini tədqiq edərkən özünün elmi təsdiqini tapıb.

Və günlərin bir günü professorla görüşüb, vurğunu olduğu şair haqqında fikirlərini bölüşdük.

– Sizin İraqda tapdığınız şairin divan əlyazma nüsxəsinin Nəsimi irsinin öyrənilməsində hansı xidmətləri olub?

– Mən İraqda olarkən, görkəmli türkman ziyalısı Ə.Bəndəroğlu ilə birlikdə Nəsiminin divan əlyazma nüsxəsini tapdıq. Sonradan Ə.Bəndəroğlu bunu İraqda, mən isə Azərbaycanda çap etdirdik. Bu əlyazmanın tapılması ilə də şarin poeziyasında qaranlıq qalan bir çox məqamlara aydınlıq gətirildi. Məsələn, C.Qəhrəmanov çap etdirdiyi külliyyatda 129 şeiri şübhəli sayırdı. Və göstərirdi ki, əgər bu nümunələr hər hansı cüngdə, divan nüsxəsində və s. aşkarlanarsa, o zaman bunların Nəsimiyə aid olması təsdiqlənə bilər. Mənsə İraq divan nüsxəsindən həmin 129 şeirdən 68-ni üzə çıxardım. Bundan başqa İraq nüsxəsində Nəsiminin bu vaxta qədər heç bir yerdə rast gəlinməyən 14 şeiri də aşkarlanıb

* Bax: «Həftə içi» qəzeti, 7–9 iyun, 2003, s. 6.

üzə çıxdı. H.Araslı və C.Qəhrəmanovun tədqiq etdiyi əlyazmalarda Nəsiminin müxtəlif şeirlərində 50 beyt oxuna bilməmiş və çap zamanı onlar ya buraxılmış, ya da ki, yerinə nöqtələr qoyulmuşdu. Həmin boşluqlar İraq nüsxəsi əsasında bərpa olundu. Bundan başqa bu divan nüsxəsi Nəsiminin bir çox şeirlərində olan mübahisəli məqamlara da aydınlıq gətirdi. Məsələn, demək olar ki, çoxu:

Heç kimsə Nəsimi sözünü
kəşf edə bilməz,
Bu quş dilidir, bunu Süleyman
bilir ancaq.

– beytini əzbər bilir. Şairin başqa bir şeiri var. H.Araslı və C.Qəhrəmanov bu məşhur şeirinin bir beytinin ikinci misrasını bu cür verirdilər:

Bu quş dilidir, bunu Süleyman
dəxi bilməz…

Göründüyü kimi, buradakı fikir məntiqə sığmır. Çünki quş dili olsaydı, yəqin ki, Süleyman bunu anlayardı. Mənsə ortaya çıxartdım ki, ikinci misra bu cür olmalıdır:

Bu quş deyildir, bunu
Süleyman dəxi bilməz.

Başqa bir misal çəkim; mənim çox sevdiyim şair Bəxtiyar Vahabzadə Nəsiminin məşhur:

Məndə sığar iki cahan, mən
bu cahana sığmazam.

– misrasının bu cür oxunduğunu bildirirdi:

Məndə sığarikən cahan, mən
bu cahana sığmazam.

Mən bununla bağlı çoxlu araşdırmalar apardım və belə qənaətə gəldim ki, şeirin əvvəlki variantı daha doğrudur. Çünki Nəsimi yaradıcılığında «iki aləm», «iki cahan» ifadələri çoxdur. Məsələn:

Gəl, ey dilbər, iki
aləmdə cansan,
Gəl, ey ruhi-rəvanım,
sən nə cansan.

Nəsiminin külliyyatında elə şeirlər var ki, onları səhvən Nəsiminin adı ilə bağlayıblar. Məsələn, Nəsimi edam olunarkən, guya, onun dediyi məşhur şeir kimi:

Zahidin bir barmağın kəssən,
dönüb həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa
soyarlar, ağrımaz.

Əvvəla, edam olunan bir kəsin şeir qoşması heç də inandırıcı deyil. Nəsimiyə həm sağlığında, həm də ölümündən sonra çoxlu nəzirələr yazılıb. Bu da həmin nəzirələrdən biridir.

– Nəsimi sovet dövründə xalqımıza dinsiz şair kimi təqdim edilib. Bunu hansı faktlarla inkar edirsiniz?

– Əvvəla, əsası ateizm üzərində qurulan Sovet hökumətinin ideologiyası dinə qarşı çıxmağı tələb edirdi. Nəsiminin yaradıcılığı da təhlil olunarkən, onun dindar olmaması ön plana çəkilirdi. Lakin bütün bunlar heç bir əsası olmayan mülahizələrdir. Bu fikri şairin yaradıcılığı da təsdiqləyir.

Nəsimi poeziyasının 30 faizindən çoxu dinimizə, müqəddəs ziyarətgahlarımıza həsr olunub. O imamlarımıza böyük məhəbbəti olan bir şair olub, Hüseyni təxəllüsü ilə şeirlər yazıb. Məgər dinimizi bu cür yüksək qiymətləndirən şair kafir ola bilər:

Şəriətdə mükəmməl
olan adəm,
Təriqət aləmində qafil olmaz.

Əgər o, dinə qarşı çıxsaydı, Hələbdə onun o boyda məqbərəsi indiyənəcən qalardımı, adına küçə salınardımı? Məgər Suriya dinsizlər yuvasıdır ki, orada kafirlərin adı əbədiləşdirilsin?!

– Bəs belə olan təqdirdə Nəsiminin edamına verilən fitva hansı səbəblərdən qaynaqlanmışdı?

– Nəsminin başına gələn faciə onun dini baxışlarından deyil, sırf siyasi motivlərdən qaynaqlanıb. Bildiyiniz kimi, Nəsimi xalq arasında çox böyük və hörmət sahibi idi. Şairin Ağqoyunlu və Diyarbəkr hökmdarlarına olan məhəbbətini isə Misir sultanı Məhyəddin öz hakimiyyətinə qarşı böyük təhlükə hesab edirdi. Buna görə də sultan hər vasitə ilə şairi cəzalandırmağa çalışır və Nəsiminin ölümünə fitva verir. Hələb qaziləri Nəsimini tutub sorğu-suala çəkərək, onun hansı suçun yiyəsi olduğunu bilmək istəyirlər. Bu zaman Misir sultanı tərəfindən öyrədilən bir nəfər ortalığa çıxıb Nəsimini dinsizlikdə günahlandıraraq deyir ki, şair öldürülməlidir. Bu vaxt Nəsimi kəlmeyi-şəhadət zikr edərək, deyilənlərin yalan olduğunu söyləyir. Qazilər də bildirirlər ki, onların əlində heç bir dəlil-sübut olmadığına görə Nəsimini edam edə bilməzlər.

Sonradan Nəsimi Hələbdə edam olunarkən Sultan Məhyəddinin hökmü ilə şairin əl-ayağının kəsilib onun məhəbbət

bəslədiyi Diyarbəkr hökmdarı Əlibəy ibn Zülqədirə, onun qardaşı Nəsirəddinə və Ağqoyunlu hökmdarı Osman Qara Yölüyə göndərilməsi də bir daha sübut edir ki, Nəsimi siyasi baxışların qurbanı olub.

– İndiyə qədər belə bir sual qalır ki, Nəsimi Hələbdə onu gözləyən təhlükəni bilə-bilə niyə gedib ora çıxıb?

– Sadəcə ona görə ki, həmin ərazilərdə çoxlu türkman xanlıqları vardı. Məsələn, Şamla Hələb arasında Orta Türkman xanlığı, Kərkükdə Səlcuq xanlığı, Mosulda Atabəylər xanlığı və s… Nəsimi də ki, Türkman xanlıqlarının dostu idi. Onu da qeyd edim ki, şairin soyu itməyib və hazırda onun nəsli Hələbdə yaşamaqdadır. Bu məsələni araşdırmaq üçün lazımi tədqiqat işi aparmaq gərəkdir. Hazırda Nizami adına Azəbaycan Ədəbiyyatı Muzeyində mənim tərəfimdən təşkil edilən İraq-türkman ədəbiyyatı və mədəniyyəti adlı daimi ekspozisiyasında Nəsiminin qəbrindən gətirilmiş torpaq, şairin məqbərəsinin və özünün rəsmi saxlanılır.

– İndiyə qədər tədqiqatçı alimlər Nəsiminin anadan olduğu yer haqqında ümumi məxrəcə gələ bilmirlər.

– Nəsiminin Şamaxı, Bakı, Təbriz və İraqda doğulduğunu iddia edənlər var. Nəsiminin dahi Füzulinin boya-başa çatdığı Kərkük vilayətinin 64 kənddən ibarət olan Bayat əşirətindəki Nəsim kəndində anadan olmasını söyləyənlər də var. Lakin çox təəssüf Səddam Hüseynin ölkədə apardığı düzgün olmayan siyasət nəticəsində bu kəndlərin bir çoxu ərəbləşdirilib, digər qismi isə məhv edilib. Və təəssüf ki, Nəsiminin doğulduğu güman edilən Nəsim kəndi bu gün yoxdur. Əgər bu kənd indi qalsaydı, zənnimizcə, o zaman Nəsiminin anadan olduğu yer haqqında daha dəqiq fikir söyləmək olardı.

Sadıq Zamanoğlu

«İNSAN BİR GÜN İŞLƏMƏSƏ QOCALAR…»*

Yazıçı-alimin fikrincə, İraq türkmanları antropoloji baxımdan tamamilə azərbaycanlılara oxşayırlar.

– Qəzənfər müəllim, siz dünyanın çox ölkələrində səfərlərdə olmusunuz. Təbiidir ki, zəngin təəssüratlarınız, qənaətləriniz var. Sizin indiki dünyaya baxışlarınız necədir?

– Mənim aləmimdə dünya daim fırlanan bir təkərə bənzəyir. Bu təkərin fırlanması adi insanlar üçün gözəgörünməzdir. Çünki bu, çox uzun prosesdir. Əbədiyyət üçün min il bir andır. Həmin o tarixin təkəri fırlandıqca xalqlar müəyyən yerlərə düşürlər. Bəzən lap yüksəyə qalxır, bəzən da lap aşağıya enirlər. Bir zaman Şərq xalqlarının zirvədə olan vaxtları olub. İndi dünya elmi bunun üzərində qurulub. Bir vaxtlar sivilizasiya dünyanın iki nöqtəsində – Misirdə və İraqda başlayıb. İndi tarixin gedişatına baxın ki, İraq inkişaf etməkdə olan ölkələr sırasındadır. Dünyaya qeyri-adi, çox böyük alimlər vermiş Misir, Yunanıstan, indi o qədər də qabaqcıl ölkələr sırasında deyil. Şəxsən mən bunu təbii sayıram.

– Siz 40 ilə yaxındır ki, İraq-türkman folklorunu araşdırırsınız. Araşdırmalarınızdan sonra, öz ifadənizlə desək, məlum oldu ki, İraq bizə o qədər də iraq deyil.

– 1964-cü ildən bu işlə məşğul oluram. Hazırda Nizami adına Ədəbiyyat muzeyində İraq–türkman ədəbiyyatı və mədəniyyəti daimi ekspozisiyası fəaliyyət göstərir. Araşdırmalarımın hamısından orada soraq var. Əgər türklüyümüzdən, millətsevərliyimizdən, ümumən bəşərsevərliyimizdən danışırıqsa, hər kəs bu yolda əlindən gələni etməlidir. Rəsul Rza böyük ehtiram göstərdiyim şəxsiyyətlərdən biridir. İlk dəfə Füzulinin, Nəsiminin məzarlarını ziyarət edən, Nəsimi

* Bax: «P.S.» qəzeti, 3.10.2003, s.1 və 3.

ilə bağlı müəyyən əlyazmaları üzə çıxaran o olub. 1968-ci ildə Rəsul Rza «Ədəbiyyat» qəzetində yazırdı ki, Nəsimi yaradıcılığının daha möhkəm, daha davamlı olmasında bir kərpic qoyanın da, min kərpic qoyanın da zəhməti həmişə böyük hörmətlə yad edilməlidir. Mən hara gedirəmsə, Azərbaycanla bağlı soraqlar axtarıram, tapanda fərəhim yerə-göyə sığmır. 20 il qabaq Amerikada olarkən Azərbaycan xalçalarının yeganə nüsxələrinin rəngli şəkillərini bura gətirdim. Bu barədə televiziyada veriliş hazırladım, mətbuatda çıxış etdim.

– Siz İraq–türkman mədəniyyətindən soraqları dəfələrlə kitab formasında çap etdirmisiniz. Hazırda bu sahədə hansı yeniliklər var?

– Bu yaxınlarda İraq–türkman folkloruna aid rusca kitabım rəhmətlik Vladimir Qafarovun tərcüməsində işıq üzü görüb. Təəssüf ki, həmin kitabı özü görə bilmədi. «Kərkük dialektinin fonetikası» adlı kitabım da uğurlu alınıb. Hazırda «Kərkük folklorunun janrları» kitabı «Elm» nəşriyyatında çapdadır. AMEA-nın Dilçilik İnstitutunun direktoru, professor Ağamusa Axundovun rəhbərliyi ilə dialektologiya şöbəsi və mən də ora qatılmaqla «Kərkük dialekti» adlı 460 səhifədən artıq həcmdə kitab yazmışıq. Əlbəttə, iş çoxdur. Daim işləmək lazımdır. Digər tərəfdən də mənim naturam elədir ki, gərək daim işləyəm. Həyatımda heç vaxt rahatlığın nə olduğunu bilməmişəm. İnsan bir gün işləməsə, yazmasa, qocalar.

– Xüsusən yaradıcı adamlarda daimi ardıcıllıq əsas şərtdir. Axı ardıcıllıq inkişafın qaydasındadır…

– Bəli, elədir. Çoxsaylı mədəni tədbirlərdə iştirak etmək, ardıcıl olaraq yeni-yeni kitablar üzərində çalışmaq, Azərbaycan ruhunu daim təbliğ etmək ömrümün əsas qayəsidir.

– Qəzənfər müəllim, böyük şairimiz Məhəmməd Füzulinin Kərbəladakı məzarı ilə bağlı neçə illər qabaq narahatlıq doğuran xəbərlər yayılmağa başladı. Siz bu barədə hansı qənaətdəsiniz? Əslində, vəziyyət necədir?

– Mən «Altı il Dəclə-Fərat sahillərində» kitabımda («Yazıçı», 1985) şairin Kərbəlada olan məqbərəsinin şəklini vermiş və yazmışam: «Kərbəlanın 43 kilometrliyində yerləşən və çoxlarının Füzulinin orada doğulduğunu göstərdiyi Hillə şəhərində işləyərkən hər cümə günü Kərbəlaya gedər, İmam Hüseyn məscidinin iki addımlığında olan Füzuli qəbrini ziyarət edərdim. Şairin qəbri son 4–5 ilə qədər məscidin qərb qapısı ağzında, Azərbaycan istiqamətində, yönü Azərbaycana baxırdı…

Kərbəlanın əbədiləşdirilməsi ilə əlaqədar olaraq şairin əbədi yuxuya getdiyi bu yerlər sökülüb. Şairin nəşi Kərbəla bələdiyyə idarəsinin göstərişi ilə İmam Hüseyn məscidində saxlanılır».

1985-ci ildə bir sıra qəzetlər bu məsələyə dair dalbadal yazılar verdilər: «Füzulinin məzarı yol oldu». («Milliyyət» 19.12.1985) və Türkiyənin mədəniyyət naziri Taşçıoğlunun «Füzulinin gemikləri (nəşi – **Q.P.**) için rəsmi girişim» adlı məqalələri çap olundu.

İctimaiyyət arasında belə bir fikir yaranıb ki, guya şairin nəşi əvvəlki yolun altında, məqbərə olan yerdə qalıb. «Füzulinin məzarı yol oldu» məqaləsinin müəllifi Murad Bardaqçı İraq rəsmi dairələrinin məlumatını öz məqaləsində vermişdi: «Məzarın bulunduğu yerdən yol keçəcəkdir. Bu üzdən istimlak edərək yıxtıq. Yaxın bir gələcəkdə Füzuli için yepyeni bir məzar yapacayız. Gemikleri mühafizə ediliyor».

Bununla belə, məqalənin adı söz-söhbətə, şayiələrə gətirib çıxardı. Mərhum şairimiz professor Qasım Qasımzadə ilə birgə yazdığımız «Füzuli məzarı barədə şayiə və həqiqət» adlı məqaləmizdə «Mədəniyyət» qəzeti (6 avqust 1992) geniş danışdıq. Şairin nəşi İmam Hüseyn məscidinə köçürülüb, onun saxlandığı lövhə üzərində yazılıb:

«Şair Füzuli Bağdadi.

Füzuli Bağdadi adı ilə tanınan məşhur şair Məhəmməd bin Süleyman hicrətin 900-cu ilində ona nisbə vermiş ölkədə anadan olmuş və yaşayıb-yaratmışdır. Bəziləri onun Bağ-

dadda, bəziləri Kərbəlada və bəziləri Hillədə anadan olduğunu göstərirlər. Ən dəqiqi Bağdaddır. Hicri 970-ci ildə vəfat etmişdir. Onun ərəb və türk dillərində nəfis şeiriyyatı vardır. O, azəri dilində danışırdı. Bu, türk ləhcələrindən biridir».

1992-ci ildə keçmiş İraq prezidenti Səddam Hüseynin göstərişi ilə Füzulinin yeni məqbərəsinin inşası üzrə Bağdadda komissiya yaradılmışdı. Təəssüf ki, blokada nəticəsində ağır vəziyyətə düşən İraq Füzulinin yeni məqbərəsi ilə bağlı işləri də təxirə salmaq məcburiyyətində qalmışdı. Mən «Altı il Dəclə-Fərat sahillərində» kitabımda İmam Hüseyn məscidinin baş çıraqyandıranı böyük Füzuli ilə bağlı aşağıdakı sətirləri də yazmışdım:

«Hər dəfə Füzulini ziyarət etdikcə həm təəccüblənir, həm də sevinirdim. Ona görə təəccüblənirdim ki, minlərlə müsəlman fanatikinin bir dəfə ziyarət etməklə həyatdan köçməyə hazır olduğu müsəlman Şərqinin ən müqəddəs guşəsində şairə əbədi sığınacaq vermişdilər. Sevincimə səbəb isə o idi ki, hələ şairin sağlığında onun şəxsiyyətinə böyük hörmət, məhəbbət bəsləmişdilər».

– Nəsiminin «İraq–Divanı»nı necə əldə etməyiniz oxucular üçün maraqlı olardı.

– Nəsiminin «İraq-Divan» nüsxəsini bizə Kərkük vilayətinin Tuz Xurmatu qəzasının Bəşir kəndində yaşayan, yaşı 100-ü keçən, özünü Şah İsmayılın nəvə-nəticələrindən hesab edən Seyid Heydər töhfə etdi. Divanın üzü Molla Turab ibn Molla Səfil ibn Molla Əmin tərəfindən köçürülüb. Tünd-qəhvəyi rəngli, qalın dəri cildli 286 səhifədən ibarət divan nüsxəsində şairin 400-dən artıq şeiri verilib. 398 şeir şairin təxəllüsü ilə tamamlanır.

Nəsiminin «İraq-Divan» nüsxəsində aşkar etdik ki, 14 şeir nəsimişünaslıqda indiyə qədər məlum olmayıb. Bundan başqa nəsimişünas alim C.Qəhrəmanovun söhbət açdığı, yalnız bir əlyazma nüsxəsində və ya cüngdə təsadüf edilən və buna görə

də mübahisəli qalan, lakin Nəsimiyə aid edilməsi ehtimal edilən 129 şeirin 68-i şairin «İraq-Divan» nüsxəsində yer alır. Bu fakt nəsimişünaslıqda güman, şübhə və ehtimalla qarşılanan 68 şeirin məhz Nəsiminin olduğunu təsbit edir. Digər tərəfdən də şairin İraq divanında bu və ya başqa şeirlərin tərkibində yer alan 50-yə qədər beytə də başqa mənbələrdə rast gəlmədik.

– Qısaca da olsa İraq–türkman şifahi xalq ədəbiyyatından söhbət açmağımız yerinə düşərdi…

– Azərbaycandan fərqli olaraq İraq–türkman şifahi xalq ədəbiyyatında ən fundamental epik janr dastanları o qədər də geniş yayılmayıb. Dastan sözü türkmanlarda işlənmir, ona «matal» deyirlər. Eşq, məhəbbət və qəhrəmanlıq dastanlarını orada da Azərbaycanda olduğu kimi sazla çalıb oxuyurlar. Dastanlar uzun qış gecələrində çayxanalarda və evlərdə müəyyən münasibətlə camaat qarşısında söylənilib və yayılıb. İraq-türkman aşıqlarından kərküklü Aşıq Abbas, Kor Abış, Xəlil Əhməd çox məşhur olmuşlar. Hətta Aşıq Qənbər Əli dastan söyləyərkən sazına bülbüllərin qonduğunu da qeyd edənlər var.

İstər Azərbaycan, istərsə də İraq–türkman folklorunda tapmacaları başqa xalqların tapmacalarından fərqləndirən bir xüsusiyyət var. İraq–türkman folklorunda bayatılar təkcə oxşamaların yox, həm də tapmacaların formalaşa bildiyi ana janr olub. Burada bayatılarla bağlı yaranmış çoxlu tapmacalar var. Bu dördlüklərdə poeziya qüvvətli, qafiyə yerli-yerindədir. Onları formaca bayatılardan fərqləndirmək olmur. Təbiət və cəmiyyət hadisələrinin zahirən bizdən gizli, sehrli, iç qatına nüfuz edən mahiyyəti, formaca bayatı və qıfılbəndlərə oxşayan, lakin icra yerinə və tərzinə, poetik üslubuna, şeiriyyətinə, məcazi mənasına görə onlardan fərqlənən bayatı-tapmacalar nə Azərbaycan folklorşünaslığında, nə də İraq–türkman folklor araşdırmalarında son zamanlara və tədqiqatlara qədər lirik növün ayrıca janrı kimi tədqiq olunmamışdı. Öz məzmununda, bədii-fəlsəfi mündə-

ricəsində yazıldığı o vaxtkı ictimai dövrün bütün qatlarını əhatə edən bayatı tapmacalarda xalq bədii obrazlı dil səlisliyi, məna kəsəri ilə seçilən forma və üslub axtarıb tapmağa çalışıb, beləliklə də, şifahi xalq ədəbiyyatının lirik növü – «Bayatı-tapmaca» janrı meydana gəlib. Bu da təkmil sənətə meyilin təbii nəticəsi kimi qiymətləndirilməlidir.

– Hazırda İraqdakı soydaşlarımızın vəziyyəti necədir? Türkmanların antropoloji quruluşu bizlərə çoxmu oxşayır?

– Ümumiyyətlə, əvvəllər Kərkükün 25–30 faizə qədərini kürdlər, bir az hissəsini ərəblər, 65–68 faizini isə türkmanlar təşkil edib. Hazırda Kərkük vilayətində bələdiyyə, nəqliyyat, kənd təsərrüfatı kürdlərin, neft, təhsil, mədəniyyət isə türkmanların əlindədir. Kərkükdə «Kərkük» adlı azərbaycanca qəzet buraxılır. Gündə 7–8 saatlıq «Türkman eli» adı altında televiziya verilişləri efirə gedir. Qadınlar Şurası, Yazıçılar Birliyi yaradılıb. Səddam Hüseynin dövründə türkman Kərkükdə ev ala bilməzdi. Hətta gəlib atasının evini öz adına keçirə bilməzdi. O, evi yalnız ərəblər olan yerdən ala bilərdi. Məqsəd isə türkmanları dağıtmaq, vilayəti ərəbləşdirmək idi. Hazırda türkmanlar vilayətə qayıdır. Professorlar Mahir Naqib 28, Sübhü Saatçı isə 26 ildən sonra Kərkükə qayıda bildilər.

1968-ci ildən Vaqifin yubileyinə Kərkükdən Şakir Sabir Zabit gəlmişdi. Danışırdı ki, Bakı aeroportuna düşəndə çox təəccübləndim. Elə zənn etdim ki, mən elə Kərkükə gəlmişəm. Erşad Hürmüzdlü 23 il sonra Kərkükə gedəndə deyirlər ki, sən Qəzənfər Paşayevsən? Danışır ki, mənim haqqımda yazı çap etdilər, sənin şəklini mənim şəklim bilib veriblərmiş. Doğrudan da, bir-birimizə çox oxşayırıq. Çoxsaylı belə amillər var ki, türkmanların antropoloji baxımdan tamamilə bizə oxşadığına sübutdur. Kərkükə sevgi aqibətdəndir, qandan, ruhdandır. Bir Kərkük bayatısında deyildiyi kimi, bu sevda ölüncədir.

Elçin Qaliboğlu

TARİX XALQIN QƏHRƏMANLARINI VƏ YARADICI ADAMLARINI ƏBƏDİ YAŞADIR*

Möhtərəm prezidentimiz İlham Əliyevin «Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında» fərmanını bütün Azərbaycan xalqı böyük ruh yüksəkliyi ilə qarşıladı. Yaratdığı obyektlərin bəzilərinə onun adının verilməsini hər kəs ulu rəhbərin misilsiz əməyi, gördüyü monumental, nəhəng işlərin müqabilində hələ çox az hesab edir. Ölkənin tanınmış ziyalılarından biri, MEA Nizami muzeyinin şöbə müdiri, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev bu rəsmi dövlət sənədini xalqın arzu və istəklərinin reallaşması baxımından qiymətləndirdi. O əbədiyaşar mərhum prezidentimizlə bağlı ürək sözlərini bizimlə bölüşdü.

– Bütün xalqlarda onun görkəmli şəxsiyyətlərinin adlarını əbədiləşdirməyə əsrlər boyu böyük meyil olub. Xalqımızın böyük oğlu, müasir dövrün ən böyük siyasətçilərindən biri olmuş Heydər Əliyevin adını əbədiləşdirmək xalqın həm borcudur, həm də onun xalq qarşısındakı mənəvi xidmətlərinin əbədiləşdirilməsi baxımından dəyərlidir. Biz dünya ölkələrini gəzirik, görürük, bəzən bələdçilər saatlarla müəyyən heykəllərin qarşısında dayanıb məlumat verirlər. Qulaq asırıq və hekəli qoyulan o tarixi şəxsiyyətlərə qəlbimizdə böyük hörmət yaranır.

Şah İsmayıl Xətainin, Nizaminin, Nəsiminin, Füzulinin, S.Vurğunun və digərlərinin heykəllərinin yanından adi seyrçi kimi ötə bilmirəm. Çünki bu bizim tariximizdir, keçmişimiz və gələcəyimizdir. Bütün xalqları zaman-zaman yeraltı, yerüstü sərvətləri ilə yox, tarixi şəxsiyyətləri ilə tanıyıblar. Çünki hər şeyin sonu olduğu kimi, bu sərvətlər də tükənə bilər,

* Bax: «Xalq» qəzeti, 25.03.2004, s. 3.

bu gün var olan sabah yoxa çevrilə bilər. Tarixi şəxsiyyətlər – şairlər, yazıçılar, sərkərdələr, yaradıcı adamlar, dövlət xadimləri, ixtiraçı alimlər isə daim yaşayır və xalqı yaşadırlar. Eləcə də böyük tarixi şəxsiyyətimiz olan Heydər Əliyev həyatımızda əbədi qalan bir adamdır və onun abidələrini yaratmaq, adını əbədiləşdirmək bizim vicdan işimizdir. H.Əliyev xalqın oğul və qızlarını daim layiqincə qiymətləndirirdi. Yazılı abidələrin bilicisi, MEA-nın akademiki Məşədixanımla onun görüşlərinin dəfələrlə şahidi olmuşdum. Deyirdim ki, İlahi, bu müdrik şəxsiyyət keçmişimizə nə qədər böyük hörmət bəsləyir? Biz tarixi şəxsiyyətlərə hörməti də ondan öyrənməli, həmin şəxsiyyətləri elə yaşatmalıyıq ki, bir xalq olaraq, bizi olduğumuz kimi tanısınlar. Özümüz onu dünyaya göstərməliyik ki, bu xalq adi xalq deyil, onun Heydər Əliyev kimi dühası var. Bu baxımdan demək istəyirəm ki, ümummilli liderimizin adının əbədiləşdirilməsi haqqında fərman çox ürəyimdəndir. Bir müddət öncə «Vəfa» jurnalının xüsusi nömrəsində «Xilaskar» adlı məqalə ilə çıxış etmişdim. Orada Heydər Əliyevin adının əbədiləşdirilməsi ilə bağlı təkliflər vermişdim. Arzum budur ki, böyük və dahi şəxsiyyətin heykəli Dağüstü parkda – Şəhidlər Xiyabanında qoyulsun.

Cənab Heydər Əliyev Azərbaycanın parlaq simalarından biri olaraq əbədi qalacaq. Azərbaycanda bu sabitliyi yaratmaq, dövlətçiliyi bərqərar etmək, hər şeyi yoluna qoymaq, Azərbaycanı bütün dünyada tanıtmaq çox ciddi məsələlərdir. Rusiya dövlətinin Prezident Heydər Əliyevi təltif etdiyi «Müqəddəs apostol Andrey Pervozvannı» ordenini təntənəli səviyyədə onun vəfatından sonra dövlətimizin başçısı İlham Əliyevə təqdim etdiyinin şahidi olduq. Onun adı hər yerdə, bütün dövlət başçılarının yanında hörmətlə, ehtiramla çəkilir. Bunun müqabilində biz onun adını çox yüksək səviyyədə, özünə layiq tutmalı deyilikmi? Mən heç bir partiyanın

üzvü deyiləm, siyasətlə məşğul olmamışam, ancaq bütün dünyanı gəzmişəm, dövlət başçılarına fikir vermişəm, müqayisələr aparmışam. Qürur hissi keçirmişəm ki, xalqımızın belə ağıllı, xilaskar, ölkəni parçalanmaqdan qoruyan oğlu var. Uzağa getməyək, yaxın dövlətlərdə gedən proseslərə fikir verin. Görün nələr baş verir? Bir quruluşdan başqasına keçəndə o keçid dövrü çox ağır olur, qurbanlarsız ötüşmür. Xalqımızın bu çətinlikdən, bu keşməkeşdən, bu burulğanlardan az qurbanlarla çıxmasında məhz Heydər Əliyevin böyük xidmətləri olub. Ona görə də onun heykəli elə yerdə, elə ucalıqda qoyulmalıdır ki, Bakının hər tərəfindən baxanda o, bütün əzəməti və vüqarı ilə görünsün. Respublikanın bütün bölgələrində onun adının əbədiləşdirilməsi vacibdir. Mən Heydər Əliyevin adının əbədiləşdirilməsi üçün o qədər səbəb, əsas göstərə bilərəm ki, saymaqla qurtarmaz. Onun adının əbədiləşdirilməsi həm də ona görə vacib və lazımdır ki, başqa xalqlar görsünlər ki, biz keçmişimizə güllə atmırıq, əksinə, onu layiqincə qiymətləndirə bilirik.

Mən vicdanımın səsinə qulaq asıram. Heydər Əliyevə həmişə daxilən böyük hörmət duymuşam. Mən Tovuz rayonunun Düz Qırıxlı kəndindənəm. Vaxtilə universitetdə xarici dillər kafedrasının müdiri, qardaşım Ələsgər isə kənd məktəbində direktor idi. Heydər Əliyev o vaxt işdən uzaqlaşdırılanda ona sadiq adamlar kimi hər ikimizi işdən çıxardılar. Qardaşım məktəbdən Heydər Əliyevin portretlərinin hamısını yığıb evə gətirdi. AXC–Müsavat cütlüyü hakimiyyətdən gedəndən sonra qardaşıma o şəkillər üçün minnətçi düşənlər oldu. Demək istədiyim odur ki, xoşbəxtəm ki, dünyanın gərdişindən baş çıxarıram və o böyük, ümummilli liderimizə olan məhəbbətim, güvəncim ailəlikcə heç vaxt azalmayıb. Xarici ölkələrdə dövlət başçılarının qarşılanma mərasimlərini çox görmüşəm. Həmişə arzulayırdım ki, ay Allah, nə olaydı, Azərbaycanı müstəqil görəydik, himnimiz

çalınaydı, bayrağımız dalğalanaydı. Bu böyük xoşbəxtlik bizə nəsib oldu və bu xoşbəxtlikdə Heydər Əliyevin misilsiz rolu oldu. Xoşbəxtəm ki, onun müasiri olmuşam, bütün gördüyü işləri izləmişəm. Onun elm, mədəniyyət xadimlərimizə – yaradıcı adamlara qayğısı olmasaydı, onlar dəyərli əsərlər yarada bilməzdilər. Heydər Əliyev də yaradıcı idi. Onun yaratdığı ən gözəl əsəri müstəqil Azərbaycan oldu. Belə ağıllı adamlar tarixdə tək-tək yetişir. Onlardan biri də Azərbaycanın taleyinə yazılıbmış. Ona görə də onun adının əbədiləşdirilməsini alqışlayıram.

Zərifə Bəşirqızı

HƏR BİR XALQIN AZADLIĞI HƏR HALDA ONA VERİLMƏLİDİR*

Hər bir xalq istəyər azad yaşasın, xalqın kiçiyi, böyüyü olmur. Xalqın böyüklüyü onun yetirdiyi şəxsiyyətlərlə, onun yetirdiyi qəhrəmanlarla ölçülür və nəhayət, vətənə yararlı oğulları ilə tanınır. Mən kürd xalqının yetirdiyi qəhrəmanları tanıyıram, çox böyük, əvəzsiz igidliklər göstərmiş Səlahəddin Əyyubun qəhrəmanlığını bütün islam aləmi, eləcə də xristian dünyası qəbul edir. Şərqin xilaskarı Səlahəddin deyəndə kürd xalqı göz önünə gəlir. O ki qaldı türkman və ərəb xalqlarına, mən yeddi ilə yaxın orda yaşamışam. Türkmanlar və ərəblər kürdlərdən kirvə tutardılar və deyərdilər ki, onlar namuslu, qeyrətli, təmiz, pak, vicdanlı, sözünə, əməlinə düz adamlardır. Ona görə də kirvələrin çoxu kürdlərdən olurdu.

– Qəzənfər müəllim, bildiyiniz kimi məndən bu yaxınlarda İraqdan qayıtmışam. Şimali İraqda yaşayan kürd və türkman xalqlarının nümayəndələri ilə görüşlərim olub və məndən onların istək və arzularını, xahişlərini Azərbaycan Prezidenti hörmətli İlham Əliyev cənablarına, Azərbaycan ziyalılarına, Azərbaycan xalqına və hörmətli Qəzənfər müəllimə çatdırmağımı arzu ediblər. Çünki siz uzun müddət orda yaşamısınız və indiki hadisələri də izləyirsiniz. Bu məsələlər haqqında nə deyə bilərsiniz?

– Tahir müəllim, mən doğurdan da, sizə təşəkkür edirəm ki, yeddi ilə qədər yaşadığım, işlədiyim və çox sevdiyim, ikinci vətənim hesab etdiyim İraqa getmisiniz. Orda bizə yaxın olan dostlarla görüşüb, çox zəngin materiallarla Respublikamıza qayıtmısınız. Mənə elə gəlir ki, bu bir qəhrəmanlıqdır. İndiki zamanda, vəziyyətin çox ağır olduğu dövrdə, İraqa gedib orda ziyalılarla, dövlət adamları ilə, siyasi partiya rəhbərləri ilə görüşüb, onlarla fikirlərinizi bölüşüb, məsləhətləşib və

* Bax: «Diplomat» qəzeti, 13.10.2004, s.1 və 3.

vətənə qayıdıbsınız. Qısa vaxtda tanınan «Diplomat» qəzetinin iki nömrəsi başdan-başa yalnız İraqa həsr olunub. İraqda bizi narahat edən nədir?

Məni orada yaşayan türkmanların yaşayış tərzi, siyasi vəziyyəti maraqlandırır. Onlar çox əzizdir mənim üçün, çünki soykökümüz, ədəbiyyatımız, məişətimiz, folklorumuz hamısı birdir.

Orda bizim ən etibarlı, əziz qardaşlarımız olan kürd xalqı yaşayır, orda ərəblər yaşayır. Bu xalqların taleyi məni düşündürür. Siz orada türkman xalqının çox böyük şəxsiyyətləri ilə görüşüb söhbətlər etmisiniz. Mən sizin ordan gətirdiyiniz şəkillərə baxıram. Burda, Azərbaycanda hamının tanıdığı keçmiş SSRİ miqyasında tanıdığı igid bir sərkərdə kimi tanınmış Molla Mustafa Bərzaninin oğlu Məsud Bərzani, Neçirvan Bərzani və başqa şəxsiyyətlərlə şəkilləriniz vardır. Onlarla görüşləriniz və onlar haqqında təəssüratınızı məqalələrdə açıb göstərmisiniz. Belə yazılar mədəni, siyasi cəhətdən yaxınlaşmağımıza kömək edən məsələlərdir. Bütün bunlara görə sizə təşəkkür edirəm!

Amma ölkədə arzuolunmaz siyasi hadisələr də baş verdi. Deyirlər tarixdə şəxsiyyətlərin rolu olmur, ancaq həyat göstərir ki, olur. Səddam Hüseyn kimi bir şəxs gəldi hakimiyyət başına. Ərəblər tərəfindən ordakı azlıqlara verilən mədəni azadlıqlar, daha doğrusu, mədəni haqlar əllərindən alındı, xalqlar arasına nifaq salındı. Səddamın yaramayan, ağla gəlməyən siyasəti nəticəsində, orada yaşayan xalqlar ölkədən qaçıb yayıldı dünyaya. İraq əhalisi 20 milyondan artıqdır. Onun səhv etmirəmsə 6 milyon yarımı kürd xalqıdır, iki milyon yarım türkmanlar, qalanları ərəblər, assurilər, kildanilər və başqalarıdır. Bu böyük bir ölkədir. Kürd xalqı 6 milyon yarımdırsa, bunun özü böyük bir dövlət deməkdir. Hər bir xalqın azadlığı hər halda ona verilməlidir!

– Qəzənfər müəllim, mən deyərdim ki, İraqın şimalında yaşayan azsaylı xalqlara çox böyük mədəni haqlar verilmişdir.

Lakin mən başqa məsələyə toxunmaq istəyirəm. İraq türkmanları eynilə bizim Azərbaycan dilində danışırlar. Bizim danışığımızla onların danışığı arasında heç bir fərq yoxdur. Və onların istək və arzuları odur ki, bizim ziyalılarımız onların içinə getsin. Bizim maarifpərvər insanlarımız, müğənnilərimiz, elm adamlarımız, musiqişünaslarımız onlara mənəvi dayaq olsunlar.

– Çox ciddi və həddən artıq maraqlı bir mövzuya toxundunuz. 2000-ci ildə bizim Ümummilli liderimiz, sabiq Prezidentimiz Heydər Əliyev cənabları İraq türkmanlarının böyük oğlu İhsan Doğramacının xahişi ilə İraq türkmanlarının «Qardaşlıq dərgisi»nə müsahibə verdi. Prezidentimiz müsahibəsində belə bir fikir dedi:

«Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan, İraq türkmanları bir bütünün parçalarıdır».

Mən qırx il İraq–türkman ədəbiyyatı ilə, folkloru ilə məşğul olmuşam. Bu sanbalda söz deyə bilməmişəm.

Siz bilirsiniz ki, bizim qarşımızda böyük problemimiz durur – Qarabağ problemi. İnanıram ki, bizim həddən artıq ağıllı, gənc Prezidentimiz, atasının yanında böyük siyasi məktəb keçmiş İlham Əliyev cənabları, Qarabağ problemini həll edəcək. Ondan sonra biz də təbii ki, fikirləşəcəyik. Türkman və kürd qardaşlarımızla son vaxtlar zəifləmiş əlaqələri necə bərpa edək. İraqda hərc-mərclik hökm sürsə də biz əlaqələri imkan daxilində davam etdiririk. Azərbaycanda İraq xalqının folkloruna, ədəbiyyatına, həyat tərzinə, yazıçılarına, şairlərinə həsr olunmuş iyirmidən artıq kitab buraxmışıq və indi Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində yüz kvadrat metrdən artıq bir zalda onların ədəbiyyatını və mədəniyyətini əks etdirən daimi ekspozisiya yaratmışıq.

– Qəzənfər müəllim, mən İraqdakı çıxışlarımda sizin Azərbaycan və türkman xalqları arasında qardaşlıq, dostluq əlaqələrinin bünövrəsini qoyduğunuzu dönə-dönə danışmışam.

Məni başqa bir məsələ narahat edir. Mən İraqda istər türkmanların, istərsə də kürdlərin arasında olarkən, gördüm ki, onların Qarabağ məsələsinin incəliklərindən xəbərləri yoxdur. Hətta Məsud Bərzani cənablarının da ermənilərin başımıza açdığı bəlaların incəliklərindən xəbəri yox idi. Mən 1989-cu ildən ermənilərin Ermənistanda yaşayan azərbaycanlı və müsəlman kürdlərini kütləvi şəkildə deportasiya etmələrindən, Azərbaycanda yaşayan və vaxtilə Kürdüstan qəzası adlandırılan ərazilərdən kürdlərlə azərbaycanlıların öz yurd-yuvalarından qovulmasından və qız-gəlinlərimizin girov aparılmasından danışanda qəhərləndi və qeyd etdi ki, yaşanan faciələrdən xəbəri yoxdur.

Olmazmı burdan azərisi ilə, kürdü ilə birgə ziyalılarımız İraq Kürdüstanına gedələr və Azərbaycanımızın başına gələn bəlalardan söz açalar? Bu məsələni nəinki Quzey İraqda, eləcə də dünyanın hər bir yerində yaşayan kürd xalqının içində təbliğ edələr?

– Bu mövzu bir az mənim tədqiqat sahəmdən kənar olduğuna görə, çətinlik çəkirəm. Əlbəttə, başımıza gələn bəlaları dünya xalqlarına çatdırmalıyıq. İndiyə kimi biz onu edə bilməmişik, çünki biz rusların müstəmləkəsi altında yaşamışıq və bizim səsimiz heç bir xarici dövlətə çatmayıb. Biz dəmirbarmaqlıqlar arasında qalmışdıq, xaricə gedə bilməmişdik. Əgər kimsə gedə bilsəydi, onun arxasınca rus xəfiyyələri gedərdi və sərbəst danışmağa imkanımız olmazdı. İndi doğru deyirsiniz, bizim azadlığımız, müstəqilliyimiz var. Biz bundan istifadə etməliyik. Nəinki başımıza gələnləri onlara çatdırmalıyıq, eyni ilə möhkəm qırılmaz əlaqələr yaratmalıyıq. İstər mədəni, istər siyasi, istərsə də iqtisadi əlaqələr olsun mütləq yaranmalıdır. Mən çox istəyirəm İraqa gedəm. Demək olar ki, cavanlığımı İraqda keçirmişəm. Süleymaniyyədə olmamışam. Mən Kərkükə, Altun Körpüyə, Ərbilə getmişəm, nə Süleymaniyyəyə, nə də Mosula gedə bilməmişəm. Ürəyim çox istəyir, çünki mən, əslində, İraqı, gəncliyim döv-

ründə Şərqi lərzəyə salan Kürd xalqının ölməz lideri, qəhrəman Molla Mustafa Bərzani ilə tanımışam. O vaxt bütün dünya o, qəhrəmandan danışırdı. Məsud Bərzani cənablarını görmək, mənim üçün böyük şərəf olardı. Bu əlaqələri möhkəmləndirmək lazımdır. Mənim Bakıda Bəndəroğlu ilə «Çağdaş İraq şeirindən seçmələr» adlı kitabım çıxıb. O kitabda on ərəb şairinin, səkkiz kürd şairinin və səkkiz türkman şairinin şeirlərini vermişik. Kürd və ərəb şairlərinin şeirlərini Əbdüllətif Bəndəroğlu tərcümə edib. 2001-ci ildə «Elm» nəşriyyatının çap etdiyi 108 səhifəlik kitabda şairlərin həyat və yaradıcılığı barədə qısa məlumat və şeirlərindən nümunələr verilmişdir. Güman edirəm ki, qəzetinizdə geniş söhbət açacaqsınız. Biz imkan daxilində bacardığımız xidməti edirik.

Mənim kürd dostlarım çox olub, indi də var. Mən onlarla fəxr etmişəm. Onlarla həmişə təmasdayam, onların fikirləri mənə məmnunluq gətirir. Ona görə məmnunluq gətirir ki, kürd xalqı mübariz xalqdır. Öz mənliyini qoruyan, tapdalanmağa qoymayan bir xalqdır!

– Qəzənfər müəllim, siz İraq kürdlərinə, türkmanlarına və ərəblərinə, son olaraq nə demək istərdiniz və nə arzu edərdiniz?

– Arzular böyükdür. 1994-cü ildə Azərbaycandan böyük bir nümayəndə heyəti Məhəmməd Füzulinin 500 illik yubileyinə getmişdik. Onda biz Kərkükü ziyarət etdik, orda böyük konsert verdik. Yüz iyirmi səkkiz nümayəndə heyəti – ədəbiyyatçılar, musiqiçilər, müğənnilər getmişdi. Arzu edirəm ki, belə bir nümayəndə heyəti ilə biz Bağdada, Bəsrəyə, Süleymaniyyəyə, Ərbilə, Kərkükə, Mosula, Duhoka, Akreyə, Zaxoya gedək və qardaşlarımızla əlaqələrimiz möhkəmlənsin.

Bir də arzu edirəm ki, İraq xalqının başına açılan bu müsibətlərə son qoyulsun. Dünya mədəniyyətinə böyük töhfələr bəxş etmiş bu qədim diyarda əmin-amanlıq bərqərar olsun.

Tahir Süleyman

AZƏRBAYCANIN GÜNEYİ, QUZEYİ VƏ İRAQ TÜRKMANLARI BİR BÜTÖVÜN PARÇALARIDIR*

«İTV»də mənəvi dəyərlərimizi qorumağa yönəldilən müxtəlif proqramlar məni qane edir».

Q.Paşayev

– Qəzənfər müəllim, uzun illər vətəndən uzaqlarda, qürbətdə işləmisiniz. O günləri necə xatırlayırsınız?

– İnsan vətənin nə olduğunu, torpağının, dilinin, mədəniyyətinin qədrini və qiymətini xaricdə uzunmüddətli ezamiyyət vaxtı bilir. Ümumiyyətlə, qürbət çox ağırdır. Adam heç vaxt özünü sərbəst hiss etmir. Elə bil hər şey ona o ölkədə qərib olduğunu söyləyir. Ağlayanın göz yaşının nə olduğunu əvvəllər ağlamış adam bilər.

Qürbətdə qərib şadiman
olmaz imiş.
Bir kimsə qəribə mehriban
olmaz imiş.

Qürbətdə keçən həyat qaranlıq bir gecəyə bənzəyir. Qürbətdə döyünən ürək arı pətəyi kimi para-para, şan-şan olar. Çünki o, bütün oxların nişangahına çevrilir. Bu hələ harasıdır. Gəncliyini qərib ölkədə keçirən ailələrin uşaqları böyüyəndə, ata-ana fikrə qərq olur. Oğlanlarına kimin qızını alsınlar, qızlarını kimin oğluna versinlər. Odur ki, çoxları tələm-tələsik yığışıb vətənə dönür, övladlarının xoşbəxtliyini arayırlar.

O ki, qaldı mənə, mən dost ölkədə – İraqda işləyirdim. Ərəb ölkələri arasında İraq qədər Azərbaycana yaxın olan

* Bax: «İctimai» qəzet, 30.09.2006, s. 7.

ikinci bir ölkə tapmaq çətindir. Bu tarixən belə olub. Başqa bir tərəfdən də neçə yerə bölünməyə məruz qalmış xalqımızın bir parçası İraqdadır. Ulu öndərimiz Heydər Əliyev bu münasibətlə tarixi fikir söyləyib: «Tarixi araşdıranda gördüm ki, Quzey Azərbaycan, Güney Azərbaycan, İraq türkmanları bir bütövün parçalarıdır».

Mən İraqın cənnət olan günlərini deyil, bu gününü düşünürəm. Sivilizasiyanın meydana gəldiyi bu ölkə, onun tarixi abidələri dünyanın gözü qarşısında məhv edilir. Demokratiyadan dəm vuranlar susurlar. Ümid Allahadır. Tarix çox imperiyalar yola salıb. Güman ki, belə getməz, bir gün haqq-ədalət yerini tutar. Mən buna inanıram. Tarixin ibrət dərsi belədir.

– Kərkük folkloru ilə Azərbaycanda ilk dəfə siz məşğul olmusunuz. Necə oldu ki, sizdə bu xalqın folkloruna maraq yarandı?

– Kərkük folkloruna və ləhcəsinə məndə maraq hələ tələbə olanda yaranmışdı. Görkəmli şairlərimizdən Rəsul Rza, Qasım Qasımzadə və Bəxtiyar Vahabzadə 1959-cu ildə İraqa gedərək Füzulinin qəbrini ziyarət etmiş, Kərkük və çevrəsində yaşayan azərbaycanlılarla görüşmüş, dönəndən sonra mətbuatda hamının diqqətini cəlb edən məqalələrlə çıxış etmişdilər. Xüsusən, R.Rzanın «Uzaq ellərin yaxın töhfələri» adlı məqaləsi ədəbi hadisəyə çevrilmişdi. Şairin nümunə kimi verdiyi bayatılardan görünürdü ki, dilləri dilimizdən fərqlənmir. Bunu böyük şair və böyük insan R.Rza xüsusi vurğulayırdı. Kəndçimiz şair Rasim Kərimli Akademiyanın Dilçilik İnstitutunda işləyirdi. O, institutun direktoru, akademik M.Şirəliyevə bildirmişdi ki, mən İraqda işləməyə gedirəm. M.Şirəliyev məni çağırıb xeyli söhbət edəndən sonra mənə tövsiyə etdi ki, «Kərkük dialekti» barədə material yığım. Razılaşdım. 1969-cu ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə etdim.

– Qəzənfər müəllim, İraqda işlədiyiniz dövrlərdə «Altı il Dəclə-Fərat sahillərində» kitabını yazmısınız. Bu kitab böyük oxucu kütləsinin marağına səbəb olub. Orada elə məsələlər var ki, ilk dəfə siz qələmə almısınız. Çünki həmin mövzularda yazmaq qadağan olunmuşdu. Kitab işıq üzü görərkən müəyyən çətinliklərlə üzləşmisinizmi?

– İnsan özü də, yaratdıqları da zəmanə ilə hesablaşır. Adını çəkdiyiniz kitabımda o vaxt deyə bilmədiyim məsələlər çox oldu. Onlardan biri də Nücum elmi ilə bağlı məsələ idi. Lakin bu işdə «Yazıçı» nəşriyyatının direktoru, rəhmətlik Əjdər Xanbabayev və kitabın redaktoru, dostum Ayaz Vəfalı mənə çox kömək etdilər.

– Həmin kitabda nələri deyə bilməyibsiniz?

– Tale, qismət, qəzavü-qədər, alın yazısı, «yazıya pozu yoxdur» kimi bəşəriyyəti dünya bina olandan düşündürən problemlər barədə danışa bilməmişdim. Taleyimdən razıyam ki, həmin problemlər barədə o vaxt yazmamışam. Elə məsələlər var ki, onlar insanan həyat təcrübəsilə və yaşla bağlı olur.

– Belə başa düşürük ki, bu məsələyə yenidən qayıdıbsınız. Siz tale, qismət, alın yazısı kimi məsələlərə inanırsınızmı?

– Mən yeddi ildən artıq bir dövrdə Mişel Nostradamusun görücülüyünə dair tədqiqat aparmış, şüurlu həyatım boyu cavabını tapmağa aciz olduğum, ürəyimdə tərəddüd və şübhələrlə götür-qoy etdiyim «alın yazısı, tale, qismət, yazıya pozu yoxdur» kimi bəşəri problemlərə bu ahıl çağımda cavab tapmışam. Qənaətim budur ki, insan həyata gəlməmişdən onun həyatı proqramlaşdırılırmış, daha qabağa gedərək deyə bilərik ki, təkcə insanlar deyil, bütün kainat sistemli şəkildə proqramlaşdırılır və belə demək mümkünsə kodlaşdırılırmış.

– Hələ 2000-ci ildə Nostradamusla bağlı kitabımızdan «Ədəbiyyat qəzeti» və «Dirçəliş, XXI əsr» jurnalında parçalar çap edilirdi. Kitab niyə ləngiyir?

– Yaxşı sualdır. «Nostradamusun möcüzəli aləmi» adlanan kitab indi çap prosesindədir. 700 səhifədən artıqdır. Mən bu kitabı «Ömür kitabı» hesab edirəm. Bu kitab mənim ömrümün 7 ilini əlimdən alıb. Dost-tanışdan, qohum-qardaşdan kənar salıb. Hardasa məni qocaldıb. Bunu zarafatla deyirəm, təvazökarlıqdan kənar olmasın, bu kitab elm, bilik mənbəyidir. Qədim Çin mütəfəkkiri, Konfuçinin maraqlı kəlamı vardır: «Elm, bilik elə bir həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdurur».

Ağır və gərgin əməyin nəticəsi olan bu əsəri yazarkən həyat yoldaşım ruhi rahatlığımı təmin etdiyinə, qəlbimi fikir, lüzumsuz qayğı və həyəcanlardan qoruya bildiyinə görə həqiqətən də həzz almışam, qocalmamışam.

– Qəzənfər müəllim, bir neçə il AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Müdafiə Şurasının sədri olmusunuz. Ədəbiyyatımızın bugünkü tədqiq səviyyəsindən razısınızmı və köhnə stereotip baxışlardan, sovet ideologiyasından, buxovlarından qurtula bilmişikmi?

– 1997-ci ildən 2006-cı ilə qədər dediyiniz Müdafiə Şurasının həmsədri olmuşam. İndi də həmin Şuranın üzvüyəm. Bilirsinizmi ki, çinlilərin qarğışa bənzər bir məsəli var: «Görüm səni keçid dövründə yaşayasan!» Əvvəllər bunun mənasını anlaya bilmirdim. İndi isə bunu təkcə mən yox, hamı bilir. Keçid dövrü ağrılı-acılı olur. Acı bağırsaq kimi uzanıb gedir. Belə bir vaxtda mənəvi dəyərlər tapdalanır. Bu vəziyyətdən çıxmaq özü vaxt tələb edir. Xüsusən də sovet ideologiyası ilə sıx bağlı olmaq zorunda qalan ədəbiyyatımız. İndi də AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda işləyirəm. Akademik Bəkir Nəbiyevin rəhbərliyilə «Azərbaycan ədəbiyyatı tarixi» yenidən işlənir. Birinci cild 2004-cü ildə çapdan çıxıb. 7 cild artıq hazırdır. Çapda olan cildlər də var.

– Bəs gənclərin elmə münasibəti sizi qane edirmi?

– Gənclərlə bağlı onu deyə bilərəm ki, 2002-ci ildən sonra ədəbiyyat elminə böyük axın başlanıb. Əvvəllər doktorluq və hətta namizədlik dissertasiyaları üzrə yalnız bizim şura fəaliyyət göstərirdi. Bəzən elə olurdu ki, 2–3 il müdafiə üçün növbədə dururdular. İndi belə şuralar Bakı Dövlət Universitetində, Naxçıvan, Slavyan və Dillər Universitetlərində, Akademiyanın Folklor İnstitutunda və s. mövcuddur.

– Hazırda hansı mövzular üzərində işləyirsiniz?

– AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda «Kərkük folklorşünaslığı müasir dövrdə» mövzusunu tamamlayıram. Gələn ilin avqust ayının sonunda 70 yaşım olacaq. Bu münasibətlə həm özümün məqalələr toplum və həm də görkəmli alimlərin mənim haqqımda yazılmış məqalələr toplusu üzərində işləyirəm.

– Qəzənfər müəllim, İctimai Televiziya Azərbaycan teleməkanında öz dəsti-xətti, orijinallığı ilə seçilən bir kanaldır. Bu yaxınlarda onun bir yaşı tamam oldu. Bir ziyalı kimi İctimai Televiziyanın fəaliyyətindən razısınızmı?

– İctimai Televiziyada gözoxşayan, könül açan, mənəvi dəyərlərimizi qorumağa yönəldilən müxtəlif proqramlar məni qane edir. Bu kanal qazanılanlarla kifayətlənməməli, gənclərimizin düzgün istiqamətləndirilməsi yolunda əlindən gələni əsirgəməməlidir. Adından da göründüyü kimi İctimai Televiziya, doğrudan da, ictimaiyyətin televiziyasıdır. Verilişlərinizin əksəriyyəti artıq xalqın dərin rəğbətini qazanıb. «Ovqat», hər bazar günü insanların ovqatını təzələyir. Keçən həftə Tovuz rayonunda çəkilişdə olan «Ovqat» mənim lap ürəyimdən oldu. Çünki həm veriliş gözəl idi, həm də mənim doğulduğum rayonun mənzərəli yerlərini göstərib məni bir daha gənclik illərimə qaytardınız. «Gerçəyin özü», «İşgüzar saat», «Aktual» verilişləri də diqqətəlayiqdir. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Zirəddin Qafarlı

«NOSTRADAMUSUN QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI İKİ KATRENİ VAR»*

«Məni sevindirən odur ki, böyük görücü münaqişənin bizim xeyrimizə həll olunacağını yazıb».

Q.Paşayev

– «Nostradamusun möcüzəli aləmi» kitabı üzərində neçə il işlədiniz?

– Kitab üzərində işləməyim və onun işıq üzü görməsi üçün tam səkkiz il lazım gəldi. Kitabın elmi redaktoru akademik Bəkir Nəbiyevdir. 2000-ci ildə kitabın müəyyən hissələri silsilə şəklində mətbuatda dərc edilib. 2001-ci ildə isə «Ədəbiyyat qəzeti»ndə, «XX əsr dirçəliş» jurnalında çıxıb. Amma sonra gördüm ki, bu işdə bir yarımçıqlıq var. Ona görə də təzədən işə başladım. Bunun ardınca Nostradamusla bağlı bütün kitabları, saytları araşdırdım. Bu düz 7 il çəkdi. Bəkir Nəbiyevdən ikinci dəfə xahiş etdim və akademikimizə təşəkkür edirəm ki, 760 səhifəlik kitabı yenidən elmi baxımdan redaktə etdi.

– Kitabın bəzi məqamlarına aydınlıq gətirmək üçün hansı ölkələrdə olmusunuz?

– İordaniyaya səfərim oldu və bu, çox ciddi bir məqamla bağlı idi. Nostradamusun beşinci senturiya, altıncı katrenində göstərilir ki, «Roma Papası bir ölkəyə gələcək. Papa geri döndükdən sonra həmin ölkənin rəhbərini İtaliyaya dəvət edəcək. Burada atadan sonra hakimiyyətə oğlu gələcək, ölkəni əmin-amanlıqla idarə edəcək». Bu hansı ölkədir? XX əsrin ikinci yarısına qədər heç bir Roma Papası İtaliya sərhəddindən kənara çıxmayıb. İkinci İohann Pavelsə 130 ölkədə olub. Tapdım ki, bu ölkələrin dördündə hakimiyyətə atadan

* Bax: «Xəzər» qəzeti, 2.07.2007. s. 15.

sonra oğul gəlib. Amerikanı da bura əlavə etsək, 5 ölkə olur. Ancaq Amerikada ata Buşdan sonra hakimiyyətə Klinton gəlib, sonra oğul Buş. Ona görə də Nostradamusun dedikləri Amerika Birləşmiş Ştatları üçün uyğun gəlmədi. Qaldı İordaniya, Suriya, Mərakeş, Azərbaycan. Bu ölkələrdə də atalardan sonra hakimiyyətə oğullar gəlib. Ancaq Roma Papası Hafiz Əsəd öləndən sonra Suriyaya gedib. İordaniyaya səfərim zamanı aydınlaşdırdım ki, kral Hüseyn 1999-cu ildə rəhmətə gedib və bundan sonra Roma Papası həmin ölkəyə səfər edib. Deməli, bu ölkə də deyilənlərlə uyğun gəlmir. Qaldı Azərbaycan. Zamanında Roma Papası Azərbaycana gəlib və onu ümummilli liderimiz Heydər Əliyev qarşılayıb. Sonra Heydər Əliyevin layiqli davamçısı, onun oğlu İlham Əliyev hakimiyyətə gəlib. Mən burada faktdan çıxış edirəm. Ərəb ölkələrinin heç birində bir nəfər yəhudi yaşamır və yaşamayıb da. Deyim ki, Nostradamus hər iki tərəfdən yəhudi olub. Tarixən yəhudilər Azərbaycanda toplum şəkildə yaşayıblar. Və indi də yaşayırlar. Onların arasından dünyaşöhrətli şəxsiyyətlər çıxıb. İkincisi, Nostradamus hələ cavanlığından katolik dinini qəbul edib. O zaman dövlət qanunu belə idi ki, katolik dinini qəbul etməyən ölkədən çıxmalı idi. Bunun da səbəbi o idi ki, pravoslavlarla katoliklər arasında böyük mübarizə gedirdi. Bizdə isə bütün dinlərə qarşı dözümlülük var. Bakıda katolik kilsəsi üçün yer ayrılıb. Yaxınlarda onun tikintisi başa çatacaq. Bizim bütün xalqlara, münasibətimiz o qədər yaxşı olub ki, bunu Nostradamus da görüb. Katrenlərdə maraqlı bir cəhət var. Hadisə baş verənə qədər onu şərh etmək çətin olur. Hadisə baş verəndən sonra isə məsələ öz-özünə aydınlaşır.

– Kitabda göstərmisiniz ki, çar II Nikolay özünün taleyindən xəbərdar olduğu üçün son dərəcə gərgin anlar yaşayıb. Maraqlıdır, Nostradamus bilə-bilə katrenlərini bu şəkildə yazıb ki, hər bir fərd, şəxs öz taleyini dərhal görməsin?

– Həqiqətən, belədir. Kral II Henrixə yazdığı məktubda Nostradamus göstərir ki, gələcəkdə millətlərin, xalqların başına gələnləri göstərsəm bu çox böyük dərd olar. Bununla belə bildirir ki, gələcəkdə xalqların, insanların həyatında böyük dəyişikliklər olacaq. Doğrudan da, belədir. İnsan öz taleyini biləndə onu ruh düşkünlüyü bürüyür. İndi siz xərçəng xəstəliyinə düçar olduğunu bilən adamın taleyinə baxın. Yaşar Qarayev mənim yaxın dostum idi. O, xərçəng xəstəliyinə düçar olduğunu bilmişdi və həmişə gözündə qəribə bir imdad istəyi görünürdü. Deyim ki, onda fenomenal yaddaş da var idi. Bu bayatını bircə dəfə mən ona demişdim.

Keçdi ömrüm,
Gör necə keçdi
ömrüm…
Harayladım, dönmədi
Elə bil heçdi ömrüm…

O, bu bayatı ilə dünyasını dəyişdi. Demək istəyirəm ki, insan taleyini biləndə yaşayış onun üçün çox ağır olur. Nostradamus insanların taleyini ona görə açıq yazmırdı ki, bu həm cəmiyyətə, həm də insanlara böyük zərbə olardı. Amma müəyyən şeyləri açıq yazırdı. Hitlerlə bağlı hər şeyi açıqca yazıb.

Bir dəfə axşam, həmişə olduğu kimi, Nostradamusun katibi onunla vidalaşır və deyir, sabah yenidən görüşərik. Nostradamus isə cavab verir ki, bizim axırıncı görüşümüzdür, sabah görüşə bilməyəcəyik. O, oğluna məktubunda ölümünün dəqiq vaxtını və yerini də göstərir. Həqiqətən də, belə olur. Ümumiyyətlə, ona vergi uşaqlıqdan verilib. Nostradamus babasını çox istəyirmiş. Bir gün anası ilə onlara gedibmiş. Evlərinə qayıdanda birdən anasının əlindən çıxıb babasının yanına qaçır, onu qucaqlayıb ağlamağa başlayır.

Ətrafdakılar bilmirlər ki, balaca uşaq nə səbəbdən ağlayır. Özündən bunun səbəbini soruşanda, bilmədiyini söyləyir. Həmin gecə babası dünyasını dəyişir. Bir gün də stolun altına girib ağlamağa başlayır. Anası deyir ki, ay bala, niyə ağlayırsan, o da cavab verir ki, itimizə yazığım gəlir. Deyir bala, it həyətdə oynayır, ona heç nə olmayıb, ağlama. Həmin gecə it ölür. Bir dəfə yoldan üç din xadimi keçirmiş. Nostradamus onların birinin qabağında diz çökür və paltarının ətəyindən öpür. Buna görə ona təəccüblə baxanda bildirir ki, ətəyindən öpdüyü həmin şəxs gələcək Papadır. Nostradamusun ölümündən illər keçəndən sonra həmin şəxs Roma Papası olur.

– *Maraqlıdır, ömrünün sonunun nə zaman və necə bitəcəyini bilən adamın ürəyi partlayar. Öz taleyini görən Nostradamus buna necə dözürdü?*

– Bütün dünyanın taleyini görən adamın öz sonunu təbii qarşılaması başadüşülən olmalıdır. Dünyanı dərk edən adamlar onun gedişi ilə barışırlar.

– *Məşhur görücü Vanqa deyib ki, insan ölüm ayağında olarkən o dünyadakılar hazırlaşıb onu aparmağa gəlirlər…*

– Vanqa ruhların yaşadığını deyirdi. Bunu elm də təsdiq edir. Resublikanın baş reanimotoloqu professor Abbas Axundbəyli ilə söhbət etmişəm. O elə şeylər danışır ki, adam dəhşətə gəlir.

– *Qəzənfər müəllim, bütün bunlardan sonra insanın dünyanı necə dərk etməsi maraq doğurur.*

– Dünya bir pəncərədir, baxırıq. Pəncərənin önündən keçənlərdən başqa bir şey görmürük. Sadəcə mühakimə yürüdürük, dünya haqqında mühakimə yürütmək isə mümkün deyil. Nostradamus da bilirdi ki, elə şeylər var ki, insan ağlı onu dərk etmək gücündə deyil.

Kitabın senturiya 7, karten 2-də 26 Bakı komissarları ilə bağlı maraqlı məsələ var. Kitab çap ediləndən sonra müəyyən faktlar üzə çıxdı. Nostradamus yazır ki, «rəhbərləri

satacaq və onları qəfil yaxalayacaqlar…» Doğrudan da, Mikoyan komissarları satır və 26-ları gecə qəfildən tuturlar. Guya onların hamısını 1918-ci ilin sentyabrın 18-də öldürüblər. Lakin bizim Tiflisdə ilk hərbi attaşemiz 1919-cu ilin 26 fevralında göndərdiyi məxfi teleqramında göstərirdi ki, Şaumyan və başqalarının qaytarılması barədə danışıqlar gedir. Həştərxan qubernatoru ilə. Lenin yazırdı ki, 26-ların ən böyük xidmətləri odur ki, onlar ingilislərin bütün təzyiqlərinə dözüblər və guya ingilislərin Bakıya onlar tərəfindən dəvət olunması ilə bağlı sənədə imza atmayıblar. Sonrakı tarix də göstərdi ki, 26-ları güllələməyiblər. Onları Hindistana ona görə aparıblar ki, münasib vaxtda geri qaytara bilsinlər.

Qarabağla bağlı iki katren var:

«Saçları qısa qırxılmışları (yumrubaşlar) silahdan məhrum edəcəklər. Bu, münaqişənin müddətini xeyli uzadacaq. İçki atası (içki düşkünü) ildırımsürətli albanlara qarşı kələk işlədəcək. Özününkülərdən ayrı düşənlər məhv olacaqlar».

Senturiya 5, katren 91-də isə göstərilir ki, Mars, Şir bürcündə, Saturn isə Dolça bürcündə olanda yüngül silahlı alban süvari dəstəsini görəndə təəccüblənəcəklər. Həmin dövr 1993-cü ilin aprelin 27-dən iyunun 23-nə qədər olan zamanı əhatə edir. Hamısı dəqiqləşdirilib. Yeri gəlmişkən, tədqiqatçı Bardo Kidaqo bu katrendə Azərbaycanla bağlı maraqlı fikir irəli sürüb: «Albaniya deyəndə nədənsə onlar Balkanları göz önünə gətirirlər. Bu təsəvvür düzgün deyil. Əslində, qədim tarix və Nostradamus buna işarə edir, Albaniya Qafqaz və İran arasında indi Azərbaycan kimi tanınan ərazidir».

Nostradamusşünas Con Houq da məsələyə öz münasibətini bildirir: «Qədim Albaniya Zaqafqaziya regionudur. Katren XX əsrin 90-cı illərində baş verən Azərbaycan-Ermənistan münaqişəsindən bəhs edir. 1993-cü ilin aprel-iyun ayla-

rında erməni ordu hissələri özünün həlledici qələbəsini əldə edərək Dağlıq Qarabağı Azərbaycandan ayırdı. 90-cı illərin ortalarında Azərbaycan-Ermənistan münaqişəsi səngidi».

Burada göstərilən albanlar ildırımsürətli hücuma keçəndə içki atası hiylə işlətdi. O zaman Yeltsin belə təklif irəli sürdü ki, gəlin, məsələni sülh yolu ilə həll edək. Qonşu xalqlarsınız və bir də Rusiyanın Ermənistanla hərbi sazişi var. Bu da o demək idi ki, Ermənistan istənilən ölkə ilə müharibə edərsə, Rusiya Ermənistana kömək etməlidir. Qaldı Qarabağ məsələsinə, bu, bizim xeyrimizə həll olunacaq. Məni sevindirən də budur. Yoxsa Nostradamus «Bu, münaqişənin müddətini uzadacaq» kimi fikirlər söyləməzdi…

Şahbaz Şamiloğlu,
Elşad Eyvazlı

70 İL DƏCLƏ-FƏRAT SAHİLLƏRİNDƏ*

Yazımıza bu başlığı təsadüfən seçmirik. Onu respublikamızda tanıdan «Altı il Dəclə-Fərat sahillərində» kitabı olub. İlk dəfə bu kitabda dili dilimizdən, qanı qanımızdan olan türkmanlar barədə canlı və dolğun məlumat almışıq. İlk dəfə bu adam Kərkük ellərinin bayatılarını Sovetin dəmir hasarından keçirib bizə qovuşdurub. Yaxın vaxtlarda 70 yaşını qeyd etdi. Yubiley günlərində də ən çox söhbət açdığı Kərkük elləri barədə oldu. Danışığındakı ruhdan, həyəcandan belə çıxırdı ki, həmin torpaqlarda vur-tut altı il yox, bütün ömrü boyu yaşayıb. Sevib-sevilib. Beləliklə, müsahibimiz oxucuların daha çox «Altı il Dəclə-Fərat sahillərində» kitabından yaxşı tanıdığı və bu günlərdə möhtəşəm «Nostradamusun möcüzəli aləmi» ilə yenidən Azərbaycan kitabsevərlərinin görüşünə gələn professor Qəzənfər Paşayevdir.

– Qəzənfər müəllim, siz elmi-ədəbi ictimaiyyətdə ilk növbədə İraq türkmanlarının dilini, folklorunu, etnoqrafiyasını öyrənən, tanıdan və təbliğ edən bir alim kimi tanınırsınız. Sizin türkmanlara bu marağınız haradan qaynaqlanır?

– Dünyada hər şey maraqla başlayır. Bu maraq bəşəri əhəmiyyət kəsb edərsə, çox vaxt məhəbbətə çevrilir. Məndə İraqda yaşayan, azərbaycanca danışan müəyyən tarixi-siyasi səbəblərdən bizdən ayrı düşmüş, indi türkman adlandırılan, dili dilimizdən, adət-ənənəsi, həyat tərzi bir olan bacı-qardaşlarımıza maraq xalq şairi Rəsul Rzanın Kərkük bayatılarına «Uzaq ellərin yaxın töhfələri» adlı məqaləsi ilə başladı. O vaxt mən Xarici Dillər İnstitutunda 4-cü kursda oxuyurdum. Tale elə gətirdi ki, institutu bitirən kimi məni İraqa ingilis dili üzrə tərcüməçi işləməyə göndərdilər.

* Bax: «Vətəndaş həmrəyliyi» qəzeti, 19–22. 09.2007, s. 7.

Türkman folkloru və dialekti üzərində işləməyə göndərdilər. Türkman folkloru və dialekti üzərində işləməyə başladım. İllər keçdikcə bu maraq məcrasını dəyişərək, əsl məhəbbətə çevrildi. Əvvəllər hərdən mən də öz-özümə fikirləşirdim: «Məni İraq–türkman folkloruna, onu yaradıb-yaşadanlara belə möhkəm bağlayan nədir?» Bu zaman göz önünə ilk olaraq Azərbaycanda Kərkük folkloruna, Kərkük musiqisinə xalqın dərin məhəbbəti və doğmalıq hissi gəlir. Özüm üçün bir daha kəşf edirəm ki, doğmaları sevməmək mümkün olmadığı kimi, onu unutmaq, ona yad münasibət bəsləmək də mümkün deyil.

– *Qəzənfər müəllim, biz «türkmən» etnonimini bilirik. Orta Asiyada türkmənlər yaşayır. Alimlərin fikrincə, «türkmən» – türk adamı deməkdir. Eləysə, bəs «türkman» etnonimi nədir, bu barədə bir şey demək mümkündürmü?*

– Bəli, mümkündür. Hər şeydən əvvəl, onu deyim ki, Dədə Qorqud abidəsinin hələlik məlum olan Drezden və Vatikan əlyazma nüsxələrində bir söz əliflə, yəni «türkman» yazılıb. «Türkman» sözünə Nəsimi və Xətainin yaradıcılığında da tez-tez rast gəlinir:

Ərəbin nitqi bağlandı dilindən,
Səni kimdir deyən kim Türkmansan.
(Nəsimi)

Getdikcə tükənir ərəbin kuhi-məskəni,
Bağdad içrə hər necə kim türkman qonar.
(Xətai)

Yeri gəlmişkən, türkman ellərində ədəbi dil qaydaları sabitləşmədiyindən əvvəllər daha çox, indi isə az da olsa «türkmən» formasında yazanlara da rast gəlinir. Lakin bütün İraq türkman alimləri, Əta Tərzibaşı başda olmaqla «türkman» etnoniminə üstünlük verirlər. Biz türkmanın

ulutürk, əzəmətli, qeyrətli, böyük türk mənasını verdiyini üzə çıxarmışıq. İraq–türkman alimləri də etiraf edirlər ki, qocaman, ataman, qəhrəman, azman, şişman (çox kök adam), kəçəman (böyük kərtənkələ) və s. sözlərindəki «man» böyük, ulu, güclü, qüdrətli mənasını verir.

– Bilirik ki, siz İraq türkmanları barədə çoxsaylı kitablar çap etməklə bərabər, zəngin ekspozisiya toplayıb əvvəlcə Ədəbiyyat İnstitutunun Folklor Sarayında, sonra isə Nizami Muzeyinin xüsusi zalında nümayiş etdirmisiniz. Hazırda bu zəngin və qiymətli ekspozisiyanın taleyi barədə nə deyə bilərsiniz?

– Mən sizə təşəkkür eləyirəm ki, öz vəsaitim hesabına yaratdığım «İraq–türkman ədəbiyyatı və mədəniyyəti» daimi ekspozisiyası barədə ətraflı məlumatınız vardır. Həmin ekspozisiya artıq dövlətə məxsusdur. Mən onu Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə bağışlamışam. Cənab Prezident İlham Əliyev muzeylərin vəziyyəti ilə tanış olduqdan sonra bu muzeyin də təmirə ehtiyacı olduğunu qeyd etdi və muzeyin dünya standartlarına uyğun təmiri üçün vəsait ayrılmasına sərəncam verdi. Muzey indi təmirdədir.

– Bəlkə, Azərbaycanda bir Türkman Evi açmaq lazımdır?

– Mənə belə gəlir ki, İraqda vəziyyət düzələndən sonra Azərbaycanda da, Kərkükdə də bir çox ürəkaçan işlər görüləcək.

– Sizin geniş oxucu kütləsi arasında tanınmağınız «Altı il Dəclə-Fərat sahillərində» kitabı ilə başlayıb. Bu kitabı məşhurlaşdıran amillərdən biri də orada astrologiya ilə bağlı maraqlı məlumatların geniş yer almasıdır. Baxmayaraq ki, Sovet dövründə bu cür ədəbiyyata faktiki olaraq qadağa qoyulmuşdu… Üstündən neçə illər keçəndən sonra, daha doğrusu bu il «Nostradamusun möcüzəli aləmi» adlı iri həcmli bir kitab ortaya qoymusunuz. Ümumiyyətlə, bu işlə məşğul olmağınız sizin taleyə, alın yazısına inamınızdan doğmur ki?

– Doğrudan da, «Altı il Dəclə-Fərat sahillərində» kitabım xalq arasında çox sevildi. Özü də bu kitab astrologiya ilə bağlı məlumatlardan ibarət deyil. Kitabda ilk dəfə olaraq sovet dönəmində müqəddəs yerlərdən söz açmışam. İraq haqqında oxuculara ətraflı məlumat vermişəm. Kitab Bağdadda da böyük tirajla çap olundu. Qəzetlərdə çıxan məqalələrdə kitabı «İraq haqqında ensiklopediya» kimi qiymətləndirmişdilər.

Lakin sizin sözünüzdə bir həqiqət var ki, kitabın 130 min tirajla çap olunmasında orada verilən astrologiya ilə bağlı «horoskoplar» az rol oynamamışdır. Həmin horoskoplar yalnız Şərqlə bağlı olduğu, elmi müşahidələrə əsaslandığı üçün ciddi əhəmiyyət kəsb edir. Keçmişdə bu elmin adı «fələk»lik olub. Alimlərin illərlə müşahidə apararaq həmin mühitlə bağlı elmi qənaətlərə gəliblər. İndi isə sanki bu elm oyuncağa çevrilib. Bütün dünyanın horoskoplarını yığıb qəzetdə çap edirlər, televiziya ilə verirlər, təbii ki, onlar insan taleyi barədə düzgün məlumat verə bilməzlər. Hər mühitin öz horoskopu var. Siz baxın, Şimalda yaşayan xalqlar necə soyuqqanlı olurlar. Şərq xalqları çılğın, Afrikadakı qaralar isə daha çılğın olurlar. Bu mühitlə bağlı məsələdir.

O ki qaldı mənim taleyə, alın yazısına inanıb-inanmadığıma, mən əminəm ki, əzəli-əbədi olan tale, qismət, qəzavüqədər, alın yazısı hamını düşündürür. İnsan yaşa dolduqca cavabını tapmaqda aciz qaldığı bu məsələlər onu daha çox narahat edir. Şübhə və təsadüfləri götür-qoy edir. Keçmişi yada salır. Uşaqlıqda biz bir yerdə böyüdüyümüz dörd yoldaş idik: Valeh, Şəmil, Zirəddin və mən. Onların üçü də Yaradana asi olurdular. Mən isə yox. Onların üçü də dünyalarını dəyişdilər. İkisi faciəli şəkildə. Fikirləşirəm niyə belə oldu? İstər-istəməz tale, qismət, alın yazısı göz önünə gəlir. «Nostradamusun möcüzəli aləmi» kitabı üzərində 7 ildən çox işləmişəm. Bu da taledən gələn qismətdir. Mən indi

dünyanı tamam başqa cür hiss edirəm. Bəşəriyyətin qanunlarını yazan, əbədilik qazanan çox böyük alimlər tale, qismət, alın yazısı kimi bəşəri problemlərlə, bu dünyanı idarə eləyən bir qüvvənin olduğuna inanmışlar. Mən də inananlardanam. Və burada böyük yazıçı, filosof Çingiz Aytmatovun oğlu ilə söhbətini yada salmaq istəyirəm. Oğlu soruşanda ki, ata, yaradan var, yoxsa yoxdur? Çingiz Aytmatov deyir ki, Yaradanın olub-olmadığını heç kəs nə təsdiq, nə inkar edə bilməz. Bir halda ki, belədir, niyə onun varlığına inanmayaq? Bir halda ki, inam mənim qəlbimə rahatlıq gətirir, mən niyə inanmayım?

– Bildiyimizə görə siz həm də geniş tərcüməçilik fəaliyyəti ilə məşğul olursunuz. Bir mütəxəssis kimi Azərbaycanda tərcümə işinin səviyyəsindən razısınızmı? Bu iş, ümumiyyətlə, necə qurulmalıdır?

– Doğru deyirsiniz, mən Altı ildən artıq tərcüməçiliklə məşğul olmuşam. Ümumiyyətlə, lap gənclikdən – Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsində oxuyandan məndə tərcüməyə həvəs oyanmışdı. Onda institutda hər il ən yaxşı tərcümə (Azərbaycan dilindən ingilis dilinə və ya əksinə) müsabiqəsi keçirilirdi. Üçüncü kursda oxuyanda mən Abdulla Şaiqin «Məktub yetişmədi» hekayəsinə görə, dördüncü kursda Cəfər Cabbarlının «Firuzə» hekayəsinə görə müsabiqənin qalibi elan olunmuşdum. Mən İraqda tərcüməçi işləyib vətənə qayıdandan sonra mənə tərcümənin sirlərini öyrədən, tərcümə problemlərindən dissertasiya müdafiə edən müəllimim İsmixan Rəhimovun rəhbərlik etdiyi tərcümə kafedrasında müəllim işlədim. İki il tərcümədən dərs dediyim tələbələrim arasından indi filologiya elmləri doktoru, professor olan, istər ingilis dilindən, istərsə də Azərbaycan dilindən bir neçə uğurlu tərcümə kitabının müəllifi Zeydulla Ağayev çıxdı. Tərcümə ilə bağlı şəxsi yaradıcılıqlarıma gəldikdə deməliyəm ki, Aleksandr Dümanın

«Qafqaz səfəri» («Yazıçı» – 1985, Həmid Abbasovla birgə), S.Benetin «Necə yaşayasan, yüzü haqlayasan» («Yazıçı» – 1989), Aqata Kristinin «Mavi qatarın sirri» («Sabah» – 1995) və s. əsərləri tərcümə etmişdim.

Tərcümə işindən razısanmı? Maraqlı sualdır. Əvvəllər orijinaldan tərcümə etmirdik. Bu işin əsası Bayronun «Şərq poemaları» ilə qoyuldu. Ancaq necə? Dosent İsmixan Rəhimov hərfi tərcümə etdi. «Abidos gəlini»ni Bəxtiyar Vahabzadə, «Gavur»u Aslan Aslanov və s. tərcümə etdilər. O vaxt bu sahədə nə baza vardı, nə də mütəxəssislər. İstər alman, istər fransız, istərsə də ingilis dilləri üzrə 50-ci illərin sonlarında institutlarda çalışan müəllimlərin 90 faizdən çoxu başqa xalqların nümayəndələri idi. İndi Dillər Universitetində dillər üzrə tərcümə kafedraları, tərcümə fakültələri və şöbələri fəaliyyət göstərir. İndi istər yazılı, istərsə də şifahi tərcümələr üzrə yüksək səviyyəli mütəxəssislərimiz var. Orijinaldan tərcümə işi qaydaya salınıb. Neçə illərdi ki, Respublikada Tərcümə və Ədəbi Əlaqələr mərkəzi fəaliyyət göstərir. Yazıçı Afaq Məsud mərkəzin direktoru kimi böyük işlər görür. Sevindirici haldır ki, gənclərimiz istər Şərq, istərsə də Qərb ölkələrində təhsil alır. Bu yolla da onlar həm əcnəbi xalqlarının dillərini öyrənir, həm də ədəbi əlaqələrə xidmət edirlər. Bütün bunlar əsas verir deyim ki, tərcümə işinin gələcəyi barədə narahatlıq keçirməyə əsas yoxdur.

– Elm aləmində siz geniş diapozonlu bir alim kimi tanınırsınız. Həm dilçi, həm folklorşünas, etnoqraf, muzeyşünas və s. Özünüzü daha çox bu sahələrdən hansının adamı hesab edirsiniz?

– Təvazökarlıqdan kənar olmasın, mən özümü həm də ədəbiyyatşünas hesab edirəm. Filologiya elmləri namizədi Gülzar İbrahimqızı ilə birgə hazırladığım «Hüseyn Arif – 80» (2004), «İsi Məlikzadə – 70» (2004), «Tofiq Bayram – 70» (2005), «Əlibala Hacızadə – 70» (2005), «Fikrət Qoca – 70»

(2005), «Akademik Bəkir Nəbiyev – 75» (2005) portret kitablar çağdaş ədəbi prosesə münasibətilə seçilən nümunələrdəndir. Bundan əlavə, Ə.Bəndəroğlu ilə birgə «Çağdaş İraq şeirindən seçmələr» (2001) kitabını buraxmışıq. Giriş məqaləsilə «Nəsiminin İraq divanı» («Yazıçı» – 1987), «Rəsul Rza. Ağlayan çox, gülən hanı?» («Gənclik» – 2007 Ə.Bəndəroğlu ilə birgə) kitablarının çapına nail olmuşam. Bir çox yazıçı, şair, ədəbiyyatşünas alimlərimizin yaradıcılıqlarına məqalələr həsr etmişəm: Nəsimi (2 məqalə), Füzuli (2 məqalə ABŞ və İraqda), M.F.Axundov, Səməd Vurğun, Rəsul Rza, Hüseyn Arif, Qabil, Əzizə Cəfərzadə, Elçin, Tofiq Bayram, İsi Məlikzadə, Nəriman Həsənzadə, Nahid Hacıyev və başqaları. Akademiklərdən Bəkir Nəbiyev, Vasim Məmmədəliyev, İsa Həbibbəyli, Budaq Budaqov, AMEA-nın müxbir üzvləri Abbas Zamanov, Yaşar Qarayev, Azad Nəbiyev, f.e.doktoru Lalə Əliyeva və başqaları haqqında da yazılarım var. Bundan əlavə, Nizami adına Ədəbiyyat İnstitutunda, BDU-da, Naxçıvan Dövlət Universitetində neçə-neçə doktorluq və namizədlik dissertasiyalarının opponenti olmuşam. Neçə ildir ki, ədəbiyyat üzrə Dissertasiya Şurasının üzvüyəm. Bununla belə, özümü əsasən folklorşünas hesab edirəm. Doktorluq müdafiəm də folklordan olub.

– Sonda bir daha türkman məsələsinə qayıdaq. Qəzənfər müəllim, bu gün İraqda situasiya necədir? İraq türkmanları bu vəziyyətdən bütöv çıxa biləcəklərmi?

– Nostradamusun görücülüyünə kitab həsr etsəm də İraqda vəziyyət barədə nəsə demək çətindir. Ölkədə aranı elə qatıblar, elə qarışdırıblar ki, Allahın özü də bu işdən baş çıxara bilməz. Bu günlərdə Kərkükdən yüksək səviyyəli heyət gəlmişdi. Onların sözündən anladım ki, Kərkükə xüsusi status almaq üzərində gərgin iş gedir. Əgər onların dedikləri çin olsa, İraq türkmanları vəziyyətdən çıxa biləcəklər.

İbrahim Quliyev

TANINMIŞ ALİMLƏ SƏMİMİ SÖHBƏT

*O, dünəni bu gün kimi xatırlayır…**

Ədəbiyyatşünas, folklorçu, publisist, dilçi və tərcüməçi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Tovuz mahalında dünyaya göz açıb. Bütün varlığında Tanrı və insan sevgisi var. Danışdıqca elə bilirdim şeir dinləyirəm…

Kənddən şəhərə gəldi, şəhərə sığmayıb Dəclə-Fərat sahillərinə qayıtdı, aşıq Şakiri dinlədi, Mikayıl Azaflıya vuruldu, Səməd Vurğun və Rəsul Rza zirvələrinə səyahət etdi, ömürgün yoldaşı ilə yol-yoldaşı olmaqdan yorulmadı, «uşaq ikən anamı itirmişəm», – deyəndə səsi titrədi. Ömrünün ən müdrik çağında da uşaq kimi saf, səmimi idi. Nə qədər bayatı desəm, yorulmaram», – dedi. Həmin an mənə elə gəldi ki, dünyanın ən yaxşı adamları elə bayatı bilən adamlardır…

– O dövrün və bugünün Bakısı – hansı daha ürəyinizcədir?

– Mən Bakıya 1957-ci ildə gəlmişəm. O vaxtlar Bakı belə deyildi. Nərimanov prospektindən o yana, demək olar ki, evlər yox idi. Bir az kənarda ev verəndə insanlar sevinmirdi. Düzü, hamı ev ala bilməzdi. İndi zaman çox dəyişib, Bakı sürətlə inkişaf edib. Mən həmişə deyirdim ki, ilahi, nə olaydı, sosialist inqilabı Bakıya 20 il gec gələydi. Onda gör Bakı necə olardı! O arzum indi yerinə yetir. Müqayisə eləmək olmaz. Ancaq insanda bir nostalji hiss olur axı, məndə də o nostalji qalıb. İndi o küçələrdən keçirəm, həmin küçələr deyil. Bəzən ürəyimdə bir həsrət qalır ki, bu niyə belə dəyişdi. Bakıda maşınlar yox idi. İndi hər şey sürətlə inkişaf edir.

– Sizin vaxtınızda kənddən Bakıya gələn cavanları barmaqla saymaq olardı, indi Bakı az qala rayon mərkəzini xatırladır…

– Bakıya insanların axını təbiidir. Biz keçid dövrünü yaşadıq. Qarabağ müharibəsi də bir tərəfdən… Bakıya axın

* Bax: «Ulduz» jurnalı, № 10, 2010, səh. 4-6.

ona görə çoxdur ki, burada yaşayış səviyyəsi üstündür. Mən Bakıya çoxları kimi kasıb ailədən gəlmişdim. Gəncədə Zərdabi adına İnstitutda oxuya bilərdim. Bəs məni Bakıya nə gətirdi? Mehdi Hüseynin «Abşeron» romanı. Elə vurulmuşdum o romana, gəl görəsən. Bakıya gələndən sonra Mehdi Hüseynin təsvir elədiyi pilləkəni əlimlə tuta-tuta qalxıb düşürdüm. Lap Tahir kimi… təki o hisləri yaşayım. Elə arzular indi də insanlarda var. Ona görə də Bakıya axın olur.

– O zamankı ədəbiyyat zamanın sürəti ilə ayaqlaşa bilirdimi və yaxud cəsarət sarıdan korluq çəkmirdi ki?

– Ədəbiyyat formalaşmışdı. Düzdür, kənd həyatından çox yazılırdı, ona görə ki, biz aqrar ölkə idik. Bunu danmaq olmaz. İndi ədəbiyyatımızda bir yeknəsəklik var. Bu, keçid dövrünün ağrılı-acılı bir nəticəsidir, hər şeyə təsir edir. Mədəniyyətə, mənəviyyata, incəsənətə, bir sözlə, hər şeyə. Sosializm realizmi deyirdik ədəbiyyatda hakim cərəyana. Ədəbiyyat onun məngənəsi altında nəfəs alırdı. Mən «ədəbiyyatımızda yeknəsəklik var» deyəndə özümü də günahkar hesab edirəm, görünür az oxuyuram, yaşım imkan vermir, elmlə məşğul oluram. Ayda bir-iki adama opponent olmalıyam, üç yüz səhifəni oxumalıyam. Ancaq oxuduqlarımdan və eşitdiklərimdən belə qənaətə gəlirəm ki, ədəbiyyatda bir formalaşma gedir. Əlbəttə, o dövrdə cəsarət də var idi. İndi söz, mətbuat azadlığı var, amma baxır bu azadlıqdan necə istifadə edirlər. Bizim gənclərimizdə bir laqeydlik əmələ gəlib. İnsan ki var-dövlət barədə düşünür, onda vətənə, xalqa, mədəniyyətə maraq azalır. Bizi bu laqeydlikdən ancaq ədəbiyyat xilas edəcək. Ədəbiyyat kimi insanların şüuruna təsir edən ikinci bir vasitə tanımıram. Biz ədəbiyyata öyrənə-öyrənə gəlmişik. Deyirlər, məsələn, filankəs Tolstoyun şinelindən çıxıb. Səməd Vurğunun gənclərə nə qədər təsiri olub, elə indi də o təsir hiss olunur. Azərbaycançılığı ortaya gətirən görkəmli şairimiz Abbas Səhhət olub. «Vətənimdir» şeiri ilə.

Sonra gəlir Səməd Vurğunun «Azərbaycan» şeiri. İndi bəzi ağzıgöyçəklər deyir ki, ay belə oldu, ay elə oldu. Səməd Vurğun «Azərbaycan» şeirini yazdı, bu cəsarət deyildimi? Rəsul Rza «Sarı dana»nı yazdı. Bu cəsarət deyildimi? Xalqa bağlılığı Rəsul Rza qoymuşdu ortaya. İndi təbii ki, cəsarət daha böyükdür. Ancaq sözün siqlətimi deyim, təsirimi deyim, azalıb. Bilirəm oxuyanlar məni qınayacaqlar. Bu, mənim ürəkdən gələn sözlərimdir. Düşüncəm belədir. Başqa cür danışsam səmimi olmaram.

– Altı il Dəclə-Fərat sahillərində yaşayan Qəzənfər Paşayev bir də o yerlərə dönmək istəyərdimi?

– O illər mənim gəncliyimlə bağlıdır. Mən 1962-ci ildən o kitab üzərində işləmişəm. Material toplamışam, kitab 1985-ci ildə işıq üzü gördü. Mən ildə bir dəfə İraqa gedib-gəlirəm. Getməsəm ürəyim sakitlik tapmaz. İraqı ikinci vətənim hesab edirəm. İraqın səfiri Rəşid Behbudov adına Mahnı Teatrında «Kərkük gecəsi» adlanan tədbirdə bəyan etdi ki, Qəzənfər Paşayev bizim fəxri vətəndaşımızdır.

– Televiziyada «Ovqat» verilişindəki çıxışlarınıza baxanda mənə elə gəlir ki, gözəl şeir dinləyirəm. Ən çox sevdiyiniz şeir və musiqi?

– Çox təşəkkür edirəm. Mənə bunu çox adam deyir. Yəqin bu Allahdan, təbiətdən, valideynlərdən gəlmədir. Heç vaxt yalan danışmıram. Ola bilsin ki, hardasa bir müqəddəs yalan olsun. Kiminsə çörəyini kəsəcəklər, kimisə işdən çıxaracaqlar, o yalanla onun qarşısını alıram. Mən o vaxt Bakıya gəlib, oxumağa şərait olmadığından kəndə qayıtdım. Radioda Aşıq Şakir oxuyurdu. Şövkət Ələkbərovanın ifasında Səməd Vurğunun «məni dəryada qərq etsə də zaman, Vurğun öldü deməyin» misralarını eşidib elə ağladım ki… Çünki anasız böyümüşdüm. Mən Səməd Vurğun yaradıcılığına onda vuruldum. Yaxşı yadımdadır, ümummilli liderimiz Heydər Əliyev bahar bayramı ilə bağlı Qoşa qala qapı-

sına gəlmişdi. O zaman tilsimli bir səs ətrafı bürüdü. Nazpəri Dostəliyeva Azaflı Mikayılın «Ağarmayın ay saçlarım, amandır» mahnısı oxuyurdu. Mən onda gördüm ki, şeirlə musiqi vəhdətdə olanda necə təsirli olur. Hələ orda oxunmayan bir bənd var:

Olmazmı ki, qəm çəkincə güləsən
Nədən oldu yanıb döndün külə sən?
Qırx yaşına çatmamısan hələ sən,
Ağarmayın ay saçlarım, amandır.

Mən orda aşıq Azaflıya təzədən vuruldum. Hiss elədim ki, böyük Heydər Əliyev də çox məmnunluqla dinləyirdi. Sonra saz sənətində böyük inkişaf getdi, müsabiqələr keçirildi. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə UNESCO-da saz sənəti nümayiş etdirildi, muğama bütün qapılar açıldı. Biz gənc olanda tələbələr arasında böyük diskussiya gedirdi. Mən başda olmaqla bir qrup deyirdi ki, ən yaxşı şair Səməd Vurğundur, o biri qrup deyirdi ki, Rəsul Rzadır. Qızğın mübahisəmiz bəzən münaqişəyə çevrilirdi. Onda başa düşmürdüm ki, biz Azərbaycanın iki zirvəsindən danışırıq. Bir sirr açacağam. Şair Tofiq Bayram Əmircan-Bakı mühitindəndir. Amma onun bir qəzəli də yoxdur, niyə? Çünki Tofiq Bayramın atası Ağstafaya işləməyə gedib və kiçik Tofiqi də özü ilə aparıb. O bir müddət Qazax poeziya mühitində yaşadığından qoşmalar yaradıb. Bax budur təsir.

– *Soyadınızı dəyişsəniz, nə götürərdiniz?*

– 1968-ci ildə kərküklü Şakir Sabir Molla Pənah Vaqifin yubileyinə gəlmişdi. Mənə Qəzənfər Paşalı dedi. Mən əlli-altmış il Paşayev olum, birdən soyadımı dəyişim, bu, çox çətindir. İnşallah, oğlum və nəvəm Qəzənfər dəyişər.

– *Kasıblıqla yazıb-yaratmaq Sizin üçün çətin deyildi ki?*

– Həyat həmişə keşməkeşlidir. Əgər belə olmasa, insanlar onun açarını tapar, məhv edərlər. Hərə öz pəncərəsindən baxır və baxdığını görür. Həyatın hər üzü var. Yəqin imkansızlıq məsələsini nəzərdə tutursunuz. Sabit Rəhmanın kiçik bir otağı varmış, o, səhərlər çarpayısını tavandan asarmış. Gündüzlər işləyər, gecələr çarpayısını endirər və yatarmış. Amma yazdığı əsərlərə baxın. Hər şey olanda insan dərk edir ki, dünya fani imiş. Həvəsdən düşür.

– *Özünüzdən narazı olduğunuz vaxtlar olubmu?*

– Cavanlıqda etdiyim bəzi səhvlərimə və günahlarıma görə özümü qınayıram. Yəqin ona görə insanlar müqəddəs yerlərə gedirlər ki, günahlarını yusunlar. İnsan günah işlədə bilər, onu dərk edəndə peşmançılıq çəkərsə, Yaradan onu bağışlayar.

– *İlk sevgi məktubunuzu saxlayırsınızmı?*

– Olub belə şeylər, ancaq qalmayıb. İlk sevgim beşinci sinifdə oxuyanda olub, ancaq institutda oxuyanda bir qızı sevirdim. O, zərgər qızı idi, mən də kasıb bir oğlan, ona yaxınlaşıb söz dedim, məni təhqir elədi. Ondan sonra bu barədə düşünmədim. İnstitutu bitirib xaricdə tərcüməçi işlədim. Gec evləndim, ancaq mənim, bəlkə də, öz üzərimdə işləməyimə o hadisə çox təsir etdi. Mən onun acığına böyük adam olacağam – dedim. Gecə-gündüz çalışdım. Beş övladım, çoxlu nəvələrim var. Həm ata, həm də baba kimi çox xoşbəxtəm.

– *Uzun bir yola çıxsanız, yol yoldaşı kimi götürərdiniz?*

– Yola çıxmaq asan deyil. Kərkükdə belə bir deyim var:

Yoldaş tanı, yola var,
Yolda yüz min bəla var.

Gərək yol yoldaşın ürəyincə ola. İnsandan, bəşəri ideyalardan, poeziyadan danışsın. Həyat yoldaşımla yola çıxmaq mənim üçün çox rahat olur. Lap gənclikdən yoldaşım gedə bilməyəndə, övladlarımdan bir-ikisini özümlə götürərdim.

– İndi də bayatı yaranır. Niyə çağdaş bayatılar öz sələfləri kimi folklor nümunəsinə çevrilmir?

– Yayda İsmayıllıya – şair Musa Yaqubgilə qonaq getmişdim. Poeziyadan söhbət düşmüşdü. O dedi ki, bəzən şeir yazanda bayatıdan utanıram. Bayatı o qədər dərindir. Rəsul Rza 1980-ci ildə ölümünə bir il qalmış silsilə şeirlər yazmışdı. İndi ordan bir-iki bayatı deyim:

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana yanında,
Tökür qan-yaş balası.

Bağdaddan karvan gəlir
Qəmli, pərişan gəlir,
Kimlər qurban kəsilib
Sularım al-qan gəlir.

Görürsünüz, çağdaş bayatılar əsl şair qələmindən çıxanda sələfləri kimi əsl folklor nümunəsinə çevrilir. Bu qədim janrda fikri necə də aydın ifadə etmək olur. Onun təsir gücü daha qüvvətlidir, deyilmi?

– İndi nənələr bayatını, analar laylanı yadırğayıb. Amma inanmaq olmur ki, Qəzənfər Paşayevin nəvələri babalarının dilindən bayatı eşitməsinlər…

– Mənim həyat yoldaşımın gözəl səsi var, uşaqları həmişə layla ilə uyudub. Layla ilə, milli musiqi ilə böyüyən uşağın qəlbində xeyirxahlıq, məhəbbət hissi daha güclü olur. Bayatını çox sevirəm. Yeri gələndə məclislərdə, evdə ondan istifadə edirəm.

– Bəlkə, bir neçə bayatı deyəsiniz?

– Mən nə qədər bayatı desəm yorulmaram.

Dərdə kərəm,
Dərdim çox, dərdə kərəm.
Qoşmuşam qəm cütünü,
Sürdükcə dərd əkərəm.

Leyli, sən nə Leylisən,
Kimə saldın meyli sən?
Sən bəyəndin, sən sevdin,
Hələ də gileylisən.

Bir daş atar,
Bir kirəc bir daş atar,
Tərəzin əyiləndə,
Hər gələn bir daş atar.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Məhəbbət ölüncədi

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı,
Kəsilib gəlib gedən,
Yoxsa yollar bağlıdı?

Mən dəlidən,
Dost gəlir Məndəlidən.
Ay Allah, Leylimə bax,
Küsübdü mən dəlidən.

Hər aylar;
Hər həftələr, hər aylar.
Qul qardaşım Bağdaddan
Gəncə deyib haraylar.

– «Ulduz»a sözünüz varmı?

– «Altı il Dəclə-Fərat sahillərində» kitabım haqda mərhum şair-alim Qasım Qasımzadənin «Ömrün əbədiləşən illəri» məqaləsi ilk dəfə «Ulduz»da dərc olunub. «Ulduz»un daimi oxucusu olmuşam. Bu dərgi istedadlı gənclərin tanınmasına, yeni qüvvələrin gəlməsinə kömək edir. Sağ olun ki, biz nəsli də unutmursunuz. Həmişə beləcə adınıza layiq ulduz kimi parlaq olmağınızı arzulayıram.

Söhbətləşdi
şairə Fərqanə Mehdiyeva

ELMİMİZƏ TƏMƏNNASIZ XİDMƏT

DOKTORLUQ VƏ NAMİZƏDLİK DİSSERTASİYALARINA RƏSMİ OPPONENT RƏYLƏRİM

ƏDƏBİYYATŞÜNASLIQ VƏ FOLKLORŞÜNASLIQ ELMİMİZİN İNKİŞAFI YOLUNDA GÖRDÜYÜM İŞLƏR

İyirmi ilə yaxındır ki, Nizami adına Ədəbiyyat İnstitutunda Müdafiə Şurasının üzvü, Şuranın sədr müavini, həmsədri olmuşam. Elə indi də şurada sədr müaviniyəm.

Üç nəfər aspirant və dissertantın elmi rəhbəri olmuşam.

Çoxsayda doktorluq və namizədlik dissertasiyaları üzrə rəsmi opponent olmuşam. Təfsilatı ilə dissertasiya işlərinə rəsmi rəy vermişəm.

Namizədlik və doktorluq dissertasiyalarına əlavə rəy vermişəm.

Təmənnasız görülən işlərin miqyası barədə təsəvvür yaratmaq it-bat olmaqdan qorumaq və gələcək nəsillərə əmanət qoymaq məqsədilə rəylərimi çap edirəm. Ali Attestasiya Komissiyasının nizamnaməsinə uyğun olaraq dissertant və aspirantlarımın dissertasiyalarına verdiyim rəylər qısadır. Oxucu və tədqiqatçılardan bunu nəzərə almalarını təmənna edirəm.

Rəhbərlik etdiyim aspirant və dissertantlarımın dissertasiya işlərinə rəsmi rəyim.

ÜLKƏR AZAD QIZI NƏBİYEVANIN «KİTABİ-DƏDƏ QORQUD VƏ FOLKLOR ƏNƏNƏLƏRİ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

«Kitabi-Dədə Qorqud» elə bir əzəli-ədəbi abidədir ki, onun daha möhkəm, daha davamlı, daha möhtəşəm olmasında bir kərpic qoyanın da, min kərpic qoyanın da əməyi təqdirlə yad edilməlidir.

Biz, hər şeydən əvvəl, Ülkər Azad qızı Nəbiyevanın «Kitabi-Dədə Qorqud və folklor ənənələri» adlı namizədlik dissertasiyasını bu baxımdan dəyərləndiririk.

Araşdırıcı dissertasiya işində bütün diqqətini türk xalqlarının qədim abidəsi «Kitabi-Dədə Qorqud»da yer alan mərasimlərə, bayramlara, ad qoyma, qonaq qarşılama, bəylik vermə kimi çox maraqlı adət-ənənələrin tədqiqinə yönəltmişdir. Eləcə də abidənin folklor qaynaqları ilə bağlılığına da ciddi fikir vermişdir.

Eyni zamanda Qorqudşünaslıqda öz əksini hər tərəfli və layiqincə tapmamış, lakin abidədə geniş yer alan ilkin və ya arxaik janrları – alqışlar və dualar, qarğışlar, ağılar, inanclar və s. tarixi-nəzəri, müqayisəli-tipoloji istiqamətdə araşdırılmışdır.

Bütün bunlar dissertasiyanın aktuallığını şərtləndirən amillərdən olub, tədqiqat işinin elmi yeniliyini qeyd-şərtsiz təsdiqləyir.

Bizi ən çox qane edən odur ki, bütün tədqiqat boyu dissertantın şəxsi fikirləri üstünlük təşkil edir. «Kitabi-Dədə Qorqud»la bağlı bütün tədqiqatlarla, məxəzlərlə dərindən tanış olan araşdırıcının bəzi namizədlik dissertasiyalarında

rast gəlinən, başqa tədqiqatçıların fikrini sadalamaqla kifayətlənmək kimi neqativ hallara şükürlər olsun ki, bu əsərdə təsadüf edilmir. Əksinə, dissertant yeri gəldikcə sübut-dəlillərlə ən görkəmli qorqudşünaslarla belə mübahisəyə girişməkdən çəkinmir, öz mövqeyini ön plana çəkir. Məsələn, eposun ozan sənəti ilə bağlılığı və eləcə də abidənin islamdan çox öncə yarandığı məsələsində bu özünü bariz şəkildə göstərir.

Üç fəsildən ibarət dissertasiyada problemlər ciddi elmi süzgəcdən keçirilmiş, dissertant qənaətbəxş elmi nəticələrə gəlmişdir. Çəkinmədən, demək olar ki, əsər yüksək elmi səviyyədə yazılmışdır. Bizə qalırsa Ülkər Azad qızı Nəbiyevanın «Kitabi-Dədə Qorqud və folklor ənənələri» adlı tədqiqat əsəri namizədlik dissertasiyaları qarşısına qoyulan bütün tələblərə cavab verir. Odur ki, əsərin müdafiəyə buraxılmasını tövsiyə edirəm.

Elmi rəhbər: **Qəzənfər PAŞAYEV**
fil.e.d., professor

MÜŞFİQ TOFİQ OĞLU BABAYEVİN «CON STEYNBEK YARADICILIĞI AZƏRBAYCAN ƏDƏBİYYATI İLƏ MÜQAYİSƏLİ KONTEKSTDƏ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Dissertasiyada XX əsr Amerika ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, Nobel mükafatı laureatı Con Steynbekin yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli şəkildə öyrənilmişdir. Sərhəd bilməyən ədəbi əlaqələrdən bəhs edən bu əsər tamamilə yeni və orijinaldır.

Qeyd edim ki, 2007-ci ilin mart ayında dissertant işi «Con Steynbek yaradıcılığında mühit və şəxsiyyət problemi» adı ilə tamamlamışdı. Lakin Universitet rəhbərliyinin, Dissertasiya və Elmi şuraların xarici ədəbiyyatın tədqiqinə həsr olunan dissertasiyaların Azərbaycan ədəbiyyatı ilə müqayisəli aparılması barədə qərarı hər şeyi dəyişdi, həm də yaxşıya doğru dəyişdi. Dissertant özündə güc və iradə taparaq əsəri yenidən işlədi.

Əsər giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Əsərin girişində tədqiqatçı Azərbaycan–ABŞ ədəbi əlaqələrinə nəzər salmış, dissertasiyadakı yeniliklərdən söz açmışdır.

Dissertasiyanın I fəsli «Con Steynbek yaradıcılığında Şərq fəlsəfəsi: Sufilik və transsedentalizm», ümumiyyətlə, ilk dəfədir tədqiqata cəlb olunur. «Con Steynbek yaradıcılığında xalq taleyi» adlanan II fəsil başdan-ayağa Azərbaycan ədəbiyyatı ilə müqayisəli şəkildə, Azərbaycan ədəbiyyatı kontekstində işlənmişdir.

Dissertasiyanın «Con Steynbek yaradıcılığında «orta amerikalı problemi» və «Amerika həyat tərzi konsepsiyası»

adlanan III fəsli də yüksək elmi səviyyədə tədqiqat süzgəcindən keçirilmişdir. Əsərdə qarşıya qoyulan məsələlər elmi cəhətdən öz həllini tapmış, dissertant istəyinə nail olmuşdur.

Tədqiqatçının gəldiyi nəticələr inandırıcıdır. Dissertant tədqiqat işinə dair xaricdə və Azərbaycanda mötəbər mənbələrdə 8 məqalə çap etdirib. Araşdırıcının ABŞ-da «Con Steynbek yaradıcılığında Sufilik və transsendetalizm» adlı məqaləsi «Steinbeck Review» dərgisində may ayında çıxıb.

Tədqiqatçının «Azərbaycan» jurnalında iki məqaləsi çap olunub. Eləcə də onun dissertasiyanı tam əhatə edən «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» monoqrafiyası çap olub (Bakı – 2009).

Bizə qalırsa, Müşfiq Babayevin «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» adlı elmi işi Ali Attestasiya Komissiyasının namizədlik dissertasiyaları qarşısında qoyduğu tələblərə cavab verir. Odur ki, onun müzakirə edilməsini və müdafiəyə buraxılmasını tövsiyə edirəm.

Elmi rəhbər: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
24.06.2009

P.S. *Müşfiq Babayev 31.01.2012-ci il tarixdə dissertasiyasını müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi adına layiq görülmüşdür.*

SƏKİNƏ ALLAHVERDİ QIZI QAYBALIYEVANIN FİLOLOGİYA ELMLƏRİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «ƏBDÜLLƏTİF BƏNDƏROĞLUNUN ƏDƏBİ-ELMİ FƏALİYYƏTİ» (10.01.01; 10.01.02) ADLI DİSSERTASİYA İŞİNƏ RƏY

Görkəmli İraq–türkman şairi və tədqiqatçısı Dr. Ə.Bəndəroğluna həsr olunmuş dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Çəkinmədən deyə bilərəm ki, hər fəsil ayrıca olaraq filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa təqdim edilə bilərdi. «Çağdaş İraq–türkman ədəbiyyatında yeniləşmə prosesi və Əbdüllətif Bəndəroğlu» adlanan I fəsil beş yarımfəslə bölünüb. Burada «İraq–türkman ədəbiyyatının müasir durumu», «Ə.Bəndəroğlunun həyatı və yaradıcılığında yeni mövzu və üslub axtarışları», «Ə.Bəndəroğlu yaradıcılığında Azərbaycan mövzusu», «Ə.Bəndəroğlu yaradıcılığının sənətkarlıq xüsusiyyətləri» tədqiq edilir.

Əbdüllətif Bəndəroğlunun elmi axtarışlarından bəhs edən «Ə.Bəndəroğlunun elmi yaradıcılığı» fəsli də eyni ilə beş yarımfəsildən ibarətdir. Ə.Bəndəroğlunun çoxşaxəli elmi axtarışlarından söz açan bu fəsildə «Ə.Bəndəroğlunun ədəbiyyatşünaslıq fəaliyyəti», «Ə.Bəndəroğlunun folklorşünaslıq fəaliyyəti», «Ə.Bəndəroğlu və klassik Azərbaycan ədəbiyyatı», «Ə.Bəndəroğlunun tərcüməçilik və naşirlik fəaliyyəti», «Ə.Bəndəroğlu və Azərbaycan–İraq–türkman ədəbi əlaqələri» kimi bölmələr tədqiqat süzgəcindən keçirilmişdir.

Məlumdur ki, Ə.Bəndəroğlu dövlət dili ərəb dili olan İraqda boya-başa çatmış, orada yazıb-yaratmışdır. Məhz buna

görə də onun bəzi kitabları və bir çox məqalələri ərəbcə çap olunmuşdur. Səkinə Qaybalıyeva Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsini bitirdiyindən ərəb dilini mükəmməl bilir. Odur ki, Ə.Bəndəroğlunun yaradıcılığını hərtərəfli araşdırmağı bacarmışdır. Mövzu üzərində xeyli müddət işləyən dissertant dəfələrlə Ə.Bəndəroğlu ilə görüşmüş, Ə.Bəndəroğlunun həyatı və yaradıcılığı ilə bağlı bütün məqamları aydınlaşdırmağa çalışmış və ortaya sanballı elmi iş qoymuşdur. Dissertant dəfələrlə Türkiyədə keçirilmiş elmi konfranslarda, həmçinin 2008-ci ilin aprel ayında Türkiyənin Kayseri şəhərinin Erciyes Universitetində keçirilən beynəlxalq «Çağdaş İraq–türkman dili və ədəbiyyatı» elmi simpoziumunun plenar iclasında elmi məruzə ilə çıxış etmişdir. Azərbaycan, Türkiyə və İraqda mötəbər mənbələrdə 10-dan çox elmi məqaləsi çap olunmuşdur. Deyilənləri nəzərə alaraq qeyd edilməlidir ki, Səkinə Qaybalıyevanın «Əbdüllətif Bəndəroğlunun ədəbi-elmi fəaliyyəti» adlı dissertasiya işi Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən elmi işlər qarşısında qoyulan tələblərə tam cavab verir. Odur ki, dissertasiya işinin müdafiəyə buraxılmasını tövsiyə edirəm.

Elmi rəhbər: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
30.04.2010

P.S. Səkinə Qaybalıyeva 18.01.2012-ci il tarixdə dissertasiyasını müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi adına layiq görülmüşdür.

DOKTORLUQ DİSSERTASİYALARINA VERDİYİM RƏSMİ OPPONENT RƏYLƏRİ

FÜZULİ XEYRULLA OĞLU GÖZƏLOVUN «OĞUZ DASTANI: TARİXİ MİFOLOJİ KÖKLƏRİ, TƏŞƏKKÜLÜ, SPESİFİKASI» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Bu bir həqiqətdir ki, folklor, o cümlədən də özünü dərketmədə tarixi gerçəkliyə son dərəcə ilişgili olan dastanlar, xalqın şüurunu, təfəkkür tərzini, psixologiyasını bariz şəkildə əks etdirən bir güzgüyə bənzəyir. Türk dastan ənənəsində milli şüurun sabitləşməsində, türk bədii fikrinin inkişafında, bir sıra poetik kateqoriyaların formalaşmasında müstəsna dəyər kəsb edən, müəyyən mənada türk etnik tarixinin güzgüsünə çevrilən Oğuz dastanlarına həsr olunmuş «Oğuz dastanı: tarixi mifoloji kökləri, təşəkkülü, spesifikası» adlı doktorluq dissertasiyası, hər şeydən əvvəl, bu baxımdan nəzər-diqqəti cəlb edir. Dissertant inandırıcı şəkildə göstərir ki, dastanlar türk etnosunun dünya, zaman, insan, dövlət, ordu, qəhrəmanlıq, ənənə və s. haqqında yazılmış qanunlar, düşüncələr, baxışlar məcmusu olub, etnik şüurun göstəricisi kimi onun səviyyəsini, səciyyəvi xüsusiyyətlərini açıqlayan bitkin və sistemli bir mətndir.

Oğuz dastanı türk xalqlarının islamaqədərki bədii təfəkkürü haqqında əhatəli təsəvvür yaradır. Bu dastanların sonralar yazılı ədəbiyyatın müəyyən janrlarının, klassik poeziyanın, divan ədəbiyyatının, milli şeir formalarının yaranmasında da rolu böyük olmuşdur. Bu baxımdan da, demək olar ki, Oğuz dastanının tədqiqi zəruridir.

Füzuli Gözəlov tədqiqatın əsas obyekti kimi Paris Milli kitabxanasında saxlanılan uyğur, Uzunkörpü, Dana, Ata və Əndəlibin ədəbi və eləcə də salnamə variantlarında mövcud olan Oğuz dastanını seçmişdir. Bununla yanaşı, yeri gəldikcə, «Kitabi-Dədə Qorqud», «Manas», «Koroğlu», «Yusun və Əhməd» dastanları da tədqiqata cəlb olunmuşlar. Bir sıra elmi qənaətlərdən faydalanan dissertant mövzunun aktuallığını üç məqamdan səciyyələndirmiş və araşdırmışdır:

1. Türk bədii fikri tarixinin qaynağı kimi Oğuz mətni dastan təfəkkürü, tipologiyası, etnik mədəni dəyərlər, folklor poetikası, ədəbi-estetik kateqoriyalar, mifoloji-tarixi şüur baxımından tədqiq olunmuşdur.

2. Türk mədəniyyətinin islamaqədərki və islamdan sonrakı dövr arasındakı bağlılığı öyrənmək baxımından araşdırılmışdır.

3. Oğuz dövlətçiliyini, oğuz qəhrəman tipini, oğuzların ictimai-siyasi institutlarını, idarəetmənin el sistemini, başqa sözlə desək, oğuz tarixini öyrənmək baxımından tədqiqata cəlb olunmuşdur.

Dissertant doğru olaraq qeyd edir ki, dastanın ifa olunduğu zaman kəsiklərindən asılı olaraq şəkil dəyişmələri yer alır. Bu dəyişmənin əsasını real tarixi gerçəklik və ictimai-siyasi durum təşkil etdiyindən labüd olaraq dastanın çoxvariantlılığı meydana çıxır. Oğuz dastanı dissertasiyada müxtəlif yönlərdən tədqiqata cəlb olunmuşdur. Burada tarixi müqayisəli metodla bərabər, struktur-semantik analizə də lazımınca yer verilmişdir.

Füzuli Gözəlovun 287 səhifəni içinə alan sanballı əsəri 6 fəsildən ibarətdir. Dissertasiyada dastanın tədqiqi tarixinə geniş yer verilmiş, onlarca dünyaşöhrətli alimin tədqiqatı analiz edilmişdir. Burada dastanların nəinki şifahi ədəbiyyata, yazılı ədəbiyyata da böyük təsirindən söhbət açılır. Hətta Firdovsi və Nizami kimi dühaların da Oğuznamə

motivlərindən məharətlə istifadə etdikləri xüsusi vurğulanır. Oğuz dastanlarından «Kitabi-Dədə Qorqud»a və onun tədqiqi tarixinə kifayət qədər əsərlər həsr olunduğunu nəzərə alan dissertant, yalnız «Oğuz xaqan» dastanını tədqiqat obyektinə çevirməklə, bizcə, doğru yol seçmişdir.

Doğrudur. «Oğuz xaqan» dastanı dissertanta qədər tarixi-sosioloji və filoloji baxımdan araşdırılmış, onun dil, tekstoloji, poetik və filoloji-tarixi baxımdan xüsusiyyətlərinə sanballı əsərlər həsr olunmuşdur. Lakin tədqiqatçının bütün məsələlərdə öz fikri, öz mövqeyi vardır. Füzuli Gözəlov əsərində Azərbaycan tədqiqatçılarına, məs: M.Təhmasib, X.Koroğlu, B.Abdulla, A.Nəbiyev, xüsusən Mirəli Seyidovun bu sahədəki araşdırmalarına geniş yer vermişdir. Biz, daha iki rəsmi opponentin, elmlər doktorlarının əsər barədə fikir və mülahizələrini söyləyəcəklərini nəzərə alaraq dissertasiyanı fəsil-fəsil analiz etməyə lüzum görmürük. Tədqiqatın türkologiya elminə və folklorşünaslığımıza gətirdiyi yenilik və onun məziyyətləri barədə qısaca danışaraq tənqidi qeydlərə keçmək fikrindəyik.

Beləliklə, demək olar ki, türkologiyada və təbii ki, folklorşünaslığımızda ilk dəfə olaraq Oğuz dastanı türk etnik mədəniyyət sistemindən çıxış edərək belə əhatəli şəkildə tədqiqata cəlb olunur. Burada dastan təfəkkürü, bu təfəkkürün bəhrəsi olan folklor poetikası və s. araşdırılır. Türk dünyagörüşündən irəli gələn semantik qarşıdurmaların mətn daxilindəki funksional yeri müəyyənləşdirilir. Oğuz dastanlarının sonrakı dastanlara təsiri, yazılı ədəbi dastanların yaranmasında oğuznamə motivlərinin rolu, dövlət tipi, alplıq kateqoriyası, genderə əsaslanan el sistemi, hərbi demokratik dövlət tipi və s. dərin tədqiqat obyektinə çevrilir.

Adətən, hər hansı bir əsəri oxuyarkən insan əks mövqedə durur, bəzən ürəyindən keçirir: «Bunu mən belə deyərdim». Füzuli Gözəlovun «Oğuz dastanı: tarixi-mifoloji kökləri,

təşəkkülü, spesifikası» adlı doktorluq dissertasiyasını oxuyarkən bir dəfə də qəlbimə belə bir fikir gəlmədi. Əksinə, bir çox cümlə, ifadə və sözlərin işlənmə məqamı məni ürəkdən sevindirdi. Əsərdə fikir qarışıqlığına, üslub xətalarına rast gəlinmir. Hər fəsildən sonra tədqiqata cəlb olunan problemlər barədə elmi-nəzəri ümumiləşdirmələr aparılır, məntiqi nəticələrə gəlinir. Əsər yüksək elmi səviyyədə, yaradıcı şəkildə işlənib. Bütün bu deyilənlərlə bərabər, bu sanballı əsərdə bəzi nöqsan, xəta və qüsurların da mövcudluğunu inkar etmək olmaz. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əsərdə xeyli makinə, daha doğrusu, makinaçı xətası vardır (məs: s.6, 9, 16, 20, 24, 35, 77, 79, 101, 103, 111, 116, 126, 185, 189, 191, 195, 201, 10, 223, 232, 245, 251, 260 və s. Elə sözlər də var ki, eyni səhifədə iki cür yazılıb (s.195, 198, 200) və s.

2. Bəzi səhifələrdə cümlənin yarısı düşüb (s.71), bəzi səhifələrdə isə cümlə eynilə təkrarlanıb (s.160–161, 184), bəzi yerdə isə vərəqlər 1-ci nüsxəyə 2-ci nüsxədən düşüb (s.172–180).

3. Bəzi sözlərin və fikirlərin şərhi ilə bağlı dissertantla razılaşmaq olmaz. Məs.: «Kron» – «korona – tac» fransız sözü deyil (s.121), latın sözüdür (bax: Slovar inostrannıx slov, Moskva, 1983, səh. 255); Alesso Bombaçi fransız deyil (s. 23) italyandır. Füzuli haqqında ingiliscə ən gözəl əsərin müəllifidir;

Atın yüyənini, adətən, sağ əl ilə deyil (s.241) sol əllə tuturlar. Sağ əldə isə keçmişdə silah və ya qamçı tutardılar. Dissertant doğru olaraq göstərir ki, oturaq türk mədəniyyətinin simvolu yuxuda görülən ağacla sudur. Lakin Kirin hakimiyyətə gələcəyi yozumunu su ilə bağlaması yanlışdır. Astiaqın rəmmalları ram ataraq görürlər ki, Astiaqın yeganə qızından bir tənək törəyərək dünyanı tutdu. Deməli, Kirin böyük dövlət quracağı ağacla yozulur.

Başqa bir irad: dissertant göstərir ki, türklərdə bütün hüquqi məsələlərdə – dövlətin idarə olunmasından tutmuş çadırda, divanda, toyda, ovda, yemək masası arxasında, bir

sözlə, hər şeydə törə əsas idi (s.245). İnanmaq olmur ki, oğuzların vaxtında yemək masası olaydı. Güman ki, dissertant «yemək süfrəsi» demək istəmişdir.

4. Dissertant fikir söyləyir və öz əsərini mənbə kimi göstərir (s.126). Fikir tədqiqatçının özünə məxsus olanda mənbə göstərməyə nə ehtiyac?!

5. Dissertant muğanda çox bilən adam mənasını verən «uğuz» sözündən söz açır və mənbə kimi Sevortyanın 1974-cü ildə Moskvada çıxan kitabını göstərir (s.130). Halbuki «Muğan qrupu dialekt və şivələri» kitabı hələ 50-ci illərdə çıxıb. Orada həmin məsələ açıqlanır.

6. Tarixin bir çox keşməkeşlərindən keçərək bizə miras qalan Oğuz dastanlarında rast gəlinən çoxlu terminlərin dissertasiyada öz əksini tapması təbiidir. Lakin hər biri bir aləm məna daşıyan bu terminlərin (məs: gerçəklik ipostası. s. 41. şəcərə s.16, Stadial yeri s.111), Passional ruh – s.184, demonik qüvvələr – s.184, qutsal – s.189, sakral – s.189, genqəş, yabqu, şadlar – s.194, törə – s.201, futuhat – s. 203, şələn – s. 217, irkin (erkin – s.234, uruq – s.239, ternar bölgü – s.240, xtonik güc – s.254, ülgü – s.265) və s. lüğəti verilsəydi bu tarixi əhəmiyyətli tədqiqat işi udardı.

7. Hamıya aydındır ki, indi çap işi çox müşkül bir problemə çevrilib. Biz dissertantın Bişkekdə, Daşkəntdə elmi simpoziumlarda çıxışlarını və orada çıxan tezislərini alqışlayırıq. Lakin doktorluq dissertasiyası ilə bağlı gənc ədəbiyyatşünasların Respublika konfranslarının nəticələrinə həsr olunmuş materiallar arasında tezislərin verilməsini məqbul saymırıq. Buna ehtiyac da yoxdur. Tədqiqatçının 12 çap vərəqi həcmində monoqrafiyası, müxtəlif jurnallarda sanballı məqalələri çıxmışdır.

Deyilənlər dərin tədqiqat işinin dəyərini azalda biləcək ciddi nöqsanlar olmayıb, düzəldilməsi asan olan qüsur və çatışmazlıqlardır.

Dissertant qarşısında Oğuz dastanının türk etnik mədəniyyətinin tərkib hissəsi olduğunu, özündə türk bədii-estetik fikir tarixini cəmləşdirən möhtəşəm abidə olduğunu, poetik düşüncə tərzini yaşadan, tarixi yaddaş rolunu oynayan əvəzsiz mətn olduğunu sistemli (monoqrafik planda) tədqiq etmək kimi çox ağır bir vəzifə qoymuş, onun öhdəsindən üzağlığı ilə gəlmiş, başqa cür desək, məqsədinə nail olmuşdur.

Avtoreferat, çap olunmuş monoqrafiya və məqalələr dissertasiyanın məzmununu əhatə edir.

Fikrimizcə, «Oğuz dastanı: tarixi-mifoloji kökləri, təşəkkülü, spesifikası» tədqiqat işi doktorluq dissertasiyaları qarşısına qoyulan tələblərə bütövlükdə cavab verir və onun müəllifi Füzuli Gözəlov folklorşünaslıq (10.01.09) üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
15.03.1997

HÜSEYN ƏLƏSGƏR OĞLU İSMAYILOVUN «GÖYÇƏ AŞIQ MÜHİTİ: TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF YOLLARI» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

R Ə Y

Ən böyük milli sərvətimiz olan şifahi xalq ədəbiyyatı dedikdə, ilk olaraq göz önünə onun qüdrətli qolu – aşıq yaradıcılığı gəlir. «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər götürə biləcəyi pay vardır» (Ü.Hacıbəyov).

Hələ bu az imiş kimi «Aşıq poeziyasının kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqları, qolqanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir, ondan qüvvət alır» (M.İbrahimov).

Göründüyü kimi, aşıq sənəti xalqın həyatının bütün sahələrinə sirayət edən, qaynayıb-qarışan bir sənət aləmidir. Hüseyn İsmayılovun dissertasiya işi «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» adlansa da, tədqiqatçı bu möhtəşəm sənətin ədəbi– mədəni bir fenomen kimi qədimdən indiyə qədər keçdiyi mürəkkəb təkamül yolunu izləmiş və bizim qənaətimizə görə əzəli-əbədi aşıq sənəti barədə yeni fikirlər, fərziyyələr irəli sürmüşdür. Bir sözlə, «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» monumental əsərdir. Tədqiqat işi aşıq sənətinin yeni nəzəri əsaslarla, keçmiş sovet ideologiyasından kənar, əsaslı tədqiqi yolunda uğurlu addımdır.

Xüsusi vurğulamağa dəyər ki, bu taledən gələn qismətdir ki, Hüseyn İsmayılovun payına düşüb. Məsələ burasındadır ki, Sovetlər dövründə bu müstəvidə elmi-tədqiqata girişmək mümkün olmayan bir iş olardı. Prof. Mahir Naqib 1998-ci ildə İstanbulda çap olunan «İraq Türkman folkloru» monoqrafiyamıza yazdığı ön sözdə göstərirdi ki, 1990-cı ilə

qədər siyasi azadlıqların olmamasını göz önünə gətirsək görərik ki, Sovetlər Birliyində türk dilli xalqların tədqiqatçılarının çoxu əsərlərini içində yaşadığı siyasi rejimin ideologiyasına uyğun yaratmaq məcburiyyəti altında qalmışlar. Çünki burada türk dünyasının mədəniyyət baxımından eyniliyini isbatlamaq belə suç hesab olunurdu (s.10). İndi vaxt bizim xeyrimizə işləyir. Tədqiqatçı aşıq sənətinin mənşəyi və inkişafı ilə bağlı mövcud şaman-ozan-aşıq keçidi konsepsiyasının yanlış olduğunu isbatlayarkən türk qaynaqlarına və türk alimlərinin fikirlərinə söykənir. Aşıq Ələsgərlə bağlı müəllifin yeni elmi fikirlərində də türk qaynaqları və fikir azadlığı onun köməyinə gəlmişdir. Bu, tədqiqatın dəyərini daha da artırır. Doğru deyiblər ki, elm əvvəli görünən, sonu görünməyən bir aləmdir. Bu aləmdə hərə bir yolla gedir. Hərə bir nəticəyə gəlir – yenilik isə görülmüş işlərin sayəsində yaranır.

Çəkinmədən deyə bilərik ki, müzakirə edilən dissertasiya işi sonsuz məhəbbətin nəticəsi olaraq folklorşünaslığımıza yeni ab-hava gətirmək baxımından çox qiymətlidir.

Doğrudur, H.İsmayılovun Göyçə aşıq mühitinə sonsuz məhəbbəti bəzən aludəçiliyə də gətirib çıxarıb: «Azərbaycan türk musiqisi Şərq musiqisini, Azərbaycan türk poeziyası klassik Şərq poeziyasını müvafiq olaraq yalnız göyçəli aşığın sazında və sözündə üstələyib».

Təbii ki, belə fikirləri məqbul saymaq olmaz. Bununla belə, dissertasiyanın ayrı-ayrı fəsillərindən görəcəyik ki, əsərdə məqbul elmi fikirlər qədərincədir.

Müdafiəyə təqdim edilən dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə dərəcəsi, dissertasiyanın elmi yenilikləri, tədqiqatın nəzəri-metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti kimi məsələlər ətrafında danışılır.

«Göyçə aşıq mühitinin tədqiqi tarixi» adlanan I fəsildə göstərilir ki, Azərbaycan aşıq sənəti müxtəlif aspektlərdən tədqiqata cəlb olunsa da, musiqini və ədəbiyyatı özündə birləşdirən həmin sənətin mənşəyi, inkişafı və təkamülü haqqında folklorşünaslığımızda ciddi elmi əsaslara söykənən mükəmməl konsepsiya mövcud deyildir. Bu, ilk növbədə mövcud aşıq mühitlərinin əsaslı şəkildə öyrənilməməsindən irəli gəlir.

Tədqiqatçı bu fəsildə Göyçə aşıq poeziyasına dair aparılmış tədqiqatlara nəzər salır. Göyçə aşıq poeziyası nümunələrinin toplanması, nəşri və tədqiqində xidmətləri olan H.Əlizadə, S.Mümtaz, H.Zeynallı, Ə.Axundov, H.Araslı, H.Arif, İ.Abbasov, M.İbrahimov, M.Təhmasib, İslam Ələsgər, Q.Namazov, M.Həkimov və başqalarının gördüyü işi yetərincə qiymətləndirir.

İddiaçı xüsusilə Hümmət Əlizadə və Hənəfi Zeynallının Göyçə aşıqlarının, xüsusilə Aşıq Ələsgərin tədqiqi sahəsindəki zəhmətini yüksək qiymətləndirmişdir: «H.Əlizadənin topladığı və S.Hüseynin redaktorluğu ilə nəşr edilən «Aşıq Ələsgər» kitabı həm ön söz, həm də tərtibat baxımından dövrünə görə mükəmməl hazırlanmışdır».

Tədqiqatın bu fəsli «Göyçə aşıq mühitinin tarixi» adlansa da, ümumən aşıq sənətinə ekskurs edilir. Aşıq mühit və məktəblərinin rəngarəngliyindən, qarşılıqlı təsirindən geniş söhbət açılır. Bu sahədə tədqiqatçıların gördüyü işlər nəzərdən keçirilir. Görkəmli aşıqların yaradıcılığına qiymət verilir. Burada diqqəti çəkən əsas məsələ odur ki, tədqiqatçı faktları sadalamaqla kifayətlənmir, əksinə ən xırda görünən məsələlərin də fərqinə varır, elmi mübahisəyə girişməkdən çəkinmir.

Aşıq Ələsgərin nəvəsi İslam Ələsgərin üzə çıxardığı və öz kitabında verdiyi bütün aşıqların siyahısını verməklə bərabər (s.36–38), aşıqların həyat və yaradıcılığı ilə bağlı faktların dürüstləşdirilməsinə nail olur. Tədqiqatçı folklorşünas

alimlərimiz V.Vəliyev və M.Həkimovun «Divanı» saz havası ilə bağlı irəli sürdükləri fikirlərə qarşı çıxır və göstərir ki, «Baş divanı» Şah İsmayıl Xətainin şərəfinə, «Ayaq divanı» Osmanlı Sultanı Səlimin şərəfinə Miskin Abdal yaratmışdır. Bunlara «Şah divanı» və «Osmanlı divanisi» də deyilir.

Həqiqət naminə deyək ki, Göyçə aşıq mühitinin öyrənilməsi yolunda folklorşünas Hüseyn İsmayılovun özü də ardıcıl araşdırmalar aparmış, bu münbit mühitin xalqımızın sosial-mədəni həyatında rolunu, əhəmiyyətini və yerini müəyyənləşdirməyə çalışmışdır.

«Aşıq sənətinin inkişaf mərhələləri» adlanan II fəsil ilk baxışda dissertasiyadan xaric təsir bağışlayır. Ancaq tədqiqat işi ilə yaxından tanış olduqca bunun əksini görürük. Hiss edirsən ki, «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» bu fəsilsiz bütöv olmazdı. Çünki əsərin bu fəslində qlobal məsələlər ortaya qoyulmuş və müəllifin duyumu, elmi axtarışları sayəsində əsaslandırılmışdır ki, aşıq sənətinin mənşəyi və inkişafı ilə bağlı mövcud şaman-ozan aşıq keçidi konsepsiyası yanlışdır. Aşıq sənətinin kökləri və qaynaqları, eləcə də inkişaf mərhələləri ilə bağlı mükəmməl bir konsepsiya yoxdur (s.77). Dissertant o qənaətə gəlir ki, aşıq sənəti diaxron strukturuna görə ata-baba-dədə-aşıq tarixi inkişaf prosesini keçmişdir. Müəllif onu da araşdırıb aşkar etmişdir ki, Göyçədə aşıq mühiti bu sənətin təşəkkül, təkamül və intibah kimi üç iri inkişaf mərhələsindən keçmişdir.

Göyçə aşıq mühitinin intibah dövrünün (XIX əsr) memarları Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgər və b. sənət ənənələri öyrənilmiş, təsəvvüfi ideyanın Göyçə aşıq sənətində mənzərəsi tədqiq edilmişdir. O da xüsusi vurğulanır ki, Göyçə aşıq sənətinin inkişafında üç mərhələ – ozan, haqq aşığı (sufi dərviş) və aşıq, üçü də aydın görünür.

Tədqiqatçı sufi dərvişlərdən xüsusi danışır. Məlumat üçün deyim ki, sufi dərvişlər indinin özündə belə var və onlar

Bakı kəndlərində, xüsusən də Balaxanı, Zirə və başqa kəndlərdə «Dərviş toyları» adı ilə tanınan toylar aparırlar.

«Göyçə aşıq mühiti» adlanan III fəsildə «Göyçədə ozan sənətinin son nümayəndələri» adlanan bölməsində Ozan Cəlil, Ozan Heydər və Ozan İbrahimdən söz açılır. Onların ozan-aşıq kimi böyük rolu olduğu, bir çox saz havalarının Ozan Heydərin adı ilə bağlılığı ön plana çəkilir. Məsələn, «Heydəri» və ya «Məmməd Hüseyni», «Sarıtel», «Baş Sarıtel» və s. Ozan Heydər və Ozan İbrahimdən qoşmalar verilir.

«Miskin Abdal: Göyçə aşıq poeziyasının təşəkkül mərhələsi (XVI əsr)» adlanan bölmə də bu fəslə daxildir. Burada aşıq sənətinin korifeylərindən, onun təşəkkül tapmasında böyük xidmətləri olan Miskin Abdalın həyat və yaradıcılığı təhlil olunur. Miskin Abdalın sufi statusu və sənətçilik fəaliyyəti də bu fəsildə ciddi tədqiqata cəlb olunub. Göyçə aşıq poeziyasının təkamül dövrü (XVII–XVIII əsrlər) və Göyçə aşıq poeziyasının intibah dövrü (XIX əsr) də bu fəsildə nəzərdən keçirilib.

Bunlar tədqiqatçının folklorşünaslığımıza gətirdiyi yeniliklərdir. Bu fəsildə çox mükəmməl işlənən «Aşıqlar» bölməsi də vardır. Burada Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgər, Aşıq Məhərrəm, Aşıq Musa və başqaları yeni yöndəmdə tədqiqata cəlb olunublar.

Tədqiqatçı türk sufizminin mənşəyini aşıq sənətinin mənşəyi ilə birgə öyrənərək aşıq sənətini eyni müstəvidən araşdırmış, inandırıcı elmi qənaətlərə gəlmişdir. Bu, xüsusən də aşıq sənətinin inkişafına böyük təkan vermiş aşıq-şair, filosof Dədə Ələsgərə aiddir.

Dissertasiyanın «Miskin Abdalın Sufi Statusu» bölməsi çox gözəl işlənibdir. Bu məqamda tədqiqatçı bir ilahiyyatçı alim səviyyəsinə yüksəlir. Xüsusən də təsəvvüfün dörd mərhələsinin: Şəriət, Təriqət, Mərifət, Həqiqət mərhələlərinin araşdırılması sanki sazı dizdən sinəyə qaldıran qüvvə və məhəbbətlə işlənib.

Dissertasiyanın IV fəsli «Göyçədə dastan yaradıcılığı» adlanır. Bizə qalırsa, dastanlar xalqın şüurunun təşəkkül tərzini, psixologiyasını bariz şəkildə əks etdirən bir güzgüyə bənzəyir. Onlar xalqın dünya, zaman, insan, dövlət, qəhrəmanlıq, adət-ənənə və s. haqqında yazılmamış qanunlar, düşüncələr baxışlar məcmuəsi olub, etnik şüurun göstəricisi kimi onun səviyyəsini, səciyyəvi xüsusiyyətlərini açıqlayan bitkin və sistemli bir mətn olmaq baxımından diqqəti cəlb edən abidədir.

Bütün bunları iddiaçının tədqiqata cəlb etdiyi Göyçə dastanlarında görmək olur. Bu fəsildə «Kitabi-Dədə Qorqud»un Göyçə dastanlarında izləri, Göyçə dastanlarında Şah İsmayıl obrazı, Miskin Abdal obrazı, dastan şeirinin poetikası, Göyçə dastanlarının sufi konteksti, Göyçə dastanlarının janr spesifikası və təsnifi prinsipləri və s. araşdırılıb.

Tədqiqatçının araşdırmaları göstərir ki, Göyçə dastanları əski türk dastançılıq ənənələrinə bağlıdır.

Dissertasiyanın «Nəticə» bölməsində Göyçə aşıq mühitinin təşəkkülü və inkişaf yollarına dair tədqiqatçının gəldiyi qənaətlər ümumiləşdirilmiş, sistem halına salınmışdır.

Və nəhayət, tərəddüd etmədən deyə bilərik ki, Hüseyn İsmayılovun «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» dissertasiya işi qiymətli əsərdir. Müzakirəyə təqdim olunan bu əsər hər cür təqdirə layiqdir.

Bununla belə, əsərdə bizə kəm-kəsir kimi görünən bəzi məqamları qeyd etmək istərdim.

1. Əsərdə işlədilən əcnəbi söz və ifadələrin sayı-hesabı yoxdur. Adətən, folklorla bağlı əsərlərin dili saf, təmiz olur. Bizə belə gəlir ki, fikri sadə dildə ifadə edə bilmək özü də bir müdriklikdir.

2. Əsərdə yer alan sitatların həcminin böyük olması narahatlıq doğurur. Bəzən sitatlar, hətta bir-iki səhifədən ibarətdir (s. 36–38; 51–53; 62–63; 72–73; 75–76; 83; 86–87) və s.

Tədqiqatçı bununla bağlı müəyyən əsas gətirə bilər ki, fikirlərini sübut etmək üçün bunu dayaq nöqtəsi kimi götürüb və s. Necə olsa da sitatların belə böyük verilməsi məqbul sayıla bilməz.

3. Dahi bəstəkar Ü.Hacıbəyovla bağlı tədqiqatçı yazır: «Sinxron planda isə indiki aşıqları «sazəndələr, zurnaçılar və aşıqlar kimi təsnif edib» (bax: s.75). Bu, belə deyildir. Ü.Hacıbəyov yazıb: «Hazırda Azərbaycan musiqisinin nümayəndələri iki kateqoriyaya bölünür: sazəndələr, zurnaçılar və aşıqlar. Aşıqlar sazəndələr və zurnaçılardan bununla fərqlənirlər ki, onlar dəstə ilə deyil, tək çıxış edir, yalnız nadir hallarda saz çalan aşıqdan və iki zurnaçıdan ibarət dəstə təşkil edirlər» (s.75).

4. Miskin Abdalla bağlı bəzi məqamlar aydınlaşmır. Yazırsınız: Tarixi faktlara görə (s. 114–115), lakin məxəz göstərmirsiniz. XV–XVI əsrdə yaşamış bir şəxsiyyət barədə: bəzi rəvayətlərə görə (s.116), deyilənlərə görə (s.117, 118), Tapdıq kişi Miskin Abdalla bağlı bir rəvayət söylədi (s. 119) – deyərək elmi qənaətə gəlmək olarmı?

Başqa bir tərəfdən də Miskin Abdalın söhbət açdığımız şeirlərinin çoxu müasir səslənir (s. 129, 132, 142).

Məs:

Yazıq könlüm, nə sızlarsan, bülbülə tay olmusan.
Haçan yardan yarımısan, sevinib bay olmusan.

Aşıq Ələsgərlə bağlı yazırsınız ki (s. 183) bir çoxları Aşıq Ələsgərin yaradıcılığından tapıntılar adı altında zəif şeirlər çap etdirirlər. Hətta İslam Ələsgərin hiddətinə səbəb olan bir hadisə də baş verdi. Əli Dastan (Qurbanov) aşığın adından dastan bağlayır və qoşmalar da yazırdı.

Bəlkə, Miskin Abdalla da eyni hadisə baş verib?

Deyilənlər sanballı və maraqlı tədqiqat işinin dəyərini azalda biləcək ciddi nöqsanlar deyildir, düzəldilməsi mümkün

olan qüsur və çatışmazlıqlardır. Tədqiqatçı əsəri yüksək elmi səviyyədə yazmış, məqsədinə nail olmuşdur.

Avtoreferat, iki çox böyük həcmli monoqrafiya, çoxsaylı məqalələr dissertasiyanın məzmununu əhatə edir. Müəllif türk dünyasında yaxşı tanınan alimlərimizdəndir.

Fikrimizcə, «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» tədqiqat işi doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə bütövlüklə cavab verir və onun müəllifi Hüseyn Ələsgər oğlu İsmayılov folklorşünaslıq (10.01.09) üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
20.12.04.

JALƏ FAZİL QIZI ƏLİYEVANIN FİLOLOGİYA ELMLƏRİ DOKTORU ALİMLİK DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «ÇAĞDAŞ TÜRK ŞEİRİNİN POETİKASI» ADLI TƏDQİQAT İŞİNƏ

RƏY

Jalə Əliyevanın «Çağdaş Türk şeirinin poetikası» əsərinin həcmini görəndə bir az narahatlıq keçirdim. Lakin əsəri oxuyub baça çıxanda narahatlığımın əbəs olduğunu, dərk etdim və tədqiqatçının az sözlə böyük fikirlər söylədiyinin, çağdaş türk poeziyası barədə ortaya sanballı elmi əsər qoyduğunun şahidi oldum. Qənaətim budur ki, çağdaş türk poeziyası bu əsərdə hərtərəfli elmi tədqiqata cəlb olunub. Tədqiqatçı əsərdə inkarolunmaz elmi nəticələrə gəlmiş, qənaətlərini məntiqi cəhətdən təsbit etmişdir. Belə əsərlər türk dünyasının müştərəkliyini, mənəvi dəyərlərinin zənginliyini göstərir. Siyasət və ideologiyalar, öndərimiz Heydər Əliyevin dahiyanəliklə dediyi «bir millət, iki dövlət» olan qardaşları bir-birindən ayıra bilər. Fəqət milli-mənəvi dəyərlər qaldıqca qardaşlığı yox etmək mümkün deyil. Jalə Əliyevanın əsəri, hər şeydən əvvəl, bu amala xidmət edir və bu baxımdan xüsusi dəyərə malikdir. Başqa bir tərəfdən də poeziya Türkiyədə elmi təhlil süzgəcindən qənaətbəxş keçirilmədiyindən, «Çağdaş türk poeziyasının poetikası»na dair əsərin Azərbaycanda tədqiqat obyekti kimi götürülməsi başqa bir önəm kəsb edir.

Həqiqət naminə deyək ki, dissertasiyada çağdaş türk poeziyasının bir sıra poetik özəllikləri araşdırılmış, lirik qəhrəman, onun mövqeyi, bədii zaman və s. ilk dəfədir ki, sistemli şəkildə, yüksək elmi səviyyədə tədqiq edilmişdir.

Yaddaşımızı təzələsək görərik ki, cəmisi 15–20 il bundan əvvəl belə əsərləri yazmaq imkan xaricində idi. Türkiyənin Erciyes Universitetinin professoru, əslən kərküklü olan Mahir Naqib bizim 1998-ci ildə İstanbulda çap olunan «İraq–türkman folkloru» kitabımıza yazdığı giriş məqaləsində bu məsələ ilə bağlı göstərmişdir: «Türkiyə xaricindəki türk xalqlarına mənsub elm və fikir adamlarının Türk dünyası ilə bağlı çalışmalarının həcmi və səviyyəsi danılmazdır. Ancaq 1990-cı ilə qədər siyasi azadlıqların olmamasını göz önünə gətirsək görərik ki, bu ölkələrdəki tətqiqatçıların çoxu əsərlərini içində yaşadığı siyasi rejimin ideologiyasına uyğun yaratmaq məcburiyyəti altında qalmışdılar. Çünki burada Türk dünyasının mədəniyyət baxımından eyniliyini isbatlamaq belə suç hesab olunmuşdur».

Əslində, dissertasiyanın özündə də buna bənzər fikirlər səslənir: «İdeoloji qəliblərdən qurtara bilməyən, yaxud qurtarmaq imkanı olmayan görkəmli türkoloq Əkbər Babayev» və s.(s.113).

«Çağdaş türk şeirinin poetikası» əsərində poetik nümunələr osmanlı türk ləhcəsində olduğundan və tətqiqatçının bütün mülahizələri onların ətrafında cərəyan etdiyindən dissertasiyada dil baxımından bir ağırlıq hiss olunacağını gözləmək olardı. Əksinə, tətqiqatçının dili oxunaqlı və anlaşıqlıdır. Burada poetik zövq əhli, mənəvi qida verən açar sözlər, dünya kədəri, zamanın fövqündə durmaq, poetik sözün möcüzəsi, tənbəl-tənbəl mürgüləmək, qar uçqunu sürətilə, hadisələr zəncirindən ibarət və s. kimi oxucuya estetik zövq verən onlarca ifadəyə rast gəlinir.

«Çağdaş türk şeirinin poetikası» əsəri giriş, beş fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Giriş elmi-nəzəri cəhətdən əsaslandırıldığından tətqiqatçının mövqeyini, ümumiyyətlə, ədəbiyyata, xüsusən poeziyaya münasibətini, bilik səviyyəsini, düşüncə tərzini, türk, rus və

Azərbaycan alimlərinin tətqiqatlarına bələdlik dərəcəsini bariz şəkildə göstərir. Doğrudur, burada ziddiyyətli, mübahisəli görünə biləcək məsələlər də yox deyildir. Lakin onlar müəllifin təxəyyülünün məhsulu kimi qiymət kəsb edir.

Tədqiqat işinə Türkiyədə Respublika qurulduqdan sonra (1923) meydana gəlmiş müxtəlif üslublu, müxtəlif ideya-estetik istiqamətli lirik poetik nümunələr cəlb edilmişdir. Tədqiqatçı müqayisələr zamanı klassik ədəbiyyata da müraciət etmişdir. Dissertantın müqayisələr zamanı hökmlərinin dəqiqliyi, elmi qabiliyyəti və mövzuya nə səviyyədə vaqif olması da üzə çıxmışdır. Araşdırmalar zamanı dissertant türk, rus Azərbaycan ədəbiyyatşünaslığının nəzəri qaynaqlarına arxalanmışdır.

Dissertasiyanın I fəsli «Çağdaş türk şeirində lirik qəhrəman və onun mövqeyi» adlanır. Bu, tədqiqat işində ən böyük fəsildir. Burada, eləcə də «Çağdaş türk poeziyasında yeni islamçı cərəyan», «Çağdaş türk poeziyasında Azərbaycan mövzusu», «Çağdaş türk şeirində Turan obrazının inkişaf dinamikası» kimi yüksək sənətkarlıqla işlənmiş bölmələr də vardır.

Tədqiqatçı lirik qəhrəman problemi ilə bağlı Azərbaycanda aparılmış araşdırmaları nəzərdən keçirərək «Lirik qəhrəman obyektiv gerçəklikdən yaranan ideal qəhrəmandır» ideyasını dəstəkləyir.

Dissertant haqlı olaraq göstərir ki, lirik qəhrəman çağdaş türk şeirində ən müxtəlif siyasi-ictimai və estetik rakurslardan təqdim edilir. Burada milli özünüdərk, özünə qayıdış, Türkiyə sərhədlərini aşaraq bütün dünya türklərini əhatə edən türkçülük, vətən sevgisi qırmızı xətt kimi keçir. Bu məqamda ya müəllif özü lirik qəhrəman mövqeyində durur, ya da kənar müşahidəçi kimi öz mövqeyini izhar və tərənnüm edir.

Bu bölmədə tədqiqatçı Mehmet Emin Yurdakul, Mehmet Akif, Yavuz Bülent Bakilər, Mehmet Sadik Aran, Beh-

cet Necatigil, Xalid Fəxri Oransoy, Yəhya Kamal, Halide Edip Zorlutan, Cahit Sitki Taranca, Orxan Vəli Kanık, Mirettin Özdəmir, Midhet Cemal Kuntay, Faruk Nazif Çamlıbel, Ahmet Tufan Şentürk, Ayhan Kirdar, Mustafa Seyit Sutüven, Namik Kamal, Orhan Seyfi Orhon, Sedat Umran, Munis Faiq Ozansoy, Fazil Hüsnü Dağlarcan, İlhan Berk, Cahid Küleb, Nevzat Yalçın, Sait Faik Abasyanık, Mehmet Çakırtaş və başqalarının poetik nümunələrindən istifadə edərək çağdaş türk poeziyası üçün səciyyəvi olan lirik qəhrəmanın ümumi cəhətlərini aşkarlamışdır.

Biz dissertantın bu bölmədə tədqiqata cəlb etdiyi şairlərin adlarını bilərəkdən sadaladıq. Bununla məqsədimiz müəllifin bu yığcam əsərdə gördüyü işin böyüklüyünü göstərməkdir. Bu bölmədə dissertantın Azərbaycan alimlərindən Əkbər Babayev, Cəlal Abdullayev, Tofiq Məlikli, Şirindil Alışanov, Qurban Bayramov və başqalarının fikirlərinə geniş yer ayırması diqqəti çəkir.

Dissertasiyanın I fəslində «Çağdaş türk şeirində yeni islamçı cərəyan» bölməsi də yüksək elmi səviyyədə işlənmişdir. XX əsrin əvvəllərində formalaşan islamçı cərəyana şair Mehmet Akif Ersoy başçılıq edirdi. Yəhya Kamal, Halidə Edip, İsmail Həbib, Yaqub Qədri və başqaları bu cərəyanın fəal üzvləri idi. Qərb ideoloqlarının islam aləminə qarşı «səlib yürüşü»nə qarşı ilk olaraq xalqın «döyünən ürəyi, görən gözü, vuran nəbzi olan» şairlər sinə gərdilər. Bu klassik islamçılar fikirlərini əruz vəznində yazılmış şeirləri ilə izhar edirdilər. Lakin tədqiqatçı Əhməd Kabaklının göstərdiyi kimi, sonralar yeni islamçılar daha çox modern şeir formalarından istifadə ilə çağdaş ədəbi dil normalarına riayət edirdilər. Cahid Zarifoğlu, Erdem Bayazit, Mustafa Miyasoğlu və başqaları ənənəyə söykənməklə, daha çox islami dəyərləri çağdaş cəmiyyətə uyğunlaşdırmaq, bəşər mədəniyyətinin inkişafında və qloballaşmasında müstəsna rol oyna-

mış mədəni-ideoloji hadisəni təəssübkeşlikdən uzaq bir şəkildə poetik tərənnüm obyektinə çevirmək, ona layiq olduğu qiyməti vermək baxımından seçilirdilər.

«Çağdaş türk poeziyasında Azərbaycan mövzusu» bizə daha məhrəm, daha doğma olan, daha çox maraq doğuran bölmədir.

Dissertant doğru hərəkət edərək Azərbaycan mühacir şairlərinin Azərbaycanla bağlı şeirlərinə toxunmadan Yavuz Bülent Bakilər, Əli Akbaş və s. kimi şairlərin Azərbaycanı tərənnüm edən, onun ağrı və acılarını təsvir edən poeziya nümunələrini tədqiqat süzgəcindən keçirmişdir. Maraqlıdır ki, Bakilərin yaradıcılığında ingilis yazıçısı Ceyms Oldiricin təbirincə desək «ikiyə bölünmüş bir ürək» olan Azərbaycan bir bütöv, ayrılmaz məmləkət kimi tərənnüm edilib. Onun şeirlərində Şəhriyar, Bəxtiyar, Anar, Şahmar kimi sevimli yazarlarımıza xitabən yazılmış misralar vardır. Bakilərin «Azərbaycan ürəyimdə şahdamardır» şeirini həyəcansız oxumaq olmur. Tədqiqatçının göstərdiyi kimi, bu dərin həsrət və sevgi hisləri ifadə edən şeir, forma baxımından da maraq doğuran poetik nümunədir.

Əli Akbaş da Azərbaycanı bütöv görür. Onun «Göygöl» və «Şəhriyar» şeirlərini oxuyarkən insan haldan-hala düşür.

Nə yaxşı ki, tədqiqatçı poeziya vurğunudur. Onun apardığı təhlillər çox mətləblərdən, xüsusən də onun poeziyaya məhəbbətindən xəbər verir. Məhəbbətin nəticəsidir ki, Jalə xanım belə bir əsər ortaya qoyub.

Çoxları, xüsusən də mənim üçün yeni olan, bəlkə də, elə buna görə də daha müfəssəl söhbət açdığım I fəslin sonuncu bölməsi «Çağdaş türk şeirində Turan obrazının inkişaf dinamikası» adlanır. Tədqiqatçı Turan obrazını türk poeziyasında izləyərək onun inkişaf dinamikasını inandırıcı faktlarla göstərə bilmişdir. Burada Turan mövzusunun əvvəllər özünü büruzə verən milli-təbliğat xarakterinin, patetikanın öz

yerini bədiiliyə təslim etməsi, onun daha ciddi və içdən gələn bir mövzuya çevrilməsi, bədii ədəbiyyatda öz yerini vətən mözusuna güzəştə getməsi araşdırılmışdır. Göstərilmişdir ki, elə bu zamandan Turan mövzusu deklarativ xarakterini itirərək, daha çox rəmzi məna kəsb etməyə, özünü lirik qəhrəmanın psixologiyasının dərin qatlarında büruzə verməyə başlamışdır. Tədqiqatçı bu bölmədə Kəmalədin Kamu, Osman Attila, Nevzat Yalçın, Nurəddin Özdəmir, Gültəkin Samanoğlu, Nüzət Əmrah kimi şairlərin poeziya nümunələrindən yerli-yerində bəhrələnmiş, elmi-nəzəri faktlara söykənən fikirlər irəli sürmüşdür.

Bu bir həqiqətdir ki, poeziya rəmzdən ilham alır, üstüörtülü fikirdən qidalanır. Dissertantın çox doğru olaraq qeyd etdiyi kimi, hər şey açıq-aşkar olduqda, sənətkarın qarşısında tərənnüm etdiyi obyekti bədii cəhətdən təqdim etmək üçün heç bir maneə olmadıqda, çox vaxt ilham susur və belə əsərlər ən yaxşı halda sönük, publisistik poeziya nümunələrinə çevrilir.

Dissertasiyanın II fəslində poetik forma, vəzn və qafiyə özəllikləri tədqiq edilir. Tədqiqata cəlb edilən əsərlərdən görünür ki, çağdaş türk şeirində poetik forma xüsusiyyətləri çox zəngin və rəngarəngdir. Professor Tofiq Məlikli «Türk ədəbiyyatı – sərbəst şeir ədəbiyyatıdır» – desə də, Jalə xanımın tədqiqatı göstərir ki, bu heç də hər vaxt belə deyildir. Türkiyədə milli vəzn hesab edilən heca vəznində yazan sənətkarlar da çoxdur. Az da olsa əruzda da şeirlər yazırlar. Maraqlı cəhət odur ki, sərbəst şeirin nümayəndəsi Muvaffak Sami Onat poeziyasında ayrı-ayrı misraların yazılışında əruz vəzninin müxtəlif bəhrlərindən ustalıqla istifadə edilmişdir.

Asaf Halet Çelibli, Attila İlhan şeirlərində böyük hərflər və durğu işarələrindən istifadə etməmişlər. Sedat Umran isə bəzi şeirlərində bütün sözlərdə ancaq baş hərflərdən istifadə etmişdir. Turqut Uyar isə heca vəznində qəzəllər yazmışdır.

O da maraqlıdır ki, çağdaş türk şeirində heca vəzninin müxtəlif növ, forma və bölgülərindən istifadə edilmişdir. Bu sahədə Mehmet Emin, Bekir Sitki Erdoğan, Ahmet Kutsi Tecer, Osman Attila xüsusilə fərqlənmişlər. Heca vəznində yazan Gültekin Samanoğlu və Niyazi Yıldırım Gençosmanoğlu heca vəzninin yeni-yeni formalarla zənginləşməsində az rol oynamamışlar.

Mehmet Zeki Akdağın yeni poetik formada yazdığı şeirlərdə hər bəndin sonunda ikinci misra təkrar olunur. Jalə Əliyeva qürurla belə şeirlərin Səməd Vurğunun təsiri ilə yazıldığını göstərir. Tədqiqatçı şairin hələ 1941-ci ildə yazdığı «Uşaq bağçası» şeirindən bir bəndi misal göstərir:

Yenə də al geyib qızarır göylər,
Əsir sərin-sərin dəniz küləyi.
Açır gözlərini yuxudan səhər
Xoşdur təbiətin fikri, diləyi,
Əsir sərin-sərin dəniz küləyi.

Müqayisə üçün qeyd edək ki, Mehmet Zekinin ilk şeirlər kitabı 1967-ci ildə çıxmışdır. Onu da deyək ki, Çağdaş türk şeirində ənənəvi «Birinci yeni» və ya «Qərib» cərəyanı özü ilə yeni poetik forma gətirdi və XX əsrin 40–50-ci illərində meydana çıxmış «İkinci yeni» onu inkişaf etdirdi. Burada daha mürəkkəb obrazlar axtarışına çıxıldı.

Xüsusi vurğulamaq lazımdır ki, çağdaş türk sərbəst şeirinin inkişafında Nazim Hikmətin xidmətləri ölçüyə gəlməzdir.

Bununla belə, Nazim Hikmət öz «Tərcümeyi-hal»ında göstərdiyi kimi, türk şeirinin milli poetik ənənələrindən geniş istifadə etmişdir.

Onu da qeyd edək ki, dissertasiyanın bu fəsli də böyük məhəbbətlə qələmə alınmışdır.

Olduqca zəngin olan çağdaş türk şeirinin poetik forma xüsusiyyətlərini araşdırmaq gərgin əmək tələb edən işdir. Bizə qalırsa, tədqiqatçı illərlə çalışaraq bu işin öhdəsindən gələ bilmişdir.

Dissertasiyasının III fəsli «Bədii təsvir vasitələri» adlanır. Bu fəsildə «Ritorik vasitələr», «Kinayə və eyham», «Çağdaş türk şeirində təcnis» kimi aktual və bir-birindən maraqlı bölmələr vardır.

Azərbaycanda bədii təsvir vasitələri, poetik fiqurlar–məcazlar: təşbih və bənzətmələr, metafora, anafora, epifora və alliterasiya, bədii təzad, ritorik sual, ritorik nida, kinayə və eyham, təcnis hərtərəfli araşdırılsa da, türk ədəbiyyatşünaslığında qənaətbəxş tədqiq edilməyib.

Dissertant əsərdə çağdaş türk şairlərinin poetik nümunələrindən yerli-yerində istifadə edərək müqayisələr aparmış, inandırıcı elmi qənaətlərə gəlmişdir. O da maraq doğurur ki, tədqiqatçı çağdaş türk şeirində ritorikanın səkkiz psixoloji-emosional çalar və qatlarını üzə çıxarmış və onları yüksək patetik ritorika, ciddi ritorika, lirik ritorika, yumorlu ritorika, eyhamlı ritorika, sarkazmlı ritorika, idiomatik ritorika, məhrəm ritorika adı altında tədqiqata cəlb etmişdir.

Dissertasiyanın IV fəsli «Çağdaş türk şeirində poetik polisemantizm» adlanır. Burada tədqiqatçı çağdaş türk şeirinin daim yaradıcılıq axtarışlarında olduğunu, «Qərib» poetik cərəyanının ədəbi dairələrdə yaratdığı səs-küydən sonra (XX əsrin 40-cı illəri), türk poeziyasının üzünü yenidən klassik poeziyanın sınanmış vasitələrindən biri olan məna rəngarəngliyinə tutduğunu, yeni çoxçalarlı obrazlarla zənginləşdiyini, çoxmənalılığın-polisemantizmin yeni türk şeirində özünün ikinci həyatını yaşadığını, şeirdə çoxmənalılığın poetik zövq əhlinə, elitar oxucuya yönəldiyini xüsusi vurğulayır. Fikirlərini Füzuli, Nüzhet Erman, Ümit Yaşar Oğuzcan, Nevzat Yalçın, Ayhan Hünalp və başqalarından

gətirdiyi nümunələrlə isbatlayır. İstər-istəməz belə qənaətə gəlinir ki, polisemantizm – məna çoxqatlılığı oxucunun intellektual səviyyəsinin yüksəlməsinə, estetik zövqünün artmasına xidmət edir.

Dissertasiyanın «Çağdaş türk şeirində bədii zaman» adlanan V fəslində tədqiqatçı bədii zamanın konkret zaman və mücərrəd zaman olmaqla iki əsas kateqoriyası üzərində dayanır. O, mülahizələrini ədəbiyyatşünaslığın bu sahədə əldə etdiyi son nailiyyətləri və çağdaş türk şairlərindən verdiyi nümunələrlə təsdiqləyir. Niyazi Yıldırım, İlhan Çeçer, Ziya Ortac, Orxan Vəli, Hasan Hüsrev, Hamit Macit, Bedri Eyyuboğlu, Yahya Kamal Bayatlı, Ahmet Kutsi Teçer, Kerim Aydın Erdem, Yahya Akengin və başqalarının şeirlərindən gətirdiyi misallarla konkret vaxtı təsbit edir.

Dissertant doğru qənaətə gəlir ki, çağdaş türk şeirində bədii zaman tarixin konkret bir dövründən, kəsiyindən də ibarət ola bilər. Məsələn Yahya Akenginin «Asır Yirmi» şeirində bədii zaman bütöv bir yüzilliyi – XX əsri əhatə edir.

Tədqiqatçının qənaəti belədir ki, zamanın fövqündə duran sənətkarlar bəşəri problemləri əbədi zaman axınında təqdim etməyə, subyektiv zamanı obyektiv zamanla biləşdirməyə müəffəq olurlar.

Əsərin «Nəticə» hissəsi də qənaətbəxşdir. Bir çox hallarda tədqiqatçılar hər fəsildən sonra öz şəxsi mülahizələrini açıqlayır və əsərin «Nəticə» hissəsində həmin mülahizələrini təkrarlayırlar. Jalə Əliyeva bu «ənənəvi» priyomdan və sözçülükdən qaçmış və qənaətlərini əsərin yalnız «Nəticə» hissəsində aşkarlamışdır.

Əsərdə istifadə olunan ədəbiyyat siyahısı yığcamdır. Müəllif yeri gəldi-gəlmədi məxəz göstərərək ədəbiyyatın sayını artırmaq fikrindən kənar durub.

Bütün deyilənlərlə bərabər, orijinal olan, yüksək elmi səviyyədə yazılan «Çağdaş türk şeirinin poetikası» əsəri xəta

və nöqsanlardan da xali deyildir. Diqqətsizliyin nəticəsi olan həmin xəta və nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əsərdə çoxsaylı imla xətaları vardır. Doğrudur, adətən, tədqiqatçı yazdığı əsərdə orfoqrafiq səhvləri görə bilmir. Əsərin ideya və məzmunu onu ağuşuna alıb aparır. Hər halda imla xətaları və söhbət açacağımız başqa xətalar belə ciddi elmi əsərdə yer almamalı idi. Əsər yaxşıca redaktə olunmalı idi.

Əsərdə dəfələrlə «keçən əsrin və ya XX əsrin 20-ci illəri» əvəzinə, əsrimizin 20-ci illəri gedib (səh. 12, 95, 195.). Eləcə də XX əsrin 40-cı illəri əvəzinə, əsrimizin 40-cı illəri gedib (səh. 163). Mehmet Eminin «Cenge gederken» şeirinin 1897-ci ildə yazıldığı səhifə 23 və 24-də təkrarlanıb.

Tədqiqatçıya bizim «Kərkük folkloru antologiyası» kitabımızdan bəhrələndiyinə görə təşəkkür edirik. Lakin həmin kitab 1978-ci ildə deyil (səh. 202), 1987-ci ildə çap olunub.

1839-dan 1890-a qədər sürən bu 150 il (səh. 71) 50 il olmalıdır. XIX əsrin insanları əsərdə rum rəqəmləri ilə deyil, səhfən rus rəqəmləri ilə 19 əsrin insanları yazılmışdır.

Başqa bir misal göstərək: «Xaç yürüşü» deyil (səh.72), «Səlib yürüşü» olmalıdır.

«Qulaq cırmaqlayan» qafiyə (səh.113) ifadəsi mübahisəli görünür. «Qulaq qıcıqlandıran» ifadəsi, bəlkə, daha münasib olardı.

Tədqiqatçının Əkbər Babayevdən tərcüməsi də nöqsanlı görünür: «Həqiqi poeziya – gözəl və əzəmətli yalan poeziyasıdır» (səh. 61).

Hər şeydən əvvəl, onu deyək ki, bu fikir ispan şairinə məxsusdur. Burada söhbət möhtəşəm və ya əzəmətli aldanışdan gedir.

Göründüyü kimi, sadaladıqlarımız asanlıqla düzələ bilən xətalardır. Lakin nə edəsən ki, qulaqlarımızı qıcıqlandırır,

«Çibin murdar deyil, könül bulandırır» məsəli göz önünə gəlir.

2. Dissertantın tədqiqata cəlb etdiyi bir çox şeirlər bütöv verilib (səh. 26, 27, 38–39, 54, 56, 57, 83, 95–96, 103–104, 107–108, 118, 121, 133, 150 və s.) Bizcə, bu, əsərə ağırlıq və onun elmi dəyərinə xələl gətirir. Dənizin suyunun duzlu olduğunu bilmək üçün bir damcı bəs etdiyi kimi, tədqiqata cəlb olunan şeirlərin də müəyyən bəndlərini vermək kifayət edərdi.

Dahi Nizami demiş:

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

3. Türk poeziyasından söz açan tədqiqatçı, onun gah 800 illik (səh.123), gah da minillik (səh.163,195) poeziya ənənələrinə malik olduğunu göstərir.

4. Dissertantın baharla bağlı tədqiqata cəlb etdiyi Ümit Yaşarın «Kulunc» şeirində söhbət bahardan deyil, yay fəslindən gedir. Osmanlı türklərində yaz termini yay mənasında işlənir. Şeirdə gedən Temmuz – iyul ayı da bunu təsdiqləyir (səh.184).

Dissertantın başqa bir məqamda, başqa bir münasibətlə Ahmet Kutsi Tecerden verdiyi nümunə də dediklərimizə dayaq olur:

Duyulmuyor günlerin nasıl geçdiği,
Bu Temmuz, Ağustos ayları böyledir. (səh.185)

5. Dissertasiyanın III fəsli – «Bədii təsvir vasitələri» ilhamla işlənmişdir. Təəssüf ki, nə fəslin sonunda, nə də tədqiqatın «Nəticə» hissəsində müəllifin gəldiyi qənaətlər açıqlanmamışdır.

Göstərilənlər tədqiqat işinə xələl gətirə biləcək ciddi nöqsanlar olmayıb, düzəldilməsi asan olan xətalardır.

«Çağdaş türk şeirnin poetikası» yüksək elmi səviyyədə yazılmış, dissertant qarşıya qoyduğu problemləri uğurla həll etmiş, məqsədinə nail olmuşdur.

Avtoreferat, iki monoqrafiya, mötəbər yerli və xarici elmi və ədəbi jurnallarda çap olunmuş çoxsaylı məqalələr dissertasiyanın məzmununu əhatə edir. Dissertasiya işinin BDU-nun Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasında yerinə yetirildiyi də onun sanbalından xəbər verir.

Bizə qalırsa, «Çağdaş türk şeirinin poetikası» əsəri doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi Jalə Fazil qızı Əliyeva xarici ölkələr ədəbiyyatı üzrə (10.01.02.) filologiya elmləri doktoru alimlik dərəci almağa tamamilə layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
16.06.06

NƏSİR ABBAS OĞLU ƏHMƏDLİNİN «AZƏRBAYCAN BEYNƏLXALQ RADİOSUNUN YAXIN VƏ ORTA ŞƏRQ ÖLKƏLƏRİNƏ YAYIMI: TARİX, TƏCRÜBƏ, NƏZƏRİYYƏ» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Müdafiəyə təqdim edilən «Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə» adlı doktorluq dissertasiyasının müəllifi Nəsir Əhmədli xaricə informasiya yayımı tarixinin öyrənilməsi, nəzəri əsaslarının işlənib hazırlanması, vəsaitlərin yazılması sahəsində xidmətləri olan pedaqoq-alimlərimizdəndir – desək həqiqətdən kənar olmaz. Onun tamamilə orijinal, maraqlı faktlarla zəngin, elmi ümumiləşdirilmələri ilə seçilən tədqiqat əsərində Bakı Beynəlxalq Radiosunun tarixi araşdırılmış, Sovet sisteminin böyük bir dövrü əhatə edilmiş, iki sistemin ideoloji mübarizəsi tam çılpaqlığı ilə gündəmə gətirilmişdir. Əsər boyu müəllifin məsələlərə fəlsəfi yanaşması, bir filosof kimi çıxış etməsi diqqəti çəkir, əsərin sanbalını artırır. Dissertantın əsərdə müraciət etdiyi, bəhrələndiyi elm sahələrinə nəzər salmaq kifayətdir ki, tədqiqatçının və tədqiqatın səviyyəsi barədə təsəvvür yaransın: psixologiya, sosiologiya, pedaqogika, bütün elmlərin açarı fəlsəfə, dil, ədəbiyyat, tarix, nitq mədəniyyəti, coğrafiya, ilahiyyat, stilistika, beynəlxalq əlaqələr və münasibətlər, beynəlxalq hüquq, siyasət, məntiq, iqtisadiyyat, incəsənətin bəzi növləri, ən əsası isə jurnalistika.

Etiraf edim ki, görkəmli jurnalistimiz, prof. Nəsir İmanquliyevin «Yurnalistika elə nadir peşələrdəndir ki, orada peşəkar mükəmməlliyin son həddi, jurnalist ustalığının zirvəsi yoxdur» kəlamını tam dərinliyi ilə Nəsir Əhmədlinin dissertasiya işini oxuyandan sonra dərk etdim.

Dissertasiyada Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin arxivi, eləcə də Azərbaycan Beynəlxalq Radiosunun cari arxivi ilk dəfə olaraq əsaslı şəkildə tədqiqat süzgəcindən keçirilmişdir. Əsərdə Vasim Məmmədəliyev, Aqşin Babayev, Tofiq Rüstəmov, Qulu Məhərrəmli, Yalçın Əlizadə kimi bir sıra görkəmli alimlərimizin əsərlərinə geniş yer verilmişdir.

Maraqlı tədqiqat işi giriş, üç fəsil, nəticə, üç əlavə (model-sxem) və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

Girişdə Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq mövzunun aktuallığından, elmi yeniliyindən, məqsəd və vəzifələrindən, tədqiqatın nəzəri və praktiki əhəmiyyətindən söz açılır.

Dissertasiyanın «Yaxın və Orta Şərq ölkələrinə Azərbaycan radio yayımının tarixi» adlanan I fəsli 5 paraqrafdan (yarımfəsildən) ibarətdir.

Birinci paraqrafda Bakı Radiosunun Xaricə verilişlərindən əvvəlki dövrdə Moskvadan xaricə yayımlanan radio verilişlərinin təşkilindən və ilk inkişaf mərhələsindən (1929–1941) bəhs edilir.

Yaxın və Orta Şərq ölkələrinə radio verilişlərini təşkil etməkdə məqsəd bu ölkələrin xalqlarını oyatmaq və dünyanın bu qədim regionunda Qərb ölkələrinin mövqeyini zəiflətmək idi.

Verilişlər yalnız fransız və ingilis dillərində aparılırdı. Lakin təsadüfdən-təsadüfə ərəb və fars dillərində hazırlansa da, türk və fars dillərində verilişlər Böyük Vətən müharibəsinin əvvəllərindən, ərəbcə daha sonra, 1943-cü ilin avqust ayından aparılmağa başlamışdı.

Dissertant əsərin bu hissəsində Sovet İttifaqının xaricə, xüsusən də Yaxın və Orta Şərq ölkələrinə yayımlarının zəif və nöqsanlı cəhətlərini inandırıcı faktlarla açıb göstərmişdir.

II Paraqrafda Azərbaycan Beynəlxalq Radiosunun meydana gəlməsinin I mərhələsi (1941–1945) tədqiqata cəlb olunub.

Dissertasiyadan göründüyü kimi, Böyük Vətən müharibəsi başlayandan Moskvadan slovak, yunan, türk, fars, polyak, holland və norveç dillərində xaricə bir gündə 50 saatdan artıq verilişlər təşkil olunmuşdu. Bundan əlavə Tiflisdən İtaliya, Bolqarıstan, Macarıstan, Kuybışevdən Çin, İngiltərə və ABŞ-a verilişlər aparılırdı. Yaxın və Orta Şərq ölkələrinə yayımı isə Bakıdan aparmaq məsləhət görülmüşdü. 18 iyul 1941-ci ildə türk və fars dillərində verilişlər yayımlanmağa başlamışdı. Sovet İttifaqı Almaniyanın İranla hərbi saziş bağlayacağından çəkinərək 25 avqust 1941-ci ildə İrana ordu yeritmişdi. Türkiyə isə müharibədə bitərəf ölkələr sırasında idi. Odur ki, hər iki ölkə xalqı arasında təcili təbliğat aparmaq çox vacib idi. Məxfi olaraq Moskva tərəfindən Tehrana ərazi bütövlüyünün qorunması, Cənubi Azərbaycana Avtonom Respublika statusu, Sovet Azərbaycanına isə Cənubi Azərbaycanla birləşmək vəd edilmişdi.

Əks-təbliğat məqsədi ilə ardıcıl iş aparılırdı. Xaricə radio verilişləri gizli yayımlandığından onların mövcudluğundan az adamın xəbəri vardı.

Müharibənin sonlarına yaxın İranla, xüsusən də Güney Azərbaycanla yaranan əlamətdar əlaqələr dissertasiyada inandırıcı işlənmişdir. Təkcə bu paraqraf elmi məlumatı və işlənmə dərəcəsinə görə bir namizədlik dissertasiyasına bərabərdir.

Azərbaycan Beynəlxalq Radiosunun sayəsində İranda Sovet Azərbaycanına və Sovet İttifaqına hüsn-rəğbət yaranmışdı. Bu vaxt Azərbaycanın Beynəlxalq Radiosunda M.S.Ordubadi, Qulam Məmmədli, Mikayıl Rəfili, Mübariz Əlizadə kimi qələm sahibləri çalışırdılar. Onların istedadı, peşəkar qələmi, milli vətənpərvərlik hisləri onlara nüfuz, verilişlərə isə şöhrət gətirirdi.

I fəslin 3-cü paraqrafı Bakı Radiosunun 1946–1970-ci illərdə fəaliyyəti adlanır. Bu paraqrafın əvvəlində dissertant otaylı-butaylı Azərbaycan üçün acınacaqlı olan məsələlərdən – Vaşinqton, Moskva və Tehranın Azərbaycanın, ingilis yazıçısı Ceyms Oldicin təbirincə desək, ikiyə bölünmüş bir ürəyin birləşməsinə əngəl törədən məkrli planlarından söz açır.

Müharibədən sonra Sovet, eləcə də Bakı Radiosunun başlıca məramı əks-təbliğat aparmaq idi. Sovetlərdə də, Qərb ölkələrində də soyuq müharibə maşını işə düşmüşdü. Bu vaxt ərəbcə yayımlara böyük ehtiyac duyulurdu. Bu baxımdan sentyabr 1959-cu ildə ərəbcə xarici verilişlərə başlanması nəinki ölkəmizi ərəb ölkəsində tanıtdı, eləcə də ölkədə Şərqşünaslığın inkişafına təkan verdi. Ərəb ölkələrindən Azərbaycana tələbələrin oxumağa axın-axın gəlməsinə də təsir etdi. Ərəbcə xaricə yayım şöbəsi tələbələr üçün təcrübə və ixtisaslarını artırma məktəbinə çevrilmişdi. Bu sahədə 1959-cu ildən – 1970-ci ilə qədər Bakı Radiosunun ərəbcə qismində çalışan kərküklü Sinan Səidin işi xoş məramla yad edilir.

Tezliklə Şərqşünaslıq fakültəsini bitirən Vasim Məmmədəliyev, Malik Qarayev, Tariyel Həsənov və başqaları bu və ya başqa şəkildə Azərbaycan Beynəlxalq Radiosunun ərəbcə yayımlarının inkişafına kömək etdilər. Təkcə onu demək kifayətdir ki, AMEA-nın müxbir üzvü, prof. Vasim Məmmədəliyev bu qismə 20 ildən artıq kömək etmişdir. Burada çox məşhur «Radio dinləyicilərinin tribunası», «Soruşun, cavab verək», «Radiodinləyicinin saatı», «Bizim poçtumuz» və s. kimi çox maraqlı radio verilişləri dinləyiciləri cəlb etmək baxımından xüsusi fərqlənirdi. Mənim İraqa birinci səfərim zamanı (1962–1966) tez-tez ərəb gəncləri Bakı Radiosunun yayımlarından eşitdikləri bir çox məsələlər barədə fikir mübadiləsi aparır, Bakıya çoxlu məktublar göndərirdilər. Bəzi verilişlər barədə qızğın mübahisələr aparırdılar. Mən sovet ideologiyası ilə böyümüş adam kimi, bəzən ağa

qara demək məcburiyyətində qalırdım. Hardasa ürəyimin dərinliyində buna xəcalət çəkirdim.

I fəslin 4-cü paraqrafında dissertant Bakı Radiosunun 1971–1990-cı illərdəki fəaliyyətindən söz açır. Bu elə bir vaxt idi ki, «BBS» «Azad Avropa», «Azadlıq» və başqa əkstəbliğat radio stansiyaları necə deyərlər «açırdı sandığı, tökürdü pambığı». Bunu nəzərə alaraq Azərbaycan Beynəlxalq Radiosunda üç Baş redaksiya yaradıldı. İran, Türkiyə və Ərəb ölkələrinə yayımlar intensivləşdi. Mətbuat mərkəzi yaradıldı. Bakı Radiosunun 40-cı ildönümündə, 1981-ci ildə verilişlərin məxfiliyi aradan götürüldü.

I fəslin 5-ci paraqrafı Azərbaycanın Beynəlxalq Radiosu müstəqillik illərində (1991–2004-cü illər) adlanır.

1991-ci ilin oktyabr ayında Azərbaycan öz müstəqilliyini elan edəndən sonra Xaricə yayımla məşğul olan Bakı Radiosu Azərbaycanın Beynəlxalq Radiosu statusunu aldı. İndi Azərbaycanın Beynəlxalq Radiosu 8 dildə verilişlər aparır. Üç redaksiya fəaliyyət göstərir. Şərq dillərində (türk, ərəb, fars) yayım aparan redaksiya, Cənubi Azərbaycana yayım aparan redaksiya, Qərbi Avropa dillərində (ingilis, alman, fransız, eləcə də rus dilində) aparılan verilişlər. Bu redaksiyalar Azərbaycan reallığını əks etdirən çox maraqlı və rəngarəng verilişlər hazırlayırlar.

II fəsil «Xaricə sovet təbliğatı vasitəsi kimi Bakı radiosunun təcrübəsi (1980-ci illər)» adlanır.

Bu fəsil 3 paraqrafa bölünüb. Birinci paraqraf Azərbaycan Sovet Respublikasının ictimai vəziyyətinin Bakı radiosunda təcəssümü adlanır. Burada, dissertantın doğru olaraq qeyd etdiyi kimi, əsas diqqət Yaxın və Orta Şərq ölkələrində problem olan məsələlərə yönəldilirdi. Respublikalar və Mərkəz arasındakı münasibətlər, müstəqillik, milli məsələlərin asanlıqla həllini tapması, vicdan azadlığı, cəmiyyətdə qadının yeri və rolu, demokratiyanın bərqərar olması, rus dilinə

və rus xalqına münasibət, sovet seçki sisteminin üstünlükləri, beynəlmiləlçilik və s.

İkinci paraqrafda respublikamızın iqtisadi vəziyyəti və inkişafının xarici dinləyicilərə necə təqdim olunmasından bəhs edilir.

Üçüncü paraqraf milli mədəniyyətimizin Bakı Radiosu ilə Şərq ölkələrində populyarlaşdırılması formalarına həsr edilib. Dissertanta görə mədəniyyət yeganə sahədir ki, sovet dövləti onu nəinki məhv edə bilməmiş, əksinə, bəzi istiqamətlərdə o, yüksək səviyyəyə qalxmışdı. Bu dövrdə Bakı radiosu ədəbiyyat, dil, incəsənətlə bağlı maraqlı yayımlara nail olmuşdu. Bakı Radiosu xaricdə Azərbaycan dilinə dair tədqiqatlardan söz açmaqdan çəkinmirdi. Yaxşı yadımdadır 80-ci illərin ortalarında mənim «ABŞ-da Azərbaycan dilinə dair araşdırmalar» adı altında çıxışım maraqla qarşılanmışdı. Dissertanta təşəkkür edirəm ki, bundan sonra yuxarı təşkilatların məsləhəti ilə Akademiyanın «Azərbaycan dili xaricdə» məcmuəsində (1990) yer alan eyniadlı məqaləmizdən bəhrələnib. «Ana dili» proqramı və dilimizə dair Bakı radiosunun verilişləri Güney Azərbaycanda insanların şüuruna böyük təsir edirdi. Onlar ədəbi dil normalarını əsasən bu verilişlər vasitəsi ilə öyrənirdilər. Güney Azərbaycandan gələn saysız-hesabsız məktublar Bakı Radiosunun verilişlərinə olan maraqdan, Quzey Azərbaycanlılara dərin məhəbbətdən söz açırdı.

80-ci illərin birinci yarısında Bakı Radiosunun Güney Azərbaycana yayım redaksiyası çox maraqlı bir təşəbbüs göstərdi. Cənubdan olan yaradıcı gənclərə müraciət edildi. Onların göndərdikləri şeirlərin radioda səsləndirilməklə bərabər ədəbi orqanlarda ayrıca kitab kimi çap olunacağını xəbər verəndən sonra, onun dinləyicilərinin və məktub göndərənlərin sayı təsəvvür edilməyəcək dərəcədə artmışdı. Həqiqətən də, belə oldu. 1998-ci ildə 49 müəllifin 10 ç/v həcmində kitabı çıxdı.

Bütün bunlarla yanaşı, dissertant qeyd edir ki, milli mədəniyyətimizin Şərq ölkələrində populyarlaşmasında milli maraqlarımızın, milli dəyərlərimizin təbliğatından başqa, hər şey dinləyicilərə psixoloji təsirə yönəldilmişdi. Məntiqi təsir isə yox dərəcəsində idi. Təbii ki, görülən böyük və gərəkli işə verilən bu cür qiymətlə razılaşmaq olmaz.

Dissertasiyanın «Xaricə yayımlanan radioinformasiyanın nəzəri əsasları (informasiya təbliğat prosesinin səmərəlilik fenomeni)» adlanan III fəsli də Beynəlxalq informasiya yayımı aktının bir-biri ilə vəhdətdə olan çox maraqlı yarımfəsilləri: 1) İctimai münasibətlər. Cəmiyyətin son və aralıq məqsədləri. Xaricə yayımın funksiyaları; 2) xarici verilişlərin məzmunu və yayım vasitələri; 3) Beynəlxalq radionun auditoriyası informasiya-təbliğat təsiri obyekti kimi və 4) Müstəqil Azərbaycan Respublikası Beynəlxalq Radiosunun səmərəsini artırmaq yolları və inkişaf perspektivləri tədqiqat süzgəcindən keçirilmişdir. Tədqiqatçı burada təcrübi məsələlərə həsr olunan əvvəlki fəsillərə əsasən xaricə yayımlanan radioinformasiyanın sırf nəzəri məsələlərini araşdırmış və belə nəticəyə gəlmişdir ki, təcrübədə təsdiq olunmayan mülahizələr istənilən məqsəd və nəticəyə çıxara bilməz.

Dissertasiyanın nəticə hissəsində isə müəllifin müddəaları ümumiləşdirilmişdir. Azərbaycan Beynəlxalq Radiosunun fəaliyyətinin təkmilləşdirilməsi üçün bir sıra əməli-təcrübi təkliflər və tövsiyələr irəli sürülmüşdür.

Dissertasiyada Azərbaycan Beynəlxalq Radiosunun 65 illik fəaliyyət tarixi (1945–2004) və təcrübəsi nəzərdən keçirilmiş, perspektiv inkişafa fayda verə biləcək nəzəri əsasları işlənib hazırlanmışdır.

Bununla belə, maraqlı və orijinal əsərdə bizə nöqsan kimi görünən bəzi məqamlar da özünü göstərir:

1. Dissertant bütün əsər boyu dönə-dönə Sovet sistemində bir dənə də yaxşı cəhət olmadığını vurğulayır. Heç olmazsa

nəzərə almır ki, Avropa Birliyi Sovet modelinin üstündə qurulub.

2. XX əsrin 70-ci illərində İranda baş verən hadisələri və 1979-cu ildə şah rejiminin devrilməsini dissertant inqilabi hərəkatla bağlayır. Əslində, bu hadisənin arxasında elə ABŞ və Fransa dururdu. Müsəlman aləminə hücumlar İranla başlamışdı.

3. Dissertant Qarabağı ermənilərin tutduğunu israrla vurğulayır. Bizə qalırsa, Qarabağ rusların birbaşa müdaxiləsi və rus ordu hissələrinin fəal iştirakı ilə alınıb.

4. Dissertasiyada göstərilir ki, mövzu üzrə yuxarıda göstərilən monoqrafiyalar və dərs vəsaitlərindən əlavə tədqiqatçının 20 çap vərəqi həcmindən artıq (avtoreferatda – 30 çap vərəqi göstərilir) elmi məqalələri vardır (s. 15.) Lakin dissertasiyada monoqrafiya və tədris vəsaitlərinin adına belə rast gəlmədik.

Göründüyü kimi, deyilənlər tamamilə orijinal dissertasiya işinin dəyərini azalda biləcək nöqsanlar olmayıb, düzəldilməsi asan olan qüsurlardır.

Uzun müddət Azərbaycan Radio və Televiziya Komitəsində çalışan, bu sahəni yaxşı bilən tədqiqatçı əsəri yüksək elmi səviyyədə yazmış və məqsədinə nail olmuşdur.

Avtoreferat, müəllifin iki monoqrafiyası, iki tədris vəsaiti, çoxsaylı məqalələri dissertasiyanın məzmununu bütövlükdə əhatə edir. Bizə qalırsa, «Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə» adlı tədqiqat işi doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi Nəsir Abbas oğlu Əhmədli jurnalistika üzrə (10.01.10) filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
18.12.06

MUXTAR KAZIM OĞLU İMANOVUN «AZƏRBAYCAN FOLKLORUNDA GÜLÜŞÜN GENEZİSİ VƏ POETİKASI» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Səliqə-sahmanı, elmi təfəkkürü ilə seçilən Muxtar Kazım oğlu İmanovun «Azərbaycan folklorunda gülüşün genezisi və poetikası» adlı doktorluq dissertasiyası folklorumuzun hərtərəfli öyrənilməsi yolunda atılan uğurlu addımdır. Tədqiqat işi xalq gülüşünün genezisi və poetikasına həsr olunan ilk doktorluq dissertasiyasıdır. Tədqiqatçı əsər üzərində iyirmi ildən artıq işləmişdir. Mövzu ilə bağlı onun ilk məqaləsi 1989-cu ildə çıxmışdır. Dissertantın saysız-hesabsız mənbələrdən xəbərdar olması, onlardan yerli-yerində bəhrələnməsi, bir yandan tədqiqat işinin sanbalını qat-qat artırır, digər tərəfdən onun bir alim kimi ciddiliyindən xəbər verir.

Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

Əsərin giriş hissəsində mövzunun aktuallığından, araşdırma tarixindən, dissertasiyanın elmi yeniliyindən, nəzəri-metodoloji əsaslarından, tədqiqatın nəzəri və praktik əhəmiyyətindən və s. danışılır. Diqqəti çəkən məsələlərdən biri odur ki, bəzi tədqiqatçılardan fərqli olaraq dissertant mövzunun araşdırılma tarixindən söhbət açarkən tədqiqatçıların gördüyü işə böyük ehtiramla yanaşmış, kiminsə xidmətinin üstündən sükutla keçməmiş, öz adına çıxmamışdır.

Əsərdən göründüyü kimi, dissertant Dədə Qorquddan günümüzə qədər gülüşün folklorumuzda təzahür edə biləcək bütün növ və janrlarında xalq gülüşünü izləmiş və inandırıcı

nəticələrə gəlmişdir. Çəkinmədən deyə bilərik ki, dissertant uzun illər mövzu üzərində tələsmədən ciddi çalışmış, ortaya sanballı və orijinal əsər qoymuşdur. O da xüsusi qeyd edilməlidir ki, dissertantın gəldiyi qənaətlər folklorşünaslıq elminin nəzəri əsaslarına söykənir.

Dissertasiyanın «Xalq gülüşünün maqik və estetik mahiyyəti» adlanan I fəslində «Məsələnin qoyuluşu», «Komik qarşıdurma», «Komik qəhrəman» kimi yarımbölmələr tədqiqata cəlb olunmuşdur.

Bu fəslin «Məsələnin qoyuluşu» yarımbölməsində tədqiqatçı mühüm bir məsələni – «xalq gülüşü» ilə yazılı ədəbiyyatdakı satira – «öldürücü gülüş» arasındakı fərqi, onun «xalq yumoru»ndan fərqli mahiyyət daşıdığını, bununla belə, «xalq gülüşü»nün yazılı ədəbiyyatda yer alan islahedici gülüşlə eyniyyət təşkil edən və üst-üstə düşməyən cəhətlərini açıb göstərə bilmişdir.

Tədqiqatçı M.M.Baxtindən gətirdiyi misalla gəldiyi nəticəyə möhür vurur: «Hamı gülür və hamıya gülürlər». Xalq özünü mövcud dünyadan təcrid etmir. Xalq gülüşünün yeni dövrün xalis satirik gülüşündən başlıca fərqi məhz bu nöqtədə üzə çıxır».

Dissertantın cəmiyyətin bütün təbəqələri ilə heç bir çətinlik çəkmədən ünsiyyət bağlayan Molla Nəsrəddinlə bağlı gəldiyi nəticə heyranedicidir. Molla hamı ilə dil tapır, o adamlarla bir yerdə vahid bir dünyanın – xalq gülüşü dünyasının sakinidir. Həmin dünyada hamı gülür və hamı gülüş hədəfinə çevrilir. Hətta Molla özü də. Yeri gələndə o, özünü qanmazlığa vuraraq ətrafdakılara ibrət dərsi vermək üçün axmaq donuna girir.

Dissertantın bu fəsildə Novruz bayramı ilə ilgili keçirilən mərasimlərdə yer alan nəğmələrin, kosanın komik zahiri görünüşünün və gülməli hərəkətlərinin maqik təsir gücünü artırdığını xüsusi vurğulaması həqiqətdən kənar deyil. Tədqiqatçı

doğru olaraq gülüşün maqik mahiyyəti ilə onun estetik mahiyyəti arasında qırılmaz əlaqə olduğunu da göstərir.

Bu fəsildə «Komik qarşıdurma» və «Komik qəhrəman» yarımbölmələri də qənaətbəxş işlənmişdir.

Dissertasiyanın «Komik obrazların genezisi» adlanan II fəslində «Dərvişlər: sehrkarlıq və oyunbazlıq», «Qorqud, Burkut və Bəktaşi», «Qızıl saçlı qəhrəman və keçəl» kimi yarımbölmələr təhlilə cəlb olunub. Burada mifoloji dərviş və komik dərviş arasındakı genetik bağlılıq araşdırılıb. Mifoloji dərvişdə özünü göstərən xeyirxahlıq və bədxahlıq elementləri komik dərvişdə təzahür edən müsbət və mənfi keyfiyyətlərin qaynayıb-qarışmasının mənbəyi kimi göstərilir.

Eləcə də qızıl saçlı qəhrəman keçəl obrazının genetik mənbələrindən biri kimi götürülür və keçəldə baş verən eybəcərliklə gözəlliyin komik təzadı aşkarlanır.

Onu da deyək ki, mifoloji və komik dərviş obrazları arasındakı genetik bağlılığa həsr olunan bu bölmə folklorşünaslığımızda tamamilə yenidir.

Maraqlı cəhət odur ki, bu fəsildə dissertant məqamına görə başqa türk soy-köklü xalqlarda yer alan obrazları qarşılaşdırmağı da unutmur. Məsələn, «Qorqud, Burkut və Bəktaşi» yarımbölməsində türkmənlərə məxsus Burkut baba, Qorqud və Bəktaşi ilə müqayisə edilir, tədqiqat süzgəcindən keçirilir.

Araşdırıcı doğru nəticəyə gəlir ki, Yaradanla bağlı yumora geniş yol verilməsi, istər Qorqud, istər Burkut, istərsə də Bəktaşı lətifələrində geniş yer tutur və bunun əsas səbəbi islamaqədərki türk dünyagörüşü ilə islam dünyagörüşünün toqquşmasıdır. Tədqiqatçı eposdakı Qorqudla, rəvayətlərdəki Qorqud arasındakı fərqi də inandırıcı misallarla təsdiqləmişdir. Eposda Qorqud ölümü Allahın əmri sayır və bəyan edir: «Əcəl vədə girməyincə kimsə ölməz, ölən adam dirilməz». Rəvayətlərdəki Qorqud isə ölümdən qaçma yollarını axtarır.

Dissertasiyanın III fəsli «Mifoloji parodiya adlanır. Bu fəsildə bir-birindən maraqlı, elmiliyi ilə seçilən «Hökmdar və təlxək», «Ağıllı və axmaq» kimi yarımbölmələr vardır. Bütün bunlar hələ uşaqlıqdan folklorun müxtəlif janrlarından təcrübi bilik qazandığımız məsələlərdir. Dissertant isə ilk baxışda adi görünən, tariximizin müxtəlif zaman kəsiklərində təzahür edən bu məsələləri elmi-nəzəri cəhətdən işləmiş, bizə ərmağan etmişdir.

«Qəhrəmanlıq eposunda gülüş» adlı IV fəsildə «Dədə Qorqud eposunda dəli obrazı», «Koroğlu» eposunda dəli obrazı», «Koroğlu və Keçəl Həmzə» və «Mərd-namərd qarşıdurmasında dramatiklik və komiklik» kimi tədqiqata cəlb olunan yarımbölmələr diqqəti çəkir.

Dissertasiyanın nəticə hissəsində dissertantın qənaətləri yığcam şəkildə diqqətə çatdırılır.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Muxtar İmanov uzun illərin gərgin əməyi sayəsində folklorşünaslıq elmimizə orijinal bir əsər töhfə etmişdir.

Bu çox gərəkli və qiymətli dissertasiya barədə iki iradımdan başqa əsaslı bir tənqidi fikrim yoxdur. Onlar aşağıdakılardır:

1. Tədqiqatçının araşdırmaya cəlb etdiyi əsərlər qədərincədir. Onlar Azərbaycan, türk və rus dillərindədir. Lakin dissertant Avropa və Qərb tədqiqatçılarının orijinalda olan əsərlərindən bəhrələnməyib. Əslində, bu Ali Attestasiya Komissiyasının tələbidir. Əks təqdirdə Avropa dillərindən biri məcburi namizədlik imtahanı kimi siyahıya salınmazdı.

2. Dissertasiyanın III fəslinin «Hökmdar və təlxək» bölməsində tədqiqatçı çox maraq doğuran məqamlara toxunub. Lakin burada bizi qane etməyən bir məsələni qeyd etməyə bilmərik.

Dissertant hökmdar və təlxəyi mifologiya ilə bağlayır.

Məlumdur ki, təlxəyin işi hökmdarı əyləndirmək, qanı qara olanda onun eynini açmaqdan və s. ibarətdir.

Tarixən Qərb aləmində saraylarda hökmdarların qəzəb xəstəliyini müalicə edən həkimlər, Şərqdə isə hökmdarların qəzəbini soyudan təlxəklər olmuşlar. Məhz buna görə də folklorda təlxək obrazının mifoloji kökə bağlılığı məsələsi bizə inandırıcı görünmür.

Deyilənlər bu samballı əsərin elmi dəyərinə xələl gətirə biləcək qeydlər deyildir. Dissertant tamamilə orijinal olan əsərdə qarşıya qoyduğu problemləri elmi səviyyədə həll etmiş, məqsədinə nail olmuşdur.

Aftoreferat, iki monoqrafiya, çoxsaylı məqalələr dissertasiyanın məzmununu bütövlükdə əhatə edir.

Bizə qalırsa, «Azərbaycan folklorunda gülüşün genezisi və poetikası» tədqiqat işi doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi Muxtar Kazım oğlu İmanov folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
16.03.07.

YUSİF SƏFƏR OĞLU SƏFƏROVUN «AZƏRBAYCAN FOLKLORUNDA TARİXİLİK VƏ ETNİK POETİK YADDAŞ» (FOLKLOR QAYNAQLARI VƏ NAXÇIVAN REGİONUNDAN TOPLANMIŞ NÜMUNƏLƏR ƏSASINDA) ADLI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Xalqın ən böyük milli sərvəti onun folklorudur. Folklor, sözün həqiqi mənasında, xalqın ruhu, psixologiyası, tarixidir. Onun istək və arzularının, təsəvvür və təfəkkürünün, mənəvi aləminin güzgüsü, bitib-tükənməyən incilər xəzinəsidir.

Prof. Yaşar Qarayevin çox doğru olaraq qeyd etdiyi kimi, əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, onu parçalanmaqdan xilas edən, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən də folklordur.

Biz filologiya elmləri namizədi Yusif Səfərovun «Azərbaycan folklorunda tarixilik və etnik poetik yaddaş» adlı orijinal əsərinə bu müstəvidən baxır və yüksək qiymətləndiririk. Tədqiqatçı folklor qaynaqları və Naxçıvan regionundan toplanmış nümunələr əsasında Azərbaycan folklorşünaslığında, demək olar ki, işlənilməmiş, az diqqət yetirilmiş, tarixilik və etnik poetik yaddaşla bağlı yaranmış nümunələrin mənşəyi, qaynaqları, arxaik izlərinin öyrənilməsi və s. gündəmə gətirərək maraqlı bir dissertasiya ortaya qoymuşdur.

Dissertasiya işi giriş, üç fəsil, on iki yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısını əhatə edir. Girişdə möv-

zunun aktuallığı əsaslandırılır. Azərbaycan folklorunda tarixilik və etnik poetik yaddaşın izlərinin araşdırılmasının aktuallığı xüsusi vurğulanır. İşin elmi yeniliyindən danışarkən tədqiqatçı Azərbaycan folklorşünaslığında çox az diqqət yetirilən tarixilik və etnik yaddaşla bağlı yaranmış nümunələrin mənşəyi, qaynaqları və s. ön plana çəkir.

Dissertasiyanın I fəsli «Azərbaycan folklorunun mənşəyi və yarımtarixli qaynaqlarına dair» adlanır. Burada bir-birindən maraqlı, elmi dəyəri ilə diqqəti çəkən «Naxçıvan regionunda folklorun toplanması, nəşri və tədqiqi tarixindən», «Folklor nümunələrinin mənşəyi, kökləri və arxaik izləri», «Bilqamıs eposu, Oğuz və Dədə Qorqudla bağlı folklor örnəklərində oxşarlıq və arxaik motivlər», «Əfsanə və rəvayət qaynaqları» kimi dörd yarımfəsil nəzərdən keçirilir. Birinci yarımfəsildə tədqiqatçı 1715-ci ildən başlayaraq günümüzə qədər Naxçıvan regionunda folklor örnəklərinin toplanması prosesini izləmiş, bu sahədə əməyi olan, fədakarlıqla xalq ədəbiyyatının qiymətli gövhərlərini toplayan, onları unudulub tələf olmaqdan qoruyan adamların zəhmətini qiymətləndirmiş, həqiqəti deməkdən çəkinməmişdir: «Sovet dövründə Azərbaycan folklorunun toplanması, nəşri, tədqiqi sahəsində çox iş görülmüşdür» (s. 12).

Dissertantın 2-ci yarımfəsildə gəldiyi nəticə də qənaətbəxşdir: «Folklor əsərlərinin mənşəyi, keçdiyi yol dövrlərlə, əsrlərlə müəyyən oluna bilər» (s. 12).

Üçüncü yarımfəsildə artıq deyildiyi kimi, «Bilqamıs» eposu, Oğuz, «Dədə Qorqud» boyları ilə bağlı folklor nümunələri araşdırılır. «Bilqamıs» eposundan danışarkən tədqiqatçı doğru olaraq şumerləri türk deyil, qonşu xalq kimi verir. «Bu əlaqələr nəticəsində Şumer Akkad dastanları, əfsanə və rəvayətləri qədim türk (prototürk) şifahi yaradıcılıq nümunələrinə təsir göstərib, bəzən isə onların yaranmasında mənbə rolunu oynamışdı. Buna görə də Azərbaycan folkloru,

xüsusilə nağıl və dastanları «Bilqamıs» dastanı ilə kök, məzmun yaxınlığına malikdir. Bir çox nağıl və əfsanələrimizdə rast gəlinən yeraltı dünya, gedərgəlməz kimi süjetlər, xüsusilə dirilik suyu, həyat ağacı, əbədi həyatın tapılması və s. kimi motivlər «Bilqamıs»dan gəlmədir.

Birinci fəslin 4-cü yarımfəsli – «Əfsanə və rəvayət qaynaqları»nda dissertantın gəldiyi qənaətlər də inandırıcıdır. Burada tədqiqatçı, hər şeydən əvvəl, əfsanə ilə əsatir arasında fərqi göstərərək mətləbə keçir. Əfsanənin daha çox real şəraitə, olmuş hadisələrə yaxınlığını, əsatirdə fantastik xüsusiyyətlərin olduğunu vurğulayır. Əsatirin əfsanənin, əfsanənin isə rəvayətin yaranması üçün qaynaq ola biləcəyini qeyd edir. Tədqiqatçı «Əshabül-kəhf» və «Nuhun tufanı» əsatiri əfsanələrini misal gətirir və bunlarla bağlı Naxçıvan regionunda müxtəlif dağların, qayaların, əfsanələrdə əbədiləşdiyini göstərir.

Dissertasiyanın «Azərbaycan folklorunda tarixilik» adlanan II fəsli altı yarımfəsli əhatə edir. Tədqiqatın həcmcə ən böyük hissəsi olan bu fəsildə – «Novruz və mövsümlə bağlı mərasimlər», «Əfsanələr», «Rəvayətlər», «Nağıllar», «Dastanlarda yurd və soykökə bağlı izlər», «Əmək nəğmələri, bayatı və məhəlli lətifələrdə gerçəkliyin izləri» kimi mövzular tədqiqat süzgəcindən keçirilmiş, doğru nəticələr əldə edilmişdir. Xüsusən «Novruz mərasimi» və ilk bahar bərabərliyi məsələsi elmi cəhətdən gözəl işlənib.

Əsərdə «Novruz»la bərabər, «Qodu-qodu», «Çömçəxatun» mərasimləri də icra olunduğu qeyd edilir. Maraqlıdır ki, hər iki mərasim «Çəmçələ qız» və «Qodu» adı altında Kərkükdə də keçirilir. Təəssüf ki, Naxçıvanın cəmi 384 km-də olan Kərkük ellərində də Naxçıvan regionunda olduğu kimi yer alan bu və ya digər mərasimlərdən söz açmağı müəllif unudub. Tədqiqatçı örnəklər əsasında əminliklə bəyan edir ki, «Sara» əfsanəsi və «Apardı sellər Saranı» xalq mahnısın-

dakı təsvir olunan hadisələr də real həyat gerçəkliyi ilə səsləşir və burada yer alan dastanlarda özünü göstərən tarixilik isə xalqın yurd və soykökü ilə bağlı izləri birləşdirir.

Bu fəsildə «Əmək nəğmələri, bayatı və gerçəkliyin izləri» yarımfəsli də arzuolunan səviyyədə izlənmişdir. Örnək kimi göstərilən folklor nümunələri dissertantın fikirlərinin təsbit edilməsində yardımçı olur. Xüsusilə Naxçıvan, Ordubad, Arpaçay, Şəril, Əlincə, Araz kimi toponimlərlə ilgili yaranan qədim əmək nəğmələri və bayatılar maraq doğurur.

Azərbaycanın ərəblər tərəfindən işğalı (VII əsr), ağır vergilər, o zamankı vəziyyət tam çılpaqlığı ilə bayatılarda öz əksini tapmışdır. Bu baxımdan tədqiqatçının Şahbuz rayonunun Biçənək kəndində üzə çıxardığı bayatı tarixi əhəmiyyət kəsb edir:

Ərəb gəldi hay verin,
Nə istəsə pay verin.
Aza duran deyillər,
Gətirin tay-tay verin.

Dissertasiyanın son – III fəsli «Azərbaycan folklorunda etnik poetik yaddaşın izləri» iki yarımfəslə bölünür: «Əsatir, əfsanə, nağıl, epos, rəvayət örnək və qaynaqlarında etnik izlər», «Bayatı və ağılarda bəzi etnik gerçəkliyin izləri».

Əsatir, əfsanə, nağıl, epos, rəvayət örnək və qaynaqlarından danışarkən tədqiqatçı «Dədə Qorqud» və «Koroğlu» eposunu ön plana çəkir, «Koroğlu» eposunun qədim variantlarında Koroğlunun mənsubiyyətinin Təkəli tayfası ilə bağlılığı ideyasını irəli sürür və qeyd edir ki, Təkəli tayfası Naxçıvanda və ona yaxın ərazilərdə yaşamışdır.

Sarvanların da Kəngərli tayfasının bir qolu olduğu göstərilir. Tədqiqatçı Şərur bölgəsi ilə bağlı olan «Oğlanqala – Qızqala» əfsanəsindən çıxış edərək o qənaətə gəlir ki, regionda

yaşamış Muğanlı və Aranlı tayfaları olmuşdur. Deməli, etnik yaddaşda qorunan şifahi məlumatlar əsassız deyil.

Etnik poetik yaddaşın daşıyıcıları bayatı və ağılarda da etnik ad və izlər özünü göstərir ki, dissertant bunları da regiondan topladığı maraqlı folklor nümunələri ilə təsdiqləyir.

Böyük məmnunluqla oxuduğum dissertasiya işini başa vuranda bir daha özüm üçün «kəşf» etdim ki, folklorla məşğul olan, tədqiqatçı, həm də etnoqraf, dilçi və tarixçi olmalıdır. Elmin bu sahələrini də bilməlidir. Dissertasiya işindən hasil etdiyim qənaət budur ki, tədqiqatçı bütün əsər boyu folklorçu, dilçi, etnoqraf və səriştəli tarixçi kimi çıxış edərək filologiya elmimizə sanballı bir əsər töhfə etmişdir.

Bununla belə, əsərdə bəzi nöqsanlar da özünü göstərir:

1. Əsərdə hər fəsildən sonra gəlinən nəticə, tədqiqatçının gəldiyi qənaətlər yer almalı idi. Təəssüf ki, buna təsadüf edilmir.

2. Tədqiqatçı II və III fəsildə bayatı və ağılardan etnik gerçəkliyin izlərini elmi cəhətdən yaxşı tədqiq etmişdir. Təəssüf ki, bayatılarla bağlı son illərin tədqiqatlarından, o cümlədən də Kərkük xoyratlarından xəbərsizdir. Bunu ona görə inamla deyirik ki, dissertant bayatıların keçmiş tərifini əsərdə vermişdir (s.192). Halbuki regionlarımızda, o cümlədən də Naxçıvan regionunda ilk misrası 3, 4, 5 hecadan ibarət bayatılar da qədərincədir. M.Təhmasib, V.Vəliyev, İ.Abbasov, P.Əfəndiyev, M.Həkimov və başqa görkəmli folklorşünas alimlərimiz etiraf edirlər ki, bayatı toplayanlar 1-ci misrada heca çatışmazlığını bayatının kəsiri hesab etmiş və ona «əziziyəm», «eləmi», «mən aşiq» sözlərini əlavə etmişlər. Hətta prof. V.Vəliyev etiraf edir: «Vaxtilə bu sətirlərin müəllifi də ADU-nun filologiya fakültəsinin tələbələri ilə folklor ekspedisiyalarında olarkən, həmin səhvə yol vermiş, 1-ci misrada buraxılan sözləri «islah» etmişdir» (bax: «Azərbaycan folkloru», Bakı, Maarif, 1985, s.19).

Onu da deyim ki, tələbə yoldaşım Həmid Arzulu vaxtilə mənə Naxçıvandan 28 kəmhecalı bayatı – xoyrat göndərmişdi.

Dissertantın 1-ci sətri kəmhecalı olan bayatı-xoyratlara «əzizim», «əzizinəm», «eləmi» (s.154, 155, 181, 193, 194, 197) əlavə etməsi yerinə düşmür. Məs:

Eləmi, bu Tur dağlar,
Sənə yağsın nur dağlar,
Gəldim gördüm yaz köçüb
Oba ağlar, yurd ağlar. (s. 97)

Bu bayatının 1-ci sətri Tur dağlar olmalıdır. 3-cü sətirdə isə güman ki, səhvən «yaz köçüb» gedib. Əslində «yar köçüb» olmalıdır. Maraqlıdır ki, elə həmin 197-ci səhifədə 1-ci sətri kəmhecalı bayatı da var. Lakin 1-ci sətir 5 hecadan ibarət olduğuna görə dissertant «əzizinəm», «eləmi» artıra bilməyib, bayatını ağı kimi verib.

3. Tədqiqatçı «Ümumdünya daşqını»ndan bəhs edərkən göstərir ki, bu əfsanədir və əfsanəni «Bilqamıs» eposundan Tövrat dini kitabı mənimsəmiş, oradan da Qurana keçmişdir» (bax.s.35).

Bilmirəm niyə, mən şəxsən müqəddəs kitabımıza belə münasibət göstərilməsini istəməzdim. O ki, qaldı «Ümumdünya daşqını»na güman ki, onun da gerçəklikdən qidalanan bir əsası var. Adəm peyğəmbərin vaxtından milyon illər, Nuh peyğəmbərin vaxtından isə cəmisi altı min il keçib. Alimlərin hesablamalarına görə istiləşmə belə davam etsə qütblərin dəyişməsi gedəcək və yenidən «Ümumdünya daşqını» qaçılmaz olacaq.

4. Dissertant yazır ki, əfsanə qaynaqlarından biri inam və görüşlər, digəri isə nağıllardır. «Göyçək Fatma», «Ovçu Pirim», «Alixan pəri», «Tapdıq», «Simnarın nağılı», «Gül və Sənubər» nağılları bir çox əfsanələrin faydalandığı qaynaqlardır.

Elmi ədəbiyyatda məsələnin qoyuluşu belədir: nağıl əfsanədən, dastan nağıldan qaynaqlanır.

5. Tədqiqatçı «Koroğlu» dastanında «Dəmirçi oğlunun Çənlibelə gəlməsi» boyunun baş qəhrəmanı Dəmirçioğlu Həsənin doğru olaraq tarixi şəxsiyyət olduğunu, Cəlarilər hərəkatının, Təbriz üsyanının iştirakçılarından biri olduğunu göstərir. Lakin dissertantın «Koroğlu» dastanının yaranma dövrünü, onun bünövrəsinin qoyulmasını XVI əsrin sonu, XVII əsrin əvvəlinə aid etməsi məqbul sayıla bilməz. Son tədqiqatlar göstərir ki, dastanın ilk rüşeymləri XIV–XV əsrlərdə qəhrəmanın özü tərəfindən qoyulmuş, XVI–XVII əsrlərdə artıq bu ölməz abidə eposlaşmışdır. Eposun XIV əsrin sonu XV əsrin əvvəllərində yarandığını göstərən tutarlı və etibarlı məxəz elə eposun özüdür. Bu faktı eposun həm Azərbaycan, həm də onun qüdrətli qolu Kərkük folklorundakı variantı təsdiqləyir.

Dastan Kərkük folklorunda belə başlayır:

Mən bir kor oğluyam dağlar gəzərəm,
Dağ sultanı yerdən qüvvət sezərəm.
Zalımların başlarını üzərəm
Əcələ yap, usta, mənim sazımı.

– deyərək intiqam almağa tələsən qəhrəman, tüfəng icad edildikdən sonra məyus olur, «mərdliyin pozulduğunu» ürəkağrısı ilə bəyan edir:

Düşmən gəldi tabır-tabır düzüldü,
Alnımıza qara yazı yazıldı.
Tüfəng icad oldu, mərdlik pozuldu,
Əyri qılınc qında paslanmalıdır.

Kərkük ellərində «mərdliyin pozulduğundan» şikayətlənən Koroğlu Azərbaycanda «mərdlik əldən getdi» – deyə nalə çəkir:

Axır əcəl gəldi, yetdi, hay-haray!
Çəkdiyim qovğalar bitdi, hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi, hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi? – deyir.

Elm aləminə məlumdur ki, tüfəng XIV əsrin sonu, XV əsrin əvvəllərində icad olunub. Buradan aydın olur ki, «Koroğlu» dastanının başlanğıcı nə vaxta düşür.

Bütün yuxarıda deyilənlər bu sanballı əsərin elmi dəyərinə kölgə sala biləcək səhvlər olmayıb, düzəldilməsi asan olan nöqsanlardır.

Çap işlərindən göründüyü kimi, əsər üzərində davamlı olaraq 10 ildən artıq işləyən müəllifin 35 elmi məqaləsi və «Elm» nəşriyyatında çıxan 240 səhifədən ibarət «Azərbaycan folklorunda tarixilik» adlı sanballı monoqrafiyası işıq üzü görmüşdür.

Avtoreferat, monoqrafiya və mötəbər məcmuələrdə dərc olunan soxsaylı elmi məqalələr folklorşünaslığımızda yeni olan dissertasiyanın məzmununu bütövlükdə əhatə edir.

Əminliklə demək olar ki, «Azərbaycan folklorunda tarixilik və etnik poetik yaddaş» (folklor qaynaqları və Naxçıvan regionundan toplanmış nümunələr əsasında) adlı tədqiqat işi doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi Yusif Səfər oğlu Səfərov folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
20.11.2007

FLORA DAVİD QIZI ƏLİMİRZƏYEVANIN «KİTABİ-DƏDƏ QORQUD» DASTANLARININ ALMAN DİLİNƏ TƏRCÜMƏSİ VƏ TƏDQİQİ» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

R Ə Y

Azərbaycan şifahi xalq ədəbiyyatının yazıya köçürülən ən qədim abidəsi «Kitabi-Dədə Qorqud» haqqında sayagəlməz tədqiqatlar aparılmış, bu möhtəşəm abidə dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Şifahi xalq ədəbiyyatımızın zirvəsi, ölməz sənət abidəsi «Kitabi-Dədə Qorqud» tarixdə ilk olaraq alman dilinə tərcümə olunmuşdur. Bu baxımdan, Flora Əlimirzəyevanın müdafiəyə təqdim etdiyi dissertasiya işi xüsusi əhəmiyyət kəsb edir. Mövzuya dair dissertantın ilk məqaləsinin hələ 1976-cı ildə ADU-nun «Elmi əsərləri»ndə çap olunduğunu və tədqiqatçının hər il mötəbər elmi məcmuələrdə ən azı iki elmi məqaləsinin çıxdığını nəzərə alsaq tədqiqat işinin miqyası və sanbalı barədə təsəvvür yaranar. Alman dili üzrə mütəxəssis Flora Əlimirzəyeva alman şərqşünası Henri Fridrix fon Ditsin təqribən 200 il əvvəl, 1815-ci ildə «Kitabi-Dədə Qorqud»un əlyazmasını əldə edərək tədqiqat aparmasının və eposun 8-ci boyunun almancaya çevirdiyinin izinə düşmüş, Almaniya kitabxanalarında tədqiqat aparmışdır. Dissertant əsərdə tez-tez «ilk dəfə» ifadəsini işlədir. Və bizə belə gəlir ki, onun bu ifadəni işlətməyə haqqı vardır. Həqiqətən də, Azərbaycan folklorşünaslığında «Kitabi-Dədə Qorqud» eposunun alman şərqşünaslığında tədqiqi və alman dilinə tərcüməsi ilk dəfə olaraq dissertant tərəfindən sistemli şəkildə araşdırılmışdır.

Tədqiqatda ilk dəfə olaraq «Kitabi-Dədə Qorqud» dastanını elm aləminə tanıdan H.F. fon Ditsin araşdırmaları

öyrənilmişdir. Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq Valter Rubenin «Kitabi-Dədə Qorqud»a həsr olunmuş çox böyük həcmli araşdırması müqayisəli şəkildə tədqiqata cəlb edilmişdir.

İlk dəfə olaraq «Kitabi-Dədə Qorqud»u tam əhatə edən Haynin alman dilinə edilmiş tərcüməsi təhlil süzgəcindən keçirilmiş, tərcümənin sənətkarlıq xüsusiyyətləri üzə çıxarılmışdır.

Flora Əlimirzəyevanın folklorşünaslığımız və qorqudşünaslığımız üçün çox gərəkli olan bu əsərində «ilk dəfə»lərinin sayını xeyli artırmaq da olardı. Dənizin suyunun duzlu olduğunu bilmək üçün bir damcı dadmaq kifayət etdiyi kimi, saydıqlarımız bu dissertasiya işinin aktuallığı, orijinallığı, elmi əhəmiyyəti barədə kifayət qədər təsəvvür yaradır.

Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, tədqiq tarixi, məqsəd və vəzifələri, elmi yeniliyi və s. nəzərdən keçirilir. Dissertasiyanın I fəsli «Kitabi-Dədə Qorqud» dastanı H.F.fon Ditsin tədqiqatında» adlanır. Bu fəsil özlüyündə iki yarımfəslə bölünür. Birinci yarımfəsil «Dədə Qorqud»la bağlı atalar sözlərinin araşdırılması, «Kitabi-Dədə Qorqud» dastanın tədqiqinin başlanğıcıdır», ikinci yarımfəsil «Dədə Qorqud» dastanları Ditsin şərhində» adlanır. Bu fəsildə «Dədə Qorqud»u ilk dəfə elm aləminə tanıdan H.F. fon Ditsin abidəyə dair tədqiqatları diqqətlə araşdırılır və VIII boyun şərqşünas tərəfindən alman dilinə tərcüməsinin müəyyən məqamlarına toxunulur. Burada tədqiqatçı Dits və bir çox başqalarının Dədə Qorqudu Məhəmməd peyğəmbərin zamanına və hətta sonrakı dövrlərə aid etməsinə qarşı çıxır və «Kitabi-Dədə Qorqud»un 1-ci cümləsini – «Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyundan Qorqud Ata derlər, bir ər qopdu» misal gətirir və «yaxın» sözünün əvvələ aid

olduğunu inkarolunmaz bir-iki misalla təsdiqləyir. Məs.: «səhərə yaxın», «günortaya yaxın», «axşama yaxın» və s. (s.31). Bu fəsildə dissertant Ditsin tədqiqatlarına və başqa tədqiqatçıların fikirlərinə arxalanaraq eposun şifahi şəkildə söylənmə tarixini yeni eranın VI yüzilliyinə aid edir. Əsərin yazıya köçürülməsi barədə görkəmli qorqudşünas alim Ş.Cəmşidovun fıkirləri ilə razılaşır, abidənin 1052-ci ildə yazıya alındığı barədə Ş.Cəmşidovun dəlil-sübutlarını dəstəkləyir (s.35). Bəyan edir ki, folklor nümunələrinin yaranması ilə yazıya alınmasını heç vaxt eyniləşdirmək olmaz (s.39).

Bu fəsildə fon Ditsin nəyə görə dastanın məhz VIII boyunu – «Basatın Təpəgözü öldürdüyü boy»u alman dilinə tərcümə etməsinə də aydınlıq gətirilmişdir. Hər şeydən əvvəl, Dits bu boyun çox qədimlərlə səsləşdiyini ortaya qoymuş və Homerin «Odisseya»sındakı yunan siklopu Polifemin Təpəgözün təsiri ilə yarandığını on bənddən ibarət dəlil-sübutla isbatlamışdır. Deməli, «Dədə Qorqud»un ayrı-ayrı boyları yeni eradan əvvəllərə gedib çıxır. Dits bu münasibətlə yazmışdır: «İnanırıq ki, Homer Asiyaya səyahəti zamanı Təpəgöz hekayəsini eşitmiş, onun natamam cizgilərini, tərcüməçinin dediyinə əsaslanaraq öz Polifeminə vermişdi» (bax: s.60).

Dits qənaətlərində haqlı olduğunu təsdiqləmək üçün «Basatın Təpəgözü öldürdüyü boy»u tərcümə edərək tədqiqatçıları münaqişəyə dəvət etmişdir.

Dissertant Ditsin qənaətlərində haqlı olduğunu dəstəkləyir. «Homerin Polifemi əsərə yamaq kimidir. Maraqlı hadisə olduğu üçün başqa mənbədən götürülmüşdür» – deyir (bax: s.60).

Dissertasiyanın çox maraqlı II fəsli «Kitabi-Dədə Qorqud»un alman filoloji fikrində yeni mərhələsi» adlanır.

«Valter Ruben «Dədə Qorqud» dastanları haqqında» adlanan birinci yarımfəsildə alman şərqşünasının Dədə Qorqudla bağlı dəyərli tədqiqatları və mülahizələri araşdırılır.

İkinci yarımfəsil «Dədə Qorqud»un tədqiq tarixində Y.Haynın rolu» adlanır. Hayn «Kitabi-Dədə Qorqud»u bütövlükdə alman dilinə tərcümə etmiş, 15 səhifəlik «Son söz»ündə onu «dünya ədəbiyyatında layiqli yer tutmağa haqqı olan» əsər adlandırmış, əsərin yüksək mənəviyyatdan xəbər verdiyini xüsusi vurğulamışdır.

Dissertant da, öz növbəsində Haynın əsərini yüksək qiymətləndirmiş, tərcüməçinin bu ölməz əsərin ruhunu duyduğunu, sənətkarlıq xüsusiyyətlərini lazımınca dəyərləndirmişdir.

II fəslin üçüncü yarımfəslində «Kitabi-Dədə Qorqud»un Azərbaycanda da yaxşı tanınan şərqşünas alim H.Ə.Şmide tərəfindən alman dilinə edilən iki tərcüməsindən söz açılır. H.Ə.Şmide 1995-ci ildə abidəni alman dilinə çevirməklə bərabər, «Kitabi-Dədə Qorqud»a dair fikirlərini də «Tərcüməçidən» və «Tərcüməçinin son sözü» kimi yazılarında açıqlamışdır. H.Ə.Şmide 2001-ci ildə «Kitabi-Dədə Qorqud» eposunu yenidən alman dilinə tərcümə edir və ona böyük həcmli müqəddimə yazır. H.Ə.Şmide H.F. fon Ditsin Homerin Polifem surətini yaradarkən «Dədə Qorqud» abidəsindəki Təpəgöz obrazından istifadə etdiyini dəstəkləyir və Ditsi Qorqudşünaslığın atası adlandırır. H.Ə.Şmide haqlı olaraq Drezden və Vatikan nüsxəsindən əlavə Ditsdə ayrıca bir nüsxənin olması fikrinə qarşı çıxır. H.Ə.Şmide göstərir ki, Ditsin öz dəst-xətti ilə yazılmış nüsxənin çoxlu səhvlərinə qədər Drezden nüsxəsi ilə uyğun gəlir. Deməli, haqqında danışılan bu iki əsər bir əlyazmanın iki nüsxəsidir.

Bizə qalırsa, H.Ə.Şmide heç cür səhv edə bilməzdi. Biz dissertantın bu əlyazma barədə irəli sürdüyü qənaətlərini yanlış hesab edirik.

Dissertasiyanın «Kitabi-Dədə Qorqud» dastanlarının alman dilinə tərcümə sənətkarlığı adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil «Dədə Qorqud» dastanının VIII boyu Ditsin tərcüməsində» adlanır. Burada dissertant

sərişẗəli tərcüməçi səviyyəsində Ditsin tərcümələrinin sənətkarlıq xüsusiyyətlərini nəzərdən keçirir, tərcümə zamanı yol verilmiş nöqsanları üzə çıxarır. Bununla belə, Ditsin tərcüməsini və tədqiqatlarını yüksək qiymətləndirən tədqiqatçı Ditsi dünya qorqudşünaslıq elminin banisi adlandırır. II fəslin ikinci yarımfəslində «Kitabi-Dədə Qorqud» dastanının alman dilinə Y.Hayn tərəfindən edilmiş tərcümələri tədqiqat süzgəcindən keçirilir. Eposun alman dilinə bütöv şəkildə tərcüməsini ilk olaraq Y.Haynın etdiyini və 1958-ci ildə çap etdirdiyini dissertant qürur hissi ilə qeyd edir və alman şərqşünasının tərcümələrini yüksək qiymətləndirir. Bu fəslin üçüncü yarımfəslində türkdilli xalqların bədii yaradıcılığının Avropada yorulmaz təbliğatçı, sərişẗəli tərcüməçi H.Ə.Şmidenin «Kitabi-Dədə Qorqud»un alman dilinə tərcüməsindən bəhs edilir. Dissertant xüsusi vurğulayır ki, H.Ə.Şmide öz işinə böyük diqqət, yüksək sənətkarlıq məsuliyyəti və yaradıcılıqla yanaşıb. Bununla belə, şərqşünas alimin tərcümələrinin nöqsanlardan xali olmadığını da misallar əsasında göstərmişdir.

Dissertant orijinaldan tərcümə ilə bağlı maraqlı fikir irəli sürür. Qeyd edir ki, xalqlar arasında hər cür əlaqələrin geniş vüsat aldığı zəmanəmizdə dili mükəmməl bilən soydaşlarımız istər şifahi xalq ədəbiyyatı nümunələrinin tərcümələri, istərsə də bədii tərcümə olsun tərcümə prosesində əcnəbi mütərcimlərlə müştərək tərəf-müqabil kimi iştirak edə bilərlər.

Tədqiqatçı əsərin «Nəticə» hissəsində elmi müddəalarını, mülahizə və qənaətlərini səkkiz bənddə ümumiləşdirmişdir.

Böyük elmi əhəmiyyəti olan bu dissertasiya işi qorqudşünaslığa yeni və dəyərli töhfədir. H.F. fon Dits qorqudşünaslığın bünövrəsini qoyub. Flora Əlimirzəyeva isə bu cahanşümul elmin hələlik son, həm də sağlam kərpicini qoymuşdur. Əsər o qədər maraqlıdır ki, o qədər məntiqi ardıcıllıqla yazılmışdır ki, oxuduqca oxuyur, ayrıla bilmirsən. Əsəri ilk

dəfə oxuyanda qeydlərimi etməyi belə unutdum və əsəri ikinci dəfə oxumalı oldum.

Sadaladığımız məziyyətləri ilə bərabər, bizə görə bu qiymətli əsər bəzi xəta və nöqsanlardan da xali deyildir. Onlardan aşağıdakıları göstərmək olar:

1. Dissertasiyadan gəlinən qənaətimə və görkəmli qorqudşünas alim H.Ə.Şmidenin fikirlərinə arxalanaraq deyə bilərəm ki, «Kitabi-Dədə Qorqud»un Ditsdə olan əlyazması Drezden əlyazmasının surətidir. H.Ə.Şmide bu münasibətlə yazır: «Azərbaycanda belə bir fikir formalaşmışdır ki, guya Drezden və Vatikan əlyazmaları ilə yanaşı Ditsdə də «Dədə Qorqud»un şəxsi əlyazması olmuşdur». Şmide bunun bir ifadənin nəticəsində formalaşdığını qeyd edir. Dits «Basatın Təpəgözü öldürdüyü boy»un alman dilinə etdiyi tərcüməyə yazdığı girişdə qeyd edir: «Əlyazma mənim Şərqə aid əlyazmalarım içərisində 61 saylı xırda formatda saxlanılır. Drezden Kral Kitabxanasında da, hətta səhvlərinə qədər mənimki ilə eyni olan əsər vardır».

H.Ə.Şmide hər iki əlyazmanı araşdıraraq maraqlı faktla qarşılaşıb: «Hər halda o, (Dits) öz dəst-xətti ilə yazdığı surətdən danışır ki, bu elmi dəqiqliklə götürülmüşdür (yoxlanılıb) və həqiqətən də, çoxlu səhvlərinə qədər Drezden nüsxəsi ilə uyğun gəlir» (bax: s.107).

2. Dissertasiyanın girişində Azərbaycanda «Dədə Qorqud»la ilgili aparılan araşdırmalar və tədqiqatçılardan bəhs edildiyi halda, ölkəmizdə Qorqudşünaslığın əsasını qoyan «Dədə Qorqud»a silsilə məqalələr həsr edən folklorşünas alim Əmin Abidə (Əmin Mütəllib oğlu Əhmədov), demək olar ki, yer verilməyib. Dissertantın bir çox elmi məqalələrinin çap olunduğu BDU-nun əsərlərində (dil, ədəbiyyat seriyası) prof. Paşa Əfəndiyevin «Əmin Abid xalq ədəbiyyatı haqqında» (1983) məqaləsində, Y.Əliyevin «Azərbaycan folklorşünaslıq elminin tarixi» (Bakı, 1990) və Tariyel Qəniyevin

«Azərbaycan folklorşünasları» (Bakı, 2004) kitabında Əmin Abidin bu yöndə yaradıcılığından söhbət açılır. (Yeri gəlmişkən, 1939-cu ildə Həmid Araslının çap etdirdiyi «Kitabi-Dədə Qorqud» Əmin Abid tərəfindən hazırlanmışdır və «Kitabi-Dədə Qorqud»un əlyazmasının yoxa çıxması onunla bağlıdır ki, 1938-ci ildə Ə.Abid güllələnəndə əlyazmanı da məhv etmişdilər – Q.P.) Tədqiqatçı bu əsərlərə də münasibət bildirməyib. Ümumiyyətlə, dissertant Dədə Qorqudla bağlı Ülkər Nəbiyevanın dissertasiyasına, Elçinin almanca, ingiliscə, rusca, fransızca, ərəbcə çap olunan «Kitabi-Dədə Qorqud» aliliyi» kitabına (Bakı, 1999) və s. əsərlərə də münasibət bildirməyi unutmuşdur.

3. Azərbaycan Sovet Ensiklopediyasında (V cild, s.408) T.Höldeke adlı tədqiqatçının «Kitabi-Dədə Qorqud»u Drezden nüsxəsi əsasında çapa hazırlamaq təşəbbüsündən danışılır. Dissertasiyada bu məsələyə münasibət görünmür.

4. Dissertant mövzunun tədqiqi tarixinə nəzər salsaydı, əsər qazanardı. Adətən, dissertasiyalarda mövzunun işlənmə tarixinə dair, necə deyərlər, «ucundan tutub ucuzluğa gedən» tədqiqatçıları tənqid edirik. Bu dissertasiyada isə «Kitabi-Dədə Qorqud»un dünyada yayılması, dünya dillərinə tərcüməsinə dair ekskursa açıqca ehtiyac duyulduğu halda, təəssüf ki, dissertant bu uğur gətirəcək imkandan yan keçib. Əsərin yalnız alman, Azərbaycan, türk və rus dillərində tədqiqinə yer verilib.

Göstərilənlər bu sanballı əsərin elmi səviyyəsinə xələl gətirə biləcək səhvlər olmayıb, düzəldilməsi asan olan xəta və nöqsanlar, arzu və təkliflərdir.

Tədqiqatçının Azərbaycan və Almaniyada çap olunan, elmi faktlarla zəngin olan çoxsaylı məqalə və monoqrafiyaları, eləcə də avtoreferatı dissertasiyanın məzmununu əhatə edir. Tədqiqat işi alman dilinə tərcümə olunaraq Almaniyada yayılmağa və bizə başucalığı gətirməyə layiq əsərdir.

Şübhəsiz, bu iş Azərbaycan-alman ədəbi əlaqələri yolunda ən uğurlu addım olardı.

Bizə qalırsa, «Kitabi-Dədə Qorqud» dastanlarının alman dilinə tərcüməsi və tədqiqi» mövzusunda tədqiqat işi AAK-ın doktorluq dissertasiyaları qarşısında qoyduğu tələblərə tam cavab verir və onun müəllifi Flora David qızı Əlimirzəyeva folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
19.05.2008

FİLOLOGİYA ELMLƏRİ NAMİZƏDİ, DOSENT MAHMUD QARA OĞLU ALLAHMANOVUN «AŞIQ YARADICILIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ» ADLI DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Son dövrlər xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi sahəsində bir-birindən uğurlu işlər görülməkdədir. Aşıq yaradıcılığı sahəsində aparılan araşdırmalar da bura daxildir. Allahmanov Mahmud Qara oğlunun «Aşıq yaradıcılığının inkişaf mərhələləri» adlı doktorluq dissertasiyası həmin uğurlu işlərin davamı kimi əhəmiyyət kəsb edir. Onun qaldırdığı problemlər aktuallığı ilə diqqəti cəlb edir.

Dissertasiya girişdən, beş fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. Dissertasiyanın girişində mövzunun aktuallığı, işlənmə səviyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır.

İşin öyrənilmə dərəcəsinə gəldikdə müəllif bu sahədə görülənlərə də çox həssaslıqla yanaşır. Hər bir tədqiqatçının gördükləri müqabilində qiymətini verməyə çalışır. XIX əsrdən bu yana bütün olanlara çox dəqiqliklə münasibət bildirir. M.Mahmudbəyovun, S.Mümtazın, H.Əlizadənin, V.Xuluflunun, H.Zeynallının, M.Təhmasibin, H.Araslının, P.Əfəndiyevin, V.Vəliyevin, M.Həkimovun, S.Paşayevin, İ.Abbasovun, O.Namazovun, R.Rüstəmzadənin, M.Qasımlının, H.İsmayılovun, Seyfəddin Qəniyev və başqalarının gördüyü işlər işin öyrənilmə dərəcəsi bölməsində aydınlıqla şərh olunur.

Tədqiqat işi elmi-nəzəri və praktik baxımdan kifayət qədər əhəmiyyətlidir. Onun elmi-nəzəri əhəmiyyəti aşıq yaradıcılığının problemlərini inkişafda öyrənmək baxımından səciyyəvidir. Və sonrakı tədqiqatlar üçün bir növ istiqamət rolunu oynaya bilər. Bundan əlavə əsər praktik baxımdan

da folklorşünaslar, ali məktəb tələbələri, magistrlər, orta məktəb müəllimləri üçün də bir mənbə kimi praktik əhəmiyyət daşıyır. Əsərdə bunlar əsaslandırılır.

Birinci fəsil aşıq yaradıcılığının genezisinin öyrənilməsi məqsədi daşıyır. Tədqiqatçı bu sənətin qaynaqlarını müxtəlif istiqamətli faktları tədqiqata cəlb etməklə açmağa çalışır. Burada bir istiqamət kimi folklorşünas alimlərin fikirləri əsas götürülür. Eyni zamanda etnoqrafların, arxeoloqların, tarixçilərin, dilçilərin maraqlı mülahizələri də əsərdə poblemin aydınlaşması baxımından təhlilə cəlb olunur. V.Radlovun, B.Ögelin, İ.Qəfəsoğlunun, H.Dizdaroğlunun, M.Təhmasibin, M.Həkimovun, Q.Namazovun, S.Paşayevin, M.Qasımlının, H.İsmayılovun və başqalarının fikirləri bir ardıcıllıqla şərh olunur. Birinci fəsildə problem iki istiqamətdə araşdırılır. Birinci istiqamət türk şamançılığının mədəniyyət layı kimi tədqiqidir. Bu məsələdə tədqiqatçılar arasında fikir ayrılıqları vardır. M.Allahmanov şamançılığı doğru olaraq mədəniyyət layı kimi təqdim edir.

Tədqiqatçı, eyni zamanda dissertasiyanın bu fəslində ikinci problemə diqqət yetirir. Bu varsaq sənəti ilə bağlı olanlardır. Həmin problem də tədqiqatçılar arasında birmənalı qəbul olunmur. M.Allahmanov bütün deyilənlərə diqqət yetirməklə problemin geniş təhlilini verir.

İkinci fəsil «Oğuz mədəniyyətində ozanın sənət və sənətkar funksiyası» adlanır. Burada da problem iki yarımfəsildə ümumiləşdirilir. Birinci yarımfəsildə «Oğuzun və ozanın mövcudluğunda salnamə təfərrüatı» probleminə diqqət yetirilir. Daha çox bu bölmədə məsələnin tarixilik tərəfləri üstünlük təşkil edir. Oğuz tayfalarının kökü, hansı ərazidə yaşaması, yayılma istiqamətləri və s. geniş təhlil olunur. Bu da heç şübhəsiz, problemin aydınlaşması anlamında edilir. Çünki böyük bir tarixi mərhələni keçib gələn bu sənətin yaşadıcıları sırf faktik materiallarla günümüzə qədər gəlib çıxmayıb. Onlar öz

sənətləri ilə tarixin ağır dolaylarını xalqla birlikdə keçib gəliblər. Xalqın məişətini, həyatını əks etdirməyə çalışıblar. Ona görə də onların mövcudluğunun bir hissəsi tarixdə aranmalıdır. Burada tədqiqatçı oğuznamələri bir mənbə kimi vurğulayır. Eyni zamanda dastanlardan da fikrin istiqamətlənməsi anlamında nümunələr verir. Oğuzların Qafqaza gəlişləri və bu ərazilərdə yaratdıqları böyük mədəniyyət tarixin daha qədim zamanları ilə araşdırılma gərəyində görünür. Və bir növ özü ilə birgə ozanlar haqqında düşünməni zəruriləşdirir. Fəslin ikinci yarımbölməsində sırf ozanlıqla bağlı problemə diqqət yetirilir. Bu mədəniyyət layının hansı keyfiyyətlərlə səciyyələnməsi, özündən əvvəlkilərlə birləşən və ayrılan tərəfləri göstərilir. Sözün etimalogiyası da problem anlamında diqqət mərkəzində saxlanır. Oğuzların yaratdığı böyük mədəniyyət layı ozanlıq anlamında şərh olunur. Onun əhatəliliyi, funksiya daşıyıcılığı dastanlardakı ozan obrazı, eyni zamanda tarixin ayrı-ayrı mərhələlərinə ozan adı ilə səpələnmiş sənətkarların fəaliyyətində izlənir. Ən mükəmməl nümayəndəsi kimi Dədə Qorqudun şəxsində ümumiləşdirilir. «Kitabi-Dədə Qorqud» dastanları, «Oğuz Kağan» və s. burada problem baxımından təhlil olunur. Qopuzun və ozanın uca tutulması, oğuz elində qopuza və ozana olan hörmət və s. açılır. Dastanlardakı ozan obrazları, məsələn, «Kitabi-Dədə Qorqud»dakı Dədə Qorqud, Dəli Ozan, eləcə də Beyrək, Əkrək, Səkrək kimi qəhrəmanların əlində qopuz olması, Beyrəyin məclisə ozan kimi gəlişi, evdə qopuzunun divardan asılması və s. kimi məsələlər problemin aydınlaşması istiqamətində şərh olunur. Burada qopuzla, ozanlarla bağlı əfsanələrə də müəllif diqqət yetirir. Bütün bunlar fəslin uğurlu tərəfləridir.

Sonrakı fəsil ozanların dastan yaradıcılığını problem baxımından izləmək məqsədi daşıyır. «Türk dastan sənətinin mövcudluq və inkişaf istiqaməti» adlanan bu fəsildə şamanların, ozanların yaratdığı dastanlardan danışılır. Bu dastan-

ların öyrənilməsi istiqamətində son dövrlərdə görülən işləri yetərli hesab etmək olmaz. M.Allahmanov bu problemlə ardıcıl məşğul olan tədqiqatçılardandır. Onun qədim türk dastanları ilə bağlı onlarla elmi məqaləsi və monoqrafiyası çıxmışdır. Dissertasiyada isə problemin bir istiqaməti, aşıq yaradıcılığının inkişafı baxımından araşdırılması aparılır. Onu da qeyd edək ki, bu dastanların böyük əksəriyyəti tamlıqla günümüzə qədər gəlib çatmayıb. Ancaq müəyyən epizodlar var ki, M.Allahmanov onları şamanların, ozanların yaradıcılıq faktı kimi araşdırır. Oradakı mövzu özünəməxsusluqları, ozan obrazlarının görünüşü, qəhrəman və ağsaqqal tipləri və s. kimi məsələlər təhlil olunur. Eyni zamanda düşüncə tiplərinin fərqlilikləri göstərilir. «Yaradılış», «Bozqurd», «Törəyiş», «Oğuz Kağan» və s. kimi nümunələr müqayisələrlə şərh olunur və ümumtürk dastan yaradıcılığının faktı kimi salnamə səciyyəsi ortaya qoyulur. Bunlar özlüyündə dissertasiyada qoyulan problemin aydınlaşması üçün dəyərlidir.

«Ozandan aşığa keçid və aşığın sonrakı inkişafı» adlanan dördüncü fəsildə problem üç yarımfəsildə ümumiləşdirilir. Bu fəslin birinci yarımfəsli «Ozanın aşığa transformasiyasında sənətin və qəhrəmanın kodlaşması» adlanır. Burada ozanın aşığa keçməsini şərtləndirən amillər, bu prosesin hansı səviyyədə getməsi məsələlərinə diqqət yetirilir. Müəllif bu istiqamətdə fikir yürüdən tədqiqatçılara da özünün münasibətini bildirir. Aşıq adı ilə tanınmanı tarixi zərurətin faktı kimi göstərir, eyni zamanda islam amili ilə bağlanmanı daha əsas hesab edir. Bu istiqamətdə də əsaslı faktlara istinad etməklə fikrini əsaslandırır. Böyük bir mərhələni ozan adı ilə yaşayan sənətkarlar tarixi prosesdə aşıqla əvəzlənir. Heç şübhəsiz, burada mövzu və düşüncə fərqliliyi, sənətin yeni dəyərlər kəsb etməsi halı da var. Məhz müəllifin vurğuladığı sənətin və qəhrəmanın kodlaşması bunları ehtiva edir.

«Aşıq adı ilə tanınmadan sonrakı inkişafın bəzi məqamları» adlanan yarımfəsil artıq problemin sırf aşıq yaradıcılığının inkişaf istiqamətlərinin öyrənilməsini əks etdirir. Tədqiqatçı bu ifadənin işlənmə məqamlarını göstərməklə XVI əsrdən sonrakı aşıq yaradıcılığının inkişaf məsələlərindən söhbət açır. Burada maraq doğuran istiqamətlərdən biri Şah İsmayıl Xətai və Qurbani xətlərinin müqayisəli araşdırılmasıdır. Artıq Qurbanidə aşıq yaradıcılığı özünün mükəmməl şeir strukturu, deyim qəlibləri ilə təşəkkül tapır. Qurbani dövrünün digər sənətkarlarının, Miskin Abdalın, Ozan Heydərin, Ozan İbrahimin adı vurğulanır. Burada maraq doğuran məsələ aşıq yaradıcılığının ayrı-ayrı əsrlərdəki inkişafına ümumiləşdirici münasibətdir. Ustad sənətkarların həyatı və yaradıcılığının müəyyən tərəfləri aşıq yaradıcılığının inkişaf istiqaməti anlamında ümumiləşdirmələrlə dissertasiyada özünün əksini tapır. Sinkretizm, bədahətən söz demək, aşıq mühitləri, dünya sinkretik sənəti, çoban nəğmələri və s. kimi problemlər də inkişaf mərhələləri anlamında təhlil olunur.

«Aşıq adı ilə tanınmadan sonrakı inkişafın bəzi məqamları» adlanan yarımfəsildə isə aşıq yaradıcılığının sonuncu yüzillikdəki mənzərəsinə diqqət yetirilir. Bu dövr bir sıra uğurlu işlərlə xarakterizə olunur. Xalq ədəbiyyatının toplanması, nəşri, tədqiqi sahəsində gərəkli addımlar atılır. Xüsusilə xalq yaradıcılığı nümunələrinin toplanması sahəsində görülənlər buna nümunədir. Sözün həqiqi mənasında, şərəfli işlər görülmüşdür. Əsrin əvvəllərindən günümüzə qədər görülənlər böyük işlərin faktıdır. S.Mümtaz, V.Xuluflu, H.Əlizadə, H.Araslı, M.Təhmasib, Ə.Axundov və onlarla başqaları həm toplama, həm də nəzəri sahədə bir örnək olmuşlar. Son dövrün araşdırmaları da həmin ənənənin faktıdır.

Beşinci fəsil «Aşıq dastanlarının təmərküzləşmə və inkişaf halı» adlanır. Artıq burada məsələ konkretləşir, sırf aşıq adı ilə tanınmadan sonrakı mərhələnin dastanları təhlil olunur.

Eyni zamanda inkişaf istiqaməti baxımından açılma məqsədi daşıyır. Məlum olduğu kimi, aşıq yaradıcılığının mühüm bir hissəsini dastanlar təşkil edir. Bu mərhələdə şamanların, ozanların yaratdığı dastan nümunələrindən fərqli olaraq aşıq dastanları mövzu etibarilə daha çox məhəbbət yönümlü olur. Ustad sənətkarların həyatını, yaradıcılığını əhatə etmək, onun sevgi duyğularını əks etdirmək məqsədi daşıyır. Aşıq dastanlarının böyük əksəriyyəti məhz bu tiplidi. Bir növ ustad sənətkarlar özlərinin həyatı ilə bağlı hadisələri dövrün ictimai mühiti fonunda yaşadırlar. «Qurbani», «Əsli və Kərəm», «Abbas və Gülgəz», «Qərib və Şahsənəm», «Valeh və Zərnigar» və s. dastanlarımız məhz bu tiplidi. Eləcə də bir istiqamət kimi qəhrəmanlıq dastanları araşdırılır. Burada «Koroğlu»nun, qaçaq hərəkatı ilə bağlı yaranan dastanların özünəməxsusluq məsələləri açılır. Tədqiqatçı məhz tarixi fonda inkişafı, aşıq adı ilə tanınmanın spesifikasını açarkən bunlara diqqətli olur. Dastan ənənəsində onların hansı keyfiyyətlərlə görünüşünü bir növ müəyyənləşdirməyə çalışır. Bütün bunlar son olaraq aşıq yaradıcılığı haqqında tam təsəvvür yaradır. Tarixi inkişafda nələrlə xarakterizə olunmasını, hansı keyfiyyətlərlə günümüzə qədər gəlib çatmasını göstərir. Müəllifin bu istiqamətdə mülahizələri inandırıcı və ağlabatandır. Bunlarla yanaşı, əsərdə bəzi xətalar və mübahisəli görünən məqamlar da vardır:

1. Adətən, dissertasiyanın əsas müddəaları əksini tapan əsərlərin siyahısında əvvəlcə monoqrafiyalar, sonra məqalələr yer alır.

Tədqiqatçının əsərində isə hər şey bir-birinə qarışıb. Neçə-neçə monoqrafiya və 70-ə yaxın elmi məqalə müəllifinin dissertasiyaya dəxli olmayan, eləcə də «Pioner» yurnalında gedən yazını elmi əsər kimi dissertasiyanın əsas müddəalarını əhatə edən əsərlər siyahısında verməsi məqbul sayıla bilməz.

2. Üçüncü fəsildə türk dastan yaradıcılığından danışarkən ancaq ayrı-ayrı dastanların təhlili verilir. Onların

problem baxımından izlənməsi isə bir qədər arxa plana keçir. Halbuki problem baxımından dastanların izlənməsi aparıcı xətdə dayanmalıydı.

3. «Kitabi-Dədə Qorqud» dastanları ozanların yaradıcılıq nümunəsidi. Tədqiqatçı orada islam faktorunu da problem baxımından tez-tez vurğulayır. Ancaq nədənsə konkret fakt söyləmir.

4. Aşıq mühitlərindən danışarkən Şirvan, Təbriz və s. adları çəkir. Burada Şəmkir, Tovuz, Qazax aşıq mühitlərini Qərb zonası adı ilə göstərir. Yaxşı olardı ki bu da hansısa konkret bir yer adı ilə (məsələn, Gəncəbasar) adlandırılaydı, Göyçə və Borçalı aşıq mühitləri isə xüsusi vurğulanmalı idi.

5. Dissertasiyada son dövr aşıq yaradıcılığına da inkişaf baxımından münasibət bildirilməliydi. Bunu mövzu tələb edir. Təəssüf ki, tədqiqatçı məsələyə ümumi şəkildə yanaşmaya üstünlük verib.

Bütün bunlar dissertasiyanın mahiyyətinə, işlənmə səviyyəsinə elə də xələl gətirmir. Bu tədqiqat işi uzun illərin araşdırmasının yekunudur. Bunu müəllifin çap olunan məqalə və kitabları da aydın göstərir. Dissertasiya AAK-ın doktorluq dissertasiyaları qarşısına qoyduğu tələblərə cavab verir. Avtoreferat da əsərin ümumi məzmununu əhatə edir. Müəllifin mövzu ilə bağlı çap işləri də qədərincədir. Təkcə onu qeyd edək ki, dissertantın aşıq yaradıcılığının müxtəlif problemləri ilə bağlı neçə-neçə sanballı monoqrafiyası və 70-ə yaxın elmi məqaləsi vardır. Dissertasiya yüksək elmi-nəzəri səviyyədə yazılmışdır. Onun müəllifi Mahmud Qara oğlu Allahmanov folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
29.10.2008

AYBƏNİZ İBRAHİM QIZI ƏLİYEVA – KƏNGƏRLİNİN FİLOLOGİYA ELMLƏRİ DOKTORU ALİMLİK DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «AZƏRBAYCAN FOLKLOR KİTABI: QAYNAQLARI, TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ» ADLI DİSSERTASİYA İŞİNƏ

RƏY

Xalqın epik və etnik yaddaşı onun folklorudur. Folklor xalqın istək və arzusunun, təsəvvür və təfəkkürünün, təkrarsız mənəvi aləminin bitib-tükənməyən incilər xəzinəsidir. Folkloru bilmədən millətin psixologiyasını, müstəqil, milli, fərdi mentalitetin sabit, əbədi daşıyıcısı kimi onun etnik «mən»ini, fəlsəfi-estetik kodu və geni arayıb-axtarmaq, tapıb incələmək qeyri-mümkündür. Vaxtilə prof. Yaşar Qarayevin dəqiq işlətdiyi obraz və ifadələrlə desək, xalqın bütövlüyünü, soyunu, əslini, zatını inamda, düşüncədə, mənəviyyatda yox olmağa, dağılmağa, tar-mar olmağa qoymayan – folklordur. Məhz buna görə də folklor əzəli və əbədidir. Odur ki, əzəli və əbədi olan folklorumuza layiqli əsərlər həsr olunanda sevinirəm. Aybəniz xanım Əliyeva – Kəngərlinin «Azərbaycan folklor kitabı: qaynaqları, təşəkkülü və inkişaf mərhələləri» adlı orijinal əsərini bu baxımdan yüksək qiymətləndirirəm. Uzun illərin və gərgin əməyin bəhrəsi olan bu sanballı və dəyərli dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

Dissertasiyanın girişində mövzunun aktuallığı tədqiqatın məqsəd və vəzifələri, araşdırmanın obyekti və predmeti, metodologiyası, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti və s. nəzərdən keçirilir. Mövzunun aktuallığı onunla şərtləndirilir

ki, «Azərbaycan folklor kitabı»nın təşəkkülü və inkişaf prosesi ilk dəfə olaraq ayrıca bir elmi problem kimi monoqrafik tədqiqata cəlb olunur. Tədqiqatçı bir məqsəd olaraq qarşısına qoymuşdur ki, Azərbaycan folklor kitabının tarixi təşəkkül prosesini, müxtəlif zaman kəsiyinə məxsus inkişaf mərhələlərini araşdıraraq elmi mənzərəsini üzə çıxarsın. Bu məqsədlə dissertant maraq doğuran məsələləri vəzifə kimi tədqiqata cəlb etmişdir:

– Azərbaycan folklor kitabının əsas inkişaf mərhələlərini ayırd etmək;
– Azərbaycan folklor kitabının yerini müəyyənləşdirmək;
– Azərbaycan folklor kitabını spesifik mədəniyyət hadisəsi kimi dəyərləndirmək;
– Əlyazma – kitab mərhələsinin əsas səciyyəsini aydınlaşdırmaq;
– Əlyazma – kitabdan çap kitabına keçid prosesini hərtərəfli izləmək;
– İlkin folklor nəşrlərinin əsas səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq və s. kimi bir çox orijinal məsələlər araşdırılmışdır.

Dissertasiyanın «Azərbaycan folklor kitabı» anlayışı: onun ilkin qaynaqları və təməl mərhələsi» adlanan I fəslində «Folklor kitabı» anlayışının elmi-nəzəri prinsip və atributları, «Folklor kitabı»nın ilkin qaynaqları: ibtidai-bəsit yazıyaalmalar və «Divani-lüğət-it-türk», «Azərbaycan folklor kitabı»nın təməl mərhələsi kimi» fundamental məsələlər tədqiqat süzgəcindən keçirilir. Burada xüsusi vurğulanır ki, şifahi ədəbiyyat örnəklərinin ilkin yazıyaalmalarda söz-sənət əhli misilsiz xidmətlər göstərmiş və «Divani-lüğət-it-türk», «Oğuznamə», «Kitabi-Dədə Qorqud» kimi möhtəşəm folklor abidələrini it-bat olmaqdan xilas etmişlər. Dissertant çox doğru olaraq qeyd edir ki, Azərbaycan folkloru və folklorşünaslığına, o cümlədən də «Azərbaycan folklor kitabı»na

gələn tarixi inkişaf yolu qədim türk folklor mədəniyyətindən və bu mədəniyyəti əks etdirən ilkin yazılı qaynaqlardan keçir. Bu dövr ortaq türk mərhələsi hesab edilir. Məhz bu səbəbdən də ortaq türk mərhələsində – ilkin (ibtidai) çağlardan erkən orta əsrlərə, təqribən IX–X yüzilliklərə qədər olan dövrdə daş və kağız üzərinə köçürülmüş folklor nümunələri folklor mətnlərinin qeydə alınmasının ilkin qaynaqları sayılır. Beləliklə, ilkin yazıyaalma və onun perspektivdəki toplu – cəm halı – «kitab» geniş məna tutumuna malik olan «folklor kitabı» anlayışının da əsasını qoymuş olur.

I fəslin «Folklor kitabı»nın ilkin qaynaqları: ibtidai-bəsit yazıyaalınmalar» adlı ikinci bölməsində folklor aktının rəsm, cizgi üsulu ilə daş üzərinə həkk olunması, yəni şəkli yazı və ikincisi isə folklor mətninin sözlə ifadəsindən bəhs edilir.

Burada maraq doğuran odur ki, folklor mətninin sözlü yazı şəklindəki ilkin ifadəsi də daş üzərində olmaqla Orxon-Yenisey yazılı abidələrindən başlayır.

I fəslin III bölməsində «Divani-lüğət-it-türk» «Azərbaycan folklor kitabı»nın təməl mərhələsi kimi tədqiqata cəlb edilmişdir. Dissertantın Mahmud Kaşqarinin toplayıb yazıya aldığı və tərtib etdiyi folklor toplusunu – kitabı «Azərbaycan folkloru kitabı»nın təməl mərhələsi hesab etməsi həqiqətdən kənar deyildir.

Dissertasiyanın «Azərbaycan folklor kitabı»nın orta çağ mərhələsi» adlanan II fəslində orta çağ «Azərbaycan folklor kitabı»nı meydana gətirən tarixi-siyasi şərait və «Kitabı-Dədə Qorqud»dan bəhs edilir. Tədqiqatçı «Kitabi-Dədə Qorqud»un Drezden və Vatikan nüsxələrindən kitabşünas və biblioqrafiyaşünas alim kimi söz açır və öz mülahizələrini irəli sürür. Dissertantın qənaətinə görə «Azərbaycan folklor kitabı»nın orta çağ mərhələsində «Kitabi-Dədə Qorqud» onun əsas təmsilçisi statusunu daşımışdır.

«Azərbaycan folklor kitabı»nın yeni dövr mərhələsi» adlanan III fəslin «Koroğlu» mətnlərinin toplanması və yazıya alınması işinin təşəkkülü «Paris və Tiflis nüsxələri» bölməsində prosesin XIX əsr mənzərəsi önə çəkilir. Çəkinmədən demək olar ki, «Koroğlu» boylarının toplanması və eposun əlyazma – kitab halına gətirilməsi ətrafında dissertantın qənaətləri onun səriştəli folklorşünas kimi yetişdiyinə dəlalət edir. Həqiqətən də, «Koroğlu» eposu «Azərbaycan folklor kitabı»nın XIX yüzillikdə ortaya çıxan mükəmməl örnəyidir. Ona görə ki, eposun elm aləmində şərti olaraq Paris və Tiflis nüsxələri adlandırılan əlyazma – kitablar «folklor kitabı» ənənəsinin tarixi meyarlarına cavab verir.

III fəslin «Yeni dövr «Azərbaycan folkor kitabı»nın hazırlanmasında mətbuat və SMOMPK məcmuəsinin rolu» adlanan 2-ci bölümündə XIX əsrin ortalarından Rusiya Elmlər Akademiyasının əməkdaşlarının Azərbaycanın müxtəlif ərazilərində topladığı folklor və etnoqrafik materialların elmi-tarixi fondlarda saxlanılmasından danışılır. Bundan əlavə 1881-ci ildən buraxılmağa başlayan SMOMPK– «Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu» məcmuəsi tədqiqat süzgəcindən keçirilir. Dissertant doğru qənaətə gəlir ki, SMOMPK özündən sonrakı mərhələdə «folklor kitabı» istiqamətində görüləcək işlər üçün örnək rolu oynamışdır. «Əlyazma kitab»dan «çap kitabı»na keçid: İlk folklor nəşrləri» bölümü deyilənləri bir daha təsdiqləyir: «Atalar sözü» kitabı, «Məlikməmməd nağılı», eləcə də Firidun bəy Köçərlinin «Balalara hədiyyə» kitabları, «Aşıq Qərib» və «Əsli-Kərəm» dastanı «Kərəm və Əsli» adı altında çap olundu. «Arvad ağısı» kitabı da bu vaxt çap olunmuşdu. Göründüyü kimi, «Azərbaycan folklor kitabı»nın yeni dövr mərhələsi «əlyazma-kitab» mərhələsindən «çap kitabı»na keçidlə, daha doğrusu, folklor nəşrləri ilə səciyyələnir.

Dissertasiyanın «Azərbaycan folklor kitabı»nın sistemli nəşrlər mərhələsi» adlanan IV fəslində 1925-ci ildən başlayaraq şifahi xalq ədəbiyyatının əksər janrları üzrə kitabların çap olunmasından bəhs edilir. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, dalbadal folklor kitablarının çapı əvvəlki dönəmlərdən fərqli olaraq fərdi təşəbbüsə deyil, elmi-təşkilati qurumun, əvvəllər folklor komissiyasının, sonralar isə folklor şöbəsinin planlı, məqsədyönlü fəaliyyətinə əsaslanırdı. Artıq folklor materiallarının toplanması tədqiqi və nəşri dövlət vəsaiti hesabına həyata keçirilirdi. Hənəfi Zeynallı, Vəli Xuluflu, Hümmət Əlizadə, Salman Mümtaz kimi folklorçu alimlər o dövrdə yetişmişdilər. Folklor nəşrləri elmi və kütləvi nəşrlərə bölünməyə başlamışdı.

Dissertant XX əsrin 50-ci illərindən başlayaraq görkəmli folklorşünas M.Təhmasibin rəhbərliyi ilə görülən möhtəşəm işlərdən, folklorun yalnız toplanması, nəşri deyil, nəzəri cəhətdən tədqiqinə də böyük önəm verildiyini ön plana çəkir.

Dissertasiya işinin «nəticə» hissəsində tədqiqatçı fəsillər üzrə qənaətlərini açıqlayır. Yüksək elmi səviyyədə yazılmış dissertasiyada bizə görə yeganə nöqsan tədqiqatçının bəzən həddən artıq təfərrüata varmasıdır. Buna hətta avtoreferatda belə təsadüf edilir. Məsələn: «…Kitabın qiyməti 70 qəpik olmuşdur» (s.31); İyirmi doqquz səhifədən ibarət olan «Arvad ağısı» kitabının poliqrafik ölçüsü 18–12 sm həcmindədir. Kitab 10 qəpiyə satılmış (s.32); «qiyməti bir manat iyirmi qəpikdir» (s.37) və s. Tədqiqatçı heç olmazsa söhbət açdığı qəpiklərin dəyərini göstərə bilsəydi, bu irada da yer qalmazdı.

Bununla belə etiraf etməliyəm ki, yüksək elmi səviyyədə yazılmış əsəri böyük maraqla oxudum. Tədqiqatın dili anlaşıqlı, rəvan və cəzbedicidir. Dissertant mövzu ilə bağlı elmi-nəzəri materiallara yaxşı bələd olduğundan inandırıcı ümumiləşdirmələr aparmış, çoxşaxəli fikir və mülahizələrini vahid

sistem daxilində cəmləşdirməyə nail olmuşdur. Dissertasiyanın əsas müddəaları avtoreferat və çap olunmuş elmi əsərlərdə öz əksini tapmışdır.

Çoxillik elmi fəaliyyətin məhsulu olan dissertasiya işi və müəllifin çap olunmuş sanballı monoqrafiyası və məqalələri ilə tanışlıq qəti qənaətə gəlməyə imkan verir deyək ki, müdafiəyə təqdim olunan əsər doktorluq dissertasiyaları qarşısına qoyulan tələblərə tam cavab verir və onun müəllifi Aybəniz İbrahim qızı Əliyeva – Kəngərli 10.01.09 – folklorşünaslıq və 05.25.03 – kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
05.03. 2010

SOLMAZ SƏTTAR QIZI MƏHƏRRƏMOVANIN «XIX–XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ KİÇİK QAFQAZIN CƏNUB-ŞƏRQ RAYONLARININ TARİXİ-ETNOQRAFİK TƏDQİQİ (ZƏNGƏZUR, CƏBRAYIL VƏ CAVANŞİR QƏZALARININ MATERİALLARI ƏSASINDA)» MÖVZUSUNDA DOKTORLUQ DİSSERTASİYASI İŞİNƏ RƏSMİ OPPONENT

R Ə Y İ

Düşmən tapdağı altında olan ərazilərimizin, orada yaşamış, indi didərgin düşmüş insanların ləhcəsinin, etnoqrafiyasının, antropologiyasının, folklorunun, tarixinin elmi müstəviyə çıxarılması öz-özlüyündə anlaşıldığı kimi, günün aktual problemlərindəndir.

Biz Solmaz Məhərrəmovanın doktorluq dissertasiyasını, hər şeydən əvvəl, bu baxımdan dəyərləndiririk. Aydın məsələdir ki, indi həmin bölgələrin mədəni etnoqrafik daşıyıcıları öz yurd-yuvalarından didərgin düşdüyünə görə, həmin bölgələrə getmək və onun maddi-mənəvi, etnoqrafik dəyərlərini tədqiqata cəlb etmək qeyri-mümkündür. Nə yaxşı ki, bölgədə dünyaya göz açmış, orada böyüyüb boya-başa çatmış Solmaz Məhərrəmova kimi vətənpərvərlərimiz vardır. Xoşbəxtlikdən Solmaz xanım gəncliyindən tarix, diyarşünaslıq və etnoqrafiyaya ciddi maraq göstərmiş, Laçın rayon Diyarşünaslıq Muzeyinin direktoru işləyərkən zəngin etnoqrafik material toplamış, sonralar həmin materiallar üzərində tədqiqat apararaq ortaya nəzəri cəhətdən bitkin bir əsər qoymuşdur.

Dissertasiya işi giriş, altı fəsil, nəticə, məlumatçıların siyahısı, illüstrativ materiallar və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. Tədqiqatın girişində mövzunun

aktuallığı əsaslandırılır. Tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, mənbə bazası, problemin öyrənilmə dərəcəsi də girişdə nəzərdən keçirilir.

Dissertasiyanın birinci fəslində tədqiqata bölgənin təbii-coğrafi şəraiti və tarixi icmal cəlb edilir.

Bölgədə təsərrüfatın səciyyəvi xüsusiyyətlərini açıqlayan ikinci fəsildə hər biri yarımfəslə bərabər əkinçilik, taxılçılıq, çəltikçilik, bağçılıq və bostançılıq, arıçılıq, ipəkçilik, ovçuluq və balıqçılıq, suvarma, maldarlıq (xırda və iri buynuzlu heyanlar), atçılıq və dəvəçilik tədqiq olunur.

Üçüncü fəsildə bölgədə sənətkarlığın özünəməxsusluğu tədqiq edilir və onun çox maraqlı fəaliyyət növləri – toxuculuq, xalçaçılıq, keçəçilik, dəriçilik, daşişləmə, ağacişləmə və s. gündəmə gətirilir.

Dissertasiyanın «Maddi mədəniyyət» adlanan IV fəsli dörd yarımfəsildən ibarətdir: «Yaşayış məskənləri və evləri», «Geyim və bəzəklər», «Yeməklər və içkilər», «Xalq nəqliyyat vasitələri və yollar». Dissertant bu fəsildə təfsilatı ilə daimi və müvəqqəti yaşayış məskənləri və evlərindən, evlərin daxili sahmanından, qadın və kişi geyimlərindən, ət və süd, eləcə də bitki mənşəli yeməklərdən, içkilərdən, minik, yük və qoşqu nəqliyyatından söz açır.

V fəsil «Ailə və ailə məişəti» adlanır. Burada tədqiqata «Böyük və kiçik ailələr», «Nikah», «Toy», «Uşaqların tərbiyəsi», «Dəfn mərasimi» kimi məsələlər cəlb olunub. Dissertant bu fəsli də qənaətbəxş işləmişdir.

Əsərin «Mənəvi mədəniyyət» adlanan VI fəslində «Bayramlar», «Qonaqpərvərlik», «Dini etiqadlar», «Maarif və səhiyyə», «Aşıq sənəti», «Oyun və əyləncələr», «Təbabət» bölmələri tədqiqat süzgəcindən keçirilmişdir.

Dissertasiya işi əsərin əsas müddəalarını əhatə edən nəticə ilə tamamlanır.

Bir folklorşünas kimi diqqətimi dissertasiyada folklorla bağlı məsələlər daha çox cəlb etdi. Çəkinmədən deyə bilərəm ki, dissertant etnoqrafiya, antropologiya ilə bərabər, bu sahəyə də ciddi fikir vermiş, qənaətbəxş nəticələrə gəlmişdir. Bunu biz onun mötəbər nəşriyyatlarda çap olunmuş əsərlərindən də görürük. Məsələn: Kiçik Qafqazın cənub-şərq bölgəsində dəfn adətləri, Novruz baryamı, dini inamlar, bayram və mərasimlər, toy adətləri, beşik nəğmələri, Xıdır İlyas xalq bayramı, Azərbaycan folklorunda xalq həyatının təsviri, adət-ənənələrimiz folklorumuzda və s.

Təəssüf ki, dissertasiyada aşıq yaradıcılığına və aşıq sənətinə az yer verilib. Tədqiqatda maddi-mənəvi dəyərlərindən söhbət gedən ərazilərdə Aşıq sənətinin memarlarından olan Dirili Qurbanı, Sarı Aşıq, ilk qadın aşığımız Aşıq Pəri və başqaları yetişmişlər.

Tədqiqatçı iyirmidən çox aşığın adını sadalamaqla kifayətlənərək üç-dörd aşıqdan söz açır, aşıq sənətinin sinkretik olduğunu gündəmə gətirmir. Məlumdur ki, aşıq yaradıcılığı ədəbiyyat, musiqi, ifaçılıq, rəqs və teatr elementlərini özündə birləşdirən çoxcəhətli, sinkretik sənətdir. Təsadüfi deyildir ki, dahi Üzeyir Hacıbəyli aşıq sənətinin həmişəyaşar olmasını bunda görmüş və yazmışdır: «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər götürə biləcəyi pay vardır».

Biz Üzeyir bəyin bu dəyərli fikrinə onu da əlavə edərdik ki, aşıq həm də aktyordur. Nə yazıq ki, dissertant bunlara fikir verməyib.

Lakin ömrünü etnoqrafiya və diyarşünaslığa həsr edən Solmaz Məhərrəmovanın dissertasiya işinin yüksək elmi səviyyədə yazıldığını xüsusi vurğulamaq həqiqətdən kənar olmazdı.

Eyni zamanda aşağıdakı qeydlərimi tədqiqatçının nəzərinə çatdırmaq istərdim:

1. «Ailə və ailə məişəti» adlanan V fəsildə oxuyuruq: Ailə və məişəti ən qədim yazılı abidəmiz «Kitabi-Dədə Qorqud»da, klassiklərimizin əsərlərində, şifahi xalq ədəbiyyatında və başqa mənbələrdə bu və ya digər dərəcədə əksini tapmışdır» (s. 169).

Belə çıxır ki, «Kitabi-Dədə Qorqud» şifahi ədəbiyyat nümunəsi deyildir. Dissertant düşünən kimi olsaydı, yazılı ədəbiyyatımız VII əsrdən başlardı. Əslində, «Kitabi-Dədə Qorqud» yazıya XI–XIV əsrlərdə alınıb.

2. Dissertant yazır: «XIX əsrdə çar hökumətinin vergi sisteminə əsasən kənd icmalarında vergilər ailə üzvlərinin sayına (can hesabına) görə yox, tüstü hesabına görə alınırdı… Odur ki, evli qardaşlar birgə yaşamağı, bir «tüstü»də, yəni bir ayrılmaz təsərrüfatda olmağı üstün tuturdular».

Doğrudur, bu sitatı dissertant mərhum Q.Qeybullayevin «Azərbaycanda ailə və nikah» monoqrafiyasından götürüb və hər iki alimə böyük hörmətim var. Mənə belə gəlir ki, bu termin «tüstü» yox, «ocaq» kimi qəbul olunmalıdır.

3. Təəssüf ki, xalq arasında «kiçik toy» adlanan, böyük şadyanalıqla qeyd edilən «sünnət»lə bağlı dissertasiyada heç bir məlumata rast gəlinmir.

4. «Mənəvi mədəniyyət» adlanan VI fəslin «Aşıq sənəti» (s. 244–247) yarımfəsli, artıq qeyd etdiyimiz kimi, çox səthi işlənmişdir. Ən başlıcası, tədqiqatçı aşıq sənətinin həmişəyaşar olmasının kökünə varmamış, aşıq sənətinin sinkretikliyini ortaya qoymamışdır.

Dediklərimiz arzu-istək xarakterli qeydlər olduğundan faktlarla zəngin olan dissertasiya işinin elmi dəyərinə xələl gətirmir. Müəllifin dissertasiyanı tam əhatə edən monoqrafiyası və 39 məqaləsi çap olunub. Onların arasında Konyada, Tiflisdə, Almatada, Simferopolda çıxan məqalələr də vardır. Avtoreferatda yer alan rus və ingiliscə xülasələr də

dissertasiyanı əhatə edir. Əsərin elmi aparaturası da zəngindir. Bölgədə olmuş əcnəbi səyyahların əsərlərindən dissertantın bəhrələnməsi, əsərin dəyərini daha da artırır.

Bizə qalırsa, Solmaz Səttar qızı Məhərrəmovanın «XIX–XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq rayonlarının tarixi-etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında)» doktorluq dissertasiyası Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verir və onun müəllifi etnoqrafiya, etnologiya və antropologiya ixtisası üzrə (07.00.07) tarix elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
filologiya elmləri doktoru, professor
Nizami adına Ədəbiyyat İnstitutunun
baş elmi işçisi,
16.09.2011

NAMİZƏDLİK DİSSERTASİYALARINA VERDİYİM RƏSMİ OPPONENT RƏYLƏRİ

MUSAYEVA SEVİNC QÜDRƏT QIZININ «AZƏRBAYCAN–TÜRKMƏN FOLKLOR ƏLAQƏLƏRİ» (UŞAQ FOLKLORU MATERİALI ƏSASINDA) MÖVZUSUNA HƏSR OLUNMUŞ NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Folklor xalqın təsəvvür və təfəkküründün, mənəvi aləminin güzgüsü, bitib-tükənməyən incilər xəzinəsi, onun ən böyük milli sərvətidir. Hələ bu az imiş kimi əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, unutmağa qoymayan, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən də folklordur.

Bu, Musayeva Sevinc Qüdrət qızının «Azərbaycan–Türkmən folklor əlaqələri» namizədlik dissertasiyasında da qırmızı xətt kimi keçir.

Dissertasiya eyni dil qrupu ailəsinə mənsub Azərbaycan və türkmən xalqlarının ədəbi elmi mədəni əlaqələri yolunda atılan addım olduğundan tədqiqatın əhəmiyyəti, mövzunun aktuallığı ön plana keçir. Bu da bir həqiqətdir ki, folklorumuzun ən dərin qatlarının yaranma dövrü və mərhələlərini, nəhayət, janr sistemini hərtərəfli öyrənmək üçün onu ümumtürk folkloru kontekstində götürmək zərurəti ortaya çıxır. Ona görə də tam əminliklə demək olar ki, elmi rəhbər filologiya elmləri doktoru, prof. Azad Nəbiyev bu mövzunu

dissertanta tövsiyə etməkdə böyük uzaqgörənlik etmiş, dissertant isə üzərinə götürdüyü bu məsuliyyətli işin öhdəsindən gələ bilmişdir.

Məlumdur ki, Azərbaycanda uşaq folkloruna həsr olunmuş sanballı əsərlər, tədqiqatlar vardır. Orada da türk xalqları arasında folklor əlaqələrinə toxunulur. Lakin müdafiəyə təqdim edilən dissertasiya işi xüsusi tədqiqat obyekti olan konkret məsələyə – Azərbaycan və Türkmən uşaq folkloru əlaqələrinə həsr olunmuşdur. Dissertant əsər boyu problemləri müasir nəzəri tələblərə cavab verən səviyyədə araşdırmağa çalışmış və demək olar ki, məqsədinə nail olmuşdur.

«Azərbaycan–Türkmən folklor əlaqələri» (uşaq folkloru materialları əsasında) giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

Girişdə, ümumiyyətlə dissertant hər iki xalqın folklor əlaqələrini açıqlamaq, bu əlaqələrin tarixən qırılmaz tellərlə bağlı olduğunu inandırıcı şəkildə göstərmək üçün tarixə ekskurs edir. Bizə belə gəlir ki, bununla dissertasiya udur.

«Azərbaycan və Türkmən uşaq folkloru» adlanan birinci fəsildə uşaq folkloruna aid janrların təsnifatı verilir, uşaq folkloru janrları arasındakı müştərəklik müqayisəli-tipoloji təhlilə cəlb edilir, Azərbaycan və türkmən folklorunun janr sisteminin analoji uyğunluğa malik olduğu təsdiqlənir. Bir çox hallarda müstəqil elmi fikirlər söylənir. Tədqiqatçının fikirləri, mülahizələri konkret faktlara əsaslanır.

Birinci fəsildə laylalar, oxşamalar, arzulamalar, bəsləmələr, sanamalar, yanıltmaclar, tapmacalar və s. janrlar müqayisəli-tipoloji təhlil süzgəcindən keçirilir. Burada dissertant hər janrı ayrılıqda tədqiq edir, maraqlı nəticələrə gəlir. Əsərdən göründüyü kimi, Azərbaycan və türkmən uşaq folklorunun lirik janrlarını şərtləndirən əsas amillərdən biri hər janrın ayrılıqda xüsusi poetik sistemə malik olmasıdır.

Başqa sözlə desək, oxşarlıq, uyğunluq özünü janrın quruluşunda və formasında göstərir, misralarda hecalar bərabər və ya qeyri-bərabər olur, misralar xüsusi ifadələrlə başlanır, eyni qafiyə sistemi ilə bir-birinə bağlanır, səslər, sözlər tez-tez təkrar olunur, şeir nəqarətlə bitir.

Dissertasiyanın ikinci fəsli «Azərbaycan–Türkmən nağıllarında forma və məzmun müştərəkliyi» adlanır.

Bizə qalırsa, bu fəsil dissertasiyanın ən uğurlu hissəsidir.

Dissertant, hər şeydən əvvəl, Azərbaycan və türkmən nağıllarının təsnifatını verir: heyvanlar haqqında nağıllar, sehrli nağıllar, məişət nağılları. Türkmən və Azərbaycan nağılları oxşarlıq və müştərəklik baxımından təhlil və tədqiq edilir. Azərbaycan və türkmən nağıllarının bədii xüsusiyyətlərini diqqətlə izləyən tədqiqatçı bu qənaətə gəlir ki, hər iki xalqın nağıllarının bədii xüsusiyyətləri türkdilli xalqların nağıllarının bədii xüsusiyyətləri ilə uyğun gəlir.

Əsərin son fəsli «Azərbaycan və Türkmən uşaq oyunlarında tipoloji uyğunluq və özünəməxsusluq» adlanır. Burada bəzi uşaq oyunları müqayisəli-tipoloji təhlilə cəlb edilmişdir.

Bu oyunları təkcə əyləncə kim qəbul etmək səhv olardı. Əgər «Gizlənpaç» (Azərbaycan) və «Bukıldım» (Türkmən) oyunlarında uşaqların təfəkkür, istiqamətləndirmə qabiliyyətləri əks etdirilirsə, «Aşıq-aşıq» (Azərbaycan), «Aşıq oynı» (Türkmən) uşaq oyunlarında qoyunçuluq, ümumiyyətlə, maldarlıq təsərrüfatına məhəbbət və uşaqların fiziki hazırlığı ön plana çəkilir.

Əsərin «Nəticə» hissəsində dissertant gəldiyi qənaət və nəticələri yığcam şəkildə ümumiləşdirmiş, tədqiqat işini ədəbiyyat siyahısı ilə yekunlaşdırmışdır.

Musayeva Sevinc Qüdrət qızının «Azərbaycan–Türkmən folklor əlaqələri» (uşaq folkloru materialları əsasında) əsərini diqqətlə izlədikdə belə bir həqiqətlə üzləşirsən ki, bu

əlaqələrin mənbəyi bu günlə, dünənlə bağlı deyil, hər iki xalqın tarixi birliyi, soy kökü ilə bağlanır.

Bu da bir həqiqətdir ki, ədəbi əlaqələr sahəsində böyük nailiyyətlərimiz olduğu halda, türk dil ailəsinə mənsub olan xalqlarla folklor əlaqələrimizin tədqiqi sahəsində bir boşluq duyulur. Bizə qalırsa, müdafiə olunan «Azərbaycan–Türkmən folklor əlaqələri» əsəri bu boşluğun doldurulması yolunda atılan uğurlu addım hesab edilə bilər. Əsərin müəllifi Musayeva S.Q. ömrünü çoxdan folklorşünaslıqla bağlamışdır. O, neçə ildir Bakı Dövlət Universitetinin «Folklor» kafedrasında çalışır. Uzun illərin səmərəli, acılı-şirinli anlarının məhsulu olan bu orijinal əsər qiymətlidir. Folklorşünaslıq elmimizin inkişafına xidmət edir. Bununla belə bizcə, əsər nöqsan və qüsurlardan da xali deyildir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əsərdə xeyli miqdarda dil, üslub, ifadə xətalarına, orfoqrafik səhvlərə, hətta məntiqsizliyə, fikir qarışıqlığına yol verilmişdir.

Bir neçə misal. Müəllif yazır:

«Uşaq folkloru janrları uşaqların estetik hislərini inkişaf etdirir, onları öz xalqının adət-ənənələri ruhunda tərbiyə edir, vətəni sevməyi başa salır». (18) Janrlar vətəni sevməyi necə başa sala bilər? Başqa bir misal:

– Halbuki nə danışan, nə də dinləyən nağılın həqiqiliyinə inanmır (s.60). Dissertantın hökmü ilə razılaşmaq olmaz. Uşaqlar nağıla inanırlar. Özü də bütün vücudları ilə.

Dalbadal dörd cümlədə «son illərdə» (s.28) təkrar olunmuşdur.

– Bütün əsər boyu sözün ortasında «Azərbaycan» sözü kiçik hərflə yazılmışdır. (s.34, 36, 84, 88, 90, 93, 94 və s.)

Təkənin keçi olduğu göstərilmişdir. (s.64)

Yalnış əvəzinə – yanmış (s.39), yazıçıların əvəzinə – razıçıların (s.39), dükanda əvəzinə – dükomda (s.106), zehin əvəzinə – zeyn (s.102) getmişdir.

Başqa bir misal. «Orta əsrlərdə Türkmənistanda yaşayış məntəqələrində, karvanların dayanacaq kimi dayandığı yerlərdə tacirlər və iş adamları üçün karvansaraylar tikilirdi. (s.56) «Karvanların dayanacaq kimi dayandığı yerlərdə» elə bil yanıltmacdır. Buna cümlədə heç bir ehtiyac yoxdur. Burada söz açmaq istədiyimiz ikinci məsələ tacirlər və iş adamları» ifadəsi ilə bağlıdır. «İş adamı» elə tacir deməkdir. Bizim zəmanəmizdə meydana gəlib. Bizcə müəllif iş adamı dedikdə sənətkarları nəzərdə tutub.

Əsərin ciddi redaktəyə ehtiyacı olduğunu dissertantın nəzərinə çatdırmaqla, dissertasiyada məntiqsizliyə də yol verildiyini qeyd etmək istərdik. Məsələn «Adət-ənənələrdəki uyğunluq, folklordakı müştərəklik bu xalqların yaxın qohum olduğunu göstərir» (səh.5). Əksinə, ümumi etnik mənşəyə malik, eyni dil qrupu ailəsinə mənsub iki xalqın yaxın qohumluğu adət-ənənələrdəki uyğunluğu, folklordakı müştərəkliyi şərtləndirən amildir.

2. Fəsillərin adı və bölgüsü məsələsi irad doğurur. Dissertasiya «Azərbaycan–Türkmən folklor əlaqələri» (uşaq folkloru materialı əsasında») adlanır. Birinci fəsil isə «Azərbaycan və Türkmən şifahi yaradıcılığında uşaq folkloru» adlanır və əsəri bütövlükdə tamamlayır.

Bizcə I fəslin böyük bir qismi (s.17–29) laylalara, oxşamalara qədər «Azərbaycan və Türkmən» uşaq folkloru tarixindən» adlandırılsaydı əlavə söz-söhbətə yer qalmazdı.

3. Türkmən folklorundan gətirilən nümunələr çox az olmaqla qənaətbəxş deyildir. Adətən, bu səpkidə əsərlərdə tədqiqatçını misalların çoxluğunda, elmi aparaturanın zəifliyində təqsirləndirirlər.

Elmi aparaturaya dair iradlar da söyləmək olar. Dissertasiyada yalnız Azərbaycan Türkmən və rus alimlərinin əsərlərinə istinad edilib. Bununla belə, elmi aparaturanı qənaətbəxş hesab etmək olar. Lakin dissertasiyada Türkmən folklorun-

dan gətirilən misalların çox cüzi olması çox təəssüf doğurur və elə təsəvvür yaranır ki, dissertant Azərbaycan uşaq folklorundan ətraflı söz açır, Türkmən folkloruna isə ötəri toxunur.

4. Folklorşünaslıqda terminlər məsələsi çox mühüm faktordur. Doğrudur, dissertant nağıllardan danışarkən Türkmən dilində nağılın, «erteki» adlandırıldığını qeyd edir və həmin terminin etimologiyasını açır. Bu çox maraq doğurur. Lakin layla, oxşama, sanama, yanıltmac və başqa janrların Türkməncə necə adlanmaları isə tədqiqatçının diqqətindən yayınmışdır.

5. Mündəricatda dissertant 91 və 92 sayları altında «İraq Türkmən folkloru» (B-1992) və «Kərkük folkloru antologiyası» (B. 1987; 1990) kitablarımızı mənbə kimi göstərmişdir. Lakin dissertasiyada bu əsərlərə istinad edilmədiyini görmək olar.

Doğrudur, dissertant adı keçən əsrlərimizlə və eləcə də dissertasiyamızla yaxşı tanışdır. Və əsərlərində də onlardan bol-bol istifadə edib. Bircə misalla kifayətlənəcəyəm. Laylalar və oxşamalardan söz açarkən biz «İraq–türkman folkloru» (B. 1992) monoqrafiyamızda yazmışıq: «Demək olar ki, ana ilə körpə arasında əbədi məhəbbətin təməli layla və oxşamalarla qoyulur. Bizə qalırsa, insana ən incə, ən saf, ən ülvi, müqəddəs duyğular ana laylası və oxşamalarla aşılanır» (s.107). Bu sətirlərə hərfi-hərfinə Musayeva S.Q. dissertasiyasında da (s.31) rast gəlinir. Və ya «Layla və oxşamalar məzmunca o qədər fərqlənsələr də oxşamaların poetik mətni bəzi cəhətdən, bəzən də heca cəhətdən özünəməxsusdur» (s.109) fikrimiz, eləcə də «oxşamaların çoxu laylalara bənzəsələr də, onlara çox yaxın olsalar da «bu bənzəyiş» bu yaxınlıq zahiridir» (s.109) və bir çox başqa cümlələr sözbəsöz dissertasiyada təkrar olunub (s.34.).

Bunları heç də böyük zəhmətin nəticəsi olan «Azərbaycan–Türkmən» folklor əlaqələri» namizədlik dissertasiyası-

nın dəyərini azaltmaq üçün demirik. Heç şübhəsiz, bu sadəcə olaraq mexaniki səhvin nəticəsidir.

Bizə qalırsa, göstərilən qüsur və nöqsanlar asanlıqla islah edilə bilər. Bunlar çox aktual mövzuya həsr olunmuş, maraqlı dissertasiyanın dəyərini aşağı sala bilməz. Araşdırma Azərbaycan və Türkmən xalqları arasında elmi əməkdaşlığın daha da dərinləşməsi kimi çox zəruri bir mövzuya həsr olunmuşdur. Dissertasiya ilə bağlı çıxmış məqalə və tezislərdə dissertasiyanın əsas müddəaları öz əksini tapmışdır.

Bütün bunları nəzərə alaraq çəkinmədən demək olar ki, «Azərbaycan–Tükmən folklor əlaqələri» mövzusunda yazılmış elmi-tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə tamamilə cavab verir və onun müəllifi Musayeva Sevinc Qüdrət qızı folklorşünaslıq (10.01.09) üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
15.06.1996

KƏMALƏ FAİQ QIZI İSLAMZADƏNİN «AZƏRBAYCAN FOLKLORUNDA CƏNGAVƏR QADIN OBRAZI» MÖVZUSUNDA NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Sevindirici haldır ki, son bir il ərzində folklor üzrə bir neçə dissertasiyanın müzakirəsini keçirmiş, onların yüksək elmi səviyyədə yazıldığını, həm ixtisaslaşdırılmış müdafiə şurası, həm də Ali Attestasiya Komissiyası təsdiq etmişdir. Bu, bir yandan folklorşünaslar nəslinin artmasına, digər tərəfdən də gənclərimizin keçmişə qayıtma meyilinin güclənməsinə dəlalət edir. Məlumdur ki, folkloru bilmədən xalqın psixologiyasını, onun əsl keçmişini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini dərk etmək, anlamaq çətin olur. Folklor hər hansı bir xalqın bəşər tarixində məxsusi yerini göstərən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, hətta hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir.

Kəmalə Faiq qızı İslamzadənin müdafiəyə təqdim olunmuş «Azərbaycan folklorunda cəngavər qadın obrazı» namizədlik dissertasiyası, hər şeydən əvvəl, bu baxımdan diqqətimizi çəkdi. Belə gözəl mövzunu tədqiqatçıya təklif etdiyinə görə elmi rəhbər, hamımızın xeyirxahı, gözəl yazıçı və alim, filologiya elmləri doktoru, professor Əzizə xanım Cəfərzadəyə təşəkkür edirəm. Onu 70 yaşı münasibəti ilə təbrik edir, cansağlığı arzulayıram.

«Azərbaycan folklorunda cəngavər qadın obrazı» əsəri giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

«Giriş»də mövzunun aktuallığından, folklorumuzda cəngavər qadınlar barədə sistemli tədqiqat əsərinin olmamasından, qarşıya qoyulan vəzifələrdən, tədqiqatın nəzəri əsası və metodologiyasından, tədqiqat işinin elmi yeniliklərindən, əsərin elmi-praktik əhəmiyyətindən və s. müfəssəl danışılır.

Dissertantın dili yorucu deyil, əksinə, sadə və lakonikdir. Fikir aydınlığı, cümlələr arasında məntiqi bağlılıq dissertasiyanı səciyyələndirən keyfiyyətlərdəndir.

Analitik və tarixi-müqayisəli metod əsasında Azərbaycan şifahi xalq ədəbiyyatında yer alan cəngavər qadın obrazlarını türkdilli xalqların və eləcə də başqa xalqların folklorunda özünü göstərən qəhrəman qadın obrazları ilə müqayisə edərək gəldiyi nəticələr tədqiqatçının bir alim kimi yetişdiyini göstərir.

Dissertasiya işinin «Cəngavər qadın obrazının ictimai-tarixi kökləri» adlanan birinci fəslini, əgər belə demək mümkündürsə, gözəl bir sənətkarın ilhamla yazılmış bədii əsəri kimi heyranlıqla, birnəfəsə oxudum. Dissertant cəngavər qadın obrazının mənşəyini, tarixi köklərini araşdırmaq üçün tarix, etnoqrafiya, toponimiya, dialektologiya, antropologiya və s. dair neçə-neçə əsəri oxumuş, fikir süzgəcindən keçirmiş, ağlabatan nəticələrə gəlmişdir. Bu fəsildə tədqiqatçı doğru olaraq məsələyə cəmiyyətin inkişaf tarixi nöqteyi-nəzərindən yanaşmış, cəngavər qadın obrazının ictimai və sosial köklərinin patriarxah dövrü ilə bağlılığı prizmasından nəzər salmışdır. Lakin istər patriarxah dövründən, istərsə amazonkalar dövründən, istərsə də sonrakı dövrlərdən olsun cəngavər qadın obrazının öz mənşəyi ilə həyata, gerçəkliyə bağlılığını xüsusi vurğulamaqla dissertant doğru yolda olduğunu göstərmişdir. Amazonkalardan danışarkən tədqiqatçı bu məsələnin bədii əsərlərdə əksini də izləmiş, amazonka sözünün etimologiyasını tarixi faktlarla, əfsanə, rəvayət və real həyatla üzvi surətdə, inandırıcı şəkildə vermişdir.

Tomirislə bağlı məsələlərin işıqlandırılmasını, ümumiyyətlə, dastanlarımızda cəngavər qadın obrazlarının adı məsələsi xüsusi maraq doğurur. Bu bir aksiomadır ki, insan öz-özünə, təkbaşına cəngavər olmur. Olsa-olsa cəsur olur, qorxmaz olur. Cəngavər isə o adam olur ki, xalqı, tayfanı dalınca aparır, qəhrəmanlıq göstərir, şöhrət qazanır, adı dillərdə gəzən bir cəngavərə çevrilir. Dissertantın söhbət açdığı Tomiris, Banuçiçək, Selcan Xatun, Ərəb Zəngi, Nigar, Həcər və başqaları belələrindəndir. Lakin dissertantın yazdığı kimi, folklorumuzdakı cəngavər qadın obrazı möhkəm mifoloji təmələ, qədim köklərə bağlı olan əsasa malikdir. Bir çox obrazlar öz başlanğıcını məhz mifologiyadan götürmüş, sonralar inkişaf edərək bugünkü şəklini almışdır. Maraqlıdır ki, mifoloji surətləri ardıcıllıqla nəzərdən keçirdikdə qadının cəmiyyətdə tutduğu mövqeyini, onun funksiyalarının hansı istiqamətdə dəyişdiyini, necə təkamül etdiyini izləyə-izləyə cəmiyyətin inkişaf mərhələləri barədəki elmi müddəaların folklorda inikasını da aydınca görə bilirik. Məlum olur ki, türk mifologiyasında qadın Yer üzünün yaradıcısı, Tanrının məsləhətçisi olmaqdan başqa analarını və körpələri himayə edən ilahəyə, daha sonra isə ailə ocağının qoruyucusuna doğru uzun bir yol keçmişdir. Bütün bunlar I fəsildə elmi şəkildə əsaslandırılmışdır.

Dissertasiyanın ikinci fəsli «Dastanlarımızda cəngavər qadın obrazı» adlanır. Bu fəsil «Qəhrəmanlıq dastanlarında cəngavər qadın obrazı» və «Məhəbbət dastanlarında cəngavər qadınlar» başlıqları ilə ayrıca tədqiq olunur. Konkret olaraq «Kitabi-Dədə Qorqud», «Şah İsmayıl», «Koroğlu», «Məhəmməd və Güləndam», «Heydər bəy», «Nəcəf və Pərzad», «Əzətənli Əmrah», «Seyid və Pəri», «Qaçaq Nəbi» dastanları tədqiqat obyektinə çevrilmiş, bu dastanlardakı cəngavər qadın obrazları – Banuçiçək, Selcan Xatun, Nigar, Həcər, Ərəb Zəngi, Güləndam, Süsənbər, Xanı və başqaları

təhlil olunmuşlar. Müqayisələr məhəlli xarakter daşımamış, «Alpamış», «Rüstəmxan», «Alpamıs Batır», «Manas», «Altay Buucay», «Maday Qara» kimi dastanlarla, dünya şifahi ədəbiyyatı nümunələri ilə analogiyalar aparılmışdır. Müqayisələr yalnız oxşar və fərqli cəhətləri üzə çıxarmaq üçün deyil, əslində tədqiqatçı üçün yeni söz demək, ümumiləşdirmələr aparmaqdan ötrü istinad nöqtəsinə çevrilmişdir. Dissertantın analitik təfəkkürü imkan verir ki, o, dastanların yaranma tarixi, süjeti bu və ya digər dövrlə əlaqələndirilməsi, obrazların müəyyən tarixi şəxsiyyətlərlə bağlılığı, bəzi obrazların adlarının etimologiyası və s. barədə yeni söz desin.

İkinci fəsildə maraqlı bir analoqun şahidi oluruq. Məlumdur ki, cəngavərliyin və cəngavərlərə həsr olunmuş Qərb ədəbiyyatında cəngavər kodeksi olmuşdur. Məsələn, cəngavərin ruhu yaradana məxsusdur; Cəngavərin qılıncı hökmdara xidmət etməlidir; onun ürəyi sevgilisinindir, şərəfi isə özünə məxsusdur, o heç kəsə güzəştə getməz, heç kəsə əyilməz.

Dissertant çox haqlı olaraq cəngavərlərimiz üçün də müəyyən yasaqların, vəzifə borcunun olmasına şübhə etmir. Dastanlardan çıxış edərək bu yazılmamış qanunları tədqiqatçı belə qruplaşdırmışdır:

İki nəfərin döyüşü zamanı üçüncü bir şəxsin kiməsə kömək etmək cəhdi cəngavər üçün təhqir hesab olunurdu. Qadının köməyindən istifadə etmək cəngavər üçün eyib və təhqir hesab olunurdu. Arxadan zərbə vurmaq qəhrəman adına ləkə idi və s.

Dastanlarımız müxtəlif dövrlərdə yarandığından hər bir dövr dastanlarımıza öz möhürünü basmış və bu ictimai münasibətlərdən tutmuş – məişətə qədər həyatın bütün sahələrini əhatə etmişdir. Dissertant bütün bunları addım-addım izləmiş, dəyərli fikirlər söyləmişdir.

Dissertasiyanın «Nəticə» hissəsində tədqiqat işində şərh olunan elmi mülahizələr ümumiləşdirilmişdir.

Dissertasiya tədqiqatda istifadə olunmuş çoxsaylı əsərlərin siyahısı ilə bitir. Burada tədqiqatçının məxəzlərlə işləmə qabiliyyətini xüsusi qeyd etmək istərdik. Tədqiqatçının hər bir məsələyə dair cəsarətli fikir və mülahizələrini inandırıcı dəlillərlə məntiq üzərində qura bilməsi, problemlərə zaman və məkan prizmasından baxa bilməsi, folklorşünaslıq elmimizin astanasında istedadlı bir tədqiqatçının dayandığına əyani sübutdur. Qoy bu yolda Kəmalə İslamzadə öz elmi rəhbəri kimi xeyirxah, zəhmətkeş, elmimiz və mədəniyyətimiz yolunda bir fədayi olsun.

Bütün yuxarıda deyilən xüsusiyyətlərlə bərabər, əsərdə getmiş bəzi xırda qüsur və nöqsanlardan da danışmaq olardı:

1. Əsərdə az da olsa dil, üslub, ifadə xətalarına, orfoqrafik səhvlərə yol verilmişdir. Ən kiçikyaşlı uşaqları və ən qocaları çıxmaq şərti ilə (s.37). Lap qocaları olar.

İp ucu verən faktlar (s.54) – kələfin ucu, kələfi açmaq ifadələri vardır.

«Ummaq» felindən danışarkən dissertant onu zahı qadınlarla bağlayır. «Zahı qadınlar xörəyin xoş ətrini hiss edəndə həmin xörəkdən dadmaq istəyirlər, yəni umurlar» (s.53). Bizcə, bu daha çox hamilə qadınlarla bağlı məsələdir.

2. Adətən, tədqiqatçılar bu və ya başqa məsələyə öz münasibətlərini tam və açıq deməkdə, başqalarının fikrini təkrar etməklə «sudan quru çıxmaqda» tənbeh edirlər. Bu dəfə əksi olub. Tədqiqatçı tədqiq etdiyi cəngavər qadınlara oxşamış, məsələ barədə öz hökmünü verir və demək olmaz ki, hər vaxt haqlı olur. Kəmalə İslamzadə dastanlara bu günün gözü ilə baxır, hətta dastançılara öz etiraz səsini ucaldır

«Heydər bəy» dastanında Süsənbər deyir:

«Get, atamdan məni istə, o mərd adamdı, bəlkə, verdi».

Heydər bəy belə də elədi. Sonra tədqiqatçı məsələyə müdaxilə edir: «Bu parçadan görünür ki, dastançı da zehinlərdə dərin kök salmış adət-ənənələrin, qayda-qanunların təsiri altından çıxa bilməmiş, bunlara qarşı açıq üsyan yolunu tutmamış, Heydər bəylə Süsənbərin qovuşması üçün valideynin razılığını almaqda zəmanənin tələbinə güzəştə getmişdir» (s.34).

Göründüyü kimi, burada tədqiqatçı öz cəngavər qadınlarından da qabağa getmişdir. Axı dastanların qayəsi insanlara xas ola biləcək ən yaxşı xüsusiyyətləri aşılamaqdır. Bundan yaxşı nə ola bilər?!

3. Tədqiqatçı «Şah İsmayıl–Gülzar» dastanının Şah İsmayıl dövründən çox əvvəl yarandığını təsdiqə çalışmaqla bizi də çaşdırır. Məlum bir həqiqətdir ki, bir çox dastanların əsasını nağıl və rəvayət ünsürləri təşkil edir. «Dədə Qorqud»dan bu yana əksər dastanlarımızda nağıl ünsürləri vardır. Bir də ki, dastan tarixdə məlum bir şəxsiyyətin adı ilə bağlı olduğundan hansı əsasla bu qənaətə gəlmək olar?

4. Dastanla bağlı tədqiqatçıya başqa bir iradımız da vardır. Dissertant doğru olaraq «Zəngi»nin kişi adı olduğunu qeyd edir və bunu tarixi faktlarla təsdiqləyir və elə buradaca qəribə bir qənaətə gəlir:

«Görünür bu cəngavər, qadın olduğunu bildirməmək üçün, namussuz kişilərdən qorunmaqdan ötrü özünə kişi adı götürmüşdür» (s.108). Nəsə tədqiqatçının gəldiyi nəticə ağla batmır. «Leşdən hasar, başdan minarə tikdirən» bir cəngavərin namussuz kişilərdən qorunmaqdan ötrü özünə kişi adı götürməsi məntiqə sığmır. Sadəcə olaraq o, qadın olduğunu gizləmək üçün kişi adı götürmüşdü.

Göstərilənlər asanlıqla islah edilə biləcək xırda qüsur və nöqsanlardır. Bunlar düzəldilməsə belə, çox maraqlı bir mövzuya həsr olunmuş, ilhamla işlənmiş dissertasiyanın dəyərini aşağı sala bilməz. Tədqiqatçı mövzu ilə bağlı elmi-nəzəri

ədəbiyyatdan məharətlə istifadə edərək nəzəri mülahizələrini vahid sistem daxilində cəmləşdirə bilmişdir.

Dissertasiya ilə bağlı çıxmış məqalə və tezislər (cəmi altı ədəd) onun əsas müddəalarını əks etdirir.

Bizə qalırsa, «Azərbaycan folklorunda cəngavər qadın obrazı» mövzusunda yazılmış elmi-tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə cavab verdiyindən onun müəllifi İslamzadə Kəmalə Faiq qızı folklorşünaslıq üzrə (01.01.09) filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
05.01.1997

NƏZAKƏT HÜSEYN QIZI HÜSEYNOVANIN «QƏDİM TÜRK QƏHRƏMANLIQ DASTANLARININ TİPOLOGİYASI («URAL BATIR» ƏSASINDA)» ADLI NAMİZƏDLİK DİSSETASİYASINA

RƏY

Məlumdur ki, türkdilli xalqların məskunlaşdığı ərazilərdə vaxtaşırı çoxlu müharibələr, basqınlar olmuş, bu viranedici müharibələr nəticəsində sərhədləri daralmış, bəzən şan və şərəfi tapdalanmış, mədəniyyəti, dili, dini, adət-ənənəsi zərbələrə məruz qalmışdır. Lakin dil və folklor adlanan iki varlıq yad təsirlərə sinə gərmiş, türkdilli xalqların özünəməxsus mədəniyyətini, adət-ənənəsini, həyat tərzini saxlaya bilmişdir. Bu baxımdan dastanlar, o cümlədən də zənginliyi, qeyri-adiliyi və orijinallığı ilə seçilən «Ural batır» dastanı xüsusi əhəmiyyət kəsb edir.

Nəzakət Hüseynovanın «Qədim türk dastanlarının tipologiyası («Ural batır» əsasında)» dissertasiyasında, hər şeydən əvvəl, diqqətimizi çəkən türk mənşəli dastanların tipoloji təhlili, onların eyni kökdən olması, oxşar və ortaq ədəbi-bədii faktların təsdiqlənməsi, dastanların tarixi etnoqrafik, coğrafi ictimai-siyasi və fəlsəfi baxımdan fikir süzgəcindən keçirilməsi olmuşdur.

Dissertant haqlı olaraq göstərir ki, «Qədim türk qəhrəmanlıq dastanlarının tipologiyası» mövzusu Azərbaycan folklorşünaslığında ilk dəfədir belə əhatəli tədqiq olunur. Həqiqət naminə deyək ki, bu tədqiqat dərinliyinə və əhatə dairəsinə görə elə Başqırd folklorşünaslığı üçün də təzədir. Əsər bir-birindən maraqlı olan dörd fəsili, bir neçə bölməni, giriş, nəticə və istifadə olunmuş ədəbiyyatın geniş siyahısını əhatə edir. Dilinin rəvanlığı, fikir aydınlığı, mülahizələrin məntiqliyi ilə seçilən dissertasiyada «Ural batır» əsas obyekt kimi götürülmüş, «Bilqamıs», «Avesta», «Mahabharata»,

«Altay yaradılış dastanı», «Maday Qara», «Kitabi-Dədə-Qorqud», «Alpamış», «Manas» və s. ilə tipoloji təhlil aparılmış, qənaətbəxş nəticələrə gəlinmişdir. Tədqiqata cəlb olunan və həllinə, demək olar ki, nail olunan problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. «Ural batır» dastanının mənşəyi, formalaşması və təkamülü.
2. «Ural batır» dastanında ilk başqırd ailəsinin ibtidai məişəti və dünyagörüşünün milli və ümumtürk zəmində tipoloji təhlili.
3. «Ural batır»da «dirilik suyu» probleminin həlli yolları, özünəməxsusluğu və yuxarıda adı çəkilən dastanlarla bənzəyişi.
4. Əzəli-əbədi olan xeyir və şərin mübarizəsi, xeyir və şər qüvvələrin «Ural batır» da ümumtürk dastanları fonunda qoyuluşu və həlli.
5. «Ural batır»ın poetikası, bədii ifadə vasitələri, mübaliğələr, onların işlənmə məqamı və bu baxımdan da türkdilli xalqların dastanları ilə səsləşməsi və özünəməxsusluğu.

Dissertasiyanın «Ural batır» dastanının mənşəyi, formalaşması və təkamülü» adlanan birinci fəslində ən çox mübahisəli görünən məsələ dastanın yaranma tarixi və dövrü ilə bağlıdır. A.İ.Kireyev və A.İ.Xarisovun qənaətinə görə «Ural batır» ibtidai icma quruluşunun sonunda və feodalizm dövründə yaranmışdır. Hətta dastanın monqol istilaları zamanı yarandığına da işarə edirlər.

Dissertant A.N.Kireyev və A.İ.Xarisovun fikirlərini elmi-nəzəri dəlil və sübutlarla alt-üst edir. Doğru olaraq göstərir ki, müəyyən zaman çərçivəsində yaranan dastanda həmin dövrün təsiri, izi görünməlidir. «Ural batır»da nə feodalizm dövrünün, nə də yadelli (monqol) əsarətinin izlərinə təsadüf edilir.

Həqiqət naminə deyək ki, bu məsələdə dissertantın elmi rəhbəri, professor P.Xəlilovun fikirləri ona dayaq olur: «Das-

tanın formalaşmasını bu qədər dala çəkmək üçün mətn əsas vermir». (s.21. P.Xəlilov).

Dissertanta görə «Ural batır» yeni eradan əvvəl yaranmış, məhz buna görə də türk dastanları arasında ən qədimidir. Nəzakət Hüseynova bu fikrini I fəslin ilk əcdad və ilk başqırd ailəsinin məişəti bölmələrində daha da inkişaf etdirir.

Dissertasiyanın II fəsli «Ural batır»da əbədi həyat idealı və onun bədii həlli probleminə həsr olunmuşdur. Bu problem başqa türk dastanlarındakı analogiyalar çərçivəsində təhlil edilmişdir.

Əbədi həyat problemi insanı həmişə düşündürür. İndinin özündə belə vaxtından əvvəl dünyasını dəyişmiş böyük talant sahibi üçün göz yaşı tökür, Tanrıya üsyan edirik. Təbii ki, qaşla-göz arasında olan ölüm qədim dünyada da insanları düşündürmüş, onlar ölməzliyi heç olmazsa təsəvvürlərində – dastanlarında yaratmağa səy göstərmişlər. «Ural batır» türk dastanları arasında ən ilkin qaynaqlardandır. Bu dastan professor Mirəli Seyidovun göstərdiyi kimi, türkdilli xalqların bəzi mifoloji baxışlarının kökünü aydınlaşdırmaq üçün qiymətli qaynaqdır.

Mifik təfəkkürün məhsulu olan əbədi həyat problemi «Ural batır»da öz əksini qəribə bir tərzdə tapmışdır. Burada insanların nə tanrı haqqında, nə də ölümün kim tərəfindən göndərildiyi barədə təsəvvürləri var.

Bütün bunlar tədqiqatçıya imkan vermişdir ki, «Ural batır»ın türk dastanları içərisində ən qədimi, ən arxaiki və animist dünyagörüşün məhsulu olduğu qənaətinə gəlsin.

O da məlumdur ki, əbədi həyat problemi çox qədim olub, bir çox dünya xalqlarının dastan, nağıl və əfsanələrində öz əksini tapmışdır. Əskidən bəri insanlar diriliyin sirlərini əsasən suda, bitkidə və bitki meyvələrində aramışlar. Bu, onların mifik anlamının və inamının nəticəsidir. Qədin insanlar üçün su və bitki qədər ilkin əsas olan daha nə vardı?! Bu baxımdan,

əski insanın öz ölməzliyini suda və bitkidə axtarması təəccüb doğurmur. O da diqqəti çəkir ki, yaradılmış – dirilik üçün vacib sayılan dörd ünsürdən ən başlıcası su hesab olunmuşdur. Odur ki, bir çox xalqların dastan, rəvayət və nağıllarında qəhrəman dirilik suyu dalınca gedir. Bu, «Ural batır»da da belədir. Dissertant ölməzlik-dirilik problemi ilə bağlı türkdilli xalqların dastanlarını, bir çox hallarda, hətta nağıllarını da tədqiqat süzgəcindən keçirərək doğru qənaətə gəlir ki, dastan və nağıllarda əbədi həyatın su, bitki, meyvə və s. atributları olsa da, onların hamısı eyni məqsədə xidmət edir, onların hamısı şər qüvvələrin əlində cəmləşmişlər, qəhrəmanlar öz şücaətləri, ağılları hesabına onları şər qüvvələrin əlindən alıb xalqa bəxş edirlər.

«Ural batır» məntiqi və fəlsəfi baxımdan çox güclü bir sonluqla bitir. Vaxtilə dirilik suyundan içmiş qoca Urala sudan içməyi məsləhət görmür. Əksinə, ləyaqətlə yaşayaraq ölməzlik qazanmağı məsləhət görür. Ölməzliyin adının yaxşılıq olduğunu bildirir.

Ural batır qocanın məsləhətinə qulaq asır, min əzabəziyyətlə əldə etdiyi dirilik suyunu içmir, boz dağlara, susuzluqdaq sinəsi cadar-cadar olmuş səhralara, meşələrə səpir, onlara həyat verir.

Dissertant faktlarla insanı əbədi ölməzliyə aparan yeganə yolun yaxşılıq yolu olduğunu başqa xalqların dastanlarından gətirdiyi misallarla təsdiqləyir və ağlabatan mühakimələri ilə oxucunun gözü önündə adı yaxşılıq, xeyirxahlıq olan əbədi bir abidə ucaldır.

Dissertasiyanın çox məftunluqla işlənmiş III fəsli «Xeyir və şər» ziddiyyəti» adlanır.

Burada maraq doğura biləcək bir məsələdən söz açmaq istərdik. Məlumdur ki, dastanlarda, o cümlədən də «Ural batır»da məhz böyük qardaşlar xoş niyyətlə mübarizəyə girişsələr də sonda bədxah və paxıl olurlar. Hər şeyə hərislik canlarını çulğalayır. Bu, təbii ki, şər qüvvələrin onların qəlbinə yol

tapıb, onları öz yollarından döndərmələri ilə bağlıdır. Ağılsız, iradəsiz, tamahkar adamlar tezliklə onların iradəsinə tabe olur.

Dissertant bir çox əsərlərin, hətta Herodotun tarix kitabından misallar gətirərək kiçik qardaşların taxt-taca varis olmasından danışır və bunu onların xeyirxahlığı, nəcibliyi və qəhrəmanlığı ilə bağlayır (s.106).

Bəs nə üçün böyük qardaşların əksinə olaraq kiçik qardaşlar şər qüvvələrin təsiri altına düşmürlər? Maraqlı məsələdir. Mən altı il Qafqazda yaşamış amerikalı alim, prof. Sula Benetin Qafqaz xalqlarının uzunömürlülük məsələsinə həsr olunmuş «Necə yaşayasan, yüzü haqlayasan» kitabını tərcümə edib 1989-cu ildə «Yazıçı» nəşriyyatında çap etdirərkən qəribə bir elmi müddəanın şahidi oldum. Faktlar göstərirdi ki, insanın kamillik dövründə anadan olan övladları, kiçik uşaqları ağıllı, gənckən müdrik olurlar. Bizcə, budur nağıllarımızda, dastanlarımızda rast gəlinən kiçik oğul və qızların daha ağıllı, daha müdrik olmasının cavabı. Şər qüvvələr ağıllı adamı çətin ki, öz yolundan çəkindirə bilsin. Təbii ki, ağıl olan yerdə nəciblik də, xeyirxahlıq da, əsl qəhrəmana layiq başqa keyfiyyətlər də olan şeydir.

«Ural batır» dastanının poetikası adlanan IV fəsil həcmcə çox kiçik olsa da qənaətbəxşdir. Doğrudur, poetika anlayışının əhatə dairəsi çox geniş olduğundan, bu, ayrıca bir əsərin mövzusu ola bilərdi. Bununla belə, dissertant bu fəsildə də qarşısına qoyduğu vəzifənin öhdəsindən uğurla gəlmişdir. Nəhayət, onu da deyək ki, Nəzakət Hüseynovanın «Qədim türk dastanlarının tipologiyası» mövzusunda namizədlik dissertasiyası türkdilli xalqların folklor əlaqələrinin tədqiqi sahəsində uğurlu addımdır. Bütün yuxarıda deyilən yaxşı cəhətlərlə bərabər, əsər nöqsan və qüsurlardan da xali deyildir:

1. Əsərdə xeyli orfoqrafik səhvlərə (s. 9, 23, 26, 32, 33, 63, 66, 84, 95, 106, 126, 140 və s.) dil, üslub, ifadə xətalarına (s. 8, 10, 23, 73, 86, 113 və s.) rast gəlindiyindən onun ciddi redaktəyə ehtiyacı olduğunu göstərmək lazımdır.

2. Əksər sitatlar, hətta «Qurani-Kərim»dən gətirilən iqtibas (s.33) rusca verilib, özü də səhvlərlə.

3. Dissertant qeyd edir ki, nağıl və dastanlarda sehrli qılıncın heç vaxt şər qüvvələrə məxsusluğu faktına rast gəlmək mümkün deyil (s.132.). Dissertantla razılaşmaq olmaz. Bütün əsər boyu müqayisə olunan «Kitabi Dədə-Qorqud» dastanında Təpəgözün sehrli qılıncı neçə-neçə cəngavəri qanına qəltan etməmişdimi?

4. Dissertant «Ural batır»ın başqa türk dastanlarından daha qədim, daha arxaik olduğunu göstərmək üçün onların ancaq ovçuluqla məşğul olduqlarını, ovladıqlarını çiy yediklərini, qazan asmadıqlarını, su qaynatmadıqlarını, xəmir yoğurmadıqlarını xüsusi vurğulayır (s.36). Tədqiqatçının dastanın 55-ci səhifəsindən gətirdiyi misalda isə qazan, xəmir, hətta qaşıq adı hallanır. Maraqlıdır onlar maddi varlıqların adlarını haradan bilirdilər?

Göstərilənlər ağır zəhmətin nəticəsi olan «Qədim türk qəhrəmanlıq dastanlarının tipologiyası («Ural batır» əsasında) namizədlik dissertasiyasının dəyərini azaldacaq böyük qüsur və nöqsanlar deyildir. Bunlar təbii ki, islahı asan olan nöqsanlar olduğundan aktual bir mövzuya həsr olunan dissertasiya işinin sanbalına xələl gətirə bilməz.

Dissertasiyanın əsas müddəaları çap olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

Bizə qalırsa, «Qədim türk qəhrəmanlıq dastanlarının tipologiyası («Ural batır» əsasında) mövzusunda yazılmış tədqiqat işi namizədlik dissertasiyaları qarşısına qoyulan tələblərə tamamilə cavab verir və onun müəllifi Nəzakət Hüseyn qızı Hüseynova folklorşünaslıq (10.01.09) üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
25.02.1997

ƏLİ LAZIM OĞLU ALLAHVERDİYEVİN «KİTABİ-DƏDƏ QORQUD» FRANSADA» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Qədim Oğuz eposu «Kitabi-Dədə Qorqud» xalqımızın ululuğunu, adət-ənənələrimizin, məişətimizin zənginliyini, xalq müdrikliyini bariz şəkildə göstərən əzəli-ədəbi, mədəni abidədir. Bu qüdrətli abidədə təsadüf edilən toponimlərə bu gün belə Azərbaycan ərazilərində rast gəlinir. O da maraqlıdır ki, «Kitabi-Dədə Qorqud» tədqiqatçılarından V.Bartold, F.Köprülü, A.Dilaçar, M.Ergin onun azərbaycanlılara, V.Bartoldun təbirincə desək, Qafqaz türkmanlarına məxsus olduğunu, O.Gökyay, M.Ergin, Y.Yakubovski, H.Arasli, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, X.Koroğlu və başqaları isə əsərin Drezden nüsxəsinin, ümumiyyətlə, Azərbaycanda qələmə alındığını qeyd edirlər. O da təsadüfi deyildir ki, «Kitabi-Dədə Qorqud» eposunun 1300 illiyinə həsr olunmuş beynəlxalq konfrans Azərbaycanda çağırıldı, qorqudşünaslıq elminə neçə-neçə monoqrafiyalar, ensiklopediya töhfə edildi. Brusseldə «Azərbaycan Prezidenti İlham Əliyev «Dədə Qorqud» abidəsini açdı. Bu gün müdafiəyə təqdim olunan «Kitabi-Dədə Qorqud» dastanları Fransada» əsəri də bu baxımdan səciyyələndirilməlidir. Ümumiyyətlə, mənə belə gəlir ki, «Kitabi-Dədə Qorqud»un daha möhtəşəm, daha möhkəm, daha davamlı olmasında qələm çalan hər bir tədqiqatçının zəhməti təqdirlə yad edilməlidir. «Kitabi-Dədə Qorqud» türk etnosunun dünya, zaman, insan, dövlət, ordu, qəhrəmanlıq, ənənə və s. haqqında yazılmamış qanunlar, düşüncələr, baxışlar məcmuəsi olub, etnik şüurun göstəricisi kimi, onun səciyyəsini, səciyyəvi xüsusiyyətlərini açıqlayan bitkin və sistemli bir abidədir.

Böyük alim Fuad Köprülü eposa yüksək qiymət verərək demişdi: bütün türk ədəbiyyatı tərəzinin bir gözünə, «Dədə Qorqud digər gözünə qoyulsa da, Dədə Qorqud ağır basar».

Məhz buna görə də bu ölməz abidəyə dünya xalqlarının baxışını, onun xarici dillərə tərcümə və araşdırma məsələlərini öyrənmək tədqiqatçılarımızın diqqətindən yayınmır. Əsərin rus, alman, ingilis və s. dillərə tərcüməsi və yayılması məsələsi artıq Azərbaycan alimləri tərəfindən tədqiq olunub. Sevindirici haldır ki, bu gün güvənc yerimiz «Kitabi-Dədə Qorqud»un Fransada tərcümə olunaraq yayılması gündəmə gətirilib. Tədqiqatçıya bu mövzunu tövsiyə etdiyinə görə mən akademik İsa Həbibbəyliyə təşəkkür edirəm. Etiraf etməliyəm ki, tarixən ərəb ölkələri arasında Azərbaycana ən yaxın İraq olduğu kimi, Avropa ölkələri arasında ən yaxın olanı da Fransa olmuşdur. Ziyalılarımız Fransada ürək sakitliyi tapmış, orada Azərbaycan ədəbiyyatına, musiqisinə, ümumiyyətlə, mədəniyyətimizə qayğı və ehtiramla yanaşmış, əsərlərimizi tərcümə edərək çap etmiş, dərgilər buraxmışlar. Təkcə onu demək kifayətdir ki, Aleksandr Düma Azərbaycana üç kitab həsr etmişdir. «Şahdağın qarları», «Səltənət» və «Qafqaz səfəri». Mənəvi dəyərlərimizi dünya xalqlarına çatdırmaqda onun xidmətləri ölçüyə gəlməzdir. Çağdaş elmimizdə H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, X.Koroğlu, Ş.Cəmşidov, Fərhad Zeynalov, S.Əlizadə, Bəhlul Abdulla, Flora Əlimirzəyeva, Elmira Rəhimova Ş.Xəlilov, Ülkər Nəbiyeva və başqalarının elmi əsərləri ağır zəhmətin nəticəsidir. Mən Əli Lazım oğlu Allahverdiyevin «Kitabi-Dədə Qorqud» dastanları Fransada» əsərinə də, hər şeydən əvvəl, bu müstəvidən baxır, təqdir edirəm. Əsərin başlıca məğzi onun Fransada nə səviyyədə tərcümə olunaraq fransız oxucularına necə çatdırılmasını, yayılma arealını təyin etməkdir. Maraqlı cəhət bir də ondan ibarətdir ki, tədqiqata təkcə «Kitabi-Dədə Qorqud» deyil, ötəri də olsa

qədim türk dastanları cəlb olunmuşdur. Bu da çox yerinə düşür.

Əli Allahverdiyevin «Kitabi-Dədə Qorqud» dastanları Fransada» namizədlik dissertasiyası giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Əsərin yığcam «Giriş» hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti, məqsəd və vəzifələrindən, metodoloji əsaslarından və praktik əhəmiyyətindən və s. söz açılır.

Əsərin çox maraqlı «Kitabi-Dədə Qorqud» dastanlarının fransız dilinə tərcüməsi və nəşri» adlanan I fəslində tədqiqatçı birbaşa mətləbə keçməzdən əvvəl çox doğru olaraq dastanın tarixi mənbələrinə nəzər salır. Bu dolğun və sanballı fəsil hər biri ayrıca fəslə bərabər «Dastanın tarixi mənbələri», «Dastanın fransız dilinə tərcümə tarixi», «Tərcüməçilər haqqında məlumat», «Tərcümənin orijinalla müqayisəli təhlili» kimi yarımbaşlıqlara bölünür. Ümumiyyətlə, «Kitabi-Dədə Qorqud»un Fransada tərcümə, nəşr və araşdırılma tarixi maraqlı və qorqudşünaslar üçün vacib sayıla biləcək məlumatlarla zəngindir. «Dastanın fransız dilinə tərcümə tarixi» bölümü tamamilə yenidir. Elm aləminə az məlumdur. Bu da bütövlükdə əsərin aktuallığına dəlalət edir. Əsəri prof. Lui Bazən və prof. Altan Gökalp tərcümə etmişlər. Dastanın fransızca çapına Lui Bazənin yazdığı «Tarixə bir nəzər» adlı giriş məqaləsində «Kitabi-Dədə Qorqud» eposuna böyük qiymət verilir, onun hansı xalqa mənsubluğu göstərilir, Vatikan və Drezden nüsxələrindən təfsilatı ilə söz açılır, Drezden nüsxəsinin daha kamil olduğu xüsusi vurğulanır. Doğrudan da, belədir. Vatikan nüsxəsi altı boydan – dastandan ibarət olduğu halda, əsərin Drezden nüsxəsində on iki boy yer alır. Lui Bazən onu da xüsusilə vurğulayır ki, «Kitabi-Dədə Qorqud» dastanının dili Osmanlı türkcəsindən fərqlənir və Şərqi Anadolu və Azərbaycan türkcəsinin spesifik qrammatik və leksik xüsusiyyətlərini əks etdirir. Burada

onu da qeyd edim ki, Əli Allahverdiyevin dissertasiya işində məni qane edən bir cəhət də tərcüməçilər barədə məlumat verməsidir. Əsərdə Lui Bazənin bir türkoloq kimi yetişmə mühiti çox gözəl tədqiq edilib. Yəni «Kitabi-Dədə Qorqud»un fransız dilinə tərcüməçisinin təsadüfi adam olmadığını, akademik Lui Bazənin görkəmli türkoloq olduğunu və eposun tərcüməsinə müdrik çağında girişdiyini dərk edirik. Bizdə şübhə yeri qalmır ki, «Kitabi-Dədə Qorqud» fransız dilinə yüksək səviyyədə tərcümə olunub.

Bilmək maraqlı olar ki, Mirzə Fətəli Axundovun komediyalarını, giriş və qeydlərlə Azərbaycan dilindən fransız dilinə tərcümə edən də Lui Bazən olmuşdur.

«Kitabi-Dədə Qorqud» dastanları Fransada» əsərində Lui Bazənin türkologiya sahəsində türkoloq və folklorşünaslarımız üçün maraq doğuran işlər barədə elmi söhbət açılır. Dissertasiyada eposun ikinci tərcüməçisi, hazırda Paris Milli Elmi Tədqiqatlar Mərkəzinin direktoru olan prof. Altan Gökalpın yaradıcılığı barədə maraqlı faktlar vardır. Prof. eposu tərcüməyə başlamazdan əvvəl onun üzərində tədqiqatlar aparmış, əsər barədə aydın fikrə gəlmişdir. Onun «Köçəri təfəkkürü» adlı məqaləsində gəldiyi qənaət deyilənləri təsdiq edir: «Kitabi-Dədə Qorqud» oğuzun mədəni, bəşəri və siyasi həyatının epik çevrəsidir.

Tədqiqatçı «Kitabi-Dədə Qorqud»un fransız dilindən tərcüməsini tədqiq edərək çox doğru qənaətə gəlmişdir. O, göstərir ki, eposun tərcümələri müxtəlif mətnlərin türk dilindən fransız dilinə tərcüməsi və xüsusən də kitabın araşdırılması sahəsində zəngin təcrübəyə malik olduqlarından epik mətnin özəlliklərini dərindən duymuş və «Kitabi-Dədə Qorqud»u fransız dilinə uğurla tərcümə etmişlər. Dissertantın gətirdiyi misallar və müqayisəli təhlili də bunu təsdiq edir.

Əsərin «Fransız ədəbiyyatşünaslığı «Kitabi-Dədə Qorqud» dastanları haqqında» adlanan ikinci fəslində bizi ən

çox qane edən «Fransız şərqşünası Lui Bazən «Kitabi-Dədə Qorqud» haqqında» bölməsidir. Bunu deməkdə məqsədim «Kitabi-Dədə Qorqud» və qədim türk dastanları: problemə münasibət» və «Kitabi-Dədə Qorqud» dastanlarında qəhrəman» yarımbaşlıqları adı altında verilmiş bölmələrdə dissertantın irəli sürdüyü fikirlərə qarşı çıxmaq deyil, sadəcə olaraq Fransız şərqşünası Lui Bazənin gördüyü işin ciddiliyini, elm aləmi üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaqdır. Demək istədiyim odur ki, görkəmli bir Avropa aliminin sözü təbii ki, mötəbər söz kimi qəbul olunur. Bu baxımdan, akademik Lui Bazənin «Kitabi-Dədə Qorqud»la bağlı tədqiqatları və fikirləri bizim üçün çox əhəmiyyətlidir. Tədqiqatçı bu hissəni də böyük ilham və məhəbbətlə işləmişdir.

Bu bir həqiqətdir ki, hər hansı bir əsəri oxuyarkən insan əks mövqedə durur, bəzən ürəyindən keçirir: «Bunu mən belə deməzdim». O da olsun rəsmi opponent. Xoşbəxtlikdən Əli Allahverdiyevin «Kitabi-Dədə Qorqud» dastanları Fransada» namizədlik dissertasiyasını oxuyanda qəlbimə belə bir fikir gəlmədi. Əksinə, əsərin dili, sözlərin işlənmə məqamı, fikirlərin məntiqi ardıcıllığı, dissertantın elmi təfəkkürü məni qane etdi.

Tədqiqata cəlb olunan problemlər barədə dissertantın öz fikri olması, məntiqi nəticələrə gəlməsi əsərin elmi səviyyəsindən yaradıcı şəkildə işlənməsindən xəbər verir.

Nəhayət, onu da deyək ki, bu dissertasiya Şərq-Qərb ədəbi əlaqələri yolunda atılan uğurlu addımdır.

Bütün bu deyilənlərlə bərabər, arzu, istək formasında aşağıdakıları dissertantın nəzərinə çatdırmaq istərdim:

1. Parisin Milli Kitabxanasında saxlanılan Oğuz dastanlarına lazımınca yer verilməyib. Məlumat üçün deyim ki, həmin dastanlar Füzuli Gözəlovun doktorluq dissertasiyasında öz əksini tapıb.

2. İkinci fəsildən «Fransız şərqşünası Lui Bazən «Kitabi-Dədə Qorqud» haqqında» yarımbaşlığı ayrıca fəsil kimi verilsəydi kifayət edərdi. Onda «Kitabi-Dədə Qorqud» dastanlarında qəhrəman» adlanan və mövzu ilə uzlaşmayan hissəyə ehtiyac qalmazdı.

3. İkinci fəsil «Fransız ədəbiyyatşünaslığı «Kitabi-Dədə Qorqud» dastanları haqqında» deyil, «Kitabi-Dədə Qorqud» dastanları Fransız ədəbiyyatşünaslığında» adlandırılsaydı daha doğru olardı.

4. Elmi apparatura daha zəngin ola bilərdi. Dissertasiyada çıxışımın əvvəlində adını çəkdiyim görkəmli qorqudşünas alimlərimizin bəzən bir əsərinə belə müraciət olunmayıb. Təkcə bu müdafiədə iştirak edən əməkdar elm xadimi Bəhlul Abdullanın «Kitabi-Dədə Qorqud»la bağlı beş sanballı əsəri çıxıb.

Deyilənlər bu orijinal tədqiqat işinin dəyərini azalda biləcək ciddi nöqsanlar olmayıb, düzəldilməsi asan olan çatışmazlıqlardır. Dissertant tədqiqat işində məqsədinə çatmışdır.

Avtoreferat, çap olunmuş məqalələr dissertasiyanın məzmununu əhatə edir. Dissertantın elmi rəhbəri akademik İsa Həbibbəyli ilə birgə Fransada məqalə çap etdirməsi xüsusi əhəmiyyət kəsb edir.

Fikrimizcə, «Kitabi-Dədə Qorqud» dastanları Fransada» tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə bütövlükdə cavab verir və onun müəllifi Əli Allahverdiyev folklorşünaslıq (10.01.09) və dünya ədəbiyyatı (10.01.03) üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
5 may 2004-cü il

FƏZAİL CƏFƏR OĞLU ORUCOVUN «AZƏRBAYCAN TEATR MƏDƏNİYYƏTİNDƏ DASTAN JANRININ TƏZAHÜR FORMALARI» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Son vaxtlar Azərbaycan ədəbi düşüncəsinin ilkin mərhələsini təşkil edən folklorumuza, folklorşünaslıq elmimizə, xüsusən də onun qüdrətli qolu olan aşıq sənətinə, bəstəkarlarımızın tükənməz ilham mənbəyi olan aşıq musiqisinə neçə-neçə sanballı monoqrafiyalar, dissertasiyalar həsr edilmişdir. Onların arasında böyük məmnunluqla prof. İlham Rəhimli və sənətşünaslıq doktoru Məryəm Əlizadənın çox qiymətli və sanballı əsərləri də vardır. Fəzail Orucovun müdafiəyə təqdim edilmiş «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» adlı namizədlik dissertasiyası adını çəkdiyimiz alimlərin əsərləri ilə birbaşa səsləşir, bir az da dərinə getsək deyə bilərik ki, dissertant həmin əsərlərdən bol-bol bəhrələnmişdir.

Məlumdur ki, dastanlar bir çox mədəni dəyərlərin özünəməxsus daşıyıcısı kimi spesifik ölçülərə malik mikropoetik bir aləmdir. Bu aləmin zaman-zaman daha da dərindən öyrənilməsi, daha da dərindən dərki, bizi ilkin mənəvi dəyərlərimizə qaytarır. Həmin dəyərlərə qayıdış milli-mənəvi varlığımızın tarixi-semantik mənzərəsini aydınlaşdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Biz Fəzail Orucovun nəzəri-təcrübi əhəmiyyəti və aktuallığı ilə seçilən dissertasiya işinə, hər şeydən əvvəl, bu müstəvidən diqqət yetirmişik. Tərəddüdsüz deyə bilərik ki, «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» orijinal əsərdir. Dissertasiya işini oxuduqca Üzeyir bəy Hacıbəyovun dahi-

yanəliklə dediyi sözlər göz önünə gəlir: «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, xanəndənin də, rəqqasın da istədiyi qədər götürə biləcəyi pay vardır».

Fəzail Orucovun dissertasiyası, doğrudan da, heç vaxt solmayan, təravətini itirməyən, əzəli-əbədi bir aləmə, aşıq sənətinə, aşıq yaradıcılığının dastan janrına, onun teatr mədəniyyətində təzahür formalarına həsr edilmişdir.

Burada diqqəti çəkən cəhətlərdən biri odur ki, iddiaçı aşıq musiqisi mühitində boya-başa çatmış, bu mühitdə formalaşmış, saz havalarının professional ifaçısı kimi səriştəli bir sənətkara və bu sənətin tədqiqatçısına çevrilmişdir. Onun saz sənətini, saz havalarını mükəmməl bilməsi qəti qənaətə gəlməyə imkan verir deyək ki, iddiaçı yaxın illərdə saz havalarının nota köçürülməsində xidmətlər göstərəcəkdir.

Mətləbdən uzaqlaşmayaraq bir məqamı da nəzərə çatdırmaq istəyərdik ki, müqəddəs aşıq sənəti haqqında sözü o sənətın bilicisi deyəndə mülahizələr daha inandırıcı, fikirlər daha sanballı olur. Bizcə, müdafiəyə təqdim edilən dissertasiya işi bu baxımdan da böyük əhəmiyyət kəsb edir.

«Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Hər iki fəsil öz növbəsində iki yarımfəslə bölünür.

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır. İşlənmə dərəcəsi nəzərdən keçirilir. Azərbaycan teatrında xalq dastanlarının səhnə təcəssümü, teatr mədəniyyətimizdə dastan janrının təzahür formaları tədqiqatın obyekti kimi xüsusi vurğulanır. Tədqiqatda milli-mənəvi dəyərlər sisteminin mühüm tərkib hissəsi olan aşıq yaradıcılığının, dastançılıq ənənələrinin dramaturji və teatral xüsusiyyətləri araşdırılaraq, həm opera, həm də dram teatrlarında səhnə həlli tapmış dastanların ümumi səciyyəvi cəhətləri üzə çıxarılıb. Buraya, «Əsli və Kərəm», «Şah İsmayıl», «Aşıq Qərib», «Kor-

oğlu» dastanları və «Kitabi-Dədə Qorqud»la bağlı tamaşalar daxildir.

Tədqiqat işinin məqsəd və vəzifələrindən danışarkən qeyd etməliyik ki, iddiaçı dastan janrının Azərbaycan teatr mədəniyyətində təzahür formalarını üzə çıxarmaq üçün bir çox fundamental məsələləri elmi fikir süzgəcindən keçirmişdir:

– Azərbaycan teatrının mənşə və tarixi kökləri etibarilə bağlı olduğu kulturoloji vahidlər içərisində ozan-aşıq yaradıcılığının məhsulu olan dastanların yeri və rolunu müəyyənləşdirmək;

– Peşəkar teatrda dastançılıq ənənələrindən gələn element və ünsürlərın mövcudluq dərəcəsini aşkarlamaq;

– Dastan mətnində dramaturji və teatral imkanların özünü büruzə vermə formalarını araşdırmaq;

– Dramaturgiyanın mühüm elementi kimi dialoqun dastan janrında təzahür xüsusiyyətlərini öyrənmək;

– Aşıq ifaçılığı üçün xarakterik olan teatral imkanları «Mono teatr», «Bir aktyorun teatrı» müstəvisində təhlil etmək;

– Dastan janrının teatral ənənələrini müasir teatr qanunauyğunluqları kontekstində müqayisəli analiz etmək;

– Opera teatrında nümayiş etdirilmiş tamaşalarda dastan mətni ilə librettonun mövzu, ideya, süjet baxımından oxşar və fərqli cəhətlərini üzə çıxarmaq və s.

«Dastan mətninin dramaturji və teatral imkanları» adlanan birinci fəsildə bədii yaradıcılıq sahəsi olaraq teatr və dastanın tarixən biri-birinə qarşılıqlı nüfuzu, ümumi inkişaf prosesində birinin digərinin element və ünsürlərindən bəhrələnməsi məsələsi tədqiqat obyektinə çevrilmişdir.

Dastan aşıq yaradıcılığının bir janrı olaraq bir teatrı andırır. Bədii vasitələrdən, texniki imkanlardan məhrum, dramaturqu da, rejissoru da, aktyoru da bir şəxsdən ibarət aktyor kimi çıxış edən bir aşığın teatrı. Burada aktyorla aşığın müqayisəsi inandırıcı verilmişdir.

Aşıq sənəti sinkretik olduğundan musiqi, rəqs (ritmik hərəkətlər), nəqletmə, deklomasiya və vokalın sintezindən faydalanan və el sənətinin bədii gücünü, bədii formada yaşatdıran aşıq dastanlarında kanonlaşmış struktur və sistemlər teatr poetikasında mühüm yer tutduğundan bu məsələlər dissertasiyada ön plana çəkilmişdir. Onu da deməliyik ki, ziddiyyətsiz, mübarizəsiz, konfliktsiz mətnin dramaturji və teatral imkanlarından danışmaq mənasızdır. Ona görə ki, dramaturgiyanın yaranmasında konflikt əzəli və əbədi qanundur. Bu baxımdan deyə bilərik ki, dastan mətnləri tamaşa üçün ilkin şərt olan ziddiyyət, mübarizə, konfliktə görə bitkindir. Bu fəsildə dastan mətnlərinin səhnə əsərləri üçün son dərəcə zəruri olan dialoqlarla zəngin olması da ciddi təhlil olunur. Bu da təsadüfi deyildir. Dialoqlar bütün dastanlar üçün səciyyəvidir. Aşıq yaradıcılığının inkişaf mərhələləri, teatr element və ünsürlərinin təzahür formaları da bu fəsildə geniş təhlilə cəlb edilir. Aşıq yaradıcılığında hadisə və obrazların teatral göstəriciləri inandırıcı sübut və dəlillərlə aşkarlanır. Dissertasiya müəllifinin dastan məclisləri və aşıq deyişmələri zamanı onların aktyor kimi hərəkət etmələrini və teatr səhnəsinə, aktyor oyununa aşıq sənətinin məhz bu ənənəvi keyfiyyətlərinin ötürüldüyünü göstərməsi həqiqətdən kənar deyildir.

«Azərbaycan xalq dastanlarının səhnə təcəssümü» adlanan ikinci fəsil dastan janrının teatral ənənələri, opera və dram teatrlarında tamaşaya qoyulmuş dastanların səhnə imkanları probleminə həsr edilmişdir. Burada xüsusi vurğulanmışdır ki, dastan janrı səhnə təcəssümünü əsasən opera teatrında tapmışdır.

Dissertant bu fəsildə Üzeyir Hacıbəyovun «Əsli və Kərəm» (1912), «Koroğlu» (1937), Zülfüqar Hacıbəyovun «Aşıq Qərib» (1916), Müslüm Maqomayevin «Şah İsmayıl» (1919) operalarının səhnə təcəssümündə qarşıya çıxan çətinliklərdən və uğurlardan maraqlı elmi söhbət açır.

Keçən əsrin 80-ci illərindən isə dastan janrının teatral ənənələrinin yaranması gündəmə gətirilib.

Bu fəslin Azərbaycan dram teatrlarında dastan janrının təzahür formaları adlı sonuncu yarımfəslində «Dədə Qorqud»la bağlı tamaşalar tədqiqata cəlb olunur. Burada «Mən Dədə Qorqud», «Torpağa sancılan qılınc», «Burla Xatun», «Dəli Domrul» kimi səhnə həllini tapmış əsərlər nəzərdən keçirilir. F.Orucovun «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» adlı dissertasiyasının nəticə hissəsində araşdırmanın əsas müddəaları, əldə edilmiş elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir.

Və nəhayət, xüsusi qeyd edim ki, indiyədək Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formalarının öyrənilməsi istiqamətində mövzuya dair problemlərə tarixi, etnoqrafik, filoloji, sənətşünaslıq baxımından aydınlıq gətirilsə də, sistemli və monoqrafik şəkildə araşdırma aparılmamışdır. Fəzail Orucovun «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» adlı namizədlik dissertasiyası, dastanların səhnə təcəssümü ilə bağlı teatrşünaslıq istiqamətində aparılmış ilk monoqrafik araşdırmadır – desək həqiqətdən uzaq olmaz.

Bununla belə, əsər müəyyən kəm-kəsir və nöqsanlardan da xali deyildir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əsərdə bir çox orfoqrafik və stilistik səhvlərə, yerində işlənməyən söz və ifadələrə rast gəlinir. Məsələn, səh. 21, 29, 35, 43, 46, 48, 52, 59, 63, 64, 67, 78, 83, 98, 101,109,111.

2. Əsərdə təsvirçiliyə, bəzən də məlum həqiqətləri sadalamaq kimi hallara yol verilir. Məsələn, «Teatr nədir və o incəsənətin digər növləri ilə nə ilə fərqlənir?» (s. 17–18) və ya dastanlarımızın XX əsrin ilk rübündə səhnə uğurlarından (s. 88–96), mətbuatda onlara verilən qiymətdən geniş müzakirə açmağa nə ehtiyac var idi?

3. Dissertasiyanın elmi apparaturası zəngindir. İddiaçı fikirlərini təsdiqə çalışanda onlardan bol-bol istifadə edib. Lakin su da artıq içiləndə ağırlıq gətirir. Səhifə 14-də və 26-da 6 dəfə, səhifə 110-da 5 dəfə məxəzlərə müraciət edilib. Səhifə 16 demək olar ki, bütövlükdə prof. İlham Rəhimovun, səh. 22 isə sənətşünaslıq doktoru Məryəm Əlizadənin əsərlərinə və fikrlərinə həsr olunub. İddiaçının öz fikri isə kölgədə qalıb.

4. Ustad aşıqların sənətkarlıq bacarıqlarını, istedadlarını, dünyagörüşünü, bilik səviyyələrini bariz şəkildə göstərən deyişmələrdən danışarkən prof. M.Həkimovun «Azərbaycan şifahi xalq ədəbiyyatından xüsusi kürs» kitabçasına əsaslanaraq onun dörd mərhələdən ibarət olduğunu göstərirsiniz (s. 50). Halbuki Azərbaycan folklorşünaslığının patriarxı, onun nəzəri məsələlərini ortaya qoyan, Azərbaycan xalq dastanlarına neçə-neçə elmi əsərlər həsr edən Məmmədhüseyin Təhmasib deyişmələrin üç pillə, üç mərhələdən ibarət olduğu qənaətinə gəlib. İlk pillə hərbə-zorbadan ibarət olur. İkinci mərhələdə tərəflər öz səslərini, şeir texnikasını nümayiş etdirir. Məclisi ilk qızışdıran aşıq hansı hava üstündə oxusa, ikinci aşıq da o rədiflə, o hava üstündə oxumalıdır. Burada ustad aşığın deyilən bəndlərə bədahətən cavab verə bilmək bacarığı, hazırcavab şairlik qüdrəti də üzə çıxır. Bu mərhələdə tərəflərin heç biri məğlub olmursa, üçüncü mərhələyə, yəni bağlamaya, qıfılbəndə keçirlər ki, buna da Xəstə Qasımla Ləzgi Əhmədin deyişməsi yaxşı nümunə kimi göstərilə bilər.

5. Dissertasiyada Üzeyir bəyin aşıq yaradıcılığına verdiyi qiymətdən söz açılır. «Bu sənət xalqa, kütlələrə daha yaxındır. Aşıq sənəti xalqın öz yaradıcılığıdır» (s. 76) – deyən dahi Üzeyir bəyə haqq qazandırılır və elə buradaca məxəz kimi M.Həkimovun «Oğuz-tərəkəmə xalq mərasimləri və meydan tamaşaları» əsəri göstərilir. Ümumiyyətlə, məxəzlərdən

istifadə məsələsində diqqətsizliyə yol verilib. Məsələn, istifadə olunmuş ədəbiyyat siyahısında 153 əsər olduğu halda, səh. 82-də 184-cü əsərin kodu göstərilib. Başqa bir misal: Dastanların Azərbaycan folklorşünaslığında tədqiqi məsələsindən danışarkən (s.85) məxəz kimi Aristotelin «Poetika» əsəri göstərilib. Bizə qalırsa, deyilənlər mexaniki səhvlərdir. Onların asanlıqla islah olunacağı şübhə doğurmur. Sənətşünas alim Məryəm Əlizadənin təbirincə desək, təməli və tağı sözdən tikilən mənəvi ehramımıza – dastanlara həsr olunan «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» əsəri Ali Attestasiya Komissiyasının namizədlik dissertasiyaları qarşısında qoyduğu tələblərə tam cavab verir və onun müəllifi Fəzail Cəfər oğlu Orucov teatr sənəti üzrə (17.00.01) sənətşünaslıq namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
20.05.05

AFAQ XÜRRƏM QIZI RAMAZANOVANIN «AZƏRBAYCAN FOLKLORUNDA QADIN (ANA) YARADICILIĞI VƏ ONUN POETİKASI» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Folklor, prof. Yaşar Qarayevin təbirincə desək, «əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, onu parçalanmaqdan xilas edən, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü qoruyan» möhtəşəm abidə, toxunulmaz qaladır. Bu abidənin daha möhkəm, daha davamlı olmasında qadın (ana) yaradıcılığının məxsusi yeri vardır. Biz, Afaq Ramazanovanın «Azərbaycan folklorunda qadın (ana) yaradıcılığı və onun poetikası» namizədlik dissertasiyasına bu müstəvidən baxır və qiymətləndiririk.

Dissertasiya işi Azərbaycan folklorşünaslığında indiyə kimi mövcud olan bir boşluğu doldurmaq baxımından əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, bir çox xalqların folklorunda qadın yaradıcılığı və onun poetikası ayrıca tədqiq olunsa da, Azərbaycan folklorşünaslığında əsaslı şəkildə, bütöv halında tədqiq olunmamışdır. Doğrudur, görkəmli folklorşünas alimlərimiz M.Təhmasib, Azad Nəbiyev, Bəhlul Abdulla və başqaları ayrı-ayrı əsərlərində qadın folklorundan bəhs etmişlər. Və Afaq Xürrəm qızı Ramazanova görülən işdən kifayət qədər söz açmış və alimlərimizin tədqiqatlarına yüksək qiymət vermişdir.

Afaq Ramazanovanın müdafiəyə təqdim etdiyi tədqiqatında Azərbaycan folklorunun müxtəlif janrlarında qadın yaradıcılığı örnəkləri, onların yayılma arealı, alt mifopoetik qatı, genezisi, mərasimlər və başqa janrlarda qadın (ana)

yaradıcılığı ilə ilgili mətnlərin aşkarlanması və təhlili, onların poetik məziyyətlərinin, bədii təsvir vasitələrinin, poetik fiqurların, janrların özünəməxsus dominant poetik vasitələrinin üzə çıxarılması kimi çox əhəmiyyətli mənəvi dəyərlərimizin tədqiqi qabarıq şəkildə özünü göstərir. Bununla belə, əsər boyu ortaq türk və hətta bir çox başqa xalqların mövzu ilə əlaqədar folklor yaradıcılığı da fikir süzgəcindən keçirilir.

Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. Əsərin giriş hissəsində mövzunun aktuallığına, elmi yeniliyinə, tədqiqi tarixinə, işlənmə dərəcəsinə və s. nəzər salınır.

Dissertasiyanın «İlkin janr və növlərin formalaşmasında qadın (ana) yaradıcılığı» adlanan I fəslində sınama, ovsun, fal, alqış, qarğış kimi janrların sosial əsası və qadının bu janrların formalaşmasında rolu və yeri ayırd edilir. Tədqiqatçı haqlı olaraq ovsunların qadınlarla bağlı olduğunu xüsusi vurğulayır və onların təsnifatını verir:

5. Təbiət qüvvələrinə təsir göstərmək amalı ilə yaranan ovsunlar;

6. Məişətdə istifadə edilən ovsunlar.

Onu da deyək ki, ovsunlarla müşayiət edilən mərasimlər qədərincədir. Burada xəstəliklərin türkəçarələrlə müalicəsi, uşağın doğulması və böyüməsi ilə bağlı ovsunlar qırmızı xətt kimi keçir. Və bunların sırf qadınların fəaliyyəti ilə bağlı olduğu ön plana çəkilir.

Sağın nəğmələri, eydirmələr, nehrə nəğmələri, bunlarla bağlı inanclar və ovsunlar da sırf qadın yaradıcılığının məhsulu kimi tədqiq edilir.

Fallar da ilkin janrlardan biri kimi, dissertasiyasında hərtərəfli tədqiq edilmişdir. Novruzqabağı çərşənbələr vaxtı icra edilən fallar və inanclar cəlbedici hadisələr olub, yaddan çıxmır. Yeniyetmə qızlar arxası qapıya dayanaraq ayaqqabılarını başları üstündən qapıya tərəf atırlar. Əgər ayaqqa-

bının ucu qapıya tərəf düşsə, inanırlar ki, qız gələn bayrama qədər ərə gedəcək, əgər evə tərəf düşərsə, qızın bəxtinin bu il də açılmayacağına inanırlar.

Təəssüf ki, tədqiqatçı ilkin janrlardan danışarkən onların zəmanəmizdə də yer aldığını unudur. Toylarımıza xüsusi rövnəq verən «gülatma» inancı buna misal ola bilər. Toyun sonunda gəlin əlində bir dəstə gül tutur. Gənc oğlan və ərgən qızlar arxa tərəfdə yığışırlar. Gəlin arxaya baxmadan gül dəstəsini başının üstündən arxaya atır. Gül dəstəsini hansı gənc tutsa, inanırlar ki, o tezliklə ailə həyatı quracaq.

Dissertasiyanın bu fəsli ilə bağlı tədqiqatçının gəldiyi qənaəti doğrudur. Bu inamları, həqiqətən də, yaşadan və dövrümüzə qədər gətirib çıxaran analar və ağbirçək nənələr olmuşlar.

Dissertasiyanın II fəsli «Məişət mərasimlərində qadının (ana) iştirakı» adlanır.

Xalqın həyat təcrübəsi, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan həyatının hər bir mərhələsini özünəməxsus bir tərzdə əks etdirən məişət mərasim və nəğmələri, hər şeydən əvvəl, qədimliyi ilə seçilir.

Məişət mərasimlərindən danışarkən dissertant sırf qadın fəaliyyəti ilə bağlı olan törəmələri ön plana çəkir. Burada poetik mətnlərin, inam və sınamaların ovsun, tabu-yasaqların, bütövlükdə məişət mərasim kompleksinin müəllifi də, icraçısı da anadır, qadındır.

Məişət mərasimləri arasında doğuş, uşağın böyüdülməsi və himayəsi rəngarəng rituallarla müşayiət edilir. Bu, dissertasiyada nəzəri cəhətdən yaxşı işlənmişdir. Məsələ burasındadır ki, son vaxtlara qədər böyüklərin yaratdığı folklor örnəkləri də «uşaq folkloru» adı altında tədqiq edilirdi. Biz isə layla və oxşamaları adı çəkilən bölmədə deyil, lirik növdə – «Beşik nəğmələri» adı altında tədqiq etmişik. Onlar formaca xoyrat və manilərə, ağılara oxşasalar da, bu oxşayış

zahiridir. Məzmun və oxunuş tərzinə və eləcə də icra yerinə görə fərqlənirlər. Ana ilə körpə arasında əbədi məhəbbətin təməli qoyulan layla və oxşamalar – nazlamalar uşaqlarla ilgili yaransa da, burada uşaqlar qeyri-fəal iştirak edirlər. Onları qoşanlar da, «musiqi bəstələyənlər» də, oxuyanlar da analar özləridir. Bu baxımdan, dissertantın bizim müddəalarımıza arxalanması, onun mövzuya dərin nüfuz etməsindən xəbər verir.

Dissertasiyada laylalar, nazlamalar, rəngarəng toy-mərasim və tabu-yasaqlar inandırıcı faktlarla təsbit edilmişdir. Yas mərasim və ayinləri də maraqlı faktlarla, zəngin elmi informasiya ilə səciyyələnir.

Tədqiqatın «Təqvim törənlərinin qadın səciyyəsi» adlanan III fəslində məişət mərasimlərindən fərqlənən və təqvimi tarixlərlə bağlı icra edilən, daha çox qış və yaz fəsillərinə təsadüf edən, ana və qızlarla bağlı olan mövsüm mərasimlərindən bəhs edilir.

Mövsüm törənlərində Novruz mərasimində qadın-analar tərəfindən riayət edilməsi, yazılmamış qanun halını almış xüsusi təam proqramının olması vacib şərtdir. Dissertant mövsüm və məişət mərasimlərinin mütləq atributu kimi plovun olmasını, düyüyə müqəddəs nəsnə – məhsuldarlıq simvolu kimi baxılmasını xüsusi vurğulayır.

Tədqiqatçı şəkərbura, şəkərçörəyi, paxlava, ballıbadı, badambura kimi şirniyyatların bişirilməsində ibtidai insanlardan qalma astral görüşlərin təzahür etdiyini inandırıcı faktlarla göstərmişdir.

Burada onu da qeyd etməliyəm ki, tədqiqatçı ölkəmizin Qərb zonasında Novruz törənləri zamanı bişirilən fəsəli, qatlama, kömbə, əriştə aşı kimi bayramın mütləq atributu olan təamlara nəzər salsaydı, müddəaları daha mötəbər olardı.

Novruz bayramı zamanı qız və qadınların yelləncəkdə yellənməsi və bunun müəyyən məsələlərlə, məsələn, əkinçi-

lik, günahların aparılması, məhsuldarlıq və s. əlaqədar yerinə yetirildiyi də inandırıcı işlənmişdir. Təəssüf ki, müəllif bu mərasimin ölkəmizin Qərb zonasında «Qızlar bayramı» adlandırıldığını unudub.

İl quraqlıq keçəndə yağış yağdırmaq ayinləri, bizcə, böyük tədqiqatın nəticəsi kimi qiymətləndirilməlidir. Lakin yağışı yağdırma ritualını yerinə yetirərkən qədim kultlarla bağlı olan atributları müxtəlif xalqlarda – hətta slavyan xalqlarında axtararkən, onların hamısının folklorumuzun qüdrətli qolu – Kərkük folklorunda olduğunu unutmuşdur. Halbuki Kərkük folklorunda onların hamısı «Kosa gəldi», «Qodu» və «Çəmçələ qız» mərasimlərində cəm olub. (Bax: Qəzənfər Paşayev. İraq–türkman folkloru», Bakı, 1992, səh. 34–40)

Mətləbdən uzaqlaşmayaraq deməliyik ki, dissertasiyada geniş söz açılan mərasim və nəğmələr insanı beşikdən qəbrədək müşayiət edir. İnsan doğulur, nəsil artırır, nəhayət, həyatdan köçür. Bu da folklorda doğum, toy, yas mərasimləri, onlarda oxunulan nəğmələrlə nəsillərin yaddaşında əbədiləşir. Məqamına görə bir qisim mərasim nəğmələri qəm, qüssə, kədər, hüznlə bağlı yaranır. Başqa bir qisim mərasim və nəğmələr arzu-dilək, şadlıq, sevinc, gözəl əhvali-ruhiyyəni əks etdirir. Mövsüm mərasim nəğmələrində isə ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar öz əksini tapır. Burada yağışın yağması, küləyin əsməsi, ümumiyyətlə, oda, suya, küləyə və s. inam və etiqadlarla ilgili yaranan mərasim və nəğmələr üstünlük təşkil edir.

Afaq Ramazanovanın folklorumuzda qadın (ana) yaradıcılığı və onun poetikası ilə ilgili dissertasyia işi yuxarıda sadaladıqlarımızı əhatə edir. Əsərdə münaqişə və mübahisəyə səbəb ola biləcək elmi səhvlər yoxdur. Bununla belə, diqqəti çəkən bir-iki xırda nöqsanı qeyd etmək istərdim:

1. Dissertasiya orfoqrafik və üslub xətalarından xali deyildir. Hətta avtoreferatda «təsbit» sözündən sonra mötərizədə «zakreplenie» sözü yazılıb. (səh. 6).

2. İlkin janrlardan bəhs edilərkən bəzən sınamalarla fallar arasındakı fərq itir. Bu, xüsusən də inanclarla ilgili fala baxmada özünü göstərir.

3. Dissertasiyanın «Təqvim törənlərinin qadın səciyyəsi» adlanan III fəslində nəğmələr, demək olar ki, yer almamışdır.

Deyilənlər maraqlı tədqiqat işinin dəyərini azalda biləcək nöqsanlar deyil, düzəldiləsi asan olan qüsur və çatışmazlıqlardır. Tədqiqatçı əsəri yüksək elmi səviyyədə yazmış və məqsədinə nail olmuşdur.

Avtoreferat, müəllifin böyük həcmli «Azərbaycan mərasim folkloru» monoqrafiyası, çox saylı məqalələri dissertasiyanın məzmununu əhatə edir.

Bizə qalırsa, «Azərbaycan folklorunda qadın (ana) yaradıcılığı və onun poetikası» tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə bütövlükdə cavab verir və onun müəllifi Afaq Xürrəm qızı Ramazanova folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
27.10.2006.

GÜLXANİ VAQİF QIZI ŞÜKÜROVANIN «İLYAS ƏFƏNDİYEV YARADICILIĞINDA FOLKLOR MOTİVLƏRİ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Xalqın elliklə yaratdığı, nəsildən-nəslə ərmağan etdiyi, həmişəyaşar folklorumuz bütün zamanlarda yazıçı və şairlərin ilham mənbəyi olub. Nizamidən bu yana yazılı ədəbiyyatımız şifahi xalq ədəbiyyatından bəhrələnmiş, həmişə onunla qovuşmuş, qarşılıqlı əlaqədə olmuşdur. Son 50 ildə yazıçı və şairlərimizin yaradıcılığında milli-mənəvi dəyərimiz olan folklorla ilgili çoxlu məqalələr və monoqrafik əsərlər tədqiqata cəlb olunmuşdur.

Cəlal Abdullayevin, eləcə də Paşa Əfəndiyevin S.Vurğun, Əli Saləddinin M.Ə.Sabir, Ayaz Vəfalının M.Füzuli, Tağı Xalisbəylinin Nizami Gəncəvi, S.Rüstəmxanlının C.Məmmədquluzadə, Bəhlul Abdullanın Y.V.Çəmənzəminli, Çərkəz Quliyevin S.Rəhimov, Nizami Xəlilovun Ə.Haqverdiyev, M.Cəfərovun O.Sarıvəlli, A.Abdullayevanın «M.Müşfiq və folklor» mövzusunda dissertasiya və monoqrafiyalarını göstərmək olar.

Sevindirici haldır ki, ümumxalq məhəbbəti qazanmış, XX əsr Azərbaycan nəsrinin ən görkəmli nümayəndələrindən biri, yaradıcılığında folklorumuzun müxtəlif janrlarından bol-bol istifadə edən İlyas Əfəndiyevin yaradıcılığında folklor motivlərinə dair orijinal namizədlik dissertasiyası müdafiəyə təqdim olunmuşdur. Dissertasiyada İ.Əfəndiyev irsinin şifahi xalq ədəbiyyatı ilə əlaqəsi, onun ayrı-ayrı janr və növlərindən istifadə yolları təhlil süzgəcindən keçirilmiş, yazıçının folklordan bəhrələnməsi və onun əhəmiyyəti, milli şifahi xalq yaradıcılığı ilə bağlılığı aydınlaşdırılmış, ədibin

folklordan bəhrələnməklə yaratdığı əsərlərin xəlqilik və bədiiliyi dəyərləndirilmişdir.

İ.Əfəndiyev yaradıcılığının sanbalına görə ən çox tədqiq olunan yazıçılarımızdandır. Bu onun ədəbi irsinin aktuallığı, milliliyi, soykökə bağlılığı və xəlqiliyi ilə əlaqəlidir. Dissertasiyada «folklor və ədəbiyyat» problemi yeni elmi fikirlərlə zənginləşdirilmiş, İ.Əfəndiyevin əsərlərində şifahi ədəbiyyat, xalq musiqisi və mifologiyadan, etnoqrafik materiallardan istifadənin forma və yolları araşdırılmışdır.

Gülxani Şükürovanın dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısını əhatə edir.

Girişdə mövzunun aktuallığından, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələrindən söz açılır, elmi yeniliklərdən bəhs edilir.

Əsərin «İlyas Əfəndiyev yaradıcılığında folklorizm» adlanan I fəsli iki bölməyə ayrılır. Birinci bölüm «Əfsanə, rəvayət, nağıl, dastan süjeti və motivlərindən istifadə» adlanır. Burada tədqiqatçı ədibin «Apardı sellər Saranı», «Qarı dağı», «Vəzir Allahverdi xan və Bəhlul Danəndə», «Yusif və Esfir», «İsa-Musa», «Abidin yuxusu» və s. kimi əsərlərini araşdırmış, haqlı qənaətə gəlmişdir ki, İ.Əfəndiyev folklor süjetlərindən istifadə etməklə yüksək bədiiliyi ilə seçilən orijinal əsərlər yaratmışdır.

Birinci fəslin «Bayatı, aşıq şeiri və xalq mahnılarından bəhrələnmə» adlanan ikinci bölməsindən göründüyü kimi, İlyas Əfəndiyev əsərlərində folklorumuzun ən çox yayılmış bu janrlarından əsərlərində məharətlə istifadə etmiş, milli koloriti artırmaq üçün roman, povest, hekayə və hətta dram əsərlərində onlardan yararlanmış, əsərlərini daha oxunaqlı və ibrətamiz edə bilmişdir. İlyas Əfəndiyev insanla beşikdən qəbrədək yoldaşlıq edən bayatıdan, ana laylası ilə bərabər uşağa mənəvi qida olan aşıq poeziyası və xalq mahnılarından elə məqamlarda, elə istifadə edib ki, oxucu bir yandan

yazıçının məharətinə heyran qalır, digər tərəfdən mənəvi zövq alır. Ədibin yaradıcılığının timsalında akademik Mirzə İbrahimovun sözlərinin hədəfə necə də sərrast dəydiyinin şahidi oluruq: «Aşıq poeziyasının kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir, ondan qüvvət alır».

Bizə qalırsa, İlyas Əfəndiyevin yaradıcılığı xalq təfəkküründən bitib-tükənməyən inciləri üzərində bərqərar olmuşdur.

Dissertasiyanın «İlyas Əfəndiyevin yaradıcılığında adət-ənənə və xalq deyimləri» adlanan II fəslində mərasimlər, adət-ənənə və xalq deyimləri araşdırılır. Bu fəsil də iki bölməyə ayrılır. Birinci bölüm «Adət-ənənələr, inanclar, alqış və qarğışlar» adlanır. Xalqın qədim yaradıcılıq məhsulu kimi, cəmiyyətin gərdişində öz yeri, sanbalı olan mərasim folkloru xalqın düşüncə tərzini, həyata baxış və münasibətlərini, etik, estetik, etnoqrafik görüşlərini, adət-ənənəsini əks etdirir. İlyas Əfəndiyev yaradıcılığında bütün bunlar əhəmiyyətli yer tutduğundan dissertant üçün geniş meydan açılmışdır. İnanclar, alqış və qarğışlara tədqiqatda geniş yer verilmişdir. AMEA-nın müxbir üzvü, prof. Azad Nəbiyevin göstərdiyi kimi, bu janrlar müşahidə, inam nəticəsində sınaq və təcrübədən keçirilərək qətiləşmiş, həyata ömürlük vəsiqə qazanmış, xalqın hafizəsində, gündəlik məişətində, dilində əbədiləşmiş, zəmanəmizə qədər gəlib çıxmışlar. Onlar məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və heyvanat aləmi ilə, astral təsəvvürlər və əsatiri görüşlərlə bağlı inanclardır. Alqış və qarğışlara gəlincə deməliyik ki, onlar xalqın həyatında həmişə mühüm rol oynamışdır. Şübhəsiz buna görədir ki, alqış və qarğışlar folklorumuzun bayatı, nağıl, dastan, oxşama, ağı və s. kimi janrlarında geniş yer almışdır. Elə onların İlyas Əfəndiyev yaradıcılığında tez-tez işlədilməsi də bununla əlaqədardır. II fəslin «Atalar sözü və məsəllərdən istifadə formaları» adlanan ikinci bölməsində

İ.Əfəndiyevin atalar sözü və məsəllərdən bəhrələnmə dərəcəsi tədqiq edilir. Demək lazımdır ki, atalar sözləri və məsəllər xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, təfəkkürünü, inam və etiqadını, adət-ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Odur ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi dəyərlər baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsi ilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etməkdə əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır.

Bütün bunları yaxşı bilən, xalqımızın adət-ənənəsinə, məişətinə dərindən bələd olan İ.Əfəndiyev atalar sözü və məsəllərin təsir gücündən istifadə edərək insanlara xeyirxahlıq, sədaqət, düzlük, mərdlik, halallıq aşılayır. Atalar sözləri və məsəllər elə bir dirilik bulağıdır ki, onun suyundan dadan sənətkarların xalqla əlaqəsi daha möhkəm olur – kəlamı sanki İlyas Əfəndiyevin boyuna biçilmişdi.

Dissertasiyanın III fəsli «İlyas Əfəndiyev və mifologizm» adlanır. Bu fəsildə ədibin dini-mifik görüşlərdən bəhrələnmə dərəcəsi təhlilə cəlb edilir və xalqımızın mifik-dini təsəvvürləri fonunda tədqiq edilir.

Dissertasiyanın «Nəticə» hissəsi də qənaətbəxş işlənmişdir. Tədqiqatçının gəldiyi nəticələr elmi cəhətdən əsaslandırılmış, İlyas Əfəndiyev yaradıcılığının indiyə qədər toxunulmamış folklorla bağlılıq məsələləri araşdırılmış, ədibin bədii

əsərlərini yaradarkən əfsanə, nağıl, dastan, motivlərdən, bayatı, aşıq poeziyası, xalq mahnıları, atalar sözü və məsəllərdən məharətlə istifadə edərək, onlardan yaradıcı şəkildə bəhrələnməklə milli ruhumuzu oxşayan, gündəlik həyatımızla səsləşən, əsərlər yaratması inandırıcı faktlarla təsbit edilmişdir.

İş olan yerdə nöqsan da olar – deyirlər. Böyük məmnunluqla oxuduğum «İlyas Əfəndiyev yaradıcılığında folklor motivləri» əsəri də nöqsanlardan xali deyildir. Lakin onlar ciddi səhvlər olmayıb, düzəldilməsi, həqiqətən də, asan olan nöqsanlardır.

1. İlyas Əfəndiyev yaradıcılığında əhəmiyyətli yer tutan oda, suya inamla bağlı dissertantın mülahizələri, ədibin əsərlərindən gətirdiyi misallar və gəldiyi nəticə «Adət-ənənələr, inanclar, alqış və qarğışlar» adlı I fəsildə yer almalı olduğu halda, tədqiqatçı onu «İlyas Əfəndiyev və mifologizmlər» adlı III fəsildə verib. Bu doğru deyildir. Adından da göründüyü kimi oda, suya inam inanclarla, adət-ənənələrlə bağlıdır.

2. Dissertant mövzu ilə bağlı özünə qədər yazılmış dissertasiya və monoqrafiyalar ilə mütləq tanış olmalı idi. Təəssüf ki, tədqiqatçı Paşa Əfəndiyevin «Səməd Vurğun və xalq yaradıcılığı», Ayaz Vəfalının M.Füzuli, S.Rüstəmxanlının C.Məmmədquluzadə, M.Cəfərovun O.Sarıvəlli yaradıcılığı və folklor mövzusunda çox maraqlı dissertasiya və monoqrafiyalarından bəhrələnməyib.

3. Dissertant İlyas Əfəndiyevin əsərlərindən çıxış edərək atlarla bağlı mülahizələr irəli sürür və atı müqəddəs varlıqlar sırasına qoşur.

Əslində, at namus nişanəsidir. Səməd Vurğun yazır:

Atdı, papaqdı, bir də arvaddı,
Namusdan sayılır bizim ellərdə.

İsmayıl Şıxlının «Dəli Kür» əsərində Cahandar ağanın Qəmər adlı atı ilə bağlı olaylar da deyiləni təsdiqləyir. Türk

xalqlarının bəzisində əziz qonağa qulan, at kəsilməsi də dissertantın qənaətini təkzib edir.

Göründüyü kimi, göstərilənlər əsərə xələl gətirə biləcək ciddi nöqsanlar olmayıb, düzəldilməsi asan olan qüsur və çatışmazlıqlardır. Tədqiqatçı əsəri yüksək elmi səviyyədə yazmış, məqsədinə nail olmuşdur.

Avtoreferat, çap olunmuş 11 məqalə dissertasiyanın məzmununu əhatə edir.

Bizə qalırsa, «İlyas Əfəndiyev yaradıcılığında folklor motivləri» adlı tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə cavab verir və onun müəllifi Gülxani Vaqif qızı Şükürova folklorşünaslıq (10.01.09) üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
26.02.07

İSLAM HÜSEYN OĞLU SADIQOVUN «AZƏRBAYCAN FOLKLORUNDA «KOROĞLU» POETİK ƏNƏNƏSİ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Qədim mənəvi dəyərlərimizdən danışarkən göz önünə ilk olaraq «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanı və ulu ozan-aşıq sənəti gəlir. Folklorumuzla bağlı sonralar yaranan nə varsa bu abidələrdən qaynaqlanmış, onların üzərində bərqərar olmuşlar. İslam Sadıqovun indiyə qədər işlənməmiş, orijinal «Azərbaycan folklorunda «Koroğlu» poetik ənənəsi» adlı əsəri, hər şeydən əvvəl, bu baxımdan diqqəti çəkir.

Dissertasiya işi «giriş», 4 fəsil, nəticə və istifadə olunmuş qaynaqların siyahısından ibarətdir. Girişdə mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın obyekt və predmeti, mövzunun işlənmə dərəcəsi, elmi yeniliklər, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti kimi məsələlər Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq tədqiqat süzgəcindən keçirilir.

Dissertant Koroğlunun şəxsiyyəti və dövrü kimi məsələlərə aydınlıq gətirir. Tədqiqatçı doğru olaraq göstərir ki, «Koroğlu» poetik ənənəsi demək olar ki, araşdırılmamışdır. Həqiqətən də, «Koroğlu» eposu Azərbaycan dastançılıq tarixində yeni bir mərhələ olub sonrakı məhəbbət və qəhrəmanlıq dastanlarına zəmin yaratmış, onlara güclü təsir etmişdir.

Tədqiqatın məqsəd və vəzifələri konkret olaraq aşağıdakıları müəyyənləşdirməkdir:

«Koroğlu» eposunun meydana çıxması üçün mənəvi zəmin olan qədim türk dastançılıq ənənəsini, eposun özündən sonrakı Azərbaycan dastanlarına təsirini, aşıq poeziyasında «Koroğlu» motivlərini, folklorumuzun digər janrları ilə «Koroğlu» eposu arasındakı bağlılığı, «Koroğlu» eposunun

yaranmasında və yayılmasında Koroğlunun bir şəxsiyyət kimi rolunu aydınlaşdırmaq.

Göründüyü kimi dissertant folklorşünaslığımızda nəzəri cəhətdən həllini tapmamış məsələləri gündəmə gətirir və maraqlı bir dissertasiyanı ortaya qoyur. Təbii ki, tədqiqatçı mövzunun işlənmə dərəcəsinə münasibətini bildirməli idi. Bununla belə, tədqiqatçı «Koroğlu» eposunun indiyə qədər nəinki Azərbaycanda, hətta başqa ölkələrdə işlənmə dərəcəsini, eposun Avropa dillərinə tərcüməsini və s. geniş tədqiq edir. Eposa dair tədqiqatlara və tədqiqatçılara münasibətini bildirir.

Əsərin elmi yeniliklərindən danışarkən qeyd edilməlidir ki, «Koroğlu» eposunun özündən sonra yaranmış məhəbbət və qəhrəmanlıq dastanlarına təsirinin araşdırılması, eləcə də Koroğlu poeziyasının sonralar aşıq yaradıcılığına güclü təsiri, eposun bayatılarımızla, atalar sözü və məsəllərlə, idiomlarla, frazeoloji ifadələrlə və s. qarşılıqlı əlaqəsi haqqında söylənən fikirlər təzə və qənaətbəxşdir.

Hər fəsli ayrıca namizədlik dissertasiyasının mövzusu ola biləcək dissertasiya işi 4 fəsildən ibarətdir.

«Koroğlu» eposu və Azərbaycan dastanları» adlanan I fəsil üç yarımbölməyə ayrılır.

«Koroğlu»ya qədərki türk dastançılıq ənənəsi» adlanan 1-ci yarımbölmədə tarixin özü qədər qədim olan «Alp Ər Tonqa», «Törəyiş», «Boz qurd», «Manas», «Şu», «Oğuz Kaqan», «Köç», «Kitabi-Dədə Qorqud» kimi abidələrdən söz açılır. Dissertant türk dastan yaradıcılığını şərti olaraq mərhələlərə bölərək öyrənməyi tövsiyə edir:

«Kitabi-Dədə Qorqud»a qədərki dastan yaradıcılığı, «Kitabi-Dədə Qorqud»dan «Koroğlu»ya qədərki dastan yaradıcılığı, «Koroğlu»dan sonrakı məhəbbət dastanlarının yaranması». Burada «Kitabi-Dədə Qorqud»dan «Koroğlu»ya qədərki ikinci mərhələ diqqəti çəkir. Tədqiqatçı bu dövrü V–VI əsrlərdən XV–XVI əsrlərə qədər zaman kəsiyi kimi qiymətləndirir.

İslam Sadıqov «Kitabi-Dədə Qorqud»la «Koroğlu» eposu arasında ciddi oxşarlığın olduğunu Cəmşidovdan gətirdiyi maraqlı sitatla: «Koroğlu» eposu Azərbaycan xalq dastanları içərisində yeganə nümunədir ki, özünün bütün bədii şəkli, ədəbi forması, kompozisiyası, ümumi məzmun və ideyası ilə «Kitabi-Dədə Qorqud»a tam uyğun gəlir» fikrilə və başqa faktlarla təsbit edir.

Dissertasiyanın I fəslinin «Koroğlu» eposunun Azərbaycan qəhrəmanlıq dastanlarına təsiri yarımbölümündə eposun «Qaçaq Kərəm», «Qara Tanrıverdi», «Qandal Nağı», «Qaçaq Nəbi», «Səttərxan» və başqa qəhrəmanlıq dastanlarına təsirini inandırıcı faktlarla, poeziya nümunələri ilə təsbit etmişdir.

«Koroğlu» eposunun Azərbaycan qəhrəmanlıq dastanlarına təsiri folklorşünaslığımızda ilk dəfədir ki, hərtərəfli tədqiqata cəlb olunur.

I fəslin «Məhəbbət dastanlarında «Koroğlu» motivləri» adlanan yarımbölməsi də folklorşünaslığımızda yenilikdir. Burada dissertant maraqlı mülahizə yürüdür: «Koroğlu» eposunun ərişi, arğacı qəhrəmanlıqdırsa, ilmələri, gülləri, naxışları məhəbbətdir». O, göstərir ki, «Koroğlunun İstanbul səfəri», «Məhbub xanımın Çənlibelə gəlməyi», «Koroğlunun Dərbənd səfəri», «Mərcan xanımın Çənlibelə gəlməyi», «Koroğlunun Qars səfəri» məhz məhəbbət motivləri üzərində qurulduğundan onları ayırıb ayrıca məhəbbət dastanı adlandırmaq olar. Müəllif bu yarımbölmədə «Seydi və Pəri», «Qurbani», «Əsli və Kərəm», «Əmrah», «Novruz», «Şah İsmayıl», «Tahir və Zöhrə», «Aşıq Qərib», «Alı xan» və s. kimi dastanlarda «Koroğlu» eposu ilə uyğun gələn motivləri üzə çıxarır, poeziya nümunələri ilə qənaətini möhkəmlədir.

«Koroğlu» eposu və Azərbaycan aşıq poeziyası» adlanan II fəsil ilhamla işlənmişdir. Şübhəsiz, bu uğurda dissertantın şairliyinin də payı vardır. Bu fəsil də üç yarımbölməyə ayrılmışdır:

«Azərbaycan aşıq şeirində Koroğlu motivləri», «Aşıq Ələsgər poeziyasında Koroğlu motivləri», «Qaracaoğlan poeziyasında Koroğlu motivləri».

Bu fəsil də vicdanla tədqiqat süzgəcindən keçirilmişdir. Təkcə bunu yazmaq üçün dissertant ta qədimdən zəmanəmizə qədər bütün aşıqların yaradıcılığını nəzərdən keçirmiş, maraq doğuran nəticələrə gəlmişdir.

Dissertasiyanın III fəsli «Azərbaycan folklorunun digər janrları ilə «Koroğlu» eposu arasında poetik bağlılıq» adlanır. Dərin elmiliyi ilə seçilən bu fəsildə «Koroğlu» eposu ilə bayatılarımız, atalar sözlərimiz, idiomlar və hikmətli sözlər, deyimlər arasındakı poetik bağlılıq gündəmə gətirilir. Başqa fəsillər kimi bu fəsil də maraqla oxunur və düşündürür.

Əsərin IV fəsli «Koroğlu» eposu və Azərbaycan dastan yaradıcılığının problemləri» adlanır. Bu fəsildə «Koroğlu epik obraz və tarixi şəxsiyyət kimi», «Koroğlu sözünün poetik qüdrəti», «Koroğlu» eposunun formalaşması: ənənə və fərdilik» kimi bir-birindən maraqlı yarımbölmələr tədqiqata cəlb olunub və qənaətbəxş nəticələrə gəlinib. Burada dissertant Koroğludan qəhrəman kimi, aşıq kimi, şair kimi söhbət açır və Koroğlunun tarixi şəxsiyyət olduğunu bir daha vurğulayır və doğru hökm verir: «Eposda tarixi şəxsiyyət Koroğlu ilə xalqın yaratdığı Koroğlu elə birləşmişdir ki, onları ayırmaq artıq mümkünsüzləşmişdir».

Ancaq Koroğlunun tarixi şəxsiyyət kimi yarandığı dövrdən söhbət açan tədqiqatçı bu xalq qəhrəmanının gah XIV əsrdə «Son araşdırmalar göstərir ki, Koroğlu XIV əsrdə yaşamışdır» (s.13), gah da sonrakı dövrdə yaşadığını «Dastanın ilk rüşeymləri də ən geci XIV–XV əsrlərdə qəhrəmanın özü tərəfindən qoyulmuş, XVI–XVII əsrlərdə artıq bu söz abidəsi eposlaşmışdır» (s.13) göstərməklə oxucunu çaşbaş salır. Burada təəccüb doğuran bir də odur ki, dissertant məxəz kimi öz əsərinə («Koroğlu kim olub», Bakı, «Azərnəşr», 1998, s.13) istinad edir və dissertasiyada tədqiqatçının hansı məxəzlərə arxalanaraq bu nəticəyə gəldiyini bilmək olmur. Ən etibarlı məxəz isə eposun özüdür. Koroğlunun XIV əsrin sonu, XV əsrin əvvəllərində yaşadığını göstərən

bu tutarlı fakt eposun həm Azərbaycan, həm də Azərbaycan folklorunun qüdrətli qolu Kərkük variantında yer alıb.

Dastan Kərkük folklorunda belə başlayır:
Mən bir kor oğluyam dağlar gəzərəm,
Dağ sultanı yeldən qüvvət sezərəm.
Zalımların başlarını üzərəm
Əcələ yap, usta, mənim sazımı.

– deyərək intiqam almağa tələsən qəhrəman, tüfəng icad edildikdən sonra məyus olur, «Mərdliyin pozulduğunu» ürəkağrısı ilə bəyan edir:

Düşmən gəldi tabır-tabır düzüldü,
Alnımıza qara yazı yazıldı.
Tüfəng icad oldu, mərdlik pozuldu
Əgri qılınc qında paslanmalıdır.

Kərkük ellərində «Mərdliyin pozulduğundan» şikayətlənən Koroğlu Azərbaycanda «mərdlik əldən getdi» deyə nalə çəkir:

Axır əcəl gəldi yetdi, hay-haray!
Çəkdiyim qovğalar bitdi, hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi, hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi? – deyir.

Məlumdur ki, tüfəng XIV əsrin sonu, XV əsrin əvvəllərində icad olunub.

Çəkinmədən beyə bilərik ki, uzun illərin səmərəli zəhmətinin nəticəsi olan «Azərbaycan folklorunda «Koroğlu» poetik ənənəsi» adlı bu dissertasiya işi elm aləmində maraqla qarşılanacaq. Mövzu üzrə ilk monoqrafiyası 1998-ci ildə çıxan tədqiqatçının dissertasiyası onun bir folklorşünas kimi yetişməsindən xəbər verir.

Bununla belə, bu maraqlı əsər nöqsanlardan da xali deyildir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Diqqətsizlik ucbatından əsərdə xeyli orfoqrafik səhvlərə yol verilib. Əsərin təkcə sonuncu 158-ci səhifəsində yer alan 14 sətirdə dörd səhv vardır. Olmaz əvəzinə omaz, ağlabatan əvəzinə – ağılabatan gedib. Əsərin adında dırnaq bağlanmayıb. 157-ci səhifədə cümlə bitdiyi halda 158-ci səhifə «sında Koroğlu şəxsiyyətinin rolu məsələsi Azərb. Folklorşünaslığında ilk dəfə tədqiq olunur» başlayır, anlaşılmazlıq yaranır.

2. Dissertasiyada bir çox hallarda ifrata varılır. Məsələn, «Koroğlu dünya eposunun şah əsəridir» (s.7, 155) və ya «Bəlkə də, dünya folklorunda «Koroğlu» kimi sevilən və geniş yayılan əsər yoxdur» (s.79).

3. Ümumiyyətlə, əsərin yaxşıca redaktəyə ehtiyacı vardır. Belə olsaydı dissertasiyada İran xalqı (s.42), şumer türkləri (s.11), «Bu aksiomadır ki, folkloru olmayan xalqın nə tarixi var, nə də mədəniyyəti» (s. 135) kimi məntiqə sığmayan cümlələrə, Eyvazın cənazəsi ilə üzbəüz gələn anası Zərqələmin ah-nalə ilə dediyi ağıları dissertantın bayatı hesab etməsi (s.101), dissertasiyaya ağırlıq gətirən, stilistik cəhətdən məqbul sayılmayan cümlələr və s. yer almazdı. Fikir verin: «Bir şeyi nəzərə almaq lazımdır ki, bu bölgü tamamilə şərtidir. Bu bölgü dastanların forma və məzmununun fərqləri əsasında aparılmışdır». Əslində, bu iki cümləni birləşdirib: «Nəzərə almaq lazımdır ki, tamamilə şərti olan bu bölgü dastanların forma və məzmun fərqləri əsasında aparılmışdır» yazanda dilimizin qayda-qanunları gözlənilmiş olur. Biz hələ dissertasiyanın bir çox səhifələrində rast gəlinən «Koroğludan süzülüb gələn» (s. 4, 22, 23, 24, 74, 155, 156, 157 və s.) ifadəsinin işlənməsini demirik. Özlüyündə bu ifadə məqbuldur, ürəyə yatandır. Lakin Nizaminin dahiyanə deyilmiş misralarını da unutmamalıyıq:

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

4. Dissertasiyada «Koroğlu» eposu üzərində tədqiqat aparmış alimlərdən geniş söz açılıb və qaynaqlarda onların əsərlərinə yer verilib. Lakin dissertantın eposa doktorluq dissertasiyası həsr etmiş fil.e.d. Xatirə Bəşirova və prof. Cəlil Nağıyevin «Koroğlu» Çin qaynaqlarında» monoqrafiyasından xəbərsiz olması təəssüf doğurur. Əgər dissertasiyada Koroğlunun tarixi şəxsiyyət olması barədə bölmə olmasa idi (bax: s.120–126) bunun üstündən sükutla keçmək də olardı. Məsələ burasındadır ki, prof. Cəlil Nağıyev ortaq türk abidəmizi və Koroğlunu tarixi şəxsiyyət kimi Çinlə bağlayır. Koroğlunun əyyaşlığından, eyş-işrətlə məşğul olmasından söz açır. Dissertasiyada bu məsələyə münasibət bildirilməli idi.

5. Dissertasiyada mötəbər məxəzə istinad edilmədən «Kitabi-Dədə Qorqud»un V–VI əsrlərdə meydana gəldiyi göstərilir (s.12). Halbuki abidənin elə 1-ci cümləsi əsas tutularaq onun VI–VII əsrlərdə yazıldığı elm aləmində təsbit edilmişdir.

Bütün bu deyilənlər maraqlı tədqiqat işinin dəyərini azalda biləcək ciddi nöqsanlar olmayıb, düzəldilməsi asan olan xətalardır. Dissertant əsərdə qarşıya qoyduğu problemləri elmi səviyyədə həll edə bilmiş və məqsədinə nail olmuşdur.

Avtoreferat, üç monoqrafiya, mötəbər elmi jurnallarda çap olunan çoxsaylı məqalələr dissertasiyanın məzmununu tamamilə əhatə edir.

Bizə qalırsa, «Azərbaycan folklorunda «Koroğlu» poetik ənənəsi» adlı tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi İslam Hüseyn oğlu Sadıqov folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
17.10.2007

VƏFA MURADXAN QIZI İBRAHİMOVANIN «AZƏRBAYCAN FOLKLORUNUN İNGİLİSDİLLİ QAYNAQLARDA TƏDQİQİ VƏ TƏRCÜMƏ MƏSƏLƏLƏRİ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Müdafiəyə təqdim edilən dissertasiya işi həm maraqlı, həm də bütün zamanlar üçün aktual olan ədəbi əlaqələrə həsr olunmuşdur. Burada bizim üçün önəmli olan odur ki, bu əsərdə söhbət əvvəllərdəki kimi əcnəbi xalqların folklorunun müəyyən janrlarının və ya bədii ədəbiyyatının tərcümə problemlərindən deyil, Azərbaycan şifahi xalq ədəbiyyatının epik və lirik janrlarının ingilisdilli qaynaqlarda tərcümə xüsusiyyətlərindən, mövsüm və mərasim folklorunun necə tanıdılmasından gedir.

Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti və s. nəzərdən keçirilmişdir. Dissertasiyada folklorumuzun ingilisdilli qaynaqlarda əksi elmi baxımdan tədqiqat süzgəcindən keçirilmiş, bu sahədə yazılmış əsərlər ilk dəfə olaraq sistemləşdirilmişdir. Dissertant zəmanəmizə qədər görülən işlərə nəzər salmış, XX əsrin 50-ci illərindən bu yana görülmüş elmi-tədqiqat işlərinin ümumi mənzərəsini yarada bilmişdir. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi məsələlərini elmi cəhətdən hərtərəfli araşdıraraq məqsədinə nail olmuşdur. Tədqiqatda elmi yenilik olaraq üç məsələ ön plana çəkilmişdir: Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsinin nəticələri ümumiləşdirilmiş, Cənubi Azərbaycan folklorunun ingilisdilli

qaynaqlarda öyrənilməsi işıqlandırılmış, aşıq ədəbiyyatı nümunələrinin ingilis dilinə tərcüməsi ardıcıl və sistemli şəkildə tədqiq edilmişdir.

Dissertasiyanın «Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi tarixi» adlanan I fəsli iki yarımfəslə ayrılır. I yarımfəsil «Azərbaycan ədəbiyyatının xaricdə öyrənilməsi ilə bağlı ümumi icmal» adlanır. Tədqiqatçı Ruxsara xanım Qayıbovanın «Azərbaycan ədəbiyyatı ingilis alimlərinin əsərlərində», eləcə də İsmixan Rəhimov, Ənvər Rza, Səyyarə Məmmədova, N.Axundov, V.Arzumanlı, Z.Ağayev, M.Məmmədov, A.Həsənova, Ş.Nağıyeva, Ş.Balakişiyev, L.Əliyeva, Ş.Xəlilli və başqalarının əsərlərindən məhəbbətlə söz açır və bu sahədə Leyli Əliyeva və Şahin Xəlillinin xidmətlərini xüsusi vurğulayır.

Dissertant apardığı tədqiqatlardan belə nəticəyə gəlir ki, Azərbaycan ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi və tərcüməsi ilə bağlı bir sıra işlər görülsə də, Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsini qənaətbəxş hesab etmək olmaz.

I fəslin «Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi tarixi» adlanan II yarımbölməsində Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi yer alır. Tədqiqatçı burada başlıca olaraq iki istiqamətdən söz açır. Onlardan birincisi ingilisdilli qaynaqlarda Azərbaycan folklor nümunələri və Azərbaycan alimlərinin bu yöndə tədqiqatlarıdır. 2-ci istiqamət isə Azərbaycan folklor örnəklərinin ingilis dilinə tərcümə məsələsi və görülən işləri ümumiləşdirməkdir.

Müəllif haqlı olaraq qeyd edir ki, son zamanlara qədər Azərbaycan folklor örnəkləri ingilis dilinə rus dili vasitəsi ilə çevrildiyinə görə nəticə o qədər də ürəkaçan olmamışdır.

Dissertant «Kitabi-Dədə Qorqud» və «Koroğlu» dastan-eposlarının ingilisdilli qaynaqlarda yeri və bu sahədə

Azərbaycan alimlərinin gördüyü işlərdən də söz açır. Aidə Həsənovanın «Kitabi-Dədə Qorqud» ingilisdilli mənbələrdə» və Şahin Xəlilovun «Kitabi-Dədə Qorqud və «Koroğlu» dastanları ingilis şərqşünaslığında» tədqiqatlarının böyük elmi əhəmiyyətindən bəhs edir. Xüsusən də F.Robertin, C.Lyusin, F.Sumərin, P.Mirablin «Dədə Qorqud»dan ingilis dilinə etdikləri tərcümələri ilə bağlı Şahin Xəlillinin fəaliyyətini yüksək qiymətləndirir. «Koroğlu» dastanının ingilisdilli qaynaqlarda öyrənilməsi də Azərbaycan alimləri tərəfindən işıqlandırılmışdır. Şahin Xəlilli və Şahbaz Balakişiyevin bu sahədə gördüyü işlər, həqiqətən də, diqqətəlayiqdir.

Məlumdur ki, A.Xodzkonun tərcüməsində «Koroğlu»nun 1842-ci il London nəşrindən sonra əsər rus, fransız, alman və s. dillərə tərcümə edilmişdir. Burada xeyirxah işlərinə görə A.Xodzko, İ.Şopen, J.Sand, S.Penn, O.Vulf, Ad.Brelye və başqalarının adlarını minnətdarlıqla yad etmək yerinə düşərdi. «Koroğlu» dastanının ingilisdilli qaynaqlarda tədqiqi də, ilk növbədə Ş.Xəlilli və Ş.Balakişiyevin adı ilə bağlıdır – desək səhv etmərik.

Azərbaycan folklorunun ingilis dilinə tərcüməsindən danışarkən göz önünə ilk gələn əsərlərdən biri də 1969-cu ildə Moskvada çıxan böyük həcmli, 622 səhifəni əhatə edən «Azərbaycan poeziya antologiyası»dır. Burada klassik və müasir ədəbiyyat örnəklərimizlə bərabər, folklorumuza da geniş yer verildiyi dissertant tərəfindən xüsusi vurğulanır. Bu kitabda «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Əsli və Kərəm», «Qaçaq Nəbi» dastanlarından parçalar, aşıqlarımızdan Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Ələsgər, Hüseyn Bozalqanlı, Şəmşir və Hüseyn Cavanın şeirlərindən nümunələr verilmiş, ingilisdilli oxuculara töhfə edilmişdir.

Folklorumuzun ingilisdilli oxuculara təqdim edilməsində və təbliğində ABŞ-da çıxan «Azerbaijan İnternational» jurnalının fəaliyyəti də dissertasiyada qədərincə qiymətləndirilib.

Dissertasiyanın II fəsli «İngilisdilli folklorşünaslıqda Azərbaycan şifahi xalq ədəbiyyatının araşdırılması» adlanır.

Bu fəsildə Novruz bayramı, Azərbaycan atalar sözləri, tapmacalar, röya, buta motivləri, süd dişi ilə bağlı inanclar və mərasimlər, aşıq poeziyası və s. kimi maraqlı məsələlərin ingilisdilli oxuculara necə çatdırılması, öyrənilmə dərəcəsi tədqiqata cəlb olunur.

Dissertant haqlı olaraq Novruz bayramının təbiətlə bağlı olduğunu, İslamdan çox-çox əvvəl də keçirildiyini qeyd edir. Azərbaycan Aşıq yaradıcılığının xaricdə tədqiqindən danışarkən Şarlot Olbraytın xidmətləri ön plana çəkilir. Tədqiqatçının o taylı-bu taylı aşıq sənətinə dair araşdırmasına dissertasiyada geniş yer verilir (s.68–75). Həqiqət naminə deyək ki, Şarlot Olbraytın aşıq sənətinin, aşıq ədəbiyyatının təşəkkülünə dair tədqiqatları qiymətlidir. O, bu məsələləri araşdırmaq üçün Azərbaycan, Cənubi Azərbaycan, Türkiyə, Orta Asiya alimlərinin tədqiqatlarını izləyərək ağlabatan fikirlər irəli sürmüş, nəticədə tədqiqatçının «Azərbaycan aşığı və onun dastan ifası» və «Azərbaycan aşığı: musiqiçinin dəyişən cəmiyyətə uyğunlaşması» kimi fundamental əsərləri meydana gəlmişdir.

Macar alimi Yanoş Şipoşun Azərbaycan bölgələrini gəzərək topladığı və ingiliscə Budapeştdə buraxdığı «Azərbaycan el havaları – musiqinin ilkin qaynaqları» əsəri barədə də tədqiqatçının qənaətləri maraq doğurur.

Dissertasiyanın III fəsli «Azərbaycan aşıq şeirinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlər» adlanır. Bu fəsildə XVI əsrdən başlamış XX əsrin sonlarına qədər zaman kəsiyində yazıb-yaradan Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Ələsgər, Hüseyn Bozalqanlı, Hüseyn Cavan, Şəmşir kimi qüdrətli sənətkarların, aşıq sənətinin memarlarının poeziya nümunələrinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlər araşdırılmışdır. Dorian Rotenberq və İrina Jeleznovanın tərcümələri təhlil süzgəcindən keçirilmişdir.

Təəssüflə qeyd edilməlidir ki, görkəmli aşıqlarımızın ingilis dilində poeziya örnəkləri yalnız Bakıda və Moskvada çap olunmuşdur.

Dissertasiya işi aktual bir mövzuya həsr olunduğundan maraqla oxunur. Tədqiqatçı hər fəsildən sonra öz qənaətlərini yığcam şəkildə ortaya qoyur. Elmi təfəkkürün məhsulu olan bu dissertasiya müəyyən nöqsanlardan da xali deyildir:

1. Avtoreferatda məxəzlər 30-dan 42-yə qədər səhv düşüb (bax. s.9–13).

2. Dissertasiyada Şarlot Olbraytın Azərbaycan aşıq sənətinə dair tədqiqatlarına geniş yer verilsə də (bax. s.68–75), məqalələrinin adı çəkilsə də, Azərbaycan aşıq sənətinə dissertasiya həsr etdiyi göstərilsə də (avtoreferat, s.18, dis., s.68) dissertasiyanın adına nə avtoreferatda, nə də dissertasiyada təsadüf edilir.

3. Tədqiqatçının bəzi mənbələrdən, hətta dissertasiyalardan xəbərsiz olması təəssüf doğurur. Məs.: Anna Şinaslanın (türkiyəli Onur Şinaslanın həyat yoldaşı) ABŞ-da müdafiə etdiyi «Azərbaycan qadın aşıqları» mövzusunda maraqlı dissertasiya işi vardır. Onun eləcə də «Folklor və etnoqrafiya» jurnalında da ingiliscə «Dədə Qorqud» və Aşıq Əkbər Cəfərov barədə maraqlı yazıları çıxıb.

Dissertasiyada «Azərbaycan İnternational» jurnalında gedən yazılara geniş yer verilir (yeri gəlmişkən, həmin jurnal dissertasiyada göstərildiyi kimi Nyu-Yorkda deyil, Los Ancelesdə çıxır. Özü də orada çap olunan «Armenian İnternational» jurnalına qarşı qoyulmuşdur). Təəssüf ki, bizim həmin jurnalda folklorumuza dair nəşr edilən böyük həcmli məqaləmiz (11.1 Spring, 2003, s.22–25) də tədqiqatçının nəzərindən qaçmışdır.

4. Dissertant bəzən tədqiqata dəxli olmayan məsələlərdən söz açır. O yazır: «20-ci yüzilliyin 80-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qay-

naqlarda öyrənilməsi ilə bağlı görülən işlərin sayı artmışdır. Məsələn, f.e.d. R.İsmayılovun «Dostluq telləri» adlı araşdırması Azərbaycan–Fransa ədəbi əlaqələrinin öyrənilməsinə həsr olunmuşdur (bax. s.10). Qəribədir, 1982-ci ildə Bakıda, «Yazıçı» nəşriyyatının azərbaycanca çap etdiyi əsərin ingilisdilli qaynaqlara nə dəxli var? Bu yeganə hal olsa, bəlkə də, açıb-ağartmağa dəyməzdi. Məsələ burasındadır ki, tədqiqatçı Sabir Mustafanın «İngilisdilli xalqların folklorundan nümunələr», Y.Mürşüdovun «Alman dilində atalar sözləri və məsəllər və onların ingilis, Azərbaycan və rus dillərində qarşılıqları», O.Həsənovanın «Şekspir yaradıcılığının tarixi-bədii özünəməxsusluğunun Azərbaycan dilində canlandırılması problemi», Ə.Rzayevin «İngilis poeziyasının Azərbaycan dilinə tərcümə problemləri» və s. kimi əsərlərindən də dissertasiyada söz açılmır.

Deyilənlər maraqlı dissertasiya işinin sanbalına xələl gətirəcək nöqsanlar olmayıb, düzəldilməsi asan olan qüsurlardır.

Dissertantın çap olunan xeyli sayda məqaləsi və avtoreferatı əsərin məzmununu əhatə edir.

Bizə qalırsa, «Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi və tərcümə məsələləri» adlı tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və onun müəllifi Vəfa Muradxan qızı İbrahimova «Folklorşünaslıq» (10.01.09) və «Ədəbiyyat nəzəriyyəsi» (10.01.08) ixtisası üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
19.11.2007

SAMİRƏ MUSTAFA QIZI ƏLİYEVANIN «AZƏRBAYCAN MƏHƏBBƏT DASTANLARINDA MƏNƏVİ-ƏXLAQİ TƏKAMÜL İDEYASI» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Müdafiəyə təqdim olunan «Azərbaycan məhəbbət dastanlarında mənəvi-əxlaqi təkamül ideyası» adlı dissertasiya işi demək olar ki, folklorşünaslığımızda tədqiq olunmamış, orijinal mövzuya həsr olunmuş bir əsərdir. Bu əsər bir daha göstərir ki, folklorumuzda pərakəndəlikdən sistem üzrə mövzuları seçmək və ardıcıl tədqiqatlar aparmaq vaxtı çatmışdır. Milli Elmlər Akademiyasının nəzdində «Folklor İnstitutu»nun yaranması, Koordinasiya Şurasının bir mərkəzdə – bu institut nəzdində fəaliyyət göstərməsi deyilənlərin həyata keçirilməsi üçün münbit şərait yaradır.

Samirə Mustafa qızı Əliyevanın dissertasiya işi, hər şeydən əvvəl, bu baxımdan əhəmiyyət kəsb edir. «Azərbaycan məhəbbət dastanlarında mənəvi-əxlaqi təkamül ideyası» namizədlik dissertasiyası giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Girişdə tədqiqatçı mövzunun aktuallığını əsaslandırmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələrindən, elmi yeniliyindən, nəzəri və praktik əhəmiyyətindən söz açmışdır. Burada tədqiqatçı haqlı olaraq xüsusi vurğulayır ki, Azərbaycan məhəbbət dastanları ideya-məzmun cəhətdən akademik Həmid Araslı və başqaları tərəfindən təhlil süzgəcindən keçirilsə də, Azərbaycan folklorunun bütün janrlarında qırmızı xətt kimi keçən mənəvi-əxlaqi təkamül baxımından tədqiqata cəlb olunmayıblar. Beləliklə, mövzunun aktuallığı ön plana çəkilir və tədqiqatçı məqsədinə nail olmaq üçün məhəbbət dastanlarının tədqiqində mənəvi-əxlaqi dəyərlər aspektinin araşdırılma

təcrübəsini və dərəcəsini, mənəvi-əxlaqi dəyərlərin sosial-ictimai, dini-fəlsəfi, etik-estetik, ədəbi-bədii, bir sözlə, mənəvi-əxlaqi dəyərlər sisteminin humanitar aspektlərini, onların folklorda təcəssüm spesifikasını nəzərdən keçirir.

Dissertant, eləcə də məhəbbət dastanlarında qırmızı xətt kimi keçən, onların əsas ideya ağırlığını təşkil edən eşqin əxlaqi aspektlərini etnik mental düşüncə və təsəvvüfi kontekstdə araşdırmaq, məhəbbət dastanlarının aparıcı əxlaqi kateqoriyalarını müəyyənləşdirərək tədqiqata cəlb etmək, mənəvi-əxlaqi təkamül ideyasının dastan süjetində təcəssümünün folklorşünaslıq aspektlərini öyrənmək, dastanın süjet, struktur vahidləri ilə sufi-mənəvi kamilləşmə mərhələləri arasında bənzər cəhətləri üzə çıxararaq tədqiq etmək kimi problemləri araşdırıb. Çəkinmədən deyə bilərik ki, tədqiqat işi Azərbaycan məhəbbət dastanlarında mənəvi-əxlaqi kateqoriyalar sisteminin müəyyənləşdirilməsi və mənəvi-əxlaqi təkamül ideyasının monoqrafik planda öyrənilməsi yolunda ciddi elmi əsər kimi diqqəti çəkir. Bizə qalırsa, bu dissertasiyanın nəzəri-metodoloji yanaşma təcrübəsindən istifadə edərək Azərbaycan folklorunun başqa janrlarını da mənəvi-əxlaqi təkamül baxımından tədqiq etmək olar. Deməli, dissertasiya elmi istiqamətə yönələn bir tədqiqat kimi də xüsusi qiymət kəsb edir.

Dissertasiyanın «Məhəbbət dastanlarının tədqiqində mənəvi-əxlaqi dəyərlərin araşdırılma təcrübəsi» adlanan I fəslində məhəbbət dastanlarının toplanması, nəşri, ideya-məzmun və sənətkarlıq baxımından təhlili ön plana çəkilir. Doğrudur, dissertant məhəbbət dastanlarında mənəvi-əxlaqi dəyərlərdən bəhs edən alimlərimizin gördüyü işlərdən də söz açır. Bu sahədə tədqiqat aparan görkəmli folklorşünas alimlərimiz Məmmədhüseyn Təhmasıb, Paşa Əfəndiyev, Azad Nəbiyev, Məhərrəm Cəfərli və başqalarının əməyini xüsusi vurğulayır. Bununla belə, tədqiqatçı doğru olaraq, qeyd edir

ki, məhəbbət dastanlarımız indiyə kimi mənəvi-əxlaqi dəyərlər baxımından monoqrafik tədqiqə cəlb olunmamışdır.

Dissertasiyanın II fəsli «Mənəvi-əxlaqi kateqoriyaların obrazlarda təcəssümü» adlanır. Bu fəsildə mənəvi-əxlaqi dəyərlər humanitar aspektlərdən – sosial-ictimai, dini-fəlsəfi, etik-estetik, ədəbi-bədii aspektdən tədqiqata cəlb edilir, mənəvi-əxlaqi dəyərlərin folklorda təcəssüm spesifikasının müəyyənləşdirilməsindən, dastanlarda aparıcı əxlaqi kateqoriyalar namus, xeyirxahlıq, dostluq, dostluqda təmənnasızlıq, sədaqət və s. söz açılır.

Dissertasiyanın II fəslinin «Əxlaqa zidd keyfiyyətlər» başlıqlı bölməsində mənfi-əxlaqi keyfiyyətlərdən bəhs edilir.

Dissertasiyanın III fəsli «Mənəvi-əxlaqi təkamül və süjet» adlanır. Bizim qəti qənaətimiz belədir ki, «Mənəvi-əxlaqi təkamül ideyasının dastan süjetində təcəssümünün folklorşünaslıq və teoloji-təsəvvüfi aspektləri» və «Dastanın süjet struktur vahidləri sufi mənəvi kamilləşmənin mərhələləri kimi» adlı yarımbaşlıqlara bölünən bu fəsil dissertasiyanın ağırlıq yükünü özündə cəmləşdirir. Burada insanın mənəvi-əxlaqi kamilləşməsini şərtləndirən şəriət, təriqət, mərifət və həqiqət kimi mərhələlər məhəbbətlə işlənmiş, məhəbbət dastanlarında aparıcı qəhrəmanların həyatında onların rolundan söz açılmışdır.

Dissertasiyanın «Nəticə» hissəsində aparılan tədqiqatın yığcam xülasəsi verilmiş, dissertantın elmi qənaətləri nəzərdən keçirilmişdir.

Dissertant Azərbaycan dilinin intəhasız gözəllik və zənginliklərindən məharətlə istifadə edərək maraqla oxunan tədqiqat işini ortaya qoymuşdur. Əsərdə insanı heyran edən neçə-neçə ifadələrə, cümlələrə, əsaslı fikirlərə təsadüf edilir. Bu, dissertantın folklorçu kimi yetişdiyinə dəlalət edir.

Bütün bu deyilənlərlə bərabər, bu dissertasiya işi bəzi xırda nöqsanlardan da xali deyildir. Onları belə ümumiləşdirmək olar:

1. Bütün əsər boyu bir tələsiklik və buradan irəli gələn diqqətsizlik özünü göstərir. Təkcə dissertasiyanın başladığı 3-cü səhifədə üç orfoqrafik, bir üslub xətası vardır. Əsər möhtəşəm bir cümlə ilə başlayır: «XX əsrin astanasında – dünyada qloballaşma prosesinin getdiyi bir dövrdə bütün planet miqyasında mənəvi-əxlaqi dəyərlərə dönüş zamanın diktəsindən doğan zərurətə çevrilmişdir». Göründüyü kimi, söhbət XX əsr deyil XXI əsrdən gedir. Başqa bir misal.

Əsərin «Nəticə» hissəsində (s.154).

Tərtibi əvəzinə **təribi, bəhs etmişdir** əvəzinə **bəhs etmidir,** Məmmədhüseyn Təhmasıb əvəzinə Məhəmməd Hüseyn Təhmasib və s. getmişdir. Yeri gəlmişkən, ərəb və fars dillərində Əli Əkbər, Əli Əsgər və s. ayrı yazıldığı halda, bu sözlər Azərbaycan dilində birgə yazılır. Məs: Ələkbər, Ələsgər, Məmmədhüseyn, Məmmədəli və s.

2. Əsərin «Mündəricatı»nda fəsillər üzrə səhifələr heç bir bölmə və fəsildə uyğun gəlmir. Mündəricatda göstərilir ki, əsər 154-cü səhifədə bitir. Əslində, dissertasiya 167-ci səhifədə tamamlanır. Xalq arasında deyirlər: «Çibin murdar deyil, könül bulandırır». Bəzən elə nöqsana rast gəlirsən, təəccüblənirsən: «Burada vəfa, sədaqət, təmiz eşq, mənəvi saflıq, dostluq» və s. mövzular əsas yer tutur (**qara bizimdir** – S.Ə. s.23).

3. Tədqiqatda deyilir ki, əsər yazılarkən dünya folklorşünaslığının nəzəri-metodoloji təcrübəsindən istifadə edilmişdir (s.8). İstifadə edilmiş ədəbiyyatın siyahısı göstərir ki, yalnız Azərbaycan, türk və rus mənbələrindən istifadə edilmişdir. Bunu ona görə xüsusi vurğulayırıq ki, namizədlik minimumu verəndə mütləq Qərbi Avropa dillərindən: ingilis, fransız, alman və s. birindən imtahan vermək məcburidir. Bu ona görə edilir ki, həmin dillərdə olan mənbələrdən istifadə edilsin.

Göründüyü kimi, Samirə Əliyevanın bu maraqlı əsərində ciddi nöqsanlar yoxdur. Qeyd etdiklərimiz asanlıqla düzələ

biləcək xırda xətalardır. Dissertantın çap olunan 8 məqaləsi və avtoreferatı əsərin məzmununu əhatə edir.

Tam əminliklə demək olar ki, «Azərbaycan məhəbbət dastanlarında mənəvi-əxlaqi təkamül ideyası» adlı tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə bütövlükdə cavab verir və onun müəllifi Samirə Mustafa qızı Əliyeva folklorşünaslıq (10.01.09) ixtisası üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
08.01.2008

SAMİR ELMAN OĞLU MUSTAFAYEVİN «AZƏRBAYCAN FOLKLORU VƏ MİLLİ DÜŞÜNCƏ SİSTEMİ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Samir Mustafayevin «Azərbaycan folkloru və milli düşüncə sistemi» adlı namizədlik dissertasiyası nəzəri və təcrübi biliklərlə zəngin bir araşdırmadır. Milli düşüncə sistemi birbaşa fəlsəfi şüur anlayışı ilə əlaqəli olduğundan və əsər folklorla fəlsəfənin qovşağında yazıldığından belə hesab edirəm ki, tədqiqatçıya fəlsəfə elmləri namizədi alimlik dərəcəsi də vermək olardı. Ayrıca dissertasiya işi ola biləcək I fəslin adı da deyilənlərə dayaq olur: «Folklor və milli düşüncə sistemi probleminin fəlsəfi-analitik və nəzəri-folklorşünaslıq aspektləri». Bu dissertasiyada, hər şeydən əvvəl, diqqətçəkən göstəricilərdən biri araşdırıcının ənənəvi hal almış, mövzu ilə əlaqəli əvvəllər yazılmış əsərlərə geniş yer verməkdən, onları sadalamaqdan qaçmasıdır. O, birbaşa mətləbə keçib və ortaya orijinal bir tədqiqat işi qoyub. «Azərbaycan folkloru və milli düşüncə sistemi» əsəri demək olar ki, folklorun bütün növ və janrlarını əhatə edir və dissertant səbirlə onları ayrı-ayrılıqda tədqiqat süzgəcindən keçirir. Tədqiqatda doğru olaraq milli düşüncə sisteminin qədim ümumtürk-etnik düşüncə sisteminin ayrılmaz tərkib hissəsi olduğu xüsusi vurğulanır.

Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısını içinə alır.

Tədqiqatın «Giriş»ində mövzunun aktuallığından, məqsəd və vəzifələrindən, obyekt və predmetindən, elmi yeniliklərindən, nəzəri və praktik əhəmiyyətindən və s. söhbət açılır.

Dissertasiyanın hər üç fəslində və doqquz yarımfəslində hər şey tədqiqatla ciddi şəkildə bağlıdır. Bu, dissertasiyanın yığcamlığına, məna və məzmun dərinliyinə dəlalət edir və maraqla oxunur.

Əsərin ana xəttini təşkil edən I fəsildə dissertant Azərbaycan milli düşüncə sistemini lap qədim zamanlardan başlamış əsrlər üzrə izləmiş, elmi cəhətdən bizə görə inandırıcı və düşündürücü məsələləri tədqiqata cəlb etmiş və istəyinə nail olmuşdur. Burada milli düşüncə sistemi tarixi-mədəni kateqoriya mövqeyindən araşdırılmış, milli düşüncə sisteminin etnik özəllikləri tədqiqata cəlb edilmiş, bunun əsasında Azərbaycan milli düşüncə sisteminin folklorda gerçəkləşməsi və bu prosesin bədii təkamülü öyrənilmişdir.

Dissertant Azərbaycan milli düşüncə sisteminin ən qədim mərhələsindən bəhs edərkən haqlı olaraq qeyd edir ki, bu mərhələ ümumtürk-etnik düşüncə sistemi daxilində araşdırılmalıdır. Araşdırıcı tədqiqat nəticəsində qədim Azərbaycan milli düşüncəsində və ya ümumtürk-etnik düşüncə sistemində bir-biri ilə qarşılıqlı əlaqədə olan üç düşüncə layını ortaya qoyur:

Düşüncə sisteminin sakral-mifoloji layı, mənəvi-əxlaqi layı və sosial-mədəni layı. Hər üç düşüncə layı öz mövcudluğunu tarixi abidələrdə qoruyub saxlamış və dissertantın göstərdiyi kimi, milli düşüncə sistemi bütün yaruslar üzrə bu abidələrdə əks olunmuşdur.

Birinci fəsildə müşahidə olunan bir məsələni qeyd etməmək olmur. Müəllif çox ciddi məsələlərdə öz fikrini irəli sürməkdən çəkinmir. Məsələn, «Alimin (prof. Nizami Cəfərovun) milli xarakterin potensiyası hesab etdiyi milli təfəkkür yalnız yaradıcılıq imkanlarının deyil, millətin milli kimliyinin təzahürü kimi özünü göstərir» (bax: s.14).

Eləcə də «XVI əsrin əvvəllərində I Şah İsmayılın hərbi-siyasi fəaliyyəti nəticəsində mərkəzləşmiş Səfəvi dövlətinin

yaranması Azərbaycan milli düşüncə sisteminin yaranmasının əsasını qoydu» (s.26). Belə misallar dissertasiyada onlarcadır.

Göründüyü kimi, tədqiqatçı öz biliyinə arxayın olduğundan sözünü deməkdən çəkinmir. Özünə arxayın adama (alimə – Q.P.) isə İ.Hötenin dediyi kimi hamı inanır.

Dissertasiyanın «Epik folklor janrlarında milli düşüncə sistemi» adlanan II fəslində epik folklor janrlarında milli düşüncə sisteminin bədii estetik spesifikası, dastanlarımızda, xüsusən də qəhrəmanlıq və məhəbbət dastanlarında milli düşüncə sisteminin arxetipləri: süjet, obraz və ideya səviyyələri, nağıllarımızda milli düşüncə modellərinin janr spesifikası və epik paremilərdə (deyim folkloru) milli-etnik yaddaş arxetipləri əsaslı şəkildə araşdırılmışdır.

Çəkinmədən deyə bilərik ki, milli düşüncə modellərinin ayrı-ayrı folklor janrlarında təzahür spesifikası ilk dəfə olaraq bu dissertasiya işində öz əksini tapmışdır. Bu fəsildə başqa yeniliklərlə bərabər, ilk dəfə olaraq «epos və milli düşüncə» problemi qoyulmuş, epik sistem əsasında milli düşüncənin poetik (folklor) arxetipləri araşdırılmışdır.

Dissertasiyanın III fəsli «Lirik folklor janrları və milli düşüncə sistemi» adlanır. Bu maraqlı fəsildə Azərbaycan xalq poeziyası və milli-etnik düşüncə, bayatı janrı və milli düşüncə arxetipləri, eləcə də ilhamla işlənmiş aşıq poeziyasında milli etnik düşüncə sisteminin intellektual-fəlsəfi, emosional-estetik və natural-coğrafi təzahür səviyyələri kimi problemlər, laylalar, əmək nəğmələri, sayacı nəğmələri, sağın nəğmələri, ipəkçi nəğmələri, hana nəğmələri, alqış və qarğışlar, əfsunlar, mərasim nəğmələri və s. gətirilən örnəklər əsasında tədqiqat süzgəcindən keçirilmiş, qənaətbəxş nəticələrə gəlinmişdir. Təkcə onu demək kifayətdir ki, ilk dəfə olaraq bu dissertasiya işində «milli düşüncə sistemi və xalq poeziyası» problemi araşdırılmış və milliliyin lirik-poetik işarələri üzə çıxarılmışdır.

O ki qaldı əsərin «Nəticə» hissəsinə, xüsusi qeyd etməyə dəyər ki, hər fəsildən sonra tədqiqatçının qənaətləri, gəldiyi nəticələr işıqlandırılsa da, əsərin altı səhifədən ibarət «Nəticə» hissəsində yenidən nəzərdən keçirilir, müəllifin müddəaları xüsusi vurğulanır.

Məhəbbət və ilhamla yazılmış bu dissertasiya işini birnəfəsə oxumamaq olmur. Fikir aydınlığı, dilin axıcılığı, müddəaların məntiqə söykənən bitkinliyi deyilənlərə dayaq olur. Cümlə və ifadələrə fikir verin: Müdriklik bu sadəliyin içərisində gizlənmişdir (s.71); Milli düşüncə sisteminin ana axarı (s.15); Real siyasi səbəblər naminə səfərbər etmək (s.16); Aşıq Ələsgər rezonansı həmin potensialın vulkan püskürməsi idi (s.34) və s.

Bütün bunlarla bərabər, müdafiəyə təqdim edilən dissertasiya işi nöqsanlardan da xali deyildir. Cüzi orfoqrafik, ifadə və stilistik səhvləri, Azərbaycan dilində eyni mənanı ifadə edən əcnəbi sözləri, məsələn, kleşələşmiş (daşlaşmış, sabitləşmiş), ekzistensiya (mövcudluq), antropoloq – diyarşünas, ölkəşünas kimi sözləri çıxmaqla aşağıdakıları qeyd etmək olar:

1. Dissertant milli düşüncə sisteminin folklor təfəkküründə əsaslanmasına dair dırnaqda maraqlı fikirlər verir. Lakin məxəzləri göstərmir. Çıxış yolu kimi adları mötərizədə verir. Məs.: Charlotte Sophia, Burne, Ralf Steel Boqs (s. 18) Andre Varaslak (s. 19) və başqaları. Bu hələ az imiş kimi tədqiqatçı Andre Varaslakdan sitat gətirir: «Folklor nəzəriyyəsiz kollektiv praktikanı, doktrinasız kollektiv inam sistemini təşkil edir» (s.39) və məxəz kimi Don Ben Amosu, özü də türkcə göstərir. Təəssüf ki, hələ də səddi aşıb Qərbi Avropa folklorşünaslığına orijinalda nəzər sala bilmirik. Axı Avropa dillərinin birindən minimum-imtahan (buna namizədlik minimumu da deyirik) ona görə məcburidir ki, həmin dillərdən birini öyrənib elmi ədəbiyyatla orijinalda təmasda ola bilək.

2. Dissertant aşıq sənətindən danışarkən Sovet dönəmində Aşıqlar Birliyinin yaradılmasının (nədənsə tədqiqatçı Aşıqlar birlikləri yazır), Aşıqlar qurultaylarının keçirilməsinin siyasi məqsədlərlə edildiyini, «Dədə Qorqud»a pis münasibət bəslənildiyini ön plana çəkir. Bizə qalırsa, Sovetlər dövründə folklora göstərilən ögey münasibət tədqiqatçı tərəfindən xeyli dərəcədə şişirdilib. Məlumdur ki, Sovet dönəmində «Kitabi-Dədə Qorqud» üç dəfə çap olunub, folklorumuzun bütün janrları üzrə, xüsusən də aşıq yaradıcılığı üzrə zəngin material toplanıb, çap olunub, eləcə də tədqiqata cəlb edilib. Folklor üzrə dərsliklər yazılıb. Ali məktəblərdə tədris olunub. Demək olar ki, bütün aşıqlarımız, hətta Sovet İttifaqının mərkəzi şəhəri Moskvada Azərbaycan Mədəniyyəti ongünlüklərində və festivallarda iştirak ediblər. Yaradıcılığı olan bütün aşıqların poeziya kitabları çap olunub.

Bununla belə, görülən işləri folklorumuzun tədqiqinin indiki səviyyəsi ilə müqayisə etmək təbii ki, düz olmazdı. Texnikanın inkişafı, kadrların artması, dissertantın göstərdiyi kimi, Folklor İnstitutunun yaradılması, qısa müddət ərzində institutun gördüyü böyük işlər, tədqiqatların milli zəmin üzərində aparılması və nəticələr göz qabağındadır.

3. Aşıq yaradıcılığını gah şifahi xalq ədəbiyyatından təcrid olunmuş halda təqdim edirsiniz (s.30, 31), gah da bəyan edirsiniz ki, Azərbaycan folklorunda lirik janrın əsas ağırlıq mərkəzini, şübhəsiz, aşıq poeziyası təşkil edir (s.94). Nə cavab verəcəyinizi bilmirəm. Bir onu bilirəm ki, hər iki halda qeyri-dəqiqliyə yol veribsiniz. İkinci müddəanızla bağlı prof. Hüseyn İsmayılovun fikri məsələyə aydınlıq gətirir: «Aşıq yaradıcı şəxsiyyətdir, şairdir və öz intellektual mülkiyyətinin sahibidir. Bu mənada aşıq ədəbiyyatı tam mənada folklor hadisəsi deyildir». Əslində, elə 1-ci müddəanın cavabını da – «aşıq ədəbiyyatı tam mənada folklor hadisəsi deyildir» – hər şeyi yerinə qoyur. Aşığın yazdığı şeirlərdən

başqa yerdə qalan nə varsa folklor hadisəsidir. Belə olmasa idi Qurbaniyə, Miskin Abdala qədər ən qədim ozan sənətimizdən məhrum olardıq.

Bunu dərindən duyan prof. Hüseyn İsmayılov yazır: «Aşıq sənətini yazılı ədəbiyyata yaxınlaşdıran cəhət yeganə olaraq bədii mətn arsenalıdır ki, o da semantik struktur baxımından mifoloji-folklor düşüncə modelləri əsasında, poetik struktur baxımından isə saz musiqi havaları əsasında yaranmışdır və bu cəhətləri etibarilə folklorla sıx şəkildə əlaqələnir».

Dissertant akademik Mirzə İbrahimovun Aşıq Ələsgərə həsr olunmuş sanballı silsilə məqalələri və filologiya elmləri doktoru Elçin Əfəndiyevin «Klassik aşıq yaradıcılığında «Dünya obrazı» əsərləri ilə tanış olsaydı çox şeyi əxz edərdi və bu dissertasiyanın sanbalını artırardı.

4. Dissertant məxəzlərə münasibətdə diqqətsizliyə yol verir. Laylalardan danışarkən göstərir ki, Mahmud Kaşğarlı laylanı «balu-balu» adlandırmışdır. Mənbə kimi «Divani-Lüğət it-Türk» əsərinin Ankarada olunan çapını göstərir (s.81). Halbuki keçən il Ramiz Əsgər əsərin Azərbaycanca Bakıda 4 cildliyini tam buraxıb. Burada dissertant elmi səhvə yol verməyib. Söhbət vətənpərvərlik hissindən gedir.

5. Dissertantın atalar sözlərini tapmacalar, alqış və qarğışlar kimi kiçik janrlar, (bizə qalırsa arxaik janrlar), sırasında verməsi (s.74), sonra isə andları, alqış və qarğışları lirik janrlara aid etməsi (s.81) məqbul sayıla bilməz.

Biz atalar sözləri barədə fikrimizi bildirməklə kifayətlənəcəyik. Atalar sözləri nə məna, nə məzmun, nə yayılma dərəcəsinə, nə də kəmiyyətəinə görə kiçik janrlarla müqayisə edilə bilməz. Qalaq-qalaq kitablara sığmayan atalar sözləri və məsəllər xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, tarixi həqiqətlərə

belə təsadüf edilir. Buna görədir ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Tarixçi onları qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi incilər mənbəyi baxımından qiymətləndirir. Filosof onların vasitəsilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır.

Beləliklə, atalar sözləri və məsəllər heç bir cəhətdən kiçik janrlar çərçivəsinə sığmır. Onlar folklorumuzun çox zəngin və geniş yayılan, hər mənada işlək bir janrıdır. Atalar sözləri və məsəllərin bir qismi epik, bir qismi isə lirik növdə olduğuna görə, bizə qalırsa onları epik-lirik janr hesab etmək doğru olardı.

Əsərdə yer alan iki atalar sözü barədə də fikir demək zəruridir. Onlardan biri «Sarvanla qonaq olanın darvazası gen olar»dır (s. 76). Bizcə, bu «Dəvəçiynən dost olanın darvazası gen gərək» atalar sözünün zəif və anlaşılmaz variantıdır. Söhbət açmaq istədiyimiz, 2-ci atalar sözü «Mal qürbətdə vətəndir, kasıblıq vətəndə qürbətdir» (s. 91) kimi verilən, anlaşılmaz təsir bağışlayan ərəb atalar sözüdür. Əslində, bu «Varlıya qürbət də vətəndir, yoxsula vətən də qürbətdir» atalar sözü olub İmam Əlinin məşhur kəlamından yaranmışdır.

Göstərilən nöqsanlar faktlarla zəngin, dərin elmi səviyyədə yazılan maraqlı tədqiqat işinin dəyərinə xələl gətirə biləcək səhvlər olmayıb asanlıqla düzələ biləsi qüsurlardır.

Dissertant mövzu ilə bağlı elmi-nəzəri ədəbiyyatdan məharətlə istifadə edərək nəzəri mülahizələrini vahid sistem daxilində cəmləşdirə bilmişdir.

Avtoreferat və çap olunmuş elmi məqalələr dissertasiyanın əsas müddəalarını əks etdirir.

Bizə qalırsa, «Azərbaycan folkloru və milli düşüncə sistemi» mövzusunda yazılmış elmi-tədqiqat işi Ali Attestasiya Komissiyası tərəfindən namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə cavab verdiyindən onun müəllifi Samir Elman oğlu Mustafayev folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
15.04.2008

MAQSUD RAFİQ OĞLU İMRANİNİN FİLOLOGİYA ELMLƏRİ NAMİZƏDİ ALİMLİK DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «SMOMPK MƏCMUƏSİNDƏ PAREMİOLOJİ VAHİDLƏR» ADLI DİSSERTASİYA İŞİNƏ

RƏY

Dissertasiya işi tarixi əhəmiyyət kəsb edən, Azərbaycan dilinə «Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu» kimi tərcümə olunan «SMOMPK» məcmuəsində folklorşünaslıq məsələlərinə həsr olunub. Mövzunun aktuallığına gəlincə deməliyik ki, müstəqil tədqiqat mövzusu kimi, xalq deyim folkloru – paremioloji vahidlər ilk dəfə olaraq Maqsud İmraninin dissertasiyasında araşdırılmışdır. Tədqiqat işində «SMOMPK» məcmuəsinin 1881-ci ildən 1929-cu ilə qədər işıq üzü görən 46 sayının hamısı tədqiqat süzgəcindən keçirilmiş, paremioloji vahidlərin bədii-poetik xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Tədqiqat işinin girişində mövzunun aktuallığı, məqsəd və vəzifələri, elmi yenilikləri və s. əsaslandırılır. O da xüsusi vurğulanır ki, «SMOMPK» məcmuəsi ilə bağlı Azərbaycan folklorşünaslığında indiyə qədər müstəqil tədqiqat işi aparılmamışdır.

Dissertasiyanın I fəsli «SMOMPK məcmuəsinin tədqiqi problemləri» adlanır. Bu fəsildə bir-birindən maraqlı «Məcmuənin təsviri», «Məcmuənin tədqiqi məsələləri» və «Məcmuənin paremioloji fondu» kimi yarımfəsillər yer alır. Burada məcmuənin yaranma tarixindən, səmərəli fəaliyyətindən danışılır. Məcmuədə folklorla yanaşı, tarixə, coğrafiyaya, etnoqrafiyaya, əhalinin peşə və təsərrüfat fəaliyyətinə, dini

etiqadına, təbiət təsvirlərinə, fauna və floraya, təhsil və tərbiyə məsələlərinə də geniş yer verildiyi qeyd edilir. O da xüsusi vurğulanır ki, məcmuədə Qafqaz ərazisində yaşayan xalqların demək olar ki, hamısının folklor nümunələri təqdim edilir və onların regional və məhəlli mənsubiyyəti göstərilir. I fəslin «Məcmuənin paremioloji fondu» adlanan üçüncü yarımfəslində atalar sözləri və məsəllərə, tapmacalara, deyim formasında olan inamlara, yanıltmaclara, alqışlara və s. qədərincə yer verilmiş, məcmuənin folklor nümunələri verilən bütün sayları ardıcıllıqla nəzərdən keçirilmişdir.

Tədqiqatçı dissertasiyanın II fəslini «Məcmuədəki paremioloji vahidlərin janr xüsusiyyətləri və mətn tipləri» adlandırmışdır. Bu fəsil dörd yarımfəslə bölünmüş və fəsli tamamilə əhatə etmişdir. «Paremioloji vahidlərin janr səciyyəsi» adlanan birinci yarımfəsildə «SMOMPK» məcmuəsində yer alan müxtəlif xalq deyimlərimiz – paremiyalar Mahmud Kaşqarinin «Divani-Lüğət-it-türk» abidəsindəki örnəklərlə müqayisəli tədqiq olunur.

Tədqiqatın «Paremioloji vahidlərin forma və məzmun xüsusiyyətləri» adlanan ikinci yarımfəslində S.Zelinin İrəvan quberniyasında toplayaraq məcmuədə çap etdirdiyi 150 atalar sözü və məsəl, 33 tapmaca və s. tədqiqata cəlb olunur. Burada eləcə də məcmuədə çap olunan «Şirvan tatarlarının atalar sözü və məsəlləri» araşdırılır. Dissertant haqlı olaraq onları folklorşünaslıq tariximizdə Azərbaycan xalq deyimlərinin ilk tematik təsnifat təcrübəsi kimi araşdırır. Çünki Şamaxı və Göyçay qəzalarından XIX əsrin sonlarında Göyçay məktəbinin nəzarətçisi N.D.Kalaşev, məktəbin müəllimləri Mirzə Hüseyn Babazadə və Mahmud bəy Mahmudbəyovun köməyi ilə nəinki yazıya almış, eləcə də xalq deyimlərinin ilk təsnifatını vermişdi. «Qohumluq», «Mənəvi və əxlaqi keyfiyyətlər», «Evlənmə, gəlin», «Xoşbəxtlik, bədbəxtlik», «Cavanlıq və qocalıq», «Eşq, aşiq », «Dost,

dostluq, düşmən və düşmənçilik» və s. kimi başlıqlar altında cəmləşdirmişdir.

II fəslin üçüncü bölməsi «Paremioloji vahidlərin mətn tipləri» adlanır. Dissertantın qənaətinə görə məcmuədəki paremioloji vahidlər forma və məzmun baxımından, eləcə də tip səciyyəsi baxımından seçilir. Tədqiqatçı bu yarımfəsildə dolamalar, monoloq və dialoq şəkilli təmsilciklər, lağlağılar, arxaik janrlardan olan alqış və qarğışlar, söyüşlər, hərbə-zorbalar, imkan və reallıq həddən artıq şişirdilən laflar, mühakimələr, atmacalar, əhdlər, arzular və s. söz açır. Dissertant bu yarımfəsildə mətnlərin poetik xüsusiyyətlərindən də bəhs edir. Qafiyə, alliterasiya, təkrarlar, heca və s. baxımından Azərbaycan xalq deyimlərinin lirik-poetik struktur texnikasının mükəmməlliyini önə çəkir.

Dissertasiyanı oxuyaraq gəldiyimiz qənaət budur ki, dissertant ortaya orijinal, folklorşünaslığımız üçün əhəmiyyətli bir əsər qoymuşdur.

Tədqiqatçı ilk dəfə olaraq «SMOMPK» məcmuəsini folklorşünaslıq baxımından təsvir etmiş, məcmuənin mövcud 46 sayının paremioloji fondunu aşkarlamışdır.

Maraqlıdır ki, paremioloji vahidlərin janr əhatəsi və mətn tipləri də ilk dəfə olaraq dissertant tərəfindən müəyyənləşdirilmişdir. Eləcə də «SMOMPK»da qeydə alınmış paremioloji vahidlər şifahi danışıqda və digər qaynaqlarda qorunmuş oxşar vahidlərlə ilk dəfə müqayisəli şəkildə tədqiqat süzgəcindən keçirilmişdir.

Bununla belə, düzəldilməsi asan olan, əsərin elmi dəyərinə xələl gətirməyən bəzi məqamları göstərmək istərdik. Qəribədir ki, dissertasiyada hər şey qaydasında olduğu halda xətalar əsasən avtoreferata aiddir:

1. Avtoreferatda xeyli orfoqrafik səhvlərə yol verilib. Məsələn, s. 4, 5, 6, 21, 22 və s.

2. Dissertasiyada cəmi 46 cildi çapdan çıxan «SMOMPK» məcmuəsinin doğru olaraq 44 cildinin Tiflisdə (1881–1915),

iki cildinin isə Mahaçqalada (1926–1929) çap olunduğu göstərildiyi halda (s. 10), avtoreferatda gah bütün cildlərin Tiflisdə çap olunduğu (s. 4), gah da dissertasiyada olduğu kimi, son iki cildin Mahaçqalada işıq üzü gördüyü qeyd edilib (s.6, 28).

3. Avtoreferatda (s. 7–14) «SMOMPK» məcmuəsinin Qafqaz xalqlarının folklorundan bəhs edən sayları bir-bir verilir və həmin xalqların folklor materialları üzərində müfəssəl dayanılır. Bizə qalırsa, avtoreferatda buna ehtiyac yox idi. Dissertasiyada getməsi kifayətdir. Onsuz da avtoreferatın həcmi böyükdür.

4. «SMOMPK» məcmuəsində nəşr edilən çoxsaylı atalar sözü və məsəllərin, eləcə də tapmacaların təsnifatından, işlənmə məqamından, müasir durumundan, nəzəri məsələlərdən söz açılsaydı, dissertasiyanın sanbalı artar, dissertantın elmi səviyyəsi daha qabarıq görünərdi. Sanki əsərdə bir tələsiklik hiss olunur.

Göstərilənlər bu gərəkli əsərin elmi dəyərinə xələl gətirə biləcək nöqsanlar olmayıb, asanlıqla düzələ biləcək xətalar, eləcə də arzu və təkliflərdir.

Tədqiqatçının Azərbaycanda və Rusiyada çap olunan 8 sanballı məqaləsi, eləcə də avtoreferatı dissertasiyanın məzmununu, geniş və maraqlı «Nəticə» hissəsi isə əsərin məğzini əhatə edir.

Bizə qalırsa, «SMOMPK» məcmuəsində paremioloji vahidlər» mövzusunda tədqiqat işi AAK-ın namizədlik dissertasiyaları qarşısında qoyduğu tələblərə tam cavab verir və onun müəllifi Maqsud Rafiq oğlu İmrani folklorşünaslıq üzrə (10.01.09) filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
24.11.2008

ÜLKƏR İMAN QIZI ƏLİYEVANIN FİLOLOGİYA ELMLƏRİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «AZƏRBAYCAN YURD BİLGİSİ» DƏRGİSİNDƏ FOLKLORŞÜNASLIQ MƏSƏLƏLƏRİ» ADLI DİSSERTASİYA İŞİNƏ

RƏY

Sovetlər İttifaqı süquta yetən kimi Azərbaycanla bağlı mühacirətdə yaranmış mətbu orqanları tədqiqata cəlb etmək imkanı yarandı. Və məlum oldu ki, onların arasında prof. Əhməd Cəfəroğlunun təsis etdiyi və baş redaktoru olduğu «Azərbaycan yurd bilgisi» dərgisi sırf elmiliyi ilə fərqlənir. Odur ki, prof. Fuad Köprülü, prof. Əhməd Cəfəroğlu və başqalarının dərgidə çap olunan elmi əsərləri ölkəmizdə böyük marağa səbəb oldu. Nikpur Cabbarlı, Elşən Əbülhəsənli, Almaz Həsənqızı, Şəlalə Həsənova, Gülağa Hüseynov, Vilayət Quliyev, Vaqif Sultanlı, Abid Tahirli və başqaları dərgi ilə bağı monoqrafiyalar, hətta namizədlik dissertasiyaları yazdılar. Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi tədqiqat süzgəcindən keçirildi. Lakin Azərbaycan mühacir folklorşünaslığının təşəkkülündə müstəsna rol oynadığına baxmayaraq, günümüzə qədər dərgidə yer alan folklorşünaslıq məsələləri sistemli tədqiqat obyektinə çevrilməmişdi. Ülkər İman qızı Əliyeva bu tarixi missiyanı yerinə yetirdi. Tədqiqatçı dərginin Azərbaycan folklorunun türk dünyasında yayılmasında, elmi səviyyədə təqdim etməsində xidmətlərini qədərincə qiymətləndirə bildi. Ülkər Əliyevanın «Azərbaycan yurd bilgisi» dərgisində «Folklorşünaslıq məsələləri» dissertasiyası «Giriş», iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

Əsərin giriş hissəsində mövzunun aktuallığı, dissertasiyanın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri,

nəzəri-metodoloji əsasları, mövzunun öyrənilmə dərəcəsi, dissertasiyanın elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti və s. ön plana çəkilir. Tədqiqatçı xüsusi vurğulayır ki, «Azərbaycan yurd bilgisi» dərgisində sərhədlərimizdən kənarda ədəbi-bədii və folklor üzrə aparılan işlər ciddi və sistemli elmi araşdırmaların ortaya çıxmasına gətirib çıxarmışdır. Dərgidə təkcə Azərbaycan folkloru deyil, digər türk xalqlarının da folkloru mütəmadi olaraq yer aldığından tədqiqatın obyekti daha geniş materialı əhatə edir. Dissertasiyanın predmetini isə dərgidə folklor materiallarının nəşri və tədqiqi tarixinin araşdırılması təşkil edir.

Dissertantın göstərdiyi kimi, tədqiqatın qarşısında qoyulan başlıca vəzifə «Azərbaycan yurd bilgisi» dərgisində çap edilən folklor materiallarının tədqiqinin elmi-tarixi dəyərini müəyyənləşdirməkdir. Bu başdan deyək ki, araşdırıcı bu vəzifənin öhdəsindən layiqincə gəlmişdir.

Möhkəm strukturu olan dissertasiyanın 1-ci fəsli «Azərbaycan mühacirət folklorşünaslığının təşəkkülündə «Azərbaycan yurd bilgisi» dərgisinin tarixi rolu» adlanır. İki yarımfəsildən ibarət bu fəsildə prof. Ə.Cəfəroğlunun fəaliyyəti və «Azərbaycan yurd bilgisi», eləcə də «Azərbaycan yurd bilgisi» dərgisində folklor məsələləri və tarixi-siyasi şərait tədqiq edilir. Burada Əhməd Cəfəroğlunun həyat və fəaliyyətinə nəzər salınır və onun 1932-ci ildə İstanbulda təsis etdiyi və redaktoru olduğu «Azərbaycan yurd bilgisi» dərgisinin səhifələrində çap olunan elmi əsərlər tədqiqata cəlb edilir. Dissertant haqlı olaraq qeyd edir ki, başqa mətbu orqanlardan fərqli olaraq «Azərbaycan yurd bilgisi» ətrafına Fuad Köprülü, Məmməd Əmin Rəsulzadə, Məhəmməd Ağaoğlu, Məhəmməd Əli Rəsulzadə, Mirzə Hacızadə və başqaları kimi görkəmli alimləri toplayaraq sırf elmi araşdırmalarla məşğul olmuşdur. Dərginin ən ümdə vəzifələrindən biri Azərbaycan xalqının tarixi, ədəbiyyatı, folkloru,

ümumiyyətlə, mədəniyyətini dünyaya tanıtmaq olmuşdur. Maraqlıdır ki, «Azərbaycan yurd bilgisi»ndə ədəbiyyatımız üç aspektdən öyrənilirdi: şifahi xalq ədəbiyyatı, klassik ədəbiyyat, çağdaş ədəbiyyat. Ə.Cəfəroğlunun dərgidə 40-a qədər məqaləsi dərc edilmişdir.

Prof. Ə.Cəfəroğlu «Azərbaycan yurd bilgisi»ni nəşr etməklə Vətənimizin hüdudları xaricində azərbaycanşünaslıq elminin əsasını qoyanlardan biri kimi şöhrətlənmişdi. Dərgidə folklorumuzun, demək olar ki, bütün janrları hərtərəfli işıqlandırılır və elmi cəhətdən dəyərləndirilirdi. Ülkər Əliyeva dərgidən çıxış edərək tədqiqata dastanlar, atalar sözləri və zərb-məsəllər, sayaçı sözləri, eləcə də aşıq yaradıcılığını cəlb etmişdir. Sayaçı sözlərlə bağlı dissertant təkcə Ə.Cəfəroğlunun maraqlı fikirləri ilə kifayətlənmir, bu janr ətrafında aparılmış bütün tədqiqatlara nəzər salır, yeri gəldikcə öz fikirlərini deməkdən də çəkinmir.

«Azərbaycan yurd bilgisi»ndə geniş yer verilən atalar sözləri və zərb-məsəlləri dissertantın tədqiqata cəlb etməsi təsadüfi deyildir. Atalar sözləri xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inanc və etiqadını, adət-ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Məhz bu baxımdan, tədqiqatçının dissertasiyada atalar sözləri və məsəllərə geniş yer ayırması məntiqi cəhətdən doğrudur.

Dissertasiyanın II fəsli «Azərbaycan yurd bilgisi» dərgisində Ozan-aşıq sənətinə və dastan yaradıcılığına dair araşdırmalar» adlanır. Əslində, ayrıca bir dissertasiya mövzusuna bərabər bu fəsildə Aşıq yaradıcılığının ümumnəzəri problemləri, qəhrəmanlıq dastanları haqqında araşdırmalar, Azərbaycan məhəbbət dastanları və türk xalqlarının dastanlar haqqında araşdırmaları daxildir. Bütün bunlar Ozan-aşıq sənətinə və dastan yaradıcılığına dair «Azərbaycan yurd bilgisi» dərgisinin və onun redaktoru, prof. Ə.Cə-

fəroğlunun əvəzsiz xidmətləri barədə tam təsəvvür yaradır. Aşıq yaradıcılığından bəhs edən tədqiqatçı doğru qənaətə gəlir: «Aşıq yaradıcılığı nə tam yazılı ədəbiyyat, nə də tam ağız ədəbiyyatıdır» (s.33).

Dissertant araşdırmalar nəticəsində «Azərbaycan yurd bilgisi» dərgisində aşıq sənəti və aşıq yaradıcılığı ilə bağlı tədqiqatların 4 istiqamətdə aparıldığını aşkar etmişdir: Aşıq şeiri və dastan örnəklərinin şifahi repertuar və yazılı qaynaqlardan toplanıb nəşr edilməsi, klassik Azərbaycan aşıqlarının həyat və yaradıcılığını təqdim və təhlil edən elmi məqalələr, Azərbaycan şifahi xalq dastanları («Koroğlu», «Aşıq Qərib», «Qurbani», «Qaçaq Nəbi», «Dəli Alı») ilə bağlı araşdırmalar, aşıq yaradıcılığında rus işğalına qarşı mübarizə motivlərinin inikası.

Müəllif bu fəsli elmi və elmi-publisistik dildə yazdığından (bunu mövzu tələb edir) maraqla oxunur. Qəhrəmanlıq dastanlarından söz açan tədqiqatçı «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Cavad Xan», «Qaçaq Nəbi», «Dəli Alı» və «Şeyx Şamil» dastanlarını tədqiqata cəlb edir. «Azərbaycan yurd bilgisi»ndə geniş bəhs edilən bu dastanların Azərbaycanda az bilinən maraqlı məqamlarından söz açır.

Türk xalqları dastanlarından «Çingiznamə» və «Manas» gündəmə gətirilir. Dissertant «Azərbaycan yurd bilgisi»ndən çıxış edərək Azərbayan məhəbbət dastanlarına geniş yer vermişdir. «Qurbani», «Abbas və Gülgəz», «Aşıq Qərib, belələrindəndir. Tədqiqatçı «Aşıq Qərib» dastanının «Kitabi-Dədə Qorqud»un «Bamsı Beyrək boyu» ilə üst-üstə düşdüyünü bəyan edən prof. M.Təhmasibə haqq qazandırır və öz maraqlı mülahizələrini də irəli sürməkdən çəkinmir: «Aşıq Qərib» dastanı «Bamsı Beyrək boyu»ndan bilavasitə istifadə yolu ilə yaranmış yenitipli məhəbbət dastanıdır» (s. 91).

Dissertasiyanın «Nəticə» hissəsində tədqiqatçının mülahizələri və gəldiyi qənaətlər öz əksini tapır. Əsər yüksək elmi

səviyyədə yazılmışdır. Bununla belə bu maraqlı əsər bəzi nöqsanlardan da xali deyildir:

1. Əsərdə xeyli sayda orfoqrafik və üslubi xətalara rast gəlinir: Məs: s.5, 6, 7, 11, 13, 14, 17, 25, 27, 32, 35, 36, 37, 39, 42, 44, 46, 49, 56, 57, 62, 69, 78, 89, 92, 94 və s.

2. Dissertasiyanın 44-cü səhifəsində tədqiqatçı yazır: «Azərbaycan yurd bilgisi dərgisi»ndə «Dədə Qorqud kitabı»nın araşdırılması yolunda H.Nihal Çiftçioğlunun «Dədə Qorqud kitabı haqqında» (93) və Zahir Sıtqının «Dədə Qorqud kitabına dair» (120) adlı məqalələri də diqqətəlayiqdir. (Bu fikir avtoreferatda da yer alır. (s.13) Sonra isə tədqiqatçı məqalələri təhlil edir və 46-cı səhifədə gözlənilmədən bəyan edir: «Təəssüflə qeyd etməliyik ki, «Azərbaycan yurd bilgisi»nin naşiri, professor Ə.Cəfəroğlu «Kitabi-Dədə Qorqud»la bağlı bir sıra elmi fundamental tədqiqat işlərinin (təbii ki, fundametal elmi-tədqiqat işləri olmalıdır – Q.P.) müəllifi olduğu halda, dərgidə bu məqalələrin birini də nəşr etdirməmişdir».

Tədqiqatçı bundan sonra birbaşa yazır: «Ə.Cəfəroğlunun qeyd olunan məqaləsi «Dədə Qorqud»un ehtiva etdiyi elmi informasiyanın dərinliklərinə enmək sahəsində ilk ciddi addımlardan sayıla bilər» (s.46).

Ardıcıllığın pozulması bir yana, söhbət tədqiqatçının özünün də qeyd etdiyi kimi, «Dədə Qorqud»la bağlı bir sıra fundamental elmi-tədqiqat işlərinin müəllifi Ə.Cəfəroğlunun hansı məqaləsindən gedir?

3. Dissertasiyanın 77–82-ci səhifələrində Aşıq Qurbandan bəhs edilir. Təəssüf ki, Qurbani irsinin ən yaxşı tədqiqatçısı, prof. Qəzənfər Kazımovun adı belə çəkilmir. Halbuki alimin «Qurbani və poetikası» aşığın həyat və yaradıcılığına həsr edilən ilk və hələlik yeganə sanballı monoqrafiyadır. Alim ilk dəfə olaraq aşığın harada doğulduğu, harada yaşadığı, ömür payı, təxəllüsü, valideynləri, məzarı və s. kimi məsələlərə «Diri kəndi və Qurbani», «Qurbani və Xətai», «Aşıq

Qurbani və məzarı», «Qurbani təxəllüsü» və s. məqalələrində aydınlıq gətirmişdir. Dissertantın bunlardan xəbəri olsaydı tədqiqata geniş meydan açılardı.

4. Dissertant təəssüflə qeyd edir ki, «Azərbaycan yurd bilgisi»nin gördüyü əvəzsiz işlər Azərbaycan folklorşünaslarının nəzər-diqqətindən yayınmışdır (s.101).

Bizə qalırsa, dissertantla razılaşmaq olmaz. Təkcə onu demək kifayətdir ki, Gülağa Hüseynov Əhməd Cəfəroğlunun «Folklorşünaslıq irsi» adlı namizədlik dissertasiyası (Bakı, 2007), A.Həsənqızı «Azərbaycan mühacirət folklorşünaslığında dastançılıq məsələləri» (2002, 123 s.) monoqrafiyası vardır.

Biz hələ onu demirik ki, Ə.Cəfəroğlunun ədəbiyyatşünaslıq irsinə həsr olunmuş əsərlərdə də folklorşünaslıq məsələlərinə toxunulub.

Bununla belə, deməliyəm ki, Ülkər Əliyevanın dissertasiyasına qədər dərgidə gedən folklorşünaslıq məsələləri sistemli və lazımı səviyyədə öyrənilməmişdi.

Göstərilən iradlar dissertasiyanın elmi dəyərinə xələl gətirəcək ciddi nöqsanlar olmayıb asanlıqla islah olunacaq məsələlərdir. Tədqiqatçının nəzəri hazırlığı və elmi səviyyəsi bunu deməyə əsas verir.

«Azərbaycan yurd bilgisi» dərgisində folklorşünaslıq məsələləri» dissertasiyası yüksək elmi səviyyədə yazılmışdır. Dissertantın ölkəmizdə və xaricdə dissertasiyanı tam əhatə edən 8 məqaləsi çıxmışdır. Avtoreferat dissertasiyanın məzmununu əhatə edir.

Bütün bunları nəzərə alaraq əminliklə demək olar ki, Ülkər İman qızı Əliyeva folklorşünaslıq üzrə (10.01.09) fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
18.01.2010

SƏBİNƏ MÜZƏFFƏR QIZI İSAYEVANIN FİLOLOGİYA ELMLƏRİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «AŞIQ ŞƏMŞİRİN YARADICILIĞI» ADLI DİSSERTASİYA İŞİNƏ RƏSMİ OPPONENT

RƏYİ

Aşıq poeziyası yaranışından xalq arasında asanlıqla yayılma gücünə malik olmuş, ümumxalq məhəbbəti qazanmış, zaman keçdikcə xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında körpüyə çevrilmişdir. Ona görə ki, akademik Mirzə İbrahimovun dediyi kimi, onun kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə yazılı ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır. O da maraqlıdır ki, o şairlərimiz ki, aşıq poeziyasından daha çox bəhrələniblər, onların poeziyası qəlblərə daha asanlıqla yol tapır. Başqa bir tərəfdən də M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, S.Vurğun, O.Sarıvəlli, H.Arif, Z.Yaqub, R.Kərimli kimi şairlərin poeziyası aşıq yaradıcılığının inkişafına təkan vermişdir. Eləcə də Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cümə, Bozalqanlı Hüseyn, Azaflı Mikayıl kimi görkəmli saz-söz ustadlarının poeziyası da yazılı ədəbiyyata təsir etmişdir.

Poeziyası yazılı ədəbiyyatla qaynayıb-qarışan, xalq tərəfindən sevilən sənətkarlardan biri də Aşıq Şəmşirdir. Aşıq Şəmşir yaradıcılığı elm aləminə XX əsrin ikinci yarısında, daha doğrusu, 1955-ci ildə sevimli şairimiz Səməd Vurğunla tanışlığa qədər demək olar ki, məlum deyildi. Səməd Vurğun Aşıq Şəmşirin poeziyasını və sənətkarlığını yüksək qiymətləndirmiş, aşığa şeirlər qoşmuşdur. Bundan sonra aşığın yaradıcılığına diqqət artmış, şairin şeirləri toplanaraq nəşr olunmağa, poetik irsinin tədqiqinə başlanmışdır. O.Sarı-

vəlli, M.Təhmasib, M.İbrahimov, M.Həkimov, S.Paşayev, P.Əfəndiyev və başqaları Şəmşir irsinin tədqiqi və təbliğində böyük rol oynayan dəyərli işlər görmüşlər.

Bu gün aşığın poetik irsinin monoqrafik və əsaslı tədqiqinə həsr olunan maraqlı bir elmi işin qiymətini verməyə toplaşmışıq. Əsər tələm-tələsik yazılan talesiz tədqiqatlardan deyil. Dissertant əsər üzərində neçə illərdən bəridir ki, işləyib. Onun hələ 2005-ci ildə iki məqaləsi çıxıb. Onlardan biri «Dədə Qorqud» jurnalında çıxan «Aşıq Şəmşir və Göyçə-Kəlbəcər aşıq mühiti» adlanır. Tədqiqatçının hələ 2005-ci ildə belə çətin bir mövzuya girişməsi onun ümumi hazırlığından və eləcə də ömrünü aşıq yaradıcılığına həsr edən elmi rəhbər f.e.d., professor Hüseyn İsmayılovun ciddi əməyindən xəbər verir.

Təkcə dissertasiyanın məzmununu bütövlükdə əhatə edən və mötəbər mənbələrdə nəşr edilən məqalələrin adına nəzər salmaq, tədqiqat işinin səviyyəsi və əhatə genişliyi barədə tam təsəvvür yaradır:

Aşıq Şəmşir və Göyçə-Kəlbəcər aşıq mühiti;

Aşıq Şəmşir poeziyası və poetik ənənə;

Aşıq Şəmşir poeziyasının lirik-poetik xüsusiyyətləri;

Aşıq Şəmşir yaradıcılığında əxlaqi-didaktik motivlər;

Aşıq Şəmşir və müasirləri;

Aşıq Şəmşirin dastan yaradıcılığı;

Aşıq Şəmşir ədəbi irsinin toplanması, nəşri və tədqiqi tarixindən;

XX y.y. Azerbaycan aşık şiirinde dini-irfani motifler (Aşık Şemşir'in yaratıcılığı bakımından) və s.

Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

«Giriş»də mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, problemin öyrənilmə dərəcəsi, tədqiqatın elmi yenilikləri və s. araşdırılır.

Dissertasiyanın I fəsli «Aşıq Şəmşirin həyatı, mühiti və poetik irsinin tədqiqi» adlanır. Bu fəsildə tədqiqat süzgəcindən keçirilən məsələlər «Aşıq Şəmşir və mühiti», «Aşıq Şəmşir və müasirləri», «Aşıq Şəmşir irsinin nəşri və tədqiqi» kimi yarımfəsillərdə öz əksini tapmışdır. Burada Aşıq Şəmşirin qonşu ölkələrdə də yaxşı tanınması, Türkiyədə kitabının çıxması (2000) xüsusi vurğulanır.

Dissertasiyanın «Aşıq Şəmşirin lirikası» adlanan II fəslində «Sənətkarın lirikası və poetik ənənə», «İctimai lirika», «Məhəbbət lirikası», «Təbiət lirikası», «Əxlaqi-didaktik şeirlər», «Sənətkarın lirikasında dini motivlər» və s. araşdırılır. Tədqiqatçı «Sənətkarın lirikasında dini motivlər» yarımfəsli üzərində dərin tədqiqat apararaq haqlı olaraq göstərir ki, sovet dövründə aşıqlara və el şairlərinə dini mövzuda əsərlər yazmaq qadağan idi. Lakin Aşıq Şəmşir dini mövzuda şeirlər yazırdı. Nə yaxşı ki, aşığın oğlu Qənbər Qurbanov aşığın dərin mənalı dini şeirlərini məhv olmaqdan qorumuş və 1996-cı ildə F.Quliyevlə birgə tərtib edərək çapına nail olduğu «Öyüdlər» adlı sanballı kitabda vermişdir.

Maraqlı tədqiqat əsərinin «Aşıq Şəmşir yaradıcılığında dastan, janr və sənətkarlıq məsələləri» adlanan III fəsli də yüksək elmi səviyyədə yazılması baxımından diqqəti çəkir.

Araşdırıcı Aşıq Şəmşirin 1960-cı ildə yaratdığı «Şəmşir və Sənubər» və «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıq Şəmşirin görüşü» dastan-rəvayətdən söz açır. Təəssüf ki, müəllif professor Mürsəl Həkimovun «Haqq aşığı Dədə Şəmşir» kitabında (2004) göstərdiyi «Cəlal və Minayə» və «Misir və Sənəm» dastanları barədə «həmin dastanlar haqqında əlimizdə dəqiq məlumat yoxdur» – deməklə kifayətlənib.

Bununla belə deməliyik ki, III fəsildə Aşıq Şəmşir yaradıcılığında aşıq şeir janrları kifayət qədər qənaətbəxş işlənmiş, aşığın poeziya dili sənətkarlıq baxımından gözəl tədqiq edilmişdir.

Əsərin 13 bənddən ibarət nəticə hissəsi tədqiqatçının əsər boyu gəldiyi qənaətlərin təsdiqi baxımından maraq doğurur.

Bununla belə bu maraqlı əsər cüzi olsa da nöqsanlardan xali deyildir:

1. Müəllif yazır: «Keçən dövr ərzində O.Sarıvəlli, M.Təhmasib, M.İbrahimov, Q.Namazov, S.Paşayev, M.Aslan, M.Rahim, H.Arif, P.Əfəndiyev, M.Həkimov, Ə.Eldarova, H.İsmayılov, A.Cəmil, M.Allahmanlı, İ.Tapdıq, Q.Xəlilov, H.Kürdoğlu və başqa tədqiqatçılar aşığın poetik irsinin bu və ya digər xüsusiyyətləri haqqında elmi və publisistik məqalələr yazmışlar.

Birinci, məlum olmur ki, müəllif adları hansı prinsip əsasında sıralamışdır. İkinci isə prof. Mürsəl Həkimovun sırf elmi əsərini – «Haqq aşığı Dədə Şəmşir» monoqrafiyasını (Bakı, 2004, 160 səh.), prof. Sədnik Paşayevin «Aşıq Şəmşirin poetik aləminə səyahət» (Bakı, 2008, 296 səh.) adlı maraqlı əsərini publisistik və ya elmi məqalə adı altında nə əsasla verib.

2. Tədqiqatçı Aşıq Şəmşiri bayatı-tapmacaları cinaslı tapmacalar kimi təqdim etdiyinə görə suçlayır. Əgər araşdırıcı «Kərkük folklorunun janrları» kitabımızdan «Bayatı-tapmacalar» bölməsini diqqətlə oxusaydı, görərdi ki, Aşıq Şəmşirin burada heç bir günahı yoxdur. Günah folklorşünaslarımızın üzərinə düşür.

3. Aşıq Şəmşir yaradıcılığının bir hissəsini şeirlə məktublaşmalar tutur. Şeirlə məktublaşmalar aşıqlar və el şairləri arasında həmişə dəbdə olub. Buradakı mövzu rəngarəngliyi adamı heyran edir. Bu məktubların hər birinin arxasında müəyyən zaman kəsiyində baş verən hadisələr, insanlara, zamana, tarixə, dövrə münasibət durur. Görün, kəlbəcərli Dastançı Əli (Əli Qurbanov) Azaflı Mikayılı oğlunun toyuna necə dəvət edir:

Ay Azaflı, xeyir olsun həmişə
Daha ömrün boyu şərdən uzaq ol.
Zəhməti qəbul et, istəyəninlə,
Oğlumun toyuna, buyur, qonaq ol.
Əlidən çağırıb yada salmaqdı,
Gəlməsən də sağ ol, gəlsən də sağ ol.

Aşıq Şəmşirin şeirlə məktublaşmaları bir kitaba sığmaz. Azaflı Mikayılı Kəlbəcərə dəvəti bir aləmdir:

Çəmənə, çiçəyə bəzənir hər yan,
Sən bizim dağlara yaz olanda gəl.
Lalə, nərgiz açılanda ərmağan,
Boran bu yerlərdə az olanda gəl,
Şəmşirin əlində saz olanda gəl.

Təəssüf ki, dissertant əsərində Aşıq Şəmşirin şairlər və aşıqlarla deyişmələrinə geniş yer versə də, qocaman aşığın yaradıcılığının ən maraqlı – şeirlə məktublaşmalar hissəsinə yer ayırmamışdır.

Deyilənlər çox maraqlı, mənalı, faktlarla zəngin əsərin elmi dəyərinə xələl gətirəcək ciddi xətalar deyil. Tədqiqatçının çapına nail olduğu çoxsaylı məqalələri və avtoreferatı əsərin məzmununu tam əhatə edir.

Bizə qalırsa, araşdırıcının «Aşıq Şəmşirin yaradıcılığı» əsəri Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyindən onun müəllifi Səbinə Müzəffər qızı İsayeva «Folklorşünaslıq» üzrə (10.01.09) fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
10.05.2010

TARİYEL SEYFƏDDİN OĞLU QƏNİNİN FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «XIX ƏSRİN SONU – XX ƏSRİN BİRİNCİ YARISI ŞİRVAN XALQ POEZİYASININ İNKİŞAF TƏMAYÜLLƏRİ» ADLI DİSSERTASİYA İŞİNƏ RƏSMİ OPPONENT

RƏYİ

E1 şairlərinin poeziyası aşıq sənətinə müsbət təsir göstərən, onun inkişafına kömək edən, xalq ruhunda yazılan, xalqın istək və arzularını ifadə edən, sevilən poeziyadır. Şübhəsiz buna görədir ki, aşıq sənəti ilə məşğul olan tədqiqatçılarımız illərdən bəridir ki, el şairlərinin yaradıcılığına xüsusi diqqət yetirirlər. Salman Mümtaz, professorlar Əzizə Cəfərzadə, Azad Nəbiyev, Qara Namazov, Seyfəddin Qəniyev, Məhərrəm Qasımlı, Bəhlul Abdulla, Ağalar Mirzə və başqalarının gördükləri faydalı işlər göz qabağındadır.

Tariyel Qəninin müdafiəyə təqdim edilən dissertasiya işi də bu baxımdan maraq doğurur. Elə buradaca deyim ki, hələ uşaqlıqdan atası ilə kənd-kənd, oba-oba gəzərək folklor, aşıq poeziyası, el şairlərinin poeziyasının toplanmasında yaxından iştirak edən Tariyeldə el şairlərinin poeziyasına xüsusi maraq oyanmış və bu amil onun gələcək taleyinin səmtinin istiqamətlənməsində aşkar rol oynamışdır.

Dissertasiya işi giriş, hər biri iki yarımfəsildən ibarət iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

«Giriş»də mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun öyrənilmə dərəcəsi, dissertasiyanın elmi yenilikləri, əsərin nəzəri və praktiki əhəmiyyəti ötəri də olsa nəzərdən keçirilir.

Əsərin «XIX əsrin sonu – XX əsrin birinci yarısında Şirvan folklor mühiti və el şairləri» adlanan I fəslində Şirvan folklor mühitinin tarixi-mədəni özünəməxsusluğu və Şirvan el şairlərinin yaradıcılıq yolu əsaslı şəkildə tədqiqat süzgəcindən keçirilir. Dissertasiyanın «XIX əsrin sonu – XX əsrin birinci yarısı Şirvan el şairlərinin yaradıcılığının ideya-məzmun xüsusiyyətləri» adlanan II fəslində «Bədii-ictimai ideal və onun inkişaf təmayülləri» və «Məhəbbət lirikasının ideya-məzmun təkamülü» tədqiqata cəlb edilir.

Tədqiqatçı kişili-qadınlı 97 el şairinin həyat və yaradıcılığından söz açır. Bu qədər el şairinin irsini toplamaq, it-bat olmaqdan qorumaq özü xalq qarşısında böyük xidmətdir. Bu zəngin irsi tədqiqat süzgəcindən keçirmək isə folklorşünaslıq elmimizə töhfədir. Dissertantın tədqiqata cəlb etdiyi poeziya nümunələrinin əksəriyyəti sanki aşıq poeziyasının ekiz tayıdır. Onlar əsasən bayatı, gəraylı və qoşmalardan ibarətdir. Tədqiqatçı doğru olaraq el şairlərinin poeziyası ilə aşıq yaradıcılığı arasında paralellik olması qənaətinə gəlir və özünəməxsus ifaçılıq üslubu, orijinal yaradıcılığı və təkyəsi ilə seçilən Şirvan aşıq mühitindən, bu mühiti fərqləndirən cəhətlərdən, Şirvan aşıqlarının muğamatı mənimsəmələrindən, çox maraqlı və başqa aşıq mühitlərindən köklü şəkildə fərqlənən ustad-şəyird münasibətlərindən söz açır.

Dissertasiyada bariz şəkildə özünü göstərən, tədqiqatçını yaxşı cəhətdən fərqləndirən bir məsələdən də danışmaq istərdim. Dissertant mövzu ilə bağlı alimlərin fikirlərinə münasibətini əsl tədqiqatçı mədəniyyəti ilə bildirir. Məlum olduğu kimi professor Əzizə Cəfərzadə el şairlərini səhih olmayaraq aşıq hesab etmiş və yazmışdır: «Üçüncü qrup aşıqlar nə saz çalır, nə toyxana idarə edirlər. Bunlar ifaçı aşıqları öz əvəzsiz şeirləri ilə təmin edənlərdir. Ancaq şeir yazırlar». Dissertant prof. Feyzulla Qasımzadədən sitat gətirərək el şairlərinin aşıq deyil, xalq şeiri üslubunda şeir yazan el şairləri

olduğunu göstərmişdir. Tədqiqatçı, eləcə də tanınmış folklorşünas alim, ömrünü Şirvan aşıq mühitinin tədqiqinə həsr edən prof. Seyfəddin Qəniyevin bu haqda doğru qənaətlərini açıqlamaqla bu məsələnin mübahisə mövzusu olmadığını təsdiqləyir: «Onlar aşıq şeiri üslubunda yazıb-yaratmışlar. Lakin onlar «aşıqlıq fenomeni»nin bir çox cəhətlərindən (saz, söz, musiqi, rəqs, ifaçılıq-söyləyicilik vəhdəti) məhrum idilər».

Onu da deyək ki, dissertant mövzu üzərində on ilə yaxın işləmiş, zəngin material toplamış, ilk elmi məqaləsini 2006-cı ildə çap etdirmişdi. Hələ biz onu demirik ki, 2004-cü ildə müəllif «Azərbaycan folklorşünasları» adlı kitabının 1-ci hissəsini çap etdirmişdi. Bütün bunlar tədqiqatçının ümumi hazırlığına və müdafiəyə təqdim edilən dissertasiyanın elmi səviyyəsinə işıq tutan məsələlərdir. Tədqiqatçının qənaətləri inandırıcıdır.

Bununla belə, dissertasiya işi bəzi qüsur və nöqsanlardan da xali deyildir.

1. Əsərdə sitatlar həddən artıq çox, bəzən də həcmcə böyükdür. Məs: 12-ci səhifədəki sitat az qala bütöv səhifəni əhatə edir. Səhifə 29-da beş sitat verilib. Səhifə 30-da təkcə prof. Ə.Cəfərzadədən 4 sitat verilib.

2. Tədqiqatçı ayrı-ayrı el şairlərinin I fəsildə araşdırdığı poeziya nümunələrini II fəsildə təkrar tədqiqata cəlb edir. Məsələn, İmam Xudaverdi oğlunun «Gəlmişəm» adlı qoşması (s.55, 79), Sofi Rəsulun «Var» adlı gəraylısı (s.65, 84), Udulu Musanın «Neylərəm» adlı gəraylısı (s.51, 100), Ucalı Dadaşın «Yarım» adlı gəraylısı (s.65, 129) belələrindəndir.

Həqiqət naminə deməliyəm ki, şeirlər fərqli müstəvidən təhlil ediliblər. Bununla belə, el şairlərinin zəngin irsi olduğunu nəzərə alaraq müxtəlif şeirləri nümunə göstərmək daha münasib olardı.

3. Mərhum folklorşünas alim Azad Kərimlini Azad Ozan Borçalı kimi təqdim edibsiniz. Azad Kərimlinin valideynləri

Tovuz rayonunun Dönük Qırıxlı kəndindəndirlər. «Azərbaycan folklorşünasları» kitabınızda ona düz bir səhifə həsr edibsiniz. «Tovuz aşıq məktəbi» adlı namizədlik dissertasiyası müdafiə edən alim, eləcə də «Tovuz aşıq məktəbinin Göyçə qolları» adlı sanballı əsərin də müəllifidir.

Bütün bu deyilənlər maraqlı və sanballı dissertasiya işinin elmi dəyərinə xələl gətirə biləcək səhvlər olmayıb, asanlıqla düzəldilə biləcək xətalardır desək, daha doğru olar. Müəllif dissertasiya üzərində on ilə yaxın işləmiş, nəticədə onun tədqiqat işini bütövlükdə əhatə edən «Şirvan el şairləri» (Bakı, Nurlan, 2007, 238 səh.), «Şirvan xalq poeziyasının inkişaf təmayülləri» (Bakı, Nurlan, 2010, 183 səh.) monoqrafiyaları və 8 məqaləsi çıxmışdır. Avtoreferat və 12 səhifədən ibarət «Nəticə» də əsəri əhatə edir və onun sanbalından söz açır.

Dissertasiya yüksək elmi səviyyədə yazılmışdır.

Bizə qalırsa, «XIX əsrin sonu – XX əsrin birinci yarısı Şirvan xalq poeziyasının inkişaf təmayülləri» adlı dissertasiya işi Ali Attestasiya Komissiyasının tələblərinə tam cavab verir və onun müəllifi Tariyel Seyfəddin oğlu Qəni filologiya üzrə (10.01.09 – folklorşünaslıq) fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər PAŞAYEV,**
Fil.e.d., professor
6.09.2010.

SAMİRƏ ZƏMİRXAN QIZI ƏLİYEVANIN «AŞIQ SƏNƏTİNDƏ TEATRALLIQ VƏ ONUN TƏZAHÜR FORMALARI» ADLI SƏNƏTŞÜNASLIQ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ DİSSERTASİYA İŞİNƏ RƏSMİ OPPONENT

R Ə Y İ

Müdafiəyə təqdim edilən əsərin ən böyük məziyyəti ondan ibarətdir ki, bu dissertasiya işində ilk dəfə olaraq indi unudulmağa məhkum edilən, keçmişdə aşıq məclislərinin tərkib hissəsi olan məsələlər ortaya qoyulur, onlara elmi cəhətdən yanaşılır, elmi-nəzəri biliklərlə möhkəmləndirilir.

Əsərin uğurlu alınmasına dəlalət edən faktorlardan biri də ondan ibarətdir ki, dissertant aşıq sənətini yaxşı bilən, bu sənətə ömür həsr edən tanınmış aşıqdır. Ümumiyyətlə, son vaxtlar bu sahədə külüng çalan gənclərin, eləcə də yaşlıların elm aləminə üz tutmaları ulu ozan-aşıq sənətinin həm təcrübi, həm də nəzəri cəhətdən inkişaf etməsinə, təkmilləşməsinə təkan verən amillərdəndir. İlqar İmamverdiyev, Əhliman Rəhimov, Fəzail Miskinli, Nemət Qasımov aşıq sənətinin təbliği və elmi cəhətdən tədrisində böyük işlər görürlər. İndi isə bu cərgəyə tanınmış aşıq Samirə Əliyeva qoşulur. O, elm aləminə gələn ilk qadın aşıqdır. Bu gərəkli işdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti göz qabağındadır. İlqar İmamverdiyevi çıxmaqla, adı çəkilən başqa aşıq-tədqiqatçıların hamısı bu elm və təhsil məbədinin yetişdirmələridir. Bu universitetdə aşıq sənətinə geniş meydan verildiyinə, aşıq sənətinin tədrisinə yer ayrıldığına, aşıq sənəti üzrə kafedra yaradıldığına görə universitetin rəhbərliyinə təşəkkür etmək azdır. Bu, incəsənətimiz, ümumən

mədəniyyətimiz qarşısında böyük xidmətdir. Siz bu gərəkli işinizlə dahi Üzeyir bəyin arzularını yerinə yetirmiş oldunuz. Üzeyir bəy hələ 1938-ci ildə Aşıqların II qurultayında «Azərbaycan aşıq sənəti» adlı çıxışında bu məsələləri ortaya qoyurdu.

Məlumdur ki, aşıq yaradıcılığı ədəbiyyat, musiqi, ifaçılıq, rəqs və teatr elementlərini özündə birləşdirən çoxcəhətli, sinkretik sənətdir. Təsadüfi deyildir ki, Üzeyir bəy aşıq sənətinin həmişəyaşar olmasını bunda görmüş və yazmışdır: «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər payı vardır».

Bülbül isə aşığı doğru olaraq aktyor adlandırıb. Samirə Əliyevanın dissertasiya işi bu məsələlər üzərində köklənib.

Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Girişdə mövzunun aktuallığından, işin məqsəd və vəzifələrindən, elmi yeniliyindən, nəzəri və təcrübi əhəmiyyətindən söz açılır.

«Aşıq məclisinin quruluşu» adlanan I fəsil dörd yarımfəslə bölünür. «Aşıq məclisinə hazırlıq mərhələsinin teatral aspektləri»ndə məclisə hazırlıq mərhələsi, məclis-mərasimin başlanması, məclisin gündüz gedişatı; məclisin axşam gedişatı; məclis-mərasimin qapanışı araşdırılır.

Tədqiqatçı aşıq yaradıcılığının indiyə qədər hərtərəfli öyrənilməmiş bu sahəsini qənaətbəxş işləmişdir. Professorlardan İlham Rəhimli, Məryəm Əlizadə və Aydın Talıbzadənin tədqiqatları köməyinə gəlmişdir.

Bu fəsildə diqqətimi ən çox çəkən aşıqların qıfılbəndbağlama deyişmələrinin baş vermə səbəbinin açıqlanmasıdır. Dissertant aşıqların belə deyişməyə girişməsinin səbəbini doğru göstərmişdir. Bu, aşıq öz sənət gücünə və istedadına güvəndikdə, bir aşığın apardığı məclisə, yaxud da nüfuz dairəsində olan əraziyə başqa bir aşığın gəlib özünü iddialı

şəkildə apardığı zaman və bir də kənar qüvvə və təsirlərin nəticəsində iki istedadlı aşığın bir-biri ilə deyişmək məcburiyyəti qarşısında qaldığı zaman baş verir. Təbii ki, belə deyişmələrə aşıq sənətini, dünyanın gedişatını, ilahiyyatı və başqa elm sahələrini dərindən bilən, ən başlıcası isə şairlik istedadına, möhkəm yaddaşa malik olan Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Hüseyn Şəmkirli, Aşıq Alı, Ələsgər, Molla Cümə, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi aşıqlıq sənətinin zirvəsində bərqərar olan aşıqlar girişə bilərdi.

Burada onu da deyim ki, tədqiqatçı iki ustad aşığın məclis mərasimində üz-üzə dayanaraq birbaşa, canlı şəkildə deyişməsi ənənəsinin XX əsrin 30-cu illərindən etibarən Sovet İttifaqı ərazisindəki aşıq ocaqlarında tədricən aradan qalxaraq unudulduğunu vurğulayır (s.54). Bu, heç də belə deyildir. XX əsrin 60-cı illərində Mikayıl Azaflı ilə Molla Əhmədin bağlama-qıfılbənd deyişməsi deyilənlərə dayaq olur (Bax: Qoca Azaflıyam. Bakı – 2008, s.575-584).

Təəssüf ki, tədqiqatçının bu kitabdan xəbəri olmamışdır. Belə olmasa idi, kitabı məxəz kimi göstərəndə onun 785 səhifə deyil, 761 səhifə olduğunu görərdi. Bundan əlavə, bütün kitabların tərtibçisi göstərildiyi halda, «Qoca Azaflıyam» kitabının tərtibçisinin Qəzənfər Paşayev və Maral Azaflı olduğunu görməmişdir.

Dissertasiyanın «Dastan ifaçılığı bir aktyorun teatrı kimi» adlanan II fəsli əslində tədqiqatın əsasını təşkil edir. Burada tamamilə yeni olan «Dastan ifaçılığı prosesində dramatik situasiya və teatral təzahürü şərtləndirən əsas atributlar; Dastan axşamları özünəməxsus səhnələşdirmə prinsiplərinə malik silsilə tamaşa kimi; Aşıq-aktyorla tamaşaçı-auditoriya arasında ünsiyyət; Aşıq məclisinin rejissor həlli» kimi bir-birindən maraqlı yarımfəsillər yer alır. Bu fəsildə dissertant dastan ifaçılıq ənənəsini xüsusi tip oyun-tamaşa

sistemi kimi araşdırmış, dastan mətnlərinin daxili strukturunda yer alan dramaturji imkanları və teatral elementləri üzə çıxarmış, aşığın roldan-rola girmək qabiliyyətinə xüsusi fikir vermiş, dastan ifaçılığını bir aktyorun kontekstində araşdırmış, aşıq-aktyorla tamaşaçı-auditoriya arasındakı ünsiyyət formalarını müəyyənləşdirmiş, aşıq məclisinin tarixi təcrübəsi və müasir vəziyyəti barədə müqayisəli tədqiqat aparmışdır.

Dissertasiyanın II fəsli, demək olar ki, aradan çıxmış, yalnız dağlıq ərazilərdə, dissertantın yazdığı kimi, «məhdud ölçülərdə olmuş olsa da» davam etdirilən, məhz buna görə də böyük əhəmiyyət kəsb edən, tədqiqinə ehtiyac duyulan, sənətşünaslığımız, eləcə də folklorşünaslığımız üçün yeni olan məsələlərdir. Odur ki, mən əsərdə təsadüf edilən, mənə görə nöqsan olan məsələlərdən söz açmaq istəyirəm. Şübhəm yoxdur ki, bu fəsil barədə rəsmi opponent, prof. Rafiq Sadıqov, sahəsi olduğuna görə daha ətraflı danışacaq.

Bu çox maraqlı, aktual problemə həsr olunmuş dissertasiya işi nöqsanlardan da xali deyildir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dissertasiyada nöqsan kimi diqqəti cəlb eləyən, hər şeydən əvvəl, orfoqrafik səhvlərdir: s. 3, 5, 9, 10, 13, 29, 38, 40, 51, 74, 77, 79, 86, 88, 92, 116 və s.

Bir-iki misal vermək istəyirəm. Bir hərf ucbatından görün fikir necə pozulur. Aşıq Ələsgərin hazırcavablığına dəlalət edən söz pozulmaqla məna tamamilə itir. Başında qara quzu dərisindən yenə papaq varıymış (s. 38). Söhbət yekə papaqdan gedir. Eləcə də şair yox, Şakir (s. 74), alimin yox, amilin (s. 79), şagird yox, şəyird (s. 37, 44, 56).

Az da olsa stilistik səhvlər, uzlaşmayan fikirlər də özünü göstərir: s. 3, 6, 7, 40 və s.

Əsərdə heca artıqlığı (s. 62, 104), qafiyə pozğunluğu (s. 59) da yer alır. Samirə Əliyeva tanınmış aşıq olduğundan belə

səhvlərə yol verməməli idi. Bircə misalla kifayətlənəcəm: Aşıq Ələsgərin Kor Nəsiblə deyişməsindən dissertant nümunə verib:

Ələsgər elləri gəzib dolaşır,
Hərcayı görəndə xəyalı qalmır.
Pay yığmaq da Kor Nəsibə yaraşır,
Çünki yoxdur gözlərinin giləsi.

Təbii ki, 2-ci misrada qalmır əvəzinə çaşır olmalıdır.

2. Çox vaxt nəql etmə özünü göstərir, elmiliyi üstələyir (s. 19-21, 75-78, 89-90, 110-114 və s.).

3. Aşıqlar Azərbaycan dilinin saflığı uğrunda əmək sərf etdiklərindən onlara həsr olunmuş dissertasiyalarda da bu ciddi məsələyə ciddi fikir verilməlidir. Odur ki, regionlarda (s.15) əvəzinə bölgələrdə, məclisə start verildi (s. 22) əvəzinə məclis başladı, stabil bir ənənə halını almışdır (s. 24) əvəzinə sabit (möhkəm) bir ənənə halını almışdır yazılsaydı, daha yaxşı olardı.

4. Dissertasiyada aşıqların qıfılbənd-bağlama deyişmələrinin səbəbləri və qarşılaşmalar çox gözəl işlənmişdir. 57-63-cü səhifələrdə Aşıq Ələsgərlə Aşıq Nəsibin arasında baş verən qıfılbənd-bağlamalardan yerli-yataqlı danışıldığı halda, s. 91–93-də Abbas Tufarqanlı ilə Aşıq Hüseyn arasında baş verən bağlama deyişmələrdən söz açılır, yenə də onun səbəb və şərtlərindən danışılır ki, buna heç bir ehtiyac yox idi.

5. Aşıq şeir nümunələri tədqiqata cəlb olunanda bəzən bütöv verilib. Məs.: s. 22-23, 24, 44-45, 49, 51 və s. Dəniz suyunun duzlu olduğunu bilmək üçün bir damcı bəs etdiyi kimi, aşıq poeziyasında da hər hansı bir bəndi götürəndə səviyyə aydın olur.

6. Tədqiqatçı göstərir ki, bağlama-qıfılbənd deyişmələrdə məğlub aşığın sazını məclis əhlinin gözü qabağında divara

və ya ağaca çırparaq sındırmaq yaxın keçmişə qədər mövcud olan gerçəklikdir (s. 56). Dissertant heç olmazsa bir fakt göstərə bilsəydi, bu sahədə, həqiqətən də, yenilik olardı.

Dediklərimiz, faktlarla zəngin olan, dəyərli tədqiqat işinin elmi dəyərinə o qədər də xələl gətirmir. Müəllifin dissertasiyanı əhatə edən kifayət qədər məqalələri vardır. Onlar ölkəmizdə və onun hüdudları xaricində çap olunub. Avtoreferat da dissertasiyanı tam əhatə edir.

Bizə qalırsa, Samirə Əliyevanın «Aşıq sənətində teatrallıq və onun təzahür formaları» dissertasiya işi Ali Attestasiya Komissiyasının tələblərinə cavab verir və onun müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Rəsmi opponent: **Qəzənfər Paşayev**
Nizami adına Ədəbiyyat
İnstitutunun baş elmi işçisi,
filologiya elmləri doktoru, professor
21.11.2011

DOKTORLUQ VƏ NAMİZƏDLİK DİSSERTASİYALARINA AVTOREFERAT ƏSASINDA VERDİYİM RƏSMİ RƏYLƏR

ELÇİN İLYAS OĞLU ƏFƏNDİYEVİN FİLOLOGİYA ELMLƏRİ DOKTORU ALİMLİK DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «ƏDƏBİYYATDA TARİX VƏ MÜASİRLİK PROBLEMİ» ADLI ELMİ MƏRUZƏSİNƏ

RƏY

Görkəmli yazıçı Elçin Əfəndiyev, eyni zamanda ədəbi tənqidimizin formalaşmasında və inkişafında məxsusi yeri və rolu olan ədəbiyyatşünas alimlərimizdəndir. O, bu sahədə otuz ildən artıq külüng çalmış, ortaya böyük həcmli «Tənqid və ədəbiyyatımızın problemləri» – 1981, 20 ç.v.; «Klassiklər və müasirlər» – 1987, 22 ç.v.; «Поле притяжения. Критика: проблемы и суждения» – Moskva, 1987, 16 ç.v.; «Bəstəkarın vətəndaş sözü. Üzeyir Hacıbəyovun publisistikasına bir nəzər» – Bakı. 1996, 5 ç.v. və s. kimi bir-birindən sanballı, sırf elmiliyi ilə çesilən əsərlər qoymuşdur.

Biz hələ tədqiqatçının mövzuya dair müxtəlif illərdə çap etdirdiyi saysız-hesabsız məqalələrini demirik. Elmi məruzəni birnəfəsə oxudum. Tədqiqatçının büllur bulaq kimi axan, qəlbə yatan elmi və bədii dilinə, gəldiyi qənaətinə, həqiqəti cəsarətlə deməyinə heyran qaldım. Tənqidimizin keçdiyi yolu və müasir vəziyyətini təhlil süzgəcindən keçirən müəllifin bu altmış bir səhifəlik Elmi məruzəsi mənə böyük həcmli dissertasiyalardan daha artıq təsir bağışladı. Hər şeydən əvvəl,

ona görə ki, əsər böyük məhəbbət və vətəndaşlıq hissi ilə yazılmışdır. Gün kimi aydın həqiqətdir ki, tədqiqatçı bu əsərləri yazarkən elmi ad barədə düşünməmiş, onu bu əsərləri yazmağa sövq edən onun vətəndaşlıq borcu və vicdanı olmuşdur. Əsərdə «tarix və müasirlik» qırmızı xətt kimi keçsə də, burada millilik və ümumbəşərilik, ədəbiyyat tarixinin problemləri və ədəbi tənqidin vəzifələri, sənət və sənətkar, ədəbiyyatın vətəndaşlıq missiyası, müasir vəziyyəti və s. kimi ədəbiyyatşünaslıq və tənqidin ədəbi problemləri öz layiqli yerini və həllini tapır. Açığını deyək ki, tarixilik və müasirlik probleminin elmi-nəzəri əsasları, tədqiqi və həlli ədəbiyyatşünaslığımızda ardıcıl işlənməmiş, görülən işlər lokal səciyyə daşımışdır.

Tarixi-tipoloji və tarixi müqayisəli metodlara əsaslanan elmi məruzədən görünür ki, uzun illərin elmi araşdırmalarının məntiqi nəticəsi kimi tədqiqatçının fərdi ədəbiyyat konsepsiyası meydana çıxmışdır. Bu baxımdın çəkinmədən deyə bilərik ki, tədqiqatın elmi-nəzəri əhəmiyyəti böyükdür. Ədəbi tənqidimizin bu araşdırmanın nəticələrindən elmi-metodoloji prinsiplərindən istifadə edəcəyi şübhə doğurmur.

Əsərdə «Ədəbiyyatda tarixiliyin bəzi məqamları», «Azərbaycan ədəbiyyatının bütövlüyü», «Tarixdə şəxsiyyət amili», «Tarixə tarixi yanaşmanın bəzi meyilləri», «tarixi tipologiya və vahid dünya ədəbi prosesi», «Ədəbi tənqid və müasirlik problemi», «Müasirlik tələbi və sənət əsəri» və s. başlıqları altında çox ilhamla işlənmiş hissələr orijinallığı, aktuallığı, dərin elmi dəyəri ilə seçilir.

Məlumdur ki, Elçin Əfəndiyev folklorla bağlı bir neçə sanballı məqalənin və aşıq poeziyasına həsr etdiyi «Aşıq yaradıcılığında Dünya obrazı» və «Dədə Qorqud aliliyi» kimi maraqlı monoqrafiyalar müəllifidir. Bu baxımdan təbii ki, bizi bir folklorşünas kimi tədqiqatçının şifahi xalq ədəbiy-

yatına, klassik ədəbiyyatla folklorun əlaqəsinə münasibəti maraqlandırmaya bilməzdi.

Sevindirici haldır ki, tədqiqatçı haqlı olaraq Azərbaycan ədəbiyyatının bütövlüyünü yazılı və şifahi ədəbiyyatı vahid kök üzərində bərqərar olmasında, ana xətdən ayrılan iki qolun təcəssümündə görür.

Onu da deyək ki, ədəbiyyatımıza, tənqidimizə, ictimai fikir tariximizə elmi obyektiv münasibət bu əsərdə əsas meyar kimi götürülmüşdür. Bütün bunlarla bərabər, bu qiymətli əsərdə M.S.Ordubadi, Səməd Vurğun kimi XX əsr Azərbaycan ədəbiyyatı korifeylərinin adına rast gəlməmək ən azı təəssüf doğurur.

Bununla belə, tədqiqatçının mövzuya dair çap etdirdiyi monoqrafiyalar, çoxsaylı məqalələr və elmi məruzə bariz şəkildə göstərir ki, Elçin İlyas oğlu Əfəndiyev çoxdan filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV
Fil.e.d., professor
19.12.1997

AQŞİN ƏLİSƏTTAR OĞLU BABAYEVİN MÜDAFİƏYƏ TƏQDİM ETDİYİ «CÜMHURİYYƏT DÖVRÜ TÜRK DRAMATURGİYASININ YARADICILIQ PROBLEMLƏRİ (1923–1988. SOSİAL MOTİVLƏR)» ADLI DOKTORLUQ DİSSERTASİYASI BARƏDƏ

RƏY

Müdafiəyə təqdim edilən bu əsər uzun illər davam edən elmi tədqiqatın uğurlu və faydalı nəticəsidir.

Məlumdur ki, əsərin müəllifi bir neçə il Türkiyədə məzuniyyətdə olmuş və elmi-tədqiqat işi ilə bağlı zəngin material toplamış və diqqətəlayiq bir əsər yazmışdır.

Altmışillik dövrü əhatə edən dissertasiya işi, ilk növbədə türk dramaturgiyasının dərin filoloji təhlili və əhatəliliyi baxımından diqqəti cəlb edir. Yeddi fəsildən ibarət olan dissertasiyada türk dramaturgiyasının çox maraqlı bir dövrü tədqiq edilmiş, əsərin müəllifi qarşısına qoyduğu ağır vəzifənin öhdəsindən layiqincə gəlmişdir.

Müdafiəyəyə buraxılan bu əsər həm tarixilik, həm də müasirlik baxımından son dərəcə maraqlıdır.

Bir folklorşünas kimi bizim diqqətimizi xalq tamaşaları ilə bağlı məsələlər cəlb etməyə bilməzdi. Həqiqət naminə demək lazımdır ki, Cümhuriyyət dövrü türk dramaturgiyasının qaynaqları və ənənələrinin tədqiqi «Qaragöz», «Ortaoyunu», «Məddah» kimi xalq tamaşaları, onların yaranma tarixi, bu sənət abidələrinin günümüzə qədərki təsiri inandırıcı şəkildə araşdırılmış, dram sənətinin yaranma və inkişaf məziyyətləri, mövzunun əhatə dairəsi nəzərdən keçirilmişdir.

Dissertasiya işində cümhuriyyət dövrü türk dramaturgiyasında həyat həqiqəti və bədii həqiqət problemləri, sosial

motivlər, dərin tədqiqat obyektinə çevrilir, bu motivlər siyasi, ictimai, mənəvi baxımdan araşdırılır. Tədqiqatçı əsər boyu ağlabatan elmi nəticələrə gəlmiş və öz hökmlərini məntiqi baxımdan əsaslandırmışdır.

Tədqiqatçı mövzu ilə bağlı elmi-nəzəri və bədii materiallara yaxşı bələd olduğundan inandırıcı ümumiləşdirmələr aparmış, fikir və nəzəri mülahizələrini vahid sistem daxilində cəmləşdirməyə nail olmuşdur.

Çoxillik elmi fəaliyyətin məhsulu olan dissertasiya işi və müəllifin çap olunmuş sanballı əsərləri ilə tanışlıq qəti qənaətə gəlməyə imkan verir deyək ki, müdafiəyə təqdim olunan hər hansı bir doktorluq dissertasiyasının qarşısına qoyulan tələblərə bütünlüklə cavab verir və onun müəllifi – hamımızın yaxşı ədib, alim və gözəl insan kimi tanıdığımız Aqşin Babayev filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV
Fil.e.d., professor,
Ədəbiyyat üzrə Birləşmiş Müdafiə Şurasının üzvü
06.02.1996

NAMİQ AĞAMƏLİ OĞLU HƏSƏNOVUN «CEYMS OLDRİC VƏ ŞƏRQ» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

Əsrimizin 50-ci illərindən başlamış Ceyms Oldricin yaradıcılığı Azərbaycan tədqiqatçılarının diqqət mərkəzində olmuşdur. M.İbrahimov, Z.Ağayev, Ş.Xəlilov, S.Babayeva və başqalarının dönə-dönə bu mövzuya qayıtmaları adicə marağın deyil, mövzunun aktuallığının bəhrəsidir.

Xüsusən də Ş.Xəlilovun «Ceyms Oldric yaradıcılığında Azərbaycan mövzusu» adlı namizədlik dissertasiyası, onun silsilə məqalələri, yazıçı ilə yazışmaları nəinki tədqiqatçıların, hətta ictimaiyyətin belə böyük marağına səbəb olmuşdur.

Namiq Həsənovun da bu mövzuya müraciət etməsi, C.Oldric yaradıcılığını başqa bir səmtdən tədqiq etməsi maraq doğurmaya bilməz. Bizə qalırsa, «Ceyms Oldric və Şərq» doktorluq dissertasiyasının mövzusu ola biləcək əhəmiyyətli, aktual və çox geniş mövzudur.

Həqiqət budur ki, Namiq Həsənov aktual bir mövzu seçmiş və əsəri namizədlik dissertasiyaları qarşısında qoyulan tələblər səviyyəsində yazmışdır. Yüz yetmiş yeddi səhifəni əhatə edən bu əsər giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Əsərin girişində dissertasiya işinin səciyyəvi xüsusiyyətləri, mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın elmi yeniliyi, obyekti və s. kimi məsələlər nəzərdən keçirilir.

I fəsil «Diplomat əsərində xalq azadlıq hərəkatı» adlanır. Burada 1945–46-cı illərdə Cənubi Azərbaycanda baş verən xalq azadlıq hərəkatına ingilis yazıçısının vicdanlı münasi-

bət bəsləməsi, bu hərəkata beynəlxalq siyasi qüvvələrin öz xeyirlərinə müdaxilə etmələri və s. izlənilir.

II fəsil bütövlükdə Ceyms Oldricin Ərəb aləmi ilə bağlı əsərlərinə, onların təhlilinə həsr olunmuşdur.

Əsərin altı səhifəni əhatə edən «Nəticə» hissəsində Azərbaycan–ingilis ədəbi və mədəni əlaqələrindən müfəssəl danışılır və bu əlaqələrin möhkəmlənməsində Ceyms Oldric yaradıcılığının xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanır.

Əsərin kitabiyyat hissəsində tarixilik baxımından sıralanma pozulsa da, dissertant Azərbaycan, rus, ingilis, ərəb dillərində məxəzlərdən yerli-yerində istifadə edərək doğru nəticələrə gəlmişdir. Yuxarıda deyilənləri nəzərə alıb belə qənaətə gəlmək olur ki, Namiq Ağaməli oğlu Həsənovun «Ceyms Oldric və Şərq» adlı əsəri namizədlik dissertasiyaları qarşısına qoyulan tələblərə cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor,
Ədəbiyyat üzrə Birləşmiş Müdafiə
Şurasının üzvü
12.11.1996

VİLAYƏT CƏFƏROVUN «İRAQDA NEOKLASSİK POEZİYA» MÖVZUSUNDA DOKTORLUQ DİSSERTASİYASINA

RƏY

Dissertasiyanın müəllifi respublikamızda tanınmış şərqşünaslardandır. Təvazökarlığı və əməksevərliyi ilə seçilən Vilayət Cəfərov əgər belə demək mümkünsə, hansısa təsiredici bir qüvvənin hesabına tramplindən atılan alimlərdən deyildir. O, müzakirəyə təqdim edilən mövzu üzərində 70-ci illərdən işləyir. Buna mövzu üzrə çap olunmuş məqalə və monoqrafiyalar əyani sübutdur. Göründüyü kimi, beş fəsildən ibarət olan dissertasiya işi uzun illərin səmərəli əməyinin, daxili tələbin məhsuludur. Dissertasiyada zəngin tarixə, mədəniyyətə, ədəbiyyata malik, Azərbaycanla ta qədimdən qırılmaz tellərlə bağlı olan İraqın təqribən bir əsrlik poeziyası nəzərdən keçirilmiş, ortaya öz sanbalı və orijinallığı ilə seçilən maraqlı bir əsər qoyulmuşdur.

Əsərdə neoklassik cərəyanın nümayəndələri: Əz-Zəvavi, Ər-Rusafi, Əl-Kazımi, Əl-Bəsir, Əl-Cəvahiri, Əş-Şəbibi, Ən-Nəcəfi və onlarca başqa şairlərin yaradıcılığı tədqiq və təhlil olunmuşdur. Burada nəinki İraq, neoklassik cərəyanın ədəbiyyatşünaslığa gətirdiyi məzmun və forma yeniliyi, eyni zamanda ilk dəfə olaraq onların qonşu ölkələrin şairləri və ədəbi mühitlə əlaqəsi, onlara təsiri də tədqiqat süzgəcindən keçirilmişdir.

Dissertant hadisələrə obyektiv qiymət vermiş, bir ədəbi cərəyan kimi onun elmi-nəzəri, milli və ümumbəşəri prinsiplərini hazırlamış, dövrün ictimai-siyasi hadisələri fonunda təhlil etmiş, ümumərəb poeziyasındakı mövqeyini açıqlamış, problemə ideya və sənətkarlıq baxımından yanaşmışdır.

Buna nail olmaq üçün aşağıdakılar diqqət mərkəzində olmuşdur:

1. İraq neoklassik poeziyasının meydana gəldiyi ədəbi-tarixi, ictimai-siyasi şərait XIX əsrin başlıca hadisələri fonunda araşdırılaraq təhlilə cəlb olunmuşdur.
2. Belə bir zəmində yaranan neoklassik poeziya ölkədə baş verən hadisələrin qələmə alındığı və onların həlli yolları göstərilmişdir.
3. Dissertant faktiki material əsasında bu poeziyanın bir çox nümayəndələrinin məzmunla bərabər, şeirin formasında da inqilab etdiklərini üzə çıxarmışdır.
4. Xüsusi vurğulanmışdır ki, İraq neoklassik cərəyan nümayəndələri Divanlarını tərtib edərkən onları yeni mövzular – başlıqlar altında qruplaşdırmışlar. Məs.: Siyasi şeirlər, Tarixi şeirlər, Qadınla bağlı şeirlər və s.
5. Neoklassiklərin yaradıcılığında yer alan demokratik ideyalar uğrunda mübarizə, maarifçilik ideyaları, vətənpərvərlik, müstəmləkəçiliyə qarşı mübarizə də tədqiqatçının diqqət mərkəzində olmuşdur.
6. Dissertant müxtəlif şairlərin əsərlərini ideya-məzmun və sənətkarlıq cəhətdən müqayisəli şəkildə təhlil etmişdir.

Bütün bunlarla bərabər, əsərdə artıq görünən yerlər, şüarçılıq (s.2), dil, üslub və orfoqrafiya xətaları yer almaqdadır. Bəzən alim Vilayəti, sanki şair Vilayət üstələyir. Bu, əsasən əsərin girişi ilə bağlı iraddır.

Girişin 1-ci hissəsində elmilikdən daha çox təsvirçilik yer alır. Tədqiqatçı doğru olaraq İraq–Azərbaycan ədəbi əlaqələrini xüsusi vurğulayır. İraqla bağlı Azərbaycan şair və mütəfəkkirlərindən söz açır. Lakin Seyid Əzim Şirvani dörd il Nəcəf şəhərində oxuduğu, İraqa qiymətli əsər həsr etdiyi halda, tədqiqatçının diqqətindən yayınıb.

Onu da qeyd edək ki, əsərin ciddi redaktəyə ehtiyacı vardır.

Bunlar təbii ki, Vilayət Cəfərovun böyük həcmli dissertasiya işinin sanbalına xələl gətirə bilməz.

Dissertasiyanın müddəaları öz əksini tədqiqatçının üç monoqrafiya və məqalələrində tapmışdır. Bunu ona görə xüsusi olaraq vurğulayırıq ki, Ali Attestasiya Komissiyası çox haqlı olaraq müəllifi elm aləminə az bəlli olan tələmtələsik yazılan əsas müddəaları müdafiəyə qədər çap olunması zəruri olan monoqrafiyalarda öz əksini tapmayan dissertasiyalara qarşı çıxır və onların müdafiə olunmasını məqbul saymır.

Bu baxımdan çəkinmədən demək olar ki, Vilayət Cəfərovun «İraqda neoklassik poeziya» adlı dissertasiya işi həm doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə, həm də Ali Attestasiya Komissiyasının xüsusi tələbinə tam cavab verir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor,
15.02.1997

ESMİRA BAYRAM QIZI ƏHMƏDOVANIN «XARİCİ MƏNBƏLƏRDƏKİ (QAFQAZŞÜNASLARIN ƏSƏRLƏRİNDƏ) AZƏRBAYCAN TOPONİMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ (XIX–XX YÜZİLLİKLƏR)» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA (AVTOREFERAT ƏSASINDA)

RƏY

Mövzu dilçiliyimizdə indiyə qədər toxunulmamış bir sahəyə həsr olunduğundan tamamilə orijinal, yeni və aktualdır. Dissertasiya işində ilk dəfə olaraq xarici mənbələr əsasında Azərbaycan toponimlərinə məxsus areallıq, paralellik xüsusiyyətləri, eləcə də təhrif olunmuş, adı dəyişdirilmiş və arxaikləşmiş toponimlər müəyyənləşdirilir. Tədqiqatda zəruri sayılan və həlli qarşıya qoyulan problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– toponimlərin dil mənsubiyyətinin araşdırılması;
– toponimlərdə baş vermiş fonomorfoloji dəyişmələrin üzə çıxarılması;
– onların mənşə və mənalarının təyin edilməsi;
– toponimlərin semantik-struktur tiplərinin araşdırılması.

Dissertasiya işində zəngin xarici mənbələrdən istifadə edilmiş, Azərbaycan toponimlərinin məna və mənşəyi, tam halda öyrənilmiş, coğrafi adlar qruplaşdırılmış, onların tarixilik və areallıq cəhətləri fikir süzgəcindən keçirilmiş, xalqımızın soykökü, tarixi və dilimizin tarixi ilə bağlı maraqlı mülahizələr irəli sürülmüşdür.

Giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarət olan bu maraqlı dissertasiyanın I fəsli «Mənbələr və tədqiqatlar» adlanır.

Burada maraq doğuran bir cəhəti xüsusi qeyd etmək istərdik. Tədqiqat işində xarici mənbələrdəki Azərbaycan toponimləri əsasən XIX–XX əsrləri əhatə etməli olduğu halda, müəllif haqlı olaraq I fəsildə yeni eranın əvvəllərindən bu yana məxəzlərdə qeydə alınmış Azərbaycan toponimlərini saf-çürük etmiş, beləliklə də, kamil bir əsər meydana gətirmişdir. Dissertant toponimlərin tarix və coğrafiya elmləri ilə yanaşı, dilçilik elmi, onun tarixi, sözyaradıcılığı, tarixi leksikologiyası və s. üçün də qiymətli mənbə olduğunu inandırıcı faktlarla göstərmişdir.

«Xarici qafqazşünasların əsərlərində Azərbaycan toponimləri» adlanan II fəsildə otuza yaxın avropalı qafqazşünasın əsərlərində yer alan Azərbaycan toponim və etnonimlərindən bəhs edilir.

Maraqla oxunan III fəsildə isə xarici mənbələrdə qeydə alınmış 40-a yaxın paleotoponimin etimologiyasından bəhs edilmiş, rusdilli mənbələrdəki Azərbaycan toponimləri, paralel toponimlər, areal toponimlər, təhrif olunmuş, dəyişmiş toponimlər və s. linqvistik təhlilə cəlb edilmişdir.

Əsərin əsas müddəaları tədqiqatın «Nəticə» hissəsində ümumiləşdirilmişdir.

Dissertasiyanın əsas məzmunu mötəbər mənbələrdə çap olunmuş beş sanballı məqalədə öz əksini tapmışdır.

Beləliklə, çəkinmədən demək olar ki, «Xarici mənbələrdəki (Qafqazşünasların əsərlərində) Azərbaycan toponimlərinin linqvistik təhlili» tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə tamamilə cavab verir və onun müəllifi Esmira Bayram qızı Əhmədova filologiya elmləri namizədi alimlik dərəcəsi adına tam layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor,
14.03.1997

ŞƏHLA BƏDİR QIZI NAĞIYEVANIN «MÜASİR AZƏRBAYCAN POEZİYASININ İNGİLİS DİLİNƏ TƏRCÜMƏSİNDƏ MİLLİ KOLORİTİN SAXLANMASI» ADLI NAMİZƏDLİK DİSSERTASİYASINA

RƏY

İyirminci əsrin ikinci yarısında ingilis ədəbiyyatının, xüsusən də ingilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələlərinə həsr olunmuş sanballı əsərlər, dissertasiyalar yazılmışdır. Bu sahədə İsmixan Rəhimov, Ənvər Rza, Aybəniz Təhmasib, Səyyarə Məmmədova, Sabir Mustafayev, Əsəd Yaqubi, İ.Həsənəli və başqalarının xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Şəhla Nağıyevanın «Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanması» əsəri indiyə qədər tədqiqata cəlb olunmamış aktual bir mövzuya həsr olunub. Tədqiqat işi bu sahədə ilk təşəbbüs kimi xüsusi dəyər kəsb edir.

Dissertasiya giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

Girişdə «Klassik Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsi tarixinə qısa ekskurs» adlanan I fəsildə həm klassik, həm də müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcümə tarixinə, qısaca nəzər salınır, doğru olaraq bu sahədə müəyyən ənənənin formalaşdığı qənaətinə gəlinir.

«Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsi zamanı milli koloritin saxlanması» adlanan II fəsil bir neçə bölmədən ibarətdir:

«İngilis dilinə tərcümədə poetik formanın saxlanması», «Xüsusi adların tərcümədə saxlanması», «Frazeoloji birləş-

mələrin ingilis dilinə tərcüməsi», «Realiyaların tərcüməsi», «Tərcümədə yazıçının üslubunun qorunması», «Müasir poeziya nümunələrinin ingilis dilinə tərcüməsində yol verilən məna təhrifləri» kimi bölmələrdə tədqiqatçı yeni söz demiş, ağlabatan elmi nəticələrə gəlmişdir.

Dissertant qaldırılan problemlər ətrafında konkret fikirlər söyləyir, tərcümələrin keyfiyyəti barədə təkliflər irəli sürür.

Dissertasiyanın «Nəticə» hissəsində əsərin əsas müddəaları ümumiləşdirilir. Çap olunmuş yeddi məqalə dissertasiyanın məzmununu əhatə edir.

Yuxarıda deyilənləri nəzərə alaraq belə qənaətə gəlmək olur ki, Şəhla Bədir qızı Nağıyevanın «Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanması adlı elmi tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan tələblərə cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor,
14.04.1997

ƏSGƏR HÜSEYN OĞLU ƏLİYEVİN «XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN–FRANSA ƏDƏBİ ƏLAQƏLƏRİ (MƏHƏMMƏD AĞA ŞAXTAXTİNSKİ YARADICILIĞINDA)» ADLI NAMİZƏDLİK DİSSERTASİYASININ AVTOREFERATINA

RƏY

Dünyada nə zaman, nə məkan, nə sərhəd, nə də rejim bilən yeganə əlaqə növü ədəbi əlaqələrdir. Qalan əlaqə növləri (mədəni, siyasi, iqtisadi, hərbi, texniki və s.) mütləq dövlətlərarası münasibətlərlə şərtləndirilir. Göründüyü kimi, ədəbi əlaqələrin əhəmiyyəti və yeri dövlətlərarası münasibətlər çərçivəsinə sığmır və xalqlararası münasibətlər, həm də xoşməramlı münasibətlər səviyyəsinə gəlib çıxır. Sərhəd baxımından daha uzaq olan xalqlar arasında ədəbi əlaqələr isə xüsusi əhəmiyyət kəsb edir. Biz Əsgər Əliyevin dissertasiya işini, hər şeydən əvvəl, bu cəhətdən qiymətləndiririk. Üç fəsil, giriş, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiya işi illərlə öncə hazır idi. Lakin dissertantın özünə laqeydliyinin nəticəsində əsər indi müdafiəyə buraxılıb. Məsələ burasındadır ki, mən Əsgər Əliyevlə uzun müddət bir elmi-pedaqoji müəssisədə işləmişəm və hələ 70-ci illərdən maraqlı məqalələrini oxumuş və onun bir alim kimi yetişdiyinin şahidi olmuşam. Sanballı elmi məcmuələrdə çap olunan «M.Şaxtaxtinskinin naməlum əsəri, S.M.Kirov adına ADU-nun «Elmi əsərləri», 1974, №6; «Görkəmli dilçi alim», «Ulduz» jurnalı, 1975 №54; «Fransız şərqşünası azərbaycanlı alim haqqında», S.M.Kirov adına ADU-nun «Elmi əsərləri», 1974, №1; «Fransız şərqşünası Anri Masse Nizami

Gəncəvi haqqında», «Azərbaycan» jurnalı, 1981, №8; «Fransız şərqşünası və M.Şaxtaxtinski» «Azərbaycan–Avropa əlaqələri» toplusu, «Elm» nəşriyyatı, 1985 və s. belələrindəndir. Biz hələ onun vaxtilə adını çəkməyə cürət etmədiyimiz, yasaq olunmuş görkəmli şəxsiyyətlərimizin gördüyü böyük işlərdən söz açan neçə-neçə qəzet məqalələrini demirik. Məlumdur ki, klassiklərimiz Xaqaninin, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin yaradıcılığı və eləcə də İ.Qutqaşınlı, M.F.Axundov, M.Kazım bəy, M.Şaxtaxtinskinin yaradıcılığı barədə Fransada tədqiqatlar aparılıb, onların əsərləri fransız dilində çap olunub. Aleksandr Düma «Qafqaz səfəri» kitabının yarıdan çoxunu Azərbaycana həsr etmiş, 1858-ci ildə Azərbaycanda olarkən öz gözü ilə gördüklərini, Natəvan kimi tarixi şəxsiyyətlərlə görüşlərini və s. qələmə almışdır. Bütün bunlar tarixən Azərbaycan-fransız ədəbi əlaqələrinin möhkəm olduğuna dəlalət edir.

Sevindirici haldır ki, dissertasiyada mövzuya bir başa bağlı olmasa da, bu məsələlərdən də yeri gəldikcə söhbət açılır. Tədqiqatçının elmi məcmuələrdə çap etdirdiyi məqalələri və avtoreferatı dissertasiyasını əhatə edir.

Bizə qalırsa, «XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan–Fransa ədəbi əlaqələri (Məhəmməd ağa Şaxtaxtinski yaradıcılığında)» adlı tədqiqat işi namizədlik dissertasiyaları qarşısında qoyulan bütün tələblərə cavab verir və onun müəllifi, çoxdan püxtələşmiş alim kimi tanınan Əsgər Əliyev filologiya elmləri namizədi alimlik dərəcəsi adına layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor,
12.08.98

ABBASOV TARİYEL ALLAHVERDİ OĞLUNUN FİLOLOGİYA ELMLƏRİ NAMİZƏDİ ALİMLİK DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM OLUNMUŞ «QURBANİNİN POETİK İRSİ» NAMİZƏDLİK DİSSERTASİYASINA

R Ə Y

Dissertasiya giriş, 3 fəsil və nəticədən ibarət bitkin bir işdir. Müəllif gərgin zəhmət və axtarışlar bahasına elmi bir şəkildə mövzuya yanaşmış və qoyulan məsələləri müvəffəqiyyətlə həll etmişdir. Hiss olunur ki, müəllifin orta əsrlər Azərbaycan və ümumiyyətlə, türk-şərq mədəniyyətinə bələdçiliyi kifayət qədərdir. Fəsillərdə araşdırılan problemlərə düzgün aspektdən yanaşılmış, bir məsələyə bir neçə və hətta mübahisəli baxışlar ortaya qoyulmuş, kifayət qədər geniş və elmi şəkildə təhlil olunmuşdur.

Müəllifin Cənubi Azərbaycanın (İranın) Əhər, Kəleybər, Qaracadağ bölgələrinə və oranın psixoloji-sosial, eyni zamanda folklor ənənələrinə bələdçiliyi oradakı insanlarla, informasiya qaynaqları ilə şəxsən görüşü bəzi məqamlardakı mübahisəli məsələləri uğurla çözməsinə kömək olmuşdur.

Dissertasiyanın giriş bölümündə ilk baxışdan nəzərə çarpan əski sovet ideologiyasının gətirdiyi zərərli ünsürlərə ayıq münasibət diqqətə layiqdir.

Şifahi xalq ədəbiyyatının mühüm qolunu təşkil edən aşıq ədəbiyyatına baxışda müəllif, obyektiv mövqe tutur və ona daha qədim və zəngin qaynaqlardan yanaşır. Aşıqlığın ozan, dədə, varsaq, şaman və sairə mərhələləri əhatəli şəkildə araşdırır və məntiqi nəticələrə gəlib çıxır.

«Qurbani tarix və folklor qaynaqlarında» adlı I fəsildə Aşıq Qurbani barəsindəki yaddaş və salnamələr, eyni zamanda yazılı elmi mənbələr geniş şəkildə araşdırılır və müqayisəli təhlil olunur. Müəllif çox düzgün olaraq Qurbanidən

Aşıq Ələsgərə qədər olan inkişaf dinamikasını qabarıq göstərir, eyni zamanda hər iki ustad sənətkar arasındakı fəlsəfi və poetik bağlılığı izah edir, maraqlı şeir nümunələri gətirməklə fikirlərini əsaslandırır.

Qurbaninin doğulduğu, yaşadığı məkan və yer haqqındakı düşüncələr, araşdırmalar və nəhayət, faktlar diqqətəlayiqdir. Qurbaninin həyatı ilə bağlı məqamlar, dastan ədəbiyyatından gələn nümunələrin müqayisəli araşdırılması da geniş təcrübə və zəhmət tələb edən bir işdir. Müəllif bu işin də öhdəsindən layiqincə gəlmişdir.

Şah Xətai və Qurbani arasındakı münasibətlər, təriqət bağlılığı, «pir – mürid» əlaqələri də bu günə kimi kifayət qədər geniş araşdırılmayan bir mövzu olmuşdur. Müəllif bu məsələyə münasibətdə də obyektiv mövqe tutur, özündən əvvəlki alimlərin tədqiqatlarından vacib sitatlar gətirərək, özü də sonda elmi nəticələrə gəlib çıxır.

Qurbaninin həyatı, məhəbbəti barəsindəki yeganə dastandan misallar gətirməklə bərabər, müəllif bəzi məqamlara haqlı olaraq şübhəli və tənqidi yanaşır və öz obyektiv fikirlərini ifadə etməkdən çəkinmir. Qurbaniylə bağlı (onun yazdığı) şeirlərin araşdırılması, müəyyən nəşrlərdəki xətalar da yaxşı təhlil və müqayisə olunur və sonda aydın mənzərə yaratmağa müvəffəq olur.

«Qurbani şeirinin ideya-estetik səciyyəsi» adlı II fəsil sənətkarın yaradıcılığına həsr olunmuş və geniş təhlil olunmuşdur.

Şairin məhəbbət lirikasına həsr olunmuş bölmədə onun yaradıcılığından elə misallar, elə nümunələr gətirilir ki, həqiqətən də, biz Qurbani lirikasının onun bədii-estetik zənginliyinin heyranı oluruq. El aşıqlarından, Ağ Aşıqdan, Dədə Şəmşirdən, Aşıq Əmrahdan gətirilən misralarda müəllif oxşar mövzulara müraciət etməklə «Bənövşə» şeirini və ona həsr olunmuş başqa şeirləri ustalıqla təhlil edir və qaneedici nəticələrə gəlib çıxır.

Aşığın yaradıcılığında təkcə məhəbbət lirikası deyil həm də ictimai motivlər, fəlsəfi-didaktik fikirlər də geniş təhlil olunur.

II fəsildə «Dini motivlər» bölümü olduqca diqqətəlayiqdir. Ən azı ona görə ki, bu mövzu ətraflı araşdırılmamış, sovet dövrünün ideoloji təsir dairəsində olmuşdur. Müəllif bu məqamlara cəsarətlə nüfuz edir, çəkinmədən, elmi bir yenilik səviyyəsində məsələləri araşdırır. Xüsusilə onun Şah İsmayılla əlaqələri barəsindəki fikirləri, bu ruhani bağlılığın Qurbani şeirindəki əksi nəzər-diqqəti cəlb edir.

Qurbani yaradıcılığının sənətkarlıq xüsusiyyətlərindən bəhs edən III fəsildə də qənaətbəxş məqamlar çoxdur və mövzunu əhatə edir.

«Şeir şəkilləri, rədif və qafiyə strukturu» adlı bölümdə adı çəkilən məsələlər dəqiq araşdırılır. Qurbani şeirləri folklorun bəzi nümunələri, xüsusilə bayatılarla əlaqəli təhlil olunur. Şeir şəkillərində heca, qafiyə, rədif sistemi, müxtəlif müəlliflərdən gətirilən misallar diqqəti cəlb edir və mahiyyət etibarilə düzgündür. Gəraylıların, qoşmaların, divanilərin müqayisəli təhlili kifayət qədər elmidir və mətləbləri düzgün izah edir.

Aşıq ədəbiyyatında ən çox müraciət olunan təcnislər də Qurbani yaradıcılığı ilə bağlı geniş izah olunur. Cinaslı qafiyələrin ustalıqla təhlili müəllifin ədəbiyyat sahəsindəki dərin biliyinə, eyni zamanda şeir şəkillərinə, onların xüsusiyyətlərinə bələdçiliyindən xəbər verir. Dissertasiyanın nəticə bölümü də qənaətbəxşdir.

Ədəbiyyatdan istifadə də düzgün və yetərlidir. Gətirilən misallar yerində və mətləbə uyğundur.

Ümumiyyətlə, Tariyel Abbasovun dissertasiyası adı çəkilən mövzunu tam əhatə edir, qarşıya qoyulan məqsəd və vəzifələr yüksək səviyyədə yerinə yetirilir.

Fikrimizcə, dissertasiya işi AAK-ın namizədlik dissertasiyaları qarşısında qoyduğu tələblərə cavab verir və onun müəllifi Tariyel Abbasov filologiya elmləri namizədi alimlik dərəcəsi adı almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor

ADİL SAVALAN OĞLU CƏMİLOVUN (ADİL CƏMİL) «MANAS EPOSU VƏ TÜRK DASTANÇILIQ ƏNƏNƏSİ» MÖVZUSUNDA YAZDIĞI NAMİZƏDLİK DİSSERTASİYASI İŞİNƏ

RƏY

Dünya xalqlarının epik təfəkküründə öz möhtəşəmliyi ilə diqqəti cəlb edən, seçilən abidələrdən biri qırğız türklərinin «Manas» dastanıdır.Yarım milyona yaxın misra düzümündən bağlanmış bu dastan dünyanın müxtəlif ölkələrində yaşayan türkoloqlar, dastan araşdırıcıları tərəfindən təhlilə cəlb olunmuş, eposun ideya-bədii xüsusiyyətlərinə elmi analiz verilmişdir. Bu baxımdan qardaş Türkiyə Cümhuriyyətində yaşayıb-yaradan elm adamlarının, xüsusən folklor araşdırıcılarının «Manas» eposu ilə bağlı monoqrafiyalarına, elmi məqalə və tezislərinə ümumtürk dastan ədəbiyyatı kontekstində ortaq mədəni keçmişimizə qayğıkeş soydaş münasibəti ilə yanaşıram.

Azərbaycanda bir-iki kiçik həcmli məqaləni nəzərə almasaq demək olar ki, «Manas» eposu bu vaxta kimi araşdırılmamışdı. Belə bir şərəfli, həm də çətin işin öhdəsindən gəlmək missiyası çoxdan tanıdığım şair, publisist Adil Cəmilin üzərinə düşdü. AMEA Ədəbiyyat İnstitutunun dissertantı A.Cəmilin «Manas eposu və türk dastançılıq ənənəsi» mövzusunda yazdığı tədqiqat işi, hər şeydən öncə, ümumtürk mədəniyyətinə bir xidmətdir. Kökümüz, soyumuz, soydaş mədəniyyətimizlə bağlı hər hansı araşdırma işi milli önəm daşıyır. Vahid keçmişə, ortaq mədəniyyətə, eyni dilə və dinə mənsub türk xalqlarının 9–10-cu əsrlər ictimai mühitinə güzgü tutan «Manas» eposunu müxtəlif yönlərdən təhlilə cəlb etmək bizim folklorşünaslığımız üçün olduqca faydalı bir işdir. Onu da xatırladıram ki, A.Cəmil bu dastanın yalnız

tədqiqatçısı deyil, həm də tərcüməçisidir. Mən Adilin müxtəlif mətbuat orqanlarında, almanax və antologiyalarda «Manas» eposundan çevirmələrini də oxumuşam. Qətiyyətlə bildirirəm ki, bu çevirmə nümunələri «Manas»ın öz ruhunu saxlamaq baxımından orijinala çox yaxındır. Bu da onunla bağlıdır ki, A.Cəmil dəfələrlə Qırğızıstana getmiş, «Manas»ın yarandığı qırğız folklor mühitini dərindən öyrənməyə cəhd göstərmiş, Türküstan obalarını qarış-qarış gəzib müəyyən təsəvvür əldə etdikdən sonra bu dastanın tərcüməsinə və tədqiqinə başlamışdır.

Tədqiqat işinin bütöv məzmununu giriş, üç fəsil və nəticədə cəmləşdirən dissertant girişdə ənənəvi olaraq «mövzunun aktuallığı», «tədqiqatın obyekti, məqsəd və vəzifələri», «elmi yeniliyi» və «elmi-praktik əhəmiyyəti» barədə bilgilər verir. Sonrakı fəsillərə «qapı» rolunu oynayan «giriş»də ümumi nəzəri müddəaların praktiki perspektivini, araşdırmanın istiqamətlərini görür, duyur və hiss edirik.

«Ümumtürk ədəbi-tarixi varisliyində «Manas»ın yeri, manasçılar, manasşünaslar» adlanan birinci fəsildə dissertant «Manas» eposunım yarandığı zamandan çağdaş zəmanəmizə qədər adları və xidmətləri elmə bəlli olan 15 manasçı haqqında dəyərli məlumatlar verir, manasçılıq məktəbinin regional istiqamətlərinə aydınlıq gətirir, yeni manasçılar sülaləsinin türk təfəkkürünə məxsus ustad-şəyird münasibətlərinə işıq salır.

Tədqiqat müəllifi türk epik təfəkkürünün çox dəyərli nümunəsi olan «Manas» eposunun əsrdən-əsrə, nəsildən-nəslə ötürülməsində C.İrçı, S.Karalayev, S.Orozbəyov, M.Musulmankulov, C.Mamay kimi görkəmli manasçıların tarixi xidmətlərini konkret faktlara istinadən təqdir və təhlil edir. Belə qənaətə gəlir ki, bu nadir insanlar, qeyri-adi yaddaş sahibləri, sözün həqiqi mənasında, ilahi vəhyin daşıyıcılarıdır. Dissertasiya işində manasçıların yaradıcı qabiliyyət və iste-

dad səviyyəsi baxımından aşağıdakı dörd pilləyə, yaxud mərhələyə ayrıldığı da aydınlaşdırılır:

Birinci pillə – şəyird manasçı
İkinci pillə – bala manasçı
Üçüncü pillə – əsl manasçı
Dördüncü pillə – böyük manasçı

Bu pillələrin mənsublarını bir-birindən fərqləndirən tədqiqatçı qeyd edir ki, məhz dördüncü pillənin manasçıları olan ustad sənətkarlar öz fitri istedadı, şairlik qabiliyyəti hesabına eposun yeni variantlarını yaratmışlar.

İfaçılıq istedadı və yaradıcılıq qabiliyyəti baxımından manasçıların dörd mərhələyə bölündüyünü vurğulayan dissertant məkan etibarı ilə də onların aşağıdakı dörd istiqamətə ayrıldığını diqqətimizə yetirir:

1. Çuy manasçıları
2. İssık-Göl manasçıları
3. Tyan-Şan manasçıları
4. Cənub qrupuna məxsus manasçılar

Bütün bu incəliklərə həssas yanaşma «Manas» eposunun yaranış mühiti, onun müxtəlif variant və versiyalarının üzə çıxdığı şərait haqqında dolğun təsəvvür yaradır.

Bu fəsildə ümumtürk ədəbi-tarixi varisliyində, eləcə də bəşəriyyətin folklor təfəkküründə «Manas» eposunun tutduğu yeri, manasçılar sülaləsinin tarixi xidmətlərini təhlil müstəvisində dəyərləndirən dissertant dastanı ilk dəfə yazıya alıb nəşr etdirən, ona elmi analiz verən Ç.Valixanov və V.Radlov kimi manasşünaslar haqqında da maraqlı bilgilər verir.

«Manas» eposunun süjet sistemi və aparıcı obrazları» adlı ikinci fəsildə 65 variantı olan «Manas» dastanının ən kamil versiyalarından biri – S.Orozbəyov variantının süjet olayları, əsas qəhrəmanları təhlilə cəlb olunur. Manasın doğumundan ölümünə qədərki bir dövrü əhatə edən süjet xətti maraqlı hadisələrlə, yadda qalan orijinal obrazlarla zəngin-

ləşir və bu zənginliyin bədii-estetik yöndən açımına nail olan tədqiqatçı sağlam elmi nəticəyə gəlir.

Qırğız türklərinin idealı olan Manasın epik bioqrafiyasını ustalıqla açan, eposun aparıcı obrazlarını təhlil süzgəcindən keçirən araşdırmacı bu dastana adi folklor nümunəsi kimi yox, həm də türk qövmünün canlı döyüş salnaməsi, tarixi həqiqətlərin bədii inikası kimi baxır. Mən bu mövqeyi obyektiv hesab edirəm.

Türklərə məxsus yurddaşlıq duyğusu, torpaq sevgisi, azadlıq meyili, dönməzlik və cəsarət, iradə və rəşadət, bir sözlə, alp-ərənlik məziyyətləri daha çox Manasın – baş qəhrəmanın şəxsində cəmləndiyi üçün obrazlar arasında daha geniş təhlilə də Manas cəlb olunur. Dədə-baba torpaqlarını işğalçılardan təmizləyib pərən-pərən düşmüş xalqını öz yurduna qaytarmağa nail olan Manas əfsanəvi qəhrəman səviyyəsinə qaldırılır. Lakin dissertant əfsanə qəhrəmanı ilə əfsanəvi qəhrəman anlayışlarını fərqləndirməklə Manasa real şəxsiyyət kimi baxır.

Müxtəlif surətlər sırasında Manasdan sonra daha çox yadda qalan və eposun bütün süjet olaylarında iştirakçı olan Kanıkey cəsur, ağıllı, tədbirli və təmkinli bir türk qadınının inandırıcı boyalarla işlənmiş obrazıdır. Dissertant Manasın ömür-gün yoldaşı və silahdaşı Kanıkeyin də eposda tutduğu aparıcı yeri təkzibedilməz faktlarla dəyərləndirir. Bütün bunlarla bərabər, eposun iştirakçısı olan irili-xırdalı obrazların hər biri haqqında söz demək, onların səciyyəvi cəhətlərinə elmi münasibət bildirmək də tədqiqatçının diqqətindən yayınmır.

«Türk dastançılığının ortaq motivləri və «Manas» adlanan üçüncü fəsildə araşdırmacı soydaş təfəkkür dastanlarının ortaq və oxşar cəhətlərinə, bu epik nümunələr arasındakı paralelizmə tamamilə yeni elmi rakursdan yanaşır. «Bilqamıs» – «Manas», «Dədə-Qorqud» – «Manas», «Manas» –

«Koroğlu» paralelləri bu yanaşmanın konkret obyektinə çevrilir. Dissertant türk dastançılığının ortaq motiv problemini araşdırarkən apardığı müqayisələri və yürütdüyü mülahizələri ilə sağlam məntiqə söykənən elmi qənaətə gəlir: «Tarixi hadisələrin bədii inikasını verən eposlarımızda türk xalqlarının müxtəlif boylarına məxsus eyni adət-ənənələri, yaşam tərzini, savaş səhnələrini sözün obrazlı və poetik deyimində görürük. Etnik qohumluq ədəbi-mədəni qohumluğun kökündə dayandığı üçün türk dastanlarından bəzən təbii olaraq eyni motivli süjet xətti keçir».

Tədqiqatçı bu fəsildə ümumtürk epik nümunələrində qadın müstəqilliyi, qadın igidliyi məsələsinə, türklərin at, su, dağ, ağac, rəng, say kultuna, «ölüb-dirilmə» motivinə və s. toxunmağı da unutmur. Bu məqsədlə «Dədə Qorqud», «Ural-batır», «Maaday Qara», «Manas», «Alpamış», «Koroğlu» kimi ümumtürk dastanları paralelizm müstəvisinə çəkilir, dünyaduyumu eyni olan bir millətin mənəvi-əxlaqi və psixoloji aləmi üzə çıxarılır.

Dissertasiyanın «nəticə»si türk dünyasının işıqlı gələcəyinə böyük inam duyğusu ilə yazılıb. A.Cəmilin bu bölmədə böyük öndər Atatürkdən gətirdiyi sitat, məncə, tədqiqat işinin leytmotivini təşkil edir: «Dil bir körpüdür... İnanc bir körpüdür... Tarix bir körpüdür... Köklərimizə enməli və olayların böldüyü tariximizin içində bütünləşməliyiz...»

Beləliklə, Adil Savalan oğlu Cəmilovu (Adil Cəmil) «Manas» eposu və türk dastançılıq ənənəsi» adlı dissertasiya işinə görə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiq bilib, öna uğurlar diləyirəm.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor
27.10.2003

İLQAR CƏMİL OĞLU İMAMVERDİYEVİN «AZƏRBAYCAN VƏ İRAN TÜRKLƏRİNİN AŞIQ-İFAÇILIQ SƏNƏTİNİN QARŞILIQLI ƏLAQƏLƏRİ» MÖVZUSUNDA DOKTORLUQ DİSSERTASİYASININ AVTOREFERATINA

RƏY

Ən ulu ozan-aşıq sənəti xalqımızın mədəni həyatında böyük rol oynamış, indinin özündə də onun təsir gücü azalmamışdır. Məhz buna görədir ki, dahi Üzeyir bəy Hacıbəyov bu sənətə ən yüksək qiymət vermiş, bu sənət aləmində xanəndənin də, bəstəkarın da, yazıçı və şairin də, hətta rəqqasın da istəyincə payı olduğunu göstərmişdir. Aşıq yaradıcılığının məhsulu olan dastanlara operaların yazılması («Koroğlu», «Şah İsmayıl», «Əsli və Kərəm», «Aşıq Qərib»), filmlərin çəkilməsi («Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi») aşıq yaradıcılığına monoqrafiyaların yazılması, neçə-neçə doktorluq və namizədlik dissertasiyalarının yazılması deyilənlərə dayaq olur.

Sənətşünaslıq namizədi İlqar İmamverdiyevin doktorluq dissertasiyası bu vaxta qədər, demək olar ki, çox az toxunulmuş bir mövzuya – Azərbaycan və İran türklərinin aşıq-ifaçılıq sənətinə, onların qarşılıqlı əlaqəsinə həsr olunmuşdur. Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

Girişdə mövzunun aktuallığından, işlənmə dərəcəsindən, məqsəd və vəzifələrindən, elmi-təcrübi əhəmiyyətindən və s. söz açılır.

Dissertasiyanın I fəsli «İranda türk aşıq mühitləri və məktəbləri» adlanır. Bizə qalırsa, dissertant əsəri bu fəsillə başlamaqda haqlıdır. İranda aşıq məktəblərini və mühitlərini

bilmədən Azərbaycan aşıq-ifaçılıq sənəti ilə qarşılıqlı əlaqədən danışmaq olmazdı.

II fəsil «Sazın quruluşu və bədii texniki imkanları» adlanır ki, burada tədqiqatçı simlərdən, pərdə sistemindən və s. təfsilatı ilə söz açır.

Əsərin III fəsli sazların kök prinsiplərinə həsr olunub.

IV fəsil «Ənənəvi aşıq ifaçılığı sənəti» adlanır. Burada dastan ifaçılığı, aşıq deyişmələri, sazın müxtəlif kök prinsiplərinə görə nizamlanması, nitq ansambl ifa, duet ifa və s. maraqlı məsələlərdən bəhs edilir. Tədqiqatçı müxtəlif ölkələrdə – mötəbər mənbələrdə mövzu üzrə 40 məqalə çap etdirmişdir.

İlqar İmamverdiyev indiyə qədər 16 kitab çap etdirmişdir ki, onların da 8-i onun doktorluq dissertasiyası ilə bağlıdır.

Həm tar, həm də saz üzrə gözəl ifaçı olan, məhz buna görə də aşıq-ifaçılıq sənətini dərindən bilən və tədqiqata cəlb edən İ.İmamverdiyevin «Azərbaycan və İran türklərinin aşıq-ifaçılıq sənətinin qarşılıqlı əlaqələri» adlı elmi işi doktorluq dissertasiyaları qarşısında qoyulan tələblərə tam cavab verir və müəllif «Musiqi sənəti» (17.00.02) üzrə sənətşünaslıq doktoru alimlik dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor
21.06.08

ƏHLİMAN RƏHİM OĞLU RƏHİMOVUN SƏNƏTŞÜNASLIQ ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «XX ƏSRİN II YARISINDA ŞİRVAN AŞIQ MÜHİTİNDƏ İFAÇILIQ SƏNƏTKARLIĞI» ADLI DİSSERTASİYA İŞİNİN AVTOREFERATINA

R Ə Y

Şirvan aşıq mühiti barədə çoxsaylı monoqrafiyalar, namizədlik və doktorluq dissertasiyaları mövcuddur. Hətta ayrı-ayrı ustad aşıqların yaradıcılığı belə tədqiqat süzgəcindən keçirilmişdir. Bu sahədə filologiya doktoru Seyfəddin Qənizadə, Ağalar Mirzə və başqalarının tədqiqat işləri ümumən Azərbaycan aşıq sənətinin tədqiqi və təbliği yolunda atılan ən uğurlu addımlardır. Bununla belə, Şirvan aşıq mühitində aşıqların ifaçılıq xüsusiyyətləri ustad aşıq Əhliman Rəhimovun «XX əsrin II yarısında Şirvan aşıq mühitində ifaçılıq sənətkarlığı» adlı dissertasiyası bu boşluğu doldurmaq baxımından əhəmiyyət kəsb edir.

İki fəsildən ibarət olan dissertasiyada yeddi yarımfəsil yer alır ki, aktuallığına görə onların hər birini ayrıca fəsil kimi tədqiq etmək olardı. Təkcə I fəsildəki yarımfəsillər belə qənaətə gəlməyə tam əsas verir: «Şirvan aşıq mühitində varislik və ustad-şagird ənənəsi», «Şirvan aşıqlarının repertuarı və məclis aparma üsullarının digər aşıq mühitlərilə müqayisəli təhlili», «Şirvan aşıqlarının deyişmə məclislərində improvizə və bədahətçilik», «Şirvan aşıq mühitinə muğam və xanəndəlik sənətinin təsiri», «Şirvan aşıq ansambllarında instrumental ifaçılıq sənətkarlığı».

Göründüyü kimi hər yarımfəsil əhatə tutumuna görə bir fəsilə bərabərdir. Bu isə dissertasiya işinin sanbalından xəbər verir.

Tədqiqatçının ölkəmizdə və onun sərhədləri kənarında çap olunmuş çoxsaylı məqalələri də dissertasiya işinin kamilliyinə və əhəmiyyətinə dəlalət edir. Bizcə, dissertasiya işinin belə uğurlu alınması və elmi cəhətdən yüksək səviyyədə yazılmasını şərtləndirən başlıca amil ondan ibarətdir ki, onun müəllifi aşıq sənətini dərindən bilən, illərdən bəri bu sənəti ali məktəbdə tədris edən ustad aşıqdır.

Bunları nəzərə alaraq tam əminliklə demək olar ki, Əhliman Rəhimov sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor
01.06.2010

SALATIN ALI QIZI ƏHMƏDOVANIN FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN TƏQDİM ETDİYİ «HEYDƏR ƏLİYEV VƏ DİL SİYASƏTİ» ADLI DİSSERTASİYA İŞİNİN AVTOREFERATINA

R Ə Y

Azərbaycanın tarixi salnaməsinə qızıl hərflərlə yazılmış dahi şəxsiyyət Heydər Əliyev onilliklərdir ki, tədqiqatçıların diqqətini cəlb etməkdədir. Salatın Əhmədovanın «Heydər Əliyev və dil siyasəti» misilsiz xidmətlərinə görə xalqın qəlbində əbədi yaşamaq hüququ qazanmış ümummilli liderimizə həsr olunmuş ən yaxşı əsərlərdən biridir. Dissertasiyada müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin dilimizin inkişafına qayğısı və bu sahədəki müdrik siya-sətinin mahiyyəti zəngin faktlar əsasında tədqiqat süzgəcindən keçirilir.

Əsərdə görkəmli alimlərimizdən akademik A.Axundov, müxbir üzv N.Cəfərov, professorlardan Y.Seyidov, N.Xudiyev və başqa dilçi alimlərimizin bu sahədə gördükləri işlərdən yaradıcılıqla istifadə edilmiş, ortaya maraqlı və filologiya elmimiz üçün əhəmiyyətli bir əsər qoyulmuşdur. Dissertasiya işi bir-birindən maraqlı üç fəslə bölünmüşdür: «Azərbaycanda dövlət dil siyasətinin formalaşması», «Heydər Əliyev müstəqil Azərbaycan dövlət dil siyasətinin əsaslarının yaradıcısı kimi» və «Azərbaycan dilinin dövlət dili kimi inkişafı uğrunda Heydər Əliyevin mübarizəsi». Dissertasiyanın fəsillərindən də göründüyü kimi, əsərdə Heydər Əliyevin dil siyasəti tamamilə öz əksini tapmışdır.

Tədqiqatçının mövzunun dərinliklərinə nüfuz edərək maraqlı mülahizələr yürütməsi onun mövzuya tam bələdliyindən xəbər verir.

Yazıçı, publisist Salatın Əhmədova ümummilli liderimizin dil siyasəti ilə bağlı yazdığı monoqrafiyaları və elmi məqalələri ilə təkcə Azərbaycanda deyil, eləcə də Türkiyə və Rusiya Federasiyasında da tanınır.

Sadaladıqlarımızı nəzərə alaraq tam əminliklə deyə bilərik ki, «Heydər Əliyev və dil siyasəti» dissertasiyası Ali Attestasiya Komissiyasının tələblərinə cavab verir və onun müəllifi Salatın Alı qızı Əhmədova filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
Fil.e.d., professor
07.06.2010

ASİF HEYDƏR OĞLU RÜSTƏMLİNİN «CƏFƏR CABBARLI VƏ ƏDƏBİ-MƏDƏNİ MÜHİT» ADLI DOKTORLUQ DİSSERTASİYASININ AVTOREFERATINA

R Ə Y

Filologiya üzrə fəlsəfə doktoru, tanınmış ədəbiyyatşünas alim Asif Rüstəmlinin filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyasının avtoreferatını böyük maraqla oxudum. Təkcə ona görə yox ki, əsər sevimli şair, nasir və dramaturqumuz Cəfər Cabbarlı və ədəbi-mədəni mühitə həsr olunub. Bir də ona görə ki, tədqiqatçı tam orijinal bir əsər ortaya qoymuşdur.

Maraqlıdır ki, Asif Rüstəmli ədəbi-tənqidi fəaliyyətə «Cəfər Cabbarlının məqalələri» adlı elmi-tənqidi məqaləsi ilə başlamışdır («Ədəbiyyat və incəsənət» qəzeti, 29.XI.1985).

Sonralar alim namizədlik dissertasiyasını və bir neçə monoqrafiyasını başqa yazıçılara həsr etsə də, heç vaxt Cəfər Cabbarlı yaradıcılığından ayrılmamışdır. «Azərbaycan» dərgisində çap etdirdiyi «Cabbarlının ilk şeirləri» məqaləsi (1987, №3) ilə davam etdirilən yol 25 ildən sonra sona yetmiş, nəticədə biri Türkiyədə çıxmaqla tədqiqatçının 4 sanballı monoqrafiyası, Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu mənbələrdə çap olunan 45 məqaləsi işıq üzü görmüş, monoqrafiyalarına tanınmış ədəbiyyatşünas alimlər 12 məqalə həsr etmişlər.

Asif Rüstəmli C.Cabbarlının indiyədək nəşr olunan kitablarına düşməyən 20 müəllif vərəqi həcmində əsərlərini «Ədirnə fəthi» adı ilə toplayıb tərtib etmiş, ön söz yazmış, şərhlərlə çap etdirmişdir («Elm», 1996). O, eləcə də C.Cabbarlının «Seçilmiş əsərləri»ni tərtib edərək geniş ön sözlə nəşr etdirmişdir. C.Cabbarlının möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə çap olunan 4 cildliyinə yazılan böyük-

həcmli ön söz, şərhlər və qeydlər də Asif Rüstəmliyə məxsusdur.

«Cəfər Cabbarlı və ədəbi-mədəni mühit» adlanan bu fundamental əsər giriş, beş fəsil, nəticə və elmi-nəzəri mənbələrin siyahısından ibarətdir. Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmetindən, məqsəd və vəzifələrindən, elmi yeniliyindən və s. bəhs edilir. I fəsil «Cəfər Cabbarlı yaradıcılığının tədqiqat tarixindən» adlanır. Tədqiqatçının şərti olaraq üç mərhələ adlandırdığı yarımfəsillərdə cabbarlışünaslığın meydana gəlməsi, təkamül mərhələləri və s. araşdırılır.

«Cəfər Cabbarlı və mühiti» adlanan II fəsildə ədibin dövrü, həyatı və ilk təhsil illəri, Bakı Dövlət Universitetində təhsil illəri və ictimai mühit, C.Cabbarlının həyatının son dövrü kimi məsələlər tədqiqata cəlb olunur və bir çox qaranlıq məsələlərə işıq salınır.

«Cəfər Cabbarlı və Azərbaycanda milli istiqlal hərəkatı» adlanan III fəsil arxiv materialları əsasında araşdırılmışdır.

«Cəfər Cabbarlının ədəbi-bədii irsindən» və «Cəfər Cabbarlının tərcümə yaradıcılığı» adlanan IV–V fəsillər də yüksək elmi səviyyədə yazılmışdır.

Çəkinmədən demək olar ki, Asif Rüstəmlinin bu əsəri nəinki cabbarlışünaslara, ümumən ədəbiyyatşünaslıq elmimizə dəyərli töhfədir.

Bizə qalırsa, «Cəfər Cabbarlı və ədəbi-mədəni mühit» adlı doktorluq dissertasiyası Ali Attestasiya Komissiyasının doktorluq dissertasiyaları qarşısında qoyduğu tələblərə tam cavab verir və onun müəllifi Asif Heydər oğlu Rüstəmli filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almağa layiqdir.

Qəzənfər PAŞAYEV,
f.e.d., professor

MƏQALƏLƏR

GÖR ÜRƏYİM NƏ DEYİR*
(Zəlimxan Yaqubu düşünərkən)

Münasib məclislərdə yaradıcılıqlarından bol-bol söhbət açdığım, bəlkə də, dostluğa görə bir az üzgörənlik etdiyim iki gənclik dostum, iki xalq şairi – Sabir Rüstəmxanlı və Zəlimxan Yaqub haqqında indiyə kimi mətbuatda ürək sözümü deməmişəm, sonraya qoymuşam. İnciməzlər, bir gün gələr daha tutarlı söz deyərəm – fikrində olmuşam. Gündəlik qayğılar, həyatın keşməkeşləri başımı o qədər qatıb ki, ömür keçir, gün keçir – ağlıma belə gəlməyib. Nə isə...

Mən bu yazımda təfəkkür və fikir sahibi, gözəl şair, yazıçı, publisist və alim Sabir Rüstəmxanlıdan deyil, həyatda çox imtahanlardan üzüağ çıxmış, ilahidən gələn fitri istedadı ilə seçilən, ömrün qürub çağına tərəf üz tutduğu bir zamanda həyatın amansız imtahanı qarşısında aciz qalan Zəlimxan Yaqubdan söz açmaq istəyirəm. Gözümün qabağına gənclik illərimiz gəlir. Kaş həm ticarət, həm ziyarət – deyərək Tovuza Zəlimxana «Su daşı» (təəssüf ki, su daşı da gələcəkdə Zəlimxanın böyrəklərinə yardımçı olmadı) gətirməyə və qardaşım oğlu Şahinin toyunda iştirak etməyə getdiyimiz vaxtlar olaydı. Zəlimxanın toydakı möhtəşəm çıxışı təkrarlanaydı. Kaş Zəlimxanın bədahətən dediyi «Varıymış» şeiri məclisi yenidən təlatümə gətirəydi:

Qonaq oldum Tovuz adlı mahala,
Hər sinədə min bayatı varıymış.
İndi bildim bu torpaqda ellərin,
Nə dövranı, nə həyatı varıymış.

* Bax: «525-ci qəzet», 17.12.2011.

Kaş bu yaxınlarda toyunu etdiyimiz Zəlimxanın Şəhriyar oğlunu doğum evindən çıxardığımız, Zəlimxanın «Mədəni-maarif texnikumu»nda «Altı il Dəclə-Fərat sahillərində» kitabımın təqdimatında odlu-alovlu çıxış etdiyi günlər olaydı. Gündəlik məişət qayğıları bizi boğsa da, arzuların qanadlarında göylərlə əlləşirdik. Möhtəşəm arzular Zəlimxanın pərvazlanmasına böyük təkan verdi. Vaxt keçdi, o, bütöv bir xalqın sevimli şairinə çevrildi. Söz və nüfuz sahibi oldu. İndi Zəlimxandan yazmaq asan deyil. Bir yandan onun haqqında çox görkəmli ədəbiyyatşünas, dilçi və filosof alimlərimizdən Kamal Talıbzadə, Bəkir Nəbiyev, Pənah Xəlilov, Qulu Xəlilov, Yaşar Qarayev, İsa Həbibbəyli, Nizami Cəfərov, İmamverdi Əbilov, Tofiq Hacıyev, Səlahəddin Xəlilov, Yavuz Axundlu, Cəlal Abdullayev, Nizaməddin Şəmsizadə, Qəzənfər Kazımov, yazıçı və şairlərimizdən Osman Sarıvəlli, Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Xəlil Rza, İsa Hüseynov, Elçin və bir çox başqalarının «Zəlimxan Yaqubdan yazanlar» («Vətən», 2005, 403 səh.) və ikicildlik «Zəlimxan Yaqub ədəbi düşüncələrdə» («Vətən», 2009) kitablarında sanballı məqalələri yer alır. Və şübhəsiz Zəlimxansevərlər bu əsərlərlə tanışdırlar.

İkinci bir tərəfdən də, xalq arasında şöhrət qazanan, şeirləri xalqın əzbərində olan şairdən nə yazasan ki, xoşa gəlsin, Zəlimxana layiq olsun. Lakin burada bir üstünlük də vardır. Nə gizlədim, elə qələm sahibləri var ki, haqqında danışanda sözləri ehtiyatla seçirsən, ifrata varmaqdan, oxucu qınağına tuş gəlməkdən çəkinirsən. Zəlimxan Yaqubdan danışanda bu çətinliklə üzləşmirsən. Bilirsən ki, nə desən, ana südü kimi ona halaldır.

Zəlimxan Yaqub poeziyamıza şimşək kimi çaxaraq, dağ çayı kimi kükrəyərək, kürə kimi püskürərək, bulaq kimi qaynayaraq gələn şairdir. Məlumdur ki, qələm sahiblərinin yaradıcılığında qabarmalar-çəkilmələr olur. Əlamətdar haldır

ki, yaradıcılığını qırx ildən artıq izlədiyim (həm də mühitdən gələn sevgi ilə izlədiyim) Zəlimxanın yaradıcılığında heç vaxt durğunluğa, çəkilmələrə təsadüf etməmişəm. Şairin keyfiyyəti hər vaxt kəmiyyəti üstələyən qırxdan artıq kitabı deyilənlərə dayaq olur. Fitri istedada malik şairlərimizin, o cümlədən də Zəlimxan Yaqubun poeziyası ilə dərindən tanışlıqdan sonra, «Şairlər xalqın görən gözü, döyünən ürəyi, vuran nəbzidir» kəlamının hədəfə necə dəqiqliklə dəydiyinə şübhə yeri qalmır.

Təsadüfi deyildir ki, Nizami Gəncəvi yazırdı:

Ərənlər, ulu kəslər səf çəkərək düzəlib,
Qabaqda peyğəmbərlər, sonra şairlər gəlib.

Zəlimxan Yaqub şair ömrü yaşayıb. Qədim romalıların kəlamıdır: «Şairlər doğulur, natiqlər yetişir». Zəlimxan bu müdrik kəlama naxış vurdu. O, həm ürəklər fəth edən şair, həm də hamının dinləmək arzusunda olduğu natiqdir.

Onun nitqi, danışığı o qədər mənalı, cazibədar, o qədər sirayətedici və ovsunlayıcıdır ki, onu dinləməkdən doymursan, xüsusən də o poeziyadan danışanda. Zəlimxan kimi məclis aparanları barmaqla saymaq olar. Onun məclis aparmağı nümunədir, örnəkdir, zövq, səfa, mənəvi qidadır. Zəlimxanın ilahidən gələn bu məharətini aşağıdakı faktorlarla bağlamaq olar ki, Zəlimxan aktyordur, şairdir, həm də natiqdir. Zəlimxan tribunada, apardığı tədbir və görüşlərdə oda, alova dönür. Mən bu xüsusiyyəti yaradıcılığını çox sevdiyim (buna görə də Gülzar İbrahimqızı ilə «Tofiq Bayram – 70» adlı kitab buraxmışam) Tofiq Bayramda görmüşəm. Bir fərq var ki, Tofiq Bayram şeir deyəndə oda-alova dönürdü. Zəlimxan isə həm şeir deyəndə, həm də danışanda.

Xəlil Rza Ulutürk bu münasibətlə yazırdı: «Onun apardığı görüşlər bizim üçün örnəkdir. Zəlimxanı dinləyəndə

kiçik salon genişlənir, təlatümə gəlir, ləngər vurur, damarlarda qan coşur, ürək qanadlanır».

Mən bunun dəfələrlə şahidi olmuşam. Onlardan biri haqda danışmaq yerinə düşərdi. Qarabağdan arzuolunmaz xəbərlər gəldiyi, insanlarımızın qəm-qüssəyə qərq olduğu 80-ci illərin sonu, 90-cı illərin əvvəlləri idi. Abşeron rayon rəhbərliyi Hüseyn Arifi qaçqınlarla, köçkünlərlə, rayonun poeziya həvəskarları ilə görüşə dəvət etmişdi. Tədbiri Zəlimxanın aparacağını onlar əvvəlcədən bildirdilər. Rayonun Mədəniyyət sarayının böyük zalında bir dənə olsun boş yer yox idi. Səhnədə şairin sol əlində Zəlimxan, sağ əlində mən oturmuşdum. Mən Zəlimxanın Hüseyn Arif poeziyasını əzbər bildiyindən xəbərdar idim. Onun Hüseyn Arif yaradıcılığına belə elmi təhlil verəcəyi mənim üçün (bəlkə də, zalda əyləşənlərin çoxu üçün) gözlənilməz oldu. Mən də bir çoxları kimi heyrət içində idim. Zal, həqiqətən də, təlatümə gəlmiş, damarlarda qan coşmuşdu. O an mənə elə gəldi ki, kimsə elan etsəydi, hamı bir nəfər kimi Qarabağa köməyə gedərdi…

Görüş bitəndə zaldakılar ayağa qalxıb aramsız olaraq şairi və Zəlimxanı alqışladılar. Bu, sözün həqiqi mənasında, poeziyanın qüdrətindən xəbər verirdi. Qətiyyətlə deyə bilərəm ki, bu, Azərbaycan poeziyasının təntənəsi idi. Burada yeridir deyim ki, poeziyamızı Zəlimxan Yaqub qədər təbliğ edən, başqa şairlərin yaradıcılığına məhəbbətlə yanaşan, məclislərdə onlardan bol-bol nümunə gətirən az şairə rast gəlmək olar. Məncə, bu, bir yandan onun qeyri-adi hafizəsi, digər tərəfdən ürək genişliyi ilə bağlıdır.

Zəlimxan Yaqubun poeziyasını fərqləndirən iki mühüm cəhəti xüsusi vurğulamaq istərdim. Bəzən hiss etmişəm ki, şairin poeziyasında həyat, bir çox bayatılarda olduğu kimi, həqiqətdə olduğundan daha həyatidir. Ən önəmlisi isə odur ki, Zəlimxanın poeziyası milli özünüdərkə, milli oyanışa xidmət edir.

Zəlimxan Yaqubun poeziyasının mayasını şifahi xalq ədəbiyyatına bağlılıqda və folklor qaynaqlarında axtaranlar yanılmırlar. Şair «Saz», eləcə də Aşıq Ələsgər, Hüseyn Bozalqanlı və Hüseyn Saraçlıya həsr etdiyi dastanları ilə mənəvi dəyərlərimizi it-bat olmaqdan qorumuş, gələcək nəsillərə ərməğan etmişdir.

Bu dastanların hər biri özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə seçilir. Məsələn, «Saz» poemasında şair bütün məlum saz havalarından (Bəxtiyar Vahabzadə «Muğam» poemasında bütün muğamlardan bəhs etdiyi kimi) söz açır, onların məqsəd və qayəsinə, yaranma səbəblərinə aydınlıq gətirir. Aşıq Ələsgər və Hüseyn Bozalqanlıya həsr olunan poemalar tədqiqat xarakterli olub, onlarda bu qüdrətli saz-söz ustalarının sənətkarlıq xüsusiyyətləri açıqlanır. Özü də poeziya dili ilə. Bu, ədəbiyyatımızda yenilikdir. Maraqlıdır ki, şairin aşıq havaları üstündə köklənən şeirləri də yenilik gətirir, köhnəliyə səsləmir.

Folklorumuzun dərin qatlarına nüfuz edən, «Dədə-Qorqud aliliyi», «Klassik aşıq poeziyasında «Dünya» obrazı» kimi monoqrafiyaların, «Arazam Kürə bəndəm» publisistik əsərin və «Mahmud və Məryəm» romanının müəllifi, xalq yazıçısı Elçinin haqlı olaraq göstərdiyi kimi, Zəlimxan «Hüseyn Saraçlı dastanı» ilə yazılı ədəbiyyatımıza dastan janrını gətirmişdir. Həqiqətən də, Zəlimxan klassik dastançılıq ənənələrini tam gözləyərək yazılı ədəbiyyatımıza yenilik gətirmişdir. Ümumiyyətlə, Zəlimxanın poeziyası sazla sözün vəhdətində yaranıb. Zəlimxan Yaqub saza ilahi varlıq kimi baxır, ona sadəcə musiqi aləti kimi yox, düşünən, düşündürən varlıq kimi baxır.

1973-cü ildə Əbdüllətif Bəndəroğlu Nəsiminin 600 illik yubileyinə gələndə, xalq şairi Osman Sarıvəlli ona saz bağışladı. Bu, ədəbi ictimaiyyətin böyük marağına səbəb oldu. Zəlimxan Yaqubu ilhamlandırdı: «Üç telli durna» adlı

böyük bir şeir yazdı. Kiçik bir parçanı oxucuların nəzərinə çatdırıram:

Bu uzaq səfərdə uğurlar sənə,
Həsrəti dünyadan itir, ay sazım.
Orda nəğməkarım, şairim yatır.
Müqəddəs məzarı ziyarət üçün,
Bir ovuc torpaq da götür, ay sazım.
Mənim salamımı, mənim sözümü,
Leylini Məcnuna yetirən kimi,
Babam Füzuliyə yetir, ay sazım.
Arazdan deyəndə Xasa çayına,
Köksünü dərindən ötür, ay sazım... və s.

Onu da demək lazımdır ki, Zəlimxan sonralar da İraqda yaşayan qardaş-bacılarımızı unutmamış, «Bir kövrək havadır, sazımda Kərkük» adlı poema yazmışdır. Poema azərbaycanca və türkcə çap olunmuşdur.

Şairi parça-parça olan, bir-birinə həsrət qalan xalqımızın taleyi həmişə düşündürmüşdür:

Həsrət gördü, boyun əydi,
Bu Təbrizdi, bu Kərkükdü.
Bir daşınmaz ağır yükdü,
Daşan selim – mənim dərdim.

Zəlimxanın 20-dən artıq poeması vardır. Onlardan ikisi – şairin son illərdə yazdığı «Peyğəmbər» və «Əbədiyyət dastanı» keyfiyyətcə fərqlənir. «Peyğəmbər» Məhəmməd peyğəmbərə, «Əbədiyyət dastanı» isə keçmişin mizan-tərəzisi ilə ölçsək (keçmişdə dövləti ağılla, dərrakə ilə idarə edən hökmdarlar peyğəmbər adlandırılırmış. Yoxsa 124 min peyğəmbər ola bilməzdi) uzaqgörənliyi, təfəkkürü, dünyanın

gedişatını öncədən görə bilməyi ilə peyğəmbər timsallı Heydər Əliyevə ithaf olunub. Aydın məsələdir ki, çox məsuliyyət, dərin bilik tələb edən belə mövzuya özündə yaradıcılıq hünəri hiss edən, inkişafın şəriət, təriqət, mərifət, həqiqət kimi mərhələlərindən xəbərdar olan, onlara az-çox vaqif olan şair girişə bilərdi. Bu, Zəlimxan Yaqub idi.

Məlumdur ki, Zəlimxan Yaquba qədər peyğəmbərimizə və öndərimizə neçə-neçə əsərlər həsr olunmuşdur. Zəlimxan «Peyğəmbər» poemasını qələmə alana qədər illərlə şəriətimizə və peyğəmbərimizə dair kitabları tədqiq etmiş, ilahiyyəti dərindən bilən din xadimləri və başqa alimlərlə məsləhətləşmiş, nəticədə uğurlu bir əsər yazmışdır. O ki qaldı «Əbədiyyət dastanı»na, bu əsər Ulu öndərimizə dərin məhəbbətin nəticəsidir. Öndərimiz prezident olanda dövlət nümayəndə heyəti tərkibində şairi Çinə, Səudiyyə Ərəbistanına, İran, Türkiyə və başqa ölkələrə aparmış, onunla şəxsi təmasda olmuş, elə ölkə daxilində də Zəlimxana öndərimizlə ara-sıra görüşmək qismət olmuş, istedadlı şair bu görüşlərdən və birgə səyahətlərdən qədərincə bəhrələnmiş, öndərimizə layiq əsər yaza bilmişdir.

Maraqlıdır ki, Zəlimxanın poeziyasını həm gənclər, həm də yaşlılar sevirlər. Burada bir çox amillər öz işini görür. Hər şeydən əvvəl, bu, Zəlimxanın xalq dilini yazı dilinə qovuşdurmaq məharətində, sinonimlərdən, antonimlərdən, məcazlardan bol-bol istifadə etməsindədir. Məncə, ən əsas məsələ poeziya istedadın məhsuludursa, onun, ümumiyyətlə, bədii ədəbiyyatın hər yaş dövründə bir cür başa düşülməsindədir. Bu isə bədii ədəbiyyatın həmişəyaşar olmasına zəmin yaradır. Bircə misalla fikrimi təsdiqə çalışacağam. Şairin «Füzuli-Sabir» şeiri dediklərimizə örnək olmaq baxımından seçilir:

Gözəlliyə, gözələ könlünü bağlayanda,
Füzuli «Heyrət!» – dedi.
Millətinin halına güləndə, ağlayanda,
Sabirim «Qeyrət!» – dedi.
Heyrət ilə Qeyrəti yoğurdular, yapdılar,
Bu ölümlü dünyada bir ölməzlik tapdılar!
Hər biri bu dünyada həyat qədər qalası,
Azərbaycan şeirinin
Biri heyrət qalası!
Biri qeyrət qalası!

Zəlimxanın bu şeirini gənc oxucu sevəcək, hətta qürrələnəcəkdir ki, Füzuli və Sabir kimi böyük şairlərimiz olub. Lakin o, yaşa dolduqca, Füzuli və Sabirin poeziyası ilə daha yaxından tanış olmaq imkanı qazandıqca, onları dərindən duyduqca, Zəlimxanın qədir-qiyməti daha da artacaq. Onca sətirlik bu şeirdə, Bəxtiyar Vahabzadənin göstərdiyi kimi, Zəlimxanın iki dahi şairimizin ədəbiyyatımızdakı mövqeyini dəqiq göstərməsi, iki böyük nəhəngimiz haqqında bu klassik tərifi verə bilməsi oxucunun şairə olan hüsn-rəğbətini, məhəbbətini birə on artıracaq.

Zəlimxan Yaqub olduğu kimi görünən, göründüyü kimi olan təbii şairdir, səmimidir. Sənətdə səmimilik və təbiilik oxucunun inamını qazanmaqda yardımçı olur. Hoqqabazlıqdan uzaq, səmimi, təbii və həqiqi poeziya şairi ucaldır.

Bizə iki yüzilliyin və iki minilliyin qovuşağında yaşamaq qismət olub. Bu baxımdan bəxtimiz gətirib. Lakin bizim bəxtimizə iki bir-birinə əks ictimai sistemin əvəzlənməsi də düşüb. Bir çox hallarda mənəvi dəyərlərin ucuzlaşdığı, «şeir yazmağın siqaret çəkməkdən asan olduğu» (Məmməd Araz), «dünyanın nizamının pozulduğu, yağla şorun qiymətinin tənləşdiyi» (Musa Yaqub) zəmanəmizdə bizə qalırsa, əsl poeziya nümunəsi yaratmaq, həm ədəbi ictimaiyyətin,

həm də geniş oxucu kütləsinin rəğbətini, məhəbbətini qazanmaq qəhrəmanlıqdır. Orduların, müharibələrin sərkərdələri, qəhrəmanları olduğu kimi, dillərin də qəhrəmanları, sərkərdələri olur. Onlar ümummilli liderimiz Heydər Əliyevin nitq mədəniyyətinin, ədəbi dil normalarının qanunvericiləri adlandırdığı yazıçı və şairlərdir. Onlardan biri də poeziyası ilə əbədilik qazanan Zəlimxan Yaqubdur – desək, həqiqətdən kənar olmaz.

OZAN – AŞIQ SƏNƏTİNİN MEMARLARINDAN BİRİ*

Keçən əsrin ortaları, daha doğrusu, 1956-cı il idi. Kəndimiz yenicə plana köçmüş, evlərə işıq çəkilmiş, bütün evlər radiolaşdırılmışdı. Kəndin radio qovşağı səhər-axşam Bakıya qoşulur, radionun sehri insanları ovsunlayırdı. Bir gün xəbər yayıldı ki, axşam radioda Aşıq Şəmşir oxuyacaq. O vaxtlar bizim bölgədə insanların mənəvi qidası yalnız kitablar və saz-söz olduğundan bütün kəndi maraq bürümüşdü. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib kəndimizə qayıdan dayım oğlu Zakir Xasıyev dedi ki, Aşıq Şəmşir Kəlbəcərdəndir. Səməd Vurğunun dostudur. Səməd Vurğunla deyişməsi də var. İnsanların marağı daha da artdı. Əgər Aşıq Şəmşir dünya şöhrətli şairimizlə deyişibsə, deməli, elə-belə aşıq deyil. İntizarla axşamı gözlədik. Həmin axşam Aşıq Şəmşir dörd-beş aşıq mahnısı oxudu. Onun zil, şaqraq səsi indi də qulaqlarımda səslənir.

O vaxtdan yarım əsrdən artıq vaxt keçib. Çox şey dəyişib. Dəyişməyən Aşıq Şəmşirə olan hörmət, ehtiram və məhəbbətdir. Şəmşir aşıq sənətinin ağırlığını çiyinlərində daşıyan, onu urvatlandıran aşıq-şair kimi zaman keçdikcə xalqın gözündə ucaldı, saz-söz pərəstişkarlarının qəlbində Dədə mərtəbəsinə yüksəldi. Coşqunluqla yazıb-yaradan, aşıq sənətini inkişaf etdirən Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Alı, Ələsgər, Molla Cümə, Hüseyn Bozalqanlı kimi misilsiz sənətkarların sırasında dayandı. Yeri gəlmişkən, onu da bilmək maraqlı olar ki, Aşıq Şəmşirdən sonra aşıq sənətinin memarlarının sırasına yalnız Mikayıl Azaflı qoşula bildi. Sağlığında klassikləşən hər iki aşıq təkcə aşıq sənətini

* Bax: «Ədəbiyyat qəzeti», 16.12.2011.

kamil bilmələri ilə deyil, eləcə də coşqun şairlik təbinə malik olmaları ilə seçiliblər. Təsadüfi deyil ki, hər iki aşıq tədqiqatçılar tərəfindən haqlı olaraq aşıq-şair deyə təqdim olunurlar. O da təsadüfi deyil ki, onların hər ikisi Yazıçılar İttifaqının üzvü olub. Aşıq Şəmşir 1957-ci ildə, Mikayıl Azaflı isə sonralar.

Aşıq Şəmşirə qüdrətli qələm sahibləri: saz-söz sənətini dərindən bilən, ömürlərini bu sənətin, bu sənəti yaradan və yaşadanların tədqiqinə həsr edən alimlər, şair və yazıçılar sanballı əsərlər həsr etmişlər. Həmin əsərləri və Şəmşirin yaradıcılığını nəzərdən keçirəndə ürəyimə ilk gələn o oldu ki, fitri istedad sahibi – Azərbaycanın ilk Xalq şairi Səməd Vurğun kimin haqqında nə deyibsə, düz çıxıb. Onun Aşıq Şəmşirin yaradıcılığını bir aşıq və şair olaraq yüksək qiymətləndirməsi, şair Osman Sarıvəllidən Şəmşir haqqında tədqiqat əsəri yazmasını təvəqqe etməsi də onun uzaqgörənliyindən xəbər verirdi. Aşıq Şəmşirin Dədə Aşıqlar dayanan zirvədə dayanacağını Səməd Vurğun şair fəhmi ilə əvvəlcədən görmüşdü. Maraqlıdır ki, şair zamanının bütün görkəmli aşıqları ilə isti münasibətdə olmuş, onlarla oturub-durmuş, ölməz aşıq sənəti barədə söhbətlər etmişdir. Lakin onlarla deyişməmişdir.

Aşıq Şəmşirlə saz-söz sənəti barədə söhbətlərdən, onun aşıq sənətini dərindən bildiyinin şahidi olandan, aşığın təbli şair olduğunu görəndən sonra, indinin özündə belə aşıqların dillər əzbəri olan beş bənddən ibarət qoşma ilə deyişmişlər. Həmin deyişmənin ilk və son beytlərini oxuculara təqdim edirik. Qoy saz-söz xiridarları bir daha şahid olsunlar ki, hər iki şairin qoşmasında məna dərinliyi, dilin şirinliyi, xalq ruhuna yaxınlıq adamı heyran edir.

Səməd Vurğun:

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni!
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni!

Aşıq Şəmşir:

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni!
Elimin, günümün böyük şairi,
Bilirik şeirdə bir mayak səni!

Səməd Vurğun:

Bəxt məni bu yerə qonaq gətirdi,
Gedirəm, yamandı ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni!

Aşıq Şəmşir:

Şəmşirlə görüşün qaldı yadigar,
Unutmaz nə qədər canında can var.
Səndən dərs almağa diyarbədiyar,
Gəzərəm əlimdə şam-çıraq səni.

Xalq şairi Osman Sarıvəlli «Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir» adlı tədqiqat əsərində maraqlı bir məsələdən söz açır: «Aşıq poeziyası ilə məşğul olan alimlərimiz haqlı olaraq deyirlər ki, Səməd Vurğun Kəlbəcərdə Şəmşirlə görüşəndən sonra aşıq çox məşhurlaşmışdır. Bu, həqiqətən, belədir. Bu mənada desək, Aşıq Şəmşir xalq şairi Səməd Vurğunun kəşfidir».

Bu bir həqiqətdir ki, Səməd Vurğunla Aşıq Şəmşirin tanışlığı, dostluğu cəmi doqquz ay (avqust 1955 – aprel 1956) çəksə də, ədəbi hadisəyə çevrildi. Dahi şairin «Demə, Səməd Vurğun gəldi-gedərdi» misrası çox mətləblərdən söz açır. Onun Aşıq Şəmşirlə görüşü, sonrakı münasibətləri bir nümunə məktəbidir. Prof. Mürsəl Həkimov «Haqq aşığı Dədə Şəmşir» əsərində bu məsələyə işıq tutur. Doğrudan da, S.Vurğunun Aşıq Şəmşiri Bakıya dəvət etməsi, 20 çap vərəqi həcmində şeirlər kitabını nəşriyyatda plana saldırması, Məmməd Arif, Həmid Araslı, Mirzağa Quluzadə kimi görkəmli ədəbiyyatşünas alimlərlə tanış etməsi, öz maşınında onu şəhərin görməli yerlərinə aparıb göstərməsi, onun Yazıçılar İttifaqına üzv olması məsələsini qoyması Səməd Vurğunun aşıq sənətinə, sənətkara verdiyi qiymətdən xəbər verir. Aşıq Şəmşirin şairin ölümündən sonra ona neçə-neçə şeir qoşması isə aşığın etibarını, düz ilqarını göstərir.

Aşıq Şəmşirlə bağlı bir faktı da göstərmək istərdim.

Mikayıl Azaflının «Qoca Qartal» adlı kitabını (bax: «Nurlan» nəşriyyatı, 2008, 760 səh.) nəşrə hazırlayarkən aşığın arxivində Aşıq Şəmşirin öz əl xətti ilə yazdığı və Azaflı Mikayıla ünvanladığı deyişmələrinə və şeir-məktubuna rast gəldim. Aşıq Şəmşirin poetik dünyasından xəbər verən deyişmələri və şeir-məktubu məni məftun etdi. Xüsusi vurğulamaq lazımdır ki, Aşıq Şəmşirin Azaflı Mikayılla aşıq poeziyasının ən çətin və mürəkkəb janrı olan təcnislə deyişməsi aşıq yaradıcılığında az təsadüf edilən hadisədir.

Aşıq Şəmşir:

Nə zamandı gəlib həsrəti-didar,
Bu gün qonaq gəlib bu dağ, bu dağa.
Elə bil gül açıb, gəlibdi bahar,
Könül bağçasında budağ-budağa.

Mikayıl Azaflı:

Aran da yaxşıdı, dağ da yaxşıdı,
Dağ dağa arxadı, aran arana.
Düz, əyri, xeyir-şər vaxtın naxşıdı,
Salar ayrılığı aran-arana.

O ki qaldı Şəmşirin şeir-məktublarına, onlar ayrı aləmdir. Hərdən fikirləşirəm, Səməd Vurğunun ustad aşığın yaradıcılığına dərin marağı və onu yüksək dəyərləndirməsi belə poeziya nümunələrindən qaynaqlanmırdımı?

Baxın, qiymət verin, görün üç bəndlik bu yığcam qoşmada Aşıq Şəmşir Azaflı Mikayılı Kəlbəcərə necə dəvət edir. Şeirin axıcılığı, təbiət təsvirləri, məna, məzmun çalarları adamı heyran edir, aşıq-şairin çeşməyə bənzər təbindən, şairlik istedadından xəbər verir:

Çəmənə, çiçəyə bəzənib hər yan,
Sən bizim dağlara yaz olanda gəl.
Lalə, nərgiz açılanda ərməğan
Boran bu yerlərdə az olanda gəl.

Bənövşə kollara sarışan zaman,
Əliklər meşədə bağrışan zaman,
Çöllərdə çalxanıb çağrışan zaman,
Çayların üstündə qaz olanda gəl.

Xəstəlik əlində belə çaşbaşam,
Axı bacarmıram sellənib daşam.
Müddətdi yatıram, hələ naxoşam,
Şəmşirin əlində saz olanda gəl.

Yuxarıda göstərmişik ki, Aşıq Şəmşir aşıq poeziyasının elə bir janrı yoxdur ki, orada uğurla qələm çalmasın. «Folk-

lorumuzda yerini tutmamış bir janr» adlı məqaləmizdə, sonralar isə «Kərkük folklorunun janrları» kitabımızda Aşıq Şəmşirin «bayatı-tapmaca»lar da yazdığını göstərmişik. Lakin tədqiqatçılarımız onları bayatılar qismində verdiklərindən açması verilməmişdir. Biz bu münasibətlə yazmışıq: «Azərbaycanda folklorşünaslığa dair son vaxtlar çap olunan kitablarda «bayatı-tapmaca»ların açmasını verməmək meyili özünü göstərir. Hətta Aşıq Şəmşir kimi müasirimizin belə «bayatı-tapmaca»larının açmasının verilməməsi təəssüf doğurur. Məsələn:

Ayağı, əli qandı,
Dodağı, dili qandı.
Möcüzə dərya gördüm,
Suyu duz, gülü qandı.
İki at var uzaqda,
Bərqərardı hər vaxtda.
Qarası adam yıxar,
Ağı gəzər qucaqda.

(Bax: Aşıq Şəmşir. Şeirlər. Bakı, «Yazıçı», 1980, s.240–241.)

Halbuki «bayatı-tapmaca»ların açmasının verilməsi həm insanı düşünüb-daşınmağa sövq etmək baxımından, həm də ona təbiət və cəmiyyət hadisələri, xalqın həyat tərzi, fikri-düşüncəsi barədə məlumat vermək baxımından maraq doğurur, tədqiqatçılar üçün əvəzsiz xəzinəyə çevrilir. Digər tərəfdən də vəzn və qafiyəsi yerli-yerində olan bu qiymətli poetik parçaların açması məlum olduqda dillər əzbərinə çevrilir, daha geniş yayılır» (bax: Kərkük folklorunun janrları. Bakı, «Elm» nəşriyyatı, 2003, səh.178-179).

Aşıq Şəmşirin «bayatı-tapmaca»larından da göründüyü kimi, bəzən sadə, bəzən də yüksək poetik dillə yazılan, təşbih və təsvirlərlə, obrazlı ifadələrlə dolu olan bu dördlüklər, ağlı, zəkanı, düşüncə və mühakiməni inkişaf etdirmək baxımından xüsusi qiymət kəsb edir.

Əziz saz-söz sərrafları, dənizin suyunun duzlu olduğunu bilmək üçün bir damcı kifayət etdiyi kimi, şeirin də əsl poeziya nümunəsi olduğunu bilmək üçün bir bənd kifayət edir. Aşıq Şəmşirin hansı bəndini, hansı şeirini götürsək görərik ki, əsl poeziya nümunəsi olmaqla bərabər xalq ruhunda köklənib. Yayda bulaq suyu insanın ürəyinə necə yayılırsa, Şəmşir poeziyası da qəlblərə məlhəm kimi eləcə yayılır.

Çəkinmədən deyə bilərik ki, bütün aşıq şeir şəkillərindən məharətlə istifadə edən, təkrarsız poeziya nümunələri ilə XX əsr Azərbaycan aşıq poeziyasının inkişafında xüsusi yeri olan Aşıq Şəmşir o xoşbəxt taleli sənətkarlardandır ki, aşıq sənətinə verdiyi töhfələri sayəsində ozan-aşıq sənətinin memarlarının bərqərar olduğu zirvədə layiqli yerini tutmuşdur.

QOY ÖLÜM SEVİNMƏSİN

Əbədiyyətə qovuşmuş dəyərli şəxsiyyətlər, xüsusən də yaxşı tanıdığın, təmasda olduğun insanlar haqqında yazmaq ağırdır. Mən bu hisləri xalq tərəfindən sevilən, xalqın yaddaşına hopan, əbədilik qazanan unudulmazlara həsr etdiyim «Borcumuzdur bu ehtiram» kitabını yazarkən keçirmişdim. İndi qələmi əlimə alıb akademik Fuad Qasımzadə haqqında yazarkən eyni hisləri keçirdim. Fuad müəllim xeyirxah əməlləri, ona ölməzlik gətirən işləri ilə tarixə keçib. Fuad müəllim görkəmli filosof alim olsa da, bir an belə ədəbiyyatdan ayrılmır, ədəbi söhbətlər onun sevimli mövzusuna çevrilirdi. Atası, akademik Feyzulla Qasımzadə, Səməd Vurğun və başqa görkəmli şəxsiyyətlərdən danışanda söhbətlərindən doymaq olmurdu. Atasının təsiri hər an özünü göstərirdi. Bu təsir onun tədqiqatlarında da qırmızı xətt kimi keçirdi. Dahi Füzuliyə həsr etdiyi «Qəm karvanı, yaxud zülmətdə nur», «Qüdsi haqqında düşüncələr» monoqrafiyaları deyilənlərə dayaq olur. Fuad müəllim hərtərəfli biliyə malik alim idi. O, tarixçiynən tarixçi, ədəbiyyatçıynan ədəbiyyatçı, ilahiyyətçiynən ilahiyyətçi, etnoqrafnan etnoqraf, müsiqişünasla musiqişünas, estetiklə estetik, folklorşünasla folklorçu idi. Bütün bu sadaladığım elm sahələrinə dair alimin monoqrafiya və əsərləri vardır. «İki fenomen və islam», «Kitabi Dədə-Qorqudda və Füzulidə islam ənənələri», «Klassiklərimiz və musiqi», «Novruz – bahar bayramı», «Avestadan bu günədək», «Estetik zövqün tərbiyə edilməsi» və s. çox mətləblərdən söz açır.

Alimin «Novruz – bahar bayramı» (Bakı, 1989, 62 səh.) kitabı haqqında xüsusi danışmaq istərdim. Məsələ burasındadır ki, sovet rejiminin Novruz bayramını dini bayram pərdəsi altında yasaq etdiyi bir dövrdə Fuad müəllim heç nədən

çəkinməyərək əcdadlarımızın bizə ərməğan etdiyi, xalqın daşlaşmış yaddaşına çevrilən Novruz bayramı haqda kitab yazdı. Mənəvi dəyərlərimiz arasında məxsusi yeri olan bu ümumxalq bayramı barədə həmin əsər ilk monoqrafik tədqiqatlardan idi. Akademik Fuad Qasımzadənin həcmcə çox da böyük olmayan, lakin böyük məna kəsb edən bu əsərindən sonra ölkəmizdə Novruza həsr olunmuş xeyli sayda əsərlər meydana gəldi.

Nə gizlədim, Fuad müəllimin yuxarıda adını çəkdiyim kitablarını oxusam da, rast gələndə ehtiramla salamlaşsam da, əvəllər o qədər də yaxın təmasda olmamışdım. Bizə qismət olan iki yüzillik və iki minilliyin qovuşağı ərəfəsində – 1997-ci ildə Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şura yarananda Fuad müəllim də, mən də həmin şuranın üzvü seçildik. Akademik Vasim Məmmədəliyevin rəhbərlik etdiyi bu şurada, eləcə də akademiklərdən Bəkir Nəbiyev, Teymur Bünyadov, Ziyad Səmədzadə və professor İsrafil İsrafilov da vardı. İndi hamımız şuranın yığıncaqlarında hər dəfə Fuad müəllimi yada salırıq. Onun şirin söhbətlərindən, duzlu-məzəli lətifələrindən söz açırıq. O da yadımdadır ki, rayonlara – Göyçay, Ağdaş, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan) və Cənub bölgəsinə gedəndə Şeyxülislam Fuad müəllimi öz maşınında aparırdı. Bu, ağsaqqala ehtiram əlaməti idi. Mən bütün bu illər ərzində onun bir dəfə də olsun kiminsə arxasınca danışdığını, umu-küsü etdiyini görmədim (əsl filosoflar elə belə də olurlar). İnsanlara xoş münasibət, xeyirxahlıq qəlbinə hakim kəsilmişdi. Şübhəsiz, buna görədir ki, 50 ildən artıq bir zaman kəsiyində Bakı Dövlət Universitetində fəlsəfə kafedrasının müdiri olub. Nüfuzlu alim Respublikada ilk dəfə olaraq fəlsəfə üzrə müdafiə şurası yaradıb. Azərbaycan filosoflarının böyük əksəriyyəti bu şurada dissertasiya müdafiə edərək Beynəlxalq arenaya çıxıblar. Doktorluq işi yazanda 12 alimə Fuad müəllim elmi

məsləhətçi olub. Onun rəhbərliyi ilə 120-dən artıq aspirant və dissertant fəlsəfə üzrə namizədlik dissertasiyası müdafiə edib. Bu, Fuad müəllimin elmimizə, kadrların yetişməsinə qayğısından xəbər verir. Bundan da böyük vətənpərvərlik olurmu?!

Fuad müəllim geniş ürək sahibi idi. Bu sətirləri yazanda yaddaşımda onun akademik Vasim Məmmədəliyevin 60 illik yubileyinə töhfə etdiyi «Misilsiz təfəkkür sahibi» əsəri gəlir. Görkəmli filosof həmin əsərdə görkəmli şərqşünas və ilahiyyətçi alimə layiq olduğu qiyməti vermişdir.

Fuad müəllim çox mütaliəli adam idi. Söhbətlərimiz zamanı məlum oldu ki, İraqda yaşayan azərbaycanlılarla bağlı əksər kitablarımı oxuyub. Mənim də onun «Qəm karvanı», «Novruz – bahar bayramı», «İki fenomen və islam» kitablarını oxuduğumu biləndə çox məmnun oldu. Aramızda isti münasibət yarandı. Bir gün Mingəçevirdən qayıdarkən Şeyx həzrətləri başda olmaqla yolumuzu İsmayıllının Baskal kəndindən saldıq. Avqust ayı idi. İstidən yer-göy yanırdı. Bağlı-bağatlı Baskalı gec tərk etdik. Bakıya çatanda gecədən keçmişdi. Azneft meydanında adəti üzrə maşınları saxlayıb Şeyx həzrətləri ilə sağollaşdıq. Fuad müəllim Şeyxin maşınından düşüb xahiş etdi ki, onu Novxanıya – bağına aparım. Əlavə etdi ki, Mələk xanım bağdadır. Bilirəm, çox narahatdır. Yoxsa elə şəhərdə qalardım. Mələk xanımı tədbirlərdə dəfələrlə görmüşdüm. Görənlər bilirlər ki, Mələk xanım mələk kimi gözəl bir qadın idi. Biz bağa çatanda darvazanın arxasında Mələk xanımın səsi eşidildi. Bizi buraxmadılar. Fuad müəllim təkid etdi ki, sürücü çox yorulub, çay içsin bir az da dincəlsin. Mələk xanım xahişlə bizə çox dadlı yarpaq dolması da yedirtdi. Onlar necə də mehriban idilər!

Fuad müəllim dünyasını dəyişəndən sonra Mələk xanım da çox yaşamadı. Yaşlı adamlar belədir, biri dünyasını dəyişəndə, ayrılığa dözmür, xiffət çəkir və əbədiyyətə qovuşurlar.

Fuad müəllim könlü-gözü tox adam idi. Əsl ziyalı, örnək şəxsiyyət idi. Yeri gəlmişkən, deyim ki, bizlər ali təhsil almış adamı, onun mədəniyyətinə, davranışına məhəl qoymadan ziyalı adlandırırıq. Bu qətiyyən düz deyildir. Ziyalı təkcə savadlı olmaq deyildir. Yüksək mənəviyyatlı, ədalətli, eqoizmdən, mənsəbpərəstlikdən kənar, millətin ağrıları ilə yaşayan, yüksək intellektli adamı ziyalı adlandırmaq olar. Fuad müəllim, sözün həqiqi mənasında, gözəl insan, örnək olacaq ziyalı idi. O, dərin mənalı, müdrik kəlamları, şirin söhbətləri, duzlu-məzəli lətifələri ilə bizimlədir. Qoy ölüm sevinməsin. Yaxşı adamlar ölmürlər. Onlar dostların, tanışların, qohumların qəlbində yaşayırlar. Belə ölməzlərdən biri də elm aləmində iz qoyub əbədiyyətə qovuşan akademik Fuad Qasımzadədir.

ELÇİNİN FOLKLOR DÜNYASINA BİR BAXIŞ

Elçin haqqında düşünəndə göz önünə ilk olaraq XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simaları – akademiklər Səməd Vurğun, Mirzə İbrahimov, ilk ensiklopediyamızın yaradıcısı Rəsul Rza, Mir Cəlal, Mehdi Hüseyn gəlir. Bu, səbəbsiz deyildir.

Elçin böyük ədəbiyyata gəldiyi gündən bu günə qədər ədəbi prosesdə fəal iştirak edən, ədəbiyyatşünaslıq elmimizin, xüsusən də ədəbi tənqidin inkişafına töhfələr verən, onun istiqamətləndirilməsində böyük xidmətləri olan, nüfuzlu söz sahibi kimi etiraf edilən, az adama qismət olan görkəmli yazıçı, alim və ictimai xadimdir.

Ədəbi mühitdə Elçin, bir qayda olaraq nasir, ədəbiyyatşünas, publisist, ssenarist, dramaturq və tərcüməçi kimi təqdim edilir. Görkəmli ədəbiyyatşünas alimlərin Elçin yaradıcılığına həsr olunan məqalələrinin toplandığı kitablarda da, Elçinin yalnız müsahibələri daxil edilən «Seçilmiş əsərləri»nin 10-cu cildində də, Yaşarın keçən ilin noyabrından başlamış və hələ də davam edən «525-ci qəzet»də Elçinlə apardığı «Ədəbiyyat söhbəti»ndə də eyni mənzərənin şahidi oluruq. Yazıçının yaradıcılıq diapazonu o qədər geniş, o qədər çoxşaxəli, o qədər zəngindir ki, onun, eyni zamanda folklor sahəsində də nüfuzlu söz sahibi olduğu unudulur. Və bu təkcə folklorla ilgili əsərlər, neçə-neçə nağıllar, məşhur «Mahmud və Məryəm» romanı ilə bitmir. Fərqinə varanda görürük ki, Elçin folkor sahəsində bir çox gərəkli tədqiqatların müəllifidir.

Elçin şifahi xalq ədəbiyyatını dərindən sevən, folklorumuz və aşıq yaradıcılığı sayəsində bəzi qələm sahiblərinin mübtəla olduğu eqoizm, özünəvurğunluq və s. kimi naqisliklərdən kənar olan yazıçı və araşdırıcıdır.

Hər şeydən əvvəl, qeyd etməliyəm ki, yazıçının «Seçilmiş əsərləri»nin oncildliyi ilə tanışlıq mənə qəti qənaətə gəlməyə imkan verdi deyəm ki, onun yaradıcılığının gücü-qüdrəti, məhək daşı yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatının qovşağında bərqərar olmasındadır. Folklora o məhəbbət, o istək ona gətirib çıxarmışdır ki, yazıçının şifahi xalq ədəbiyyatı və aşıq yaradıcılığı ilə ilgili fəaliyyəti bir neçə istiqamətdə aparılmışdır.

Biz bu yazımızda başlıca olaraq aşağıdakılardan bəhs edəcəyik:

1. Yazıçının bədii əsərlərindən, daha doğrusu yazıçının nağılları və «Əsli və Kərəm» dastanının motivləri və süjeti əsasında yazılmış «Mahmud və Məryəm» əsərindən;
2. Yazıçının «Klassik aşıq poeziyasında «Dünya» obrazı» monoqrafiyasından;
3. Prof. Vilayət Quliyevlə birgə yazdığı, folklorşünaslığa və ədəbiyyatşünaslığa həsr etdiyi «Özümüz və sözümüz» əsərindən;
4. «Kitabi-Dədə Qorqud aliliyi» monoqrafiyasından və Dədə Qorquda həsr etdiyi silsilə məqalələrindən;
5. Yazıçının folklorumuzun müxtəlif janrlarına və aşıqların yaradıcılığına həsr etdiyi məqalələrindən;
6. Elçinin publisistik yazılarında folklor və aşıq yaradıcılığının yerindən və s.

Məqsədimiz bütün bu istiqamətlərdən ayrı-ayrılıqda danışmaq və bu sahədə Elçinin elmimizə verdiyi töhfələrdən, örnək ola biləcək işlərindən söz açmaqdır.

Elmi publisistik yazı aşağıdakı bölmələri əhatə edir: «Elçinin nağıl dünyası», «Kərəm yanğısı ilə», «İkiyə bölünmüş ürəyin həsrət nəğmələri», «Aşıq poeziyasının açılmamış qatı», «Bilik əmələ çevriləndə çiçək açır», «Əbədi abidəmiz, müdriklik məktəbimiz», «Yazılı və şifahi ədəbiyyatımız haqqında düşüncələr», «Sənətin zirvəsində bərqərar olan filosof aşıq», «Əsl məhəbbət ötərgi olmur».

ELÇİNİN NAĞIL DÜNYASI

Sevimli şairimiz Səməd Vurğun xalqın bədii təfəkkür çeşməsindən – folklordan yaradıcı şəkildə öyrənməyi tövsiyə edir və deyirdi ki, geniş xalq kütləsinin zövqünü nəzərə almalıyıq, əks təqdirdə ədəbiyyatımız geniş xalq kütləsinin malı ola bilməz. O, sözünə davam edərək xüsusi vurğulayırdı ki, əfsanə və nağıllar xalq dühasının məhsuludur. Yazıçı yalnız əfsanəyə, nağıla müraciət etsə belə, müasir həqiqətləri realistcəsinə əks etdirə bilər.

Dahi Səməd Vurğunun bu sözlərini yada saldıqca göz önünə Elçin və onun fəlsəfi düşüncələr məqamında olan nağılları gəlir. Elçin o yazarlardandır ki, onun üçün kiçik, böyük janr problemi yoxdur. O hansı janrda yazır yazsın, uğur qazanır (istedadlı yazıçılar həmişə belə olublar).

Elçinin 2011-ci ildə «525-ci qəzet»də çap olunan silsilə nağıllarını oxuduqca alman alimləri Qrimm qardaşlarının nağılları, məşhur ingilis riyaziyyatçısı Luis Kerolun «Alisa möcüzələr aləmində» əsəri, italyan Karlo Kallodinin «Pinokionun macəraları», Danimarka yazıçısı Hans Xristian Andersenin dünya ədəbiyyatında məşhur olan nağılları ətrafında düşünürdüm. Yazıçının nağıllarında sözü fikrə çevirmək istedadı adamı heyrətləndirir. Elçinin müşahidələri dürüst, dəqiq və sərrastdır. Folklora sonsuz məhəbbət onu nağıllar aləminə gətirib çıxardı. Elçinə görə folklor ruhlu nağıllar yığcam olmalıdır. Yazıçının qənaəti belədir: «Bizim zəmanəmizin nağılı gərək müxtəsər olsun».

Yazıçının oxuduğum bütün nağıllarında sözü ilə əməlinin üst-üstə düşdüyünün şahidi oldum. «Qoca Palıdın nağılı», «Qara qarğanın nağılı», «Söyüd çubuğu ilə gözəl Oleandrın nağılı», «Məhkum qaysı ağacının nağılı», «Tarzənin və köhnə tar ilə təzə tarın nağılı», «Ağlayan böyürtkənin nağılı», «Üzmək istəyən ağ qovağın nağılı», «Bütün dərdlərdən azad qoca Şeyxin nağılı», «Arzunun nağılı», «Muxtar kişi-

nin və göy göyərçinin nağılı», «İki müdrik balıq ailəsinin və axmaq qu quşunun nağılı», «Taleyindən razı zoğal ağacının nağılı» və s. yığcamlığı və ibrətamizliyi ilə seçilir. Onları həyəcansız oxumaq olmur. İnsan istər-istəməz düşüncələrə qərq olur. Bu nağıllardakı xalq hikməti adamı heyran edir.

Akademik Məhəmməd Arif vaxtilə Elçinin hekayələrindən danışarkən göstərirdi ki, yazıçı adi məişət əhvalatlarını adilikdən çıxarıb qəribələşdirməyi bacarır. Gözlənilməzliklər fonunda baş verəcək hadisələri görmə, duyma, təhlil və qiymətləndirmə məharəti onları təbii məcraya yönəldir və oxucu olayları təbii qəbul edir. Görkəmli alimimizin bu səmimi və qiymətli sözlərini Elçinin nağıllarına da aid etmək olar.

Elçinin «İki Çal Papağın və bir Qara Kepkanın nağılı» və «Qırmızı ayı balası» ayrılıqda nə hekayədir, nə də nağıl. Mənə belə gəlir ki, Elçin bu tip əsərlərlə yazılı ədəbiyyatımıza yeni bir janr – «nağıl-hekayə» janrını gətirmişdir.

KƏRƏM YANĞISI İLƏ

Elçinin «Mahmud və Məryəm» romanı vəfa və sədaqət simvolu olan, ideya və məzmununa görə «Yanıq Kərəmi», «Hicran Kərəmi», «Quba Kərəmi», «Kərəm gözəlləməsi» kimi aşıq havaları ilə zəngin olan nakam məhəbbət dastanı «Əsli və Kərəm»in motivləri əsasında yaranmışdır. Xalq arasında geniş yayılan, ən çox sevilən dastanın motivləri əsasında əsər yazmağa girişmək özü böyük cəsarət tələb edirdi. Həm də bu əsər roman kimi Elçinin ilk qələm təcrübəsi idi. Əsər o qədər uğurlu alındı ki, hətta başqa yazıçılar, məsələn, Fərman Eyvazlı «Qaçaq Kərəm» dastanının motivləri əsasında eyniadlı romanını «Mahmud və Məryəm»in təsiri altında yazdı. Kamal Abdullanın «Dədə Qorqud»la bağlı romanı da sonralar işıq üzü gördü.

«Mahmud və Məryəm» romanında folklor qatı lap dərinliklərdən boylanır. Təsadüfi deyildir ki, Elçin yaradıcılığına

doktorluq dissertasiyası həsr edən prof. Nərgiz Paşayeva yazır: «Folklorda dastan hansı məqamdadırsa, hansı yeri tutursa, bədii əsərdə də roman o yeri tutur».

Yazıçının «Mahmud və Məryəm» əsərini sevdirən, oxunaqlı edən həm də onun dilidir. Elçinin məna tutumu və bədii kəsəri ilə seçilən, oxucuya mənəvi zövq aşılayan dili ədəbi dillə xalq danışıq dilinin qovşağında bərqərar olmuşdur. Onun dili büllur bulaq kimi axan, qəlbə yatan, insana rahatlıq gətirən saf, duzlu, şirin, zəngin bədii dildir. «Mahmud və Məryəm»i oxumağa başlayanda ayrıla bilmirsən, az qala birnəfəsə oxuyursan. Yeri gəlmişkən, Elçinin bu əsəri birnəfəsə – 18 günə yazdığını deyənlər haqlıdırlar. Belə olmasa idi, onun hər səhifəsi adamı belə cəlb etməzdi. Yazıçının ürək döyüntüləri əsərdə hiss olunmazdı. Əsər Kərəm yanğısı ilə yazıla bilməzdi. Əgər yazıçı mövzu ətrafında illərlə fikirləşməsəydi, təfəkkür süzgəcindən keçirməsəydi, folklor motivlərini müasir dövr problemləri ilə araşdırmaq üzərində düşünüb-daşınmasaydı, yəqin ki, belə bir əsər ərsəyə gəlməzdi. Maraqlıdır ki, bu sanballı əsərə girişməzdən çox-çox əvvəl yazıçı «Əsli və Kərəm» adlı lirik-yumoristik povest yazaraq, çap etdirmişdi. Elçinin yaradıcılığını izləyəndə açıq-aşkar görünür ki, «Mahmud və Məryəm» təsadüf nəticəsində yazılmamışdır. Həqiqətən də, millilik və müasirliklə bərabər, folklor yazıçının əsərlərinin ana xəttini təşkil edir. Elçin bir çox əsərlərində xalq yaradıcılığından bəhrələnmiş, yeri gəldikcə, bu tükənməz xalq müdrikliyinə həm nəzəri, həm də təcrübi cəhətdən nüfuz etmişdir. Elçinin istedadı imkan verir ki, həyatın hər yazıçıya qismət olmayan qatlarına enə bilsin. «Mahmud və Məryəm»in böyük uğur qazanmasını şərtləndirən amillərdən biri, bəlkə də, birincisi budur.

Mahmud və Məryəmin nakam məhəbbətindən söz açan bu roman da, qara sevda dastanı «Əsli və Kərəm» də oxucular tərəfindən eyni məhəbbətlə qarşılanır və sevilir.

AŞIQ POEZİYAMIZIN AÇILMAMIŞ QATI

Uşaqlıqda mənəvi qidam saz-söz olub. O vaxt Azərbaycanın bütün bölgələri kimi Qərb bölgəsində də nə radio, nə də televiziya vardı. Gözümüzü açıb gördüyümüz aşıq, saz-söz olub. Bütün məclisləri, toy-düyünü yalnız aşıqlar aparırdılar. Dastanları və bir çox aşıq mahnılarını biz gənclər əzbər öyrənmişdik. Bəlkə də, folklora marağım, taleyimi folklorla bağlamağım oradan başlayıb. Dəqiq deyə bilmərəm. O saat ortaya sual çıxır. Bakıda dünyaya gələn, əksər camaatın rus və başqa dillərdə danışdığı qaynar qazan kimi qaynayan paytaxtda boya-başa çatan xalq yazıçısı Elçində folklora sonsuz məhəbbət necə formalaşıb? Yəqin irsi məsələdir. Axı yazıçının atası, xalq yazıçısı İlyas Əfəndiyev Qarabağın zəngin folklor mühitində yetişib. Elçinin folklorumuza dərin məhəbbətini «Klassik aşıq poeziyasında «Dünya» obrazı», «Kitabi-Dədə Qorqud aliliyi», «Mən sizdən ayrılmazdım», «Əsli və Kərəm» dastanının motivləri əsasında yazılmış, Türkiyədə, Azərbaycanda, İraqda dönə-dönə çap olunan, sevilən «Mahmud və Məryəm» romanını, çox maraqlı silsilə nağıllarını, nağıl-hekayələrini (termin bizimdir), «Qorqud məhəbbətilə», «Dədə Qorqud bəşəriliyi!», «Karvan yola düzülür», «Təşrif buyur, gedək bağa», «Hüseyn Saraclı dastanı haqqında düşüncələr», prof. V.Quliyevlə birgə yazdığı böyük həcmli «Özümüz və sözümüz» kimi sırf folklorumuza həsr olunmuş monoqrafiya və məqalələrini oxuyaraq duymuşam. Odur ki, tədqiqatçının «Klassik aşıq poeziyasında «Dünya» obrazı» monoqrafiyasını elmi-publisistik, oxunaqlı dildə yazıldığına, aşıq yaradıcılığına dair orijinal və gərəkli əsər olduğuna görə maraq və məhəbbətlə oxudum.

Müəllif mövzuya dair demək olar ki, bütün məxəzlərlə ciddi tanışlıqdan sonra tədqiqata başlayıb. Diqqətəşayan odur ki, Elçin bəzən elə aşıqlardan söz açır ki, bir çox folklorşünaslarımızın belə, onlar haqqında, demək olar ki,

təsəvvürləri yoxdur (məsələn, Aşıq Əmir Əli, Aşıq Əsmər, Qul Allahqulu, Aşıq Sona və başqaları).

Maraqlı odur ki, Qul Allahqulunun «Qaldı» adlı bircə ustadnaməsi qalıb. Aşıq Sonanın isə ikicə qoşması vardır. Ehtimal olunur ki, o, XIX əsrdə yaşayıb. Hümmət Əlizadə onun hər iki qoşmasını 1929-cu ildə çap etdirdiyi «Aşıqlar» kitabına daxil etmişdir. Qul Allahqulunun ustadnaməsinə isə prof. Qara Namazovun «Aşıqlar», I kitab (Bakı, 2004) əsərində rast gəlirik. Maraqlıdır ki, Elçinin monoqrafiyası 1996-cı ildə, Qara müəllimin kitabı isə 2004-cü ildə çıxıb. Elçinin o ustadnaməni haradan əldə etdiyi sirri xuda olsa da təsdiq edir ki, Elçin monoqrafiyasının üzərində çox ciddi çalışmış, keşməkeşli dünyamızla bağlı aşıqlarımızın yazdıqlarını ciddi şəkildə araşdırmış, onlardan nümunələr vermişdir.

Monoqrafiyada tədqiqatçı «aşıq» sözünün etimologiyasına nəzər salır, bu terminlə bağlı bütün mülahizələri nəzərdən keçirir, səmimiyyətlə deyim ki, deyilənlər onu qane etmir. Çünki bunlar, Elçinin haqlı olaraq göstərdiyi kimi, fərziyyələr və mülahizələrdir. Mənə belə gəlir ki, hansı zəmin əsasında yarandığını göstərməsə də, Üzeyir Hacıbəyli «aşıq» sözünün «aşiq» sözündən əmələ gəldiyini göstərməkdə haqlıdır. Məlumdur ki, əvvəllər «ozan» termini işlənmiş, lakin Qurbaninin, Tufarqanlı Abbasın zamanında birdən-birə «ozan» deyil, «aşıq» termini işlənməyə başlanmışdır. Məsələ burasındadır ki, bu görkəmli aşıqlarımızın dövründə məhəbbət dastanları meydana gəldi. Dastanın qəhrəmanlarına buta verildi. Onlar aşiq oldular. Aşiq olduqdan sonra əllərinə saz alıb oxumağa başladılar. Haqq aşığına çevrildilər. «Abbas və Gülgəz» dastanında olduğu kimi. Buradan da aşıq termini yarandı. Bu bizim qənaətimizdir.

Elçin monoqrafiyada aşıq sənətinə, aşıqlara yüksək qiymət verir. Ustad aşıqların şair, bəstəkar, xanəndə, saz çalan ifaçı, rəqqas, bədii qiraətçi, aktyor olduğunu göstərir və

qeyd edir ki, aşıq sənəti sinkretik sənətdir və bu sinkretizm hadisəsini Azərbaycan incəsənətində yalnız aşıq sənəti yaradır. Tədqiqatçı doğru olaraq aşıq sənətinin Şah İsmayıl Xətai dövründə çiçəkləndiyini göstərir. Elçin klassik aşıq poeziyasının klassik Azərbaycan poeziyasından təcrid olunmuş halda öyrənilməsini məqbul saymır. O, Vidadi, Vaqif, Zakir kimi şairlərimizin yaradıcılığı ilə Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Ələsgər, Molla Cüma və başqa ustad aşıqların yaradıcılığı arasında üzvi bir doğmalıq, bəzən isə eynilik görür.

Buna bənzər fikrə akademik Mirzə İbrahimovda da təsadüf edilir:

«... Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçiddir, möhkəm bir körpüdür. O, bir tərəfdən xalq yaradıcılığına bağlıdır, o biri tərəfdən yazılı ədəbiyyata, həm bununla, həm də onunla qarşılıqlı əlaqə və təsirdə inkişaf etmişdir. Onun kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır» (bax: Mirzə İbrahimov. Aşıq poeziyasında realizm. Bakı, 1966, s.17).

Görün poeziyamızın zirvələrindən biri S.Vurğun dahi Füzulinin «Məni candan usandırdı» qəzəlini gəraylı şəklinə salaraq «20 bahar» şeirinin vəzninə necə məharətlə uyğunlaşdırmışdır:

...Möhnət çəmənindən gül dərə-dərə,
Ucaldı şairin ahı göylərə:
«Şəbi hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xalqı əfğanım,
Qara bəxtim oyanmazmı?»
Füzuli yurdunun qəm səsidir bu,
Pərişan bir elin naləsidir bu.

Maraqlıdır ki, xalq şairi Xəlil Rza da «Məni candan usandırdı» qəzəlini gəraylı şəklinə salaraq öz cinaslı misralarını da əlavə etməklə xalqımızın əbədi arzusunu bəyan etmişdir:

Şəbi hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xalqı əfğanım,
O sahildə, bu sahildə.
Birləşib bir can olmalı,
Bütöv Azərbaycan olmalı,
O sahil də, bu sahil də.

Elçinin «Klassik aşıq ədəbiyyatı ilə klassik ədəbiyyatımızın (göründüyü kimi elə çağdaş ədəbiyyatımızın da) qarşı-qarşıya duran iki qütbün deyil, ana xətdən ayrılan iki doğma qolun təcəssümüdür» – deyə hökm verməsi bir həqiqətdir. Bu, bütün monoqrafiya boyu öz təsdiqini tapır.

Tədqiqatçı qeyd edir ki, klassik aşıq poeziyamızın poetik formaları yaxşı araşdırılmışdır, lakin onun mövzu və məzmununun, fəlsəfəsinin poetik atributları diqqətdən kənarda qalmışdır.

Bütün toy-büsat məclislərində aşıqlar dünyadan söz saldıqları, onun keşməkeşlərini göz önünə gətirdikləri halda (xüsusən də ustadnamə və divanilərdə), aşıq poeziyasının poetikasında və fəlsəfi ideoloji məzmununda böyük əhəmiyyət kəsb edən obrazlardan olan «Dünya» obrazı tədqiq edilməmişdir. Halbuki klassik aşıq poeziyasında bu obraz, Elçinin xüsusi vurğuladığı kimi, özünün ən kütləvi ifadəsini tapmış və onun estetik-fəlsəfi tərkib hissəsinə, məxsusi faktına çevrilmişdir.

Bu, çağdaş ədəbiyyatımızda da belədir. Təəssüf ki, Elçinin qaldırdığı «Dünya» – İnsan (Zəmanə) problemlərindən, hətta klassik və çağdaş ədəbiyyatımızdan bəhs edən tədqiqatçılar belə yan keçmişlər.

Səməd Vurğunun «Dünya» şeirindən verdiyimiz misralar deyilənlərə dayaq olur:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin, bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

Sevimli şairimiz Məmməd Arazın şeiri də «Dünya»nı dərk etmək, tədqiqata cəlb olunmaq baxımından keçərlidir: «Dünya sənin, dünya mənim, dünya heç kimin».

Dondan dona girən, hərəni bir cür şirnikləndirərək yoldan edən, çox Süleymanlar yola salan dünya, bəndələrinin başını o qədər qatır ki, hətta onlar onun «Gəlimli-gedimli, son ucu ölümlü» olduğunu belə unudaraq çarpışırlar. Onu yalnız müdriklər duyur və yeri gəldikcə, onun iç üzünü tam çılpaqlığı ilə açıb göstərirlər. Belə müdriklərin arasında Elçinin söz açdığı Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Bəsti, Ağ Aşıq, Aşıq Bilal, Şəmkirli Hüseyn, Aşıq Alı, Ələsgər, Molla Cüma, Bozalqanlı Hüseyn, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqaları da vardır. Dünyanı dərindən dərk edən bu müdriklər insan oğlunu ona aldanmamağa «neçə min yol dolub, neçə min yol boşalan dünya»nın vəfasına inanmamağa çağırır:

Məleykə boyludu, şirin ləhcəli,
Əzəldən tamaşa olan bu dünya.
Qoca cadugərdi, aldadar səni
Cavanlıq donunda qalan bu dünya.
(Aşıq Bəsti)

Tədqiqatçı göstərir ki, «Dünya» obrazı həyatda əhd, vəfa, ilqar, dərd, sevinc, gündəlik güzərandan tutmuş xəyallar, arzular aləminəcən mənəvi (bəzən hətta maddi) dəyərlər ilə bağlı bədii suallar doğurur, cavab isə yoxdur. Həmin

bədii sualları doğuran zəmin isə müəllifin göstərdiyi kimi, «Dədə Qorqud»dan üzü bu yana «Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya» ovqatından, düşüncəsindən, fəlsəfəsindən ibarətdir.

Xəstə Qasım qalıb naçar,
Bu sirri bəs kimlər açar?
Gələn qonar, qonan köçər,
Hey salarsan talan dünya.

Aşıqlar «Dünya»nın faniliyindən çox söz salırlar. Eyni zamanda mərdlik, igidlik, etibar, saz, söz «Dünya»da qalır – deyərək təsəllini bunda tapırlar. Aşıqlar Dünyada insanları vara-dövlətə uymamağa, nəfsini saxlamağa, yaxşılıq etməyə, zülmdən, hiylədən, xəyanətdən uzaq olmağa, nikbin olmağa, səsləyir! Bütün bunlar barədə Elçinin əsərində yerli-yataqlı danışılmış, onun müddəaları ustad aşıqlardan verilən nümunələrlə əsaslandırılmışdır.

Yeri gəlmişkən, onu da deyim ki, Elçin klassik aşıq poeziyasının yaratdığı və vəsf etdiyi əsas bədii surətlərdən biri, bəlkə də, birincisi «Dünya» obrazı ilə sıx əlaqədə olan «Gözəl» obrazından da söz açır, lirik qəhrəmanın Gözəldən ötrü dünya varidatından keçməyə hazır olduğunu xüsusi vurğulayır. Yazıçı Qurbani, Tufarqanlı Abbas, Aşıq Alı, Ələsgər, Hüseyn Bozalqanlı, Molla Cüma, Əlimərdanlı Aşıq Nəcəf, Aşıq Şəmşir və bir çox başqa aşıqlardan gətirdiyi nümunələrlə tədqiqatını daha da sanballı, daha da oxunaqlı edir.

BİLİK ƏMƏLƏ ÇEVRİLƏNDƏ ÇİÇƏK AÇIR

Elçin folklorşünaslıq və ədəbiyyatşünaslıq sahəsindəki gərəkli və qiymətli «Özümüz və sözümüz» əsərini prof. Vilayət Quliyevlə birgə yazmışdır. Hər şeydən əvvəl, onu deyim ki, əsərin adı onun məğzini əks etdirmir. İllər, ağır zəhmət tələb edən, gərgin əməyin bəhrəsi olan sanballı tədqiqat əsərini iki

fəsildə: «Ədəbiyyatşünaslığa dair tədqiqlər» və «Folklorşünaslığa dair tədqiqlər» adı altında vermək və ayrı-ayrılıqda araşdırmaq daha münasib olardı.

Biz bu yazımızda müəlliflərin folklorşünaslığa dair tədqiqlərindən söz açacağıq. Giriş məqaləsində müəlliflərin göstərdiyi kimi, bu əsərdə mövsüm mərasimi və nəğmələri, yas mərasimi və nəğmələri, uşaq folkloru, arxaik janrlar, epik və lirik növ, onların janrları, lirik növdə bayatılar, xalq mahnıları, beşik nəğmələri, epik növdə nağıllar, atalar sözü və məsəllər, tapmacalar, lətifələr və s. tədqiqata cəlb olunur. Əsərdə aşıq poeziyasına, bu poeziyanın forma və janr xüsusiyyətlərinə, şeir şəkillərinə, sənətkarlıq xüsusiyyətlərinə xüsusi diqqət yetirilir. Giriş məqaləsində müəlliflər uzaqgörənliklə yazırlar: «Aşıq poeziyasının forma və janr zənginlikləri, sənətkarlıq xüsusiyyətləri də cild-cild kitabların mövzusu ola bilər. Qoşma, təcnis və s. haqqında kitablar yazmaq olar və belə kitablar mütləq yazılmalıdır.

Deyə bilərəm ki, müəlliflərin bu təbii arzusu artıq yerinə yetib. Qoşma və təcnisə dair məxsusi dissertasiyalar yazılıb və monoqrafiyalar çıxıb. Folklor terminləri lüğəti də işıq üzü görüb. Ayrı-ayrı aşıqların sənətkarlıq xüsusiyyətlərinə dair tədqiqatlar aparılıb, monoqrafiyalar çap olunub. Lakin «Özümüz və sözümüz» əsəri yazılanda bunların heç biri yox idi. Bu əsərin ən böyük qiyməti ondadır ki, folklorumuzun inkişafına kömək etdi, folklorla məşğul olanlara bələdçi rolunu oynadı. Onu da deyim ki, tədqiqatçılar əsəri yazarkən Azərbaycan folkloru nümunələrini istinad nöqtəsi kimi ortaya qoymuş, onlardan və aşıq poeziyasından bol-bol bəhrələnmişlər.

Müəlliflər adı çəkilən növ və janrlara dair elmi izahat və konkret misallar vermişlər. Bu, həqiqətən də, böyük zəhmət tələb edən, «iynəynən gor qazmağa bənzər» tədqiqat işidir. Bu ağır zəhmətə qatlaşmağın bircə anlamı var: Folklorumuza sonsuz məhəbbət!

Əsər lüğət formasında yazıldığına görə terminlər əlifba sırası ilə verilib. Əsərin şərti olaraq «Folklorşünaslığa dair tədqiqlər» adlandırdığımız bölməsində tədqiqata cəlb olunan məsələlərin sayı hesabı yoxdur. Həm nəzm, həm də nəsr şəklində olan ağılardan, ağıçılardan təfsilatı ilə danışılır, çoxlu misallar verilir. Arxaik və ya ilkin janrlar: alqış, qarğış, and, inanclar və s. gündəmə gətirilir. Atalar sözlərindən, acıqvermə aşıq sənəti, bağlamalar, balıqçı nəğmələri, bənzəmə, cığa, cığalı təcnis, dastan, dastan məclisi, deyişmə, divani, divani-müxəmməs, dodaqdəyməz, duvaqqapma, əmək nəğmələri, əlif-lam, ərz-hal, əfsanə, əsatir, gəraylı, gözəlləmə, gop, lətifə, layla, qaravəlli, qıfılbənd, qoşma, mahnılar, meyxana, məsəllər (deyimlər), məclis (dastanlarda «boy», «qol» terminlərinin sinonimi. Məsələn, «Koroğlu» eposunun Gürcüstan Əlyazmaları İnstitutunda saxlanılan əlyazması 28 məclisdən ibarətdir), möhürbənd, folklorumuzda geniş yayılmış mükalimə (məsələn, məşhur «Sandığa girsəm neylərsən?»), müxəmməs (aşıq poeziyasında, həm də yazılı ədəbiyyatda geniş işlənir), nağıllar, nağıl başı, pişrovdur ki, ona nağıl yaraşığı, nağıl bəzəyi də deyirlər. Nəğmə – Azərbaycan şifahi xalq poeziyasının şəkillərindən biri, ovsun, ovçu nəğmələri, ozan, oxşamalar, rəvayət (məsələn: «Qız qalası» poeması rəvayət əsasında yaranmışdır), sağın nəğmələri, sayalı sözlər, sınanmalar, sicilləmələr, söyüşlər, təcnis, ustadnamə, halay mahnıları, hana nəğmələri, haxışta, hərbə-zorba, holavarlar, şəbədə, şivən, vəsfi-hallar, vücudnamələr, yanıltmaclar və s.

Bütün bu sadaladıqlarımız haqqında əsərdə təfsilatı ilə danışılıb. Çoxunun etimologiyası barədə söhbət açılıb, şərhlər verilib. Bu, Elçinin folklor və aşıq yaradıcılığı, aşıq sənəti barədə gördüyü gərəkli işin az bir hissəsidir.

ƏBƏDİ ABİDƏMİZ, MÜDRİKLİK MƏKTƏBİMİZ

Xalqımız dövlət müstəqilliyi qazandıqdan sonra mənəvi irsimizin yeni elmi düşüncə və yeni metodoloji meyarlarla öyrənilməsi zərurəti ortaya çıxdı. Bu zərurəti ilk duyan yazıçılarımız: Anar, Elçin və Kamal Abdulla oldu. Bu yazım Elçin haqqındadır. Elçinin «Dədə Qorqud» bəşəriliyi», «Kitabi-Dədə Qorqud» qələbəsi», «Dədə Qorqud» qayıdışı», «Dədə Qorqud» həmişə xalqımızla olmalıdır», «Kitabi-Dədə Qorqud» aliliyi» məqalələri ədəbi-elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Burada Elçinin Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb dillərinə tərcümə edilərək gözəl illüstrasiyalarla çap edilmiş «Kitabi-Dədə Qorqud» aliliyi» (Bakı-1999) kitabından söz açmaq istərdim. «Kitabi-Dədə Qorqud»dan seçmə parçalar da verilmişdir ki, əsəri daha da oxunaqlı edir.

Görkəmli rus alimi M.Baxtinin kəlamı var: «Özgə mədəniyyət yalnız başqa mədəniyyətin gözündə özünü tam və dərindən göstərir». O da var ki, «Kitabi-Dədə Qorqud» kimi böyük sənət abidələri özgə mədəniyyətlərlə müqayisədə bütün qatları ilə açılır və dərk olunur. Mənə görə Elçinin bu əsərinin ən böyük qiyməti bu ali amala xidmətindədir. Elçinin bu əsəri sırf tədqiqat işidir. Araşdırıcı ilk öncə «Kitabi-Dədə Qorqud»u tədqiq və təhlil etmiş, nəşrə hazırlamış, şərhlərini yazmış, lüğətini tərtib etmiş və bir çox dünya dillərinə – alman, rus, ingilis, fransız, türk, ərəb, fars, serb, gürcü, türkmən, qazax, latış və s. tərcümə etdirərək nəşr etmiş, dünya qorqudşünaslarını ehtiramla yada salmış, «Kitabi-Dədə Qorqud»un ilk tərcüməçisi, alman alimi Henrix Fridrix fon Ditsdən xüsusi söz açmışdır. Yazıçı haqlı olaraq «Kitabi-Dədə Qorqud»un tədqiqi tarixini, Fridrix Ditsin 1815-ci ildə Basatın Təpəgözü öldürdüyü boyu tərcümə edərək nəşr etdirdiyi ildən başladığını qeyd edir. Elçin «Kitabi-

Dədə Qorqud»un üç qədim əlyazma nüsxəsinin – on iki boydan ibarət Drezden nüsxəsinin, altı boydan ibarət Vatikan nüsxəsinin və vaxtilə F.Ditsin İstanbulda əldə etdiyi, yarımçıq Berlin nüsxəsinin olduğunu göstərir.

Qeyd etməliyəm ki, abidənin Berlin əlyazma nüsxəsi Drezden nüsxəsindən köçürmədir. Hətta Drezden nüsxəsindəki səhvlər də eyni ilə təkrar olunur. Əgər belə olmasa idi, bu nüsxə üzərində də tədqiqat aparılardı. (Mən Flora Əlimirzəyevanı «Kitabi-Dədə Qorqud» dastanlarının alman dilinə tərcüməsi və tədqiqi» adlı doktorluq dissertasiyasının müdafiəsi zamanı rəsmi opponent olaraq Berlin nüsxəsinin ayrıca əlyazma olduğunu göstərdiyinə görə tənqid etmişdim.)

F.Ditsin xidmətlərindən biri də elmi faktlarla alimin «Kitabi-Dədə Qorqud»un Homerin «Odisseya» əsərindən əvvəl yarandığını göstərməsidir. Elçin o fikirdədir ki, türk xalqlarının bir sıra qədim abidələri başlanğıcını «Kitabi-Dədə Qorqud»dan almışdır. Və o bu qənaətə çoxsaylı tədqiqatlarla tanışlıqdan sonra gəlmişdir. Bir çox görkəmli alimlər qəti fikir söyləmişlər ki, «Kitabi-Dədə Qorqud» Azərbaycan dilində yazılmışdır. Elçin dilimizin çağdaş vəziyyətini göz önünə gətirərək deyilənləri təsbit edir. Elçin «Kitabi-Dədə Qorqud»un çox əski zamanlarda yarandığını göstərir, hətta onun yubileyini keçirdiyimiz 1300 il rəqəmini şərti hesab edir və bircə misalla fikrinin doğruluğunu təsdiqləyir: «Azərbaycan qorqudşünaslığı hesablamışdır ki, «Kitabi-Dədə Qorqud»da 2721 sözdən istifadə olunmuşdur və bunların yalnız 559-u ərəb-fars mənşəlidir. Bu faktın özü də eposun qədimliyinin göstəricisidir».

Elçin sovet dönəmində «Kitabi-Dədə Qorqud»a olan basqılardan, onun «həbsə» məruz qalmasından ürəkağrısı ilə danışır və alimlərimizin fədakar əməyini gündəmə gətirir. Müstəqillik dövründə görülən işlərə nəzər salır.

Yazıçı Adam Olear və Övliya Çələbinin Dədə Qorqudun qəbrindən söz açan səyahətnamələrini yüksək qiymətləndirir, Dədə Qorqudun tarixi şəxsiyyət olub-olmadığından bəhs edən əsərləri tədqiqatına cəlb eləyir. Qəti qənaətə gəlir: «Əsrlər boyu yaşayan, qopuzunu sinəsinə sıxıb söz söyləyən bədii surət Dədə Qorqud elə Dədə Qorqudun özüdür».

Müdriklik məktəbi olan Dədə Qorqud insanları ayıq olmağa, dünyanın şirinliyinə aludə olmamağa, dondan-dona dirən dünyanın «gəlimli-gedimli, bir ucu ölümlü» olduğunu unutmamağa çağırır, ibrət götürməyi tövsiyə edir.

Hanı dediyin bəy ərənlər,
Dünya mənimdir deyənlər?
Əcəl gəldi, yer gizlətdi,
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!
Ən nəhayət, uzun yaşın,
Sonu ölüm, axırı ayrılıq.

Bütün bunlar barədə Elçinin «Kitabi-Dədə Qorqud aliliyi» əsərində oxuduqca fikrə qərq oldum. Həm məni dərindən düşündürməyə vadar etdiyinə, həm də əbədi abidəmiz, müdriklik məktəbimiz «Kitabi-Dədə Qorqud»a layiq əsər yazdığına görə müəllifə ürəyimin dərinliklərindən gələn minnətdarlığımı bildirdim.

YAZILI VƏ ŞİFAHİ ƏDƏBİYYATIMIZ HAQQINDA DÜŞÜNCƏLƏR

Elçinin fəlsəfi düşüncələrini əks etdirən «Karvan yola düzülür» folklorumuzdan, aşıq poeziyası ilə yazılı ədəbiyyatımızın vəhdətindən, onların bir-biri ilə sıx əlaqəsindən bəhs edir. «Yazıya pozu yoxdur» epiqrafı ilə başlayan tədqiqat

işi Elçinin xalqımız, yazılı və şifahi ədəbiyyatımız haqqında düşüncələrini içinə alır. Yazıçı göstərir ki, ilk laylamızı nə vaxt eşitmişiksə, ilk nəğməmiz nə vaxt oxunubsa, ilk nağıllarımız nə vaxt söylənibsə, o karvan da, elə o vaxtdan yola düzülüb. Bizim ulu babalarımız o karvanı üzü bəri bizim üçün yola salıblar, biz də o karvanı balalarımıza, nəvələrimizə, nəticələrimizə, kötükcələrimizə, yadcalarımıza (bəzi bölgələrdə «iticə» – Q.P.) layiqincə ötürməliyik ki, onların mənəvi dünyasını işıqlandırsın.

Göründüyü kimi söhbət var-dövlətdən, ləl-cəvahiratdan getmir. O karvan heç vaxt qiymətini itirməyən sərvətdir. Azərbaycan xalqının mənəvi və milli sərvətindən – xalqın istək və arzularının, təsəvvür və təfəkkürünün, mənəvi aləminin güzgüsü, bitib-tükənməyən incilər xəzinəsi olan folklordan, ulu ozan – aşıq sənətinin görkəmli nümayəndələrinin söz xəzinəsindən və nəhayət, ümmana bənzər yazılı ədəbiyyatımızdan gedir.

Yazıçı milli şüurumuzun inkişafı və formalaşmasında müstəsna rolu olan nağıllardan, laylalardan, bayatılardan, andlardan, nazlamalardan, dastanlardan söz açır, fikrini təsdiqləmək üçün müdrik şair və aşıqlardan misallar gətirir, adət-ənənələrimizə geniş yer verir. Dilimizdən söz açır. XIX əsrin birinci yarısında Qafqaza gələn M.Lermontovun Azərbaycan dili barədə bir çox mətləblərdən söz açan məşhur kəlamını iftixarla bəyan edir. «Necə ki, Avropada fransız dili, bu dil də burada və ümumiyyətlə, Asiyada zəruridir». Elə buradaca Elçin ciddi bir məsələyə də toxunur. XIV əsrdə – bir çox xalqların hələ özünü yenicə tanımağa başladığı bir dövrdə Azərbaycanda fəlsəfi şeirin əsasını qoyan Nəsimi kimi bir dahinin yetişdiyini önə çəkir. Xalqın mənəvi sərvətini, ilk növbədə, həmin xalqın dili yaradır və yaşadır – deyir. Yazıçı dilimizi yaşadanlardan: Qazi Bürhanəddin, Nəsimi, Xətai, Füzuli, Vaqif, Vidadi,

M.F.Axundov, Sabir, Hadi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyovdan söz açır.

Aşıqlardan: Qurbani, Abbas Tufarqanlı, Aşıq Bəsti, Aşıq Pəri, Aşıq Alı və Ələsgərin yaradıcılığını yüksək qiymətləndirir və onların xidmətlərinin misilsiz olduğunu xüsusi vurğulayır. Fikrini təsdiq üçün Qurbanidən, Tufarqanlı Abbasdan, Aşıq Bəstidən nümunələr gətirir:

Şeiri, gözəl, mən söylərəm şanına,
Olsun varım qurban sənin canına,
Mən yetiməm, bir al məni yanına
Gəlsin onda kef, damağa ləblərin!..
(Qurbani)

Mənə belə gəlir ki, Abbas Tufarqanlının aşağıdakı misralarını saz-söz sənətinə az-çox maraq göstərən elə bir adam tapılmaz ki, əzbər bilməsin. Yəqin buna görədir ki, Elçin həmin şeiri xüsusi təhlilə çəkir:

Ay həzərat, bir zamana gəlibdi,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Adam var geyməyə tapammaz bezi,
Adam var al geyər, şalı bəyənməz.
Adam var ki, çörək tapmaz dünyada,
Adam var yağ yeyər, balı bəyənməz.

Bu fəlsəfi şeirdə aşıq real həqiqətlərdən söz açır. Aşığın bu qoşması, əslində, təkcə aşığın zamanı üçün deyil, bütün zamanlar üçün keçərlidir. Göründüyü kimi, poeziya həyatın təcəssümüdür, daha doğrusu həyatın özüdür. Əslində, poeziyada həyat həqiqətdə olduğundan daha həyatidir (V.Q.Belinski).

Elçin bu əsərdə Xurşidbanu Natəvanın bibisi, Qarabağ Xanı İbrahimxəlil xanın qızı Ağabəyim ağadan və ona aid edilən məşhur bayatıdan da söz açır.

Mən aşiqəm qara bağ
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Biz «ona aid edilən» ifadəsini təsadüfi işlətmədik. Bu bayatının başqa bir variantı da vardır.

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Bağdad cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ.

Bundan əlavə İraqda yaşayan azərbaycanlıların Qarabağla bağlı gözəl bir bayatısı vardır:

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən,
Yoxsa yollar bağlıdı.

Kərkük şəhərində «Qarabağlı» məhəlləsi olub, indi «Bulaq» məhəlləsi adlanır. Orada «Qarabağlı» və ya «Qarabağı» adlı uzun bir hava vardır. Kərküklü folklorşünas Əta Tərzibaşı onun Qarabağdan aparıldığını qeyd edir. Söhbət «Qarabağ şikəstəsi»ndən gedir.

SƏNƏTİN ZİRVƏSİNDƏ BƏRQƏRAR OLAN FİLOSOF AŞIQ

Bu məqalə Aşıq Ələsgərin sözü və sazı barədə bir manifestdir. Elçinin ulu aşıq sənətinə, aşıq poeziyasına vurğunluğunun, sonsuz məhəbbətinin bariz nümunəsidir. Yazıçı Aşıq Ələsgər yaradıcılığını milli hadisə, milli mədəniyyətin faktı kimi təsbit etməkdə haqlıdır. Dahi Üzeyir bəy vaxtilə deyirdi: «Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər götürə biləcəyi pay vardır». Göründüyü kimi aşıq yaradıcılığı ədəbiyyat, musiqi, ifaçılıq, rəqs və teatr elementlərini özündə birləşdirən çoxcəhətli sinkretik sənətdir. Yazıçı bütün bunları elə gözəl təqdim edir ki, bu sənətə vaqif olmayanların belə Elçinin təhlilindən sonra onu anlayacaqlarına şübhə yeri qalmır: «Aşıq – şairdir. Aşıq – yazıçıdır (dastanlar yaradır). Aşıq – dramaturqdur (deyişmələr, dialoqlar). Aşıq – bəstəkardır («Dilqəmi»dən tutmuş «Ruhani»yəcən, «Yanıq Kərəmi»dən tutmuş «Keşişoğlu»nacan yüzlərlə havacatı kim yaradıb? Naməlum aşıq!). Aşıq – müğənnidir. Aşıq – bugünkü ifadə ilə desək, bədii qiraət ustasıdır. Aşıq sənəti, əslində, bir fərdin yaratdığı teatrdır».

Tədqiqatçı Aşıq Ələsgərin aşıq sənətinin memarlarından biri olduğunu xüsusi vurğulayır və göstərir ki, Aşıq Ələsgər bu ölməz sənəti yaradıb-yaşadanlardan Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Şəmkirli Hüseyn, Molla Cüma, Hüseyn Bozalqanlı kimi aşıqlarla bərabər bu sənətin zirvəsində layiqli yerini tutmuşdur. Çünki əvəzsiz şairdir, filosofdur, estetikdir, humanistdir, moralistdir, maarifçidir, ilahiyyatçıdır, materialistdir, romantikdir, realistdir.

Yazıçı bütün bu deyilənləri aşığın yaradıcılığından gətirdiyi misallarla təsdiq edir.

İKİYƏ BÖLÜNMÜŞ ÜRƏYİN HƏSRƏT NƏĞMƏLƏRİ

Yadıma keçən əsrin 80-ci illərinin ortaları gəlir. Elçinin ədəbi hadisəyə çevrilən «Mən sizdən ayrılmazdım» məqaləsini oxuyub Yazıçılar İttifaqına yollandım. İttifaqın katibi Elçin məni artıq yaxşı tanıyırdı. Folklora dair bir neçə kitabım və «Altı il Dəclə-Fərat sahillərində» əsərim çıxmışdı. Həmin məqaləsində Elçin mənim tərtib etdiyim, böyük həcmli «İraq-türkman bayatıları» kitabımı da xüsusi vurğulamışdı.

Elçinin yanına Güney Azərbaycanın folklorunu içinə alan, tanınmış folklorşünas Bəhlul Abdullanın «Arazam, Kürə bəndəm» kitabına yazdığı həsrət, kədər dolu «Mən sizdən ayrılmazdım» məqaləsi barədə fikrimi bölüşməyə getmişdim.

Deməyə söz çox idi. «Arazam, Kürə bəndəm» kitabında bayatılar, atalar sözü və məsəllər, nağıllar, sayaçı sözlər, lətifələr, uşaq folkloru nümunələri (laylalar, nazlamalar, düzgülər), oyunlar, vəsf-hallar, qaravəllilər, tapmacalar (bilməcələr), gələcək nəsillərə dəyərli töhfə olan, elə bizim özümüz üçün də böyük qiymət kəsb edən «Tufarqanlı Aşıq Abbas dastanı» toplanmışdır.

Mən «Arazam, Kürə bəndəm» və Kərkük folklorunda yer alan nümunələri müqayisə edəndə aydınca gördüm ki, onlar xalqımızın tarixini, taleyini, psixologiyasını, adət-ənənəsini, istək və arzularını ifadə edən söz inciləridir.

Elçin də bunu dərindən duymuş və «Mən sizdən ayrılmazdım» məqaləsində müqayisələr yolu ilə üzə çıxarmışdı. Elçinin atalar sözləri və bayatılar üzərində apardığı müqayisəli təhlillər göstərir ki, o, folklorumuzun dərin qatlarına enərək ən qiymətli inciləri üzə çıxarmağa qadir, ondan yerliyerində istifadə etməyi bacaran səriştəli folklorçudur.

«Arazam, Kürə bəndəm» kitabını tədqiqat süzgəcindən keçirən müəllif bayatılarla bağlı yazır: «Onların estetik gözəlliyinə, məna dərinliyinə vardıqca, istər-istəməz, xalq dühasının ucalığına, ülviliyinə, qadirliyinə heyrət edirsən».

Bu sətirləri oxuyarkən gözlərim önündə «Arazam, Kürə bəndəm» kitabının tərtibçisi, əməkdar elm xadimi, mərhum Bəhlul Abdulla ilə axarlı-baxarlı, ətrafı meşə, dağ silsiləsi ilə əhatə olunan Topçu meşəsi ilə məşhur Buynuz kəndində Musa Yaqubu ziyarət etdiyimiz və şairin dediyi: «Bəzən şeir yazanda bayatıdan utanıram» sözləri canlandı.

Həqiqətən də, hər birində bir dünya fikir olan, hər misrasına bir dünya ürək döyüntüsü sığmayan, hər biri ayrı-ayrılıqda bitkin bədii əsər olan bu kiçik parçalarda məna ilə bərabər, fəlsəfi fikrin yığcamlığı, əxlaqi və ictimai anlamların dərinliyi diqqəti çəkir. Hələ bu az imiş kimi, xalq yeri gəldikcə, öz ürək sözünü daha dəqiq, daha tutarlı, daha inandırıcı demək üçün bayatılarda atalar sözlərindən də istifadə edir.

Epik növdə, xüsusən də nağıl və dastanlarda xalqın dilək və arzuları müəyyən əfsanəvi ünsürlərlə qarışdığı halda, lirik növdə, ələlxüsus da bayatı və aşıq poeziyasında bu arzu və dilək tamamilə real ünsürlərdən ibarət olur. Buradakı sevgi də, nifrət də, kədər və ələm də həyatiliyi ilə seçilir (Mehdi Hüseyn).

Elçin «Arazam, Kürə bəndəm» kitabındakı folklor nümunələrini təhlil etməklə, tərtibçiyə layiq olduğu qiyməti verməklə kifayətlənmir (onda o, Elçin olmazdı), folklorumuzun o vaxtkı vəziyyətinə qiymət verir. Xüsusi vurğulayır ki, biz folklorla bağlı tədqiqatlarımızı, elmi fəaliyyətimizi məhz xalq dühasının ucalığı səviyyəsində aparmalıyıq. Dissertasiya xatirinə folklora girişənlərə, mətbuat səhifələrində, qondarma «folklor» və folklorla bağlı bəsit «tədqiqat» kitablarının üz qabığında tez-tez rast gəlirik. Halbuki,

folklorla ən istedadlı və yüksək elmi-nəzəri savada malik alimlərimiz məşğul olmalı, təsadüfi adamların meydana girib at oynatmasının qarşısı alınmalıdır.

Bütün bunlar barədə düşünə-düşünə Elçin müəllimin iş otağının qapısını döydüm. Diqqətimi ilk çəkən yazıçının mehribanlığı və adamı dinləmə qabiliyyəti oldu. İngilis yazıçısı Ceyms Oldricin «İkiyə bölünmüş bir ürək» adlandırdığı Azərbaycanın, şərti olaraq «Cənubi Azərbaycan folkloru» adlandırdığımız folklorunu ehtiva edən «Arazam, Kürə bəndəm» kitabına həsr olunmuş məqalədən, otaylı-butaylı Azərbaycandan danışdıq. Mən müəllimim prof. Arif Məmmədovun musiqi bəstələdiyi mahnıdan bir bəndi yada saldım:

Aramızdan axıb gedir,
Araz bulana, bulana.

Seyr edirəm görkəmini,
Yaram sulana, sulana.

Elçin qələm götürüb həmin misraları kağıza köçürdü və gözləmədiyim halda dedi:

– Qəzənfər müəllim, Kərkük folkloruna dair hansı kitabları nəşr etdirmisiniz?

Mən xalq şairi Rəsul Rza ilə birgə çap etdirdiyim «Kərkük bayatıları»ndan başlamış «Arzu-Qəmbər» dastanı, «Kərkük mahnıları», «İraq-Kərkük bayatıları», «Kərkük tapmacaları», «Kərkük atalar sözləri» və s. kitabların adını çəkdim.

– Onların hərəsindən bir nüsxə mənə gətirin. Kərkük folkloruna dair də məqalə yazmaq fikrindəyəm.

Elçin müəllimin bu təklifi məni sevindirsə də səmimiyyətlə, bəlkə də, sadəlövhlüklə dedim ki, çox ilhamla yazılmış «Mən sizdən ayrılmazdım» məqalənizdə ürəyinizi boşaldıb-

sınız. Eyni folklordur. (Onda hələ öndərimiz Heydər Əliyev tarixi kəlamını deməmişdi: «Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır».) Apardığım tədqiqatlar bunu deməyə əsas verirdi. Qoy bir az keçsin – dedim.

Elçin təbəssümlə dedi: – Hərgah belədirsə, qoy sonraya qalsın. Sizin dediyinizdə bir həqiqət var.

Aradan illər keçdi. Öz günahım ucbatından o əsərin yazılmaması barədə indi ürəkağrısı ilə düşünürəm.

ƏSL MƏHƏBBƏT ÖTƏRGİ OLMUR

Elçin kimdən və nədən yazır yazsın, dünyanın hansı guşəsində olur olsun, mütləq folklorumuzla, aşıq yaradıcılığı ilə yol yoldaşı olur. Sərrastlığı və dəqiqliyi ilə seçilən, insana hikmət bəxş edən folklordan, müdrik ustad aşıqların kəlamından məqamında istifadə Elçin yaradıcılığında, xüsusən də onun publisistik yazılarında qırmızı xətt kimi keçir. Yazıçı görkəmli ictimai xadim Heydər Əliyevə həsr etdiyi «Tarixlə üz-üzə dayanmış adam» məqaləsində Aşıq Hüseyn Bozalqanlıdan o məqamda istifadə edir ki, o məqamda yəqin ki, ayrı bir təsəlliverici söz tapıb işlətmək çətin olardı.

Bu qoca dünyanın yoxdu vəfası –
Gah boşalıb, gah da dolan görmüşəm.

Yazıçının ölməz Bülbülə həsr etdiyi çox sanballı, insanın vücuduna sirayət edən (yazıçının bütün esseləri belədir. Onları həyəcansız oxumaq olmur) «Yaxan düymələ, düymələ» essesində gəldiyi qənaət adamı heyran edir:

«Bülbülün nəfəsi, vurduğu xallar o qədər doğma və məlhəmdir ki, elə bil, Azərbaycan məhəbbət dastanlarının bütün qəhrəmanları – Qərib də, Şah İsmayıl da, Kərəm də, Abbas da xalqın ruhu ilə yaşayan bir vahid obrazda ümumi-

ləşdirilərək əvvəli və sonu olmayan, həyatı yaradan və yaşadan sevgidən, vurğunluqdan söz açır».

Və ya yazıçının oxuyanda adamı haldan-hala salan «Bülbülün nağılı» əsərini götürək. Bu əsərin leytmotivini Dədə Qorqudun öyüdləri, nəsihətləri təşkil edir. Çoxu az görən, zehni iti olan, bəxti gətirən, yığdıqca yığan, gözü doymayan, qiymətli daş-qaşı saxsı küpələrə yığdıqca hərisliyi artan tacirin saz dinləməyə, «Dədə Qorqud» boylarına qulaq asmağa vaxtı olmamışdı. Var-dövlətə hərislik gözünü tutduğundan, qəlbinə hakim kəsildiyindən dünyanın «gəlimli-gedimli, bir ucu ölümlü» olduğunun fərqinə belə varmamışdı. Lakin gec idi. Ölüm onu haqlamışdı. Çox mətləblərdən söz açan hekayə ibrətamizdir.

Elçin hekayələrinin təsir gücünü daha da artırmaq üçün onların məzmununa uyğun folklor və aşıq yaradıcılığından epiqraf verməyi də unutmur. Məsələn, «Ayaqqabı» hekayəsinə Xəstə Qasımdan «Dəli könül nə divanə gəzirsən», «Bozluq içində iki nəfər» hekayəsinə isə Tufarqanlı Abbasdan epiqraf vermişdir: «Döz, bağrı daş olan könlüm».

Elçin yeri gəldikcə, epiqraflarda zərb-məsəllər və atalar sözlərindən də istifadə edir. Məsələn, «Karvan» yola düzülür» məqaləsi «Yazıya pozu yoxdur» el sözü ilə başlayır.

Yazıçının «Doğru yoldan gəc olmayaq…» başlıqlı məqaləsi «Şəfqət» qəzeti barədədir. Burada da Abbas Tufarqanlıya müraciət edir:

Doğru yoldan gəc olanda
Namus gedər, ar əylənməz.

Bu, «Şəfəq» qəzetinin əməkdaşlarına müdrik bir ismarıcdır.

«Üzü ağ dünyanın adamı» akademik Bəkir Nəbiyevə həsr olunub. İlk dəfə Şuşada tanış olduqlarını yada salan (mən Elçinin 10 cildliyini ikinci dəfə oxuyanda anladım ki, Elçinin həsrəti Şuşanın bu günü ilə bağlıdır. Az yazısı olar ki, Şuşa-

dan söhbət açmasın) yazıçı Bəkir müəllimi «üzü ağ dünyanın adamı» adlandırır və bu münasibətlə Xəstə Qasımı yad edir:

Taki mənə mədh eləmə dünyanı,
Ha bu dünya bir bekara dünyadı.
Hələ Adəm ilə Həvvadan qabaq,
Bir üzü ağ, biri qara dünyadı.

Yazıçı necə də dəqiq müşahidə etmişdir. Bəkir müəllim, həqiqətən də, öz xeyirxahlığı, alicənablığı ilə «Üzü ağ dünyanın adamı»dır. Bu, epitet Elçin müəllimin tapıntısıdır.

Elçin qardaşı Timuçinin oğlu Yalçın gənc ikən əbədiyyətə qovuşanda «Yalçınlı və Yalçınsız dünyamız» adlı qəmqüssə, kədər dolu məqalə yazdı. Dünyanın vəfasızlığından söz açdı. Təsəllini Aşıq Şəmşirin misralarında tapdı:

Ayrılıq təbilini çalan dünyadı
Gözəlliyi əldən alan dünyadı.

Elçin həyatdan tez getmiş Sabir Süleymanovun (1979) «Çinar kəhrizin suyu» kitabına (1985) yazdığı ön sözdə də aşıq yaradıcılığına, Aşıq Ələsgərə müraciət edir:

«Vaxt olacaq, ömür yetəcək sona» misrasını və uşaqlıqda Şuşa dağlarında eşitdiyi bayatını dilə gətirir.

Çiçəklər hala gəldi,
Arılar bala gəldi.
Nə günah eylədim ki,
Başıma bəla gəldi.

Yazıçı «Qabrovo görüşləri» adlı çox maraqlı və təsirli səfər qeydlərində əslən Güney Azərbaycandan olan, Parisdə yaşamaq məcburiyyətində qalan, vətən həsrətli Mustafa Ramazani ilə tanışlığından söz açır. Mustafa ondan bayatı deməsini xahiş edir:

Mən aşıq, keçdi məndən,
Su gəldi keçdi məndən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Mustafanın dediyi bayatı da yerinə düşür.

Mərd çəkər,
Sənsiz könlüm dərd çəkər.
Vətənin qeyrətini
Namərd çəkməz, mərd çəkər.

Beləcə, uzaq ölkədə ikiyə bölünmüş Azərbaycanın iki övladı qəm-qüssə, kədərin acısını bayatı ilə çıxarır, təsəllini folklorda tapırlar.

«Yaxın, uzaq Türkiyə» səfər qeydlərində də yazıçı aşıq poeziyasına müraciət edir:

Səyyah oldum, bu aləmi dolandım,
Bir dost bulammadım, gün axşam oldu.
Min ürəyə, min könülə boylandım,
Bir dost bulammadım, gün axşam oldu.
(Qul Hümmət, XVII əsr türk aşığı)

Eləcə də Yunus İmrədən nümunə verir:

Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!

– deyə vaxtilə Azərbaycanda çox böyük marağa səbəb olan yazısına son qoyur.

Yazıçı «Palma ülfəti» adlı Tunisdən yol qeydlərində Aşıq Ələsgərin atası Aşıq Alməmmədi yada salır. Tunisdə nədənsə xiffət keçirdiyini aşığın misraları ilə izhar edir:

Dünya, sənin gərdişindən,
Başa vuran görəmmədim.

Elçin Qanaya səfəri zamanı qələmə aldığı «Yanan ağacın şəfəqləri» yol qeydlərində həmkarları ilə söhbətlərini yada salır. Dünyamızın keşməkeşləri, ədalətsizlik, kiçik xalqlara zülm onu narahat edir:

«Söhbət əsnasında mən parçalanmış, bölünmüş xalqlar barədə müxtəlif mədəniyyətli ölkələr arasında didərgin millətlər barədə düşünürəm» – deyir və yenə də folklorumuzu köməyə çağırır, yenə də təsəllini bayatılarımızda tapır:

Aşıq üzüm bağları,
Düzüm-düzüm bağları.
Bağa baltaçı girdi,
Kəsdi bizim bağları.

Yazıçı «Ölümünə inanmadığım adam» məqaləsində ürək ağrısı ilə gənclik dostu, böyük ziyalımız Araz Dadaşzadəni yada salır. Bu ağır məqamda köməyinə Abbas Tufarqanlının misraları gəlir, təsəllini həmin iki misrada tapır:

Bu dünya karvansaradır,
Hər gələn qonar, əylənməz.

Göründüyü kimi, Elçin ağrılı-acılı məqamlarda yazdığı məqalələrində təskinliyi folklorda, aşıq yaradıcılığında axtarır və tapır da. Görkəmli Azərbaycan dilçisi Tofiq Hacıyevin oğlu Leninqrad Universitetinin Ərəb filologiyasında oxuyurdu. Çox istedadlı gənc idi. Yaradan bu 19 yaşlı gəncə tez qıydı. Xəzər dənizində qərq oldu. Nə yaxşı ki, hekayələrini qovluqda səliqə ilə yığıbmış. Elçin onun «Yadda qalan günlərim» kitabına ön söz yazdı. Ön sözdə İsmayılın faciəli ölümü barədə qəm-qüssəsini oxucu ilə Aşıq Ələsgərin misrası ilə bölüşdü:

Dərdini bölüşdür, qədirbilənnən...

Yazıçı «Yaz dumanı bar gətirir» məqaləsində adət-ənənələrimizdən, milli bayramımız Novruzdan söz açır. Yenə də aşıq yaradıcılığına müraciət edir. Mövzusu ilə bağlı Abbas Tufarqanlını yada salır. Fikrində yanılmadığının təsdiqini ustad aşığın misralarında tapır:

Payız olcaq bağlar tökər xəzəli,
Bahar olcaq bağçalara bar gəli.
Bir iyidin olsa baxtı, iqbalı,
Cənnət bağçasından ona nar gəli.

Telli Pənahqızının «Səsində ay işığı var» kitabına yazdığı «Hislərin poeziyası» adlı ön sözdə də aşıq poeziyasına müraciət edir. Telli Pənahqızının «Nə səni, nə məni duydu bu dünya» şeirini təhlil edərkən Xəstə Qasımdan söz açır:

Gəl bir səndən xəbər alım,
Süleymandan qalan dünya.
Əzəli gül kimi açıb,
Axırında solan dünya – deyir.

Elçin aşıq yaradıcılığından yeri gəldi-gəlmədi deyil, haqqında yazdığı qələm sahibinin yaradıcılığına münasib məqamda istifadə edir.

Yazıçı «Süleymandan qalan dünyanın layiqli sakini» məqaləsində də Xəstə Qasımı köməyə çağırır:

Neçə min yol boşalıbsan,
Neçə min yol dolan dünya.

Elçin «dünyanın neçə min yol dolması və boşalması» arasındakı fanilik barədə düşünəndə, o düşüncə onu gətirib müdriklərin söz bağçasına çıxarır, təskinliyi və təsəllini onların hikmətində, müdrik kəlamlarında tapır.

Müdriklik zirvəsinə aparan yollarda Elçinin folklorla, aşıq yaradıcılığı ilə bağlı fəaliyyəti barədə yazıma son verərkən

V.Q.Belinskinin bir kəlamı qəlbimə hakim kəsildi: «Xalq ədəbiyyatının qiymətli gövhərlərini… unudulub tələf olmaqdan qoruyan (həm də təbliğ edən – *Q.P.*) təvazökar və qərəzsiz adamların zəhməti hər cür təqdir və təşəkkürə layiqdir». Hərgah (Elçinə məxsus ifadəni işlətdiyimə görə məni bağışlasın) «təvazökar və qərəzsiz adam» ifadəsinə diqqət yetirsək, bu kəlamdan bir qənaətin də hasil olduğunun fərqinə vararıq. Bu da ondan ibarətdir ki, Elçinin gördüyü bu boyda işi başqa birisi görmüş olsaydı, görkəmli filoloq alimimiz Nizami Cəfərovun təbirincə desək, ədası yerə-göyə sığmazdı.

14.01.2012

MÜƏLLİF HAQQINDA

Paşayev Qəzənfər Məhəmməd oğlu – ədəbiyyatşünas, publisist, dilçi, folklorşünas və tərcüməçi, filologiya elmləri doktoru (1993), professor (1995) 27 avqust 1937-ci ildə Tovuz rayonunun Düzqırıxlı kəndində anadan olmuşdur. Orta təhsili Düzqırıxlı kəndində alıb (1946–1956). Azərbaycan Dillər İnstitutunun İngilis–Azərbaycan dilləri fakültəsini bitirmişdir (1962). İxtisası ingilis və Azərbaycan dilləri müəllimidir. 1989-cu ildən Yazıçılar Birliyinin üzvüdür. Fəaliyyətə Əli Bayramlı rayonunun Vladimirovka kəndində ingilis dili müəllimi kimi başlamış (sentyabr-noyabr, 1962-ci il), sonra isə İraqda ingilis və rus dilləri üzrə tərcüməçi işləmişdir.

1964–1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda (1973-cü ildən M.F.Axundov adına APİ) fəaliyyət göstərmiş, institutun ingilis dili fakültəsində dosent, dekan müavini (1970–1971), xarici dillər kafedrasının müdiri (1972–1989) olmuşdur. 1989–1999-cu illərdə ADU-nun Qərbi Avropa dilləri kafedrasında çalışmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində «Beynəlxalq əlaqələr» şöbəsinin müdiri olmuş (2001–2005), eyni zamanda 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçidir.

Rəsmi nümayəndə heyəti tərkibində Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə İraqda (sentyabr, 1994) və Türkiyədə (noyabr, 1994), Azərbaycan mədəniyyəti günlərində Səudiyyə Ərəbistanında (noyabr, 2007) və İ.Nəsimi ilə bağlı Beynəlxalq konfransda Suriyada (noyabr, 2008) olub.

İctimai işlərdə fəal iştirak etmişdir: Ali Təhsil Nazirliyinin nəzdində Qərbi Avropa dilləri üzrə Elmi-Metodik Şuranın Elmi katibi (1976–1982), Azərbaycan–İraq Dostluq Cəmiyyətinin sədr müavini olmuş (1990–2003), 1995-ci ildən

Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının üzvüdür. 1997–2006-cı illər arası və 2011-ci ildən yenidən həmin şuranın həmsədridir. Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın yarandığı 1997-ci ildən bu günə kimi onun üzvüdür. 2004-cü ildən Yazıçılar Birliyinin Təftiş Komissiyasının sədridir.

Bir çox xarici ölkələrdə: ABŞ (iyun-avqust, 1983) və İngiltərədə (iyun-iyul, 1988) ixtisasartırma kurslarında olub. İraq Respublikasında tərcüməçi işləyib (1962–1966, 1972–1975). Türkiyə, Səudiyyə Ərəbistanı, Suriya və keçmiş Sovetlər Birliyi ölkələrindən Rusiya Federasiyasında, Özbəkistan və Qazaxıstanda elmi konfranslarda məruzə edib. Turist kimi Yunanıstan, İordaniya, Çexoslovakiya, Avstriya, Almaniya, Misir, Ərəb əmirlikləri və İranda olub.

İraq Respublikasının «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif edilib (1976).

SSRİ Nazirlər Sovetinin, SSRİ Ali Təhsil Nazirliyinin, Azərbaycan Ali Təhsil Nazirliyinin Fəxri fərmanları ilə təltif olunub. Eləcə də Kərkük Vəqfinin (1999) və İraq–Türkman Cəbhəsinin (2003) yüksək diplom və ödüllərinə layiq görülüb.

Bir çox doktorluq və namizədlik dissertasiyaları üzrə opponent, eləcə də kitabların redaktoru olub. Aspirantlara rəhbərlik edib. ABŞ, Türkiyə və İraqda ingilis, türk və ərəb dillərində, məqalələri dərc edilib. «Ədəbiyyat» və «Kredo» qəzetlərinin, «Folklor və etnoqrafiya», «Yada düşdü», «Folklorşünaslıq məsələləri», «Filologiya məsələləri» və «Kəlam» dərgilərinin redaksiya heyətinin üzvüdür.

Yaradıcılığına xaricdə və Azərbaycanda bir çox görkəmli alimlər, yazıçı, şair və publisistlər məqalələr həsr ediblər. Müəllifin özü görkəmli Azərbaycan, türk, İraq, fransız, ingilis və amerikan yazıçı və şairlərinə, elm adamlarına çoxsaylı

məqalələr həsr etmişdir. Maraq doğuran cəhət bir də ondan ibarətdir ki, bu məqalələr Azərbaycan, türk, ingilis, ərəb, rus dillərində Azərbaycan, Türkiyə, İraq və ABŞ-da çap olunmuşdur.

Müəllifin çap olunmuş əsərləri

1. Rusca-ərəbcə danışıq kitabı. Bağdad, 1974, 98 səh., 3.000 nüsxə.
2. İngiltərə haqqında (ingiliscə ölkəşünaslıq fənni üzrə dərs vəsaiti). Bakı, APİ nəşr, 1982, 128 səh., 1.500 nüsxə.
3. Altı il Dəclə–Fərat sahillərində. Bakı, «Yazıçı» nəşr., 1985, 224 səh., 10.000 nüsxə, təkrar nəşr 1987, 230 səh., 120.000 nüsxə. Altı il Dəclə–Fərat sahillərində (ərəbcə), Bağdad, 1996, 128 səh.
4. İraq–türkman folkloru (monoqrafiya). Bakı, «Yazıçı», 1992, 216 səh., 5000 nüsxə. İraq–türkman folkloru. Bağdad, 1995, 160 səh.
5. Kərkük dialektinin fonetikası (monoqrafiya). Bakı, «Elm», 2003, 212 səh., 500 nüsxə.
6. İraq–türkman folklorunun janrlar sistemi (rusca monoqrafiya). «Bakınəşr», 2003, 128 səh., 500 nüsxə.
7. Kərkük folklorunun janrları (monoqrafiya). Bakı, «Elm», 2003, 318 səh., 500 nüsxə. İraq–türkman folkloru. İstanbul, 1998, 320 səh., 3000 nüsxə. İraq–türkman folklorunun janrları. Tehran, «ALP» yayın, 2008, 313 səh., 3000 nüsxə.
8. İraq–türkman ləhcəsi. Monoqrafiya (ortaqlı), Bakı, «Elm», 2004, 422 səh., 500 nüsxə.
9. Nostradamusun möcüzəli aləmi. Bakı, «Təhsil», 2007, 760 səh., 3000 nüsxə, təkrar nəşr, 2011, 3.000 nüsxə.

10. Nəsimi haqqında araşdırmalar (monoqrafiya). Bakı, «Qarabağ» nəşr, 2010, 168 səh., 400 nüsxə. Nəsimi haqqında araşdırmalar. Tehran, «Hərimi-elm», 2011, 168 səh., 300 nüsxə.
11. Ədəbiyyatşünaslıq elmimizin patriarxı. Bakı, «Ozan», 2010, 104 səh., 250 nüsxə.
12. Borcumuzdur bu ehtiram. Bakı, «Ozan», 2010, 200 səh., 300 nüsxə, təkmilləşdirilmiş 2-ci nəşri, 2010, 240 səh. 300 nüsxə.
13. Dilimiz – varlığımız. Bakı, «Ozan», 2011, 208 səh., 250 nüsxə.

Müəllifin tərtib etdiyi kitabların göstəricisi

1. Kərkük bayatıları. Bakı, «Azərnəşr», 1968, (Rəsul Rza ilə birgə), 184 s., 18.000 nüsxə.
2. Arzu–Qəmbər dastanı. Bakı, «Gənclik», 1971, 32 s., 5.000 nüsxə.
3. Kərkük mahnıları. Bakı, «Gənclik», 1973, 48 s., 10.000 nüsxə.
4. İraq–Kərkük atalar sözləri. Bakı, «Azərnəşr», 1978, 76 s., 25.000 nüsxə.
5. İraq–Kərkük bayatıları. Bakı, «Yazıçı», 1984, 352 s., 30.000 nüsxə.
6. Kərkük tapmacaları. Bakı, «Gənclik», 1984, 38 s., 5.000 nüsxə.
7. Nəsiminin İraq Divanı. Bakı, «Yazıçı», 1987, 337 s., 15.000 nüsxə.
8. Kərkük folkloru antologiyası. Bakı, «Azərnəşr», 368 s., 40.000 nüsxə, təkrar nəşr, 1990, 368 s., 40.000 nüsxə.

9. Göylər unutmuşdu yağacağını (Ə.Bəndəroğlunun şeirləri və poemaları). Bakı, «Yazıçı», 1991, 126 s., 5.000 nüsxə.
10. Azərbaycan folkloru antologiyası. İraq–türkman cildi (Ə.Bəndəroğlu ilə birgə). Bakı, «Ağrıdağ», 1999, 468 s., 1.000 nüsxə, təkrar nəşr «Nurlan», 2009, 436 s., 500 nüsxə.
11. Çağdaş İraq şeirindən seçmələr (Ə.Bəndəroğlu ilə birgə). Bakı, «Elm», 2001, 108 səh., 500 nüsxə.
12. Yolun sonunadək (Ə.Bəndəroğlunun şeirlər toplusu). Bakı, «Elm», 2001, 62 s., 300 nüsxə.
13. Hüseyn Arif –80. Portret kitab. «Bakınəşr», 2004, 64 s., 400 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
14. İsi Məlikzadə–70. Portret kitab. «Bakınəşr», 2004, 32 s., 150 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
15. Tofiq Bayram–70. Portret kitab. «Bakınəşr», 2005, 72 s., 150 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
16. Əlibala Hacızadə–70. Portret kitab. «Bakınəşr», 2005, 72 s., 400 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
17. Fikrət Qoca–70. Portret kitab. «Bakınəşr», 2005, 82 s., 300 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
18. Bəkir Nəbiyev–75. Portret kitab. «Bakınəşr», 2005, 68 s., 400 nüsxə (Gülzar İbrahim qızı ilə birgə).
19. Ağlayan çox, gülən hanı? (Rəsul Rzanın şeirlər toplusu), Kərkük, «Arabka» basım evi, 2007, 182 s., 500 nüsxə.
20. «Mahmud və Məryəm». «Elçinin sənət dünyası» adlı giriş məqaləmlə. Kərkük, «Yurd» yayımlarından, 2007, 215 s., 500 nüsxə (Ə.Bəndəroğlu ilə birgə).
21. Qoca Azaflıyam (Azaflı Mikayılın şeirlər toplusu). Bakı, «Nurlan», 2008, 760 s., 1000 nüsxə (Maral Azaflı ilə birgə), təkrar nəşr, 2011, 500 nüsxə.

Tərcümələri

1. Aleksandr Düma. Qafqaz səfəri (ingilis və fransız dillərindən tərcümə. Bakı, «Yazıçı», 1985, 140 s., 40.000 nüsxə (Həmid Abbasovla birgə).
2. Sula Benet. Necə yaşayasan yüzü haqlayasan. Bakı, «Yazıçı», 1989, 212 s., 25.000 nüsxə (ingilis dilindən tərcümə).
3. Aqata Kristi. Mavi qatarın sirri. Bakı, «Sabah» nəşriyyatı, 1995, 248 s., 2.500 nüsxə (ingilis dilindən tərcümə).
4. Prof. İrəc Parsinecad. M.F.Axundzadənin ədəbi-tənqidi (ingilis dilindən tərcümə). «Ədəbiyyat qəzeti», 23.12.1994, 6.01.1995, 13.01.1995.

Müəllif haqqında əsərlər

Q.Paşayevin həyat və fəaliyyətindən bəhs edən «Bu sevda ölüncədi» (Bakı, «Oskar», 2001, 1000 nüsxə), «İraq bizə iraq deyil» («Bakınəşr», 2002, 64 s., 1000 nüsxə) kitabları, Hüseyn Kürdoğlunun «Tovuzum mənim, oğuzum mənim» (Bakı, «Elm», 1998, 108 s., 1000 nüsxə) poeması çap olunmuşdur.

PROFESSOR QƏZƏNFƏR PAŞAYEVİN ÇAP ETDİRDİYİ ƏSƏRLƏRİN ÜZ QABIĞI TARİXİ ARDICILLIQLA TƏQDİM OLUNUR



Сказы Гамбар

Каркук маҡамдары


РАЗГОВОРНИК
РУССКО
АРАБСКИЙ

ИРАГ-
КӘРКУК
АТАЛАР
СӨЗЛӘРИ

Qazanfar Pashayev
ALL ABOUT ENGLAND

КӘРКУК ТАПМАЧАЛАРЫ

Цраг-
Кәркүк
бәјатылары

АЛЕКСАНДР ДУМА
Гафгаз
сәфәри

Имадәддин
НӘСИМИ
Ираг диваны

Кәркүк
фолклору
антолокијасы

Сулә Бәнөк
Нечә јашајасан
јүзү ҳаглајасан

КӨЈЛӘР
УНУТМУШДУ
ЈАҒАМАҒЫНЫ
ӘБДҮЛЛӘТИФ
БӘНДӘРОҒЛУ


ГӘЗӘНФӘР
ПАШАЕВ
ИРАК-ТҮРКМӘН
ФОЛКЛОРУ

عراق
تورکمان
فولکلورو
پروفیسور دوکتور
غضنفر پاشایف
حاضرلایان وئون سوز
دوکتور عبد اللطیف بدر اوغلو

Агата
Кристи
МАВИ
ГАТАРЫН
СИРРИ

من ادب الرحلات
ست سنوات
على ضفاف دجلة والفرات
البروفيسور غضنفر پاشايف
ترجمة
الدكتور عبداللطيف بندر اوغلو

Prof. Dr.
Gazenfer
Paşayev
IRAK
TÜRKMEN
FOLKLORU
Kerkük Vakfı

Азәрбајҹан
ФОЛКЛОРУ
АНТОЛОКИЈАСЫ
II
ИРАГ – ТҮРКМАН
ЧИЛДИ
БАКЫ – 1999


ÇAĞDAŞ
İRAQ
ŞERİNDƏN
SEÇMƏLƏR


Bu sevda
ölüncədi

ГАЗАНФАР ПАШАЕВ
ЖАНРОВЫЙ СОСТАВ ИРАКСКО - ТЮРКМАНСКОГО
ФОЛЬКЛОРА

Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI

QƏZƏNFƏR PAŞAYEV
KƏRKÜK
DİALEKTİNİN
FONETİKASI

İRAQ-TÜRKMAN
LƏHCƏSİ


HÜSEYN
ARİF
80


İSİ MƏLİKZADƏ
70


AKADEMİK
BƏKİR
NƏBİYEV
75


TOFİQ
BAYRAM
70


70
FİKRƏT QOCA
AYB


ƏLİBALA HACIZADƏ
70
AMEA


QƏZƏNFƏR PAŞAYEV
NOSTRADAMUSUN
MÖCÜZƏLİ ALƏMİ

QOCA AZAFLIYAM...


RƏSUL RZA
AĞLAYAN ÇOX,
GÜLƏN HANI?

MAHMUT
VƏ
MƏRYƏM
ELÇİN
Yurt


Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI
Tehran 2008

Qəzənfər
Paşayev
Nəsimi
haqqında
araşdırmalar

Qəzənfər Paşayev
Borcumuzdur
bu ehtiram


QƏZƏNFƏR
PAŞAYEV
ƏDƏBİYYATŞÜNASLIQ
ELMİMİZİN PATRİARXI

Qəzənfər Paşayev
DİLİMİZ -
VARLIĞIMIZ


نسیمی حاققیندا آراشدیرمالار
قضنفر پاشایئو

MÜNDƏRİCAT

DEYİLƏN SÖZ YADİGARDIR

Deyilən söz yadigardır.....7
Könüldən-könülə yollar görünür 10
Azərbaycan radiosunun «Qitədən-qitəyə» adlı
verilişində çıxışım 20
20 Mart 1983-cü ildə televiziya ilə «Ozan»
verilişindəki çıxışımın mətni.....25
Televiziya ilə 1983-cü il sentyabrın 24-də olan çıxışım.....30
El sənətkarı–Mikayıl Azaflı haqqında çıxışım 34
Oksford, 16 iyul 1988-ci il saat 15^{00}.....46
Xoş məramla, saf niyyətlə.....48
Manaf Süleymanov–90 51
Prokuror Arif Babayevin xatirəsinə
həsr olunmuş verilişdə çıxışım.....53
Əli İldırımoğlu 56
«ANS» telekanalında çıxışım 59
Sarabski adına Mədəniyyət Sarayında «Vətən həsrəti»
kitabının təqdimat mərasimində çıxışım.....62
Muğam Teatrında Xeyrəddin Qocanın
yubileyində çıxışım 64
Pedaqoji Universitetdə prof. Xeyrulla Məmmədovun
«XIX əsr Azərbaycan ədəbiyyatı» monoqrafiyasının
təqdimat mərasimində çıxışım 66
Yazıçılar Birliyində Ramiz Əsgərin tərcüməsində
Mahmud Kaşqarlının «Divanü-Lüğət-it-Türk»
əsərinin təqdimat mərasimində çıxışım.....68
«Space»in 10 illiyi münasibətilə çıxışım 70

Akademik Bəkir Nəbiyevin dövlət televiziyasında
«Səhər»də çıxışı zamanı telefon zəngim 71
«Lider» TV-də gənc aşıqların ilk
müsabiqəsində çıxışım 73
Azərbaycan mədəniyyət günlərində Səudiyyə
Ərəbistanında, Kral Feysəl adına xeyriyyə fondunda
yazıçı və şairlərin, ictimai xadimlərin qarşısında çıxışım 76
«Az.TV»də çıxışım. Görücülük və görücülər barədə 79
Akademik Budaq Budaqov «Şənbə qonağı» olarkən 82
Az.TV-də «Şənbə qonağı» olduğum vaxt çıxışım 84
Milli Elmlər Akademiyasında
Yaşar Qarayev haqqında çıxışım 89
Az.TV-də «Şənbə qonağı» olan Nəriman Həsənzadə
barədə telefon bağlantısında dediklərim: 92
Atatürk mərkəzi prof. Elman Quliyevin
«Türk xalqları ədəbiyyatı» kitabının
təqdimatında çıxışım 94
«İTV»nin radiosunda çıxışım 96
Yazıçılar Birliyində M.Seyidzadənin
«Bulud ağlamaz» kitabının təqdimatında çıxışım 100
Aşıq Hüseyn Bozalqanlının kitabının təqdimatında
aparıcı kimi sazlı-sözlü gecədə çıxışım.
Musiqili Komediya Teatrı 102
«Lider» TV «İncilər» verilişi, telefon bağlantısı.....105
Yazıçılar Birliyində Nahid Hacızadənin
«Yada düşdü» əsərinin təqdimat mərasimində
tədbirin aparıcısı kimi çıxışım.....107
Prof. Camal Mustafayevin haqqında
Musiqili Komediya Teatrında keçirilən gecədə
«Dədə Camal» kitabının təqdimat
mərasimində çıxışım 109

«Space»də «Mədəniyyət saatı» proqramının
100-cü verilişi ilə əlaqədar çıxışım 112
«İTV»nin radiosunda Ulu Öndərimizə
həsr olunan bir saatlıq verilişdə söylədiklərim.....114
Nizami adına Ədəbiyyat İnstitutunda
Mehdi Hüseynin 100 illiyinə həsr olunmuş
yığıncaqda çıxışım 117
«İTV»də canlı yayında – «Avaz»da çıxışım 119
Üzeyir Hacıbəylinin ev muzeyində 121
İlyas Tapdıq – 75 «Space»də çıxışım.....124
Tovuz rayonunda, Heydər Əliyev Muzeyində
polkovnik Eldar Qasımovun anadan olmasının
70 illiyi münasibətilə keçirilən yığıncaqda çıxışım 126
Cəfər Cabbarlının ev muzeyində Asif Rüstəmlinin
«Cəfər Cabbarlı: həyatı və mühiti» kitabının
təqdimat mərasimində çıxışım 129
Rəşid Behbudov adına Mahnı Teatrında
Səməndər Rzayevin 65 illik yubileyində çıxışım.....131
Aşıq Nəcəf Əlimərdanlının 110 illik yubileyində çıxışım.
Gənc Tamaşaçılar Teatrı.....133
«Musiqi sərvətimiz» verilişində çıxışım.....135
«Ovqat» verilişində çıxışım.....138
«Az.TV»də professor Abbas Zamanova həsr olunmuş
verilişdə çıxışım.....143
Novruz bayramı münasibətilə 146
Yazıçılar Birliyində Musa Urudun kitablarının
təqdimatında çıxışım 149
Az.TV-də «İntellekt» verilişində çıxışım.....151
«Musiqi irsimiz» verilişinin Üzeyir Hacıbəyliyə
həsr olunmuş xüsusi buraxılışında çıxışım 153

«Ozan» verilişinin Zəlimxan Yaquba həsr olunmuş
sayında çıxışım 155
Bakı Dövlət Universitetində AMEA-nın müxbir üzvü,
professor Abbas Zamanovun anadan olmasının
100 illiyinə həsr olunmuş yığıncaqda çıxışım 159

MƏKTUBLAR.
TARİXƏ ÇEVRİLƏN YADDAŞ

Dümanın Bakıdan məktubu 163
«Ədəbiyyat qəzeti» redaksiyasına məktub.....167
Əzizim Sədnik müəllim! 169
Azerbaycan'dan gelen dost sesi.....172
Hörmətli Elçin müəllim! 174
Azərbaycan Respublikası Mədəniyyət və
Turizm naziri cənab Ə.Qarayevə 176
Ustada məktub 179
«Kredo» qəzetinin baş redaktoru
Əli Rza Xələfliyə 183
Müşfiq, salam! 186
Hörmətli Səkinə xanım! 187
Gecikmiş məktub.....188
Qafqaz Müsəlmanları İdarəsinin sədri
Şeyxülislam Hacı Allahşükür Paşazadəyə 190
«Azərbaycan» jurnalının baş redaktoru
İntiqam Qasımzadəyə 191
«Ədəbiyyat qəzetinə».....192
Yazıçı Salatın Əhmədliyə 193
Akademik İsa Həbibbəyliyə.....195
«Muğamlı dünyam»ın müəllifi İnqilab Nadirliyə məktub....198
Professor Ağaverdi Paşayevə məktub.....201

Hörmətli Bəkir müəllim! 203
Əziz qardaşım Sübhi! 204
Əzizim Sabir müəllim! 208
Professor Vilayət Quliyevə açıq məktub 209
Hörmətli Miriş müəllim! 212

HƏQİQƏTİN ÖZÜ
(Müsahibələr)

Azərbaycandakı kərkük 215
Ürəyinin qanı ilə... 220
Azadlığımızın təməli qoyulan gün 232
Dili bütün xalq qorumalıdır 236
«Mənim iki vətənim yox, ikinci vətənim var» 240
Mənə çox yüksək vəzifələr təklif olunub 246
Bu sevda bitən deyil 259
İraqdakı 2,5 milyon azəri türkü 264
Bir bütövün parçaları 267
Füzulinin qəbri köçürülməyəcək 274
«Türkmənbaşı Füzulinin nəşini kimdən istəyəcək?» 278
Nəsimi kafir deyildi 286
«İnsan bir gün işləməsə qocalar...» 291
Tarix xalqın qəhrəmanlarını və yaradıcı adamlarını
əbədi yaşadır 297
Hər bir xalqın azadlığı hər halda ona verilməlidir 301
Azərbaycanın güneyi, quzeyi və İraq türkmanları
bir bütövün parçalarıdır 306
«Nostradamusun Qarabağ münaqişəsi ilə
bağlı iki katreni var» 311
70 il Dəclə-Fərat sahillərində 317
Tanınmış alimlə səmimi söhbət 324

ELMİMİZƏ TƏMƏNNASIZ XİDMƏT

DOKTORLUQ VƏ NAMİZƏDLİK DİSSERTASİYALARINA RƏSMİ OPPONENT RƏYLƏRİM

Ədəbiyyatşünaslıq və folklorşünaslıq elmimizin inkişafı yolunda gördüyüm işlər.....333
Ülkər Azad qızı Nəbiyevanın «Kitabi-Dədə Qorqud və folklor ənənələri» adlı namizədlik dissertasiyasına rəy.....334
Müşfiq Tofiq oğlu Babayevin «Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə» adlı namizədlik dissertasiyasına rəy.....336
Səkinə Allahverdi qızı Qaybalıyevanın filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi «Əbdüllətif Bəndəroğlunun ədəbi-elmi fəaliyyəti» (10.01.01; 10.01.02) adlı dissertasiya işinə rəy.....338

Doktorluq dissertasiyalarına verdiyim rəsmi opponent rəyləri

Füzuli Xeyrulla oğlu Gözəlovun «Oğuz dastanı: tarixi mifoloji kökləri, təşəkkülü, spesifikası» adlı doktorluq dissertasiyasına rəy.....340
Hüseyn Ələsgər oğlu İsmayılovun «Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları» adlı doktorluq dissertasiyasına rəy.....346
Jalə Fazil qızı Əliyevanın filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Çağdaş türk şeirinin poetikası» adlı tədqiqat işinə rəy.....354

Nəsir Abbas oğlu Əhmədlinin «Azərbaycan beynəlxalq radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə» adlı doktorluq dissertasiyasına rəy 366
Muxtar Kazım oğlu İmanovun «Azərbaycan folklorunda gülüşün genezisi və poetikası» adlı doktorluq dissertasiyasına rəy 374
Yusif Səfər oğlu Səfərovun «Azərbaycan folklorunda tarixilik və etnik poetik yaddaş» (Folklor qaynaqları və Naxçıvan regionundan toplanmış nümunələr əsasında) adlı doktorluq dissertasiyasına rəy 379
Flora David qızı Əlimirzəyevanın «Kitabi-Dədə Qorqud» dastanlarının alman dilinə tərcüməsi və tədqiqi» adlı doktorluq dissertasiyasına rəy 387
Filologiya elmləri namizədi, dosent Mahmud Qara oğlu Allahmanovun «Aşıq yaradıcılığının inkişaf mərhələləri» adlı doktorluq dissertasiyasına rəy 395
Aybəniz İbrahim qızı Əliyeva – Kəngərlinin filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Azərbaycan folklor kitabı: qaynaqları, təşəkkülü və inkişaf mərhələləri» adlı dissertasiya işinə rəy.....402
Solmaz Səttar qızı Məhərrəmovanın XIX–XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq rayonlarının tarixi-etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında)» mövzusunda doktorluq dissertasiyası işinə rəsmi opponent rəyi 408

Namizədlik dissertasiyalarına verdiyim rəsmi opponent rəyləri

Musayeva Sevinc Qüdrət qızının «Azərbaycan–Türkmən folklor əlaqələri» (Uşaq folkloru materialı əsasında) mövzusuna həsr olunmuş namizədlik dissertasiyasına rəy...413
Kəmalə Faiq qızı İslamzadənin «Azərbaycan folklorunda cəngavər qadın obrazı» mövzusunda namizədlik dissertasiyasına rəy 420
Nəzakət Hüseyn qızı Hüseynovanın «Qədim türk qəhrəmanlıq dastanlarının tipologiyası («Ural Batır» əsasında)» adlı namizədlik dissertasiyasına rəy.....427
Əli Lazım oğlu Allahverdiyevin «Kitabi-Dədə Qorqud» Fransada» adlı namizədlik dissertasiyasına rəy 433
Fəzail Cəfər oğlu Orucovun «Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları» adlı namizədlik dissertasiyasına rəy.....439
Afaq Xürrəm qızı Ramazanovanın «Azərbaycan folklorunda qadın (ana) yaradıcılığı və onun poetikası» adlı namizədlik dissertasiyasına rəy.....446
Gülxani Vaqif qızı Şükürovanın «İlyas Əfəndiyev yaradıcılığında folklor motivləri» adlı namizədlik dissertasiyasına rəy.....452
İslam Hüseyn oğlu Sadıqovun «Azərbaycan folklorunda «Koroğlu» poetik ənənəsi» adlı namizədlik dissertasiyasına rəy.....458
Vəfa Muradxan qızı İbrahimovanın «Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi və tərcümə məsələləri» adlı namizədlik dissertasiyasına rəy 465
Samirə Mustafa qızı Əliyevanın «Azərbaycan məhəbbət dastanlarında mənəvi-əxlaqi təkamül ideyası» adlı namizədlik dissertasiyasına rəy.....471

Samir Elman oğlu Mustafayevin «Azərbaycan folkloru və milli düşüncə sistemi» adlı namizədlik dissertasiyasına rəy.....476
Maqsud Rafiq oğlu İmraninin filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Smompk məcmuəsində paremioloji vahidlər» adlı dissertasiya işinə rəy.....484
Ülkər İman qızı Əliyevanın filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi «Azərbaycan yurd bilgisi» dərgisində folklorşünaslıq məsələləri» adlı dissertasiya işinə rəy.....488
Səbinə Müzəffər qızı İsayevanın filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi «Aşıq Şəmşirin yaradıcılığı» adlı dissertasiya işinə rəsmi opponent rəyi.....494
Tariyel Seyfəddin oğlu Qəninin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi «XIX əsrin sonu – XX əsrin birinci yarısı Şirvan xalq poeziyasının inkişaf təmayülləri» adlı dissertasiya işinə rəsmi opponent rəyi.....499
Samirə Zəmirxan qızı Əliyevanın «Aşıq sənətində teatrallıq və onun təzahür formaları» adlı sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinə rəsmi opponent rəyi.....503

Doktorluq və namizədlik dissertasiyalarına avtoreferat əsasında verdiyim rəsmi rəylər

Elçin İlyas oğlu Əfəndiyevin filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Ədəbiyyatda tarix və müasirlik problemi» adlı elmi məruzəsinə rəy.....509

Aqşin Əlisəttar oğlu Babayevin müdafiəyə
təqdim etdiyi «Cümhuriyyət dövrü türk dramaturgiyasının
yaradıcılıq problemləri (1923–1988. sosial motivlər)»
adlı doktorluq dissertasiyası barədə rəy.....512
Namiq Ağaməli oğlu Həsənovun «Ceyms Oldric və
Şərq» adlı namizədlik dissertasiyasına rəy.....514
Vilayət Cəfərovun «İraqda neoklassik poeziya»
mövzusunda doktorluq dissertasiyasına rəy.....516
Esmira Bayram qızı Əhmədovanın «Xarici
mənbələrdəki (Qafqazşünasların əsərlərində)
Azərbaycan toponimlərinin linqvistik təhlili
(XIX–XX yüzilliklər)» adlı namizədlik dissertasiyasına
(avtoreferat əsasında) rəy.....519
Şəhla Bədir qızı Nağıyevanın «Müasir Azərbaycan
poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin
saxlanması» adlı namizədlik dissertasiyasına rəy.....521
Əsgər Hüseyn oğlu Əliyevin «XIX əsrin sonu
XX əsrin əvvəllərində Azərbaycan–Fransa ədəbi əlaqələri
(Məhəmməd ağa Şaxtaxtinski yaradıcılığında)» adlı
namizədlik dissertasiyasının avtoreferatına rəy.....523
Abbasov Tariyel Allahverdi oğlunun filologiya
elmləri namizədi alimlik dərəcəsi almaq üçün
təqdim olunmuş «Qurbaninin poetik irsi»
namizədlik dissertasiyasına rəy.....525
Adil Savalan oğlu Cəmilovun (Adil Cəmil)
«Manas eposu və türk dastançılıq ənənəsi» mövzusunda
yazdığı namizədlik dissertasiyası işinə rəy.....528
İlqar Cəmil oğlu İmamverdiyevin «Azərbaycan və
İran türklərinin aşıq-ifaçılıq sənətinin qarşılıqlı
əlaqələri» mövzusunda doktorluq dissertasiyasının
avtoreferatına rəy.....533

Əhliman Rəhim oğlu Rəhimovun sənətşünaslıq üzrə
fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi
«XX əsrin II yarısında Şirvan aşıq mühitində ifaçılıq
sənətkarlığı» adlı dissertasiya işinin avtoreferatına rəy.....535
Salatın Alı qızı Əhmədovanın filologiya üzrə
fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi
«Heydər Əliyev və dil siyasəti» adlı dissertasiya
işinin avtoreferatına rəy.....537
Asif Heydər oğlu Rüstəmlinin «Cəfər Cabbarlı və
ədəbi-mədəni mühit» adlı doktorluq dissertasiyasının
avtoreferatına rəy.....539

MƏQALƏLƏR

Gör ürəyim nə deyir *(Zəlimxan Yaqubu düşünərkən)*.....543
Ozan – aşıq sənətinin memarlarından biri 552
Qoy ölüm sevinməsin.....559
Elçinin folklor dünyasına bir baxış.....563

MÜƏLLİF HAQQINDA

Müəllif haqqında 593
Müəllifin çap olunmuş əsərləri 597
Müəllifin tərtib etdiyi kitabların göstəricisi 598
Tərcümələri 600
Müəllif haqqında əsərlər.....600
Professor Qəzənfər Paşayevin çap etdirdiyi əsərlərin
üz qabığı tarixi ardıcıllıqla təqdim olunur.....601

Qəzənfər Paşayev

SEÇİLMİŞ ƏSƏRLƏRİ
V CİLD

Bakı, «Təhsil», 2012.

Bədii və texniki redaktoru: ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçıları: ***Səbinə Məmmədova, Aqil Əmrahov***
Korrektorları: ***Ülkər Şahmuradova, Natəvan Məmmədova***

Çapa imzalanmışdır 14.02.2012. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 39,0.
Sifariş 120. Tiraj 300.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121^{A}
Tel.: (+994 12) 567-81-28/29;
Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com